

**Vasif Həzərxan oğlu SƏMƏDOV** Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmişdir. Müxtəlif illərdə Azərbaycan Dövlət Televiziya və Radio verilişləri Komitəsində redaktor, "Kommunist" qəzetində müxbir, Rusiyanın nüfuzlu və populyar mətbuat orqanlarında - "İzvestiya" qəzetinin Azərbaycan Respublikası üzrə xüsusi müxbiri, "Literaturnaya qazeta"nın, "Energiya Vostoka" və "Oqonyok" jurnallarının Mərkəzi və Qərbi Asiya ölkələri üzrə müxbirlər bürosunun müdiri vəzifələrində işləyərək ölkəmizin informasiya blokadasından çıxarılmasında müstəsna xidmətləri olmuş və hazırda bu sahədə jurnalistlik fəaliyyətini davam etdirir.

Respublikanın Əməkdar jurnalistidir. Azərbaycan Jurnalistlər Birliyinin "Qızıl qələm", H.B.Zərdabi adına mükafatları ilə təltif edilmiş, "Araz", "Azərbaycan Bayrağı" Ali ədəbi və jurnalistika üzrə bir sıra Beynəlxalq müsabiqələrin mükafatları laureatıdır. Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin, Beynəlxalq Jurnalistlər Konfederasiyasının üzvüdür.

Jurnalist kadrlarının hazırlanmasında Bakı Avroasiya Universitetinin professoru kimi pedaqoji fəaliyyətlə də məşğuldur. Bir neçə publisistik və dərs vəsaiti kitablarının müəllifidir. Ailəlidir.



**Rövşən Novruz oğlu VƏLİZADƏ** uzun müddət dövlət qurumlarında və xüsusi xidmət orqanlarında işləmişdir. Siyasi elmlər üzrə fəlsəfə doktoru, professor R.Vəlizadə AMEA-nın İnsan Hüquqları İnstitutunun əməkdaşıdır. 24 kitabın müəllifidir. Bir neçə kitabı müxtəlif xalqların dillərinə tərcümə olunub nəşr edilmişdir.

Dağlıq Qarabağ mövzusunda «Qarabağ: Nəzarətsiz zona», «Qarabağ: terror edilmiş torpaq», «Genosid», «Erməni terroru və çirkli pullar», «Genosid, Ekosid», korrupsiya mövzusunda isə «Narkokorrupsiya», «Çirkli pulların yuyulması», «Korrupsiya, narkotika, terror», «İqtisadi kəşfiyyatda informasiya», «Bank təhlükəsizliyi və çirkli pulların anatomiyası» kitablarının müəllifidir.

O, Kanada, ABŞ və İtaliya universitetlərində fəaliyyət göstərən Strateji Araşdırmalar Mərkəzlərinin həmsədridir.

Əfqanıstan və Qarabağ müharibələrinin iştirakçısıdır. Azərbaycan Jurnalistlər və Yazıçılar Birliklərinin üzvüdür. Jurnalistika sahəsində fəaliyyətinə görə AJB-nin «Qızıl qələm» mükafatına layiq görülmüş, elmi tədqiqat əsərlərinə görə isə bir sıra müxtəlif mükafatların laureatıdır. Ailəlidir.

VASİF SƏMƏDOV
RÖVŞƏN VƏLİZADƏ

LEYLA ƏLİYEVA: «XOCALIYA ƏDALƏT!»
(BEYNƏLXALQ ERMƏNİ TERRORUNA QARŞI YENİ STRATEJİ MODEL)

II CİLD

VASİF SƏMƏDOV
RÖVŞƏN VƏLİZADƏ




LEYLA ƏLİYEVA:

# «XOCALIYA ƏDALƏT!»

## (BEYNƏLXALQ ERMƏNİ TERRORUNA QARŞI YENİ STRATEJİ MODEL)

II CİLD

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ İNSAN HÜQUQLARI İNSTİTUTU

"XOCALIYA ƏDALƏT!" BEYNƏLXALQ TƏBLİĞAT VƏ MƏLUMATLANDIRMA KAMPANİYASI

«KASPİAN İZVESTİYA» BEYNƏLXALQ İNFORMASİYA AGENTLİYİ

---

VASİF SƏMƏDOV

RÖVŞƏN VƏLİZADƏ

# LEYLA ƏLİYEVA: "XOCALIYA ƏDALƏT!"

## (BEYNƏLXALQ ERMƏNİ TERRORUNA QARŞI YENİ STRATEJİ MODEL)

ÜÇ CİLDDƏ

## II CİLD

Bakı – 2014

Araşdırmaya xüsusi rəy və ön sözün müəllifi:
**Rafael HÜSEYNOV**
**Azərbaycan Respublikası Milli Məclisinin deputatı, AŞPA-dakı Azərbaycan nümayəndə heyətinin üzvü, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor**

Baş elmi məsləhətçi:
**Aytən MUSTAFAYEVA**
**Azərbaycan Respublikası Milli Məclisinin deputatı, AMEA-nın İnsan Hüquqları İnstitutunun direktoru, hüquq üzrə fəlsəfə doktoru, professor**

Elmi redaktorlar:
**İbrahim QULİYEV**
**Milli Aviasiya Akademiyasının Hüquqşünaslıq kafedrasının müdiri, hüquq elmləri doktoru, professor**
**Cəbi BƏHRAMOV**
**AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun elmi işlər üzrə direktor müavini, tarix üzrə fəlsəfə doktoru, professor**

Elmi məsləhətçilər:
**Ziyafət ƏSGƏROV**
**Azərbaycan Respublikası Milli Məclisinin deputatı, hüquq üzrə fəlsəfə doktoru, professor**
**Nazim HÜSEYNLİ**
**Bakı Avrasiya Universitetinin rektoru, fəlsəfə elmləri doktoru, professor**
**Namiq AXUNDOV**
**Azərbaycan Respublikası Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyasının magistratura şöbəsinin dekanı, tarix elmləri doktoru, professor**
**İlkin CAMALOV**
**Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətinin böyük məsləhətçisi, hüquq üzrə fəlsəfə doktoru**

Redaktorlar:
**İradə MƏMMƏDOVA**
**"Kaspian İzvestiya" Beynəlxalq İnformasiya Agentliyinin prezidenti**

**Səbinə SADIXQIZI**
**"Kaspian İzvestiya" Beynəlxalq İnformasiya Agentliyinin vitse-prezidenti**

**Vasif Səmədov, Rövşən Vəlizadə**

**Leyla Əliyeva: "Xocalıya Ədalət!"** *(Beynəlxalq erməni terroruna qarşı yeni strateji model).* Üç cilddə. II cild. Bakı.2014. 376 səh., şəkilli.

Üç cildlik bu kitabda beynəlxalq terrorun bir qolu olan erməni terrorçularının müxtəlif tarixi dövrlərdə Azərbaycan torpaqlarında, xüsusilə ötən əsrin son illərində Ermənistan və onların havadarlarının köməyilə işğal olunmuş Dağlıq Qarabağ ərazisində, o cümlədən, Xocalı yaşayış məntəqəsində törətdikləri kütləvi qırğınlardan, vəhşiliklərdən, soyqırımdan bəhs edilir. Kitabda Heydər Əliyev Fondunun vitse-prezidenti, Fondun RF-dakı Nümayəndəliyinin rəhbəri Leyla Əliyevanın «Xocalıya Ədalət!» kampaniyası çərçivəsində beynəlxalq aləmdə həyata keçirilən təqdirəlayiq tədbirlərdən söhbət açılır. Zəngin fakt və sənədlərlə, sübutlarla əhatələnmiş bu kitab dünyada terrora və zülmə, işgəncəyə və amansız qətliamlara qarşı mübarizədə tarixi həqiqətlərin önəmli bir toplusu kimi oxucuların diqqət mərkəzində olacaqdır.

**Monoqrafiya AMEA-nın İnsan Hüquqları İnstitutunun Elmi Şurasının qərarı ilə nəşr edilmişdir.**

ISBN: 978-9952-485-34-9

© Vasif Səmədov, Rövşən Vəlizadə, 2014

Kitab “Xocalıya Ədalət!” Beynəlxalq təbliğat və məlumatlandırma kampaniyasının 5 illiyi münasibətilə nəşr edilmişdir.

“Xocalıya Ədalət!” kampaniyasının yaradılması təşəbbüsü 2008-ci il 8 may tarixində, Şuşanın işğalının ildönümü günü Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə Baş Koordinatoru Leyla Əliyeva tərəfindən irəli sürülmüşdür. Hal-hazırda faciənin mənəvi, siyasi və hüquqi müstəvidə tanınmasına yönəlmiş bu kampaniya dünyanın 40-dan çox ölkəsində uğurla həyata keçirilməkdədir.



*…1992-ci ilin fevralında keçmiş sovet qoşunlarının yaxından köməyi ilə erməni hərbi birləşmələri müasir tarixdə analoqu olmayan müdhiş faciə törətdilər. Azərbaycan şəhəri Xocalının minlərlə müdafiəçisi və dinc sakini öldürüldü, əsir alındı, şəhər yerlə yeksan edildi. Bu misilsiz vandalizm və soyqırımı aktlarından məqsəd xalqımızı qorxutmaq, onun mübarizə əzmini qırmaq idi...*

*…Xocalı soyqırımı erməni faşizminin iç üzünü bir daha açıb göstərməklə, təkcə Azərbaycan xalqına deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş tarixi cinayətdir və beynəlxalq hüquqa uyğun olaraq sivilizasiyalı dünya tərəfindən məhkum olunmalıdır...*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan xalqının Ümummilli Lideri**



*...1905-ci və 1918-ci illərdə erməni hərbi dəstələrinin Qafqazın müxtəlif bölgələrində həyata keçirdiyi kütləvi qətllər və talanlar, 1948-1953-cü illərdə soydaşlarımızın Ermənistan Respublikası ərazisindəki ata-baba yurdlarından deportasiya edilməsi, 1988-ci ildən başlayaraq Dağlıq Qarabağı Azərbaycandan qoparmaq məqsədi güdən genişmiqyaslı müharibə və onun bu gün də davam edən acı nəticələri, 1992-ci ilin Xocalı faciəsi – bütün bunlar təcavüzkar erməni millətçilərinin azərbaycanlılara qarşı planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin qanlı səhifələridir...*

*Bü gün artıq heç kimə sirr deyil ki, Xocalı faciəsi davakar erməni millətçilərinin yüzilliklər boyu türk və Azərbaycan xalqlarına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi idi...*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

## HEYDƏR ƏLİYEV: SİZ XALQIMIN SƏSİNİ EŞİDƏCƏKSİNİZ, XALQIMIN SƏSİ ÜRƏKLƏRİNİZƏ YOL TAPACAQDIR

### Ümummilli lider Heydər Əliyevin 20 sentyabr 1994-cü ildə BMT Baş Məclisinin 49-cu sessiyasındakı çıxışından

Ən mötəbər beynəlxalq məclisin tribunasından sizin qarşınızda həyəcan və qürur hissi ilə çıxış edirəm. İlk dəfədir ki, müstəqil Azərbaycanın Prezidenti Dünya Birliyi tərəfindən tanınmış və bərabər hüquqlarla onun tərkibinə daxil olmuş öz ölkəsini Dünya Birliyinə təqdim edir.

**Azərbaycan xalqı əsrlərlə azadlığa can atmışdır. Sovet İttifaqı dağıldıqdan sonra o, milli müstəqillik qazanmışdır. Bizim respublikamız qətiyyətlə hüquqi, demokratik, sivilizasiyalı dövlət quruculuğu yolunu tutmuşdur. Bütün bunlar mürəkkəb prosesdir, bir günün işi deyil, lakin biz qarşıya qoyulmuş məqsədə doğru ardıcıl surətdə irəliləyirik və qısa bir dövr ərzində çox işlər görülmüşdür, hüquqi demokratik cəmiyyətin formalaşdırılması üçün hər cür şərait yaradılmışdır. Respublikamızda artıq çoxpartiyalı sıstem mövcuddur, siyasi plüralizm, şəxsiyyət, söz, mətbuat, vicdan azadlıqları, insan hüquqlarının müdafiəsi və qanunun aliliyi prinsipləri möhkəm bərqərar olmuşdur. Dərisinin rəngindən, din və dil mənsubiyyətindən asılı olmayaraq, çoxmillətli Azərbaycanın bütün vətəndaşları bərabər hüquqlardan istifadə edirlər.**

Siyasi dəyişikliklər ölkənin demokratikləşdirilməsi, bazar münasibətlərinə keçidi təmin edən dərin iqtisadi islahatlar aparılması üçün şərait yaratmışdır. Biz sərbəst sahibkarlığın inkişafını, şəxsi təşəbbüskarlığı hər vasitə ilə təşviq edirik, ümumbəşəri sərvətlərə əsaslanan dünya təcrübəsindən, sivilizasiyalı, çiçəklənən demokratik cəmiyyət quruculuğunda böyük uğurlara nail olmuş qabaqcıl dünya ölkələrinin təcrübəsindən istifadə edərək genişmiqyaslı özəlləşdirmə proqramının həyata keçirilməsinə başlayırıq.

Biz bir çox dövlətlərin böyük marağını doğuran ərazidə Avropa və Asiyanın mühüm coğrafi-siyasi qovuşuğunda yerləşərək, geniş təbii ehtiyatlara və böyük sənaye potensialına malik olaraq, Azərbaycan xal-

qının qəti əzminə və inamına arxalanaraq öz müstəqilliyimizin möhkəmləndirilməsinə və demokratik islahatların, bazar islahatlarının həyata keçirilməsinə doğru yönəldilmiş bu strateji xətti aparırıq. Bu gün **mən bu yüksək tribunadan qətiyyətlə bildirirəm ki, heç kəs Azərbaycan xalqını tutduğu yoldan geri çəkilməyə məcbur edə bilməz və biz ölkəmizin gələcəyinə nikbinliklə baxırıq.**

Bizim nikbinliyimiz dünyada baş verən tarixi proseslərlə, beynəlxalq münasibətlər sistemindəki ciddi dəyişikliklərlə də bağlıdır. Şübhəsiz ki, artıq hərbi cəbhələşməni və ideoloji qarşıdurmanı əvəz etməkdə olan bərabərhüquqlu dünya qaydası beynəlxalq münasibətlər sisteminin gələcək əsasını təşkil edəcəkdir. Beynəlxalq hüquqa, Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin prinsiplərinə və müddəalarına uyğun olaraq tərəfdaşlıq, möhkəm sülh və hamı üçün təhlükəsizlik yeni dünya qaydasının fundamental prinsiplərinə çevrilir. **Biz zor işlədilməsinə əsaslanan düşmənçilik dünyasından əməkdaşlıq və tərəqqi dövrünə aparan tunelin axırında işıq görürük və bu yol ilə birlikdə, dünyanın bütün ölkələri və xalqları ilə əl- ələ verib getməyə hazırıq.**

Lakin bəşəriyyət qarşısında duran təhlükələr hələ heç də tamamilə aradan qaldırılmamışdır. Hələ də köhnə stereotiplər mövcuddur, on illərlə davam etmiş qarşıdurma dövrü ərzində yığılıb qalmış çoxsaylı problemlər, xüsusən tərksilah, kütləvi qırğın silahının məhv edilməsi sahəsindəki problemlər aradan qaldırılmamışdır. İqtisadi imkanları müxtəlif olan dövlətlərin qarşılıqlı münasibətləri də əvvəlki kimi, yenə də keçmişin bəlalarına düçar olmuşdur. Zaman ekoloji təhlükələr, əhali və inkisaf problemləri ilə əlaqədar bizi yeni-yeni sınaqlara çəkır.

**Köhnə dünya qaydasının pozulmasının reallıqlarına çevrilmiş azğın millətçilik və separatçılıq Qafqazı, Balkan yarımadasını, Yer kürəsinin başqa nöqtələrini od-alova və qana bürüyən münaqişələr doğurmuşdur. Bu münaqişələr nəinki müstəqil dövlətlərin inkişafını ləngidir, hələ möhkəmlənməmiş demokratik cəmiyyətlərin varlığı üçün birbaşa təhlükə doğurur, həm də bütün dünyada sülh və təhlükəsizlik üçün qorxu yaradır.**

Buna görə də cəbhələşmədən sonrakı dünyada nüfuzlu beynəlxalq təşkilatların, böyük dövlətlərin üzərinə xüsusi məsuliyyət düşür. Onlar öz siyasi sanbalından, iqtisadi, maliyyə və hərbi imkanlarından istifadə

edərək münaqişələrin aradan qaldırılmasına, Yer üzünün bütün guşələrində sülhün, sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsinə öz potensialını daha fəal yönəltməlidirlər.

Gələn il özünün 50 illiyini qeyd edəcək Birləşmiş Millətlər Təşkilatı, bir sıra münaqişələrin və böhran vəziyyətlərinin aradan qaldırılmasında təcrübəyə malik olan Təhlükəsizlik Şurası yeni dünya qaydasının qurulmasında, şübhəsiz ki, aparıcı rol oynayır. Lakin **Təhlükəsizlik Şurası qarşısında hələ çətin sınaqlar durur: yeni şəraitdə öz səmərəli fəaliyyətini Dünya Birliyinə sübut etmək. Bu gün Təhlükəsizlik Şurası öz qətnamələrinin təminatlı şəkildə yerinə yetirilməsinə nail olmaqla həmişəkindən daha çox əzmkarlıq göstərməlidir.** Ümid edirik ki, Şuranın tərkibinin genişləndirilməsi onun möhkəmləndirilməsinə kömək edəcəkdir.

Biz Baş Məclisin roluna böyük əhəmiyyət veririk. Bu rolu hər şeydən əvvəl onda görürük ki, qarşılıqlı güzəştlərə və mənafelərin tarazlığına əsaslanan qərarlar qəbul edilərkən dövlətlərin ən sıx qarşılıqlı fəaliyyəti təmin edilsin.

İndiki şəraitdə BMT baş katibinin öz səlahiyyətlərindən səmərəli istifadə etməsinin, habelə beynəlxalq sülhün və təhlükəsizliyin möhkəmləndirilməsində baş katib ilə birlikdə məsuliyyət daşıyan üzv dövlətlərin ona göstərməli olduqları köməyin əhəmiyyəti də artır.

Bütövlükdə, Azərbaycan Respublikası gələcək üçün BMT-nin perspektivlərini nikbinliklə qiymətləndirir və bundan sonra da Birləşmiş Millətlər Təşkilatının yüksək prinsiplərini müdafiə etmək, təşkilatın nüfuzunun və səmərəsinin artırılmasına nail olmaq əzmindədir.

Sizin bir çoxunuza "müharibə", "silahlı münaqişə" məfhumları xoşbəxtlikdən, tarixi və ya evinizdən uzaqda baş verən hadisələri xatırladırsa, mənim xalqım üçün bu, amansız reallıq, qanlı-qadalı adi günlərdir.

**Altı ildir ki, Azərbaycan torpağını müharibə alovu bürüyüb. Ermənistan Respublikası Azərbaycanın Dağlıq Qarabağ regionunda yaşayan ermənilərin etnik qrupunun öz müqəddəratını təyin etmək hüququnu reallaşdırması bəhanəsi ilə dövlətimizin ərazilərinin ilhaqı, onun dövlət sərhədlərinin zorakılıqla dəyişdirilməsi və azərbaycanlı əhalinin öz doğma ev-eşiyindən qovulması planlarını açıq-aşkar həyata keçirir.**

Bütün bunlar xalqların öz müqəddəratını təyin etməsi hüququnun əsassız olaraq hər hansı bir etnik icmanın öz müstəqilliyini özbaşına elan etmək və başqa dövlətin tərkibinə daxil olmaq hüququ kimi yozulması ilə pərdələnir. Öz müqəddəratını təyin etmək hüququnun bu cür yozulması dövlətin suverenliyi və ərazi bütövlüyü prinsipləri ilə kəskin ziddiyyət təşkil edir. Bu hüququ mütləqləşdirmək sahəsində hər hansı bir cəhd amansız münaqişələrə gətirib çıxarır. Biz regionumuzda və planetimizin başqa guşələrində bunun şahidi olmuşuq.

BMT-nin baş katibi cənab Butros Qali də bu məsələ ilə əlaqədar öz narahatlığını bildirmişdir: "Əgər hər bir etnik, dini və ya linqvistik qrup dövlətçilik tələb etsə, onda bölgünün həddi olmayacaq və dünyada sülhün, təhlükəsizliyin və iqtisadi firavanlığın əldə edilməsi daha çətin olacaqdır".

Mən hörmətli Butros Qalinin belə bir fikri ilə də tam şərikəm ki, "təşəkkül tapmış beynəlxalq sistem çərçivəsində xalqların öz müqəddəratını təyin etməsi və dövlətlərin suverenliyi, ərazi bütövlüyü və müstəqilliyi kimi eyni dərəcədə qiymətli və mühüm olan məsələlərin bir-birinə ziddiyyət təşkil etməsinə yol vermək olmaz".

**Regionumuzda baş verən hadisələr haqqında dünya ictimaiyyətinin kifayət qədər məlumatı olmadığını, bəzi hallarda isə birtərəfli məlumatı olduğunu bilərək sizi real vəziyyətlə qısaca tanış etmək istərdim. Ermənistan Respublikası Azərbaycanın Dağlıq Qarabağ regionunun ərazisində güclü qoşun qruplaşması yaradaraq respublikamıza qarşı fəal döyüş əməliyyatları aparmışdır. Şuşa şəhəri və Laçın rayonu işğal edildikdən sonra Dağlıq Qarabağın ilhaqı başa çatdırılmış, Dağlıq Qarabağda yaşayan təxminən 50 min azərbaycanlı oradan qovulmuşdur. Erməni silahlı birləşmələri Dağlıq Qarabağ platsdarmından istifadə edərək bundan sonra hücumun gedişində Azərbaycanın digər altı rayonunu – keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin hüdudlarından Laçın rayonu kimi kənarda olan və sahəsi keçmiş vilayətin sahəsindən dörd dəfə çox olan Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarını işğal etmişlər.**

**Təcavüz nəticəsində Azərbaycan ərazisinin 20 faizindən çoxu Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən işğal edilmişdir.**

**Mən Azərbaycan tərəfinin dəhşətli itkilərini sizə deməliyəm: 20 mindən çox adam həlak olmuşdur, 100 minə yaxın adam yaralanmış və xəsarət almıdır, 6 min adam əsir düşmüşdür, bir milyondan çox azərbaycanlı – ölkə əhalisinin təxminən 15 faizi qaçqın vəziyyətinə düşmüşdür və çadır şəhərciklərində yaşayır. Onlar öz vətənində evsiz-eşiksiz qalmışlar, yayın istisindən, qışın soyuğundan, epidemiyalardan əzab çəkirlər, ən zəruri şeylərə ehtiyac duyurlar. Azərbaycanın işğal edilmiş ərazilərində 700 şəhər və kənd dağıdılmışdır. Həmin şəhər və kəndlərdə demək olar, bütün evlər, məktəblər, xəstəxanalar yandırılmış və talan edilmiş, qədim mədəniyyət abidələri məhv edilmişdir.**

**Zənnimcə, sübut etməyə ehtiyac yoxdur ki, belə bir vəziyyətdə biz "öz müqəddəratını təyin etmək hüququnun həyata keçirilməsi" ilə deyil, beynəlxalq hüququn kobudcasına pozulması ilə, BMT-nin üzvü olan dövlətin suverenliyinə, ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı təcavüzlə qarşılaşmışıq.**

Müharibə xalqımı dözülməz vəziyyətə salır, sosial gərginliyi gücləndirir, Azərbaycan cəmiyyətinin demokratikləşdirilməsinə yönəldilmiş iqtisadi və siyasi islahatların həyata keçirilməsinə mane olur.

**Müharibə nəticəsində Azərbaycan xalqına milyardlarla Amerika dolları məbləğində çox böyük maddi ziyan vurulmuşdur. İnsan talelərinə vurulmuş mənəvi ziyan, xalqın dərd-bəlası isə heç nə ilə ölçülməzdir.**

Bu gün təkcə Azərbaycanda deyil, dünyanın digər qaynar nöqtələrində də qan tökülür. Xalqlar müharibə gedən yerlərdə baş verən faciəli hadisələrə biganə qalmamalıdırlar. Silahlı münaqişələrin güclənməsinə yol verməmək, onların ədalətlə və qəti şəkildə aradan qaldırılmasına nail olmaq üçün kollektiv səylərlə hər şey etmək lazımdır.

***Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərinin işğal edilməsi ilə əlaqədar olaraq son iki il ərzində Təhlükəsizlik Şurasının 4 qətnaməsi və onun sədrinin 6 bəyanatı qəbul edilmişdir.***

***Bütün qətnamələrdə Təhlükəsizlik Şurası Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü təsdiq edir, ərazi ələ keçirmək üçün zor tətbiq edilməsinin yolverilməzliyini qeyd edir, Azərbaycanın işğal edilmiş bütün rayonlarından bütün işğalçı qüvvələrin dərhal, tamamilə və qeyd-***

***şərtsiz çıxarılmasını, qaçqınların daimi yaşayış yerlərinə qaytarılmasını qətiyyətlə tələb edir.***

***Lakin bütün bu qərarlara Ermənistan Respublikası hələ də qətiyyən məhəl qoymur. Bundan əlavə o, Azərbaycanın işğal edilmiş ərazilərində öz hərbi qüvvələrini artırmaqda davam edir.***

***Digər tərəfdən, Təhlükəsizlik Şurası da qəbul edilmiş qətnamələrin yerinə yetirilməsi mexanizmini işə salmamışdır. Belə bir sual meydana çıxır: Təhlükəsizlik Şurası nə dərəcədə ardıcıl və qətiyyətlidir, hər bir konkret halda onun səlahiyyətlərinin tətbiq dərəcəsi nə ilə müəyyən edilir?***

***Təhlükəsizlik Şurasının qərarlarının yerinə yetirilməməsi BMT-yə qarşı işləyir və onun beynəlxalq sülhü və təhlükəsizliyi qoruyub saxlamaq kimi əsas vəzifəsini yerinə yetirmək bacarığına inamı poza bilər.***

***Regional münaqişələrin aradan qaldırılmasında toplanmış təcrübə göstərir ki, qətnamələrin yerinə yetirilməsi sahəsində səylər yalnız BMT Nizamnaməsi ilə nəzərdə tutulmuş qətiyyətli tədbirlərlə möhkəmləndirildikdə müvəffəqiyyət gətirir.***

***Beynəlxalq hüquq normalarını kobud surətdə pozan dövlət barəsində təsirli tədbirlər görmək çox nüfuzlu beynəlxalq təşkilatın Dünya birliyi qarşısında borcudur.***

Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması üçün göstərilən səylərlə biz ATƏM kimi nüfuzlu təşkilata da bel bağlayırıq. ***Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması üçün ATƏM-in yaratdığı Minsk qrupu da işğal edilmiş bütün ərazilərin azad olunması və işğalçı qüvvələrin Azərbaycanın hüdudlarından tamamilə çıxarılması, onun suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq miqyasda tanınmış sərhədlərinə hörmət edilməsi zəruriliyinə əsaslanır.***

Lakin **ATƏM-in müvafiq mexanizmləri olmadığından onun çoxsaylı vasitəçilik səyləri, təəssüf ki, indiyədək hər hansı bir nəzərəçarpacaq konkret nəticələrə gətirib çıxarmamışdır.** Bu gün biz yalnız bir müsbət nəticə əldə etmişik: Rusiya Federasiyasının və ATƏM-in Minsk qrupunun çox böyük səyləri bahasına və fəal vasitəçilik missiyası sayəsində münaqişə zonasında atəşkəs əldə olunmuşdur.

Dörd aydan çoxdur ki, atəş səsləri eşidilmir, qan tökülmür. Bütün bunları biz yüksək qiymətləndiririk. Lakin vəziyyət hər halda son dərəcə mürəkkəb olaraq qalır, atəşkəs isə olduqca kövrəkdir.

Ermənistan Respublikası Azərbaycanın işğal edilmiş ərazilərinin bir hissəsini Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunun müstəqillik statusu ilə dəyişdirmək kimi əsassız şərtlər irəli sürür. O, Azərbaycanın bu regionunda öz hərbi qüvvələrinin qalmasını və Azərbaycanın Şuşa şəhəri və Laçın rayonu üzərində nəzarətinin saxlanmasını tələb edir ki, bu da əslində ərazilərimizin ilhaqının təsbit edilməsi deməkdir.

Ermənistan münaqişənin başlanmasınadək Dağlıq Qarabağda mövcud olmuş demoqrafik vəziyyətin bərpasını və azərbaycanlı əhalinin oraya qaytarılmasını, o cümlədən Azərbaycan mədəniyyətinin ən qədim mərkəzlərindən biri olan Şuşaya qaytarılmasını tamamilə istisna edir.

Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirmədən, bu şərtlərlə beynəlxalq aralayıcı qüvvələri Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ regionunun perimetri boyunca yerləşdirməyi təklif edərək onları vəziyyətin konservasiyası alətinə, öz ilhaqçı siyasətinin girovuna çevirməyə cəhd göstərir.

Azərbaycan Respublikasının mövqeyi həmişə əməli mövqe olmuşdur və sülhsevər xarakter daşıyır. Bizə vurulmuş bütün ziyanlara baxmayaraq, biz beynəlxalq hüquq, ədalət və humanizm əsasında erməni tərəfinə sülh təklif edirik. Biz Dağlıq Qarabağın erməni əhalisinin təhlükəsizliyinə zəmanət verməyə hazırıq. Biz regionda kommunikasiyaların, o cümlədən Dağlıq Qarabağ ilə Ermənistan Respublikası arasında humanitar dəhlizin normal işini qarşılıqlı əsasda bərpa etmək tərəfdarıyıq. Biz, lazım gələrsə, münaqişə zonasında beynəlxalq sülhpərvər qüvvələrin yerləşdirilməsinə razıyıq. Biz Azərbaycan dövlətinin tərkibində Dağlıq Qarabağın statusunu da müzakirə etməyə hazırıq.

***Lakin bizim üçün sarsılmaz normalar və prinsiplər də var – bu, Azərbaycanın suverenliyi və ərazi bütövlüyüdür, işğal olunmuş bütün ərazilərin azad edilməsidir, qaçqınların öz doğma ocaqlarına, o cümlədən 50 min azərbaycanlı qaçqının Dağlıq Qarabağa – öz vətəninə qaytarılmasıdır.***

Azərbaycan Respublikası münaqişənin sülh yolu ilə, siyasi yolla aradan qaldırılmasına tərəfdar olaraq belə hesab edir ki, yalnız **Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirmək yolu ilə təcavüzün nəticələrini aradan qaldıraraq, uzunmüddətli möhkəm sülhün bərqərar edilməsi və regionun bütün əhalisinin təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə sabit və əməli danışıq prosesi aparmaq olar.**

Həm də biz beynəlxalq normalara uyğun olaraq sülhpərvərlərin dəqiq mandata malik olması şərti ilə razılaşdırılmış sülh qərarlarının həyata keçirilməsinin təmin edilməsində Dünya Birliyinin köməyinə ümid bəsləyirik.

Biz atəşin kəsilməsi haqqında əldə edilmiş razılığı yüksək qiymətləndirərək başa düşürük ki, bu hələ sülh demək deyil, lakin atəşkəs tezliklə sülh əldə edilməsi üçün lazımi şərait yaradır. Biz sülh sazişi əldə edilənədək və silahlı münaqişəyə tamamilə son qoyulanadək atəşkəs rejiminə əməl etmək əzmində olduğumuzu dəfələrlə bildirmişik. Bu gün mən Birləşmiş Millətlər Təşkilatının yüksək tribunasından bunu bir daha bəyan edirəm.

Biz ATƏM-in Minsk qrupunun və Rusiya Federasiyasının sülhpərvər fəaliyyətini müdafiə edərək onların səylərinin birləşdirilməsinə tərəfdarıq, münaqişənin aradan qaldırılmasında birincilik uğrunda hər hansı bəhsləşmənin əleyhinə çıxırıq. Belə bəhsləşmə Azərbaycan və Ermənistan xalqlarının eyni dərəcədə ehtiyac duyduqları sülhün əldə edilməsini yalnız çətinləşdirə bilər.

**Azərbaycanın işğal olunmuş bütün ərazilərinin tamamilə azad edilməsi barədə tələblərimiz hüquqa uyğun tələblərdir, onlar BMT Təhlükəsizlik Şurasının qətnamələrinə tamamilə uyğundur. Hər hansı bir rayonun ilhaqına cəhd göstərilməsi bizim üçün məqbul deyil və beynəlxalq hüquq normalarına ziddir.**

Müharibəyə cəlb olunmağımız nəticəsində respublikada son dərəcə ağır humanitar vəziyyət yaranmışdır. Yeddi milyonluq ölkədə hər yeddi nəfərdən biri – ev-eşiyi, işi, yaşamaq üçün vəsaiti olmayan qaçqındır. Qaçqınlar və köçkünlər misilsiz məhrumiyyətlərə düçar olaraq çadır düşərgələrində yaşayırlar. Amansız qış şəraiti, kifayət qədər qida, dava-dərman olmaması əhalinin ən imkansız olan bu qrupu arasında epidemiya və aclıq təhlükəsi yaratmışdır. Qaçqınlar ilə əlaqədar

ekstremal vəziyyətin aradan qaldırılması Azərbaycan dövlətinin başlıca qayğılarından birinə çevrilmişdir.

Şərq və Qərb sivilizasiyasını vəhdət halında birləşdirən ölkəmizin coğrafi mövqeyindən, sosial-siyasi yönümündən və tarixi-mədəni ənənələrindən irəli gələn xüsusiyyətlər beynəlxalq münasibətlər sistemində mənim respublikamın roluna və yerinə səciyyəvi təsir göstərir.

Məhz öz xüsusiyyətlərimizi başa düşərək və dəyişikliklərin irəli sürdüyü tələbləri nəzərə alaraq biz addım-addım irəliləyərək xarici dünya ilə əməkdaşlıq binasını ucaldırıq.

***Azərbaycan Respublikası beynəlxalq miqyasda tanındığı vaxtdan etibarən biz əksər ölkələrlə bərabərhüquqlu, tarazlaşdırılmış münasibətlər yaratmış və bir çox ümumdünya və regional təşkilatlara daxil olmuş, beynəlxalq münasibətlərimizin genişləndirilməsi, müəyyən səbəblər üzündən itirilmiş əlaqələrin bərpa edilməsi üçün ciddi səylər göstərmişik.***

Biz keçmiş SSRİ-nin ərazisində yaranmış müstəqil dövlətlərlə tarixi, coğrafi, iqtisadi və humanitar əlaqələrə xüsusi əhəmiyyət verərək, istər ikitərəfli münasibətlər əsasında, istərsə də Müstəqil Dövlətlər Birliyi çərçivəsində onlarla, xüsusən Rusiya ilə bərabərhüquqlu əməkdaşlığın inkişaf etdirilməsinə tərəfdar çıxırıq.

Amerika Birləşmiş Ştatları, Böyük Britaniya Birləşmiş Krallığı, Fransa, Çin ilə Azərbaycanın dostluq əlaqələri müvəffəqiyyətlə inkişaf edir. Regionumuzun və yaxın regionların Türkiyə, İran, Səudiyyə Ərəbistanı, Misir, Pakistan kimi ölkələri ilə bizi sıx, mehriban qonşuluq telləri birləşdirir. Bu ölkələrlə biz İslam Konfransı Təşkilatı çərçivəsində də sıx əməkdaşlıq edirik.

Bu ilin mayında **NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına Azərbaycanın qoşulması onun siyasi həyatında mühüm hadisə oldu.** Bu proqramda bizi ümumi təhlükəsizlik mənafeyi naminə əməkdaşlıq və qarşılıqlı fəaliyyət məsələləri cəlb edir. Mən Varşava müqaviləsinin keçmiş üzvlərinin bu proqrama qoşulmasını alqışlayıram. Bu, bütün Avrasiya qitəsində ümid yaradır ki, gələcəkdə onu sülh şəraitində əməkdaşlıq gözləyir və bu əməkdaşlıq bütün xalqların təhlükəsizliyini, inkişafını və tərəqqisini təmin edəcək, yeni cəbhələşmə bloklarının yaranması imkanını həmişəlik aradan qaldıracaqdır. Biz ümid edirik ki,

NATO proqramında iştirak Avropada təhlükəsizliyin yeni binasının yaradılmasında ölkəmizin rolunu artıracaqdır.

Bu il Azərbaycan Respublikasına bloklara qoşulmamaq hərəkatında müşahidəçi statusu verilmişdir ki, bu da müxtəlif sahələrdə ikitərəfli əlaqələri qaydaya salmaq və həmin hərəkatın üzvləri olan ölkələrlə mövqelərimizi yaxınlaşdırmaq üçün qarşımızda geniş imkanlar açır.

1992-ci ilin yanvarında gənc Azərbaycan dövlətinin Birləşmiş Millətlər Təşkilatına tamhüquqlu üzv qəbul edilməsi onun təşəkkülü prosesində mühüm mərhələ oldu. BMT-yə daxil olan bir çox beynəlxalq təşkilatlarla əməkdaşlığımızın miqyası həmin vaxtdan etibarən artır. Beynəlxalq Valyuta Fondu, Ümumdünya Bankı, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı ilə qarşılıqlı fəaliyyətimiz bizim üçün xüsusən dəyərlidir. Dünyanın bu ən iri maliyyə təsisatları mütəxəssislərinin Azərbaycandakı əməli işi nəticəsində ölkəmizin sosial-iqtisadi inkişafı üçün böyük əhəmiyyət daşıyan konkret layihələr müəyyənləşdirilmişdir.

Güman edirik ki, beynəlxalq maliyyə təsisatları ilə səmərəli əməkdaşlığımız üçün böyük imkanlar vardır. Biz Azərbaycan Respublikasının düçar olduğu faktiki müharibə vəziyyəti ilə əlaqədar Beynəlxalq Valyuta Fondunun və Ümumdünya Bankının rəhbərlərinin ehtiyat etdiyini və narahatlıq keçirdiyini başa düşürük. Lakin eyni zamanda, Beynəlxalq Valyuta Fondu bizimlə müharibə aparan Ermənistana sabitləşdirmə krediti vermişdir. Belə hesab edirik ki, ədalət bu məsələdə heç olmasa simmetrik münasibət tələb edir.

Biz bazar iqtisadiyyatı infrastrukturunun təşəkkül tapması, ölkənin müasir idarəetmə səviyyəsinə çıxarılması, qabaqcıl texnologiyaların tətbiqi sahəsində milli proqramların hazırlanmasına texniki yardım göstərilməsi işində BMT-nin inkişaf proqramından və BMT-nin ətraf mühitə dair proqramından çox şey gözləyirik.

Biz beynəlxalq iqtisadi əməkdaşlığa xüsusi əhəmiyyət veririk və mən böyük məmnuniyyət hissi ilə sizə bildirmək istəyirəm ki, Azərbaycan Respublikası sentyabrın 20-də Xəzər dənizinin Azərbaycan sektorunda neft yataqlarının birgə istismarı sahəsində bir sıra iri dünya şirkətlərinin konsorsiumu ilə 30 illik müqavilə imzalamışdır. Bu, uzun sürən çətin danışıqların yekunudur.

Bu iri iqtisadi tədbir bütün dünya üçün açıq olmaq siyasətimizin, iqtisadiyyatın sərbəstləşdirilməsi, xarici investisiyaların cəlb edilməsi siyasətimizin sübutudur.

Belə bir nadir müqavilənin imzalanması əməkdaşlığın möhkəmləndirilməsinə, onun həyata keçirilməsində iştirak edən Azərbaycanın, ABŞ-ın, Rusiyanın, Böyük Britaniya Birləşmiş Krallığının, Türkiyənin, Norveçin, Səudiyyə Ərəbistanının xalqlarının və ölkələrinin yaxınlaşmasına kömək edəcəkdir. Bu barədə danışarkən mən bir daha qeyd etmək istəyirəm ki, Azərbaycan Respublikası Dünya Birliyi ilə tamhüquqlu inteqrasiyaya istiqamət götürmüşdür və bunun üçün bütün imkanlara malikdir. Buna görə də onun siyasəti sülhə əsaslanır və biz buna nail olmaq üçün Birləşmiş Millətlər Təşkilatına böyük ümidlər bəsləyirik.

Azərbaycan xalqı məni özünün gənc müstəqil dövlətinin prezidenti seçərək mənə çox böyük etimad göstərmişdir və bu gün mən onun ən xoş arzu və diləklərini sizə çatdırmaq şərəfinə nail oldum.

**BMT Baş Məclisinin bu yüksək tribunasını belə bir ümidlə tərk edirəm ki, siz xalqımın səsini eşidəcəksiniz, xalqımın səsi ürəklərinizə yol tapacaqdır.**

## XOCALI SOYQIRIMININ İYİRMİNCİ İLDÖNÜMÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan xalqının tarixinə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı faciəsi kimi daxil olmuşdur. Ermənistan silahlı qüvvələri bütün beynəlxalq hüquq normalarına zidd olaraq, keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının şəxsi heyətinin iştirakı ilə yatan şəhərə hücum edərək azərbaycanlılara qarşı soyqırım aktını törətmişlər.

Bu hərbi təcavüz zamanı Xocalı ağır hərbi texnikadan şiddətli atəşlər nəticəsində darmadağın edilmiş, dinc sakinlərə amansızcasına divan tutulmuşdur. Bir neçə saat ərzində 613 soydaşımız, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca xüsusi qəddarlıqla qətlə yetirilmiş, meyitlər üzərində təhqiredici hərəkətlərə yol verilmişdir. Həmin kütləvi qırğın həyata keçirilərkən 8 ailənin həyatına son qoyulmuş, 25 uşaq hər iki valideynindən, 130 uşaq isə valideynlərinin birindən məhrum edilmiş, 487 dinc Xocalı sakini ağır yaralanmış və 1275 nəfər girov götürülmüşdür. Girov götürülənlərdən 150 nəfərin taleyi indiyədək məlum deyil.

Qanlı Xocalı qırğınını törətməklə Dağlıq Qarabağın hüdudlarından kənara çıxan Ermənistan Azərbaycana qarşı genişmiqyaslı təcavüzə başladı. Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zamanı 20 min vətəndaşımız öldürüldü, 50 min nəfərdən çox adam yaralandı və əlil oldu, ölkəmizin ərazisinin 20 faizi işğal edildi. Xalqımız misli görünməyən humanitar fəlakətlə üz-üzə qaldı.

Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının, Avropa Parlament Assambleyasının və bir sıra beynəlxalq qurumların Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması və problemin ölkəmizin ərazi bütövlüyü çərçivəsində obyektiv həllini tapmasına dair qətnamə və qərarlarına baxmayaraq, bu günə qədər ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlar heç bir nəticə verməmişdir.

Azərbaycanlılara qarşı erməni şovinist dairələrinin XIX-XX əsrlərdə mərhələ-mərhələ həyata keçirdiyi etnik təmizləmə siyasətinin tərkib hissəsi olan Xocalı soyqırımı haqqında həqiqətlər dünya ictimaiyyətinə, xarici ölkələrin parlamentlərinə çatdırılmalı, Azərbaycan xalqının və ümumən insanlığın əleyhinə yönəldilmiş bu son dərəcə ağır hərbi cinayət beynəlxalq miqyasda öz hüquqi-siyasi qiymətini almalıdır.

Xocalı soyqırımı zamanı qətlə yetirilmiş həmvətənlərimizin xatirəsini faciənin iyirminci ildönümü ərəfəsində dərin hüznlə bir daha yad edərək və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Xocalı soyqırımının iyirminci ildönümü ilə bağlı tədbirlər planı hazırlayıb onun həyata keçirilməsini təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 17 yanvar 2012-ci il.**

# XOCALI QIRĞINLARINDA DİNC ƏHALİYƏ VERİLƏN İŞGƏNCƏLƏR

İşgəncələrdən azad olmaq hüququ beynəlxalq hüquq çərçivəsində tam dəqiqliyi ilə müəyyən edilmişdir. İnsan Haqları üzrə Ümumi Deklarasiya, Vətəndaş və Siyasi hüquqlar üzrə Beynəlxalq Razılaşma, İşgəncə və digər Qəddar, Qeyri-İnsani və Alçaldıcı Rəftar üzrə Konvensiya birmənalı şəkildə işgəncələri qadağan edirlər. Eynilə, bir neçə regional sənəd işgəncədən azad olmaq hüququnu müəyyən edir. Amerika İnsan Haqları üzrə Konvensiyası, Afrika İnsan və Xalqların Hüquqları üzrə Xartiyası və İnsan Haqlarının və Fundamental Azadlıqların qorunmasına dair Konvensiya işgəncələrin qadağan edilməsi barədə müddəaları özündə əks etdirir. Lakin bütün bu konvensiyaların müddəaları Xocalıda erməni terror dəstələri və hərbiçiləri tərəfindən kobudcasına pozulmuşdu. Heç kəs bunlara məhəl qoymadı.

Azərbaycan torpaqlarını – Dağlıq Qarabağ yaşayış məntəqəsində işğalçılıq siyasətini davam etdirən, Xocalı yurd yerini yandırıb, dinc sakinlərini analoqu olmayan işgəncələrlə qırıb, məhv edən erməni silahlı terrorçu birləşmələrin ayrı-ayrılıqda 47 nizamnaməsi və proqramı olub. Terrorçuların bu nizamnamə və proqramı işlənib, zaman-zaman dəyişib və daha qəddar, amansız olub. Ermənilər Xocalıda bu terror proqramlarını icra edərkən, orada aman və fürsət anlayışı olmayıb.

Bütün bunlar yuxarıda qeyd etdiyimiz beynəlxalq konvensiya və bəyannamələrə zidd olaraq həyata keçirilib. Məsələn, Konvensiyada «Ümumi Maddə-3» kimi tanınan məşhur bir maddə var. Orada deyilir: «...Aşağıdakı hərəkətlər hər bir yerdə heç nədən asılı olmayaraq qadağan hesab olunur; şəxs və onun həyatına qarşı zorakılıq, xüsusən də, hər bir növ qətllər, şikəstliyin verilməsi, qəddar rəftar və işgəncələr... şəxsi ləyaqətə qarşı təcavüzün edilməsi, xüsusən də, alçaldıcı rəftarın edilməsi...».

İşgəncələr üzrə məşhur araşdırıcı, hüquqşünas, professor Hayrel Rodli «Beynəlxalq qanun çərçivəsində...» kitabında yazır: «…bu cür hərəkətlər üçün heç kim bir bəhanə gətirə bilməz, heç bir yumşaldıcı hal ola bilməz…» ( Bax: eyni mənbə. Oksford. 1999. s.73).

Bəs, Xocalıda nələr baş vermişdi? Faktlara, rəsmi dövlət sənədlərinə nəzər salaq: **məsələn, Səlimov Mikayıl Bahadur oğlu:** (1970-ci il. Xocalı sakini)

kəllə sümüklərinin sınıqları, beyin toxumasının dağılması ilə müşayiət olunan qəlpə yaralanması, sağ bazu və sağ said nahiyələrinn dörd ədəd, sağ və sol bud nahiyələrinin iki ədəd deşib keçən, sağ qılça nahiyəsinin bir ədəd boşluğa keçən kor güllə yaraları; **Şadmanova Nazilə Şamil qızı:** (1950-ci ildə Xocalıda anadan olub) döş və qarın boşluqlarını keçən, skelet sümüklərinin sınıqları, daxili üzvlərin zədələnmələri ilə müşayiət olunan 8 ədəd güllə yaralanmaları. **Hüseynov Həbib Həmzə oğlu:** (1937-ci ildə Xocalıda anadan olub) sol diz oynağının və sol baldırın 2 ədəd deşib keçən, sümüklərin açıq qəlpəli sınıqları ilə müşayiət olunan güllə yaralanmaları. **Məmmədov Vaqif Şamil oğlu:** (1951-ci ildə Xocalıda anadan olub) boyun nahiyəsinin bir ədəd əzilmiş-deşilmiş yarası, döş qəfəsinin iki ədəd deşib keçən, bir ədəd boşluğa keçən güllə yaralanmaları. **Məmmədov Vasif Salman oğlu:** (1965-ci ildə Xocalıda anadan olub) başın sol gicgah nahiyəsinin deşib keçən, kəllə sümüklərinin sınıqları, baş-beynin dağılması ilə müşayiət olunan güllə yaralanması. **Nəbiyeva Sara Əkbər qızı:** sağ əlin və sağ budun sümüklərinin sınıqları və arteriyaların zədələnməsi ilə müşayiət olunan qəlpə yaraları. **Nəsibov Şiraslan Qaçay oğlu:** (1969-cu ildə Xocalıda anadan olub) kəllə qapağı sümüklərinin sınıqları, baş-beyinin dağılması və müşayiət olunan, başın, bazu və said nahiyələrinin qəlpə yaraları.

Beynəlxalq Humanitar qanunlarda işgəncələrin qadağan edilməsi, bütün müharibə qurbanları üçün nəzərdə tutulan əsas tələb olub. 1949-cu ilin məşhur 4 Cenevrə Konvensiyası 188 Dövlət tərəfindən ratifikasiya edilmişdir. Həmin sənədlər beynəlxalq silahlı münaqişələrin aparılma qaydalarını, döyüşən tərəflərin hüquq və vəzifələrini müəyyən edir və xüsusən də, düşmənə qarşı istifadə edilən vasitələri məhdudlaşdırır, döyüşdə artıq iştirak etməyən hərbiçilərin və döyüş əməliyyatlarında bilavasitə iştirak etməyən şəxslərin, yəni mülki əhalinin mühafizəsinə üstünlük verir. Bura əsirlər, yaralılar, dinc əhali daxildir. Dörd Konvensiyanın hər biri işgəncələrin verilməsini və qəddar rəftarın digər növlərini qadağan edir. Cenevrə Konvensiyalarına əlavə edilmiş iki protokol (1977) bu sənədlərin tətbiq olunma dairəsini və müdafiə qabiliyyətini genişləndirir. 1-ci Protokol (153 dövlət tərəfindən ratifikasiya edilmişdir) beynəlxalq münaqişələri əhatə edir. 2-ci Protokol (145 dövlət tərəfindən ratifikasiya edilmişdir) qeyri-beynəlxalq münaqişələri əhatə edir.

Bu elə bir məna kəsb edir ki, Xocalıda müharibənin və yaxud münaqişənin xüsusiyyətindən asılı olmayaraq, təyin edilmiş əsas qaydalara riayət olunmalı

idi. Bunlardan biri işgəncələrin qadağan edilməsidir ki, bu da beynəlxalq humanitar qanunla və insan haqları üzrə qanunla ümumilik təşkil edir.

Bilirik ki, bütün insanların işgəncələrdən və yaxud qeyri-insani, qəddar və alçaldıcı rəftardan qorunmasının təmin edilməsindən ötrü mümkün olan standartların hazırlanması üçün BMT çox illər sərf etmişdir. BMT-yə üzv olan dövlətlər aydın şəkildə bəyan edirlər ki, işgəncələrin qadağan edilməsində heç bir müstəsna hal ola bilməz və bu cür sui-istifadələrə qarşı mübarizə aparmaq məqsədilə onlar digər öhdəlikləri də qəbul edirlər. Belə sənədlərin arasında ən mühümləri, İnsan Haqları barədə Ümumi Deklarasiya, Vətəndaşlıq və Siyasi hüquqlar barədə beynəlxalq razılaşma, Dustaqlarla (Məhbuslarla) Rəftar üzrə minimum standart qaydaları, İşgəncələrə və digər Qəddar, Qeyri-İnsani və yaxud Alçaldan Rəftarlara məruz qalmaqdan bütün insanların müdafiəsi üzrə BMT-nin Deklarasiyası, Qanunların Həyata keçirilməsi zamanı vəzifəli şəxslər üçün Davranış Məcəlləsi, Dustaqların və Tutulub saxlanılmış şəxslərin işgəncələrdən, qəddar, qeyri-insani və alçaldan rəftardan qorunması üzrə Səhiyyə İşçilərinin, xüsusilə, həkimlərin roluna dair Tibbi Etika Prinsipləri (Tibbi Futika Prinsipləri), İşgəncələr və digər Qəddar, Qeyri-İnsani və Alçaldıcı rəftara və cəzalara qarşı Konvensiya (İşgəncələrə qarşı Konvensiya), hər bir növ tutulub saxlanmağa məruz qalmış və həbs edilmiş bütün şəxslərin müdafiəsinə dair Prinsiplərin Əsas Hissəsi (Tutulub saxlanmaya dair Prinsiplər Külliyatı) və Məhbuslarla rəftar üzrə Əsas Prinsiplərdir.

Biz Xocalı yaşayış məntəqəsində BMT-nin İnsan Hüquqları üzrə Dövlətlərin öhdəlik prinsiplərinin necə pozulmasının şahidi olduq. İşgəncələrə qarşı Komitə, İnsan Haqları Komitəsi, İnsan Haqları üzrə Komissiya, İşgəncələr üzrə xüsusi Məruzəçi, Qadınlara qarşı Zorakılıq üzrə Xüsusi Məruzəçi, İnsan Haqları Komissiyası tərəfindən təyin edilmiş ölkələr üzrə Xüsusi məruzəçilər isə demək olar ki, bu sahədə əhəmiyyətli bir iş görmədilər. Bütün bu haqsızlıqlara dünya ictimayyətinin diqqətini cəlb etmək məqsədi ilə Heydər Əliyev fondu Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya Ədalət!" kampaniyasına start verdi. Az bir müddətdə sayasız-hesabsız insanlar onun haqq səsinə səs verib, ədalət naminə bu kampaniyanın aktiv üzvlərinə çevrildilər. Bu həm ağır və həm də ciddi missiya olaraq bü gün də davam edir.

A) İşgəncə vermə hallarının qarşısını almaq üçün qanuni, inzibati, hüquqi və digər effektiv addımların atılması vacib idi. Heç bir müstəsna hallar,

müharibə də daxil olmaqla, işgəncələrə bəraət qazandıra bilən faktorlar kimi qəbul edilə bilməz. (İşgəncələrə qarşı Konvensiyanın 2-ci Maddəsi, İşgəncələrə qarşı müdafiəyə dair Deklarasiyanın 3-cü Maddəsi);

B) Əgər bir ölkədə şəxslərin işgəncələrə məruz qalacaqlarına dair inandırıcı kifayət qədər əsas varsa, onların həmin ölkəyə qaytarılmasını, zorla verilməsini təmin etməmək (İşgəncələrə qarşı Konvensiyanın (İQK) 3-cü Maddəsi);

C) İşgəncələrin verilmə halları, orada iştirak etmə halları da daxil olmaqla, cinayət kimi qəbul edilməlidir (İQK Maddə 4, Tutulub Saxlanmağa dair Prinsiplərin Əsas Hissəsi - Prinsip 7, İşgəncələrə qarşı Müdafiə üzrə Deklarasiyanın 7-ci Maddəsi, Məhbuslarla rəftara dair minimum Standartların 31-33-cü Maddələri).

İşgəncələrə qarşı Komitə İşgəncələrə qarşı Konvensiyanın həyata keçirilməsinə dair nəzarət aparır. Komitənin tərkibi yüksək mənəvi dəyərlərə malik, insan hüquqları sahəsində tanınmış və nüfuz sahibi olan 10 nəfər ekspertdən ibarətdir. İşgəncələrə qarşı Konvensiyanın 19- cu Maddəsinə əsasən iştirakçı Dövlətlər, Baş Katiblik vasitəsi ilə, Konvensiyaya dair üzərilərinə götürdükləri öhdəliklərə əsasən həyata keçirdikləri effektiv tədbirlər barədə hesabat təqdim edirlər. Komitə Konvensiyanın müddəalarının yerli qanunlarda necə əks etdirildiyini yoxlayır və təcrübədə bunun necə işlədiyinə nəzarət edir. Hər bir hesabata dair Komitə əsas qeydlər və tövsiyələr hazırlayır və bu məlumatı iştirakçı Dövlətlərə və Baş Assambleyaya təqdim ediləcək illik hesabata daxil edir. Bu prosedur ümumi yığıncaqlarda baş verir.

Biz araşdırmalar zamanı Xocalı qətliamını əhatə edən 28445 müxtəlif materialı vərəqlədik. Bu məktubların hamısı məhz İşgəncələrə Qarşı Komitəyə göndərilmişdi. Hamısı da nəticəsiz qalmışdı.

Lakin İşgəncələrə Qarşı Konvensiyanın 20-ci Maddəsinə əsasən, əgər Komitə İştirakçı Dövlətin ərazisində işgəncələrin sistematik şəkildə tətbiq edildiyi barədə etibarlı mənbələrdən kifayət qədər əsaslı məlumat alırsa, o, İştirakçı Dövləti həmin məlumata baxılması və ona dair öz mülahizələrinin təqdim edilməsi prosesində əməkdaşlıq etməyə dəvət etməli idi. Buna əsas olduğunu hesab edən Komitə öz üzvlərindən bir və yaxud iki nəfərini məxfi təhqiqat aparmaq və sonradan Komitəyə təcili məruzə etməkdən ötrü təyin edə bilər. İştirakçı Dövlətin razılığı ilə, bu cür təhqiqat həmin dövlətin

ərazisinə səfər etməyi də özündə əks etdirə bilərdi. Adətən öz üzvləri tərəfindən əldə edilmiş məlumatları Komitə nəzərdən keçirdikdən sonra hər hansısa tövsiyə və təklifləri rəsmi qaydada İştirakçı Dövlətə təqdim edir. Komitənin bütün təhqiqatları məxfi xarakter daşıyır və təhqiqatın bütün mərhələlərində iştirakçı Dövlət ilə əməkdaşlığa səy göstərilir. Təhqiqatlar sona yetdikdən sonra, Komitə aidiyyəti İştirakçı Dövlətlə məsləhətləşərək, təhqiqatların nəticələri barədə qısa hesabatı Baş Assambleyaya və digər İştirakçı Dövlətlərə təqdim olunacaq illik hesabata daxil edə bilərdi.

Lakin Xocalı və xocalılara gəlincə, faktiki olaraq, onlar köməksiz qalmışdılar. Heç kəs heç kəsin məktubunu oxumaq belə istəmirdi.

Halbuki İşgəncələrə qarşı Konvensiyanın 22-ci Maddəsinə əsasən, İştirakçı Dövlət hər mütəmadi olaraq qurbana çevrildiklərini iddia edən şəxslərin ərizələrini qəbul etmək və nəzərə almaq səlahiyyətini tanımalıydı. Komitə bu cür yazışmanı konfidensial olaraq nəzərdən keçirir, sonra isə öz gəldiyi qənaəti iştirakçı dövlətə və maraqlı şəxsə göndərir. Konvensiyanı ratifikasiya etmiş 112 İştirakçı Dövlətin yalnız 39-u Maddə 22-nin tətbiq olunmasını tanımışdır. Məlum olmayan səbəblərə görə, bu tələblər də indiyədək Xocalı soyqırımında öz həllini tapmamışdır.

Komitənin Baş Assambleyaya ünvanlandırdığı illik hesabatlarda toxunulan əsas məsələlərdən biri, İştirakçı Dövlətlərin İşgəncələrə qarşı Konvensiyanın 12-ci və 13-cü Maddələrinə riayət etməsinin zəruriliyinə diqqət yetirilməsi olur. Bu maddələrdə göstərilir ki, Dövlətlər işgəncə verilməsinə dair qəbul edilmiş bütün şikayətlər üzrə tez və qərəzsiz təhqiqat işləri aparmalıdır. Məsələn, Komitə bəyan etmişdir ki, təhqiqatların səbəbsiz olaraq 15 ay müddətində uzanmasını çox uzun bir zaman sayır. Əgər təhlil olunarsa, görərik ki, Xocalıda verilən işgəncələrlə bağlı Komitənin baş Assambleyasına 1992-ci ilin oktyabr-noyabr aylarında 576 məktub yola salınıb (Bax: Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq konvensiyaların milli qanunvericilikdə iştirakı. Bakı, Qanun, 2003).

İnsan Haqları Komissiyası BMT-nin insan hüquqları üzrə əsas orqanıdır. Onun tərkibi İqtisadi və Sosial Şura tərəfindən üç illik müddətə seçilmiş 53 üzv dövlətdən ibarətdir. Komissiya hər il Cenevrədə altı həftəlik görüşə toplaşır ki, insan hüquqları üzrə məsələləri müzakirə etsinlər. Belə bir fikir yaranır ki, Komissiya Xocalı hadisələri ilə də bağlı faktları araşdıran tədbirlər təşkil edə bilərdi, konvensiyaların və deklarasiyaların işçi

variantlarını hazırlayıb təsdiq üçün daha yüksək BMT orqanlarına təqdim edə bilərdi, ictimai və fərdi sessiyalarda insan haqlarının spesifik pozulması hallarını müzakirə edə bilərdi. **Bilirik ki, hələ 1967-ci ilin 6 iyununda İqtisadi və Sosial Şura 1235 nömrəli qətnamə ilə, Komissiyaya səlahiyyət vermişdir ki, o iri həcmdə insan hüquqlarının pozulması hallarını araşdırsın və insan hüquqlarının müntəzəm olaraq pozulması şəraitlərini əsaslı şəkildə öyrənsın. Belə olduqda ənənəvi bir sual ortaya çıxır. Necə ola bilər ki, bu komissiya Xolokost, Ruanda, Korsika, Bosniya və Herseqovina... hadisələrini araşdırır, təhlil edir, öyrənir, xüsusi sənədlər tərtib edir... Xocalı qırğınlarında isə susur Səbəb? Sualın cavabsız qalması İnsan hüquqları üzrə Komissiyanın fəaliyyətinə kölgə salır və inamsızlıq yaradır.** Bu mandat çərçivəsində, Komissiya digər prosedurlarla yanaşı, insan hüquqlarının pozulmasına dair narahatçılıq əks etdirən qətnamələr qəbul etmiş və insan hüquqlarının pozulması üzrə xüsusi məruzəçiləri təyin etmişdir. Komissiya həm də işgəncələrə və digər qəddar, qeyri-insani və aldadıcı rəftarlara dair qətnamələr qəbul etmişdir: "İşgəncə və digər qəddar, qeyri-insani, alçaldıcı rəftar hallarının baş verməsinə dair bütün iddialar dərhal və qərəzsiz olaraq səlahiyyətli milli rəsmilər tərəfindən yoxlanılmalıdır".

Diri-diri insanları yandırmaq, açıq səma altında krematoriyalar düzəltmək... bütün bunlar insanlığa sığmayan vəhşiyyətdir. Bu faktlara hər kəsin nəzər salmasını istərdik.

Aparılan araşdırmalar göstərir ki, erməni terrorçuları Xocalı qırğınlarında qadınlara qarşı daha amansız olublar. Qadınlara qarşı Zorakılıq üzrə Xüsusi Məruzəçi İnsan hüquqları üzrə Komissiyanın 1994\45 nömrəli qətnaməsinə əsasən təyin edilmiş və onun mandatı 1997\44 nömrəli qətnamə ilə yeniləşmişdir. Xüsusi məruzəçi ölkələrdə, qadınlara qarşı baş vermiş konkret zorakılıq hallarını və aidiyyəti spesifik vəziyyətləri müəyyən etmək və təhqiqat aparmaq üçün, hökümətlərdən məlumatların alınmasına və yaxud əldə edilmiş məlumatlara aydınlıq gətirilməsinə dair onlara müraciət etmək prosedurlarını müəyyən etmişdir. Xüsusi Məruzəçi tərəfindən istifadə edilən Qadınlara qarşı zorakılığın tərifi 20 dekabr 1993-cü il tarixdə Baş Assambleya tərəfindən 48N104 nömrəli Qətnamə ilə qəbul edilmiş Qadınlara qarşı zorakılığın ləğv edilməsi üzrə BMT-nin deklarasiyasından götürülmüşdür. Yaşamaq hüququna yaxud şəxsi toxunulmazlıq hüququna birbaşa təhlükəni yarada bilən,

qadınlara qarşı zorakılıq hallarının mövcud olduğu təqdirdə Xüsusi Məruzəçi tərəfindən təcili çağırışlar edilə bilərdi. Xüsusi Məruzəçi səlahiyyətli milli rəsmilərdən təkidlə tələb edə bilərdi ki, onlar nəinki yaranmış vəziyyətə dair dolğun məlumat təqdim etsinlər və müstəqil, qərəzsiz təhqiqat işləri aparsınlar, həm də qadınlara qarşı zorakılıq hallarının gələcəkdə baş verməməsini təmin etsinlər.

**Biz burda da faktlarsız ötüşə bilmədik. «Xocalıya Ədalət!»in Xocalı qırğınları ilə bağlı fakt və sənədlərinə nəzər salaq: Həşimova Şövkət Şükür qızı: (1947) diri-diri yandırılaraq öldürülmüşdür; Əhmədova Sərfinaz Müxət qızı: (1900) diri-diri yandırılaraq öldürülmüşdür; Quliyeva Aleksandra Cəmil qızı: (1929) sol çiyin qurşağında 3 ədəd kor, bel nahiyəsində bir ədəd deşib keçən, onurğa sütununun, sol körpücük sümüyünün sınıqları ilə müşayiət olunan odlu silah-güllə yaralanmaları; Bəhmənova Dilarə Məhərrəm qızı: (1942) döş qəfəsinin iki ədəd deşib keçən, sağ bud və sağ baldır nahiyələrinin dörd ədəd güllə yaralanmaları; Abbasova Əntiqə Heydər qızı: (1935) döşləri kəsilib, qarın boşluğuna iki güllə vurulub; Məmmədova Tamara Səlim qızı: (1957) hər iki döşü kəsilib, döş vəziləri çıxarılıb, güllələnib; Nuraliyeva Dilarə Oruc qızı: (1958) hər iki gözü çıxarılıb, qarnı yırtılıb, döş qəfəsinə çoxsaylı güllə vurulub; Şadmanova Nazilə Şamil qızı: (1950) daxili orqanları çölə çıxarılıb, ürəyi ayrıca dağıdılıb, sümükləri güllələrdən deşik-deşik olub və s...**

Biz bütün bunları araşdırarkən çox müəmmalı suallarla üz-üzə qaldıq. Axı, nə üçün erməni işğalçılarının, cinayətkarlarının insanlığa qarşı törətdikləri vəhşiliklərdən bəhs edən, 1992-ci ildə BMT-yə ədalət tələbi ilə ünvanlanmış məktublar cavabsız qaldı.

Qeyd etmək istəyirik ki, 22 noyabr 1969-cu ildə İnsan Hüquqları üzrə Amerika Konvensiyası qəbul edilib, həmin Konvensiya 18 iyul 1978-ci ildə qüvvəyə minib. Konvensiyanın 5-ci Maddəsində deyilir:

**1. Hər bir şəxsin fiziki, psixi və mənəvi toxunulmazlıq hüququ var.**

2. **Heç kim işgəncələrə və yaxud qəddar, qeyri-insani və alçaldıcı cəzaya və rəftara məruz qala bilməz. Azadlıqdan məhrum edilmiş hər bir şəxslə insan ləyaqətini uca tutaraq rəftar edilməlidir** (Bax: İnsan hüquqları üzrə Amerika Konvensiyası. Moskva. 1969. ƏN-nin mətbəəsi).

Konvensiyanın 1 Maddəsinə əsasən İştirakçı Dövlətlər öhdəlik götururlər ki, Konvensiyanın müddəalarına uyğun olaraq işgəncələrin qarşısını alacaqlar və onu tətbiq edənləri cəzalandıracaqlar. Konvensiyaya qoşulmuş Dövlətlərdən tələb olunur ki, onlar öz yurisdiksiyaları çərçivəsində işgəncələrin verilməsinə dair təqdim edilmiş hər bir iddianı dərhal və **qərəzsiz olaraq təhqiq edəcəklər. Xocalı qırğınları 1992-ci ilin fevralın 25-dən 26-na keçən gecə baş verib. Hesablayın görün nə qədər vaxt keçib. Konvensiyaya imza atmış dövlətlərin heç birini bu ərazidə görmədik.**

Maddə 8-də göstərilir ki, İştirakçı Dövlətlər öz yurisdiksiyalarının çərçivəsində təminat verirlər ki, işgəncələrə məruz qalmağı barədə iddia ilə çıxış edən hər bir şəxsin  hüququ müdafiə ediləcək. Həm də, əgər işgənçə verilmə halının baş verməsinə inanmağa kifayət qədər əsas varsa İştirakçı Dövlət təminat verməlidir ki, aidiyyətli, səlahiyyətli orqanlar həmin işin qərəzsiz və dərhal təhqiq edilməsini icra edəcəklər və lazım olan təqdirdə cinayət işi açacaqlar. **Biz «lazım olan təqdirdə» ifadəsini anlamadıq. Məgər Xocalıda xüsusi amansızlıqla  törədilən kütləvi qırğınların və vandalizmin  sübuta yetirilmiş  faktlarının  həmin sənədlərin, necə deyərlər, “lazım olan təqdirdə”sinə aidiyyəti yox idimi? Qoy, bütün beynəlxalq təşkilatlar,  dünyanın böyük dövlətləri və nüfuzlu siyasətçiləri bilib  agah olsunlar ki, Xocalıya ədalət tələbi  bu qırğınlara  hüquqi  və siyasi  qiymət verilənədək səngiməyəcək, əksinə günü-gündən öz ətrafında tərəfdarlarının sayını daha da artıracaqdır.  “Xocalıya Ədalət!”in həyəcan təbili bəşəriyyətdə zülm və işgəncə, terror durduqca çalınacaqdır.**

4 noyabr 1950-ci ildə Avropa Şurası İnsan Haqlarının və fundamental azadlıqların qorunması üzrə Avropa Konvensiyasını qəbul etmişdir. Həmin konvensiya  3 sentyabr 1953-cü ildə qüvvəyə minmişdir. Avropa Konvensiyasının 3-cü Maddəsində təsbit olunur ki: Heç kim işgəncələrə və yaxud qeyri-insani və alçaldıcı rəftara məruz qala bilməz. Avropa Konvensiyası Avropa məhkəməsindən və İnsan Hüquları üzrə Avropa komissiyasından ibarət olan nəzarət mexanizmləri yaratmışdır. 1 noyabr 1998-ci ildə yeni reforma qüvvəyə minmiş və köhnə məhkəməni və Komissiyanı yeni daimi Komissiya əvəz etmişdir. İndi fərdi qaydada müraciət etmək hüququ mütləq sayılır və bütün qurbanlar Məhkəməyə birbaşa müraciət edə bilərlər. Məhkəmə Maddə 3-də göstərilən hüquqları təmin etmək yolu kimi işgəncələrin verilməsinə dair

irəli sürülmüş iddiaları təhqiq edilməsini nəzərdə tutur və bunun vacibliyini qeyd edir. Biz bunu qəbul edirik.

Tarixin və bəşəriyyətin qara ləkəsinə çevrilmiş Xocalı soyqırımı işgəncələrin və qeyri-insani, alçaldıcı rəftarların və cəzaların qarşısının alınması üzrə Avropa Komitəsində geniş müzakirə olunmalı idi. Amma təəssüflər olsun ki, bu da olmadı. Bəs səbəb nə idi?

1987-ci ildə AŞ İşgəncələr, qeyri-insani, alçaldıcı rəftarların qarşısının alınması üzrə Konvensiya qəbul etmişdir. Kovensiya 1 Fevral 1989-cu ildə qüvvəyə minmişdir. 1 Mart 1999-cu ilə kimi AŞ-na üzv olan 40 ölkənin hamısı Konvensiyanı ratifikasiya etmişdir. Preventiv mexanizmlərə malik olan bu Konvensiya insan hüquqları üzrə Avropa Konvensiyasının məhkəmə mexanizmlərini daha da dolğun edir. Konvensiya qəsdən müstəqil normalar yaratmır. Konvensiyaya əsasən İşgəncələr, qeyri-insani, alçaldıcı rəftarların qarşısının alınması üzrə Avropa Komitəsi yaradılmışdır. Komitənin tərkibində hər bir üzv ölkədən bir nümayəndə var. Komitəyə seçilən üzvlər qərəzsiz, müstəqil, yüksək mənəvi dəyərlərə malik olmalı və öz missiyalarını yerinə yetirmək üçün yerlərə səfər etməyə hazır olmalıdırlar. Təəssüf edirik ki, Komitənin tərkibində 4 (dörd) nəfər erməni olduğu halda bir nəfər də olsun azərbaycanlı yoxdur.

Komitənin nümayəndə heyəti Komitənin üzvlərindən, tibb, hüquqşünaslıq və digər sahələr üzrə ekspertlərdən, tərcüməçilərdən və Katibliyin üzvlərindən ibarət olur. Hər bir belə nümayəndə heyətinin səlahiyyəti kifayət qədər genişdir: o, azadlıqdan məhrum edilmiş şəxslərin saxlanıldığı yerə baş çəkə bilər; bu cür yerlərə əvvəlcədən elan edilmədən baş çəkə bilər; bu yerlərə təkrarən baş çəkə bilər; istənilən otaqlara heç bir məhdudiyyət olmadan (təkcə həbsxana kameralarına yox) baxış keçirə bilər. Nümayəndə heyətinin üzvləri baş çəkdiyi şəxslərə dair hər bir sənədlə və fayllarla tanış ola bilərlər. Bütövlükdə Komitənin işi əməkdaşlıq və məxfilik üzərində qurulmuşdur. Əldə olunan məlumatlara görə, xocalılar işğal olunmuş ərazilərimizdə qurulmuş məxfi həbsxanalarda saxlansalar da, ATƏT və Komissiya üzvləri hələ də susurlar (Bax: Strassburq. "Avropa Şurası" 1987-ci il. Sənədlər toplusu. S.26-73).

# XOCALILARA VERİLƏN İŞGƏNCƏ NÖVLƏRİ

Bilirik ki, Avropa və Amerika Sistemləri ilə müqayisədə, Afrikanın işgəncələr və onun qarşısının alınması üzrə Konvensiyası yoxdur. İşgəncə məsələləri digər insan hüquqlarının pozulması halları ilə eyni səviyyədə baxılır. İşgəncə məsələlərinə əsasən İnsan və Xalqların Hüquqları üzrə Afrika Xartiyasına uyğun olaraq baxılır. Bu sənəd Afrika Birliyi Təşkilatı tərəfindən 27 iyun 1981-ci ildə qəbul olunmuş və 21 oktyabr 1986-cı ildə qüvvəyə minmişdir. Afrika Xartiyasının 5-ci Maddəsində deyilir: hər bir şəxsin özünün **insan** ləyaqətinə hörmət **edilməsin**ə və hüquqi statusunun tanınmasına hüququ var. İstismarın və insanın alçaldılmasının bütün formaları, xüsusən də köləlik, qul alveri, işgəncələr, qeyri-insani **cəzalar** və rəftarlar qadağan edilməlidir.

*1987-ci ilin iyun ayında Afrika Xartiyasının 30-cu Maddəsinə əsasən İnsan və Xalqların Hüquqlarına dair Afrika Komissiyası yaradılmışdır. Komissiyanın nizamnaməsində göstərilir ki, insanların və xalqların hüquqları inkişaf etdirilsin və onların Afrikada qorunması təmin olunsun. Vaxtaşırı keçirdiyi sessiyalarında Komissiya bir neçə qətnamə qəbul etmişdir ki, onlar Afrikada İnsan Hüquqlarına, İşgəncələrə və digər zorakılıqlara həsr edilmişdir.*

Komissiya, Məhbuslar üzrə Xüsusi Məruzəçi, özbaşına və dərhal yerinə yetirilən Edamlar üzrə Xüsusi Məruzəçi, Qadınlar üzrə Xüsusi Məruzəçi kimi mexanizmlər yaratmışdır. Nə üçün komissiyanın bu hüquqi sənədlərindən biz istifadə etmirik? Onların mandatına Komissiyanın açıq sessiyalarında məruzə etmək funksiyası daxil edilmişdir. Bu mexanizmlər qurbanlara və qeyri-hökümət təşkilatlarına məlumatları birbaşa olaraq Məruzəçilərə göndərmək imkanını yaratmışdır. Eyni zamanda, qurbanlar və yaxud qeyri-hökümət təşkilatları Afrika Xartiyasının 5-ci Maddəsində müəyyən edildiyi kimi işgəncə vermə hallarına dair Komissiyaya şikayət edə bilərlər. Fərdi qaydada şikayətlər Komissiyada baxılana kimi, zərər çəkən tərəf və yaxud QHT eyni məlumatı məruzəçilərə göndərə bilər ki, bu barədə Komissiyanın sessiyalarında məruzə edilsin. Afrika Xartiyasında təmin edilən hüquqların pozulmasına məhkəmə qaydası ilə baxmaq imkanını əldə etmək üçün Afrika Birliyi Təşkilatı İnsan və Xalqların Hüquqları üzrə Afrika

Məhkəməsini yaratmışdır ( Bax: BMT-sənədlər, məruzələr toplusu, XIV-buraxılış. Vaşinqton. İyun 1998).

*17 iyul 1998-ci ildə qəbul edilmiş Roma müqaviləsinə əsasən hərbi cinayətlər, bəşəriyyətə qarşı cinayətlər, genosidi həyata keçirmiş şəxsləri mühakimə etmək üçün daimi Beynəlxalq Cinayət Məhkəməsi yaradılmışdır. Məhkəmə 1949-cu ilin Cenevrə Konvensiyasına əsasən genosidin bir hissəsi olan işgəncələr üzrə (əgər işgəncələr geniş və sistematik hücumun bir hissəsi kimi törədilmişsə) işlərin baxılmasına dair yurisdiksiyaya malikdir. Roma müqaviləsində İşgəncə "günahlandırılan şəxsin nəzarəti və yaxud mühafizəsi altında olan şəxsə bilərəkdən dəhşətli, fiziki yaxud psixi ağrı və əziyyətlərin", yetirilməsi kimi müəyyən edilir. Beynəlxalq Cinayət Məhkəməsinin Nizamnaməsi olan Roma Müqaviləsi 60 ölkə tərəfindən ratifikasiya edildikdən iki ay sonra qüvvəyə minmişdir. 1999-cu il aprel ayında, Roma müqaviləsinin imzalandığı gündən 9 ay sonra, artıq 81 ölkə müqaviləni ratifikasiya etmişdir. Yeni Məhkəmə Hollandiyanın Haaqa şəhərində yerləşir. Məhkəmə, yalnız Dövlətlərin Roma müqaviləsində təsvir edilən cinayətlərin həyata keçirilməsində günahkar olan şəxsləri mühakimə etmək istəmədiyi və yaxud bacarmadığı təqdirdə aidiyyəti yurisdiksiyaya malikdir.*

*Biz əlavə olaraq Xocalını əhatə edən 346* sayda *Beynəlxalq sənədlərə nəzər saldıq*, *Konvensiyalarda*, *Məhkəmə tədqiqatlarında*, *Beynəlxalq terrora qarşı bağlanmış ölkələrarası sənədlərdə*, *diplomatik anlaşmalarda Azərbaycanın itirilmiş və yaxud terror*a məruz qalmış *torpaqları haqqında*, *bir milyon qaçqın və köçkün həyatı keçirən azərbaycanlılar haqqında*, *yandırılmış, insanları terror edilmiş Xocalı qırğınını pisləyən bir rəsmi sənədə rast gəlmədik. Bu unutqanlıq deyil. Bu sadəcə olaraq erməni terrorçularının insanlığa qarşı törətdikləri vəhşiliklərə göz yumub, susmaqla özlərinin ikili standard siyasətini təsdiq edir, öz təşkilatlarını nüfuzdan salır, inamsızlıq yaradır.*

*Etiraf etməliyik ki, Beynəlxalq arenada artıq bir çox xalqların, millətlərin, minlərlə insanı* «*Xocalıya Ədalət!*» *çağırışını bəyənir, müdafiə edir və bu hərəkata qoşulurlar.* «*Xocalıya Ədalət!*», *artıq, vətəndaşlıq hüququ qazanmış beynəlxalq miqyaslı* strateji, humanist bir modelə *çevrilmişdir.*

*Qeyd etmək lazımdır ki, Xocalı soyqırımında dinc əhaliyə silahsız və*

*tənha qalmış insanlara edilən çoxsaylı terror hücumlarında verilən işgəncələr öz xarakter xüsusiyyətlərinə görə, əvvəlki yüzilliklərdə verilən işgəncə növlərindən fərqlənir. Məsələn,* **1905-*ci ilin tarixdə qalan* «18 *qara gün» adlı erməni terrorundan minlərlə insanımız məhv olub. Dağıdılan Güllücə kəndində Məhkəmə Ədil qızı Mahmudovaya və uşaqlarına verilən işgəncələri təsdiq edən sənədlərdə qeyd olunur. 42 yaşlı Məhkəmənin ayaqlarını isti təndirin içinə saldılar... Sonra əllərini yandırıb kabab elədilər. Növbə uşaqlarına çatanda, 5 yaşlı qızının ürəyi tab gətirməyib öldü. O biri uşağını isə qızdırılmış maşa ilə döyub nəfəsini kəsdilər*** (*M.S.Ordubadi.* «*Qanlı illər*» 1991. Bakı). *Və yaxud* 1914-*cü ildə* «*Qərbi Ermənistan*» *yaratmaq istəyən ermənilər katalikos V Gevorqa yazırlar ki*, *biz sən deyəni yerinə yetirdik*; *bir gündə on beş müsəlman uşağını suyu qurumuş quyuya atdıq* (*bu da işgəncənin bir növü idi*). 1918-*ci ildə ermənilər Şamaxıda əhalini bir yerə yığıb*, *yandırırdılar* (*insanı diri-diri yandırmaq hansı Konvensiyaya sığır?*). *Nəhayət,* 1992-*ci ilin Xocalı qırğınlarında verilən işgəncə növləri*. *Bizə elə gəlir ki*, *bütün bu işgəncə növləri Beynəlxalq Konvensiyalarda(sənədlərdə) öz əksini tapmalı və onlara adı və ünvanı ilə qiymət verilməlidir*. *Xocalı soyqırımı zamanı ermənilər tərəfindən işgəncə və amansızlıqla qətlə yetirilmiş şəxslərin aqibəti heç bir konvensiyaya sığmadı*: *Abbasov Taleh Umudvar oğlu:* (1961) *diri-diri yandırılaraq öldürülmüş*, *bütün bədənin III-IV dərəcəli termiki yanığı*; *Abışov Mobil Mövsüm oğlu: (1968) işgəncə verilərək döyülüb öldürülmüşdür*; *Aslanov Iqbal Bahadur oğlu:(1970) döş qəfəsinin çoxlu deşib keçən güllə yaraları, bədənin müxtəlif nahiyələrinin 2-ci dərəcəli termiki yanığı,* ***hər iki gözün çıxarılması, cinsiyyət üzvlərinin kəsilməsi***; *Behbudova Sürəyya Ibrahim qızı*: *(1932) xarici cinsiyyət üzvləri nahiyəsinə yetirilmiş, boşluğa keçən iki ədəd güllə yaralanması*; *Butko Dmitri Nikolayeviç*: (*1927*) ***diri-diri yandırılaraq öldürülmüşdür***; *Bədəlov Tofiq*: *bədəni üzərindən tırtıllı texnika keçməsindən döş qəfəsi və qarın boşluğunun, daxili üzvlərin əzilib dağılması, sümüklərin çoxsaylı sınıqları,* ***hər iki göz almaları kəsilib çıxarılmış.hər iki qulaq seyvanı kəsilmişdi***;*Quliyev Natiq Vəliyəddin oğlu*: (*1972*) *işgəncə verilərək döyülüb öldürülmüşdür*; *Quliyev Əkbər Zəkara oğlu*: (*1961*) *daxili orqanların zədələnməsi ilə müşayiət olunan döş qəfəsinin çoxlu deşib keçən güllə yaralanmaları, bütün bədən səthinin 1-2-ci dərəcəli termiki yanığı*; *Eyvazov Hidayət Əli oğlu*: (*1964*) *başın küt alətlə yetirilmiş, kəllə qapağı*

*sümüklərinin qəlpəli sınıqları, üz skeleti sümüklərinin sınıqları, sol gözün çıxarılması, qarın nahiyəsindən və sağ bud nahiyəsindən deşib keçən iki ədəd güllə yaralanmaları*; *İlyasov Əhməd Məmməd oğlu: (1968)* ***başı kəsilmiş;*** *Kərimov Samran Soltan oğlu: (1924) döş qəfəsinin boşluğa keçən bir ədəd kor güllə yaralanması onun meyitində, həmçinin,* ***hər iki göz almalarının çıxarılması, arxa keçəcək nahiyəsinə butulka yeridilməsi*** *müəyyən edilmişdir. Kərimov Firuz Samran oğlu: (1960)* ***diri-diri yandırılaraq öldürülmüşdür****, bütün bədənin kömürləşənə qədər termiki yanması; Mustafayev Vidadi Şəfa oğlu: (1963)* ***başı kəsilmiş;*** *Məmmədov Eldar Əmirxan oğlu: (1957) başın kəllə boşluğuna keçən 3 ədəd, baş nahiyəsində iki ədəd küt alətlə yetirilmiş, kəllə qapağı sümüklərinin sınıqları ilə müşayiət olunan yaralar, sol çiyin və döş qəfəsi nahiyələrində 4 ədəd kəsici-deşici alətlə yetirilmiş yaralar; Nağıyev Yusif Şirin oğlu: (1928) işgəncə verilərək döyülüb öldürülmüşdür; Nuriyev Hafis Yusif oğlu: (1962)* ***başı kəsilmiş****; Orucov Telman Ənvər oğlu: (1956) döş boşluğuna keçən bir ədəd güllə yaralanması, döş qəfəsində küt alət təsirindən əmələ gəlmiş qançırlar və qabırğaların sınıqları,* ***başının dərisi soyulmuşdur*** *(Bax: "İstintaq qrupu"nun materialları.Qovluq 2. s.56-64).*

Məsələn, Xocalıda terrora məruz qalan insanlarda sınıqların, krepitasiyanın, şişlərin və ağrıların müəyyən edilməsi üçün üz toxumalarının palpasiyası aparılıb. Kəllə beyin travmaları, hərəkət və hissiyat komponentləri müayinədən keçirilib. Dad və iy bilmə qabiliyyəti yoxlanılıb. Üz sümüklərinin sınması, sümük qırıqlarının yerdəyişməsi və yumşaq toxumaların zədələnməsinin və ağırlaşmasının diaqnostikasını müəyyən etmək üçün kompüter tomoqrafiyası keçirilib. Üz travmaları çox vaxt kəllədaxili zədələrlə və onurğa sutununun boyun fəqərələrinin travması ilə müşahidə olunub.

Məlumata görə, göz travmalarının müxtəlif növləri var: konyunktivaya qanaxma, göz büllurunun yerdəyişməsi, retrobulbar qanaxma və görmə dairəsinin itirilməsi. Əsirlikdə müalicənin olmaması və düzgün aparılmaması ciddi fəsadlara səbəb olub. Belə ki, 406 nəfər əsir və girovun göz yuvasının sümüklərinin sınması, göz almacığının və retrobulbar yumşaq toxumaların dağıdılması faktları aşkar olunmuşdur.

Əsirlikdə ağır şəkildə döyülmələrin ən çox rast gəlinən nəticələri qulaqların travmaları və, xüsusən də, təbil zarının yırtılmasıdır. Qeyd edək

ki, ən geniş yayılmış işgəncə növü Latın Amerikasında “telefon" kimi tanınan işgəncədir. Bu zorakılığın tədbiqi zamanı hər iki əlin içi ilə qulaqlara endirilən güclü zərbələrin nəticəsində eşitmə keçidində təzyiq yaranır və təbil zarının yırtılması baş verir. 10 gün içində sağala bilən təbil zarının yırtılmasını dərhal müəyyən etmək olar. Bu zaman orta və xarici qulaqda maye müşahidə oluna bilər. Əgər otoreya laborator analiz tərəfindən təsdiqlənirsə, yırtılma sahəsini müəyyən etmək üçün maqnit rezonans və kompüter tomoqrafiyası vasitəsi ilə vizualizasiya aparmaq lazımdır.

Xocalılıların kütləvi şəkildə döyülməsi nəticəsində aşağı çənənin, burunun sınması yaxud yerdəyişməsi baş verib, gicgah sümüyünün sınması, eşitmə sümükcüklərinin zəncirinin qırılması müşahidə olunub.Üzün aşağı hissəsinə və çənə nahiyəsinə vurulan zərbələrin nəticəsi çox vaxt gicgah-aşağı çənə oynağının sindromuna gətirib çıxarır. Bütün bunları eləcə də, boğaza endirilən zərbələrin nəticəsində baş vermiş dilaltı sümüyün və qırtlaq sümüyünün krepitasiyasını müəyyən etmək üçün Rusiyadan, Almaniyadan, Türkiyədən, İrandan həkim qrupları cəlb edilmişdir.

Nevroloji müayinə zamanı onlarla Xocalı sakininin kəllə-beyin sinirlərinin, hissiyat orqanlarının və periferik əsəb sisteminin zədələnmiş vəziyyəti, eləcə də vitamin çatışmamazlığı, alınan travmalar nəticəsində hərəkət və sensor neyropatiyaların mövcudluğu halları istintaq zamanı bir daha məlum olub. Asma yolu ilə tətbiq edilən işgəncələrə məruz qaldığı barədə məlumat verən Xocalı sakininin müayinəsi zamanı, çiyin kələfinin zədələnməsinə xüsusi diqqət yetirmək lazımdır (bilək əzələlərinin müxtəlif qüvvə qabiliyyəti, əllərin əzələ tonusunun kəskin şəkildə aşağı düşməsi, bazu önü əzələlərinin zəifliyi və sairə). Radiokulopatiya, digər neyropatiyalar, kəllə-beyin əsəblərinin zədələnməsi, ağrıya qarşı yüksək həssaslıq, paresteziyalar, hiperesteziyalar, hərəkət funksiyasının, yerişin və koordinasiyanın dəyişilməsi-bütün bunlar işgəncələrlə bağlı travmaların nəticəsi olaraq qalır. Dindirmə zamanı işgəncələrə məruz qalan Xocalı sakinlərinin anamnezlərində baş gicəllənməsi və ürək bulanması qeyd edilən pasientlərə dair tibbi baxış apararkən, vestibulyar aparatı müayinə etmək və nistaqma əlamətlərini qeyd etmək lazım gəlib.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Heydər Əliyev Fondu “Xocalıya Ədalət!” çağırışı çərçivəsində Beynəlxalq təşkilatlarla daxildəki dövlət qurumları arasında əlaqələrin yaradılmasında, girov və əsirlərin azad

edilməsində də xüsusi fəallıq göstərir. Fond öz nüfuzuna görə, artıq insanlarımızın ümid yerinə çevrilib. İstintaq materiallarına görə, Heydər Əliyev Fonduna 11 min adamın işgəncələrin tətbiq edilməsinə dair iddia ərizəsi təqdim olunub. Bu ərizələrin araşdırılmasına tibb müəssisələrinin həkim-ekspertləri, mütəxəssisləri ilə yanaşı müvafiq dövlət qurumlarının səlahiyyətliləri də cəlb olunub. İnsanlara küt və möhkəm alətlə göstərilmiş təzyiq nəticəsində dərialtı yumşaq toxumaların və dərinin yarılması, cırılması və bərk əzilməsi daha tez bədənin çıxıntı şəklində olan hissələrində müşahidə olunub. Çünki dərinin küt alətdə dərialtı toxumaların altında olan sümük arasında sıxılması baş verib. Lakin kifayət qədər güclü təzyiq göstərildiyi üçün dərinin yarılması bədənin istənilən hissəsində müşahidə olunub. **Asimmetrik çapıqlar, qeyri-adi sahələrdə çapıqlar və çapıqların diffuz yanması, bunlar hamısı erməni separatçılarının xocalılara qarşı xəsarətlərin bilərəkdən yetirilməsinə dəlalət edir.**

Yandırmalar elə bir işgəncə formasıdır ki, dərinin üzərində bərpaedilməz dəyişikliklər əmələ gətirir. Siqaretlə yetirilən yanıqlar çox vaxt uzunluğu 5-10 mm olan, hipopiqmentasiya mərkəzi və qeyri-dəqiq periferiyaya malik olan ləkələr şəklində, dəyirmi yaxud oval çapıqlar qoyur. İşgəncələrə dair həm də siqaretlə yandırma üsulu ilə bədəndə şəkillərin çəkilməsi barədə faktlar var. Erməni terror birləşmələrinin əsir və girovuna çevrilmiş 8 min Xocalı sakini bundan əziyyət çəkir. Qızdırılmış əşya ilə yandırmadan sonra, nəzərəçarpacaq atrofik xarakterli çapıqlar görünür. Bu çapıqlar hipertrofik, yaxud hiperpiqmentasiyalı qıraq zonalar şəklində olan sərhədlərə malik zədənin yetirilməsi üçün istifadə olunan əşyanın formasına uyğun olurlar. Həkimlər qeyd edirlər ki, bu cür izi, məsələn, elektrik cərəyanı ilə qızdırılmış dəmir çubuqla yaxud alışqan vasitəsi ilə qoymaq olar. Çapıqların sayı çox olduqda differensial diaqnostika aparmaq çətin olur. Öz-özünə yaranmış iltihab prosesində səciyyəvi qıraq zonalar olmur, və yalnız nadir hallarda nəzərəçarpacaq şəkildə toxumanın itməsi müşahidə olunur. Yandırmalar həm də hipertrofik və keloid çapıqların əmələ gəlməsinə gətirib çıxara bilər.

Əsir və girov götürülmüş Xocalı qurbanlarının 3300 nəfərinin dırnaqları çıxarılıb. Dırnaq qundağının çıxarılması hallarında, sonradan əmələ gələn dırnaqlar nazik, deformasiyaya uğramış və lay-lay ayırılmış şəkildə olurlar. Dırnaqların çıxarılması hallarında, proksimal dırnaq yastığından toxumanın həddindən artıq böyüməsi baş verib ki, bu da dırnağın pteriqiumuna gətirib

çıxarıb.

*Xocalıların bədənlərində iti əşya ilə* ***yetirilmiş yaralar daha çoxdur. Belə yaralar o hallarda baş verir ki, dəri bıçaq süngü, şüşə qırığı kimi iti əşyalarla kəsilir. Ekspertlərin rəyinə görə, bura deşilmiş və kəsilmiş yaralar daxildir. Yaraların iti əşya ilə yetirilməsi, adətən yırtıq yaraların və çapıqların qeyri-bərabər yerləşməsindən müəyyən olunub və bu da fərqləndirici əlamət kimi xidmət edib.***

Tədqiqat materiallarından göründüyü kimi, 2816 nəfər xocalının sümüklərində salamat yer qalmayıb. Dindirmə prosesi zamanı əldə edilmiş materiallara görə, 514 nəfər xocalılının sümükləri sındırılıb, indi onlar şikəstdirlər. Sınıqların lokalizasiyası, forması və digər xarakteristikaları tətbiq edilmiş qüvvənin mahiyyətini və istiqamətini əks etdirib. Küt travmanın xarakterini və onun baş verdiyi vaxtdan keçən müddəti qiymətləndirərkən hipotetik mülahizələr göstərir ki, xəsarət yaş, cins toxumaların xüsusiyyətlərinə, insanın səhhətinə və travmaların ağırlığına görə fərqlənirlər.

Araşdırma materiallarında qeyd olunur ki, Xocalı qırğınlarında əsas işgəncə formalarından biri baş-beyin travmaları olub. Dəfələrlə alınmış baş travmaları, beyin qabığının atrofiyasına və aksonların diffuz zədələnməsinə gətirib çıxarıb. Travma yıxılma nəticəsində baş verdiyi halda, beyin zədələnır. Eyni zamanda, açıq travma nəticəsində də beyin silkələnməsi baş verir.

Başa zərbələr endiriləndən sonra, işgəncə qurbanları baş ağrılarından şikayətləniblər. Bu ağrılar çox vaxt somatik mənşəli və yaxud boğaz nahiyəsindəki irradiasiyanın nəticəsi olurlar. Baş ağrısı, yayılan subdural hematomanın birinci əlaməti kimi qeydə alınıb. Bu psixi vəziyyətin kəskin şəkildə dəyişməsinə işarədir. Verilən işgəncədən əziyyət çəkən 14 min 216 nəfər xocalının **psixoloji,** yaxud neyropsixiatrik ekspertizaya cəlb olunması məqsədə uyğun sayılıb**.**

İşgəncə forması kimi, güclü silkələmə hər hansı bir xarici iz qoymadan, beyin zədələnməsini əmələ gətirə bilər, lakin müəyyən hallarda döş qəfəsinin yuxarı hissəsində yaxud kürəklərdə qançırlar müşahidə etmək mümkündür. Ən ağır nəticə kimi silkələmələr, beyinin şişməsi, subdural hematoma və tora qanın sızmasına gətirib çıxarıb. Lakin bütün qurbanlar ən çox residiv baş ağrılarından, orientasiyanın itməsindən və psixi vəziyyətin

dəyişməsindən şikayət edirlər. Əsirlikdən və girovluqdan azad olunmuş 419 nəfər xocalılı az yaşlı uşaqların həkim müayinəsi zamanı məlum olub ki, fiziki işgəncələr, psixoloji təzyiqlər və s. nəticəsində onların bir qismində beyin şişi müşahidə olunur.

Fiziki müayinə zamanı müəyyən edilmişdir ki, qarının kəskin travması, qarın boşluğu orqanlarının və sidik traktının zədələnməsi erməni terrorçularının xocalılar üzərində etdikləri zorakılıqların yüngül formasıdır. Qeyd edək ki, böyrəklərin əzilməsinin ən əhəmiyyətli əlamətlərindən biri makrohematuriyadır(sidikdə şoxlu miqdarda qanın olması). 865 nəfərin Periteonal qarın boşluğunda gizli qansızma halları müəyyən edilib. Orqanların zədələnməsi əlamətləri kimi hava, işıq buraxmayan maye yaxud - şişlər, əzik yerləri, qansızma yaxud, partlama qeydə alınıb. Kəskin travmatik və qeyri-travmatik pankreatitin əlamətlərindən biri mədəaltı vəzin ətrafının şişməsidir. Ağır döyülmədən sonra əzilmə sindromundan əmələ gələn kəskin böyrək çatışmamazlığı baş verib. Böyrək zədələrinin sonrakı ağırlaşması isə böyrək hipertoniyasına gətirib çıxarıb.

Məlumata görə, 111 nəfər dinc Xocalı sakini erməni terrorçularının «falanqa»sına düçar olub. "Falanq" - ayağın altına (yaxud nadir hallarda əllərə və ombalara) adətən dəyənək, boru kəsiyi və yaxud analoji əşyalar vasitəsilə təkrarən küt zərbələrin yetirilməsini ifadə edən ən yayılmış işgəncə növünün terminidir. "Falanqa"nın ən kəskin ağırlaşması, əzələlərin nekrozunu, damarların obstruksiyasını, pəncənin distal hissəsinin və ayaq barmaqlarının qanqrenasını doğuran qapalı bölmə sindromdur. Pəncələrin bərpaedilməz deformasiyasına nadir hallarda rast gəlinir, lakin bilək sümüklərinin, əl darağının sümükləri və barmaq sümüklərinin sınması kimi o da baş verir. "Falanqa" - xroniki əmək qabiliyyətini itirməyə gətirib çıxara bilər. Yerimə ağrılı və çətin ola bilər. Ayaqdarağı arxasındakı sümüklər bir yerdə qətiləşmiş (spastik) yaxud həddindən artıq hərəkətli ola bilər. Pəncənin əsas hissəsinin sıxılması və pəncənin baş barmağının yuxarı qatlanması ağrı doğura bilər. Palpasiya vaxtı ayağın altının aponevrozunun uzunluğu boyunca ağrı hiss edilə bilər və aponevrozun birləşməsinin distal sahələri proksimal sümüklərin özülündə və müəyyən dərəcədə dəri üzərində qismən cırıla bilər. Aponevroz normal şəkildə yığılmayaraq yeriməni çətinləşdirəcək, bunun ardınca isə əzələ yorğunluğu baş verə bilər. Pəncənin baş barmağının passiv açaraq aponevrozun cırılmasını müəyyən etmək olar. Əgər aponevroz zədələnməyibsə, baş

barmağın 20 dərəcə yuxarıya açılması zamanı pasient aponevrozun gərgin vəziyyətə düşməsini hiss etməlidir; maksimum olaraq normal açılış 70 dərəcəni təşkil edir. Daha yüksək nəticə aponevrozun sahələrinin zədələnməsinə dəlalət edir.

Xocalı əsir və girovlarının «falanqa»ya salınması nəticəsində bu gün onlar normal həyat yaşamaqdan tamamilə məhrum olmuş, ölümlə olum arasında qalmışlar. «Falanqa»nın tətbiqi nəticəsində alınmış travmalar çox vaxt maqnit-rezonans vizualizasiya, kompüter-tomoqrafik skan edilmə və ultrasəs müayinə kimi rentgenoloji metodlar vasitəsi ilə təsdiq edilib.

Araşdırma materiallarına görə, ermənilər bir gündə 161 nəfər xocalını asıb. Asılma şiddətli ağrı yetirə bilən, lakin az və yaxud heç travma sübutları qoymayan geniş yayılmış işgəncə formasıdır. Bu işgəncə müxtəlif formalarda tətbiq edilib.

a) «Xaç üzərində» asılma. Əsir və girovları iki tərəfə ayrılmış və üfüqi tirə bağlanmış əllərindən asırlar;

Cəmdək şəklində asılma. Qurbanı yuxarıya qaldırılmış əllərinin biləklərindən asırlar - ya hər ikisindən, ya da növbə ilə hər birindən;

b) Başı aşağı cəmdək şəklində asılma. Qurbanı başı aşağı ayaq pəncələrindən asırlar;

c) «Fələstinsayağı asılma». Qurbanı arxadan bağlanmış və üfüqi tirə möhkəmləndirilmiş bazu önlərindən asırlar, bu halda dirsəklər 90 dərəcə qatlanmış vəziyyətdə olur;

d) «Tutuquşu tarından asılma». Qurbanı qatlanmış dizlərinin altından keçən tirə bağlayırlar, bu halda biləklər adətən topuqlara bağlanılır.

Asılma müddəti 15-dəqiqədən bir-neçə saata qədər uzana bilər. «Fələstin-sayağı asma» qısa vaxt çərçivəsində çiyin kələfinin xroniki zədələnməsini əmələ gətirmək imkanına malikdir. «Tutuquşu üçün tardan» asılma diz oynaqlarının xaçvari bəndlərinin qırılmasına gətirib çıxara bilər. Xroniki mərhələyə keçəndə, palpasiya zamanı çiyin oynaqları sahəsində ağrıların olması müşahidə edilir. Hətta bir çox illər keçdikdə belə ağırlıq qaldıranda və onları tərpədəndə güclü ağrı hiss edilir. Asılmadan sonra kəskin ağırlaşma dövrü bazu önü əzələlərin yaxud əl pəncələrinin zəyifliyindən, ağrılar və parasteziyalarda, keyimədə, toxunmağa qarşı hissiyyatın itirilməsində, vətəri reflekslərin itirilməsində özünü büruzə verir. Keyimə və daha çox parasteziya müşahidə olunur. Əllərin yuxarı qaldırılması və ağırlığın

qaldırılması ağrı, keyimə və zəyiflik doğura bilər. Nevroloji travmadan əlavə çiyin oynaqlarının bəndlərinin qırılması, kürəyin yerdəyişməsi və çiyin nahiyəsində əzələlərin zədələnməsi müşahidə oluna bilər.

Araşdırma materiallarına görə, 52 nəfər Xocalı əsiri elektrik cərəyanı ilə verilən işgəncədən öldürülüb. Elektrik cərəyanı bədənin istənilən hissəsinə birləşdirilmiş elektrodlar vasitəsi ilə verilir. Bu cür bədən hissələri, əsasən, əl pəncələri, ayaq pəncələri, əl və ayaq barmaqları, qulaqlar, məmələr, ağız, dodaqlar və cinsiyyət orqanları nahiyəsidir. Elektrik cərəyanı qısa yolla iki elektrod arasından keçir. Onun verilməsi zamanı xarakterik əlamətlər əmələ gəlir. Cinsiyyət orqanları nahiyəsində dəhşətli ağrı hiss edilir. Nəzərə alaraq ki, elektrik cərəyanı verildiyi istiqamətdə bütün əzələlər qıc olaraq yığılma vəziyyətindədir, yüksək cərəyanın verilməsi təqdirdə çiyinin yerindən çıxması və bel, boğaz bölmələrinin radikulopatiyası (sinir köklərinin zədələnməsi) baş verə bilər.

Dişlərə təsir edərək işgəncələrin verilməsi dişlərin çıxarılmasında, vurulub sındırılmasında, onlara elektrik cərəyanının verilməsində ifadə oluna bilər. Bu hərəkətlər diş plomblarının düşməsinə, dişlərin sınmasına və itirilməsinə, diş ətlərinin şişməsinə, qanaxmaya, gingivitə, stomatitə, aşağı çənənin sınmasına gətirib çıxara bilər. Gicgah-aşağı çənə sindromu bu oynaqlarda ağrı yaradır, çənənin hərəkətliliyini məhdudlaşdırır və bir sıra hallarda sifətə endirilən zərbələrdən, elektrik cərəyanının tətbiqindən doğan əzələ qıcolmaları həmin oynağın yerindən çıxmasına gətirib çıxarır. Hesablamalara görə, əsir və girovluqdan, yurd- yuvasından baş götürüb qaçan Xocalı camaatının 54 faizinin dişləri protezdir...

Erməni terrorçuları, quldur və soyğunçu dəstələri xocalılara elə işgəncələr veriblər ki, bəzən onları dilə gətirmək mümkün olmur. Məsələn, seksual xarakterli işgəncələr əsirlərin soyunmağa məcbur edilməsindən başlayır. Bir çox ölkələrdə işgəncələr məhz bununla müşaiyət olunur. Məhz çılpaq və köməksiz şəkildə olduqda insan öz müdafiəsizliyini daha kəskin hiss edir. Çılpaqlıq hər bir işgəncə elementi qarşısında qorxunu artırır, çünki hər zaman qəddar rəftara, sodomiyaya və zorlamağa məruz qalmaq ehtimalı var. Bundan əlavə, sözlə hədə-qorxu gəlməsi, təhqirlər, seksual xarakterli ələ salmalar seksual işgəncənin tərkib hissələridir. Bütün hallarda qadınların kobud şəkildə əllənməsi onlara travma yetirir və işgəncə sayılır. Dustaqları bir-birinin üzərində cinsi zorakılıq tətbiq etməyə məcbur edirlər və bu da

ağır emosional gərginliyə səbəb olur. Qadının zorlamaya məruz qalmaq ehtimalından qorxması, xüsusən də zorlama ilə bağlı və sosial normalar ilə müəyyən edilən biabırçılıqdan qorxması, travmanı daha da ağırlaşdıra bilər. Hamilə qalmaq imkanı, bakirəliyin itirilməsi və gələcəkdə uşaq doğmaq qabiliyyətinin saxlanılması (hətta potensial ərdən və cəmiyyətin digər üzvlərindən bu faktı gizləmək imkanı olsa belə) üzrə qorxulara şamil edilən travmalara barmaq arası baxmaq olmaz. Təəssüf ki, bütün bu işgəncələr bizlərə verildi.

Əgər seksual zorakılığın qurbanı sosial-mədəni şəraitlər ucbatından, yaxud şəxsi səbəblərdən istəmir ki, bu fakt hamıya aşkar olsun, tibbi müayinəni aparan həkim, təhqiqatı aparan müəssisələr və məhkəmələr qurbanın şəxsi həyatının toxunulmazlığı hüququnun qorunmasını təmin etməlidirlər. Seksual zorakılığa məruz qalmış işgəncə qurbanları ilə qarşılıqlı anlaşma yaratmaq üçün xüsusi psixoloji hazırlıq və aidiyyatı psixoloji dəstək lazımdır.

Xocalı əsirləri arasında 28 nəfər kişinin cinsiyyət orqanları çıxarılıb. Bura daxildir xayalığın sıxılması, burulması yaxud dartılıb uzadılması, həmin nahiyəyə yetirilmiş birbaşa travmalar, işgəncələrə məruz qalmış kişilər adətən kəskin dövrdə ağrılardan şikayət edirlər. Hiperemiya, nəzərə çarpan şiş və dərialtı hematoma aşkar edilə bilər. Sidiyin tərkibində çoxlu sayda eritrositlərin və leykositlərin mövcud olması. Hər hansı bir həcmli törəmə aşkar edildikdə müəyyən etmək olur ki, bu xayanın hidroposu, hematoseli, yoxsa qasıq yırtığıdır. Əgər bu qasıq yırtığıdırsa, ekspert bu törəmənin üzərindəki toxum kanalını palpasiya edə bilməyəcək. Əgər bu xayanın hidroposu, yaxud hematoseledirsə, bu törəmənin üzərində yerləşən toxum kanahnın normal strukturları palpasiya edilir. Xayanın hidropsu, xayanın vaginal təbəqəsi və onun əlavə törəmələri sferasında, xayanın iltihabı ucbatından, həddindən artıq mayenin toplanması nəticəsində, yaxud qarın boşluğunda və kanalda limfatik və venoz damarların obstruksiyası ucbatından drenaj edilmənin azaldılması nəticəsində baş verir. Hemasotela travma nəticəsində vaqinal təbəqənin daxilində qanın toplanması nəticəsində yaranır. Hidropsdan fərqli olaraq hematosele isığa tutulmur. Xayalığın travması həm də xayanın burulmasına gətirib çıxara bilər. Bu cür xəsarət aldıqda xaya öz təməlində burulur və bunun nəticəsində xayaya qan axını dayanır. Bu kəskin ağrılarla və şişmə ilə müşaiyət olunur və təcili cərrahi

müdaxilə tələb edir. Əgər burulmanın qarşısı vaxtında alınmasa, bu xayanın ölümünə gətirib çıxarır. Bu gün xayalıq nahiyəsinə təsir göstərilməklə işgəncələrə məruz qalmış şəxslər sidik yollarının xroniki infeksiyasından, ereksiya funksiyasının pozulmasından və xayaların atrofiyasından əzab çəkirlər. Posttravmatik stres pozulmaları simptomları da nadir hallar deyil. Xroniki mərhələdə, artıq, işgəncələrdən doğan xayalıq patologiyasını digər xəstəliklər nəticəsində əmələ gəlmiş xayalıq patologiyasından ayırmaq qeyri-mümkündür. Əgər tam uroloji müayinə hər hansı fiziki çatışmamazlıqları aşkar etmirsə bu ehtimal etməyə imkan yaradır ki, uroloji simptomlar, kişilikdən düşmə (impotensiya), yaxud digər seksual problemlər psixoloji səbəblər ilə izah edilə bilər.

Bütün bunlar Azərbaycan Respublikası Prokurorluğunun, Milli Təhlükəsizlik Nazirliyinin, Daxili İşlər Nazirliyinin istintaq materiallarından götürülüb. AMEA-nın İnsan Hüquqları İnstitutunda isə Xocalı qırğınlarında ən adi insani hüquqları pozulmuş bu şəxslərlə ayrı-ayrılıqda dinləmələr olub. Heydər Əliyev Fondunun RF-dakı Nümayəndəliyinin rəhbəri Leyla xanım Əliyevanın «Xocalıya Ədalət!» harayında beynəlxalq terrorun əzab və işgəncələrinə məruz qalmış bu kimi insanların haqlarının bərpasına və erməni terror dəstələrinin cinayət əməllərinin obyektiv araşdırılmasına ədalət tələb olunur.

Azərbaycan xalqına, Xocalı camaatına edilən bu qəsdlərdən, zülm və işgəncələrdən, terrordan bir müddət sonra «Xocalıya Ədalət!» çağırışı eşidildi. Bu təkcə xocalılara deyil, bütün planetin terrorizmdən, işgəncələrdən əziyyət çəkən insanlarına haqq, ədalət tələbi idi. Və kampaniyanın gedişi dövründə bu humanist çağırışa qoşulanların tədricən artması bunu bir daha təsdiq etdi, "Xocalıya Ədalət!" layihəsinə beynəlxalq miqyasda nüfuz qazandırdı.

## «XOCALIYA ƏDALƏT!» TARİXİ ZƏRURƏTDƏN YARANDI

Fikrimizcə, ən çətin dəqiqələrdə belə, həqiqəti demək, ədalətin və haqqın keşiyində dayanmaq insandan həmişə, cəsarət tələb edib. Amerikalı sosioloq Rark Robert isə (1864-1944) iddia edir ki, həqiqəti deməklə iş bitmir. Ən başlıca məqamlardan biri dediyin həqiqəti, ədaləti müdafiə etməkdir. ***1997-ci ildə baş verənlərə nəzər salaq. Şübhəsiz, siyasətdə ekskursiya olmasa söylədiyimiz fikrin və açıqlamanın, düşüncənin, eləcə də çıxarılan qərarın məntiqi zəifləyər və yaxud, heç olmaz. Ulu Öndərin 30 iyul 1997-ci ildə etdiyi çıxışa (ABŞ, Vaşinqton) diqqət yetirək. Bu cəsarətli çıxış Azərbaycan və beynəlxalq ictimayyət üçün çox vacib, həm də əhəmiyyətli idi. Ulu öndər Heydər Əliyev Ağ Ev rəhbərliyinə, konqresmenlərə, güclü siyasi xadimlərə, dövlət nümayəndələrinə və iş adamlarına kəskin bir mövqedən xatırladırdı: «...Amerika dövlətinin, cəmiyyətinin dünyada ən böyük xüsusiyyəti onun ədalətli olmasıdır. Amma ABŞ Konqresinin belə ədalətsiz hərəkəti (söhbət torpaqlarımızı işğal edən erəməni separatçılarının Konqres tərəfindən müdafiə olunması və ədalətsiz qərarların verilməsindən gedir – V.S., R.V.) Amerikanın ümumi işinə heç uyğun gəlmir. Biz bu məsələləri qaldırarkən bəzən deyirlər ki, bunlar erməni diasporunun, lobbisinin təsiri altında olublar. Mən bəzən düşünürəm – erməni lobbisi Amerikanın hakimiyyət dairələrindən güclüdürmü? Mən belə düşünmək istəmirəm. Mənə deyirlər ki, Amerikada bir milyon erməni yaşayır. Amerikanın 300 milyon əhalisi var. Əgər bir milyon erməni sizin başınıza bu işi gətirəcəksə, onda bir azdan sonra Amerikada da bir erməni dövləti yaranacaqdır, bu təhlükənin qarşısını alın...»***

Bu iradəli çıxış sanki bir çox diplomatları silkələmişdi. Bu gün isə həmin o cəsurluğu, yəni düşmənə qarşı barışmaz mövqedən çıxış etməyi, ona fürsət və aman verməməyi ən ağır və tənha qalan vaxt «Ədalət yürüşü» ilə düşmənin sinəsindən vurub, ən yüksək tribunalardan yerə salmaq kimi yüksək prinsipləri biz «Xocalıya Ədalət!» çağırışının fəaliyyətində görürük. «Xocalıya Ədalət!» Azərbaycan xalqının ən qüdrətli siyasi, mənəvi-psixoloji səngəridir. Çünki «Bütün dağıntılara baxmayaraq şərin kökü kəsilməyib. Çünki bu şər insanın öz təbiətidir...» (İtaliya filosofu Makiavelli Nirrola

(1469-1527).

Çoxsaylı materiallara nəzər saldıqdan sonra aydın olur ki, Heydər Əliyev Fondunun əsas sütünlarından biri də onun bünövrəsindəki məğlubedilməzlik və cəsarətdir.

Vaxtilə Azərbaycanda ilk fondlar cəmiyyətlər və yaxud qruplar şəklində formalaşıb. Amma bütün bunlar uzun sürməyib. Tarixi proseslər, baş verən ictimai-siyasi hadisələr həmin qurumları vurub, sıradan çıxarıb. Məsələn, dövrünün mütərəqqi fikirli ziyalısı Həsənbəy Zərdabi XIX əsrin sonu – XX əsrin əvvəlində "Cəmiyyəti-xeyriyyə binası" adlı məqaləsində bu haqda yazır: "1871-ci ildə mən bizim müsəlmanlar üçün bir cəmiyyəti-xeyriyyə nizamnaməsi tərtib edib və bir neçə qeyri adamlara da onun ərizəsinə qol çəkdirib, Sərdara verib təsdiq elətdirdim". Buradan bəlli olur ki, cəmiyyətin H.Zərdabi tərəfindən rus və Azərbaycan dillərində yazdığı Nizamnaməsi 1871-ci ildə təsdiq edilmişdir.

Xeyriyyə Cəmiyyəti yaratmağın Bakıda mümkün olmadığını yəqin edən Həsənbəy tələbələri Nəcəfbəy Vəzirov və Əsgərağa Adıgözəlovla birlikdə cəmiyyətə üzv yazdırmaq və vəsait toplamaq məqsədi ilə Şamaxı, Gəncə, Tiflis, İrəvan, Naxçıvan və Şuşa şəhərlərinə səfərə çıxır. Bu şəhərlərdə olub, müsəlmanlar üçün xeyriyyə cəmiyyətini yaratmasını əhaliyə bəyan edir. İki aydan artıq davam edən bu səfərdən o, əliboş qayıdır. Bundan sonra eyni məqsəd üçün o, Quba və Dərbəndə gedir. Sentyabrda Şamaxı və Dərbənddən bir neçə adam pul və hər şəhərə bir yetim uşaq göndərir ki, cəmiyyət onları saxlayıb oxutsun. Tarixi faktlardan məlum olur ki, Həsənbəy öz vəsaiti hesabına cəmiyyəti iki il saxlamış, daha sonra onu bağlamaq məcburiyyətində qalmışdır. H.Zərdabi öz amalından dönməyib, XX əsrin əvvəllərində bir daha bu məsələyə qayıdaraq "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin rus və Azərbaycan dillərində nizamnaməsini yazıb, ərizə ilə Qafqaz Canişinliyinə müraciət etmişdir. 1905-ci il oktyabrın 10-da Qafqaz Canişini Vorontsov-Daşkov Cəmiyyətin Nizamnaməsini təsdiq etmişdir. 1913-cü ildə Bakıda İ.Aşurbəyovun "Kaspi" mətbəəsində çap olunan və Azərbaycan Mərkəzi Dövlət Tarix arxivinin 46-cı fondunda saxlanılan nüsxəsindən bəlli olur ki, cəmiyyətin nizamnaməsi 6 bölmədən və 42 bənddən ibarət olmuşdur. Nizamnamənin sonunda Cəmiyyətin 21 nəfər təsisçisinin adı qeyd olunmuşdur. Cəmiyyətin ilk iclasında 11 nəfərdən ibarət idarə heyəti seçilmişdir. Burada H.T.Tağıyev idarə heyətinin sədri, İ.Hacıyev

müavin, H.Mustafayev xəzinədar, Ə.Ağayev katib, Ə.Əhmədov, İ.Səfərəliyev, H.Zərdabi, Ə.Topçubaşov isə idarə heyətinin üzvləri seçilmişdilər (Bax: Tarixi keçmişimiz. Bu günümüz və gələcəyimiz. "Azərbaycan" nəşriyyatı 1995. s.143).

Beləliklə, Azərbaycanda "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" adı ilə məlum olan Xeyriyyəçilik təşkilatı fəaliyyətə başladı. Onun maliyyələşdirilməsi əsasən H.Z.Tağıyevin və digər Bakı milyonçularının üzərinə düşürdü. İdeya istiqaməti keşiyində isə H.Zərdabi və onun həmfikirləri dururdu.

Nizamnamədə Cəmiyyətin məqsədi belə izah edilir: müalicəxanalarda, əlillər evlərində, digər xeyriyyə müəssibələrində əldən düşmüş qocaları saxlamaq, kasıb müsəlman uşaqlarının orta və ali təhsil müəssisələrinə daxil olub, təhsillərinin başa vurulmasına maddi yardım göstərmək. Cəmiyyətin kasıb müsəlmanlara köməyi onlara paltar, yemək verilməsi, tibbi yardım göstərilməsi, bəzi hallarda isə pul vəsaitinin verilməsi və tədris haqqının ödənilməsindən ibarətdir

Dediyimiz kimi, Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin əsas məqsədlərindən biri kimsəsiz, yetim uşaqlara yiyə durmaq, onlara sənət öyrətmək və təhsilə cəlb etmək idi. Buna görə də, Cəmiyyət Bakı və onun ətrafında yetim evləri, məktəblər açırdı. Arxiv sənədlərindən bəlli olur ki, 1906-cı ildə cəmiyyətin, artıq, yetimlər evi, məktəbi fəaliyyət göstərirdi. Cəmiyyətin yetimlər evində 109 uşaq var idi ki, onların 51 nəfəri yetimlər evi nəzdindəki məktəbdə oxuyurdu. Cəmiyyətin vəsaiti hesabına yetimlər evində ucuz yeməkxana, çayxana, çörəkxana, ibadətxana və gecələmə evi də təşkil edilmişdi. Burada təkcə müsəlman uşaqları deyil, qeyri dinlərə məxsus uşaqlar da saxlanılırdı. Cəmiyyətin saxlanmasında H.Z.Tağıyev və Bakının digər varlıları xüsusi rol oynayırdı. Cəmiyyətin ianə toplamaq məqsədi ilə keçirdiyi xeyriyyə gecələrinə onun sədri H.Z.Tağıyev şəxsən rəhbərlik edirdi. Onun imzası ilə ayrı-ayrı müəssisələrə və şəxslərə göndərilən dəvətnamələr gecələrə xeyli adamın toplanmasını təmin etməkdən başqa, həm də daha çox ianə toplanmasına səbəb olurdu. Bir qayda olaraq Hacı ianə kitabına birinci yazılar və başqaları da ona baxıb, daha çox pul yazdırardılar (Bax: eyni mənbə.s.149).

Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti I Dünya müharibəsi dövründə öz nizamnaməsinə dəyişiklik edərək, Qafqaz cəbhəsindən qaçqın düşənlərə,

yetimlərə, əsir düşmüş türk əsgərlərinə yardım etməyə başlamışdır. Azərbaycan Mərkəzi Dövlət Tarix arxivinin 335-ci fondunun iki saxlama vahidində cəmlənmiş 200-dən artıq sənədin hamısı cəmiyyətin müharibə dövrü fəaliyyətinə həsr olunmuşdur. Sənədlərdən məlum olur ki, müharibə dövründə Tiflisdə “Qafqaz cəbhəsində qaçqınların yerləşdirilməsi üzrə baş müvəkkillik” adlı təşkilat yaradılmışdır. Burada Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin Qafqaz cəbhəsində qaçqınların yerləşdirilməsi üzrə baş müvəkkili var idi ki, ona Xosrov Paşa bəy Sultanov başçılıq edirdi. Arxiv sənədlərindən aydın olur ki, müharibə illərində Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin onlarla şəhərdə məntəqələri yaradılmışdı. Tiflisdə, Nuxada, Axalsıxda, Ərdəhanda, Qarsda, Bakıda, Kağızmanda Cəmiyyətin yetim evləri təşkil edilmişdi.

Cəmiyyətin fəaliyyəti təkcə maddi yardımlarla məhdudlaşmırdı. Ərzurum, Ərzincan, Trabzon, Rizə və digər Anadolu vilayətləri rus ordusunun işğalı altına düşdükdə, rus kazakları və erməni könüllüləri türk əhalisinə işgəncə verib, kəndləri talan etdikləri bir vaxtda Bakı Xeyriyyə Cəmiyyəti gizli tədbirlərdən əlavə, cəmiyyətin əsas üzvlərindən biri Əlimərdan bəy Topçubaşov başda olmaqla Tiflisdəki çar nümayəndəsi Qrandükun yanına xüsusi nümayəndə heyəti göndərmişdi. Heyot türklərə qarşı aparılan vəhşiliklərə son qoyulması tələbi ilə çıxış etmişdi. Para və vaqonlar dolusu ərzaq və əşya Anadoluya göndərilirdi. Qarsda mərkəz quruldu. Sarıqamış, Trabzon, Artvin, Ərdəhan və s. şəhərlərdə şöbələr açıldı, səyyar aş evləri və yardım ocaqları quruldu. Bunlardan toplanan 12 min yetim cocuq üçün məhəlli yurdlar qurulduğu kimi, Bakıda, Tiflisdə və başqa şəhərlərdə yetimxanalar açıldı. Bu sürətlə türk xalqına qarşı yapılan çirkin hərəkətə sədd çəkildi.

Göründüyü kimi, Bakı Xeyriyyə Cəmiyyəti müharibə dövründə əzab-əziyyət çəkən türk əhalisinə hərtərəfli yardım göstərmiş, bütün Azərbaycan türkü heç bir fədakarlıqdan çəkinmədən ən gözəl minik atlarını “Türklərə qurban” kimi qaçırılan türk subaylarına Qarabağda hədiyyə vermişlər.

Müharibə dövründə kimsəsiz uşaqlar üçün Bakı Xeyriyyə Cəmiyyətinin yerləşdiyi İsmailiyyə binasında yetimxana açılmışdı. Arxiv sənədlərindən aydın olur ki, 1917-ci ilin əvvəllərində burada cəbhələrdən gətirilən 200-dən artıq kimsəsiz uşaq saxlanılırdı. Bundan əlavə, elə bu binada 50 çarpayılı qonaq evi təşkil edilmişdi ki, hər gələn türk yolçusu aylarla burada qalır,

yemək və yataqla təmin edilir, bütün məsrəflər isə Nağıyev tərəfindən ödənilirdi.

Gətirdiyimiz faktlar az da olsa Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin fəaliyyəti haqqında təsəvvür yaradır.

Elə bundan sonra Azərbaycanda yeni bir fondun yaranma ehtimalı gücləndi. Bu fond 1920-ci ilin mart ayında Bakı Universitetində təsis edildi. «Müsəlman Şərqini öyrənən Bakı cəmiyyəti» (sənədlərdə fond kimi verilir) dörd istiqamətdə fəaliyyət göstərməli idi; 1.Tarix, 2.Dil, 3.Arxeologiya, 4.Etnoqrafiya.

Dövrün tanınmış ziyalıları L.A.Zimina, E.A.Belyayev, İ.Seyidov, A.Sübhanverdiyev, C.Rəfibəyev, general-leytenant M.B.Sulkeviç fondun işində çalışmağa başladılar. Lakin bu təşkilat çox yaşaya bilmədi, dağıldı. 1920-ci ilin aprelin 24-də isə Fransada «Haydad» erməni separatçılarının hüquq fondu yaradıldı. Fondun məqsədi 1915-ci ildə ermənilərə qarşı uydurma “türk genosidi” haqqında materiallar, sənədlər toplamaq idi.

Bütün bunları sadalamaqda məqsədimiz var. Heydər Əliyev Fondu təsadüfən yaradılmayıb. Bu fondun davamlı milli-mənəvi dəyərlərə bağlanmış, tarixən zəngin olan bazası var. Azərbaycan xalqının aydın, işıqlı, məntiqi cəhətdən güclü olan idrak və düşüncəsi, yüksək əxlaqi keyfiyyətləri, Vətəni, torpağı sevmək ehtirası, insanlara milli, dini mənsubiyyətindən asılı olmayaraq hörmət və ehtiram prizmasından yanaşmaq mədəniyyəti bu fondun möhkəm və sarsılmaz bünövrəsini təşkil edir!

## YENİ YÜZİLLİYİN ƏDALƏT ÇAĞIRIŞI

***(«Xocalıya Ədalət!» Beynəlxalq erməni terroruna qarşı mübarizədə yeni strateji modelin yaranması tarixi haqqında).***

Araşdırma materiallarına görə, 2008-ci ilin mayın 16-da İstanbuldakı "Qrand Cəvahir" hotelində İslam Konfransı Təşkilatının (İTK) Əməkdaşlıq və Dialoq Uğrunda Gənclər Forumu və İSESKO-nun təşkilatçılığı ilə başlanmış ikigünlük iclasda İKT-nin humanitar faciələr üzrə ekspertləri XX əsrdə müsəlman xalqlarına qarşı törədilmiş soyqırımı aktlarını müzakirə edirlər. İclasda Türkiyə və Azərbaycanın mədəniyyət nazirliklərinin nümayəndələri, deputatlar, İslam ölkələri gənclər təşkilatlarının təmsilçiləri və diplomatlar iştirak edirlər. İslam Konfransı Təşkilatının Əməkdaşlıq və Dialoq Uğrunda Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət - Qarabağa azadlıq" kampaniyası çərçivəsində aparılacaq müzakirələrdə ermənilərin xalqımıza qarşı törətdikləri vəhşiliklərdən ətraflı bəhs olunacaqdır. Forumun baş katibi Elşad İsgəndərov bildirmişdir ki, son illər dünyada getdikcə artan islamofobiya meyilləri və Qərb ölkələrinin tətbiq etdikləri ikili standartlar ucbatından müsəlmanlara qarşı törədilmiş soyqırımlar lazımi qiymətini almamışdır. Azərbaycanda, Bosniya və Herseqovinada, Türkiyənin şərq vilayətlərində dinc əhalinin vəhşicəsinə qətlə yetirilməsinə dair sənədlər, fılmlər, fotoşəkillər bütün dünyada daha fəal yayılmahdır. İslam ölkələrində vahid soyqırımı qurbanları gününün təsis edilməsi təklifi də İKT rəhbərliyinə təqdim olunmuşdur. Bütün bu işlərin səmərəliliyinin artırılması məqsədini daşıyan Fəaliyyət Proqramı da geniş müzakirə ediImişdir. Müzakirələr bir neçə gün davam etdirilmişdir.

İstanbulda İslam Konfransı Təşkilatının Əməkdaşlıq və Dialoq Uğrunda Gənclər Forumu və İSESKO-nun təşkilatçılığı ilə keçirilmiş İKT ekspertlərinin ikigünlük iclasında yekun sənəd qəbul olunmuşdur. Forumun baş katibi Elşad İsgəndərov bildirmişdir ki, İslaın Konfransı Təşkilatının Əməkdaşlıq və Dialoq Uğrunda Gənclər Forumunun mədəniyyətlərarası və sivilizasiyalararası dialoq üzrə Baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət - Qarabağa azadlıq" kampaniyası İKT ekspertləri tərəfindən dəstəklənmiş və 26 fevral - Xocalı soyqırımı gününün İKT ölkələrində humanitar fəlakətlər qurbanlarının xatirəsini anma günü kimi qeyd olunması barədə qərar qəbul olunmuşdur. Bundan əlavə,

Xocalı qenosidinin İslam ölkələrində dərsliklərə daxil edilməsi ilə bağlı təklif də İKT nazirlərinin toplantısına təqdim ediləcəyi qeyd olunmuşdur. Qəbul olunmuş sənəddə Xocalı soyqırımının Avropa, Asiya və Afrika ölkələri regional parlamentlərarası Assambleyalarının dialoqu zamanı bəşəriyyətə qarşı kütləvi qırğın kimi tanınması barədə məsələ də qaldırılacağı nəzərdə tutulmuşdur. Toplantı iştirakçıları Heydər Əliyev Fondunun Rusiya Nümayəndəliyinin rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə hazırlanmış və Xocalı soyqırımından bəhs edən sərgi ilə, habelə Bosniya və Herseqovinada, Fələstində törədilmiş qətliamlardan bəhs edən fotoşəkillərlə də tanış olmuşlar. Müzakirələrin yekununa dair qəbul olunmuş sənəd İKT Mədəniyyət Nazirləri Şurasına təqdim olunacağı barədə məlumat verilmişdir. (Bax: İslam Konfransı Təşkilatının materialları. Bakı 2008).

İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin xarici işlər nazirlərinin Kampalada (Uqanda) başa çatmış konfransında İKT-nin Gənclər Forumunun sivilizasiyaların alyansı üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın "Xocalıya ədalət- Qarabağa azadlıq" təşəbbüsü təsdiq ediImişdir. İKT-nin dialoq və əməkdaşlıq uğrunda Gənclər Forumunun (İKT GF) katibliyindən bildirmişlər ki, bu barədə İKT xarici işlər nazirlərinin konfransının 35-ci sessiyasında xüsusi qətnamə qəbul edilmişdir. Qətnamənin bu kampaniyaya həsr ediImiş xüsusi paraqrafının layihəsi Azərbaycan XİN nümayəndə heyəti tərəfindən İKT GF-in ənənəvi qətnaməsinə daxil edilmiş və Ciddədə İKT-nin ekspertlərinin iclasında dəstəklənmişdir. Qətnamənin xarici işlər nazirləri tərəfindən dəstəklənməsi dünyanın 57 ölkəsində müvafıq kampaniyanın həyata keçirilməsi üçün siyasi-hüquqi baza yaradır. Qətnaməyə görə, İKT üzvü olan ölkələrdə humanitar faciələrin qurbanlarının Xatirə günü təsis edilir. Qətnamədə Xocalı faciəsinin də daxil olduğu bu siyahı təsdiq edilməklə yanaşı, XX əsrdə müsəlman ölkələri xalqlarının məruz qaldığı humanitar fəlakətlər, təcavüzlər və etnik təmizləmələr haqqında düzgün informasiyanın yayılması üçün kampaniyalar keçirilməsi nəzərdə tutulur. Qətnamədə 2009-2010-cu illərdə keçiriləcək Xatirə günü çərçivəsində öncül tədbir kimi, Leyla Əliyevanın "Xocalıya ədalət- Qarabağa azadlıq" təşəbbüsü təsdiq edilmişdir. Qətnamədə İKT üzvü olan ölkələrdə Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edilməsi barədə dəqiq məlumatın yayılması, eləcə də kampaniyanın tezisinin imici barədə rəylərin yerləşdirilməsi üçün informasiya veb-portalı yaradılması nəzərdə tutulmuşdur. Kampaniyanın əsas tezisini açıqlayan ən yaxşı fotomaterialları əsasında fotosərgi təşkil ediləcəkdir. Həmin fotosərgini beynəlxalq

təşkilatların qərargahlarında təqdim etmək planlaşdırılır. Mətbuat üçün brifinqdə çıxış edən Leyla Əliyeva onun təşəbbüsünün nüfuzlu beynəlxalq təşkilat tərəfindən bəyənilməsini razılıq hissi ilə qeyd etmişdir. Leyla Əliyeva demişdir: "Bu sənədin qəbul edilməsi Azərbaycan torpaqlarının işğalı faktının beynəlxalq birlik tərəfindən getdikcə daha çox dərk olunmasını və təcavüzkarın mənəvi-siyasi baxımdan daha da təcrid edilməsini əks etdirir. Qətnamə Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqəti İKT üzvü olan ölkələrdə və mədəniyyətlərarası dialoq vasitəsilə qlobal səviyyədə gənc nəslə çatdırmaq üçün imkan yaradır. Qətnamə bu təşəbbüsün həyata keçirilməsində foruma geniş səlahiyyətlər verir. Bir sözlə, qarşıda görüləsi işlər çoxdur". Kampaniya çərçivəsində aparıcı beynəlxalq təşkilatların parlament birlikləri tərəfindən Xocalı faciəsinin soyqırım kimi tanınmasına nail olmaq nəzərdə tutulur. Qeyd etmək lazımdır ki, İKT xarici işlər nazirlərinin bundan əvvəl, 2007-ci ilin may ayında İslamabadda keçirilmiş sessiyasında İKT Gənclər Forumunun təşəbbüsü ilə Xocalı faciəsinə siyasi qiymət verilmişdir. İKT-nin Gənclər Forumu İKT-nin affiliasiya edilmiş təşkilatı statusuna malik olan beynəlxalq qurumdur. Forum 2004-cü ilin dekabr ayında yaradılmışdır. Onun mənzil-qərargahı İstanbulda yerləşir. Azərbaycanın Səudiyyə Ərəbistanı Krallığındakı səfirliyi tərəfindən Xocalı soyqırımının 17-ci ildönümü ilə əlaqədar təşkil edilmiş anma mərasimi və İslam Konfransı Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüşü ilə irəli sürülən "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının təqdimatı keçirilmişdir. Ər-Riyad şəhərinin aparıcı konfrans zallarının birində Xocalı faciəsini əks etdirən kitab və materiallardan ibarət guşənin yaradılması, Xocalı soyqırımı və erməni terroru haqqında filmlərin nümayişi, müvafiq çıxışların və diskussiyaların təşkili nəzərdə tutulmuşdu. Eyni zamanda, "Xocalı uşaqların gözü ilə" rəsm sərgisinin keçirilməsi də planlaşdırılmışdı. Tədbirlərdə İslam Konfransı Təşkilatına üzv dövlətlərin, Səudiyyə Ərəbistanı Krallığının dövlət və hökumət üzvlərinin, eləcə də Ər-Riyaddakı xarici ölkələrin, beynəlxalq təşkilatların, Azərbaycan və türk diaspor təşkilatlarının və kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı baş tutdu . Bu, siyasi bir hadisə idi. Azərbaycan tarixinin Beynəlxalq erməni terroruna qarşı mübarizədə yeni bir strateji səhifəsi belə yarandı.

Azərbaycanın Misir Ərəb Respublikasındakı səfirliyi İslam Konfransı Təşkilatının Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə Baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə elan edilmiş "Xocalıya

Ədalət!" Beynəlxalq kampaniyası çərçivəsində Heydər Əliyev Fondunun dəstəyi ilə Misirdə və eyni zamanda, akkreditə olunduğu Liviya Cəmahiriyyəsində keçiriləcək tədbirlərin planını hazırlamışdı. Səfirlikdən bildirmişlər ki, o vaxt həmin tədbirlərdə Azərbaycan icmasının, "Vətən" tələbə təşkilatının, Azərbaycanın Mədəniyyət və Turizm Nazirliyinin nümayəndələrinin, habelə Misir-Azərbaycan Parlamentlərarası dostluq qrupu üzvlərinin iştirakı da nəzərdə tutulmuşdur. Fevrahn 26-da Misirin ən qabaqcıl xəbər televiziya kanalı olan və bir neçə dildə yayımlanan "Nile Akhbar" kanalında Azərbaycanın Misirdəki səfiri Faiq Bağırovun müsahibəsi və Xocalı hadisələrindən bəhs edən "Məhv edilmiş şəhər" filmi ərəb dilində nümayiş etdirilmişdir. Bundan başqa, Heydər Əliyev Fondu tərəfindən faciə ilə bağlı hazırlanmış təbliğat materialları, səfirliyin xüsusi xəbər bülleteni, Misirdə fəaliyyət göstərən "Vətən" tələbə təşkilatı tərəfindən ərəb dilində nəşr edilən "Azərbaycan" qəzetinin faciəyə həsr olunmuş xüsusi sayı, "Xocalıya ədalət!" kampaniyası və kampaniyanın internet səhifəsi haqqında məlumatlar Misir və Liviyanın Xarici İşlər nazirliklərinə, parlamentlərinə, Ərəb Dövlətləri Liqasına, bu ölkələrdə fəaliyyət göstərən hökumət və qeyri-hökumət təşkilatlarına, ictimai-mədəni və təhsil müəssisələrinə, kitabxanalara, diplomatik nümayəndəliklərə, beynəlxalq və regional təşkilatların ofislərinə göndərilmişdir.

Məlumata görə, beynəlxalq aləmdə, artıq, xanım Leyla Əliyeva fenomeni formalaşmaqda idi. Məsələn, 2009-cu ilin fevralın 24-də Böyük Britaniyanın tanınmış tədqiqat mərkəzlərindən sayılan İmperiya Hərb Muzeyində Xocalı soyqırımı qurbanlarının anma mərasimi və "Xocalıya Ədalət" beynəlxalq məlumatlandırma kampaniyasının təqdimat mərasimi keçirilmişdir. Tədbirdə Britaniya Parlamentinin üzvü Mayk Henkok, dövlət qurumlarının, o cümlədən xarici işlər nazirliyinin rəsmiləri, Londonda akkreditə olunmuş səfirliklərin nümayəndələri, Qafqaz regionu üzrə ixtisaslaşmış tədqiqat mərkəzlərinin təmsilçiləri, jurnalistlər, Azərbaycan və türk icmalarının üzvləri iştirak etmişlər. Tədbiri giriş sözü ilə açan səfir Fəxrəddin Qurbanov Xocalı faciəsinin xalqımızın tarixində qanlı səhifələrdən biri olduğunu vurğulamış, faciə qurbanlarının yalnız azərbaycanlı olduqları üçün kütləvi qətlə məruz qaldıqlarını qeyd etmişdir. O, eyni zamanda, faciəyə indiyə qədər beynəlxalq ictimaiyyət və əlaqədar beynəlxalq təşkilatlar tərəfindən müvafiq siyasi və hüquqi qiymət verilmədiyinə təəssüf etdiyini diqqətə çatdırmışdır. Daha sonra çıxış edən **Cənubi Qafqaz üzrə tanınmış tədqiqatçı, professor Tamara Draqadze faciənin miqyasından təfsilatlı**

**şəkildə bəhs etmiş, bu addımı sadəcə Azərbaycan xalqına qarşı deyil, bütövlükdə bəşəriyyətə və bəşəri dəyərlərə qarşı törədilmiş cinayət kimi dəyərləndirmişdir.** Xanım Draqadze hadisələrin baş verdiyi ərəfədə regionda olduğunu və faciənin əsl miqyası ilə çox yaxından tanış olduğunu diqqətə çatdırmışdır. O, eyni zamanda vurğulamışdır ki, **bir sıra cəhdlərə baxmayaraq, faciəyə indiyədək beynəlxalq ictimaiyyət və təşkilatlar tərəfindən həqiqi qiymət verilməmişdir.** Bu istiqamətdə Azərbaycan hökumətinin apardığı məlumatlandırma kampaniyası yüksək qiymətləndirilməlidir. Çıxışların ardınca Heydər Əliyev Fondu tərəfindən göndərilmiş video materiallardan hazırlanmış və Xocalı faciəsini özündə əks etdirən videoklip nümayiş etdirilmişdir. Tədbir çərçivəsində İslam Konfransı Təşkilatının Gənclər Forumu və qurumun Mədəniyyətlərarası Dialoq üzrə Baş əlaqələndiricisi xanım Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının və kampaniyanın internet səhifəsinin təqdimat mərasimi keçirilmişdir. Beynəlxalq kampaniyanın Böyük Britaniya üzrə əlaqələndiricisi olan "Odlar Yurdu" cəmiyyətinin icraiyyə komitəsinin üzvü xanım Britt Montimer çıxış etmiş və sözügedən kampaniya haqqında, kampaniya çərçivəsində hazırlanmış internet səhifəsi və kampaniyaya qatılmaq şərtləri ilə bağlı ətraflı məlumat vermiş, geniş ekranda isə kampaniyanın internet səhifəsinin görüntüləri verilmişdir. Tədbirin gedişində Xocalı faciəsi və Qarabağ mğharibəsindən bəhs edən kitab və broşğrlər paylanmış, o cğmlədən "Xocalı uşaqların güzğ ilə" adlı rəsm sərgisi nğmayiş etdirilmişdir.

Digər bir məlumatda isə Azərbaycan Diplomatiyasında "Xocalıya Ədalət!" çağırışı ən güclü beynəlxalq sənədə çevrildi. Səfirlik fevralın 25-də (2009) İndoneziyanın nüfuzlu "Kompas", "Media İndonesia", "The Jakarat Post", "Sinar Harapan", "Suara Karya" qəzetlərinin, "Antara" xəbər agentliyinin, "TVRİ", "Metro" televiziya kanallarının rəhbərliyinə Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə Baş əlaqələndiricisi Leyla xanım Əliyevanın dəstəyi ilə həyata keçirilən "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının saytının ünvanını (www.justiceforkhojaly. org) və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə müfəssəl məlumat göndərmişdir.

2009-cu ilin fevralın 26-da isə qardaş **Türkiyədə "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasına rəsmi start verildi.** Fevralın 26-da İstanbulda "Xocalıya Ədalət: humanitar və hüquqi tanınma perspektivləri" mövzusunda keçirilmiş konfransda Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı

Gənclər Forumunun (DƏ-İKGF) mədəniyyətlərarası dialoq üzrə Baş əlaqələndiricisi Leyla xanım Əliyevanm təşəbbüsü ilə elan edilmiş "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasına Türkiyədə start verilmişdir. İslam Konfransı Gənclər Forumunun Baş qərargahında təşkil olunmuş konfransda millət vəkilləri, hökumət nümayəndələri, bələdiyyə başçıları, elm adamları və nüfuzlu KİV təmsilçiləri iştirak etmişlər. "DUA" filminin nümayişi ilə başlanmış konfransda çıxış edən DƏ-İKGF-nin baş katibi Elşad İsgəndərov kampaniyanın əhəmiyyətindən danışmış, ona 20-dən çox ölkədə start verildiyini vurğulamışdır. O, kampaniyaya dəstəyə görə, qardaş Türkiyə ictimaiyyətinə və hökumətinə təşəkkürünü bildirmişdir. Kampaniyanın Türkiyə üzrə milli əlaqələndiricisi Əminə Yetim "Xocahya Ədalət!" kampaniyasını və onun internet saytını təqdim etmişdir. Konfransın açılışında çıxış edən DƏ-İKGF-nin prezidenti Əli Sarıqaya, İstanbul Böyük Şəhər Bələdiyyəsinin gənclər və idman müdiri Enis Erdem kampaniyanın vacibliyini vurğulayaraq, onun hərtərəfli dəstəklənəcəyini bildirmişlər. Açılış mərasiminin sonunda iştirakçılar kampaniyanın Bəyannaməsini imzalamışlar. Konfransın ilk geniş iclasında çıxış edən Yedditépə Universitetinin professoru, Yaxın Keçmiş Tarixi Araşdırmalar Mərkəzinin sədri Mehmet Saray və Qazi Universitetinin professoru İlyas Doğan Azərbaycan torpaqlarının işğalından və Xocalı faciəsinin beynəlxalq səviyyədə hüquqi tanınmasının əhəmiyyətindən söhbət açmışlar. İkinci geniş iclasda tələbələrin çıxışları dinlənilmişdir. Gənclər Xocalı faciəsini beynəlxalq hüquq prizmasından təhlil etmişlər. Onlar vurğulamışlar ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində işğal olunmuş torpaqlar azad edilməyənədək, o cümlədən Xocalı faciəsinə görə üzr istənilməyincə, təcavüzkara qarşı beynəlxalq təzyiq azalmamalıdır. Bu baxımdan Türkiyənin Ermənistanla sərhədlərinin açılmaması siyasətini davam etdirməsinin zəruriliyi vurğulanmışdır. Konfransda çıxış edən "Hollywood"un ilk türk prodüseri Mehmet Çələbi ABŞ-da türk diasporunun Xocalı məsələsini daim gündəlikdə saxladığını bildirmişdir. O, demişdir ki, Xocalı faciəsinin fəal şəkildə inkarı siyasətini yürüdən Amerikanın Erməni Milli Komitəsi bu yaxınlarda Çikaqodakı türk diasporu tərəfindən məhkəməyə verilmişdir. "Xocalıya Ədalət!" kampaniyası faciəni inkar edərək, insanlığa qarşı cinayətləri ört-basdır edən qurumlara qarşı apardığı mübarizəni bir an da olsun səngitmir. Tədbirin sonunda rejissor Korhan Yurtsevərin çəkdiyi "Xocalı soyqırımı. Bu, son olsun!" filmi nümayiş etdirilmişdir.

## «XOCALIYA ƏDALƏT!» ÇAĞIRŞININ SİYASİ COĞRAFİYASI

Xanım Leyla Əliyevanın ardıcıl siyasi fəaliyyəti, inadkarlığı və cəsarəti sayəsində «Xocalıya Ədalət!»in Siyasi Coğrafiyası hazırlanırdı. Əslində bu Siyasi Coğrafiyanın hazırlanması «Xocalıya Ədalət!» çağırışının ictimai, tarixi nöqteyi nəzərdən əsas məqsədlərindən birini təşkil edirdi. Artıq bu təbliğat və məlumatlandırma kampaniyası cəmiyyətdə və dünyada yeni bir tarixini – beynəlxalq terrora qarşı mübarizənin strateji və taktiki atributlarına görə daha fərqli bir modelini yaratdı. «Xocalıya Ədalət!»in öz tarixi formalaşırdı və bu da Müasir Azərbaycan tarixinin tərkib hissəsini təşkil edirdi. Xalqların və millətlərin təhlükəsizliklərinin təmin olunmasında dərin məntiqi, fəlsəfi metodologiyası olan bu tarix, nəticə etibarı ilə dəyərli strateji bir model təsiri bağışlayır. Məsələn, 2009-cu ilin fevralın 25-də İsveçrə Federal Hökumətinə məxsus "Politforum"da Azərbaycanın bu ölkədəki səfirliyi Dağlıq Qarabağ münaqişəsinə və Xocalı soyqırımının ildönümünə həsr olunmuş tədbir keçirmişdir. Səfirlikdən bildirmişlər ki, İsveçrə-Azərbaycan Mədəniyyət Mərkəzinin dəstəyi ilə keçirilən və İsveçrə parlamentinin, Xarici İşlər Nazirliyinin, diplomatik koprusun, kütləvi informasiya vasitələrinin, qeyri-hökumət təşkilatlarının, Azərbaycan və türk icmaları nümayəndələrinin iştirak etdikləri tədbirdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, onun acı nəticələri haqqında ətraflı məlumat verilmişdir. Tədbirdə İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə Baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə elan edilmiş "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının təqdimatı olmuşdur. Təqdimat zamanı kompyuter vasitəsilə "Xocalıya Ədalət!" kampaniyasının internet səhifəsi haqqında ətraflı məlumat verilmişdir. Bundan əlavə, tədbirdə Heydər Əliyev Fondu və Azərbaycan XİN tərəfindən birgə tərtib olunmuş "Azərbaycana qarşı müharibə: mədəni irsin hədəfə alınması" nəşrinin də təqdimatı olmuş, bu haqda film nümayiş etdirilmişdir. Tədbir iştirakçıları Heydər Əliyev Fondu tərəfindən təqdim edilmiş "Xocalı uşaqların gözü ilə" adlı fotosərgiyə də baxmışlar. Eyni zamanda, Berndə ezamiyyətdə olan Dövlət Gömrük Komitəsinin nümayəndələri tərəfindən Azərbaycanın gömrük xidmətinin tarixindən, ermənilərin Cənubi Qafqazda məskunlaşdırılmasından bəhs edən "Azərbaycanın gömrük xidməti: tarixi ənənələr və müasirlik" kitabının təqdimatı keçirilmişdir. Və yaxud, Azərbaycanın Belçika Krallığı və Lüksemburq

Hersoqluğundakı səfirliyindən bildirmişlər ki, Azərbaycan və türk diaspor təşkilatları Xocalı faciəsinin 17-ci ildönümü ilə bağlı tədbirlər keçirmişlər. Əvvəlcə Avropa Parlamentinin binası qarşısında, gediş-gelişin daha çox olduğu İuman meydanında qurulmuş çadırda faciəyə həsr olunmuş sərgi açılmış, film nümayiş etdirilmişdir. Sərgiyə gələnlər İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə Baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən “Xocalıya Ədalət!” beynəlxalq kampaniyasına qoşulmuş və müvafiq sənədi imzalamışlar. Sonra soydaşlarımız Ermənistan səfirliyinin qarşısında toplaşaraq, Azərbaycan torpaqlarının işğal edilməsinə etirazlarını bildirmiş, ərazilərimizin azad olunmasını tələb edən şüarlar səsləndirmiş və Ermənistan hökumətinə ünvanlanmış etiraz məktubunu səfirliyin əməkdaşına təqdim etmişlər. Buradan Avropa Parlamentinə doğru yürüş başlanmışdır. Yürüşü İuman meydanında başa çatdırmış soydaşlarımız Avropa təsisatlarını Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalına göz yummamağa, Xocalı soyqırımını tanımağa və Ermənistana təsir göstərməyə çağırmışlar. Avropa İttifaqında sədrlik edən Çexiyanın Baş naziri Miroslav Topolanekə, Avropa Komissiyasının rəhbəri Xose Manuel Barrozaya və Avropa Parlamentinin sədri Hans-Gert Potteringə ünvanlanmış etiraz məktubları qurumun rəsmilərinə təqdim edilmişdir. Brüsseldə keçirilmiş etiraz aksiyasına qonşu Hollandiyadan və Almaniyadan gəlmiş Azərbaycan və türk icmalarının nümayəndələri də qoşulmuşlar. Həmin gün Xocalı soyqırımı ilə bağlı səfirlik tərəfindən hazırlanmış mətbuat bülleteni Belçikanın rəsmi qurumlarına, yerli kütləvi informasiya vasitələrinə, xarici ölkələrin Belçikadakı səfirliklərinə, Avropa İttifaqı və NATO yanındakı diplomatik nümayəndəliklərə göndərilmişdir. Bu etiraz aksiyasının davamı olaraq Heydər Əliyev Fondunun dəstəyi ilə Avropa Parlamentinin binasında qurumun üzvü xanım Jizela Kalenbaxın himayəsi ilə Xocalı soyqırımına həsr olunmuş konfrans keçirilib. Konfransda faciə barədə geniş məlumat verildi, sərgi və film nümayiş etdirilərək, İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə Baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə keçirilən “Xocalıya Ədalət!” kampaniyasının internet səhifəsinin təqdimatı olub.

## «XOCALIYA ƏDALƏT!» ÇAĞIRIŞINDA MƏDƏNİ İRSİN QORUNMASI

Terrordan, radikalizm və ekstremizmdən əziyyət çəkən ölkələr «Xocalıya Ədalət!» çağırışına qoşulmaqda davam edir. Kampaniyanın coğrafiyası genişlənir. Azərbaycanın Səudiyyə Ərəbistanı Krallığındakı səfirliyi tərəfindən Xocalı soyqırımı ilə əlaqədar anma mərasimi və İslam Konfransı Gənclər Forumunun Mədəniyyətlərarası dialoq üzrə Baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə irəli sürülmüş "Xocalıya ədalət - Qarabağa azadlıq" beynəlxalq kampaniyasının təqdimatı isə geniş bir marağa səbəb olmuşdur. "Riyadh Palace" konfrans mərkəzində Xocalı faciəsini əks etdirən kitab və materiallardan ibarət guşə yaradılmış, Xocalı soyqırımı və erməni terroru haqqında materialların və filmlərin nümayiş etdirilməsi üçün müvafiq avadanlıqlar quraşdırılmışdı. Eyni zamanda, "Xocalı uşaqların gözü ilə" devizi altında rəsm sərgisi təşkil olunmuşdu. Tədbirdə İslam Konfransı Təşkilatının (İKT) baş katibinin müavini İ.Müfti, Səudiyyə Ərəbistanı Krallığının Xarici İşlər Nazirliyinin, dövlət və ictimai qurumlarının, kütləvi informasiya vasitələrinin təmsilçiləri, Səudiyyə Ərəbistanında yaşayan Azərbaycan icmasının nümayəndələri və Ər-Riyad şəhərində yerləşən xarici dövlətlərin və beynəlxalq təşkilatların nümayəndəliklərinin başçıları və əməkdaşları iştirak etmişlər. Azərbaycanın dövlət himni səsləndirildikdən sonra Xocalı soyqırımı qurbanlarının xatirəsi birdəqiqəlik sükutla yad edilmişdir. Səfir Tofiq Abdullayev çıxışında erməni millətçiləri tərəfindən xalqımıza qarşı aparılmış soyqırımı siyasətinin tarixindən, Xocalıda günahsız insanların xüsusi amansızlıqla qətlə yetirilməsindən və azərbaycanlıların öz yurdlarından zorla didərgin salınmasından söhbət açmışdır. Səfir xalqımıza qarşı törədilən cinayətlərin erməni millətçiləri və onların himayədarları tərəfindən planlı şəkildə həyata keçirildiyini bildirmiş, ermənilərin bu dəhşətli əməllərinə dünya birliyi tərəfindən hüquqi-siyasi qiymət verilməsinin vacibliyini vurğulamışdır. Sonra Xocalı soyqırımı barədə Heydər Əliyev Fondunun təşəbbüsü ilə çəkilən film nümayiş etdirilmişdir. İKT baş katibinin müavini İ.Müfti filmdəki səhnələrin onu dəhşətə gətirdiyini, terrorun dininin və milliyyətinin olmadığını, erməni millətçiləri tərəfindən törədilmiş Xocalı faciəsini təkcə azərbaycanlılara qarşı deyil, bütövlükdə insanlığa qarşı vəhşilik kimi qiymətləndirmişdir. O, İKT çərçivəsində keçirilmiş tədbirlərdə İslam dünyası tərəfindən Azərbaycan

xalqı ilə həmrəylik nümayiş etdirilməsi və beynəlxalq təşkilatların Azərbaycanın haqq səsinin dəstəklənməsi məqsədi ilə qəbul etdiyi müvafiq qətnamələrin yerinə yetirilməsi üçün dünya ictimaiyyəti tərəfindən Ermənistana təzyiqlərin edilməsinin vacibliyini vurğulamışdır. Səfirliyin birinci katibi E.Əlizadə "Xocalıya ədalət - Qarabağa azadlıq" beynəlxalq kampaniyasının başlanması və kampaniya ilə əlaqədar internet saytının yaradılması haqqında məlumat vermiş, iştirakçıları saytla tanış etmiş, beynəlxalq təşkilatların və ictimai qurumların nümayəndələrini, sadə vətəndaşları bu kampaniyaya qoşulmağa çağırmışdır. Mərasim iştirakçılarına Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə, Xocalı soyqırımına aid disk, kitab və materiallar, səfirliyin mətbuat məlumatı, "Xocalıya ədalət - Qarabağa azadlıq" beynəlxalq kampaniyasına dair materiallar paylanılmışdır. Səudiyyə Ərəbistanının kütləvi informasiya vasitələri tədbirlə bağlı çəkilişlər aparmış, səfir T.Abdullayev, səfirliyin birinci katibi E.Əlizadə, İKT baş katibinin müavini İ.Müfti "KSA- 2" televiziya kanalına, "Əl-Cəzirə" və "Ər-Riyad" qəzetlərinə müsahibələr vermişlər.

Həmin vaxt ZXR-da - Pekində "Xocalıya Ədalət!" kampaniyasının və onun internet saytının təqdimatı oldu. Azərbaycanın Çin Xalq Respublikasındakı səfirliyinin nəzdində fəaliyyət göstərən "İuşa" Mədəniyyət Mərkəzində Xocalı faciəsinin 17-ci ildönümünə həsr olunmuş tədbir keçirilmişdir. Mərasimdə Pekində akkreditə olunmuş diplomatik korpusun, o cümlədən Türkiyə, Gürcüstan səfirliklərinin yüksək səviyyəli diplomatları, soydaşlarımız və burada təhsil alan azərbaycanlı tələbələr iştirak etmişlər. Səfir Yaşar Əliyev Xocalı faciəsinin tarixindən, onun başvermə səbəblərindən, eləcə də ermənilərin törətdikləri vəhşiliklərdən söhbət açmışdır. Faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, Heydər Əliyev Fondunun Xocalı faciəsinə dair hazırladığı film nümayiş etdirilmişdir. Film disklərə köçürülərək, mərasim iştirakçılarına paylanmışdır. Tədbirdə Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun (DƏ-İKGF) mədəniyyətlərarası dialoq üzrə Baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə elan edilmiş "Xocalıya Ədalət!" ("Justice for Khojaly") kampaniyasının və onun internet saytının təqdimatı da olmuşdur. "Xocalıya Ədalət!" çağırışı çərçivəsində səfirlik tərəfindən hazırlanmış mətbuat məlumatları, habelə, Azərbaycana qarşı törədilmiş terror aktları haqqında materiallar Pekində fəaliyyət göstərən diplomatik missiyalara, beynəlxalq təşkilatların nümayəndəliklərinə, Çinin elmi-tədqiqat institutlarına və kitabxanalarına təqdim olunmuşdur.

Rusiya Federasiyasının paytaxtı Moskvada isə "Xocalı: iddia müddəti bitmir" xatirə gecəsi Heydər Əliyev Fondunun Rusiyadakı Nümayəndəliyinin köməyi ilə səfirlik tərəfindən təşkil edilmişdi. Tədbirdə Heydər Əliyev Fondunun RF-dəki Nümayəndəliyinin rəhbəri Leyla Əliyeva, Milli Məclisin deputatı Dünyamin Xəlilov, Türkiyə, İraq, Özbəkistan, Tacikistan, Mali, Sudan, Qırğızıstan səfirləri, Qazaxıstan, Misir, Fələstin səfirliklərinin əməkdaşları, habelə Rusiya elmi ictimaiyyətinin və Azərbaycan diasporunun nümayəndələri, politoloqlar, mətbuat işçiləri iştirak edirdilər. Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu gecəni açaraq, keçən əsrin ən dəhşətli cinayətlərindən biri haqqında söhbət açmış, Xocalıda azərbaycanlıların soyqırımını dünyamiqyaslı böyük faciə adlandırmışdır. Diplomat təəssüflə vurğuIamışdır ki, bu gün dünyada yeni-yeni münaqişələr baş verir və beynəlxalq birlik öz diqqətini onlara yönəltməli olur. Lakin həlak olanların xatirəsi naminə biz əlimizdən gələni etməliyik ki, Xocalı faciəsindən mümkün qədər çox adam xəbər tutsun və onu unutmasın. Biz elə etməliyik ki, Azərbaycan xalqının dərdini və ağrısını bütün dünyada etiraf etsinlər.Səfır Xocalı faciəsi haqqında fevralın 26-da "Nezavisimaya qazeta"da dərc edilmiş obyektiv məqalənin müəllifı, rusiyalı jurnalist və politoloq Aleksandr Karavayevə təşəkkürünü bildirmişdir. O demişdir: "17 ildə ilk dəfədir Rusiyanın "Nezavisimaya qazeta" nəşrində bu barədə Aleksandr Karavayevin çox düzgün və gərəkli məqaləsi dərc edilmişdir. Rusiya, rus xalqı və Rusiyada yaşayan xalqlar tarixi bilməli, nələr baş verdiyini və indi nələr baş verməsi haqqında bütün həqiqəti bilməlidirlər".

Moskvadakı "Bakı" kinoteatrında isə Rusiya Azərbaycanlı Gəncləri Təşkilatının (AMOR) və Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun (DƏ-İKGF) təşkilatçılığı ilə "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının, həmçinin, kampaniyanın saytının təqdimatı keçirilmişdir. Tədbirin rəsmi hissəsindən öncə kinoteatrın foyesində Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə Baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə elan edilmiş "Xocalıya Ədalət!" kampaniyasının plakatları, şamlardan düzəlmiş Azərbaycan xəritəsi kompozisiyası, məktəbli uşaqların rəsm sərgisi və "DUA" fılmi nümayiş etdirilmişdir. Təqdimat mərasimi Xocalı soyqırımı ilə bağlı çəkiImiş filmin nümayişi ilə başlamışdır. Rusiya Azərbaycanlı Gənclər Təşkilatının prezidenti, Heydər Əliyev Fondunun Rusiya Nümayəndəliyinin rəhbəri, Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə Baş

əlaqələndiricisi Leyla xanım Əliyeva giriş sözü ilə çıxış edərək, Rusiya gənclər təşkilatlarının və Azərbaycan diasporunun nümayəndələrinə kampaniyaya qoşulduqlarına görə təşəkkürünü bildirmişdir. Leyla Əliyeva Xocalı faciəsinin müasir tariximizin ən qanlı səhifəsi olduğunu vurğulamış, "Xocalıya Ədalət!" kampaniyasının tarixi ədalətə müsbət təsir göstərəcəyini bildirmişdir. Sonra DƏ-İKGF-nin baş katibi Elşad İsgəndərov kampaniyanın təqdimatını etmişdir. O, təşəbbüsün əhəmiyyəti barədə danışmış, kampaniyaya artıq bir çox ölkələrdə start verildiyini bildirmiş, həmçinin, məqsədləri və nəzərdə tutulan fəaliyyət formaları haqqında məlumat vermişdir. Kampaniyanın Rusiya üzrə yerli əlaqələndiricisi Janna Krivolap kampaniyanın saytını təqdim etmişdir. Tədbirdə yazıçı, professor Yuri Pompeyev çıxış edərək, Xocalı faciəsinin insanlığa qarşı cinayət olduğunu vurğulamış və "Qarabağın qanlı çanağı" adlı kitabından söhbət açmışdır. Sonda tədbir iştirakçıları kampaniyanın bəyannaməsini imzalamışlar.

Artıq "Xocalıya Ədalət!" kampaniyasının start verildiyi vaxtdan bir neçə il keçib. Fondun hazırlayıb yüksək səviyyədə həyata keçirdiyi "Xocalıya Ədalət!" çağırışının təşkilatçılıq və siyasi əhəmiyyəti baxımından dünya ictimaiyyətinin fikrində nəzərə çarpacaq dərəcədə irəliləyiş müşahidə olunur. İndi artıq bu kampaniyanın həm coğrafiyası xeyli genişlənib, həm də sayı, keyfiyyəti və səmərəliliyi artıb. Mütəşəkkil və ardıcıl keçirilmiş bu tədbirlərin sayəsində dünya ictimaiyyətində Xocalı faciəsi barədə obyektiv fikirlərin formalaşmasında xeyli irəliləyiş hiss olunur. Demək olar ki, "Xocalıya Ədalət!" çağırışı artıq, beynəlxalq nüfuz qazanması ilə bir çox dövlət , hökümət dairələrində, parlamentlərdə qəbul olunur, onların müraciətləri əsasında ölkəmizin imicinə, nüfuzuna siyasi dividendlər gətirir.

# AZƏRBAYCAN DİPLOMATİYASINDA YENİ SİYASİ BAŞLANĞIC

**Amerikalı professor və jurnalist Tomas Qolds Kanadada "Xocalı qırğını: cəzasız cinayət" mövzusunda təqdimat keçirərkən, Leyla xanım Əliyevanın "Xocalıya Ədalət!"ini əsrin zülmə, terrora qarşı ən güclü silahı adlandırdı.**

Azərbaycanın Kanadadakı səfirliyindən bildirmişlər ki, Xocalı faciəsinin "Xocalıya Ədalət" beynəlxalq təşviqat və məlumat kampaniyası çərçivəsində bu ölkədə bir sıra tədbirlər keçirilmişdir. Ottavada yaşayan Azərbaycan icması səfirliyin dəstəyi ilə Xocalı faciəsi qurbanlarının xatirəsini anma mərasimi təşkil etmişdir. Mərasimdə amerikalı professor və jurnalist, Ermənistanın xalqımıza qarşı apardığı hərbi təcavüzünün birbaşa şahidi olan Tomas Qoltsun "Xocalı qırğını: cəzasız cinayət" mövzusunda təqdimatı keçirilmişdir. T.Qolts Ermənistanın Azərbaycana qarşı apardığı müharibənin qızğın dövrlərində cəbhə bölgəsindən Qərb ictimaiyyətinə məlumat verən və Xocalı həqiqətlərini dünyaya çatdıran ilk əcnəbi jurnalistlərdən biri olmuşdur. Həmin dövrdə Azərbaycanda baş verən hadisələr haqqında Qərb mətbuatında məlumatsızlığın və ya əksinə, yanlış məlumatın yayıldığı barədə danışan T.Qolts, şahidi olduğu və araşdırma apardığı faciə ilə bağlı tədbir iştirakçılarına geniş məlumat vermişdir. Daha sonra, tədbirdə çıxış edən Kanadanın Beynəlxalq Ədalət Mərkəzinin (QHT) nümayəndəsi Mətt Eyzenbrandt Xocalı faciəsinin hüquqi araşdırılması, faciənin səbəbkarlarınm hüquqi məsuliyyəti barədə fikirlərini diqqətə çatdırmışdır. Tədbirdə Xocalı soyqırımını, faciənin şahidlərinin ifadələrini əks etdirən sənədli film nümayiş olunmuş, tədbir iştirakçılarının sualları cavablandırılmışdır. Anma mərasimində Azərbaycan və türk icmalarının, Kanada parlamentinin deputatları, ictimaiyyətin nümayəndələri, insan hüquqları üzrə fəallar iştirak etmişlər. Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya Ədalət!" devizi altında həyata keçirilən beynəlxalq məlumat və təşviqat kampaniyası da bu istiqamətdə atılan ciddi addımlardan biridir. Kampaniyaya Türkiyədə də geniş dəstək verilir. Kampaniyanın Ankaradakı əlaqələndiricisi, **soyqırımların araşdırılması üzrə mütəxəssis Gözde Kılıç Yaşın görülən işlərin ciddi nəticələr verəcəyinə inanır. Gözde Kılıç Yaşın "Xocalıya Ədalət!" internet saytının yaradılmasının tarixdən ibrət dərsi alınması və Xocalı soyqırımının unudulmaması baxımından böyük əhəmiyyət kəsb etdiyini vurğulamış və demişdir ki, ermənilərin törətdikləri soyqırımları ilə bağlı dünya**

**dövlətlərinin parlamentlərində qərarların qəbul edilməsinə çalışmaq lazımdır. Bunun üçün əvvəlcə həmin ölkələrin ictimaiyyəti məlumatlandırılmalıdır. Leyla Əliyevanın təşəbbüsü ilə davam edən kampaniya isə bu istiqamətdə atılan mühüm addımdır.**

Braziliyanın ən iri şəhəri olan San-Paoloda Qlobal Gənc Yaşıllar ("Global Young Greens") Hərəkatının beynəlxalq tədbiri çərçivəşində "Xocalıya Ədalət!" kampaniyasına dəstək deklarasiyasına imzatoplama aksiyası keçiriblər. Bir həftəlik təqdimat zamanı "Xocalıya Ədalət!" tələbi ilə deklarasiyanı yüzlərlə adam imzalamışdır.İslam Konfransı Təşkilatı Əməkdaşlıq və Dialoq uğrunda Gənclər Forumunun mədəniyyətlərarası və sivilizasiyalararası dialoq üzrə Baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə təşkil olunan aksiya "YAŞIL PLANET" adlı layihə çərçivəsində keçirilir. Təhsil ocaqlarında və qeyri-hökumət təşkilatlarının yığıncaqlarında baş tutmuş tədbirlərdə kampaniya haqqında videoklipin təqdimatı olmuş və Xocalı qırğını haqqında materiallar paylanmışdır. Daha sonra aksiyanın təşkilatçısı olan "Global Young Greens" Hərəkatı tədbir iştirakçılarından müsahibə götürmüş və iştirakçılar baş verən hadisəyə və kampaniyaya münasibət bildirmişlər. You Tube saytında yerləşdirilməsi nəzərdə tutulan klipdə müxtəlif millətləri təmsil edən gənc YAŞILLAR kampaniya zamanı Qarabağ münaqişəsi haqqında aldıqları məlumatdan irəli gələn təəssüratlarını belə ifadə etmişlər: "Mən Xocalı faciəsi ilə tanış oldum, belə zorakılığa etiraz edirəm və ədalət tələb edirəm", "Yaşıllar bizə "Xocalıya Ədalət!" kampaniyasının təqdim etdi, mən də başsağlığı verirəm və onlara qoşulub ədalət tələb edirəm", "Mən Xocalı faciəsi barədə daha əvvəl eşitmişdim və baş verənlərə təəssüf edirəm. Bu vəhşiliyi törədənlər cavab verməlidirlər". Tədbir iştirakçıları Ermənistanda kampaniyanın rəsmi saytına girişə qadağan qoyulmasına da etirazlarını bildirmişlər və kampaniya tərəfindən BMT, Avropa Şurası, ATƏT və Ermənistan hökumətinə ünvanlanan müraciət formasına imza ataraq rəsmi Yerevanın bu addımına beynəlxalq təşkilatların diqqətini cəlb etmişlər.

Braziliyanın ardınca Kolumbiyanın Kartahena şəhərində də sakinlər, əsasən, gənclər «Xocalıya Ədalət!» kampaniyasının iştirakçılarından olublar. Aksiyalar gənclərin «Dünya insanlıq irsinə» həsr olunmuş milli festivalı çərçivəsində təşkiI edilmişdir. Aksiyalar ərəfəsində “Xocalıya Ədalət!” beynəlxalq məlumat və təşviqat kampaniyasının Kolumbiya üzrə milli əlaqələndiricisi Xulian Riqo Mendezin təşkilatçılığı ilə yerli könüllülər tərəfindən şəhərin mərkəzi küçələrində divarlara posterlər yapışdırılmış və

küçələrdə kampaniya haqqında məlumat bukletləri paylanmışdır. 2500-dən çox gəncin iştirak etdiyi festivalda "Ədalətsizliyə qarşı min şəxs" devizi altında insanlıq əleyhinə törədilən Xocalı soyqırımını və faciənin qurbanlarına qarşı törədilmiş qeyri-insani davranışları pisləyən bəyannaməyə imzatoplama kampaniyası həyata keçirilmişdir. Aksiyanın sonuncu günü Kartahena Universitetində tələbələrlə görüşlər keçirilmiş, 10 dekabr - Beynəlxalq İnsan Hüquqları Günü ilə bağlı Xocalı qenosidi haqqında "dəyirmi masa"lar, diskussiyalar təşkil edilmiş və gələcəkdə belə faciələrin təkrarlanmaması üçün oxşar sülhməramlı aksiyaların davam etdirilməsi planlaşdırılmışdır. "Xocalıya Ədalət!" kampaniyasına dəstək tədbirləri İsveçrənin Cenevrə, Almaniyanın Berlin, Hollandiyanın Haaqa şəhərlərində Beynəlxalq İnsan Hüquqları Günü ilə əlaqədar keçiriləcək konfranslarla davam edəcəklər. Xatırladaq ki, "Xocalıya Ədalət!" beynəlxalq məlumat və təşviqat kampaniyası İslam Konfransı Təşkilatına üzv olan Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə Baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə öz siyasi bəhrəsini verməkdədir. Kampaniyanın əsas məqsədi 1992-ci il fevralın 26-da Xocalı şəhərində insanlığa qarşı törədilmiş cinayətin dünya ictimaiyyətinə çatdırılması, faciəyə hüquqi-siyasi və mənəvi qiymətin verilməsinə nail olmaq əsas faktorlardan biri olaraq qalır. Bu faktor Bəşəriyyətin Beynəlxalq Terrora qarşı açdığı ən güclü atəşlərdən biri kimi diqqəti cəlb edir.

Araşdırma materiallarına görə, bütün bunlar çox çətinliklə başa gəlirdi. Çünki dünyanı bürümüş erməni diaspor təşkilatları hər an mane olur, tədbirləri, görüş və söhbətləri pozmağa cəhd göstərirdilər. Məsələn, BMT-nin Millətlər Sarayında Xocalı faciəsi müzakirə olunarkən ermənilər nəyin bahasına olursa olsun tədbiri pozmağa cəhd etsələr də, bu alınmadı. Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun (DƏ-İKGF) təşəbbüsü ilə İnsan Haqları Günü - dekabrın 10-da BMT-nin Cenevrə ofisinin Millətlər Sarayında silahlı münaqişələr zamanı insan hüquqlarının kütləvi pozulması problemlərinə həsr olunmuş beynəlxalq konfrans keçirilib. Forumdan APA-ya verilən məlumata görə, konfrans bir saat gec başlayıb. Buna səbəb Ermənistanın BMT-nin Cenevrə ofisindəki daimi nümayəndəliyinin tədbirin işini pozmaq cəhdləri olub. Onlar konfransın formatının guya BMT-nin qaydalarına zidd olduğu arqumentini səsləndiriblər. Təşkilatçıların verdiyi izahatdan sonra mötəbər qonaqların konfransda iştirakı da nəzərə alınmaqla tədbir planlaşdırıldığı kimi, BMT-nin Millətlər

Sarayında öz işinə başlayıb. DƏ-İKGF baş katibi Elşad İsgəndərov məruzəsində Ruanda və Serebrenitsa (Bosniya) faciələri ilə yanaşı, Xocalı qətliamının da İslam Konfransı Təşkilatının (İKT) sənədlərində tanındığını deyib və bu məsələ ilə bağlı mədəniyyətlərarası dialoq çərçivəsində İKT və Avropa strukturlarının əməkdaşlığının vacibliyini vurğulayıb. "Xocalıya Ədalət!" kampaniyasının Litvadan olan koordinatoru Yeva Lukosevite Qarabağ müharibəsinin qanlı səhifəsi olan bu faciə haqqında kampaniya fəallarının hazırladığı multimedia təqdimatı ilə çıxış edib. Ermənistan nümayəndələri bir neçə dəfə konfransı pozmağa cəhd ediblər. Ermənistanın BMT-dəki nümayəndəliyində çalışan diplomat V. Gevorqyan Ermənistan ordusunun bu kütləvi qətldə iştirakını inkar edib. Elşad İsgəndərov isə cavab olaraq Ermənistan rəsmilərinin hələ də beynəlxalq ictimaiyyəti aldatmaqda davam etdiyini söyləyib: "Ermənistanda bu cinayətdə öz liderlərinin hansı rol oynadıqlarını yaxşı bilirlər. Məhz o zaman Dağlıq Qarabağdakı erməni silahlı qüvvələrinin komandirlərindən olan, indi sizin ölkəyə başçılıq edən prezident Böyük Britaniyalı jumalist Tomas De Vaala müsahibəsində etiraf etmişdi ki, “Xocalıda erməni silahlılarının əsas məqsədi azərbaycanlılarda dinc əhalinin öldürülməsinin yolverilməzliyi ilə bağlı formalaşmış "stereotipi" məhv etmək olub". Forumun Baş katibi çıxışında adı çəkilən kitabdan iqtibas gətirib. Azərbaycanın BMT-nin Cenevrədə yerləşən qərargahındakı Daimi Nümayəndəliyinin rəhbəri Elçin Əmirbəyov isə erməni diplomatlarını BMT-də insan hüquqları ilə bağlı müzakirə olunan məsələləri siyasiləşdirməyə cəhd göstərməkdə ittiham edib: "Erməni diplomatiyasının qeyri-hökumət təşkilatlarının təşəbbüslərinə mane olmaq, bu tipli tədbirləri pozmaq praktikasına tez-tez rast gəlinir. Bu konfransda Ermənistan nümayəndəsinin çıxışı müxtəlif ölkələrdən olan iştirakçıların Xocalı qırğını qurbanlarının hüquqlannın bərpa olunmasının zəruriliyi ilə bağlı söylədikləri mülahizələrlə tam uyğunsuzluq təşkiI edir. Lakin onlar "Xocalıya Ədalət!" kampaniyası təşkilatçılarının irəli sürdüyü əsaslandırılmış arqumentlərlə rastlaşdılar. Son illər Azərbaycanın aktiv xarici siyasətinin nəticələrindən olan bu kampaniya öncədən perspektivsiz mövqe seçən rəsmi İrəvanı narahat etməkdədir". Konfransın sonunda qəbul edilmiş xüsusi məruzə BMT-nin Nyu-York və Cenevrədəki ofislərinə, o cümlədən digər beynəlxalq təşkilatlara göndəriləcək.(“Kaspi”.2009.12-14 dekabr.N.222.S.l.)Berlində Beynəlxalq İnsan Hüquqları gününə həsr olunmuş "Unudulmuş qurbanlar - Qafqazda yəhudilər və azərbaycanlılar" mövzusunda keçirilən 3 günlük konfrans başa çatıb. Bu barədə APA-ya Dialoq və Əməkdaşlıq uğrunda

İslam Konfransı Gənclər Forumunun Media Departamentindən bildirilib. Tədbirin əsas təşkilatçısı, "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının Almaniya üzrə koordinatoru, Almaniya Azərbaycanlıları Koordinasiya Mərkəzinin icraçı direktoru Samira Patzer-İsmayılovanın verdiyi məlumata əsasən, konfrans Xocalı qenosidinə və azərbaycanlılara qarşı 1918-ci ildə Qubada erməni daşnakları tərəfindən törədilmiş soyqırımına həsr edilib. Tədbir 100-dən artıq qonağın iştirakı ilə Alman-Azərbaycan Münasibətlərinin İnkişafı Mərkəzində keçirilib. Tədbir zamanı Avropa Parlamentinin üzvü Eduard Lintner Azərbaycana qarşı yeridilən işğalçı siyasəti tənqid edib, Avropanın Dağlıq Qarabağ məsələsinin həllində daha fəal iştirakının labüd olduğunu bildirib. Azərbaycanın Almaniyadakı səfiri Pərviz Şahbazov Azərbaycanda ermənilər tərəfindən tarixən (Quba, Şamaxı və s.) və yaxın keçmişdə (Xocalı və s.) törədilən cinayətlər haqqında məlumat verib.Konfransda Potsdam Universitetinin professoru Dr. Vilfrid Furman, Avropa Azərbaycan Cəmiyyətinin direktoru Şahin Namati-Nasab da çıxış ediblər. Avroqafqaz Cəmiyyətinin sədri, Bonn və Berlin Universitetlərinin professoru xanım Dr. Eva Maria Aux "Azərbaycan yəhudiləri- unudulmuş icma" mövzusunda məruzə edərək, yəhudilərin Azərbaycanda tarixən məskunlaşması və indiyə qədər milli azlıq kimi tam əminamanlıqda yaşamalarını tarixi faktlarla əsaslandırıb. Tədbirin bədii hissəsi zamanı Siyasi Elmlər doktoru, mərhum professor Rövşən Mustafayevin sonuncu - "Ölüm marşları" kitabının təqdimatı keçirilib. Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Hüquqları İnstitutunun direktoru Aytən Mustafayeva həmin kitabın yeni - alman dilində olan nüsxəsini təqdim edib. AAKM-nin icraçı direktoru Samira Patzer-İsmayılova Xocalı soyqırımının dünya ictimaiyyəti tərəfindən hüquqi-siyasi cəhətdən tanınmasına çağıraraq, Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasının labüd olduğunu qeyd edib.Tədbirdə İslam Konfransı Gənclər Forumunun baş koordinatoru Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya Ədalət!" beynəlxalq məlumat kampaniyasının alman dilində təqdimatı Fariz Qasımlı tərəfindən edilib.

**Xocalı qenosidinin İsveçdə yaradılmış “Beynəlxalq Müharibə Qurbanları Memorialı” layihəsinə daxil edilməsi isə əsl mənada işin daha geniş məcrada görülməsi idi.**

## XOCALI: İNSANLIĞA QARŞI CİNAYƏT...

İslam Konfransı Təşkilatı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə Baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə elan edilmiş “Xocalıya Ədalət!” kampaniyasının sayəsində Xocalı soyqırımının adı İsveçdə yaradılmış və virtual aləmdə geniş vüsət almış mükəmməl “Beynəlxalq Müharibə Qurbanları Memorialı” arxiv layihəsinə daxil edilmişdir. Layihədə kampaniyanın rəsmi saytına istinad edilərək Dağlıq Qarabağ müharibəsi zamanı erməni silahlı qüvvələri tərəfindən Xocalı şəhərində xüsusi amansızlıqla öldürülən qurbanların siyahısı yerləşdirilmiş, faciə saytın istifadəçilərinə XX əsrin ən dəhşətli kütləvi qırğını kimi təqdim edilmişdir (http://war-memorial.net/Victims-ofthe-Khojali-Massacre-l.224 http://war-memorial.net/Victims-of- the-Khojali-Massacre-1.224). Saytda istifadə edilmiş ədəbiyyat və resurslar içərisində “Xocalıya Ədalət!” kampaniyasının rəsmi internet saytından (www.justiceforkhojaly.org http://www.justicefork hojaly.org) istifadə edilmiş və sayt kampaniyanın rəsmi saytına yönləndirilmişdir. Xocalı qətliamının adı Əlcəzair, Srebrenitsa, Darfur, Madaqaskar, Nigeriya, Ruanda, Vyetnam və başqa yerlərdə törədilmiş qenosidlərlə bir sırada çəkilmişdir.“Beynəlxalq Müharibə Qurbanları Memorialı” layihəsi II Dünya müharibəsindən sonra dünyada baş vermiş müharibələr və soyqırımlar qurbanları olmuş insanların siyahısını ehtiva edir, şəkillər və faktlarla birlikdə hadisələrin xülasəsini əks etdirir. XX əsrin ikinci yarısından bu günədək soyqırımı və kütləvi qırğınlarda həlak olmuş insanların siyahıyaalma prosesində insan hüquqları ilə məşğul olan institutlar, alimlər, beynəlxaq və qeyri-hökumət təşkilatları, bu sahə ilə məşğul olan tədqiqatçılar iştirak edirlər. Layihə çərçivəsində dünyanın müxtəlif ölkələrində məlumatlandırma üçün sərgilər, seminarlar həyata keçirilir və məqalələr çap edilir. Faciələrlə bağlı qurbanların xatirəsini əbədiləşdirmək üçün Stokholm şəhərində özündə universitet, muzey, kitabxana, arxiv, xatirə parkları və başqa komponentləri birləşdirən “Memorial’ kompleksinin tikilməsi planlaşdırılır. “Xocalıya Ədalət!” kampaniyası kompleksdə Xocalı soyqırımı bölməsinin açılması ilə bağlı təkliflərini layihənin təşkilatçılarına təqdim etmişdir. “Xocalıya Ədalət!” kampaniyası çərçivəsində fevralın 26-da dünyanın 30-dan çox ölkəsində sərgilərin, konfransların və dinc aksiyaların təşkili planlaşdırılır. Xocalıda törədilmiş insanlığa qarşı cinayətin dünya ictimaiyyətinə çatdırılması, bu faciəyə hüquqi-siyasi və mənəvi qiymətin verilməsi üçün səmərəli təşviqat davam etdirilir.

Artıq 50-dən artıq ölkənin parlamentinin nümayəndələri Xocalı faciəsini insanlığa qarşı cinayət kimi qiymətləndirmişlər. Bununla əlaqədar İslam

Konfransı Təşkilatı "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasına dəstək çərçivəsində xüsusi qətnamə qəbul etmişdir. İslam Konfransı Təşkilatına üzv dövlətlərin Parlament İttifaqının (İKT Pİ) Uqandanın paytaxtı Kampala şəhərində keçirilən VI sessiyasında Azərbaycan üçün çox mühüm hadisə baş vermişdir. 50 ölkənin parlament heyətləri başçılarının iştirak etdiyi tədbirdə İslam Konfransı Gənclər Forumunun (İKGF) təşəbbüsü ilə "İKGF ilə İKT Pİ arasında əməkdaşlıq" haqqında qətnamə qəbul edilmişdir. Bu barədə məlumatı İKGF-nin baş qərargahı yaymışdır.Məlumatda deyilir ki, İKGF-nin mədəniyyətlərarası dialoq üzrə Baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya Ədalət!" beynəlxalq kampaniyası çərçivəsində irəli sürülən qətnamədə Xocalı faciəsinə "Erməni silahlı qüvvələri tərəfindən dinc əhalinin kütləvi qətliamı" və "İnsanlığa qarşı cinayət" kimi qiymət verilmişdir. Qətnamədə "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasına həm milli, həm də beynəlxalq səviyyədə tam dəstək verməyə çağıran bənd də öz əksini tapmışdır. Qətnamə beynəlxalq təşkilatlar tərəfindən Xocalı faciəsini "İnsanlığa qarşı cinayət" kimi tanıyan ilk sənəddir. Nəzərə alsaq ki, İKT Parlament İttifaqı öz sıralarında dünya parlamentlərinin demək olar ki, dörddəbirini cəmləşdirir və dünyanın ən böyük parlamentlərarası beynəlxalq qurumlarındandır, həmin qətnamədə Xocalı soyqırımının beynəlxalq hüququn normalarına əsasən insanlığa qarşı cinayət adlandırılması Xocalı qenosidinin dünya səviyyəsində tanınmasına, eyni zamanda, bu cinayəti törədənləri məsuliyyətə cəlb etmək üçün keyfiyyətcə yeni bir mərhələ açacaqdır. Qətnamə Ermənistana da çatdırılacaqdır. Çünki Kampalada keçirilən sessiyada beynəlxalq təşkilatların nümayəndələri, o cümlədən Ermənistanın da üzv olduğu Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Birliyinin nümayəndələri də iştirak etmişlər. Qətnamənin digər bir bəndində Leyla xanım Əliyeva tərəfindən irəli sürülmüş "Xocalıya Ədalət!" kampaniyasına tam dəstək veriImişdir. Uqandada keçirilən tədbirdə iştirak edən dövlətlərin nümayəndələri qətnamənin qəbul edilməsinə yekdilliklə səs vermişlər. Sənədin qəbul olunmasında İKT ölkələri parlamentlərinin 10-dan çox sədri və təqribən 100 deputat, mötəbər qurumların nümayəndələri iştirak etmişlər. İKGF-nin baş katibi Elşad İsgəndərov xüsusi vurğulamışdır ki, bu, Leyla xanım Əliyevanın təşəbbüsü ilə, artıq, bir ildir ki, fəaliyyət göstərən "Xocalıya Ədalət!" kampaniyasının üçüncü ciddi uğurudur. Birinci uğurumuz biz kampaniyaya başlayandan az sonra İKT xarici işlər nazirləri tərəfindən Xocalı faciəsini kütləvi qırğın kimi qiymətləndirmək barədə qətnamənin qəbuluna nail olmağımızdır. Keçən ilin iyul ayında isə İKT Gənclər Forumu ilə İSESKO

arasında imzalanmış anlaşma nəticəsində Xocalı faciəsi haqqında məlumatın İKT ölkələrinin tarix dərsliklərinə daxil edilməsi barədə razılıq əldə olunmuşdur. Bundan əlavə, ötən ilin dekabrında BMT çərçivəsində keçirilən konfransda Xocalı soyqırımı Ruanda, Srebrenitsa, Xolokost kimi dünya tərəfindən tanınmış soyqırımları ilə yanaşı, İnsan Haqları Günündə gündəmə gətirilmiş və bununla əlaqədar BMT-də konfrans keçirilmişdir. “Xocalıya Ədalət!” kampaniyası davam etməkdədir. Qətnamənin qəbul olunması ilə bağlı ideya İKGF-nin mədəniyyətlərarası dialoq üzrə Baş əlaqələndiricisi Leyla xanım Əliyeva tərəfindən keçən il Bakıda kampaniyanın milli əlaqələndiricilərinin görüşü zamanı irəli sürülmüş və ötən müddətdə kampaniyanın İKT ölkələrindəki fəallarının milli parlamentlərinə yönəlmiş lobbiçilik fəaliyyəti nəticəsində uğurla qəbul edilmişdir. Bu prosesə İKGF-nin bir sıra İKT ölkələri parlamentləri və ilk növbədə Azərbaycan Respublikası Milli Məclisi və onun Katibliyi ilə əməkdaşlığı xüsusi dəstək vermişdir.“Xocalıya Ədalət!” kampaniyasının təşəbbüskarı Leyla xanım Əliyevadır. Bu kampaniyaya 2009-cu ilin fevralında start verilmişdir və hazırda 30-dan artıq ölkədə yüzlərlə könüllünün iştirakı ilə uğurla davam etdirilməkdədir. Kampaniyanın məqsədi beynəlxalq ictimaiyyəti Xocalı faciəsi ilə bağlı məlumatlandırmaq, kütləvi qırğına beynəlxalq aləmdə mənəvi-siyasi qiymət verilməsinə və bu qanlı qırğının qurbanlarının xatirəsinin anılmasına nail olmaqdır.

Türkiyənin nüfuzlu ’'Hürriyyət’' qəzeti Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın müsahibəsində isə qeyd edib: “**Xocalı soyqırımının beynəlxalq ictimaiyyətə çatdırılması məqsədilə "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində daha bir layihənin - Azərbaycanın məşhur rep qrupu "Dəyirman"ın və ABŞ Xarici İşlər Nazirliyinin xoşməramlı səfiri Toni Bləkmən ilə birlikdə ifa etdiyi "Xocalıya Ədalət!" klipinin ərsəyə gəlməsinə Leyla xanım Əliyeva yaxından dəstək vermişdir. "Hürriyyət" qəzetinə (Türkiyə) müsahibəsində Leyla xanım Əliyeva demişdir: "Xocalıya Ədalət!" istəyən hər bir kəs insanlığın səsini dinləmiş olar. Dünya ictimaiyyəti Xocalı qətliamından sonra konkret və işlək bir mexanizm yaratmamışdır. Təəssüf ki, hələ də bu faciəyə ikili standartlardan yanaşılır. Ermənilər "dünya bunu tez unudar" düşüncəsi ilə bir gecədə 613 nəfəri qətlə yetirmişlər. Qətlə yetirilənlər arasında 106 qadın, 63 uşaq vardır. Səkkiz ailə tamamilə məhv edilmişdir.Bu gün güvənə biləcəyimiz dövlətimiz vardır. Bu cinayəti bütün dünyada tanıtmaq məqsədi ilə 2009-cu ildən etibarən "Xocalıya Ədalət!" kampaniyasına başlamışıq.” (Bax : “Hürriyyət”. Türkiyə.2009, fevral).**




**1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet ordusunun hava, dəniz və quru qoşunlarının Bakıya yeridilməsi planı**

*Tarix – mifə çevrilən həqiqətdir.*
*Mif – "tarixə" çevrilən yalandır.*
*Jan Kokto*

# ŞƏKİLLƏR İTTİHAM EDİR!

***XX əsr***

***26 fevral 1992-ci il***

***Təcavüzkar, işğalçı Ermənistanın törətdiyi Xocalı soyqırımı qurbanları***



## DİQQƏTLƏ BAX, ƏDALƏT ÇAĞIRIŞINA SƏS VER, BƏŞƏR ÖVLADI!




XOCALIYA
ƏDALƏT!




XOCALIYA ƏDALƏT!


XOCALIYA
ƏDALƏT!


ƏDALƏT!
XOCALIYA


XOCALIYA
ƏDALƏT!


XOCALIYA
ƏDALƏT!


XOCALIYA
ƏDALƏT!


XOCALIYA
ƏDALƏT!


XOCALIYA
ƏDALƏT!


XOCALIYA
ƏDALƏT!


XOCALIYA
ƏDALƏT!


ƏDALƏT!
XOCALIYA


XOCALIYA
ƏDALƏT!




*Erməni terrorundan yurd-yuvasını tərk edən insanlara ədalət!*




*Dünyanın mərhəmətli insanları, "Xocalıya Ədalət!" çağırışına qoşulun!*




*Erməni terrorçuları və onların havadarları, bu günahsız körpələrin ruhu sizi rahat buraxmayacaq!*




*Xocalı: erməni terrorunun qurbanları olan uşaqların ölkəsinə Ədalət!*




*Bu körpələrin günahı nədir?*




*Yurd-yuvasından qaçqın düşüb qatarlarda məskunlaşmış günahsız ailələrdən biri*




*Yaman ağır olur, yaman ayrılıq...*




*Erməni terrorçuları tərəfindən*
*güllələnmiş dinc sakinlərə Ədalət!*




*Xocalı: bu ədalətsizliyə dünya birliyi niyə susur?*




*Erməni terrorçularına lənət - Xocalıya Ədalət!*




*Ermәni terroruna hüquqi qiymәt - Xocalıya Ədalәt!*




*Ermәni vandalizmi...*




***Günahsız ağsaqqal və ağbirçəklər, Sizin qanınız yerdə qalmayacaq! "Xocalıya Ədalət!" çağırışına bütün dünya səs verəcək. Cinayətkarları dünya mühakimə edəcək.***




*Xocalı: insanlığa qarşı erməni terroru*




*Xocalıda soyqırımı*




*Erməni vandalizmi. İşgəncələrlə öldürülmüş insan meyitləri, təhqir edilib, yandırılırdı.*

## «XOCALIYA ƏDALƏT!» ÇAĞIRIŞI: BEYNƏLXALQ TERRORA VƏ MÜHARİBƏYƏ QARŞI QƏHRƏMANLIQ ABİDƏSİ

Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda Heydər Əliyev Fondunun təşəbbüsü ilə yenidən qurulan "Dostluq parkı"nın və Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidə əsl qəhrəmanlıq abidəsi olaraq qalır. Yerli mətbuat qeyd edir ki, «Xocalıya Ədalət!» naminə qoyulan bu abidə Beynəlxalq terrora qarşı mübarizədə ciddi sənət abidələrindən biridir.

Açılış mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak etmişdir. Əvvəlcə Leyla xanımın Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Bakir İzetbeqoviç və qızı Yasmina İzetbeqoviç ilə görüşü olmuşdur. Görüşdə Sarayevoda "Dostluq parkı"nın açılışına görə təşəkkür bildirildi, bu tədbirin iki xalq arasında əlaqələrin genişləndirilməsinə xidmət etdiyi vurğulandı. Gələcək əməkdaşlığın müzakirə olunduğu görüşdə Heydər Əliyev Fondunun Bosniya və Herseqovinada həyata keçirdiyi humanitar layihələrin əhəmiyyəti xüsusi qeyd edildi.

Sonra Bosniya və Herseqovinanın rəsmi şəxslərinin, ictimai-siyasi xadimlərinin, mədəniyyət işçilərinin, ictimaiyyət nümayəndələrinin iştirakı ilə Sarayevoda yenidən qurulan "Dostluq parkı"nın açılışı oldu.

Dobrinya çayının sahilində yerləşən və əvvəllər baxımsız ərazi olan bu park indi Sarayevonun ən gözəl istirahət məkanlarından birinə çevrilmişdir. Ötən ilin noyabrında başlanılan yenidənqurma işləri bir hektara yaxın ərazidə aparılmışdır. Parkda müasir və orijinal memarlıq üslubundan istifadə edilmiş, yaşıllıqlar salınmış, burada Sarayevo sakinlərinin istirahəti üçün müxtəlif pavilyonlar qurulmuş, hər cür şərait yaradılmışdır.

Qeyd edək ki, Ümummilli Lider Heydər Əliyevin hələ Azərbaycan rəhbərliyinin birinci dövründə - 1972-ci ildə Bakı ilə Sarayevo şəhərləri qardaşlaşmışdır.

Bu cür gözəl bir parkın Sarayevoda salınmasının əsas səbəbi isə Bosniya və Herseqovinanın Avropanın mərkəzində yerləşməsidir. Digər bir faktı da qeyd etmək lazımdır ki, Balkanlarda gedən müharibə 1995-ci ildə məhz bu parkın salındığı ərazidə başa çatmışdır.

Bu kompleks-abidə sözün həqiqi mənasında şərəf və ləyaqət abidəsidir.

Heykəltəraş Natiq Əliyevin müəllifi olduğu abidə iki dərdli ananın - yaşlı və cavan qadının obrazını əks etdirir. "Xocalıya Ədalət!" kampaniyası

çərçivəsində Heydər Əliyev Fondunun təşəbbüsü, Azərbaycan Respublikasının maliyyə dəstəyi, Sarayevonun Novi Qrad bələdiyyəsinin və Azərbaycanın Bosniya və Herseqovinadakı diplomatik nümayəndəliyinin dəstəyi ilə reallaşan bu layihə Xocalı soyqırımının 20-ci ildönümü ərəfəsində faciənin əsl mahiyyəti ilə bağlı həqiqətlərin təbliğinə xidmət edən mühüm hadisədir.

Mərasimdə çıxış edən Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Bakir İzetbeqoviç xalqlarımızın tarixi münasibətlərindən danışdı. Hər iki ölkədə paytaxt şəhərlərinin adlarına küçələrin olduğunu diqqətə çatdıran B.İzetbeqoviç bildirdi ki, Leyla Əliyevanın bu təşəbbüsü dostluq əlaqələrini daha da gücləndirəcəkdir. “Bu abidə Azərbaycan ilə Bosniya və Herseqovinanın ağır günlərinin rəmzidir”, - deyən B.İzetbeqoviç Heydər Əliyev Fondunun Bosniya və Herseqovinada gördüyü işləri yüksək qiymətləndirdi və öz xalqı adından Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkürünü bildirdi.

Bosniya və Herseqovinanın nəqliyyat və rabitə naziri Damir Haciç ölkələrimiz arasında diplomatik münasibətlərin qurulması tarixindən danışdı, Azərbaycanın inkişafında Ulu Öndər Heydər Əliyevin xidmətlərini vurğuladı. Xocalı faciəsi ilə bağlı onlarda kifayət qədər dolğun məlumatların olduğunu deyən D.Haciç, bu layihəyə görə Azərbaycan dövlətinə və xalqına təşəkkürünü bildirdi.

Mərasimdə çıxış edən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Bosniya və Herseqovinanın rəhbərliyinə, o cümlədən Azərbaycan xalqının kədərini bölüşən bu ölkənin xalqına minnətdarlığını bildirdi. Leyla Əliyeva 20 il əvvəl ermənilərin Xocalıda törətdikləri soyqırımı nəticəsində 613 dinc sakinin qətlə yetirildiyini bir daha diqqətə çatdırdı.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva çıxışında qeyd etdi: “Xocalıda baş verənlərin ağrısı bu günədək hiss olunur. Əfsuslar olsun ki, bu, dünyanın digər hissələri üçün də acınacaqlı nəticələr vermişdir. Azərbaycan coğrafi baxımdan Avropa ilə Asiya arasında yerləşir və insanlığa qarşı bu cinayət XX əsrin sonlarında, düz Avropanın kəndarında törədilmişdir. Bu dəhşətli soyqırım zamanı Xocalının dinc sakinlərini qətlə yetirilmişlər”.

“Heydər Əliyev Fondu və “Xocalıya Ədalət!” kampaniyası Xocalı həqiqətlərini dünya ictimaiyyətinə çatdırmağı qarşısına məqsəd qoymuşdur”, deyən Leyla xanım Əliyeva bildirdi ki, hazırda bu kampaniya dünyanın 50 ölkəsində həyata keçirilir və onun fəallarının yorulmaz əməyinin nəticəsi

olaraq İslam Əməkdaşlıq Təşkilatının Parlament İttifaqı Xocalıda törədilmiş vəhşilikləri soyqırımı kimi tanımışdır. Bundan əlavə, Xocalı dəhşətləri Meksika və Pakistan parlamentləri tərəfindən də soyqırımı kimi qəbul olunmuşdur.

Leyla Əliyeva kampaniya çərçivəsində Xocalı soyqırımına dair kitab, buklet, disklərin hazırlandığını, dünyanın hər yerində müxtəlif tədbirlərin həyata keçirildiyini bildirdi. Leyla Əliyeva dedi: "Bu gün etdiklərimizin heç biri Xocalı soyqırımının yaralarını sağalda bilməz. Bizim edə biləcəyimiz yalnız həmin dəhşətli tarixi yad etmək və kütləvi qırğın zamanı öldürülən və ya ömürlük əlil olan uşaq, qadın və kişiləri unutmamaqdır".

Sonra Srebrenitsa və Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Sarayevonun meri Aliya Behmen çıxış edərək, ölkələrimizin əməkdaşlıq əlaqələrinin iqtisadi, mədəni və humanitar sahələrdə uğurla inkişaf etdiyini dedi. Mer bu parkın salınması və burada abidənin ucaldılması ilə bağlı Heydər Əliyev Fondunun təşəbbüsünü yüksək qiymətləndirdi. Daha sonra, A.Behmen Bakı ilə Sarayevo arasında əlaqələrin inkişafına göstərdiyi dəstəyə, o cümlədən park ilə bağlı layihənin reallaşmasına görə təşəkkürnaməni Leyla Əliyevaya təqdim etdi.

*Bosniya və Herseqovina-Azərbaycan Dostluq Assosiasiyasının sədri Cenita Özgüner çox qısa bir vaxtda Azərbaycan tərəfindən ölkəsində mühüm layihələrin reallaşdırdığını vurğuladı. "Bu abidə hər ilk ölkənin tarixini əks etdirir", deyən C.Özgüner ermənilərin tarixi saxtalaşdırmağa çalışdığını, bununla da dünya ictimaiyyətini çaşdırmağa cəhd etdiyini bildirdi.*

Bosniya və Herseqovinanın İslam Cəmiyyətinin baş müftisi Mustafa Tseriç isə ədalətsizliyə və haqsızlığa qarşı mübarizə mükafatını, o cümlədən kimsəsizlərə əl tutmağa görə təşəkkürnaməni Leyla Əliyevaya təqdim etdi.

"Dostluq parkı"nın ən mühüm elementlərindən biri də burada eyni adlı körpünün inşasıdır. Heydər Əliyev Fondunun təşəbbüsü, Azərbaycan dövlətinin maliyyə dəstəyi ilə tikilən körpü "Dostluq parkı" ilə üzbəüz yerləşən Dobrinya Təhsil Kompleksində oxuyan gənclər üçün böyük hədiyyədir. Bu körpü vasitəsilə onlar parka gəlib, istirahət edərək, Xocalı soyqırımı ilə bağlı həqiqətləri daha yaxından öyrənə bilərlər. Körpünün dizaynında Azərbaycanın və Bosniya- Herseqovinanın milli ornamentlərindən istifadə olunmuşdur.

Sonra tədbir Dobrinya Təhsil Kompleksində davam etmişdir.

Leyla xanım Əliyeva burada 1992-1995-ci illərdə gedən qanlı hadisələrdə həlak olan ən gənc müharibə qurbanının xatirəsinə qoyulan lövhəyə baxdı.

Burada təşkil olunmuş görüşdə kompleksin Humanitar Təmayüllü Gimnaziyasının direktoru Sabina Miskin təhsil ocağı haqqında ətraflı məlumat verdi, Leyla Əliyevaya bu təhsil ocağına gəldiyinə görə təşəkkürlərini bildirdi.

İdman Təmayüllü Gimnaziyanın direktoru Seyad Şenderoviç isə Xocalı soyqırımını bəşəriyyətə qarşı cinayət adlandırdı.

Novi Qrad rayonunun meri Aner Şuman ölkələrimizin dostluq əlaqələrinin möhkəm bağlarla birləşdiyini bildirdi.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva təhsil ocağında çıxış edərək 1990-cı illərin faciəli hadisəıərindən sonra Sarayevonun dirçəlməsindən və yenidən Balkanların mirvarisinə çevrilməsindən şad olduğunu vurğuladı.

Heydər Əliyev Fondunun fəaliyyəti, həyata keçirdiyi layihələr barədə danışan Leyla Əliyeva indiyə qədər Fondun xətti ilə Azərbaycanda 400 məktəbin tikildiyini, mədəniyyət və səhiyyə sahəsində mühüm layihələrin reallaşdığını, Talassemiya Mərkəzinin inşa edildiyini, bütün dünyanı əhatə edən Ətraf Mühitin Mühafizəsi üzrə Beynəlxalq Dialoq Təşəbbüsünə (İDEA) start verildiyini bildirdi. Leyla Əliyeva onu da vurğuladı ki, hazırda Heydər Əliyev Fondunun əsas məqsədlərindən biri dünya ictimaiyyətini Xocalı soyqırımı haqqında daha çox məlumatlandırmaqdır.

Leyla Əliyeva dedi: "1992-ci il fevralın 26-da erməni hərbi birləşmələrinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yerləşən Xocalı şəhərinə hücumu zamanı 613 dinc sakin qətlə yetirildi. Onların arasında 106 qadın, 63 uşaq və 70 ahıl insan da vardır. Bu kütləvi qətillər həmişə Azərbaycan xalqının ürəyində bir iz kimi qalacaq və biz bu dəhşətli soyqırımının qurbanlarını heç vaxt unutmayacayıq".

Daha sonra Leyla Əliyeva gəncləri və ictimaiyyət nümayəndələrini maraqlandıran sualları cavablandırdı.

Xocalı soyqırımı barədə ətraflı məlumat verən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Fondun bu faciə ilə bağlı layihələr həyata keçirdiyini, "Xocalıya Ədalət!" kampaniyasının bir çox ölkələri əhatə etdiyini, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının Xocalı soyqırımını tanıdığını vurğuladı. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində respublikamızın üzləşdiyi problemlərdən danışan Leyla Əliyeva ölkəmiz, onun siyasi, iqtisadi uğurları, Heydər Əliyev Fondunun gələcək planları, "Baku" jurnalının fəaliyyəti, Bakıda keçirilən "Eurovision" beynəlxalq mahnı müsabiqəsi ilə bağlı ətraflı məlumat verdi.

Sonra təhsil kompleksinin şagirdləri ədəbi-bədii kompozisiya ilə çıxış

etdilər.

Görüşün iştirakçıları Leyla Əliyevadan Srebrenitsa faciəsində yaxınlarını itirən analar adından parkda abidənin ucaldılmasına görə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya minnətdarlıqlarını çatdırmağı xahiş etdilər.

Dünya ictimayyəti Xocalı faciəsi barədə bilməlidir, məlumatlandırılmalıdır ki, bu cür amansız qətllər və cinayətlər heç zaman, heç yerdə təkrar olunmasın.

İslam.az-m SalamNews-a istinadən verdiyi məlumata gorə, bu barədə Moskvada Xocalı ilə bağlı anma tədbirində Heydər Əliyev Fondunun vitse-prezidenti, Fondun Rusiya nümayəndəliyinin rəhbəri Leyla Əliyeva bildirib. O deyib ki, kampaniya çərçivəsində 1 milyondan çox imza toplanıb. Leyla Əliyeva vurğulayıb ki, Heydər Əliyev Fondu bir neçə ildir Avropanın, Asiyanın, Afrikanın, Şimali və Cənubi Amerikanın 70-dən çox ölkəsində bu faciə ilə əlaqədar tədbirlər keçirir. Tədbirlər çərçivəsində müxtəlif ölkələrin parlamentləri və dövlət qurumları qarşısında etiraz aksiyaları, piketlər, habelə seminarlar, konfranslar keçirilir, kitablar nəşr olunur, filmlər çəkilir. "Xocalıya Ədalət!" kampaniyası sayəsində Xocalı faciəsi bir sıra beynəlxalq təşkilatlar tərəfindən tanınıb. Leyla Əliyeva deyib: "Hazırda Pakistan, Meksika, Çexiya, Kolumbiya, Bosniya və Herseqovina parlamentləri Xocalı faciəsini soyqırımı və Azərbaycana qarşı cinayət aktı kimi tanıyıblar. Bundan əlavə, ABŞ-ın 7 ştatı bu soyqırımını tanıyıb. Biz bu istiqamətdə işimizi davam etdirəcəyik, hələ çox işlər görəcəyik və mən inanıram ki, tezliklə dünyanın bir çox ölkəsi bu soyqırımını tanıyacaq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ədalətli həllini tapacaq. Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcək və bütün qaçqınlar və məcburi köçkünlər doğma torpaqlarına, evlərinə qayıdacaqlar."

Bu tədbirin Ermənistan ilə Azərbaycan arasında uzun müddət davam edən münaqişənin həlli məsələsinə mühüm təsir göstərən Rusiyanın paytaxtında keçirildiyini vurğulayan Leyla Əliyeva deyib: "İstərdim ki, dünyanın bütün ölkələrinin vətəndaşları kimi, Rusiya vətəndaşları da bu dəhşətli faciə haqqında həqiqəti bilsinlər. Əlbəttə, bizim bu gün gördüyümüz işlər həlak olmuş insanların həyatını qaytara, sağ qalmış xocalıların yarasını sağalda bilməz. Biz o qadınları, uşaqları və qocaları heç zaman unutmayacayıq."

"Xocalıya Ədalət!" kampaniyasının əsas siyasi məqsədi - Xocalı faciəsini beynəlxalq səviyyədə insanlığa qarşı cinayət kimi tanıtmaqdır. Bunun üçün

Xocalı faciəsinin növbəti ildönümü ərəfəsində həmişəki kimi kampaniyanın saytında xüsusi ərizə hazırlanıb və hər bir kəs onun vasitəsilə dövlət müəssisələrinə, beynəlxalq təşkilatlara və dövlət başçılarına Xocalı faciəsi haqqında məktub göndərə bilər. Londonda parlament qarşısında səmaya Xocalı fıciəsi qurbanlrının adları olan 613 şar buraxılıb. Amsterdam, Brüssel, Vyana, Vilnyus, Mexiko, Paris, Moskva və Los-Ancelesdə də tədbirlər keçirilib. Mərkəzi meydanlarda azərbaycanlı qaçqınların simvolu kimi çadırlar qurmaq planlaşdırılır. Londonda Temza sularında bütün gün ərzində faciə qurbanlarının xatirəsinə gəmi üzüb. **1992-ci il fevralın 26-da Ermənistan hərbi birləşmələri tərəfindən 7000 əhalisi olan Xocalı şəhərində soyqırım aktı həyata keçirilib. Əhalinin xeyli hissəsi 4 aydan artıq zaman ərzində mühasirədə olduğundan Ermənistan hərbi birləşmələrinin şəhərə hücumu zamanı burada yalnız üç minə yaxın insan qalmışdı. Xocalı soyqırımı zamanı 613 nəfər öldürülüb, 1000 nəfər müxtəlif yaşlı dinc sakin aldığı güllə yarasından əlil olub. 106 nəfər qadın, 63 azyaşlı uşaq, 70 qoca öldürülüb. 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 nəfər valideynlərindən birini itirib. Faciə baş verən gecə 1275 nəfər dinc sakin girov götürülüb, onlardan 150 nəfərin taleyi hələ də məlum deyil.**

Tarixə ani bir nəzər salın. Görün bu xalqın başına hansı fəlakətlər gətirilməyib?! Ermənistan və ermənipərəst ölkələrin dəstəyi ilə yürüdülən təcavüzkar və məkrli siyasətin nəticəsində tarixən Azərbaycana məxsus (indiki Ermənistan əraziləri daxil olmaqla) torpaqlar zəbt edilmiş, bir milyondan artıq soydaşımız öz yurd-yuvalarından didərgin düşmuş, ümumdünya tarixi əhəmiyyətə malik qiymətli sənət abidələrimiz dağıdılmış və qarət edilmişdir. Amma olub keçən, lakin unudulmaz və sarsıdıcı tarixə çevrilən bütün bu hadisələr cərəyanında ədalət axtarışı, ədalət prinsipi olmayıb. İstintaqlar başdansovdu, cinayətkarlar cəzasız, zərərçəkənlər isə gözüyaşlı qalıblar…

Lakin səhifələrə köçürülmüş tariximizin qan yaddaşını artıq vərəqləmək vaxtıdır. Bu gün bütün bəşəriyyəti terror nəticəsində zülm və işgəncələrdən əziyyət çəkən milyonlarla insanların taleyi uğrunda mübarizəyə çağıran "Xocalıya Ədalət!» adlı mənəvi bir cəbhə mövcuddur. Və bu ideoloji cəbhə nə qədər terror və amansızlıq, müharibə var, həmişə yaşayacaq.

# QIRĞIN HƏMİN QIRĞIN İDİ. XOCALIYA QƏDƏR YAŞANANLAR

Araşdırma materiallarına görə, Vyanada (Avstriya) fəaliyyət göstərən «Erməniləri öyrənən strateji mərkəz»in direktor müavini, əslən Sumqayıt ermənisi olan E.D.Manukyan 2012-ci il oktyabrın 3-də Dünya Erməni Diaspor rəhbərlərinə ünvanladığı çağırışda bildirirdi ki, nəyin bahasına olursa olsun, dünya arxivlərindən, ən məxfi qovluqlardan erməniləri, xalqımızı «cinayətkar» kimi tanıdan materiallardan, fakt və sənədlərdən təmizləmək vaxtıdır. Yeni yüzil bunu bizdən tələb edir. Yoxsa gələcək nəsillər bu «uydurmalara» inana bilər...

Artıq dünya kitabxana və arxivlərinin rəhbərlərinin bir qismi bunu etiraf edir, çıxış yolu axtarırlar. Məsələn, araşdırma materiallarına görə, ötən yüzilliyin son illərinədək Sovet İttifaqının Xarici Kəşfiyyatına rəhbərlik edən general-leytenant Vadim Alekseyeviç Kirpiçenkonun şəxsi arxivində qoruyub saxladığı bir neçə qovluğu yoxa çıxıb.

V.A.Kirpiçenko Dövlət Təhlükəsizlik Komitəsinin sədri, Siyasi Büro üzvü, ordu generalı Vladimir Aleksandroviç Kryuçkova ünvanladığı məktubda qeyd edirdi: «...Mənim yanıma əslən Livandan olan, erməni mənşəli Emel Orduyan adlı birisi gəldi. Biz onunla Heratda tanış olmuşduq (Xatırladaq ki, general Kirpiçenko həmin vaxt Moskvanın Kabildəki Daimi Nümayəndəliyinin rəhbəri idi). Özlərini Erməni Milli Azadlıq Ordusu hesab edən «ASALA» erməni terrorçularının silahlı birləşmələri Azərbaycana hücuma hazırlaşırlar. Bu terror dəstəsinin böyük bir qrupu, artıq, Livanın Bəqa vadisində özlərinin döyüş taktikalarını sınaqdan çıxarırlar...» 11 gündən sonra kəşfiyyat generalı ikinci məktubu göndərir və qeyd edir: «...Birinci məktuba əlavə olaraq bildirirəm ki, «ASALA» erməni ordusunun (terrorçu ifadəsi çıxarılıb – ***V.S., R.V.***) Azərbaycana müxtəlif istiqamətlərdə hücumlarına hansı səbəbdənsə Moskva dəstək verib. Kreml Azərbaycana dərs vermək üçün «ASALA»nın hərbi-sursatla təminatını boynuna götürüb.» Rus generalı bunu da iddia edirdi ki, erməni diasporunun yaratdığı «ASALA» silahlı birləşməsinin tərkibində «Erməni Milli Assambleyası»nın üzvləri də var. Bu dəstəyə ABŞ-da həbsdə olan Murad Topolyanın başçılıq etməsi də maraq doğurmaya bilməz. Məlumata görə, «ASALA»nın yedəyində Bakıya girən bu silahlı dəstənin Baş Qərargahı Ohayo ştatındakı Bedfor şəhərində idi. Digər tərəfdən, o da məlum idi ki, silahlı terror dəstəsi

ilkin hərbi hazırlıqlarını Massaçusets ştatındakı (ABŞ) «Hayastan» hərbi-təlim düşərgəsində keçib.

Araşdırma materiallarına görə, «Erməni Milli Assambleyası» silahlı erməni dəstəsi ABŞ Dövlət Departamentinin rəsmi sənədlərində terrorçu dəstəsi kimi qeyd olunur. Murad Topolyana gəlincə, o, hansısa səbəblərə görə Bakıda vuruşmaq üçün (?) Bedford həbsxanasından azad olunaraq «ASALA»nın sıralarında görünür. (Bax: "Jmanak" qəzeti. Türkiyə. 1996,II). İndiyə qədər bu sualı heç kəs cavablandıra bilmir. Azərbaycana qarşı hazırlanmış soyqırım planında hər şey diqqətlə ölçülüb-biçilmişdi. «Erməni Milli Assambleyası» Bakıya hücum zamanı respublikanın Daxili İşlər Nazirliyinə, MK-nın binasına (indiki PA) basqın edib, binaları dağıtmalı, tank mərmilərilə oraları yerlə-yeksan etməli idilər.

Rus kəşfiyyatının təcrübəli, səriştəli simalarından sayılan V.A.Kirpiçenkonun məktubları baş verə biləcək çox ciddi hadisələrdən xəbər verirdi. Onun «ərəb dostu» Emel Orduyanın məlumatları başqa mənbələrdən, istiqamətlərdən də əldə olunan kəşfiyyat məlumatlarında da öz təsdiqini tapırdı. General V.Kirpiçenkonun məktubları buna baxmayaraq, hələ də cavabsız qalmışdı. (Sadəcə, məktubların qəbulu ilə bağlı cavablar verilirdi.)

Həmin vaxt ABŞ-ın yeni seçilən prezidenti (1989-1990) Corc Herbert Uolker Buş idi. Prezidentlikdən əvvəl o ABŞ-ın MKİ-nin Direktoru olmuşdu. C.Buş Moskvadakı rezidenturasında çalışan polkovnik Hell Harvini Bakıya tələsdirirdi. Görünür Ağ Ev də «ASALA»nın terror planları haqqında geniş və hərtərəfli məlumatlara malik idi. **Üçüncü məktubda isə general V.A.Kirpiçenko, artıq, «ASALA»nın Azərbaycanda törədə biləcəyi qanlı cinayətin vaxt və zamanından danışırdı. «...Məktublarıma əlavə olaraq bildirirəm; «ASALA» erməni ordusu Azərbaycan sərhədlərini 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə, saat 00:15-də pozacaq. Onlar, artıq, kiçik dəstələr şəklində Livandan, Suriyadan, İraqdan, Bəhreyndən, Sudandan, CAR-dan, Fransadan, İngiltərədən, Bolqarıstandan... Moskvaya, Leninqrada, Rostova, Stavropola... uçurlar... Onlar Sovet Qoşunlarının kontingentində hissələrə bölünüblər. Verilən materialları araşdırmanızı xahiş edirəm».** (Bax: 366-ci alayın kəşfiyyat zabiti A.S.Mamontovun "Alman dalğası" radiosuna verdiyi müsahibədən. 1992-ci il, 28 fevral).

Araşdırma materiallarına görə, C.Buşun, Vaşinqtonun Moskvadakı rezidentlərindən olan Hell Harvi 1990-cı il mayın 17-də təcili olaraq Bakıya gəlir. Məlumatlarda bildirilir ki, Hell Harvi İrandakı erməni icmasının

gənclərini də bu plana qoşmağa təhkim olunmuşdu. Onun missiyası bu işdə başa çatmalı idi. Lakin bu məsələnin alınıb-alınmaması sual altında idi (Bax: "Azadlıq" radiosunun məlumatı.1990.V.18).

Digər bir məlumatda isə bildirilir ki, «ASALA» erməni silahlı terror birləşmələri özünün yaranma tarixinin yubileyini Bakıda, görünməmiş qanlı cinayətlərilə qeyd etməli idi... Belə bir qərar 1989-cu ilin iyulun 15-də Beyrutda keçirilən 19 ölkənin erməni diaspor təşkilatlarının Beynəlxalq konfransında çıxarılan yekun qərarın nəticəsi idi. Sadəcə, bu qərar icra olunmalı idi. Qərarın icrası isə uzun müddət Moskvanın Təhlükəsizlik Orqanlarında çalışan, Azərbaycana qarşı həmişə qərəzli mövqedə dayanan, ehtiyata buraxılmış kəşfiyyat generalı M.S.Ovanesyana tapşırıldı. Azərbaycanda isə hakimiyyətə yiyələnmək uğrunda mübarizə gedirdi. Bütün bunlar bəziləri üçün gözlənilməz olsa da, bu, fakt olaraq qalır.

***Məlumata görə, «ASALA» 1975-ci il yanvarın 20-də Beyrutda (Livan) avtomobil qəzasında ölən bir erməninin – Qraç Sadafyanın məzarı üstündə yaranıb. Faktiki olaraq, bu günədək "ASALA"nın heç bir nizamnamə sənədi yoxdur. (Məlumata görə, "ASALA" 1993-cü ilin iyununda «Sadval» separatçı ləzgi təşkilatı ilə birlikdə RF-nin Ədliyyə Nazirliyində «Azad, Demokratik bir təşkilat» kimi qeydə alınıb.)***

***«ASALA» erməni silahlı ordu birləşmələri Azərbaycan torpaqlarında özlərinin yaranma tarixinin 15 illiyini qanlı cinayətlərilə qeyd etdilər.***

Araşdırma materialları arasında təsadüf etdiyimiz (?) məlumatlardan bu da aydın olur ki, dünyada bir sıra cinayətlərin iştirakçısı olan «ASALA»nın 15 illiyini, yəni 1990-cı ilin 20 yanvarını həm Azərbaycanın, həm Türkiyənin və həm də İranın bir sıra ərazilərində məskunlaşan ermənilər də qeyd ediblər. Azərbaycan ərazisində tarixin ən amansız və qanlı səhifələrindən birini yazan, silahsız, hərbi-sursatsız dayanan insanlara basqın edib, onları əzən, məhv edən... «ASALA»ya Bakıda yaşayan ermənilərin bir qismi həmin gecə «xilaskar ordu» kimi baxırdılar. Məlumata görə, həmin gecə ermənilər üçün Bakıdakı Erməni Kilsəsi (bugünkü Fəvvarələr meydanı ərazisi) ən güclü istehkamlardan birinə çevrilmişdi. Maraqlısı bu idi ki, kilsədəki telefon «qovşağı»ndan sərbəst şəkildə Eçmiəzdinlə, Yerevanla, Moskva ilə, Parislə, Tel-Əvivlə, Vaşinqtonla, Londonla, Tehranla, Ankara ilə... nəhayət... 366-cı alayla danışmaq mümkün idi. Sadəcə çəhrayı rəngli telefonun dəstəyini qaldırmaq kifayət idi. Həmin vaxt ABŞ Dövlət Departamenti tərəfindən maliyyələşdirilən «Azadlıq» radiosu qan içində boğulan,

tənha və kimsəsiz qalan Azərbaycanı «...ipə-sapa yatmayan» şotlandlara bənzədirdi. Hamı ölüsünü, itkin düşənini axtarırdı. Demokratiya pərdəsi altında ayrı-ayrı daxili və xarici şəxslər tərəfindən törədilmiş cinayətlərin günahkarları hələ də məsuliyyətə cəlb olunub mühakimə edilməmişlər.

Araşdırma materiallarına görə, «ASALA» erməni silahlı ordu birləşmələri Bəşəriyyətin Cinayət Tarixində (ola bilsin, belə bir tarix yaransın) öz qanlı aksiyalarını bir qayda olaraq «Qurgen Yanikyan», «Üç oktyabr təşkilatı», «9 iyun təşkilatı», «September Frans», «Orli təşkilatı», «DRO» adları ilə icra edir. Məlumata görə, ötən əsrin 90-cı illərinədək «ASALA» öz kadrlarını, silahlı terror birləşmələrini Beyrutdakı Fələstin Azadlıq Təşkilatının, Səudiyyə Ərəbistanının, Bəhreynin, Fransanın, ABŞ-ın, bir sıra Şərqi Avropa ərazilərindəki hərbi-hazırlıq bazalarında, təlim düşərgələrində... hazırlayırlar. **Hələ 1983-cü ildə buna işarə edərək «The Times» jurnalı mart sayında yazırdı: "...Son on ildə Türkiyənin ayrı-ayrı ölkələrdə çalışan 36 diplomatı (dördü ABŞ ərazisində) «ASALA» erməni ordusunun əskərləri tərəfindən öldürülüb. «ASALA» 1975-ci ildən – yarandığı tarixdən Beyrutdakı Fələstin Azadlıq Təşkilatının hərbi-təlim düşərgəsində təlim məşqləri keçirir...».**

Məlumata görə, «ASALA» Bakıda törətdikləri qırğınlardan iki gün sonra, yəni yanvarın 22-də (1990-cı il) «Hayastan» jurnalının (16 dildə) nəşrinə başladı. ABŞ-dakı erməni diasporu «Erməni Xalq Hərəkatı» adlı yeni bir təşkilatın nizamnaməsini yaydı. Nizamnaməni təhlil edən erməni terror birləşmələrinin Bakı bürosunun lideri, uzun müddət sərhəd qoşunlarında çalışmış kəşfiyyat mayoru M.Q.Gevorkov iddia edir ki, biz «ASALA»nın il dönümünü Bakıda təntənə ilə (?) qeyd etdik. 1980-ci ilin aprelin 24-də erməni diaspor təşkilatları Dəməşq konfransında qərara gəlmişdilər ki, 1990-cı ilin yanvarın 22-də və 23-də həm Bakıda və həm də Moskvada yaşayan Azərbaycanın elita nümayəndələrinə sui-qəsdlər edilsin. «ASALA» «Nor Serund» qəzeti vasitəsilə bütün erməni diaspor təşkilatlarını «Haydad»ın ildönümünə hazırlaşmağa çağırdı və yeni bir şüar irəli sürdü: "Əzabkeş xalqın inqilabi həmrəyliyinə eşq olsun!.." (Bax: "Haydad" qəzeti. Dəməşq (Suriya).1990.II-10).

Araşdırma materiallarına görə, «ASALA»nın Bakıya silahlı hücumundan sonra Fransada formalaşan Erməni Milli Hərəkatı, Böyük Britaniyada qərar tutan «Erməni Təşkilatı» (1991-ci ildən təşkilatın adından «Silahlı» sözü çıxarıldı), ABŞ-da «Böyük və mütəşəkkil erməni qruplaşması» «ASALA» erməni silahlı ordusunu dünya ictimaiyyətinə «Demokratik (Xalq) Cəbhə»

kimi təqdim etməyə başladılar. (Burda «ASALA» zahirən özünü parçalanmış kimi təqdim etməyə cəhd edirdi. Guya Bakı hadisələrindən sonra «ASALA» müxtəlif qanadlara ayrılmışdı...)

***Kəşfiyyat polkovniki Q.B.Smirnov*** baş verən qanlı Bakı hadisələrini araşdırarkən göstərir ki, ermənilər hücumdan əvvəl Azərbaycanla bağlı çox güclü və hərtərəfli təhlil olunmuş, dəqiq və təkzib olunmayan strateji kəşfiyyat məlumatlarına malik olublar. Polkovnik haqlı olaraq belə bir sualı ortaya qoyur: "Kim idi bütün bunların arxasında dayanan? Təəssüflər olsun ki, Azərbaycan tərəfi bütün bu məsələlərin kökünə getməkdə, dünyaya, bəşəriyyətə hər şeyi olduğu kimi tanıtmaqda o vaxt nədənsə acizlik göstərdi. ***«ASALA» silahlı erməni ordusunun Bakıya soxularaq dinc insanları qırması dünyada yeni səlib yürüşünün başlanğıcına bənzəyirdi. Mən buna təəssüf edirəm."*** (Bax: Q.Smirnov. "Mənim çap olunmayan araşdırmaların...".M.,1993. S.16).

Polkovnik belə bir qənaətə də gəlir ki, Bakı qırğınlarını törədən «ASALA»nın tərkibində ABŞ-ın Florida ştatında geniş hərbi düşərgələrə malik, bilavasitə erməni narkobaronlarının yaratdıqları «Bubi» terror təşkilatının üzvləri də var idi. *(«Bubi» beynəlxalq narkoticarət qrupu işğal olunmuş ərazilərimizdə – Dağlıq Qarabağ torpaqlarında narkoplantasiya sahibidirlər. Bununla bağlı RF-nin narkotik qaçaqmalçılıqlarına qarşı mübarizə departamentində sənədlər var.*) «Bubi» təşkilatı narkoticarətdən ildə dörd milyard dollar gəlir əldə edir və «ASALA» erməni silahlı ordusuna güclü maliyyə dəstəyi ayırır.

**Polkovnik daha sonra yazırdı: «...Mən həmişə baş verən terror hadisələrini araşdırmışam. Əgər təcrübəli kəşfiyyat generalı, ölkənin ictimai-siyasi durumuna ciddi bələd olan Heydər Əliyev öz möhtəşəm və dünyanı sarsıdan çıxışında cəmi yarım saat geciksəydi... onun və onun ətrafında olanların həyatını xilas etmək mümkün olmayacaqdı...»** (Bax: eyni mənbə, s.96).

Məlumata görə, 1990-cı il yanvarın 20-də Heydər Əliyevin çekist dostları general V.A.Şebarşinin və V.A.Kirpiçenkonun təkidilə yaradılmış «Anti-terror» qrupunun üzvləri Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyindən 12 kq partlayıcı maddə götürərək, ətraf binalarda qərar tutan 16 nəfər erməni terrorçusunu həbs etdilər. Məhz bundan sonra Heydər Əliyevin sərbəst çıxışına təminat verildi... Bu ermənilərin qanlı cinayətlərini ifşa edən ən güclü siyasi-hüquqi sənəd idi. Məlumata görə, həmin gün Heydər Əliyev və onun ətrafına zərər verə biləcək D.S.Mirzoyan (hərbi kəşfiyyat mayoru), L.M.Bazuyan (istefada olan hərbçi), Q.M.Emilyan

(tarixçi), F.M.Qalustyan («ASALA»), E.D.Melikyants («DRO»), M.D.Şanx (Cənubi Afrika vətəndaşı), R.B.Sarkisyan (Yerevanda yaradılmış «Krunk» təşkilatı), H.S.Samvel (bərpa olunmuş «Erməni Bürosu»nun üzvü) və başqa erməni terrorçuları həbs olundular (Bax: Moskva şəhər Təhlükəsizlik xidmətinin zabiti M.İ.Bezrukovun "Azadlıq" radiosuna verdiyi müsahibədən. 1990-cı il, 21 yanvar).

1991-ci il iyulun 14-də, yəni Bakı qırğınlarından sonra Vaşinqtonda fəaliyyətə başlayan «Demokratik (Xalq) Cəbhə» ermənilərin yaratdıqları «Haydad»la birgə iş proqramını, «Böyük Ermənistan» ideyasını birgə həyata keçirmələri haqqında Memorandumu imzaladılar. Fransada formalaşan «Orli təşkilatı» isə türk və azərbaycanlı gənclərə, onların təşkilatlarına qarşı açıq, yeni mübarizəyə hazırlaşdıqlarını elan etdilər. Məlumata görə, bu qrup «ASALA» erməni ordusunun bir qanadını təşkil edir və bu qrup ilkin olaraq, Xankəndi, Sumqayıt və Bakı ərazilərində yaşayan erməni gənclərindən təşkil olunan, «Yeni erməni Bürosu» adı ilə Bakıdan təqribən 25 km aralı olan «Nasosnı» deyilən təlim düşərgəsində iki aya yaxın, yəni 1989-cu ilin sentyabr-oktyabr aylarında Bakının, Gəncənin və Naxçıvanın strateji xəritələrini... öyrəniblər. Araşdırma materiallarına görə 1990-cı il yanvarın 24-də «Nasosnı» təlim düşərgəsindən qalxan 09-2001 3q işarəli təyyarə Gürcüstan istiqamətinə start götürdü. Bununla bağlı Gürcüstan hərbi kəşfiyyatının polkovniki S.N.Qabriadze yerli telekanala bu faktla bağlı açıqlamasını verdi. Məlumata görə, 1990-cı il yanvarın 28-də Dəməşqdə ingilis dilində nəşr olunan «Suriya vaxtı» qəzeti (qəzet "Tişrin" Dövlət nəşriyyatının qəzeti hesab olunur) ikinci səhifəsində «Qafqazda baş verən hadisələrin icmalı» yazısında «ASALA» erməni silahlı birləşmələrinin Bakıda törətdikləri qanlı cinayətlərə haqq qazandıraraq, yazır: «...Sovet İttifaqında vaxt dayandığından... o dağıldı. Yaxşı tanıdığınız ermənilər qədər bu diyarda əzab çəkən, öldürülən və günahsız yerə həbs olunan millət yoxdur. 1990-cı il yanvarın 20-də ermənilərin «Xilas dəstələri» (şübhəsiz, bu «ASALA» erməni ordusuna işarə idi) erməni bacı və qardaşlarını ölümdən xilas etmək üçün Bakıya ayaq basdılar. Yüzlərlə erməni ailəsi xilas olundu (?)...»(Bax: eyni mənbə). Yerli radionun müxbiri Cubran İsmayılın qələmə aldığı bu yazı fransız və ərəb dillərinə də tərcümə olunub, yayıldı. Başqa bir məlumatda isə bildirilir ki, bu yazı, eləcə də bu yazıya bənzər bir neçə yazı «Ermənilər üçün qırmızı xətt» kitabçası adı altında Strasburqda satışa çıxarıldı.

**Araşdırma materiallarına görə, 1990-cı il fevralın 19-da Kabildən (Əfqanıstan) Moskvaya qayıdan general-leytenant, məşhur kəşfiyyatçı V.A.Kirpiçenko onun göndərdiyi məktub və teleqramları cavabsız**

**qoyan Siyasi Büronun üzvü, Dövlət Təhlükəsizlik Komitəsinin sədri, ordu generalı V.A.Kryuçkovla görüşür. (Bax: РФ.Архив МО. ГН. 304/2. L.M.Vlasovun qovluğu. O vaxt kəşfiyyat mayoru L.M.Vlasov ordu generalı Kryuçkovun təhlükəsizlik dəstəsində idi və generalla qohumluq əlaqələrinə malik idi). Bu vaxt generalın işlədiyi Birinci Baş İdarəyə, Heydər Əliyevin silahdaşı general Leonid Vladimiroviç Şebarşin başçılıq edirdi. Kəşfiyyat generalı 1990-cı il fevralın 26-da məktubları əsasında Siyasi Büroya «Xüsusi Arayış»ını hazırlayır. Məlumata görə, general Siyasi Bürodan aydınlaşdırmağa çalışırdı ki, nə üçün Əfqanıstanda əslən Livandan olan «Sarvar» adlı agentindən əldə etdiyi məlumatlar işlənməmiş qalıb. General soruşurdu: "Siyasi Büro millətləri və xalqları parçalayan, insanları məhv edən ölkə ərazisində qeyri-qanuni fəaliyyət göstərən «ASALA» separatçı erməni ordusu ilə bağlı hansı tədbirləri işləyib?" Daha sonra, general sorğularının birində qeyd edirdi:1990-cı il yanvarın 20-də Azərbaycan xalqına edilən silahlı erməni basqınlarının təşkilatçılarına Kremldə dəstək verənlər kimlərdir? Bakı həmişə strateji əhəmiyyətinə görə xarici kəşfiyyat üçün əlçatmaz olub. Qapıları açan kimlərdir?**

(Məlumata görə, general rəhmətə gedənədək ordu generalı, hadisələrə biganə qalan V.A.Kryuçkovla görüşməkdən imtina edib. Faktiki olaraq general V.A.Kryuçkov yəqin etmişdi ki, Moskva, Leninqrad, Stavropol, Rostov əraziləri erməni emissarları ilə doludur. Yoxlama materiallarına görə, təkcə Rostov ərazisinə Afrika ölkələrindən 1989-cu ilin sentyabr ayında 407 nəfər erməni gəlmişdi. Bu ermənilər tədricən İttifaq ərazisindəki erməni silahlı qruplaşmalarında görünürdülər. Maraqlı məqamlardan biri bu idi ki, 1989-cu il noyabrın 20-dən xarici ölkələrdən gələn ermənilər Bakıda məskunlaşaraq «ASALA» silahlı erməni ordusunun yolunu gözləyirdilər. Bu fakt ordu generalının kəşfiyyat materiallarından biri idi. Araşdırma materiallarına görə «Andres Kastro» deyilən silahlı qrup 1989-cu ilin dekabr ayının ortalarında Bakıda göründü. Bu terror təşkilatının üzvləri, məlumata görə, artıq, «ASALA» terror təşkilatı üçün kiçik bir plan cızmışdı.

Araşdırma materiallarına görə, 1990-cı ilin qanlı yanvar faciəsindən sonra general V.A.Kryuçkovun göstərişilə ölkənin təhlükəsizlik xidməti sıralarından milliyyətcə erməni olan və bilavasitə «ASALA» erməni ordusunun qurulmasında iştirak edən, ermənilərin silah və digər hərbi sursatlarla təmin olunmasında, Gürcüstandakı, Stavropoldakı və Rosrovdakı hərbi bazaların, qoşun kontingentinin, tank diviziyalarının və hərbi vertolyotların onların istifadəsinə verilməsində ittiham edilən 28 kəşfiyyat zabiti, Müdafiə Nazirliyinin tabeliyində olan Baş Kəşfiyyat İdarəsinin yüksək rütbəli 43 nəfər əməkdaşı işdən qovuldular. Çünki 1990-cı il 20

yanvar basqını ilə bağlı hərbiləşdirilmiş erməni terror birləşmələrinin törətdikləri cinayətlər haqqında Bakıdan heç bir operativ kəşfiyyat materialı göndərilməyib və yaxud göndərilən şifroqramlar və açıq mətnli teleqramlar məhv edilib. Bu gün bu istiqamətdə RF-nin kəşfiyyat idarələrində açılan «Məlumat qovluqları» bomboşdur.(?)

**Araşdırmalara görə, 1990-cı il yanvarın 20-də ümumən respublika ərazisindəki doğum evlərində 460 nəfər hamilə qadın atılan güllələrdən, günahsız qırğınlardan və qəfil məlumatlardan stress vəziyyətinə düşüb. Bu vəziyyətə düşən hamilə qadınların böyük bir qismi (bəzi məlumatlara görə, onların sayı 270 nəfər olub) doğum zamanı öz övladlarını itirib. Məlumata görə, 35 hamilə qadın vəfat edib. Doğulan uşaqların böyük bir qismi isə şəkər, qan təzyiqi, ürək-damar və baş-beyin xəstəliklərindən bu gün də əziyyət çəkir (Bax: İRNA-nın "Xəbərlər bülleteni" (İran).1990-cı il, I-28).**

**Araşdırma materiallarına görə, «ASALA» erməni ordusunun Bakıya basqını haqqında ən ciddi və məxfi materialları RF-nın MN-nin Baş Kəşfiyyat İdarəsində üstündə «Məxfidir: 45 dərəcə bucaq altında» sözləri yazılmış qovluqda saxlanılır. Kəşfiyyat polkovniki Boris Qriqoryeviç Bondarenkonun iddiasına görə, o vaxt Moskvada yaşayan, Siyasi Büro və şəxsən M.S.Qorbaçov və onun erməni general dostları tərəfindən sıxışdırılan Heydər Əliyevin gözlənilməz, amma düşünülmüş və qəti addımı həmin qovluqda saxlanılan «ASALA»nın yarımçıq qalmış planlarını alt-üst etdi.**

Azərbaycan istiqamətində hazırlanmış plana əsasən, Bakıda, Naxçıvanda, Gəncədə və Lənkəranda... bir-birinin ardınca fərdi qaydalarda güclü terror aktları həyata keçirilməli idi. Bu terror aktlarını isə «ASALA»nın tam hərbiləşdirilmiş «Qnçak» qanadında fəaliyyət göstərən və Azərbaycanın təhlükəsizlik orqanlarına soxulmuş, hökümət və dövlətdən xəbərsiz «Vətənpərvər Erməni cəmiyyəti»nin yaratdığı məlumatlı şəxslər icra etməli idilər. Bu cəmiyyətdə işləmək üçün Leninqraddan 1989-cu il dekabrın 21-də Kəşfiyyat polkovniki Q.S.Mark-Nazaryan göndərilmişdi. Maraqlıdır ki, az müddət ərzində Azərbaycanın adlarını qeyd etdiyim ərazilərində kök atan, istənilən məlumatı əldə edən bu adam haqqında hələlik açıqlama verilmir və bu heç istintaq materiallarında da yoxdur.(?) Acınacaqlı hallardan biri də, bu cəmiyyətin Azərbaycan Ədliyyə nazirliyində qeydiyyata götürülməsidir.(Məsələ burasındadır ki, bu bədnam cəmiyyətin 1990-1993-cü illərdə Bakı Şəhər Prokurorluğunda, XİN-də, Şəhər Məhkəməsində, Parlamentdə, Dövlət mətbuatında özəkləri fəaliyyətdə idi. Bununla bağlı

polkovnik Q.S.Mark-Nazaryanın Xankəndində nəşr olunan "Artsax" qəzetinə 1994-cü ilin martın 2-də verdiyi müsahibədən. S.3).

Tarixdə insanlara nəyisə bağışlamaq olur, üstündən keçmək qərarına gəlirsən. Əlbəttə bu böyük sərkərdə B.Napoleonun sözüdür. O, daha sonra öz əsgərlərinə deyirdi: «...Mən bir şeyi bağışlamıram. Anamın döşlərini söyənləri keçmirəm. Çünki o döşlər mənə həqiqətin şirəsini içirdib...» Bütün bunlardan sonra, düşünürük ki, «ASALA»nın Azərbaycanda hiylələri hələlik bitməyib.

**Razılaşdırılmış ssenariyə görə, (Fransa, İngiltərə, ABŞ, Almaniya, Yaponiya, İsrail) Azərbaycanın yanacaq resurslarında gözləri olan ölkələr, eləcə də OPEK-ə üzv olan bir sıra neft ölkəsi... baş verən qanlı cinayətləri faş etməməyi, susmağı məsləhət bilirdilər. Lakin Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinin qapıları açılanda, nümayəndəlikdən matəm bayraqları asılanda hər şey dəyişdi. Heydər Əliyev cəsarəti dünyanı silkələdi. O vaxt Moskvanı, şəxsən ölkəyə başçılıq edən M.Qorbaçovun önündə... göz-gözə ittiham etmək, onu cinayətkar və cani adlandırmaq asan məsələ deyildi. Ruslar bir qayda olaraq xarici mətbuat səhifələrində, beynəlxalq telekanallarda iddia edirdilər ki, azərbaycanlılar bu kütləvi qırğınlarda rusları günahkar bilməsinlər. Rusiyanı və rusları Beynəlxalq Cinayətə sürükləyən, onun imicinə öldürücü zərbələr vuran M.Qorbaçovu ittiham edirdilər. (Ən acınacaqlı və dəhşətlisi bu idi ki, Bakı neftini sovurub aparan və milyardlara sahib olan Nobelin adına Beynəlxalq Sülh Mükafatına layiq görülən M.Qorbaçov abırsız və həyasız mövqeyindən əl çəkmədi). Sual olunur: hansı səbəbə görə Qorbaçovlar ailəsi (Mixayıl Sergeyeviç və Raisa Maksimovna) 1985 və 1989-cu illərdə «ASALA» erməni silahlı terror birləşməsinin Beyrutdakı təlim düşərgəsi üçün bir milyon dollar yardım ayırmışdılar. Məlumata görə, general V.A.Kirpiçenko bütün bunları araşdırarkən Siyasi Büroya və Təhlükəsizlik Şurasına sorğu ünvanlasa da, cavabsız qalmışdı** (Bax: "Ararat" qəzeti (Türkiyə və Suriyada nəşr olunan erməni qəzetlərilə qarışdırmamalı), Beyrut (Livan). 1995, II-3).

Araşdırma materiallarına görə, gecə qırğınlarından sonra «ASALA»nın yarımçıq qalmış kütləvi qətillər planı tamamlanmalı idi. Məlumata görə, 1990-cı il, 20 yanvar gecəsində, daha dəqiq desək (kəşfiyyat polkovniki B.Bondarenkonun fikrincə... onun iddiasına görə) gecə saat 4 radələrində Azərbaycanın otuz iki nəfər say-seçmə övladı məhv edilməli idi. Bu iyrənc

missiya 20-dən 21-nə keçən gecə tamamlanmalı idi. Bakı müxalifəti gizlənmişdi. Bir çoxu Astara-Lənkəran zolağından İran İslam Respublikasının ərazilərinə keçib, getmişdi. Qərb mətbuatının yazdığı kimi «...onlar artıq öz missiyalarını bitirmişdilər». Bakıda nəzərdə tutulan terror aktlarını, eyni anda nəzərdə tutan «ASALA» terror qruplaşmalarının cərgəsində aktiv rol oynayan «Müdafiə olunanlar» erməni terror qrupları yerinə yetirməli idilər. Bu qrup, məlumata görə, «snayper» atıcı qrupu idi ki, onun başında tarix müəllimi, bir müddət Əfqanıstanda xidmət etmiş Meyyer Rustampaşa adlı birisi idi. (Sənədlərdə onun əsl adı Miqran Rustamyan idi). Məlumata görə, əldə olunan ünvanlar istiqamətində 14 nəfər snayper paylanmalı idi. Araşdırma materiallarına görə, son məqamda ermənilər niyyətlərini yarımçıq saxladılar. **Eçmiədzinin məxfi işarəsilə «Müdafiə olunanlar» öz aksiyalarını yarımçıq saxladılar.**

***Rus yazıçısı T.M.Serafimov həmin vaxt maraqlı bir fikrə toxunmuşdu. O, qeyd edirdi: «...Heydər Əliyev Moskvadan Azərbaycan üçün heç kəsin gözləmədiyi «Azadlıq zəngini» çaldı. Bu zəng bütün dünyanı başına götürdü. Bu Azərbaycanı öz övladı kimi sevən Heydər Əliyevin böyüklüyü idi...».***

Azərbaycanı qan dənizində boğmağa hazırlaşan «ASALA» beynəlxalq erməni terrorçularının 2-ci cəbhəsi bağlı qaldı.

O yerdə ki, həqiqət dərk olunmur, o yerdə həqiqət dərdə çevrilir. «ASALA» erməni ordusunun Azərbaycan üçün nəzərdə tutduğu «45 dərəcə bucaq altında...» məxfi planı, demək olar ki, baş tutmuşdu: 131 nəfər, o cümlədən 117 nəfər azərbaycanlı, 6 rus, 3 yəhudi, 3 tatar öldürülmüş, 744 nəfər yaralanmış, 400 nəfər həbs edilmiş, 4 nəfər itkin düşmüşdü.

Bəzi mənbələrdə qeyd olunur ki, Bakıda törədilən qırğınlara SSRİ Müdafiə naziri D.Yazov başçılıq edirdi. Məlumata görə, 1990-cı il yanvarın 28-də Bağdadda ermənilərin hakim olduqları, lakin 1979-cu ildən ölkədənkənar çap olunan «Yeni fikir» qəzeti yazırdı: «...Bağdadda keçirilən «Erməni diaspor rəhbərlərinin konfransı» başa çatdı. Konfransda Yaxın Şərq regionlarında tanınan, erməni xalqının generalları M.O.Şagiyan, D.T.Simon (Simonyan) da iştirak edirdilər. Onlar Bakıda erməni millətinə qarşı amansız mövqe tutan azərbaycanlılara qarşı hərbi əməliyyatlarda iştirak edib...» Fransada nəşr olunan «Vi» («Həyat») qəzeti isə 1990-cı il fevralın 2-də xəbər yaydı ki, 1990-cı il 20 yanvar qırğınlarında üç erməni generalı öldürülüb». Mən hələ də qarşımda açıq qalan suallara cavab tapa bilmirəm. Amma fakt bu idi ki, «...baş verən Bakı qırğınlarında iki yüksək rütbəli erməni iştirak edib...»

Bütün bunlar, artıq, məlum idi. «45 dərəcə bucaq altında» keçirilən əməliyyatın Bakı qırğınlarında Sovet Qoşun kontingentində yüksək dərəcədə hərbi-təlim görmüş erməni generalları «ağıllı məsləhət verməklə məşğul idilər». Məlumata görə, Heydər Əliyev baş verənlərdən, artıq, xəbərdar idi. Bütün bunlara görə də, Heydər Əliyev 20 yanvar faciəsinə siyasi qiymət verdi, xalqın hüquqa, demokratiyaya, humanizmə zidd mövqe tutanlarını ifşa etdi, onların tutduğu yolu kobud və səhv siyasi bir yol olduğunu göstərdi.

Araşdırma materiallarına görə, Beynəlxalq Erməni Diaspor Təşkilatları hələ də «ASALA» erməni silahlı qoşun birləşməsini, «Azadlıq mücahidləri» kimi qələmə verir. Xocalıda törətdikləri qırğınları inkar etmək kompaniyası keçirməklə məşğuldular. Şübhəsiz, bu qanlı faciələrdə Sovet Qoşun Kontingentindəki stress vəziyyətində, müsəlmanlara qarşı qisasçılıq hissilə Əfqanıstandan qayıdan rus əsgər və zabitlərinin fəaliyyətləri yaddan çıxarılmamalıdır. Bu istiqamətdə istintaq yarımçıq getsə də, «ASALA» istiqamətində qovluqlarda heç bir istintaq materialı yoxdur. Hansı səbəbdənsə dünyanın KİV-i bütün tədqiqatı Moskva istiqamətinə yönəltdilər, erməni faktoruna kölgə saldılar. Məhz bütün bunlara görə də istintaq yarımçıq qaldı. Ən azından məsələlərə aydınlıq gətirmək üçün Ermənistanın Moskvadakı Daimi Nümayəndəliyinin binasında keçirilən məxfi iclas və yığıncaqlar haqqında məlumatları rusların kəşfiyyat mərkəzlərində toplanmış qovluqları oxumaq, onlarla tanış olmaq lazım idi. Bu isə olmadı.

Məlumata görə, «ASALA»nın yaradılmasında erməni ziyalıları böyük rol oynayıb. Yeni erməni ziyalılarından olan Erik Sedikcanyan, Mavli Markaryan, Simens Xurşidyan, Akop Akopyan, həmçinin, Miqran Miqranyan və Arutyun Takoşyandır. Bu adamlar vaxtilə Ermənistan Universitetlərində təhsil alıblar, Eçmiədzinin «Birinci Salonu»ndan keçiblər. Məlumata görə, «Birinci Salon»un «ağır məktəbini» bitirən ermənilər üçün hər yerdə yaşıl işıq yanır. Kimin ölkə başçısı, Baş Nazir... seçilməsi və yaxud təyin olunması «Birinci Salon»da müəyyənləşdirilir.

«ASALA» erməni silahlı qoşun birləşməsinin «Eçmiədzin»lə bağlılığına gəlincə, bu çox ciddi bir məsələ kimi həmişə diqqət mərkəzində olmalıdır. Məsələn, bu gün Eçmiədzində və onun digər yaşayış məntəqələrində 255 nəfər (xüsusi xidmət orqanlarından könüllü çıxaraq) təhlükəsizlik zabiti çalışır. Məlumata görə, Eçmiədzin Ermənistanda və işğal olunmuş Azərbaycan torpaqlarında işləmək üçün hər il 120 nəfər kəşfiyyat zabiti hazırlayır.

«ASALA»-Eçmiədzin əlaqələri isə, təəssüflər olsun ki, Azərbaycanda, eləcə də dünyada nə dərəcədə təhlükə mənbəyi olmasına baxmayaraq, az

tədqiq olunan məsələdir. Məsələn, 1990-cı il 20 yanvar təcavüzündən sonra Bakıda, eləcə də Azərbaycanın digər yaşayış ərazilərində azərbaycanlıları məhv edən, onları güllələyən 21 nəfər «ASALA» üzvünə «Eçmiədzin»in xüsusi mükafatları- üstündə qızıl xaç olan «Vətən Ordeni» (?) verildi. Başqa bir məlumatda isə bildirilir ki, bu ordeni alanların içində iki nəfər (ər və arvad) azərbaycanlı da var. Bu gün onlar erməni adı altında Noyanberyan yaşayış məntəqəsində yaşayırlar.(?) Əlbəttə, biz bu faktı gərəksiz bilib, tam araşdırmadıq. Digər tərəfdən, biz bu araşdırmanı yarımçıq saxladıq. Çünki faktlar və məlumatlar bizi tamam başqa yerə aparıb çıxartdı. Məlum oldu ki, bu adamlar arasında heç bir ər-arvad münasibəti olmayıb və onlar elə Azərbaycan ərazisində yaşayırlar... Düşünürəm: belə şəxslər olmasaydı, «ASALA» Bakının heç bir strateji nöqtəsini asanlıqla əldə edə bilməzdi, Şuşa, Laçın... işğal olunmazdı, düşmən Qartal yuvalarına gedib çıxa bilməzdi. Bütün bunlar azmış kimi, düşmən yolunun üstündə dayanan bu adamların Eçmiədzin tərəfdən Bakıdakı Erməni kilsəsində işləmək üçün təyinatları da verilib.

Bəziləri elə zənn etməsinlər ki, bunlar insan təxəyyülünün bir məhsuludur. Tam əksinə, bütün sadalananlar dəqiq və təkzib olunmaz faktlara söykənən reallıqdır. Məsələn, Ermənistan prezidentinin yanında məsləhətçi kimi gəzib dolaşan bir azərbaycanlını(?)-Knyaz Məhəmmədoğlunu necə anlayaq?.. Fikrimizcə, Azərbaycana qarşı atılan hər erməni addımı tariximizə, mənəviyyatımıza qarşı yönələn təxribat kimi dəyərləndirilməlidir.

Məlumata görə, K.Məhəmmədoğlu Bakı radiosunun vaxtı ilə 1980-1990-cı illərdə erməni və kürd redaksiyalarında çalışıb.

Araşdırma materiallarına görə, 1990-cı il 20 yanvar qırğınlarından bir gün sonra Bakıda yaşayan erməni qadınlarından 12 nəfərinin Azərbaycan xalqına müraciətləri dərc olundu. Müraciəti imzalayan erməni qadınları Azərbaycan xalqına başsağlığı verir, bütün bu hadisələrdə erməni xalqını günahlandırmamağa çağırırdılar. Erməni qadınları öz müraciətlərində erməni terror təşkilatlarını, «Böyük Ermənistan» arzusu ilə millətləri, xalqları qarşı-qarşıya qoyan... erməni millətinə nifrət hissini alovlandıran diaspor təşkilatlarını lənətləyirdilər. Amma bütün bu görüntülər baş verən qanlı hadisələrdən sonra idi. Yəni heç kəsə,.. heç tarixin özünə də lazım olmayan bir müraciət idi.

Bakıya «dərs vermək» üçün gələn «ASALA» erməni qoşun birləşməsinin tərkibindəki «Qarabağın Müdafiə Ordusu»nun silahlı dəstəsi isə Naxçıvanda, Gəncədə, Lənkəranda, Şəmkirdə, Sumqayıtda qanlı əməliyyatlarda iştirak edirdilər. Məsələn, silahlı birləşməyə başçılıq edən general-mayor Vitaliy Balansyan daha əcayib işlərə əl atırdı. Bu, Şamaxıda

anadan olmuş həmin Vitaliy Balansyandır ki, qardaşı qızı Qretta Balansyan (familiyasını dəyişmədən) Azərbaycan xalqına müraciət edən 12 erməni qadından biri idi. Vitaliy Balansyan tank alayına başçılıq edirdi. O, silahsız insanları tankın qabağına qatıb qovmaqdan xüsusi bir həzz alırdı.(?) Onunla yanaşı Bakıya gələn digər erməni generalları-Vahan Xaçatryan, Movses Akopyan, David Ohanyan da tarixi cinayətlərin iştirakçısına çevrilmişdilər. «ASALA»ya məxsus 316 tank (T-55/-72; BMP-1/-2, BTR-70/-80, BMD-lər) Azərbaycanın əsas strateji mərkəzlərini dövrəyə almışdı (bu gün həmin tanklar Azərbaycanın işğal olunmuş ərazilərində - Dağlıq Qarabağın yaşayış məntəqələrində yerləşdirilib). «ASALA» son 10 ildə (1980-1990) Sovet Qoşun kontingentində təqribən 2000 nəfərə qədər əsgər və zabiti əhatə edən 96 özək yaratmağa müvəffəq olmuşdu. SSRİ Dövlət Təhlükəsizliyi Komitəsində və Baş Kəşfiyyat İdarəsində, Xarici Kəşfiyyat İdarəsində, İqtisadi Kəşfiyyat İdarəsində, Sərhəd Qoşunları Komandanlığında 111 özəyini yarada bilib. Onun bu terrorçu xəritəsində Azərbaycan da var.

**Bakı qırğınları Moskvanın ən nüfuzlu hökümət və dövlət strukturlarında müzakirə mövzusu idi. Digər bir araşdırma materialında isə, «ASALA»nın lideri olan general Levon Kazançiyan əlavə 23 döyüş aparan qrupu ilə Bakıda göründü... Məlumata görə, 1990-cı il yanvarın 22-də general Levon Kazançiyan Moskvadan, kəşfiyyat generalı Leonid Şebarşindən çox ciddi və təsirli bir teleqram alır. Əldə olunan digər bir məlumatda bildirilir ki, general V.A.Şebarşin general Levon Kazançiyanı «əbləh və vicdanını itirmiş erməni» adlandıraraq, təcili Bakını tərk etməyi tələb edir. Kəşfiyyat generalı V.A.Kirpiçenko isə Heydər Əliyevə etdiyi telefon zəngində vicdan əzabı çəkdiyini etiraf edir. V.A.Kirpiçenko 1990-cı il yanvarın 22-də Azərbaycan xalqına ünvanladığı məktubda bildirirdi: «...Baş verənlərə görə, bir rus zabiti kimi həmişə əzab çəkəcəyəm. Çünki mən bu xalqı, onun ədəbiyyatını, tarixini, adət-ənənəsini çox sevirəm. Azərbaycan xalqı tarixdə yeri olan bir xalqdır...».**

Məlumata görə, MN-nin generalları A.S.Manilov, N.A.Xakimov, S.S.Aleksandrov, kəşfiyyat generalları V.V.Dmitriyev, V.A.Kirpiçenko, V.A.Şebarşin Siyasi Bürodan, şəxsən M.Qorbaçovdan tələb edirdilər ki, ölkə daxilində geniş meydan sulayan «ASALA» və onun kimi erməni silahlı birləşmələrinin hər cür fəaliyyəti qadağan edilsin. Azərbaycanda baş verən qanlı cinayətə rəvac verən, arxa duran digər məsul şəxslər tapılıb, ifşa edilsin, dövlət nəzarətindən çıxmayan İstintaq Komissiyası yaradılsın.

«ASALA» erməni silahlı qoşun kontingenti və onların havadarları 1990-cı il yanvarın 20-də Azərbaycan tarixinə özünün qanlı möhürünü vurdu.

Əldə etdiyimiz məlumata görə, Ermənistanın hökümət və dövlət nümayəndələri arasında 39 nəfər «ASALA»ya üzvlük haqqı verən məmur var. Bu haqda məlumatı Beyrutda erməni diasporunun keçirdiyi «ASALA»nın 15 illiyində, vaxtı ilə Ermənistan Dövlət Təhlükəsizlik Komitəsində çalışan mayor Eduard Saakyan məlumat verib. Bu mövzu bizim üçün maraqlı olduğundan, bu istiqamətdə tədqiqatımızı davam etdiririk. Başqa bir məlumatda bu da bildirilir ki, hazırda Avropa Şurasında Ermənistanı təmsil edən üç nəfər erməni deputatı «ASALA»nın Bakı hücumlarında bilavasitə iştirak ediblər. Onlar gecə-gündüz çalışırlar ki, Avropa Şurasının sənədlərində Ermənistan işğalçı dövlət kimi qeyd olunmasın.

Bizim iki cür tariximiz var. Birini xalq yaradıb, digərin isə zaman. Biz ancaq o vaxt qalib gəlib, zəfər çalacayıq ki, bu tarixləri xalq və zaman vəhdətində araşdırıb, öyrənək...

Dövlətimizin isə iqtisadi-siyasi, hərbi qüdrəti günü-gündən yüksələn xətt üzrə artmaqdadır. Prezidentimiz cənab İlham Əliyevin yürütdüyü xarici siyasət beynəlxalq aləmdə ölkəmizin siyasi nüfuzunu xeyli dərəcədə artırmış və bir çox dövlətlər, artıq, həqiqəti dərk edib, Azərbaycanla hesablaşır və ya hesablaşmaq məcburiyyətindədir. Vətənimizin hər bir vətəndaşı – milliyyətindən, cinsindən, irqindən, dinindən, peşəsindən, tutduğu vəzifədən asılı olmayaraq, bir sözlə, hər birimiz sevib-seçdiyimiz möhtərəm Prezidentimizin ətrafında sıx birləşməli, mümkün olan və olmayan nə varsa etməklə dövlətimizin başçısına haqqın, ədalətin bərqərar olmasında köməkçi olmalıyıq. Bu sahədə Leyla xanım Əliyeva və onun ətrafındakı vətənpərvər gənclərin fəaliyyəti, onun "Xocalıya Ədalət!"çağırışı hamımız üçün ən gözəl, təqdirəlayiq nümunədir.

# XOCALIDAN ƏVVƏLKİ CİNAYƏTLƏR: EYNİ SSENARİLƏR. ŞAMAXI: «KƏSİLƏN NƏSİLLƏR, YANDIRILAN MEYİTLƏR ».

## (1918-ci il. Şamaxı Mart qırğınlarında İngilis «Direktiv»lərinə, «Milli Erməni Bürosu»na və S.Lalayanın ərazidə etnik təmizləmə aparan dəstəsinə qarşı Azərbaycanda yaradılan ilk partizan dəstəsi haqqında məlum olmayan həqiqətlər )

Çoxsaylı araşdırma materiallarına görə, Azərbaycana qarşı bütün dövrlərdə bir-birindən fərqli olan qanlı cinayətlər törədən, günahsız insanları qətlə yetirən, uşaqları və hamilə qadınları diri-diri yandıran «Erməni Milli Bürosu» (o həm də «Büro» kimi oxunurdu –V.S., *R..V.*) aktiv rol oynayıb. «Dənizdən-dənizə» siyasəti yürüdən, «Böyük Ermənistan» ideyası ilə ortaya atılan bu təşkilat Qafqazda və Türkiyədə erməniləri müdafiə məqsədilə «könüllü dəstələr» yaratdılar. Məlumata görə, «Büro» Bakıda, 1912-ci ildə, indiki Amerika səfirliyinin ərazisində, təsadüfən tapılan bir uşaq qəbrinin üstündə yaradılıb. Ermənilər iddia edirdilər ki, bu uşaq guya erməni olub və azərbaycanlılar tərəfindən qətlə yetirilib. Ərazi isə o vaxt Bakı neftində 5% payı olan erməni milyonçusu Gülbekyanın olub. Bu qanlı təşkilat yaradılanda heç bir məramnaməsi olmayıb. Proqramsız və nizamnaməsiz qondarma bir uşaq qəbrinin üstündə qurulan bu erməni təşkilatının qanlı izləri 1918-ci il Şamaxı qırğınlarında daha qabarıq görünür (nə qədər qəribə də olsa, bu qanlı təşkilat Bakıda qurulmuşdu. Hələlik bu istiqamətdə ciddi bir tədqiqat işi görülməyib. – ***V.S., R.V.***).

«Milli Büro»nun üzvlərinə nəzər salaq: 1.**Yepiskop Mesrop** – Qafqazdakı erməni burjuaziyasının başçısı, Çar Nikolayın Qafqazdakı canişini Vorontsov–Daşkovun arvadının məşuqu, təşkilatın rəhbəri, 2. «Daşnaksütyun» partiyasının liderlərindən olan, 1918-1920-ci illərin ən qatı cinayətkarlarından biri, Şamaxı qəzasına S.Lalayanın hücum taktikasını işləyib, hazırlayan, bir müddət çarın xəfiyyə idarəsində çalışmış polkovnik **A.Xatisov**, 3. **E.Zavriyev**–ixtisasca uşaq həkimi olan bu qatili «Doktor Zavriyev» çağırırdılar. O, həmçinin «Daşnaksütyun» partiyasında xaricdə yaşayan ermənilərlə əlaqələndirmə şöbəsinin başçısı idi. 4. **S.Arutyunov** –

«Silahlı azadlıq sevərlər» (əslində qatillər – ***V.S., R.V.***) qrupunun, «DRO» – erməni silahlı birləşməsinin rəhbəri, ona «Hibanet», dəstə üzvlərinə isə «hibanetçilər» deyirdilər. 5. **Andranik** – Qafqazda erməni silahlı birləşmələrinin komandanı. Böyük Britaniyanın «Mİ-6» kəşfiyyat mərkəzinə xidmət edib.

1915-ci ilin əvvəllərində Bütün Ermənilərin Katalikosu V Gevorq «Milli Erməni Büro» adından Çar Nikolaya ünvanladığı məktubda qeyd edirdi: «Ermənilər sizin ən inanılmış övladlarınızdır». V Gevorq daha sonra qeyd edirdi: «...bizə şərait yaradın ki, Türkiyə və Azərbaycanda öz qardaş-bacılarımızı onların əsarətindən xilas edək. Bizə yardım və köməklik edin ki, «könüllü dəstələr» yaradaq.»

Ermənistanda 1965-ci ildə rus və erməni dillərində çap olunan (Госиздат Армении, 1965г.) «Daşnaksütyun əvvəl və indi» kitabında tarixçi-diplomat Q.Abov(yan) isə yazır: «məktubdan sonra, Doktor Zavriyev tələsmədən Tiflisə gedir. Çarın canişini Vorontsov-Daşkovla görüşür. Ona çoxsaylı vədlər verərək, regionda «könüllü erməni dəstələri»nin yaradılmasını əks etdirən sənədlərə imza atdırır. Bundan sonra yepiskop Mesropla, S.Arutyunovla, A.Xatisovla görüşlər təşkil edən canişin Vorontsov-Daşkov xatırladır ki, onun imza atdığı sənədlər 150 il qüvvədə qalacaq. Ermənilərə, həmçinin, məsləhət görülürdü ki, həm Türkiyənin, həm də Azərbaycanın yuxarı eşelonlarında çalışıb mövqe tutsunlar və ən çox «kəşfiyyatçı işlərlə» məşğul olsunlar».

Belə ki, 1915-ci ilin ortalarında «Büro»nun liderlərindən olan Doktor Zavriyev Rusiyanın Xarici İşlər Naziri Neratovun xüsusi məktubu ilə İngiltərədə və Fransada olur. Doktor Zavriyev İngiltərədəki Rusiyanın səfiri Benqendorfla və Fransadakı Rusiyanın səfiri İzvolski ilə görüşür. Nazir Neratov xüsusi məktubunda həm Londondakı, həm də Parisdəki nümayəndəsinə yazırdı: «Zavriyev çox nüfuzlu adamdır. Rusiyanın siyasi dairələrində məşhurdur. Ona imkan yaradın ki, ermənilərlə görüşlər keçirib, məlum siyasi məsələləri həll etsin. Ona qəyyumluq edin.»

Araşdırma materiallarına görə, «Büro»nun London və Paris görüşlərindən sonra Avropaya yeni qapıları açıldı. Məlumata görə, Şamaxı Bakı kimi, London və Paris üçün çox önəmli strateji ərazi hesab olunurdu. Həmin vaxt İngiltərə hərbi sənaye komplekslərində Qafqaz xalqlarının genetik kodları araşdırılırdı. İngilis alimləri genetik kodlar arasında uzun

ömürlülüyün və dözümlülüyün sirlərilə yanaşı, xüsusən Naxçıvan və Şamaxı ərazisində uran, qızıl və neft yataqlarının axtarışında idilər. Digər tərəfdən, ingilislərin «Mİ-6»sının məlumatına görə, Şamaxıda bir neçə yerdə «qızıl və digər qiymətli sərvət anbarları» mövcud idi.

«Milli Erməni Bürosu», xüsusən Azərbaycanda ciddi qırğınlara hazırlaşırdı. Əlavə olaraq, təlim üçün Parisdən, Londondan və ABŞ-dan xüsusi hərbi emissarlar yola salınmışdı. Çar ordusundan tərxis olunanların 450 nəfəri, artıq, «Milli Erməni Bürosu»na daxil olmuşdu. Ən maraqlısı bu idi ki, ermənilər əllərində silah və hərbi geyimdə «Büro»ya üzv yazılırdılar. Tərxis olunan ermənilərdən silah geri alınmırdı. Məsələn, kəşfiyyat polkovniki S.O.Qolikov iddia edirdi ki, belə bir ənənə ermənilər üçün Sovet Ordusunda da davam edirdi. Sovet Ordusundan tərxis olunmuş erməni əsgər və zabiti xəlvəti yolla istədiyi silahı özü ilə aparmaq ixtidarında idi. (?)

«Milli Erməni Bürosu» 1916-cı ildə Şamaxıda, Qubada, əsasən, şərq və qərb istiqamətlərində özəklərini yaratmağa müvəffəq oldu. Fransızların və ingilislərin istəyini nəzərə alaraq, ermənilər birinci olaraq hər iki qəzada milliyyətcə yəhudi olan ailələrin siyahısını tərtib etdilər. Həmin ildə Şamaxıda 16, Qubada isə 9 tüfəng qeydə alınmışdı. Yelizavetpol qəzasının çar xəfiyyəsinin məlumatlarının birində yazılırdı: «Məlumata görə, Şamaxı və Quba qəzalarına gələn tacirlər özlərilə birgə silah gətirirlər. Əsasən, Şamaxı qəzasında bu məsələ aktiv baş verir» Əslində isə belə deyildi. Bu saxta və uydurma məlumatı qoşanların özləri də, elə, Şamaxı qəzasında ardı-arası kəsilmədən evlərə soxulur, qeydsiz-şərtsiz axtarışlar aparırdılar. Şamaxı ilə Bakı arasında tədricən əlaqələr qırılırdı, gediş-gəliş azalırdı. Qəzada əsas vəzifələrə, icraedici orqanlara ermənilər irəli çəkilirdi. Şamaxı qəzası faktiki olaraq 1916-cı il dekabrın sonlarında ermənilər tərəfindən işğal olunmuşdu. Şamaxı ziyalılarının bir qismi, artıq, dərk etməyə başladılar ki, qəzada baş verənlərin sonunda yaxşı bir şey dayanmır. «Milli Erməni Bürosu»nda cəmlənmiş erməni könüllü dəstələrinə qarşı, hansısa bir iş görülməli idi. Şamaxı qəzasında baş verən hadisələrlə, ərazidəki siyasi-içtimai mühitlə bağlı Bakıya ötürülən məktub və teleqramlar cavabsız qalırdı. 1916-cı ilin dekabrında «Milli Erməni Bürosu»nun şəxsi məktubuna əsasən, rus dilini yaxşı bilən, milliyyətcə erməni olan, L.Ambartsumov Şamaxı qəzasının poçt-teleqraf işləri üzrə «cavabdeh şəxs» təyin edilir. Onsuz heç bir teleqraf açılmırdı. Məktub isə Tiflisdəki canişin tərəfindən imzalanmışdı.

Araşdırma materiallarına görə, 1917-ci ilin yanvarın 6-da L.Ambartsumov «Milli Erməni Bürosu»nun xarici əlaqələr şöbəsinin başçısı, bilavasitə Çar Nikolayın dəftərxanası ilə sıx əlaqəsi olan Doktor Zavriyevə xüsusi bir teleqram göndərir. L.Ambartsumov yazırdı ki, Şamaxıda bir qrup ziyalı ermənilərə qarşı təşkilat yaradıblar. Amma nə qədər maraqlı da olsa, bu təşkilatın adı yox idi. L.Ambartsumovun saxta teleqramından sonra, əsasən ermənilərdən ibarət olan kiçik bir dəstə Şamaxıya göndərildi. Doktor Zarviyev cavab teleqramında tələb edirdi ki, L.Ambartsumov ona təşkilat haqqında geniş məlumat versin. Nəticədə Şamaxıda məxfi qaydada fəaliyyət göstərən «Büro»nun S.Lalayanın başçılıq etdiyi silahlı birləşməsi Cümə məscidinə hücum edib, onu yandırdı. Məsçiddə olan 11 adamdan 5 nəfəri öldürüldü, 6 nəfəri isə ağır bədən yarası aldı. Şamaxı qəzasında baş verən bu hadisə yerli əhalinin qəzəblənməsinə səbəb oldu. Lakin adamlar silahsız və köməksiz idilər.

Araşdırma materiallarından aydın olur ki, İran ərazisindən Azərbaycan istiqamətində (eləcə də, regionda islam dinini parçalamaq üçün – V.S., *R.V.*) ingilislərin xeyir-duası ilə hazırlanmış vəhhabi dəstələri, daha doğrusu, şiə müsəlmanlarına qənim kəsilmiş ərəb karmatları (vəhşi ərəblər) və yaxud «Karmat birlikləri» yola salınmışdı. Onların bir qrupu məhz Şamaxı ərazisində «Büro»ya, S.Lalayanın rəhbərlik etdiyi silahlı dəstələrə yardım göstərir, şiə-müsəlmanların evlərini qarət edir, din xadimlərini öldürür, quran kitablarından tonqallar qururdular. İngilislərin Bəhreyndən qovub gətirdikləri bu ərəb karmatları-vəhhabi dəstələri, həmçinin, Təbrizdə, Tehranda, Ərdəbildə də şiə-müsəlmanlarına qarşı ermənilərlə birgə qanlı cinayətlər törətmişdilər. Bilavasitə regionda islamın parçalanmasına xidmət edən ərəb karmatları Azərbaycanda ermənilərin apardıqları etnik təmizləmə siyasətində ən başlıca faktorlardan biri olub.

**Qeyd:** araşdırma materiallarına görə, bu gün işğal olunmuş Qarabağ ərazilərində Bəhreyndən gələn ərəb karmatları üçün kiçik qəsəbələr salınır, onlara torpaq sahəsi verilir. Onların bir qismi işğalçı rejimin ordusunda-silahlı terror birləş-mələrində xidmət edir. Bütün bunlar ermənilər üçün Londonda hazırlanmış «İngilis direktivləri»nin tərkib hissəsi olaraq qalır.

Doktor Zavriyev məktubların birində soruşurdu: «Cənab Leon! (Ambartsumov) Mənə Şamaxıda müsəlmanların yaratdıqları «Şeyx Şamaxı

məclisi» haqqında məlumat ver. Bu nə təşkilatdır? «Büro»dan yanına xüsusi nümayəndə gələcək».

Doktor Zavriyev narahat idi. Bu narahatçılıq 1917-ci il fevral inqilabından sonra daha da artdı.

Erməni könüllü dəstələrini təlatüm və nigarançılıqda saxlayan Şeyx Şamaxı haqqında yetərincə materialımız yoxdur. Toplanmış materiallar Yelizavetpol (Gəncə) Xəfiyyə İdarəsinin arxiv müdiri O.Ağacanyan tərəfindən məhv edilib. Təkcə Yelizavetpol Xəfiyyə İdarəsinin istintaq qrupunun başçısı Q.D.Demçenkonun Moskvaya göndərdiyi sorğu məktubunda qeyd olunur ki, Şamaxı qəzasında millətlərarası münaqişə və yaxud qarşıdurma genişlənir. Münaqişədə maraqlı olan «Milli Erməni Bürosu»nun üzvlərinə yardım edib, köməklik edirik. Müsəlmanların yaratdıqları «Şeyx Şamaxı məclisi»ni isə yaxşı tanımırıq. Şeyx Şamaxı barədə isə qısa desək, o, sadə, ortayaşlı bir din xadimidir. Hazırda onun məclisində 20 nəfər gənc var. Onlar da, bizim adamların nəzarətindədir."

Həmin vaxt isə Şeyx Şamaxı haqqında kiçik rəvayətlər dolanmaqda idi. Bütün bunlar ermənilөri qorxudur və səksəkə içində saxlayırdı.

Topladığımız materiallardan görünür ki, Şamaxıdakı qırğınlar 1918-ci ilin aprel ayında başlamalı idi. Ermənilərin planına görə, Şamaxı və Quba qəzalarına gözlənilən hücum eyni gündə olmalı idi. Lakin Şamaxıda, artıq, getdikcə formalaşan «Şeyx Şamaxı məclisi» partizan hərəkatı genişlənməkdə idi. Qazax yaşayış məntəqəsində «Salehin dəstəsi» deyilən doqquz nəfərlik bir qrup, Yelizavetpoldan on üç nəfərlik «Alməmmədin dəstəsi» «Şeyx Şamaxı»nın dəstəsinə tərəf gəlirdi.

S.Ambartsumyan Doktor Zavriyevi, Doktor Zavriyev də S.Şaumyanı tələsdirirdi. Şamaxı qəzasında ermənilərin qırılması, məhv olması təhlükəsi haqqında şayiələr genişlənirdi.

Şamaxı qəzasında baş verən hadisələr «Qanlı mart təqvimi»ndə xüsusi səhifə təşkil edir. 1918-ci ilin yazında qəzada hakimiyyət, artıq, müsavatçıların başçılıq etdikləri yerli milli şuranın əlində cəmləşmişdi. Bunu öz hakimiyyəti üçün ciddi təhlükə hesab edən Bakıdakı bolşevik-daşnak Soveti Şamaxını ələ keçirmək üçün ciddi cəhd göstərirdi. Artıq, bu zamana qədər mövcud olmuş, ermənilər və molokanlardan ibarət hərbi qarnizon yerli milli Şura tərəfindən tərksilah edilmiş və onun əvəzində azərbaycanlılardan ibarət yeni qarnizonun təşkilinə başlanılmışdı. Nəzərə almaq lazımdır ki,

bolşevik və daşnakların Azərbaycanın bütün ərazisini ələ keçirmək və öz hakimiyyətini qurmaq planlarında Şamaxı xüsusi-strateji əhəmiyyət kəsb edirdi.

Martın birinci yarısında Şamaxıya məlumat gəldi ki, Bakıdan Şamaxıya toplar, pulemyotlar və böyük miqdarda hərbi sursatla təxminən üç minədək erməni qoşun dəstəsi gəlir. Dəstəyə S.Şaumyandan bilavasitə təlimat almış S.Lalayan başçılıq edirdi.

Lakin həmin dəstə gətirdiyi silah-sursatı Şamaxı qarnizonuna verməkdən imtina etmiş və bildirmişdi ki, «onların məqsədi Şamaxı qəzasını quldur dəstələrindən təmizləmək, qəzada anarxiyaya son qoyub normal həyat bərpa etməkdir» (Bax:E.M.Surikov.1918-ci il. Qanlı mart qırğını. Tiflis.1921).

Martın 15-də sübh çağı S.Lalayanın dəstəsi Şamaxıya ilk dəfə hücum edərək, şəhərin müsəlmanlar yaşayan hissəsini top atəşinə tutdu. Bu atışma nəticəsində dinc əhali arasında çoxlu sayda tələfat oldu. Yalnız axşama yaxın şəhərdə bir qədər sakitlik yarandı. Şamaxı gecə ikən cənubdan ermənilər, şimal-şərqdən isə molokanlar tərəfindən mühasirəyə alındı. Onlar şəhərin müsəlman hissəsini bombalamağa başladılar. Müsəlmanlar topların qarşısında dayana biləcək vəziyyətdə olmadıqlarından geri çəkilməli oldular. Dəhşətli qarışıqlıq baş verdi. Ermənilər və molokanlar axşama yaxın şəhərin ən varlı hissəsi «Piran-Şirvan»a daxil oldular. Evlər yandırılır, yanan evlərdən qaçan kişilər, qadınlar, uşaqlar və ümumiyyətlə, küçədə görünən hər kəs güllələnirdi. Dəstənin quldur üzvləri evlərə soxularaq, sakinləri öldürüb qarət edirdilər. Şəhərin küçələrində müsəlman meyitləri üst-üstə qalaqlanmışdı.

Bu vəhşiliklər Gəncədən silahlı müsəlman dəstəsinin Şamaxı şəhəri və Şamaxı qəzası əhalisinin köməyinə gələnə qədər bir neçə gün davam etmişdi. Gəncəlilərin gəlişindən sonra ermənilər və molokanlar Şamaxıdan molokanlar yaşayan Qozlu kəndinə çəkildilər. Müsəlman qoşunları onları təqib edərkən məlum oldu ki, ermənilər və molokanlar sayca onlardan qat-qat üstündür və buna görə də, onlar geri çəkilməli, şəhərin, demək olar ki, bütün müsəlman əhalisini də özlərilə aparıb, Şamaxını tərk etməli olublar (Bax: 1918-1920-ci il.Gəncədə hadisələr. Tiflis.1921. "Qabriadze nəşriyyatı").

Müsəlman qoşunları gedəndən bir neçə gün sonra ermənilər və molokanlar şəhəri ikinci dəfə zəbt ediblər.

1918-ci ilin martın 16-da dağlara və meşələrə çəkilən Şeyx Şamaxının partizan dəstəsi qəzanın mərkəzində qətllərdə adları çəkilən üç ermənini edam edirlər. Bu, artıq, ilk xəbərdarlıq idi.

Doktor Zavriyev S.Ambartsumova yazırdı: «Mənə əlavə məlumat verin. Ərəb karmatlarına, Əbu Sana salamlarımızı çatdır. Müsəlmanların silahlı dəstəsi haqda məlumat ver. Onların nə qədər silahı var? Hardan alırlar? Stepana xüsusi qəhrəmanlıq salamlarımızı yetir».

Məlumata görə, bütün yazışma və teleqraf mətnlərinin surəti Yelizavetpol Məxfi İdarəsinə göndərilirdi. Çünki araşdırma materiallarından aydın olur ki, uzun müddət Yelizavetpol teleqraf mərkəzində çalışan Samuel Aleksandroviç Ambartsumov 1915-ci ilin avqustun 3-dən etibarən Çar Rusiyasının Məxfi İdarəsinə işləyirdi.

Şamaxıda əsl partizan hərəkatı başlamışdı. Araşdırma materiallarına görə, bu hərəkat Azərbaycanda erməni quldur dəstələrinə qarşı ilk və son partizan hərəkatı idi. Qəfil hücumlardan qorxuya düşən S.Lalayan bir-birinin ardınca Bakıya – S.Şaumyana xəbərlər göndərirdi, əlavə kömək istəyirdi. Cavab isə verilmirdi. Ermənilər girdikləri hər evdə Şeyx Şamaxını axtarırdılar. S.Lalayan onun yerini nişan verənə ənam da ayırmışdı.

Şamaxıda döyüşlər səngimirdi. Törədilən qanlı və dəhşətli qırğınların səsi-sədası, artıq, Azərbaycanın hüdudlarından kənara çıxırdı. Şeyx Şamaxının partizan dəstəsi iki qrupa bölünmüşdü. Birinci dəstə yerlərdən xəbərlər gətirir, ikinci dəstə isə həmin xəbərlərə uyğun hərəkətə keçirdilər. Partizan dəstəsinin qanlı döyüşləri nəticəsində əsir və girov götürülmüş, xarici bazarlarda satılmaq üçün seçilib, ayrılmış uşaqların azad edilməsi və onların Göyçay qəzasında yerləşdirilməsi xəbəri də həmin vaxt geniş yayılmışdı.

Əsasən yerli əhalidən ibarət Şamaxının kiçik partizan dəstəsi əlləri qan içində olan, qorxudan gecələri oyaq qalan, silahı əldən qoymayan Stepan Lalayanın quldur dəstələri ilə üz-üzə dayanmışdı. Şəhərin Çaylı, Sündü, Çuxanlı istiqamətində formalaşan «Milli Erməni Birliyi»nin silahlı özəyi martın 17-də Şamaxı partizanları tərəfindən dağıdıldı. Elə həmin gün də Mədrəsədən əlavə silahlı dəstələr S.Lalayanın köməyinə gəldi. Ələ keçən dəstə üzvləri camaatın gözü qarşısında diri-diri yandırıldı. Arxiv

materiallarından məlum olur ki, martın 18-də ermənilər ələ keçirdikləri dörd nəfəri: 1.Məlikçobanlı Həsən Qulam Əli oğlunu, 2.Qonaqkəndli Fəraməz Mir Haşım oğlunu, 3.Sarıtorpaqlı Balamirzə Yusifcan oğlunu, 4.Zərxili Nəhmətulla Məşədi Musa oğlunu – «partizan» adı ilə Meysəri yaşayış məntəqəsində yandırdılar. Sənədlərdən aydın olur ki, hər gün Doktor Zavriyevə ermənilərin Şamaxıdakı "qəhrəmanlıqlarından" və s. əməliyyat məlumatları göndərilirdi.

Araşdırma materiallarından məlum olur ki, 1918-ci il, martın 30-dan 31-nə keçən gecə silahlı erməni-rus birləşmələri Şamaxının mərkəzinə yaxın yerdə, daha dəqiq desək, Kürdtənəsində Kərbəlayi Dadaşın evində yığışan partizan dəstəsinə qəflətən hücum edilir. Hadisələrin sonrakı gedişindən heç bir xəbər verilmir. Amma bəzi məmbələrdə edilən qeydlərə görə, dəstənin 12 üzvü dar ağacından asılır. Şeyx Şamaxı – 41 yaşlı Hacı Mehdi Qəhrəman oğlu «Yeni hökümətin düşməni» kimi həbs olunaraq, Yelizavetpol həbsxanasına göndərildi. Onun sonrakı taleyindən heç bir xəbər verilmir. Lakin **ingilis generalı Tomson Doktor Zavriyevə açıqlamasında: «Şeyx Şamaxı» adlı silahlı qrupun başçısı Hacı Mehdi Qəhrəman oğlunun nəsli də kəsildi. İnanmıram bundan sonra Şamaxıda belə bir adam dünyaya gəlsin. Ermənilər rahat davam edə bilərlər».**

Araşdırma materiallarına görə, **Şamaxının 15 min nəfər əhalisindən cəmi 1700 nəfər adam salamat çıxdı.** Az müddət ərzində ermənilərin bu qədər adam qırmaları hələ də tarix üçün müəmmalı bir məsələ olaraq qalır. Bu günə qədər Şamaxıda 10 min nəfərdən çox adamın qırılması məsələsi hələlik tam mənada araşdırılmayıb, tədqiq olunmayıb. Bizim çoxillik araşdırmalarımız isə bu günə qədər tarixə qaranlıq qalan məqamlardan xəbər verir.

Fikrimizcə bu məsələ, yəni Şamaxıdakı qırğınların strateji-məxfi planları açılsa, tədqiq olunub, ciddi şəkildə araşdırılsa, biz görərik ki, Azərbaycan xalqının ən böyük fəlakəti – insanların kütləvi şəkildə qırılması, məhv olması Şamaxıda baş verib. Dünyada ikinci bir məkan yoxdur ki, Şamaxı faciəsini yaşasın. **Şamaxıda ən mübariz, ən ləyaqətli, vətənpərvər 27 nəsil başdan-başa qırılıb, məhv edilib. Üstündən yüz il keçsə də həmin nəsillər haqqında tarix susur, heç kəs, heç nə bilmir. Düşünürük ki, artıq Şamaxı soyqırımı barədə də etiraz səsimizi ucaltmaq vaxtıdır.Azərbaycanda erməni canilərinin törətdikləri**

**soyqırımlarını araşdırıb tətqiq etmək, bunları dünya ictimaiyyətinə çatdırmalıyıq. Əks təqdirdə, biz keçmiş qətliamların təkrarları ilə üzləşmək təhlükəsində qalarıq.**

Tamam məhv edilmiş 27 nəsil bizi düşündürməyə bilməz. Məsələn, rusiyalı demoqraf professor A.M.Petrovski «Müharibələr, millətlər və böyük yerdəyişmələr» əsərində qeyd edir ki, məqsədli aparılan silahlı münaqişələrin ağır nəticələrindən biri də böyük insan nəsillərinin bilərəkdən birdəfəlik məhv edilməsidir.

Professor keçmiş İttifaq ərazisində baş verən kütləvi insan qırğınlarından danışarkən tarixə müraciət edir və Mart qırğınlarını qeyd edərək, Şamaxı qəzasında ermənilərin törətdikləri cinayətləri xatırladır. Göstərir ki, itirilmiş nəsillər gələcək Şamaxının həm mənəvi, həm fiziki, həm psixoloji və həm də genetik cəhətdən dəyişməsinə güclü təsir edəcək (Bax: A.M.Petrovski. Müharibələr, millətlər və böyük yerdəyişmələr. Moskva.1999).

Tehran Milli Arxivində saxlanılan «Ənzəli qovluğunda» isə Məhəmməd Kərbəlayi Sultan adlı birisi isə qeyd edir ki, ermənilər Şamaxıda cavan, sağlam və ağıllı nəsilləri sıraya düzüb, güllələdilər, sonra meyitləri bir-birinin üstünə qoyub, yandırdılar.

Məlumatda bu da bildirilir ki, bu ağır və insanı dəhşətə gətirən səhnələri həm ingilislər, həm də fransızlar lentə alıblar.

Demək, əgər Fransanın və İngiltərənin arxivlərində bu istiqamətdə araşdırmalar aparılsa, kifayət qədər material əldə etmək mümkündür. Rusiyanın Baş Kəşfiyyat Arxivinə gəlincə, orada isə qırğınlar vaxtı Şamaxının poçt-teleqrafına başçılıq edən S.Ambartsumovun 1918-ci il, martın 23-də, saat 16-da «Milli Erməni Bürosu»nun rəhbəri Doktor Zavriyevə ünvanlanmış teleqramı var. Artıq, erməni S.Ambartsumov Şamaxıda qırılan nəsillərin siyahısını və sayını göstərir. O, həm etiraf edir, həm də sevinclə bildirir ki, qırılan müsəlman nəsillərin sayı 27-dir. Arxivdə toplanmış sənədlərdə Yelizavetpol Məxfi İdarəsinin də bu faktları təsdiq edən əlavə sənədi var. İki səhifəlik məlumat – arayışını isə kəşfiyyat mayoru, bilavasitə «Milli Erməni Bürosu»nun Şamaxı özəyi ilə əlaqələr quran O.S.Aleksandrov-Nikolayev imzalayıb (Bax: Azərbaycan tarixi.7-cilddə.1998-2000).

Məsələn, Şamaxının mərkəzində yaşayan Məşədi Kamran Məşədi Əliağa oğlu Hüseynovlar nəsli. Bu nəsildə böyüyən altı nəfər İraq, İran və Rusiyada

təhsil almışdı. Ziyalı bir nəsil idi. Üst-üstə bu nəsil 32 nəfərdən ibarət idi. Onlar bir-birinə yaxın ərazilərdə yaşayırdılar. Məşədi Kamran özü Türkiyədə təhsil almış, Ankarada həkimliyi bitirmişdi. Nəslin sonuncusu Cəmil Məşədi Əliağa oğlunun qız nəvəsi Gövhərin doqquz yaşı olacaqdı.

2. Kərbəlayi Qulu Bəşirovlar nəsli (51 nəfər) əslən Qurdtələsi;
3. Möhsünovlar nəsli (76 nəfər) əslən Qonaqkənd;
4. Qədimovlar nəsli (35 nəfər) əslən Dədəgünəş;
5. Qəniyevlər nəsli (29 nəfər) əslən Məlikçoban;
6. Ağamalı Məşədi Hənfə oğlunun nəsli (42 nəfər) əslən Çuxuryurd;
7. Camal (Hüseynxan) Hacı Qasım oğlunun nəsli (?) əslən Qacarlı;
8. Uzun müddət Çar Rusiyasının ordusunda xidmət etmiş Məhəmməd Məşədi Dadaş oğlunun nəsli (?) əslən Kələkanı.

***Qeyd***: Məhəmməd Məşədi Dadaş oğlunun nəvələrindən olan 25 yaşlı Rəfi Məşədi Murad oğlu «Şeyx Şamaxı»nın silahlı qrupunda (partizan dəstəsində – ***V.S., R..V.***) döyüşüb. S.Lalayanın göstərişilə Şamaxının mərkəzində edam olunub.

Şübhəsiz, biz bu məsələlərə yenidən qayıdacağıq. Amma hələ də müəmmalı, naməlum məqamlar çoxdur və bütün bunlar cavablarını gözləyən suallar yaradır.

O vaxt Şamaxı qəzasında olan 15 min əhalidən cəmisi 1700-ü salamat çıxdı. Məxvi qovluqlar Şamaxıda, həmçinin, kütləvi şəkildə zəhərlənmiş adamlardan, insanı bir göz qırpımında məhv edən un və sudan bəhs edir. Hiss olunur ki, Şamaxıda ermənilər həm də maraqlı ölkələrin hərbi-sənaye komplekslərində hazırlanmış bir sıra dərman preparatlarını da sınaqdan çıxarıblar. Axı o vaxt elə bir vaxt idi ki, insanları kütləvi şəkildə hansısa silah növü ilə qırıb, məhv etmək, külünü göyə sovurmaq qeyri-mümkün idi.

Azərbaycan XX əsri Şamaxı faciəsilə başladı, Xocalı faciəsilə başa vurdu. Bir faciənin başında Doktor Zavriyev (icraçı S.Lalayan) dayanırdı, o biri faciənin başında polkovnik Zarviqarov (icraçı S.Ohanyan) dayanırdı. Bu tarixi oxşarlığın özü də ermənilərin qanlı planlarının tərkib hissəsi olaraq qalır. ( Zavriyev – Zarviqarov, Lalayan – Ohanyan arasındakı qohumluq əlaqələri istiqamətində maraqlı araşdırma nəticələri var- V.S. *R..V.*)

*Apardığımız tədqiqatların nəticəsinə görə, Azərbaycana və Türkiyəyə qarşı ermənilərin ilk «Direktivlər planı» Londonda, 1893-cü ilin əvvəllərində Böyük Britaniyanın Baş Naziri olan Uilyam Qladstounun mənzil*

*qərargahında hazırlanıb. Həmin vaxtdan etibarən iki istiqamətdə ermənilər hücum taktikasını işlədilər. Qafqazda və Türkiyədə olan fransız diplomatı F.D.Kambon yazırdı: «Erməniləri kütləvi şəkildə iki mühüm, lakin sadə olan ideyalarla tərbiyə etmək lazım idi. Birincisi milli özünü dərk etmə. İkincisi-erməni azadlığı. Hiss edirdim ki, Avropa bu ideyalar altında xəritədə «Ermənistan» deyilən bir yer axtarır (Bax: Direktivlər planı. London. 1893. U.Qladetounun redaktəsilə). Amma bilinmirdi ki, bu «Ermənistan hardan başlayıb, harda qurtaracaq». İngilislərin «Direktivləri»nə görə, qurulacaq Ermənistan ikiyə bölünmüş, nəticədə gücsüz olan, qüvvədən düşən Azərbaycan torpaqlarından başlamalı idi. Uilyam Qladstounun məxfi «Direktivləri»nin icrasına Fransa, Avstriya, Amerika da qoşuldu. Onları isə, Londondan fərqli olaraq Türkiyə-Rusiya münasibətlərinin pozulması, baş verə biləcək qarşıdurmada hər iki dövlətin gücdən düşməsi, parçalanması idi. Hər iki cəbhədə ermənilər lazımlı faktor kimi, hadisələrin nüvəsi kimi diqqət mərkəzinə çəkilirdi. Həmin vaxt Parisdə və Londonda «Erməni Manifesti» deyilən bir Manifest yayıldı. Ondan cəmi iki gün sonra, 1917-ci ilin sentyabrın 25-də Azərbaycanın Dərələyəz və Zəngəzur ərazilərinə böyük bir qrupda ingilis emissarları gəldilər. İngilis kəşfiyyat polkovniki Yum Robertin başçılıq etdiyi bu qrup ərazidəki «Erməni Milli Birliyi»nin hmbapetlərilə (silahlı dəstələrilə) görüşür, onlarla birlikdə Dərələyəz və Zəngəzur ərazilərinin strateji və həssas nöqtələrini araşdırırdılar. Göyçə gölünün yaxınlığında ilk İngilis-Erməni hərbi düşərgəsi salındı. Rusiya və Türkiyə hadisələrə etinasız yanaşırdı. Çünki hər ikisinin potensial imkanları azalmışdı. Azərbaycan müdafiəsiz və tənha qalmışdı.*

Araşdırma materiallarına görə, 1918-ci ilin martın 1-də polkovnik Yum Robert kiçik bir dəstə ilə Dərələyəzdən Bakıya gəlir. Həm Londonu, həm də Vaşinqtonu Bakı nefti çox düşündürürdü. Londonda nəşr olunan «Daily Mail» (Deyli mayl) qəzeti 1918-ci ilin martın 10, 11, 12-də bir-birinin ardınca Bakı nefti haqqında materiallar çap edirdi. Nəticədə ilk dəfə olaraq İngilis mətbuatı, «Mİ-6 ya yaxın olan, «Lonro» neft şirkətinə məxsus «The Observer» qəzeti 1918-ci il, mart sayında Böyük Britaniyanın «Azərbaycan-Gürcüstan-Türkiyə» neft layihəsini ortaya qoydu (?!).

Məlumata görə, Bakıya mart ayında ermənilər üçün ilk silah sursatı Göyçə gölünün yanında salınmış İngilis-Erməni hərbi düşərgəsindən göndərilmişdi. Bakıda isə bu silahların bölünməsi və yerlərdə paylanması

işinə Yum Robert özü baxırdı. Qafqazda müsəlmanları müdafiə məqsədilə yaradılmış Müvəqqəti Fövqəladə Komissarlığına isə Bakı Sovetinin sədri S.Şaumyan rəhbər təyin olundu. Eser Saakyan, daşnak Arakelyan, Nuricanyan, Melik-Bolçyan, eləcə də polkovnik Avetisov, briqada komandiri Amazasp, polkovnik Kazarov, Əmiryan, Yum Robert və s. Şaumyanın göstərişilə silah və digər hərbi sursatın bölüşdürülməsi işilə məşğul oldular.

Məlumata görə, 1918-ci ilin mart ayının 12-də ingilis Yum Robertin dəstəsində Bakıya gələn ixtisasca həkim olan Edmond Henri və Test Kansell S.Şaumyanın otağında Stepan Lalayanla görüşdülər. Mart ayının 13-də isə Doktor Zavriyev və əlavə digər xarici qonaqlar Bredinq və Sind davam edən görüşdə iştirak etdilər. Digər araşdırma materiallarından aydın olur ki, T.Kapsell və Bredinq Şamaxı qırğınlarında S.Lalayanın yanında olublar. Bu haqda Çar Rusiyasının süqutundan sonra bir müddət işini davam etdirən Yelizavetpol Məxfi İdarəsinin xüsusi məlumatları var və həmin məlumatlar da indiki Rusiyanın Baş Kəşfiyyat İdarəsinin arxivində qorunmaqdadır. Uzun müddət arxivdə çalışan, istefada olan polkovnik, kəşfiyyatçı A.A.Belov 1918-1920-ci illərdə Azərbaycanda erməni silahlı birləşmələri tərəfindən törədilmiş qırğınlarla bağlı xüsusi qovluqların olduğunu bildirir

Araşdırma materiallarında göstərilir ki, 1918-ci ilin mart qırğınlarında Amerika tərəfi də öz maraqlarını gizlətmədi. Nəticədə «The Vashinqton Post» (Vaşinqton Post) qəzeti 1918-ci ilin martın 14-də Bakı neftilə bağlı iqtisadçı Pollun açıqlamasını verir və gələcəkdə çəkilməsi ehtimal edilən «Azərbaycan-İran-Fars körfəzi» neft layihəsini təklif edir.

**1918-ci il azərbaycanlıların kütləvi qırğınları zamanı erməni polkovniki Amazaspın bəyanatı yayıldı. O, deyirdi: «Mən erməni xalqının oğluyam və bu xalqın da maraqlarını qoruyacağam. Mən ölən və öldürülən ermənilərin qisasını alacağam. Mənə əmr verilib Xəzər dənizindən Şah Dağa qədər bütün müsəlmanları qırıb, məhv etməliyəm.»**

Təəssüf ki, Azərbaycan tərəfi hələ də «əmr verəni» axtarıb, tapmayıb. Nəticədə «əmr verən», növbəti əmrini Qarabağda, Xocalıda verdi

1918-ci ilin Mart qırğınlarında Şamaxıda 11 yaşayış məntəqəsində əsir götürülən, öldürülən əhalinin yandırılması haqqında məlumatlara gəlincə, həmin məlumatlar da Rusiya arxivlərində qorunmaqdadır. Erməni tərəfi

həmişə ehtiyat edir ki, Rusiya həmin materiallara günün birində aydınlıq gətirə bilər. Ermənilər Şamaxının Kələxana, Baharlı, Dədəgünəş, Qaraməmmədli, Bəklə, Məlikçobanlı, Quşçu, Poladlı, Göylər, Xocaman, Ləngəbiz yaşayış məntəqələrində, eləcə də Azərbaycanın bir neçə bölgəsində insanları diri-diri yandırıb, məhv etmişlər. Bu vəhşilikləri təsdiq və sübut etmək üçün elm və texnikanın mövcud imkanlarından bu gün də istifadə etmək mümkündür. Hərbi həkim, professor L.S.Popov 1976-cı il, «Pravda» qəzetinin 14 iyul tarixli nömrəsində törədilmiş genosid hadisələrilə bağlı verdiyi açıqlamada iddia edir ki, insan külü torpaq qatında 150 ildən artıq qala bilir.

Araşdırmalar apararkən, içimizdəki, özümüzünkülərdən olan bir yaramazın hərəkəti bizi çox məyus etdi. 1919-cu ildə noyabrın 2-də Zaqafqaziya Ali Komissarının müavini, Zəngəzur və Dərələyəzin verilməsində iştirak edən amerikalı C.Rey Gəncədə olarkən xahiş edir ki, onu Gəncənin fəxri vətəndaşı seçsinlər. Gəncə Bələdiyyə rəisi Ə.Xasməmmədov bu təklif ilə Şəhər Dumasına rəsmi müraciət edir. Şəhər Duması noyabrın 4-də həmin məsələyə baxaraq qərara alır: «Polkovnik C.Rey, Ceymz bəy adı ilə Gəncə şəhərinin fəxri vətəndaşı seçilsin».

***Qarabağda, Zəngəzurda və Dərələyəzdə olmuş ingilis jurnalisti Skotland-Liddel Londona məlumat verirdi: «Londonda «Erməni Bürosu» var. Buna bənzər təşkilatlar Fransada da, ABŞ-da da var. Onların ən çox sevdiyi metod ən alçaq reklam üçün, xristian sözündən istifadə etməkdir. Azərbaycanda həqiqəti bilirlər. Əgər ingilis içtimaiyyəti bilmirsə də, ingilis nazirlikləri bilməlidirlər ».***

Nə qədər ki, bu qırğınların əsl mahiyyəti açılmayıb, Azərbaycan tərəfi həmişə erməni terroru ilə üz-üzə qalacaq.

# ŞAMAXI: 100 İL «MƏXFİ QRİF» ALTINDA

İşğal olunmuş ərazilərimizdə – Dağlıq Qarabağda ermənilərin qurduqları «Tarix-Diyarşünaslıq Muzeyi»nin direktoru Melanya Balayan «Alimlər qrupu» qarşısında («Alimlər qrupu» 1996-cı ildə Yerevanda Milli Akademiyanın nəzdində yaradılıb. – V.S.,*R.V.*) çıxış edərkən göstərir ki, "...muzeyimiz çox zəngin bir muzeyə çevrilib. XlX-əsri, XX-əsrin əvvəllərini əhatə edən xeyli sayda material toplamışıq. Hətta Ermitajın Azərbaycan bölməsində Dağlıq Qarabağla əlaqəli eksponatları biz həmin muzeyə köçürtmüşük. Almaniyada yaşayan erməni Jirayr Köçəryan, Armin Veqner və milliyyətcə alman olan Tessa Xofman muzeyə xeyli material göndərdilər. O materialların arasında Bakıda, Şamaxıda, Qubada vuruşan və «millətimizi işğaldan» qurtaran milli qəhrəmanlarımızla bağlı sənədlər, yazışmalar var. Məsələn, milli qəhrəmanımız (?) Stepan Lalayanın bağlı yazılmış «Şamaxı döyüşləri», onun kiçik məktubları nəhayət vəsiyyəti gələcək erməni nəsillərinə ən böyük tarixi bir dərsin başlanğıcı ola bilər. «Qarabağ Muzeyi» dünyanın ən zəngin muzeylərindən birinə çevrilməkdədir."

Apardığımız son təxmini hesablamalara görə, dünyanın Elmi-Tədqiqat və Milli Kitabxanalarından Azərbaycanla bağlı, dövlətçiliyimizin qədim tarixi göstəricilərini, nişanələrini əks etdirən, arxeoloji qazıntılar zamanı çıxarılan və əldə edilən əşyaları özündə qoruyub saxlayan 25 qovluq (1796 səhifəlik tədqiqat əsəri) oğurlanıb və yaxud satın alınıb, sıradan çıxarılıb.

Böyük Britaniyanın, Fransanın, İtaliyanın, Bolqarıstanın, Macarıstanın, Polşanın, Almaniyanın, Kanadanın, ABŞ-ın, RF-nin, eləcə də Orta Asiya regionlarının, həmçinin, Səudiyyə Ərəbistanının, İranın, İraqın, Suriyanın, Misirin, Liviyanın, elm mərkəzlərində çalışan erməni alimləri bu işləri həvəslə görüblər. Məsələn, «Şuşanın dirçəlişi fondu»nun rəhbəri Yervand Zaxaryan Fransanın «Antenn-1» telekanalına (məlumata görə, bu kanalın Şuşada müxbir məntəqəsi açılıb, 2011.V.8.) verdiyi müsahibədə qeyd edib: «Şuşanın Dirçəlişi Fondu»nun tanınması üçün xeyli iş görmüşük. Fondun üzvləri həm keçmiş İttifaq məkanında, həm də dünyada tanınmış erməni ziyalılarıdır; Sos Sarkisyan, Levon Ananyan, Flora Naxşkaryan, Zori Balayan, Bakur Karapetyan, arxiyepiskop Parqev Martirosyan. Bu adamların bəzisi Suriyadan, İrandan, Livandan, İraqdan yenicə qayıdıblar və onlar

həmin regionların arxiv idarələrində, milli kitabxana və elmi-tədqiqat mərkəzlərində olub, kifayət qədər tarixi sənədlər əldə ediblər

Məlumata görə, ABŞ-dakı «Linsi fondu»nun başçısı milyonçu Kirk Kirkoryan Şuşada ermənilərin Şamaxıda, Qubada və Bakıda 1918-ci ilin mart hadisələrini, azərbaycanlılara qarşı cinayətlərini «erməni millətinin qəhrəmanlıq dastanı" kimi göstərən və təsvir edən abidə ucaldıb.

Erməni «Alimlər qrupu»nun iddiasına görə, təkcə 2011-ci ildə dünyanın elm mərkəzlərinə Dağlıq Qarabağı, Naxçıvanı, Yevlaxı, Goranboyu, Tərtəri qədim Ermənistan ərazisi kimi göstərən 1400 adda, müxtəlif ölçüdə xəritələr paylanılıb. Milliyyətcə erməni olan Suriya rejissoru Simay Ernekyanın Şamaxı qırğınlarını təhrif edən, azərbaycanlıların hissiyatına və ləyaqətinə toxunan «Stepan» qısametrajlı filminə isə «Alimlər qrupu» xüsusi mükafat ayırdılar(2006-cı il).

Tarixi təhrif edən bu eybəcər film haqqında isə Bağdadda ictimai-siyasi, ədəbi-bədii jurnal kimi təsis olunan «Ərəb üfüqləri» (Əl-Afaq, Əl-Ərəbiyya) mətbu orqanında geniş yazı dərc edildi. Bu elə bir vaxt idi ki, Bağdadda Xlll-əsrin Azərbaycan mütəfəkkiri, Nəsrəddin Tusinin qəbrini də ermənilər dağıdıb, viran qoymuşdular. Qeyd edim ki, həmin vaxt BMT-nin Təhlükəsizlik Şurasına bir-birinin ardınca (25.05. 2004, 10.01.2006) Beynəlxalq Alimlər Koalisiyasının da etiraz məktubu göndərilmişdi (bu haqda Bakıda nəşr olunan «Zerkalo» qəzeti 28 yanvar, 2006-cı ildə məlumat verirdi).

Xatırladaq ki, 1918-ci il mart qırğınları haqqında erməni alimləri, tədqiqatçıları 180-dən artıq kitab çap ediblər. Xüsusən, Şamaxıda yerli əhalinin başına gətirilən 1918-ci il müsibətlərindən bəhs edən 30 kitab son illərdə dünyanın 10-dan artıq dilinə tərcümə olunub. Qəddar Stepan Lalayan «Ermənilərin Milli və Unudulmaz Qəhrəmanı» kimi təsvir edilib. Yazıçı E.Aruşanbekyan iddia edir: «Qəhrəman Stepan Lalayan olmasaydı, türklər Şamaxıdakı həmvətənlərimizi, erməni ailələrini qırıb, məhv edəcəkdi.» «Stepan biz ermənilərin qurtuluş çırağıdır» (E.Aruşanbekyan. «Bizim qəhrəman». Yerevan. MİTİ nəşriyyatı, 2000. s.49).

Azərbaycanın tarixi baxımdan ən zəngin yurd yerlərindən biri Şamaxı ərazisidir. Bu yaşayış məntəqəsi Şərqin ticarət mərkəzlərindən biri olduğundan xeyli sayda qonaqlı-qaralı idi. İrandan, İraqdan, Suriyadan, Küveytdən və hətta Livan və Hindistandan bu yerlərə tacirlərlə yanaşı, ədiblər və tarixçilər də gəlib, Şamaxı haqqında düşüncələr və yol qeydləri yazıblar.

Şübhə etmirik ki, məsələn, adlarını qeyd etdiyim ölkələrin milli kitabxanalarında, qədim elm mərkəzlərində, xüsusən Şamaxı yaşayış məntəqəsilə bağlı yazılar, qeydlər, tarixi baxımdan dəyərli materiallar olmasın. Bütün bunlar bizim üçün təbii görünürdü. Bilirik ki, Şamaxı kimi qədim və zəngin, lakin hələlik bizim tərəfdən az öyrənilən, tarixi qədim olan məskən haqqında axtarsaq, həm müsəlmanların, həm xristianların və həm də yəhudilərin ən qədim dini kitablarında, hətta Qobustanın daş-qayalarında onun haqqında rəvayətlər, sözlər var. Amma təəssüf ki, axtarmırıq. Şamaxı qırğınları ilə bağlı 2004-cü ildə İranda, Tehran və Təbriz Milli kitabxanalarında, 2005-ci ildə Suriyada, İraqda, 2006-cı ildə isə Livanda aparılan tədqiqatlarda maraqlı məqamlara rast gəldik. Tarixi mərkəzlərdə, milli kitabxanalara oldum. Azərbaycanlı alim-tədqiqatçı Mir Mehdi Hüseyni ilə Tehran, Təbriz və Məşhəd Milli Kitabxanalarını gəzdik. Qeyd etmək yerinə düşər ki, Ağa Hüseyni çox zəngin mənəvi dəyərlərə malik ziyalılardandır. Məhəmməd Füzulidən, Nizamidən, Sabirdən, Səməd Vurğundan saatlarla şeir demək qabiliyyətinə malik olan bir şəxsdir. 2011-ci ilin dekabr ayında 60 yaşını qeyd edən bu şəxs həm də uzun müddət Milli Kitabxanada çalışıb. Təbrizdə nəşr olunan «Varlıq» jurnalında Şamaxıda 1918-ci ilin Mart hadisələrilə bağlı «Qanlı bayram günləri» adlı ilk yazını da o, yazıb. Tehran Milli Kitabxanasında Şamaxı ilə bağlı ayrıca qovluq yoxdur. Bu məsələlər cəmi bir qovluqda toplanılıb. Çəhrayı rəngli qovluğun üstündə isə yazılıb: Azərbaycan 1918-ci il. Baş verən hadisələr. Məhəmməd Məcidzadənin qovluğu. № 206. 191 səhifə. Qovluğun içərisində, yəni birinci səhifəsində qeyd olunur ki, bu qovluq neçənci ildə başlanılıb və möhürlənib. Məhəmməd Məcidzadəyə gəlincə o, şair olub. Xəstəxanaya düşməmişdən əvvəl qovluğu kitabxanaya təhvil verib. Materiallar isə ona babası Əbdül Əzim kişidən qalıb.

Qovluqdakı materiallarla tanış olduq. Ən çox maraq doğuran və diqqət çəkən Şamaxı hadisələri idi. Əlli yeddinci səhifədə qeyd olunur ki, 1918-ci ildə ermənilər qəflətən Şamaxıya girdilər. Sonra mərhum Məcidzadə Çuxuryurd kəndində ermənilər tərəfindən yandırılan evləri nişan verir. Kənddə bir ailədə, qəbirqazan Murtuza kişinin ailəsində böyüyən üç qızın – Məlahətin, Lətafətin və Sərafətin taleyindən yazır. Faciələrimizi əks etdirən qovluq Şamaxının qəmli-kədərli tarixinin bir parçası olaraq qalır. Həm latın, həm ərəb qrafikası ilə və həm də erməni dilində yazılmış bu materialları araşdırmaq maraqlı olardı.

İraq Milli Kitabxanasının (Bağdad) arxivindəki, üstündə «Ənzəli məktubları» qovluğunda isə 1918-ci ildə baş verən ictimai-siyasi hadisələr haqqında çox maraqlı xəbərlər var. 1918-ci ilin mart ayının Şamaxı qırğınlarını qələmə alan Mirzə Soltan 476-cı qovluğun 214-cü səhifəsində (qovluq 868 səhifəlik materialdan ibarətdir) erməni silahlı birləşmələrinə qarşı, Stepan Lalayanın soyğunçu və terror dəstələrinə qarşı o vaxt Yelizavetpoldan, Kür qırağı yaşayış məntəqələrindən, Qazaxdan və Yevlaxdan Şamaxıya gələn partizan dəstələrindən bəhs edir. Məsələn, qeyd edilir ki, Qazaxdan gələn «Salehin partizan dəstəsi» və yaxud, «Gəncədən gələn Alməmmədin dəstəsi» erməniləri çaşdırmışdı və s.

Araşdırma materiallarında maraqlı bir məsələ də bu idi ki, Şamaxını 1918-ci ildə erməni terror qrupundan – Stepan Lalayanın cinayətkar dəstəsindən azad edən, ona qarşı vuruşan elə şamaxılıların özləri olub. Şamaxı cavanları nə qədər acı talelərini yaşasalar da, sonda ermənilərə qarşı birləşə biliblər. İlk döyüşkən dəstələr-partizan qrupları yaradıblar. El arasında Şeyx Şamaxı adını qazanmış bir din xadiminin ətrafında birləşə biliblər.

Şeyx Şamaxı haqqında az məlumat var. O dövrünün mərd və əyilməz tarixi şəxsiyyəti olub. Amma həyatı öyrənilməyib «Şamaxı partizanları» (biz onları belə qəbul edirik-V.S.,R.V.) haqqında heç bir tarixi araşdırmada rast gəlmədik. Amma Beyrut kitabxanasında saxlanılan, o vaxt Azərbaycanda olan və yolunu Şamaxıdan, Qubadan, Gəncədən salan Edel Braunun «Gördüyüm qanın rəngi» kitabında bu haqda az da olsa məlumat var (kitab ermənipərəst bir kitabdır. 1921-ci ildə Londonda, sonra 1948-ci ildə Beyrutda erməni naşiri tərəfindən «Qevorq ailəsi» nəşriyyatında çap olunub).

Kitabxananın işçisi, Azərbaycanı yaxşı tanıyan ədəbiyyatçı, Kərbəlada doğulan Məsud Süleyman Əl-Həmid materialların oxunmasındaköməklik göstərib. Şamaxının Çuxanlı, Şamlı, Poladlı, Çəyirli kəndlərində baş verən 1918-ci il Mart hadisələri, erməni terrorçularının törətdikləri cinayətlər burda geniş şərh olunur. Qovluqdakı materialların bir qismini isə erməni mirzələri yazıb. Məsələn, hadisələri köçürən erməni Mirzə Ovanes Arayan, Mirzə Dadda Baxçaçıyan, Stepan Lalayanın dəstəsindəki ermənilərin hər biri haqqında ayrı-ayrılıqda geniş məlumatlar verir.

Əlbəttə, qovluqdakı materiallara bəlkə də heç toxunulmayıb. Həmin materialları da Stepan Lalayanın mirzəsi erməni Oleq Qriqoryan qələmə alıb. Hər halda Süleyman Əl-Həmidi qardaşımızın çalışqanlığı ilə əldə etdiyimiz materiallardakı hadisələr, fakt və rəqəmlər diqqəti cəlb edir. O da bizə aydın

olur ki, bu erməni mirzələri Şamaxıya Stepan Lalayanın silahlı dəstələrində gəliblər ki, ermənilərin «qəhrəmanlıq himnlərini» dəftərə köçürsünlər, gələcək nəslə saxlasınlar. Qeyd edim ki, bütün bunlar haqqında kitablarda geniş məlumat verilir. Toxunulmayan, lakin təhlilə geniş ehtiyacı olan bu «qərib» qovluqları oxumaq, onları Azərbaycana gətirmək yaxşı olardı.

1918-ci il Şamaxıda ermənilərin viran qoyduğu kəndlərin, iflic olmuş nəsillərin faciələri, bu qovluqlardakı materialların əsas xəttini təşkil edir.

Suriya Milli Kitabxanalarında-əsasən Dəməşq və Hələbdə, Bağdad kitabxanalarında, eləcə də Livandakı Beyrut Milli Kitabxanasında (Elm muzeyində) saxlanılan erməni qovluqlarında Şamaxıdakı 1918-ci il Mart hadisələri dolğun bir mənzərə ilə təsvir olunur. Tarixçi Faiz Fəhra Rəşidin yardımı ilə materiallara, qədim sənədlərə diqqətlə nəzər salanda hiss edirsən ki, bu materiallar xalqımıza nə qədər vacibdir.

Araşdırma materiallarından aydın olur ki, Şamaxı düşmənlərin həmişə diqqət mərkəzində olub. Onu da xatırladım ki, Beyrutdakı (Livan)erməni kvartalında Şamaxı hadisələrilə, Stepan Lalayanla bağlı əldə etdiyimiz materialların böyük bir qismini birinci kitabda vermişik. Bu işdə Beyrutda yaşayan tarixçi, bizə yardımçı olan Səid Bərrinin xidmətlərindən istifadə etdik. Məni həmişə ən çox düşündürən Rusiya Federasiyasının arxivlərində saxlanılan və bəlkə də, bu gün heç kəsin maraq dairəsində olmayan materiallar olub. Məsələn, ölkənin hərbi arxivində (bu gün həmin qədim arxivlər Müdafiyə Nazirliyinin və Xüsusi Xidmət orqanlarının nəzarətində saxlanılır) sənədlərin birində qeyd olunurdu ki, 1918-ci ilin aprelin 24-də Stepan Lalayan Mədrəsədəki 366-cı alaydan (Dağlıq Qarabağdakı 366-cı alayla qarışdırmamalı - ***V.S., R.V.***) Bakıya çağrılır. Kapitan S.Lalayan aprelin 27-də S.Şaumyanla bir yerdə ABŞ-dan, Böyük Britaniyadan və İsraildən gələn digər üç nəfərlə görüşür. Amerikalı Lut Tulofon, ingilis Hübert Fleminq və yəhudi Efrahim Beylinq S.Şaumyanın iştirakı ilə üç gün ardıcıl olaraq onun iş otağında S.Lalayanla görüşürlər. Söhbətin məzmununda Şamaxı hadisələri dayanırdı. Qapalı görüşləri təfsilatı ilə yazan rus məxfi idarəsinin Qafqazdakı nümayəndəsi polkovnik S.D.Kuprin Moskvanın bu işlə bağlı fikirlərini öyrənməyə çalışırdı. Nəticəyə görə Şamaxı, eləcə də Azərbaycan və Bakı nefti hər üç ölkənin xüsusi xidmət orqanlarının maraq dairəsində idi. Stepan Lalayanın Şamaxıdakı cinayətlərinə, fəaliyyətlərinə mane olmaq isə Bakıya qadağan edilmişdi. Bu göstərişə, nə qədər qəribə də olsa, o vaxtkı Bakı rəhbərliyi dinməz-söyləməz əməl edirdi. Nə üçün? Səbəb?.. Bütün bunlara isə kitabda aydınlıq gətirilir.

Fikirlərimizi yekunlaşdırsaq da, hələ bağlı olan xeyli söhbətlər, materiallar, qovluqlar qalıb. Hələ ki bütün bunlar erməni istəyi olaraq qalır. Azərbaycan Milli Arxivinə nəzər saldıq. O vaxt Cümhuriyyət hökümətinin yaratdığı Fövqəladə Təhqiqat Komissiyasının topladığı 7 cild və 925 səhifəlik istintaq materiallarını da oxuyub, araşdırdıq. Komissiyanın sədri Ələkbər bəy Xasməmmədovun Ədliyyə nazirliyinə göndərdiyi məruzəni də oxuduq. Orda qeyd olunur ki, ermənilər 53 kəndi yandırdılar, 8.027 insan qətlə yetirildi. Bəs itkin düşənlər? Oğurlanmış, talan edilmiş sərvət?..

Vaxtından xeyli ötməsinə baxmayaraq, əldə etdiyimiz materiallar əsasında rəqəmlərə, fakt və sənədlərə yenidən qayıtdıq. Sadəcə «Şamaxı: 100 il məxfi qrif altında araşdırmaları vərəqləmək, fikrimizcə bəs edər.

«Şamaxı: 100 il «məxfi qrif» altında» kitabında digər materiallara da toxunulub. Burda «Şamaxı əməliyyatı» – yəni, Qafqaz islam Ordusunun 1918-ci il iyul əməliyyatı, əlavə olaraq Şamaxı qəzasında baş verən qırğınlardan, birdəfəlik itkin düşən və məhv edilən Şamaxıdakı nəsillərdən, düşmənə əyilməyən və bunun müqabilində diri-diri yandırılan, öz namusunu, abır-həyasını, ismətini qoruyan və bu gün başqalarına nümunə ola biləcək qızların mənəvi üsyanlarından geniş bəhs olunur.

İngiltərədə, Çində, İtaliyada, Misirdə, İranda, İordaniyada, Bəhreyndə, Kanadada, Kubada, Braziliyada, Polşada və Bolqarıstanda yuva qurmuş, məskən salmış, Şamaxı yaşayış məntəqələrindən olan mühacirlər haqqında maraqlı xəbərlər var. Məlumata görə, onların bir qismi 1918-ci il ermənilərin törətdiyi qırğınlarda köçüb gedən insanların nəsilləridir.

«Şamaxı: 100 il «məxfi qrif» altında» yeni tədqiqat materialları, bizə elə gəlir ki, hər bir Şamaxılı üçün, eləcə də Azərbaycanı sevən hər kəs üçün maraqlı olacaq.

Bəli, bilmədiklərimizi öyrənməliyik, öyrəndiklərimizi öyrətməliyik və dostla-düşməni saf-çürük etməliyik. İşğal edilmiş ərazilərimizi, illərlə tapdalanmış, təhqir olunmuş hüquqlarımızı bərpa etmək yolunda bir yumruq kimi birləşib dünya ictimaiyyəti qarşısında ədalət tələb edən fəaliyyətimizi daha da cəsarətlə davam etdirməliyik! Bunun üçün siyasi lider kimi xoş gələcəyinə ümid bəslədiyimiz, Azərbaycanımızın gənc xanımı Leyla Əliyevanın Beynəlxalq erməni terroruna qarşı mübarizədə "Xocalıya Ədalət!" çağırışı yeni strateji bir model kimi artıq mövcuddur. Gəlin mübarizəmizi hamılıqla birgə aparaq.

# 1918-ci il MART QIRĞINLARINDA ŞAMAXIDA YERLİ ƏHALİYƏ VERİLƏN ERMƏNİ İŞGƏNCƏLƏRİ
## (məlum olmayan həqiqətlər)

Araşdırma materiallarına görə, «Erməni Milli İdeologiyası»nın yaradıcılarından olan akademik L.Xurşidyan Tehran radiosuna verdiyi müsahibədə (müsahibə 2012-ci il martın 14-də səsləndirilib – V.S., *R..V.*) iddia edir ki, Azərbaycan əraziləri adlandırılan bir çox yaşayış məntəqələri, hələki işğal altındadır və biz öz torpaqlarımızı işğaldan azad edəcəyik. Gəncəni, Naxçıvanı, Şamaxını tədricən azad edəcəyik(?!).

Professor E.Zoqrabyan isə Ermənistandakı Amerika Universitetində, Minsk qrupunun üzvlərinin də iştirak etdiyi məclisdəki nitqində qeyd edib ki, Bakıda, Şamaxıda, Gəncədə və Naxçıvanda heç bir işgəncə verilməyib. «Ermənilər yer üzünün ən mədəni və humanist xalqlarından biridir»(?!).

Maraqlıdır ki, Yerevanın girəcəyində də bu fikri əks etdirən iri bir lövhə asılıb. İşğalçılıq siyasəti və terrorla özgə torpaqlarında «dövlət» quran Ermənistan Kəşfiyyat Xidmətinə məxsus «Ararat» toplumu isə rus, türk və erməni dillərində yaydıqları materiallarda professor A.Yenqonyana istinadən qeyd edirlər ki, dünyanın bir neçə ölkəsində «İşgəncələr» adlı kitabların nəşr olunacağı qeyd olunur. Həmin kitabda Türkiyədə və Azərbaycanda verilən işgəncələr, ermənilərə edilən hücumlar öz əksini tapacaq. «Bu isə ən böyük erməni həqiqətlərindən biri olacaq» (A.Yenqonyan).

***Haşiyə.*** Bu bir böhtandır, həyasızlıqdır, əxlasızlıqdır! Görəsən bu sərsəmlər hansı ərazilərdən, hansı humanizmdən, hansı həqiqətlərdən dəm vurur?

1904-1920-ci illərdə minlərlə günahsız azərbaycanlını doğma ocaqlarından didərgin salmış, vəhşicəsinə qətlə yetirmiş, ulu soydaşlarımızın dədə-baba yurdlarını xarabazarlığa çevirməklə torpaqlarımıza sahib çıxmaq üçün tayqulaq Andronikin, ona bənzər erməni terrorçularının törətdikləri cinayətləri məgər unutmuşuqmu? Müxtəlif dövrlərdə erməni millərçilərinin Azərbaycan xalqına qarşı törətdikləri fitnə-fəsad, sui-qəsd, təxribat, soyqırımı və faciələri unutmuşuqmu?

Mövzudan bir az kənara çıxsaq da, yeri gəlmişkən bəzi tarixi dövrləri xatırlatmadan akademik L.Xurşidyanın tarixi həqiqətləri həyasızcasına təhrif etdiyi müsahibəsindən, digər boşboğazların uydurmalarından sükutla keçə bilmərik. 1828-1904-cü illər — erməni millətçiliyinin baş qaldırması – fitnə-fəsadları və məkrləri; 1905-1920-ci illər – erməni daşnaklarının "bolşevik" cildində quduzluq dövrü – xalqımıza qarşı törədilən soyqırımları; 1921-1947-ci illər – erməni daşnaklarının "beynəlmiləlçi kommunist" pərdəsi arxasında xalqımızın intellektual potensialının məhvinə yönəltdikləri təxribatlar, sui-qəsdlər; 1948-1952-ci illər –erməni millətçiləri tərəfindən Ermənistanda yaşayan azərbaycanlıları dədə-baba torpaqlarından məcburi surətdə köçürmə aksiyaları-deportasiya; 1953-1957-ci illər – Beynəlxalq erməni terrorunun baş qaldırması, "millətçi-partokrat daşnaklar"ın Azərbaycan xalqına qarşı ideoloji təxribatları; 1988-1993-cü illər – bütün qurumlardan olan millətçi ermənilərin dünya "Erməni diasporu"nun rəhbərliyi ilə Beynəlxalq erməni terror təşkilatının Azərbaycan xalqına qarşı törətdikləri soyqırımları; II-ci minilliyin sonu-III-cü minilliyin əvvəli – dünyanı çaşdırmaq, əsarətə almaq.

Erməni millətçiləri xalqımızın başına açdıqları bugünkü ağılagəlməz faciələri törətmək üçün anbaan, saatbasaat, günbəgün, ilbəil, əsrbəəsr elə donlara girmişlər ki, onların ölçü meyarı bəşər tarixində insanlıq aləminə, dünya elminə yaddır.

Tarixçilərimiz erməni akademiki L.Xurşidyana və onu dəstəkləyənlərə qədim, orta və müasir Azərbaycan tarixindən dərs keçmək üçün təşəbbüs göstərməli, tarixi həqiqətləri yeni metodikalarda ona və erməni milli ideologiyası ilə məşğul olanlara çatdırmalıdırlar ki, Tehran radiosu da tarixi həqiqətlər dərsindən xəbər tutub belə sərsəm müsahibələri efirdə səsləndirməsinlər. Bunun üçün kifayət qədər tarixi mənbələr, təkzibedilməz elmi sübutlar və zəruri imkanlar vardır.

Araşdırma materiallarına görə, Azərbaycanda Şamaxı torpaqları qədər yandırılan, külü göyə sovrulan, qana bələnmiş ikinci bir yaşayış məntəqəsi yoxdur. Bu, sadəcə lazımınca tədqiq olunmayıb, araşdırılmayıb, öyrənil-

məyib. Bu qırğın və qətliamlar bir dövlətin digər dövlətlərin yerli əhalisinə, tayfalara, etnik təmizləmə zamanı törətdikləri cinayətlərindən qat-qat ağırdır. Məsələn, 1918-ci ilin aprelin 2-dəki hadisələri gözlərilə görən ərəb taciri və səyyahı Ləl Üzeyir «Ənzəli Qovluğu»nda qorunub, saxlanılan məktubunda etiraf edir: «Burda insanları dilsiz-ağızsız və köməksiz gördüm. Şamaxı tənhalıqda yanırdı. Ermənilər az güllə atırdı-lar. Onlar qorxu və hay-küylə adamları bir yerə yığır və sonra onlardan ocaq qalayırdılar. Mən ilk dəfə idi ki, insanların, uşaq və qocaların, hamilə qadınların diri-diri yandırıldıqlarını görürdüm» (səh. 193.).

Fikrimizcə, o vaxt Şamaxıdakı etnik təmizləmələrə görə aparılan istin-taq-təhqiqat materialları da ehtiyatla, kimlərinsə təzyiqi və nəzarəti altında işlənilib. Elə bu səbəbdən də çox mətləblərə aydınlıq gətirilməyib. Necə ola bilər ki, 1918-ci ilin mart-aprel aylarında (cəmi 26 gün) baş verən erməni qırğınları haqqında məlumat səkkiz aydan sonra açıqlanır. Nə üçün? Əldə olunan sənədlər əsasında ancaq 1918-ci ilin noyabr ayının 22-də (?) Fövqəladə Təhqiqat Komissiyasının sədri Ə.Xasməmmədovun Azərbaycan Cümhuriyyəti Ədliyyə Nazirliyinə Şamaxı şəhəri və Şamaxı qəzasının viran qalmasını, erməni qəddarlıqlarını göstərən məruzəsi açıqlanır. Səthi və protokol dililə hazırlanmış hesabatda qaranlıq məqamlar çoxdur. Məlumata görə, 1918-ci ildə Şamaxıda 15 min əhali olub. Baş verən etnik təmizləmə-dən sonra Şamaxıda cəmi 1700 nəfər adam qalıb(?) Bəs hanı yerdə qalanlar?..

Araşdırmalarımıza görə, rəsmi dövlət sənədlərində və istintaq materiallarında Şamaxı ərazisində ermənilərin törətdikləri soyqırımdan, etnik təmizləmə və qədim dövlətçilik ənənələrinə qarşı yönəlmiş təcavüzlər-dən heç bir söhbət getmir və bu istiqamətdə heç bir tədqiqat da yoxdur. Ermənilərin dünyanın insan ticarətinə qoşulan «Edvard» və «Petros» qruplarının rəhbərlərinin o vaxt Şamaxıda, Bakıda, Gəncə və Naxçıvanda olması da maraq doğurmaya bilmir. Bilavasitə İngiltə-rədən, Fransadan gələn və uşaq alverilə məşğul olan bu qrup-lar haqqında hələlik məlumat verilmir. (Qarabağda, eləcə də Dərələyəz və Zəngəzurda da baş verənlər eyni ssenariləridir. Azərbaycan və azərbaycanlılar həmişə, deyək ki, yola sal-dığımız bütün yüzilliklərdə xarici kəşfiyyat mərkəzlərinin, böyük dövlətlərin hərbi-sənaye kompleksləri üçün əsl mənada canlı laboratoriya olub. Məsələn,

1918-ci ildə Şamaxıya tədqiqat üçün (?) Fransa, Almaniya və İtaliya alimlərinin, həkim ekspedisiyasının gəlməsi istiqamətində maraqlı məqamlar var. Məlumata görə, 1918-ci ilin fevralın 26-dan, martın 7-dək fransız hərbi həkim Jan-Pyer Bayrenin, alman hərbi həkim Lotar Ştoyberin (Reyn), italyan hərbi həkim Roberto və Anne Mastellaların Şamaxı qəzasını gəzmələri, səyyar laboratoriya çərçivəsində elmi-tədqiqat aparmaları haqqında o vaxt Rusiya kəşfiyyat idarəsinin «Qırmızı arxiv»ində materiallar olub. Məsələn, 1918-ci ildə Moskvadakı Mərkəzləşdirilmiş hərbi-sənaye kompleksinin bioloji və epidemioloji şöbəsinin həkimi, professor Daniil İvanoviç Şestakov «Məxfi İdarə»yə göndərdiyi məktubda yazırdı: «Qriqori Akuloviç Demonov cənablarına!.. Sizi məlumatlandırıram ki, gələcəkdə və bu gün də Rus İmperiyasının maraqlarında olan Qafqaz ərazilərində Böyük Britaniyanın, Fransanın, İtaliyanın, Almaniyanın və Amerikanın bilavasitə bioloji və epidemioloji kəşfiyyat işlərilə məşğul olan həkim qrupları tədqiqatlar aparırlar. Bizim Yelizavetpoldakı (Gəncə) məlumat mənbəyimiz bu haqda Sizin idarəyə geniş məlumat verib».

Qeyd edək ki, 1918-ci ildə adları çəkilən ölkələri «Virus-1» adlı epidemiya cənginə almışdı. Nəticədə 20 milyon adam bu epidemiyadan məhv olmuşdu. Hərbi həkimlər, kəşfiyyat qrupları bu epidemiyaya qarşı əldə etdikləri vaksinləri sınaqdan çıxarmaq üçün münaqişəli zonaları, müharibə meydanlarını, baş verən etnik qarşıdurma ərazilərini axtarırdılar. Rus polkovniki Semyon Makaroviç Leontyevin Yelizavetpoldan 1918-ci ildə Moskvaya ünvanladığı məktubda göstərir ki, Böyük Britaniya, Fransa və İtaliya həkimləri Azərbaycanı seçdilər. Almanlar Gürcüstanı və Dağıstanı üstün bildilər. Ermənistana heç kəs getmədi. (?) Məxfi İdarənin «Qırmızı arxiv»ində saxlanılan məktubda S.M.Leontyev yazır: «Onlar (həkimlər – ***V.S., R.V.***) su quyularının, un üyüdən dəyirmanların, əkin və biçin sahələrinin ətrafında tez-tez görünür, yoxsul və kasıb, ehtiyac içində yaşayan ailələrin evlərində tədqiqat aparırdılar».

Bütün əldə etdiyimiz bu fakt və yazışmalara Texas Universitetində (ABŞ) XX-əsrin epidemiyalarını araşdıran Doktor Məhəmməd Məcid yekun vurub. Dr.Məhəmməd Məcid 2003-cü ilin iyun ayının 10-da Pentaqona – Hərbi Kəşfiyyat İdarəsinə açıqlamasında qeyd edir ki, 1918-ci il «Virus-1» epidemiyasının kodu açıldı. Bu kod altında, xüsusən Azərbaycan ərazisində

ermənilərin apardıqları qırğınlar nəticəsində böyük insan tələfatı baş verib. Biz fikirlərimizi burda saxlayırıq. Qayıdırıq yenidən «Ənzəli qovluğu»na (İran) və «Qırmızı arxiv»ə (Rusiya).

Tehran Milli Arxivində qorunub saxlanılan «Ənzəli qovluğu»nun 209-cu səhifəsində 1918-ci ilin aprelin sonunda Şamaxıdan köç edən, əslən fars olan Əli Qayımpur qeyd edir ki, onun yaşadığı Şamaxı şəhərinin ətrafında və şəhər mərkəzində insanlar durduqları yerdəcə keçinirdilər Hər səhər evlərdən yığılan meyidləri ermənilər yandırırdılar. İnsanları bir yandan ermənilər qırırdı, bir yandan da xəstəlik. «Qırmızı arxiv»in sənədlərində isə o vaxt Şamaxının poçt-teleqrafına rəhbərlik edən erməni Ambarsumovun Yelizavetpol Xəfiyyə İdarəsinə göndərdiyi məktub var. Erməni etiraf edir ki, Şamaxıda əhali arasında baş verənləri yaxşı anlamır. **Ambarsumov «Milli Erməni Bürosu»nun liderlərindən olan Doktor Zarviqarova yazırdı: «Şamaxıda əhali artıq boşalır. Bir yandan birdən-birə yayılan xəstəliklər, o biri yandan da dəstəmiz müsəlmanların axırına çıxdı. Generalımız (Stepan Lalayan nəzərdə tutulur –** ***V.S.,R.V.*****) xaricdən gələn həkimləri Gürcüstana yola saldı. Hər şey hörmət və ehtiramla keçdi. Yüzdən artıq sağlam hesab etdiyimiz uşaq İrana göndərildi. Erməni ailələrini isə Göyçay-Şamaxı sərhəddində topladıq ki, xəstəliyə tutulmasınlar. Onlara əlavə dərmanlar paylanıldı».**

Araşdırma materiallarına görə, ermənilər Bağırlı, Əngəxaran, Pircan, Kürdtəpəsi, Yəhyalı, Məlhəm kəndləri də daxil olmaqla, Şamaxıda 16 yerdə quyu qazmışdılar. Dərinliyinə görə su quyusunu xatırladan bu quyulardan həmişə alov qalxırdı. Öldürülən yerli əhali onlara verilən ağır işgəncələrdən sonra bu quyulara atılaraq yandırılırdı. **«Karamanovun dəstəsi» evləri gəzir, hamilə qadınları öz həyətlərində saçlarından asırdılar. Doğulan oğlan uşaqlarına aman verilmirdi.** Qız uşaqlarını isə yığıb, satmaqla məşğul idilər. Səyyah və tacir Ləl Üzeyir yazır ki, bütün bunlar Şamaxıda adi hal almışdı. Biz təəssüf edirik. Təəssüf edirik ki, Ə.Xasməmmədovun tədqiqat materiallarında 1918-ci ildə Şamaxı hadisələrini izləyən Yelizavetpol Məxfi İdarəsinin İstintaq Qrupu-nun başçısı mayor Q.D.Demçenkonun materiallarından istifadə olunmayıb. Ermənilərin Şamaxıda törətdikləri qanlı cinayətlərlə bağlı kəşfiyyat mayorunun yeddi məktubu «Qırmızı arxiv»in (RF-sı, Baş Kəşfiyyat İdarəsinin Qafqaz

bölməsi) sənədləri arasındadır. **Q.Demçenko məktublarının birində yazır: «Baş verənlərin ruslara heç bir dəlaləti yox idi.(?) Ermənilər Cümə məscidinin qapılarını bağlayıb, məscidə od vurdular. Sonra din xadimi Hacı Cəfər Məmmədovu (şübhəsiz, mayor, Hacı Cəfərqulunu nəzərdə tutur – V.S., *R.N.*) məscidin qabağına sürüdülər. Onun sinəsi qırılmış, sir-sifəti qara qançır olmuşdu. Sonra onun sinəsində bənd olan saqqalına od vurub, yandırdılar. Erməni Mixail Arzumanov əlindəki süngü ilə onun gözlərini oyub çıxartdı. Rus keşişi Fyodor Ata bütün bu işlərə mane olmağa cəhd etdi. Lakin onun da sinəsindən vurub, yıxdılar. Sonra ermənilər Hacının qulaqlarını kəsdilər burnunu yerindən qoparıb, üstünə neft tökdülər, Cümə məscidinin qabağında Hacı Cəfəri yandırıb, getdilər. İki gündən sonra ermənilər rus keşişi Fyodor Atanı da dara çəkib, asdılar. Moskvanın etirazına baxmayaraq, hər şey ört-basdır edildi».**

Şamaxıda S.Lalayanın göstərişilə zərgər Meqriyanın və Qalstyanın mülklərində ermənilərin işgəncə otaqları düzəldilmişdi. Məlumata görə, Qalstyanın mülkündə daha amansız cəzalar verilirdi. Meqriyan və Qalstyan hər ikisi İrana qaçmışdılar.

*Əlavə olaraq Azərbaycan Respublikasının Dövlət Arxivinin 1918-ci il Mart sənədlərində oxuyuruq: «...yaxşı silahlanmış və hərbi təlim keçmiş ermənilər şəhərin müsəlmanların sıx yaşadığı məhəllələrində kütləvi qırğınlar törətdilər – ermənilər müsəlmanların evlərinə soxulur, bu evlərin sakinlərini öldürür, qılınc və xəncərlə onları kəsib-doğrayır, süngüdən keçirir, evlərə od vurub yandırır, uşaqları oda atır, üç-dörd günlük körpələri süngülərə keçirirdilər. Evdə qalan, demək olar bütün südəmər uşaqlar öldürülür, onların valideynlərinin dalınca qaçıb küçədə qətlə yetirirdilər. Şəhərin elə bir məhəlləsi yox idi ki, orada ermənilər müsəlmanları qırmasınlar, çox az sayda adam öz həyatını xilas edə bilmişdir. Ermənilər müsəlmanları öldürməklə yanaşı, onların əmlakını məhv edir, ən dəyərli şeyləri özləri ilə aparırdılar Təkcə bir quyudan  qulağı, burnu kəsilmiş, qarınları cırılmış 57 müsəlman meyiti tapılmışdı»*(Bax: eyni mənbə. ƏN-i, Ə.Xasməmmədovun məlumatı).

Başqa bir arxiv sənədində isə oxuyuruq: «Şamaxı cənubdan ermənilər, şimal-şərq tərəfdən molokanlarla mühasirə edilmişdi. Bu dəstələr Şamaxının

müsəlmanlar yaşayan aşağı hissəsini bombardman etmişdilər. Bu zaman şəhərin yuxarı hissəsində yaşayan ermənilər odlu silahlardan müsəlmanları atəşə tutmuşdular. **Şəhərə girməyə nail olmuş ermənilər müsəlmanları məhv etməyə başladılar Baş verən yanğın şəhərin bütün müsəlman hissəsinə yayılmışdı. Kişi, qadın, uşaq küçələrdə güllələbaran edilmişdi. Onlara olmazın əzab-əziyyət və işgəncələr verilmişdi. Küçələr zorlanmış, döşləri kəsilmiş, qarınları yarılmış, təhqirlərə məruz qalmış qadın cəsədlərilə dolu idi. Hətta süngülərlə torpağa sancılmış uşaq meyitlərinə də rast gəlmək olurdu».**

O vaxt dünyada baş verən qarşıdurmaları, millətlərarası qarpışmaları və nəhayət, müharibələri şərh edən «Star» (Kanada, Ontario əyaləti) qəzeti Azərbaycanda baş verənlərə aid ardıcıl olaraq iki məqalə çap etmişdi. 1918-ci il mayın 2-də dərc olunmuş yazılardan biri Şamaxıda baş verənləri az da olsa, əhatə edirdi. Məqalənin müəllifi isə 1889-cu ildə Şamaxıdan köçüb Kanadaya gedən, əslən Çuxuryurdlu olan Məlik-Qasımov Eyni Məşədi oğlu idi. O, həmin vaxt dünya mətbuatına istinadən yazırdı: «Bu nə fəlakət idi ki, Azərbaycanda oldu. Ermənilər yenə dirildilər. Onlar mənim doğulduğum Şamaxı şəhərində fitnə-fəsad törətdilər. Mənim anadan olduğum Çuxuryurd kəndi isə başdan-başa yandırıldı. Adamlar, qohum-əqrəbam öldürüldü».

*Azərbaycan Dövlət Arxivindəki qovluğun 14-cü vərəqəsində qeyd olunur: «Nəvahi kəndində ermənilər kəndə soxularaq əhalini vəhşicəsinə döymüş, qaçanları güllələmiş, əllərinə keçənləri süngüdən keçirmiş, xəncərlə tikə-tikə doğramış qadınları zorlamış, döşlərini kəsmiş və nəticədə140 uşağı məhv edərək, analarını yandırmışlar».*

Tarixi mənbələrdən gətirilmiş misallardan da göründüyü kimi, Şamaxıda və qəzanın müsəlman kəndlərində müsəlmanlara kütləvi şəkildə divan tutulması S.Şaumyanın həyasızcasına bildirdiyi kimi, Sovet hakimiyyətinin qurulması məqsədi deyil, millətçilik və dini qisasçılıq məqsədi daşıyırdı.

Şamaxı hadisələrinə dair Ədliyyə Nazirliyinin adına hazırladığı məruzəsində komissiyanın sədri Ə.Xasməmmədov yazırdı: «Stepan Lalayanın Samson Əmirov və Saatsazbekovla birlikdə erməni əsgərlərindən təşkil olunmuş böyük bir silahlı dəstə ilə Şamaxıya basqınından az sonra şəhərin bütün müsəlman hissəsi məhv edildi. *Lalayevin əmri ilə əsgərlər gənc müsəlman qızlarını tutur, onları Şamaxıdakı evlərinə aparır,*

*soyundurur, güclə içirir, zurnada çalınan musiqi altında rəqs etməyə məcbur edir, zorlayır, sonra isə bəzilərini yerindəcə öldürür, bəzilərini isə hündür eyvanlardan küçəyə atırdılar.»*

Müsəlman əhalisinə Şamaxıda ermənilər tərəfindən divan tutulması 1918-ci ilin sentyabrına qədər davam etmişdi. Yalnız türk qoşun hissələrinin köməyə gəlməsi erməniləri insanlığa zidd olan bu vəhşi əməllərdən əl çəkməyə məcbur etmişdi.

1918-ci ilin martın 24-də «Azərbaycan» qəzeti yazırdı: «S.Lalayevin Şamaxı müsəlmanlarına tutduğu divan bizim bu müharibə dövründə üzləşdiyimiz bütün dəhşətləri geridə qoyur.» Ermənilərin vəhşilikləri o qədər dəhşətli idi ki, bunları xalqdan saxlamaq mümkün deyildi. Şamaxı dəhşətləri bütün ölkədə əks-səda vermişdi. Bolşeviklər də öz mətbu orqanlarında Şamaxı faciəsinə dair hesabat dərc etməyə məcbur olmuşdular. Lakin burada Lalayevin törətdiyi vəhşiliyə yalnız bir ifadə ilə toxunulurdu: «...dinc əhaliyə münasibətdə ədalətsizliyə yol verilmişdir». İçtimai rəyi sakitləşdirmək məqsədi ilə bolşeviklər Kojemyakonun başçılığı altında Fövqəladə hərbi-istintaq komissiyası yaratmışdılar. Komissiyanın fəaliyyəti nəticəsində S.Lalayevə qarşı dinc əhalinin məhv edilməsi və şəhərin yandırılması ittihamı irəli sürülmüşdü. Bu cinayətkarı həbs etmək lazım gəlirdi. Kojemyako S.Lalayevi komissiyaya dəvət edib, onun həbs edildiyini bildirəndə Lalayev ona əhəmiyyət vermədən Şaumyana zəng vurmuşdu. Şaumyan isə Kojemyakonu aparata çağıraraq bunları bildirmişdi: «Bu nə şıltaqlıqdır, Lalayevi həbs etmək düzgün deyil». Beləliklə, «demokratiyanın ideya rəhbəri» bütün bu qətl və soyqırımın əsas günahkarı olan cinayətkarı himayə etmiş, Lalayev isə heç nə olmayıbmış kimi Daşnaksütyun bürosu tərəfindən ona ayrılmış cangüdənlərinin əhatəsində Velikoknyajesk küçəsi ilə sərbəst gəzməyə başlamışdı. 3-4 gündən sonra isə qəzetlərdə Fövqəladə hərbi-istintaq komissiyasının buraxılması haqqında xəbər dərc olunmuşdu.

Şamaxıda bütün beynəlxalq konvensiyalar pozulmuşdu. Şübhəsiz, Azərbaycan Ədliyyə Nazirliyinin arxivlərində bu istiqamətdə heç bir araşdırma materialı olmayıb. Şamaxıda baş verən qırğınlarda ermənilər öz mənəviyyatlarını, əxlaqsızlıqlarını və ləyaqətsizliklərini bir daha ortaya qoydular. Amma biz, düşünməyə bilmirik. Necə ola bilər?.. Belə çıxır ki, azərbaycanlılar hərəkətsiz, gücsüz və ən başlıcası müqavimət

göstərmədən dayanaraq təcavüzkarlara «buyurun, gəlin» deyiblər. Bu belə ola bilməz! Qəribədir... Anlamırıq. Bütün bunların araşdırılması, siyasi, hüquqi qiymət verilməsi üçün parlament, hökumət, AMEA səviyyəsində, eləcə də müvafiq dövlət qurumları, dini, ictimai təşkilatlar, mütəxəssislər və mətbuat bu işə cəlb edilərək fəaliyyətə başlamalıdırlar.

Şamaxı bu ağır və qanlı qarpışmalarda bacardıqları qədər öz ləyaqətini, əxlaqi dəyərlərini ölüm bahasına da olsa, qoruya bildi. Məlumata görə, ölənlər sırasında 286 nəfər azərbaycanlı qadın və qız ən son anda intihara əl atıb. Erməni quldurları ilə üz-üzə gəlməmək üçün özlərini ölümə qurban verən bu qadınlar haqqında Şamaxıda o vaxt hadisələri qələmə alan Mirzə Əli Məşədi Hüseynxan oğlu «Ənzəli qovluğu»nda yazır: «Hər yerdə qadın və qızları, uşaqları kimsəsiz, gücsüz və tənha görürdüm. Onların bir qismi ermənilərlə üz-üzə gəlməmək üçün, könüllü ölümü üstün tuturdular Belə analar, bacılar bir daha dünyaya gələcəkmi?..”

Bəzən bütün bu düşüncələr insanı yorur və yaranmış çox suallar hələ də cavabsız qalır. Necə ola bilir ki, ermənilər 1915-ci il uydurma soyqırımı ilə bağlı beynəlxalq aləmi təmin edən saxta sənədlər toplaya bildi, biz isə 1918-ci il soyqırım haqqında olmuş həqiqətləri sübut edən heç bir sənəd ortaya qoya bilmədik, beynəlxalq məhkəmələrə yollarımız bağlandı?.. Səbəb?..

Beynəlxalq hüquq çərçivəsində, onun bəşəri prinsipləri kontekstində Şamaxı qırğınlarına nəzər salaq. Məsələn, İngiltərənin 1215-ci il «Böyük Azadlıqlar Xartiyası»nda, 1689-cu il «Hüquqlar haqqında Bill»də, 1776-cı ildə ABŞ-da qəbul olunmuş «İstiqlaliyyət Bəyannaməsi»ndə, 1791-ci il «Hüquqlar haqqında Bill»də, 1789-cu ildə Fransada elan edilmiş «İnsan və vətəndaş hüquqları haqqında Bəyannamə»də insan hüquqları və işgəncələr rəsmi ifadəsini tapmışdır. XIX əsrdən insan hüquqları dövlətlərin konstitusiyalarında təsbit edilməyə başlandı və indi demək olar ki, bütün dövlətlərin konstitusiyaları bu cür təminatlar nəzərdə tutmuşdur.

Heç kəs insanı təbii hüquqlarından – yaşamaq, şəxsi toxunulmazlıq, özünün həyat fəaliyyətini azad seçmək, vicdan, fikir, əqidə azadlığı və sair hüququndan məhrum edə bilməz. Müasir həyatı azadlıq, bərabərlik, ədalət prinsiplərinə əsaslanan və universal xarakter daşıyan insan hüquqları

olmadan təsəvvür etmək mümkün deyildir. İnsan hüquqları təkcə dövləti, hüququ, qanunu, qanunçuluğu, hüquq qaydasını deyil, həm də vətəndaş cəmiyyətinin qiymətləndirilməsi kriteriyası kimi qəbul edilir. Çünki hüquqi dövlətin inkişafı, yetkinliyi xeyli dərəcədə insan hüquqlarının vəziyyəti, bu hüquqların həcmi və həyata keçirilməsindən asılıdır.

Ona görə də, insan hüquqları fərdə təkcə dövlətin idarə olunmasında iştirak etmək imkanı vermir, həm də dövlətdən aralanmaq, şəxsi həyat sahəsində özünütəyinetmə, əqidəsini, mülkiyyətə münasibətini müəyyənləşdirmək imkanı verir.

İnsan hüquqlarının təşəkkülü və inkişafı sivilizasiya növünü və onun mərhələsini aşkarlamağa imkan verir. Çünki insan və dövlət münasibətləri bu və ya diğər sivilizasiyanın təbiətini, dövlətin hüquqi və ya qeyri-hüquqi olmasını xarakterizə edən mühüm əlamətdir.

Hazırda insan haqları sahəsində dünyada qiymətləndirmə amili kimi dəyərləndirilən əsas prinsiplər formalaşmışdır. Bu prinsiplər tarixən yaranıb inkişaf etmiş, zənginləşmiş və təkmilləşmişdir. Bu gün həmin prinsiplər bəşər mədəniyyətinin ayrılmaz tərkib hissəsini təşkil edir. Azərbaycan Respublikasının Konstitusiyasında da bu öz əksini tapmışdır. İnsan hüquqları müasir dünyada ümumbəşəri mədəniyyətin mühüm tərkib hissəsidir. Yalnız insan hüququ mədəniyyətinə nail olmaq şəxsiyyətə mövcud siyasi rejimləri qiymətləndirmək, cəmiyyətdə öz yerini müəyyənləşdirmək imkanı verir. Maraqlıdır ki, elə Ermənistan Respublikasının Konstitusiyasında da eyni sözlər var.

Araşdırma materiallarına görə, Beynəlxalq Cinayət Məhkəməsi dünyada baş verən genosid müharibələrində, etnik təmizləmələrdə həqiqəti üzə çıxaran ən ciddi qurumlardan biridir. Bu qurum 1998-ci ilin iyun ayının 15 – 17-də Romada keçirilən BMT himayəsi altında səlahiyyətli nümayəndələrin diplomatik konfransında qərar tutdu. Bu Məhkəmə «keçən yüzilliklərdə milyonlarla uşaq, qadın və kişinin bəşəriyyətin vicdanını dərindən sarsıdan düşünülməmiş cinayətlərin qurbanlarına çevrilməsini yada salaraq.., beynəlxalq cəmiyyəti narahat edən ən ciddi cinayətlərin cəzasız qalmasını nəzərə alaraq və ağır cinayətlərin qarşısını almağa nail olmaq qətiyyətindən çıxış edərək.., beynəlxalq cinayətlər törətməyə görə məsuliyyət daşıyan

şəxslər üzərində öz cinayət yurisdiksiyasını tədbiq etməyin hər bir dövlətin vəzifəsi olmasını xatırladaraq» yaradıldı.

Beynəlxalq Cinayət Məhkəməsinin cinayətlərə yurisdiksiyasına aşağıdakı cinayətlər daxildir. (yəni, baxmaq və yaxud araşdırmaq hüququna – ***V.S.,R..V.***) a) genosid cinayəti, b) bəşəriyyət əleyhinə cinayətlər, c) hərbi cinayətlər, d) təcavüz cinayətləri.

Bu kontekstdən Şamaxıda baş verən «genosid cinayəti»nə nəzər salaq. Statutun məqsədlərinə görə, «genosid» qəsdən hər hansı milli, etnik, irqi və ya dini qrupu bütövlükdə və ya qismən məhv etməyə yönəlmiş aşağıdakı hərəkətlərdən birini ifadə edir: 1.Bu qrupun üzvlərinin öldürülməsi.

Araşdırma materiallarına görə, «Şamaxıda 1918-ci il martın 21-də «Cümə məscidi»ndə fəaliyyət göstərən «Quran məktəbi» adlanan müsəlman dini qrupun 28 nəfər üzvünə divan tutuldu. Dini qrupun lideri Kərbəlayi Mustafa Hacı oğlu-nun iki qıçını kəsdilər. S.Lalayanın əsas qüvvələrindən sayılan Saatsazbekovun göstərişi ilə Kərbəlayi Mustafanın dilini ağzından çıxarıb, doğradılar».

Başqa bir araşdırma materialına görə, «Cümə məscidi»ndəki bu dini qrupun üzvlərindən 7 nəfəri ömürlük şikəst edildi. Fikrimizcə, 1918-ci ilin martın 20-dən Şirvan zonasına Novruz bayramını lentə almaq üçün Londonda nəşr edilən «Observer» («The Obcerver») qəzetinin müxbiri Roy Bayridin çəkdiyi fotoşəkillərə baxmaq kifayət edər. Fotoşəkillərə gəlincə, həmin sənədlər hələ də RF-in MN-dəki «Xüsusi qovluq»larda saxlanılmaqdadır. R.Bayrid yazırdı ki, bu şəkillərə görə, o, bir müddət Londondakı erməni iş adamı Q.Qarabekyanın təzyiqlərinə məruz qalmışdı.

Dini qrupun üzvləri olan dindarların uşaqlarının zorla ailələrindən alınması və satılmaq üçün erməni tacirlərin Şərq bazarlarına sürükləmələri maraq doğurmaya bilmir.

Beynəlxalq Cinayət Məhkəməsinin «Bəşəriyyətin əleyhinə cinayət» sənədlər toplusunun bir yerində isə (maddə 7.) qeyd edilir ki, əgər bu cür cinayətlər şüurlu şəkildə baş verirsə, hər hansı mülki şəxslərə qarşı geniş miqyas alırsa, onda bu sadaladığımız hərəkətlərdən birini təşkil edir: a) qətləyetirmə, b) qətliam, c) köləyə çevirmə, d) deportasiya, yaxud əhalinin məcburi köçürülməsi, e) həbsxanaya salma, yaxud beynəlxalq hüququn müddəalarına zidd olaraq, fiziki azadlıqlardan məhrum etmə, f)işgəncələr, g)

mülki əhaliyə qarşı edilmiş hücum, h) qəsdən adam öldürmə, i) bioloji eksperimentlər də daxil olmaqla, işgəncələr, qeyri-insani davranışlar, j) qəsdən güclü istiraba, yaxud ciddi bədən xəsarətlərinə səbəb olma, və ya sağlamlığa ziyan vurma, k) 12 avqust 1949-cu il Cenevrə Konvensiyalarının ciddi şəkildə pozulması, l) qəsdən hərbi məqsədlər daşımayan dini, təhsil, incəsənət, elm və ya xeyriyyəçilik məqsədləri üçün təyin olunmuş binalara, tarixi abidələrə, xəstəxanalara və ya xəstələrin və yaralıların cəmləşdikləri yerlərə zərbələrin endirilməsi, m) zorlama, insan ləyaqətinin alçaldılması.

Biz araşdırma materiallarında ermənilərin Şamaxıda bütün bu aspektlərdə törətdikləri cinayətlərin şahidiyik. Məsələn, 1918-ci il martın 27-nə keçən gecə Q.Simonyan (o, Livandakı erməni terror qruplaşmalarından sayılan «Məslək»çilərin cərgəsindən qovulmuşdu – V.S.,*R..V.*) «Milli Erməni Birliyi»nin liderlərindən olan yepiskop Mesropa ünvanladığı məktubda qeyd edirdi: «Dediyinizi etdik. Məsləhətinizə qulaq asdıq. Biz Şamaxıda insanları, daha dəqiq, eynilə siz deyən kimi əsl şamaxılıları kökündən qoparıb, atırıq».

S.Lalayanın dəstəsində insanların diri-diri yandırılmasında bilavasitə iştirak edən «Uçitel Qriqoryan» (təəssüf ki, bu şəxsin adı istintaq materiallarından hansı səbəbə görəsə, çıxarılıb – V.S.,*R..V.*) «Büro»ya ünvanladığı məktubda etiraf edir: «Cənablar! Mən daha Şamaxıda qala bilmirəm. Mən bu adamların (Şamaxılıların–V.S.,*R..V.*) ləyaqətləri, kəskin iti bıçaq kimi qəlbimi dağıdan vicdanları, abır və həyaları qarşısında dizlərimi yerə qoydum. Mənə verdiyiniz silahı sizə qaytarıram». Məlumata görə, «Uçitel Qriqoryan»ın məktubundan sonra onun meyitini tapırlar.

Araşdırma materiallarına görə, Şamaxıda ən ağır işgəncələr uşaqlara verilib. Məsələn, erməni siyasətçisi, ümumiyyətlə türklər tərəfindən öldürülən ermənilərin siyahısını, daha dəqiq desək, «ensiklopediya»sını tərtib edən **politoloq A.Aloyan yazır ki, «Milli erməni bürosu»nun əsas tapşırıqlarından biri Şamaxıda 10 yaşına qədər uşaqların birdəfəlik məhv edilməsi** idi. Bunun üçün «Büro»nun Şamaxıdakı fəaliyyətilə bağlı erməni milli qəhrəmanı Stepan Lalayan üçün xüsusi «İş planı» olub. Yelizavetpol Məxfi İdarəsində (Xüsusi İdarə) və Tiflisdəki bütün Qafqaz regionlarını əhatə edən «Siyasi Mərkəz»də toplanmış fakt və sənədlərdə bu istiqamətdə arayışlar, teleqramlar var. O vaxt bilavasitə Rusiya İmperiyasının ən gizli kəşfiyyat mərkəzi hesab edilən «Siyasi Mərkəz» haqqında,

onun fəaliyyət dairəsi haqqında az məlumatımız var. Bu mərkəz Romanovlar sülaləsinin süqutundan sonra da öz fəaliyyətini «Böyük Rusiya üçün» davam etdirir. «Siyasi Mərkəz» Rusiyanın Qafqazda həm gözü, həm qulağı, həm düşünən beyni və vuran əlidir.

Kəşfiyyat generalı, uzun müddət bu idarədə millətlərarası münaqişələri araşdıran və təhlil edən qrupun başçısı Lev Adayeviç Qerasimov yazır ki, bu «Siyasi Mərkəz» Rusiyanın Qafqazdakı «Qızıl Açarı»dır. L.A.Qerasimov daha sonra yazır: «Biz istədiyimiz vaxt topladığımız materiallarla (lazım olan vaxt) erməniləri, gürcüləri, çeçenləri, ləzgiləri diz çökdürə bilərik».

1918-ci il martın 23-də Şamaxıdan Ambarsumovun «Büro»ya – Doktor Zarviqarova ünvanladığı teleqramda qeyd edilir: «Bu gün axşama yaxın Saatsazbekovun adamları S.Lalayana məlumat verdilər ki, onlar şəhərin mərkəzində küçəyə çıxan iki oğlan uşağını öldürdülər. Hər iki uşağın boğazına qaynadılmış isti yağ tökdülər.

Araşdırmalara görə, baş verən bu qətlin səhəri yepiskop Mesrop Tiflisdən Şamaxıya gəlir. O, S.Lalayanın əlləri qana bələnmiş qatil və cinayətkar dəstəsi qarşısında kiçik bir nitq edir. Bu zaman onu müşaiyət edən fransız yazarı Jan-Jak Roland yepiskop Mesropun ermənilər qarşısında çıxış edərkən fotoşəklini çəkir. Həmin vaxt fransız yazarı Lionda çap olunan «Le Proqres» («Proqre») qəzetində çalışırdı.

**Şamaxıda yepiskop Mesrop üçün kef məclisi düzəldilir. Onun şərəfinə açılan süfrəni təsvir edən, əslən Təbriz kürdlərindən olan Sərdar Baray adlı bir səyyah yazırdı: «Şamaxıda hər şey darmadağın edilmiş, altı üstünə çevrilmişdi. Mən yepiskop Mesropla Poti limanında tanış oldum Onu çox ciddi şəkildə əhatəyə almışdılar. Hər ikimiz Türkiyədən qayıdırdıq. Şamaxıya gəldik. Küçələrdə, ensiz dalanlarda, həyət-bacalarda meyitlərin sayı bilinmirdi. Əsl müharibə idi. Nə qədər çalışdımsa, gözdən yayınıb buraları tərk edəm, yepiskop Mesropun adamları qoymadı. Gecəni qalmalı oldum. Səhərə qədər oyaq qaldım. Mən soruşanda ki, nə üçün bu qırğınlar olub? O, hiyləgər gözlərini qıyıb, dedi ki, bu məsələni nəinki yepiskop Mesrop, heç onun babası Suren də bilmir. Fransız da bir neçə foto çəkib, gözdən itdi. Onu daha görmədim. O biri otaqda isə, içi közlə dolu manqal var idi. Uzun, bir tərəfi əyilmiş maşanı da qızarmış közün içinə soxmuşdular. Gecədən**

**xeyli keçmiş süfrə açılmış otağa biri-birindən fərqli, üç gözəl balaca qız gətirdilər. Yaşları, ancaq 10-11 olardı. Boy-boya düzülmüş bu üç müsəlman balasının qışqırıq və harayları hələ də qulaqlarımdan getmir. Yepiskop Mesrop mənə şərab süzdü və tapşırdı ki, sən belə şeylərə baxma. Qızları soyundurub, otağın bir küncünə sıxdı. Mən özümü itirmişdim. Mən həyanın, abır və ismətin nə olduğunu, ləyaqətin nə olduğunu, şərəfin nə olduğunu bir daha bu üç balaca, Şamaxı qızlarının sifətində gördüm Yepiskop Mesropun göstərişilə manqalı otağa gətirdilər O vaxt qızlardan biri, artıq, keçinmişdi. Tələm-tələsik uşağın meyitini bayıra atdılar. Bütün bu işləri adına Sedrak, Moru, Manaşa, Mixay deyilən ermənilər görürdü. Sonra gördüm ki, yepiskop Mesrop manqalın içində qızarmış maşaya əl atdı. Divara qısılmış qızların əllərinə, ayaqlarına, alın və yanaqlarına dağ basıldı. Axırda o, əlindəki isti maşanı qızların çılpaq sinələrində gəzdirib, xaçladı. Səhərə qədər yepiskop Mesrop bu iki qızın cəsədi ilə oynadı. Mən o gündən ermənilərlə dostluğa son qoydum».**

Araşdırma materiallarına görə, kürd Sərdar Barayın adlarını qeyd etdiyi Sedrak – Sedrak Vlasov, Moru – Mari Petrosyan, Manaşa – Manaş Qurgenoviç Saakyan, Mixay –Mixay Aleksandranyan istintaq materiallarında əvvəl olub, sonra ingilis generalı Tomsonun xahişilə sənədlərdən çıxarılıb. Arxiv materiallarında təkcə Sedrak Vlasovun adı çəkilir.

Bütün bunlar bizim taleyimiz olaraq qalır. Rəsmi sənədlərə görə, işgəncələrdən azad olmaq hüququ beynəlxalq hüquq çərçivəsində həmişə tam dəqiqliyilə müəyyən edilmişdir. İnsan haqları üzrə Ümumi Deklarasiya, Vətəndaş və Siyasi hüquqlar üzrə Beynəlxalq Razılaşma, İşgəncə və digər Qəddar, Qeyri-İnsani və Alçaldıcı Rəftar üzrə Konvensiya birmənalı şəkildə işgəncələri qadağan edirlər. Eynilə, bir neçə regional sənəd işgəncədən azad olmaq hüququnu müəyyən edir. Amerika İnsan Haqları üzrə Konvensiyası, Afrika İnsan və Xalqların Hüquqları üzrə Xartiya və İnsan Haqlarının və Fundamental Azadlıqların qorunmasına dair Konvensiya işgəncələrin qadağan edilməsi barədə müddəaları özündə əks etdirir.

Araşdırma materiallarına görə, dünyanın heç bir beynəlxalq qurumlarında (BMT-də, AŞ-sı da daxil olmaqla) 1918-ci il Mart qırğınlarında ermənilərin Şamaxıda törətdikləri qanlı olaylarla, kütləvi qətliamlarla, soyqırımla bağlı

heç bir sənəd yoxdur. ***«İzvestiya» qəzetinin (RF) verdiyi məlumata görə, ölkənin arxivlərindən bilavasitə Qafqazda törədilmiş soyqırım hadisələrilə bağlı tarixi sənədləri əks etdirən 120 qovluq oğurlanıb. Onun böyük bir hissəsi «erməni. azərbaycanlı» münasibətlərini əhatə edirdi.***

Tarixi sənədlərin, yığılıb qalmış qovluqların imzalı, möhürlü vərəqləri arasında heç bir ədalət prinsiplərinə, ədalət axtarışına rast gəlmədik. Baş verən hadisələrdən ədalət tələb olunmalıydı. Azərbaycan xalqının başına gətirilən bu cinayətlərin, terror qurbanlarının başlarına gətirilmiş müsibətlərini, soyqırımların, kütləvi qırğınların səbəblərini araşdıran, onlara hüquqi qiymət verən olmadı. Ədalət istəyirik!-deyən tapılmadı. Nə üçün? Niyə susdular? Və ya niyə susduruldular? O vaxtdan illər keçdi. Leyla xanım Əliyevanın «Xocalıya Ədalət!» çağırışı həyata vəsiqə aldı. O, «sükut buzunu» əridib, dağıtdı. Bu həm də beynəlxalq aləmdə Azərbaycan xalqının özünün özünə verdiyi qiyməti, siyasi qələbəsi idi.

# RUS İMPERİYASININ BİRİNCİ DÖVLƏT DUMASINDAKI ŞAMAXI İZİ (1918-ci il Şamaxı qırğınlarında ermənilər tərəfindən qətlə yetirilən azərbaycanlı deputat Məhəmmədtağı Hacı Əbdülsəməd oğlu Əliyev haqqında məlum olmayan həqiqətlər)

Biz bu yerlərdəki qədim daş parçalarından hansı birindəsə neçə illər əvvəl laxtalanıb qalmış bir damcı qan üçün gəlmişdik. Tarixə çevrilmiş bu daşların sinəsində gizlənmiş həmin qan ləkəsini oxumaq istəyirdik. Çünki bu bizim üçün sözün əsl mənasında hələ də yazılmamış tarixi bir əsər idi. Böyük dərdi və acı həqiqətləri daşıyan, lakin vəsfinə qovuşmayan bir ƏSƏR. Belə olmasaydı tariximizi məhz bu qan damcısı ilə başlardıq...

1918-ci il Mart qırğınlarında Şamaxının altını üstünə çevirən erməni Stepan Lalayanın «Döyüş mirzələri»ndən olan Qavri Baxçaçiyan həmin vaxt yazırdı: «Lalayanın əsgərləri onu döyə-döyə meydanın ortasına sürüdülər. Sonra onu ağaca bağlayıb, başına saxsı bir vedrə keçirtdilər Qəhrəmanım Stepan günlüklü şapkasını başına qoyub, yaxın gəldi. Diqqətlə ağaca bağlanmış adama baxdı. "Hə, cənab deputat", dedi. "Erməni millətini söymək olmaz. Sən isə söyürdün. Gah Moskvada, gah Fransada, gah Almaniyada dişinin dibindən çıxanı ünvanımıza dedin. İndi buyur, danış. Bizim nəyimiz pisdir?.. Camaat, əsgərlərim səni gözləyir. De ki, mən də erməniyəm, sizlərdənəm. Allahıma, Quranına and olsun, mən deyənləri de, səni buraxım." Deputat isə bizim millətə lənət yağdırırdı. Güllə açıldı. Ətrafa qan damcıları çiləndi. O isə can vermirdi. Yaralı canını dişinə tutub, yaşamaq istəyirdi».

Baxın, biz bu yerlərə hardasa bir parça torpağa baş qoyan, daşların, ağacların sinəsində gizlənib qalan, yol gözləyən, quruyub qalmış, yüz ilin şaxtasına, qarına dözüb qalan bir damcı qan üçün gəlmişdik. Amma hələ də tapa bilmirdik. Axtarsan, bəlkə də bu qədim Azərbaycanın yurd yeri Şamaxı elə, o bir damcı qanın üstündə qurulub, binə olub.

Biz onun sorağında Şirvan elini başdan-başa gəzib dolandıq. Qədim qəbiristanlıqlarda bir böyrü üstə düşüb qalan, böyür-başını yosun tutan sinə daşlarınadək, nəzərdən düşən, çöküb-batan, ətrafını kol-kos bürüyən qəbr-lərə, uçulub dağılmış, gediş-gəlişi olmadığı üçün ot-ələf basmış cığırlardan

keçdik, dostdan-tanışdan soruşduq, aradıq, amma «bildim» deyən, «gördüm» deyən olmadı. Şamaxı torpağı, bütün Şirvan əhli sağlığında adı dillərdən düşməyən, ən yüksək kürsülərdən erməni separatizmini ifşa edən, erməni başbilənlərini ittiham edən, Azərbaycanın başına min bir «hiylə çələngi» hörən, onun camaatına divan tutan, kəndləri viran qoyan, uşaqları, qocaları ailələri, ən nəhayət nəsilləri qırıb çatan, yandıran erməni quldur və terror dəstələrinə, cinayətkar qruplarına qarşı amansız olan, Rusiya Dövlət Dumasına seçilmiş ilk azərbaycanlı deputatını, millət vəkilini tanımadı. Biz bütün bunları anlamadıq. Şirvan oylağı, Şamaxı əhli öz qəhrəman övladını tanımadı.

Kiçik arayış: Əliyev (zadə) Məhəmmədtağı Hacı Əbdülsəməd oğlu 1858-ci ilin yanvar ayının 10-da Şamaxıda, kənd müəllimi ailəsində anadan olub. İçtimai-siyasi xadim, iqtisadçı alim, publisist kimi fəaliyyət göstərib. Birinci Dövlət Dumasına (1906) Azərbaycandan seçilən ilk deputat kimi tanınıb. 1918-ci ilin martın 25-də Şamaxıda erməni quldur dəstələrinin başçısı Stepan Lalayan tərəfindən qəddarcasına öldürülüb, ailəsinə divan tutulub.

İlk təhsilini Şamaxı məhəllə məktəbində alıb, dörd ilə (1864-1868) həmin məktəbi bitirib. Sonra atası onu Tiflisə aparıb. Qafqaz Müsəlmanları Ruhani İdarəsinin nəzdindəki altı illik məktəbdə təhsilini davam etdirib (1868-1874). Tiflisdən qayıtdıqdan sonra, Bakı realnı məktəbində təhsil alıb (1874-1878). M.Əliyev ağıllı və düşüncəli olduğu üçün, hadisələrə fərdi və daha məqsədyönlü, planlı yanaşdığı üçün, o vaxt realnı məktəbdə dərs deyən, ixtisasca iqtisadi məsələləri araşdıran Boris Eynşteynin təşəbbüsü ilə, Moskvaya oxumağa göndərilir Amma Rusiya təhsilindən sonra, ona Moskvada qalmağı, Petrovsk-Razumovsk kənd təsərrüfatı və meşəçilik akademiyasında təhsilini davam etdirməyi məsləhət bilirlər. Bir neçə ildən sonra həmyerlimiz həmişə diqqətdə olan iqtisadiyyat fakültəsini bitirir. Akademiyanın o vaxtkı rəhbərlərindən olan professor Dmitri İvanoviç Aleksandrov onun haqqında Çar Rusiyasının «siyasi şöbəsinin» sorğusuna 1879-cu ildə verdiyi məlumatda yazırdı: «Sizin maraqlandığınız tələbəmiz, milliyyətcə türk olan Azərbaycandan gəlmiş Məmməd Əliyev Əbdülsəməd oğlu çox istedadlı, vicdanlı və ədalətli insandır. O, çalışqan bir tələbə olmaqla yanaşı, Akademiyanın işlərində bizə yaxından köməklik göstərir. Onun ciddi iqtisadi layihələri var və bu layihələr şübhə etmirəm ki, Rusiya

üçün çox əhəmiyyətlidir» (Bax: 1918-ci il. "Dövlət Dumasının materialları. Moskva. Tarix İnstitutunun arxivi).

Araşdırmalarımız zamanı məlum oldu ki, həmin iqtisadi layihələrin birində Məhəmmədtağı Əlizadə qeyd edirdi: «Mən sadəcə təhlillərimin nəticələrini anlatmaq fikrindəyəm. Yer üzündə nə qədər insan yaşayışı varsa, orada həmişə iqtisadi böhran ola bilər və heç bir dövlət bu böhrandan kənarda qala bilməz Təkliflərimdən biri belədir ki, çaylar və dənizlər, göllər arasında iqtisadi körpülər qurulsun. Məsələn, Xəzər dənizini Qara dənizlə, Aralıq dənizilə birləşdirmək mümkündür. Ümumiyyətlə, üç dənizi birləşdirmək mümkündür. Belə olarsa üç dəniz arxasında yaşayan Avropa, Asiya camaatı gələcək iqtisadi fəlakətlərdən azad olmuş olarlar».

İrəli sürülən təkliflər həm dövr üçün, həm ictimai-siyasi mühiti getdikcə mürəkkəbləşən Rusiya üçün çox vacib bir məsələ idi. Nəticədə o, 1880-ci ilin aprelin 14-də Çar Rusiyasının İqtisadi məsələlər üzrə məxfi idarəsinə (İqtisadi Kəşfiyyat İdarəsi) dəvət alır. Bu vaxt ona idarənin rəisi general O.D.Ponteleyevin təklifini çatdırırlar. Akademiyanı yenicə bitirən Məmməd Əliyev Çar Rusiyasının Avropa ölkələri üzrə iqtisadi əlaqələrinin kəşfiyyat və məxfilik prinsipləri nöqteyi-nəzərindən yenidən qurulması layihəsini təklif edir. Çünki həmin vaxt Dünyanın İqtisadi Siyasətində Rusiya qədər çətin vəziyyətdə qalan ikinci dövlət yox idi. İqtisadi böhran Rusiyanı sarsıdırdı. Hər il ölkədən, təqribən 50-100 ton dəyərində qızıl və digər qiymətli metal məmulatları, aşkarlanmamış brilyant daşları qeyri-qanuni aparılır, orduda və elmdə kəşf olunmuş və istehsalı nəzərdə tutulan qiymətli preparatların və silahların layihələri, sxemləri oğurlanırdı. Bütün bunlara qarşı Məmməd Əliyevin təklifləri həmişə öz bəhrəsini verirdi. 1881-ci ilin fevralında M.Əliyev ideyalarını, fikir və düşüncələrini, iqtisadi bilik və bacarığını təkmilləşdirmək üçün Avropaya göndərilir. Fransa və Almaniyada çalışır. Həmin ölkələrin İqtisadi Akademiyalarında dərs deyir, araşdırmalarını aparır, Rusiya-Fransa, Rusiya-Almaniya iqtisadi münasibətlərin inkişafında xidmət göstərir.

M.Əliyev bu vaxt çox qəribə tale yaşayırdı. Bir vaxt onun doğulub boya-başa çatdığı Şamaxının ziyarətinə Fransadan 1858-ci il noyabrın 11-də məşhur yazıçı, filosof Aleksandr Düma (ata) gəlmişdi. Bununla bağlı A.Düma yazırdı: «Biz Şamaxı bazarında gəzərkən fransız dilində danışan çoxlu adam gördük. Bu bizə çox xoş təsir bağışladı. Bildik ki, bu şəhər təkcə Şirvanda deyil, bütün Qafqazda məşhurdur». Və yaxud, 1636-cı ildə məşhur

almaniyalı səyyah, alim-tədqiqatçı Adam Olsari Şamaxı haqqında yazırdı: «Şamaxıda hər addımda müdrik və ağıllı adam görürdük. Adamlar, qədr qiymətini çox yaxşı bilirdilər. Şamaxının belə olması, məni heyrətləndirdi.»

M.Əliyev həmin dahilərin yurduna ezam olunmuşdu. Fransız, alman və rus dillərini mükəmməl bilən Şamaxılı Məhəmmədtağı Əliyev bu dəfə dahilərin – A.Dümanın və A.Olsarinin vətənlərini gəzirdi. İndi söz və təəssürat onunki idi. Həmin vaxt Parisdə nəşr olunan «İqtisadiyyat və Maliyyə Agentliyi» («Agence Economigue et financiere») bülleteni belə bir xəbər verirdi: «Fransanın şəhər və yaşayış məntəqələrini iqtisadi böhran bürüməkdədir. Parisdə dünyanın tanınmış iqtisadçılarından ibarət «Beynəlxalq İqtisad qrupu» yaranıb. Dünən Rusiyadan gəlmiş akademik-iqtisadçı M.Əliyevin fikirləri bəyənilib» (Bax: eyni adlı bülleten).

Araşdırma materiallarına görə, M.Əliyev üç ay Strasburqda (Fransa) vaxtilə Bakıdan köçüb gedən erməni zərgəri Stanislav Ter-Akopyanın evində yaşayır. «Strasburqa yardım komissiyası»na başçılıq edən qrupda Rusiya nümayəndəsi kimi çalışır. Lakin həmin ilin iyulun 13-də Rusiya «Məxfi İqtisadi məsələlər İdarəsi» erməni S.Ter-Akopyandan məktub alır. General Ponteleyevə ünvanlanan həmin məktubda erməni yazır: «Cənab General! Sizin əmrinizdən çıxa bilmədim. Göndərdiyiniz Əliyev burda Rusiyanın mənafelərindən çox, doğulduğu Şamaxının mənafelərinə xidmət edir. Rusiya İmperatorluğu onun xoşuna gəlmir. Rus millətinə qarşı fikirləri dumanlıdır».

Lakin araşdırmalar göstərir ki, həmin ildə azərbaycanlı akademik M.Əliyev Strasburqun «Seçilmiş adamları siyahısı»na daxil edilmişdi(Bu şübhəsiz, «Strasburqun fəxri vətəndaşı» kimi bir ad idi – V.S.,*R..V.*). Bütün bunlara baxmayaraq, Rusiya M.Əliyevi iqtisad qrupundan çıxarıb, onu Almaniyaya göndərir. Həmin vaxt M.Əliyevin fransız dilində «Fransanın əraziləri arasında iqtisadi əlaqələrə dair fikirlər» kitabı çap olunur. Paris İqtisadi Akademiyasında müzakirəsi nəzərdə tutulan həmin əsərlə bağlı yığıncaq təxirə salınır. Nəticədə M.Əliyev Fransa ilə vidalaşmalı olur. Sonra Almaniyanın İqtisad Akademiyasına məruzələr oxumaq üçün göndərilir. Yüksək intellekt səviyyəsi olan, bilik və bacarığına görə sayılıb-seçilən M.Əliyev yenidən Rusiyaya çağırılır və bu vaxt ona ölkənin Maliyyə nazirinin müavini vəzifəsi tapşırılır. O vaxt Rusiya İmperiyasının Maliyyə Naziri S.Rixten şamaxılı M.Əliyev haqqında həmişə yüksək fikirlər söyləsə də, onun yenilik yaradan iqtisadi analitik təhlillərini ya qəbul etmirdi, ya da bütün bunlara şübhə ilə yanaşırdı. 1888-ci ildə M.Əliyev istefa verərək,

Azərbaycana qayıdır. Bir müddət müsəlman dünyasının ziyarətinə çıxır. Avropanın ən güclü ölkələrini keçib gələn M.Əliyev İran, İraq, Türkiyə, Səudiyyə Ərəbistanı, Misir, Küveyt, Suriyə, Əfqanıstan, Pakistan, Hindistan kimi qədim yerləri gəzir. Həmin ərazilərdə bir sıra həm dəyərli, həm də diqqəti cəlb edən elmi-iqtisadi kitablar və məqalələr yazıb, çap etdirərək, yayılır. Bu vaxt dünya miqyaslı elmi araşdırmalar aparan akademik M.Əliyev iqtisadi məsələlərlə bağlı səkkiz kitabın müəllifi idi. Amma tale onu yenidən Rusiyaya çağırırdı. Dünyanın göz dikdiyi ən böyük kürsülərdə söz demək üçün bəxti onu yenidən Rusiyaya gətirdi.

M.H.Əliyev 1906-cı ildə Şamaxıdan Rusiyanın 1-ci Dövlət Dumasına deputat seçilir. O, Şamaxıdan Rusiya Dövlət Dumasına seçilən ilk azərbaycanlı deputat idi. Bu onun həyatında yeni bir ictimai-siyasi səhifə açmışdı. O, özünün yeni bir tarixini yazırdı. Amma bu tarixin son səhifələrindən xəbərsiz idi. Rus İmperiyasının başında dayanan Çar II Nikolay üçün Qafqaz, xüsusən Azərbaycan çox incə və həssas bir məsələ idi. Bu ərazilərdə tez-tez törədilən qırğınlar, süni və məqsədli şəkildə yaradılmış müharibə və qarşıdurmalar hamını çaşdırmışdı.

1905-ci il dekabrın 11-də Rusiyada Dövlət Dumasına seçkilər haqqında yeni qanun nəşr olundu. Seçki hüquqlarının genişləndiyini bəyan edən bu qanun fəhlələrə qismən, kəndlilərə cüzi seçki hüquqları verilməsini nəzərdə tuturdu.

Azərbaycan quberniyaları da Dövlət Dumasında təmsil olunmaq hüququ qazandı. 1906-cı il aprelin 27-də açılmış I Dövlət Duması fəaliyyətə başladı.

Dumada təmsil olunmuş ən müxalifətçi siyasi qurum Kadetlər partiyası idi. Onlar fəal seçkiqabağı təşviqat aparmaq və əhalinin əksər təbəqələrinin mənafeyini mövcud şəraitdə çox dolğun əks etdirən öz platformalarını geniş təbliğ etmək hesabına seçkilərdə qalib gəlmişdilər. Onlar «Rusiyanın birliyinə və bölünməzliyi»nə yalnız tərəfdar olduqlarını söyləmir, həm də ona nail olmaq yollarını hər vasitə ilə asanlaşdırmağa çalışırdılar. Hökuməti buna güclə nail olmaqda təqsirləndirən kadetlər bildirirdilər ki, «süngülər və güllələrlə Rusiyanın birliyinə nail olmaq olmaz» və «hər bir tabe xalqın adət-ənənələri, dili və dininə» hörmət bəyan edilməlidir. Daha sonra bu xalq azadlığı partiyası seçiciləri inandırırdı ki, o, özünəməxsus milli həyat keçirən bütün yerlərdə geniş özünüidarənin, muxtar quruluşun, «ümumi, pulsuz, məcburi təhsilin» və s. tərəfdarıdır. Bütün bunlar müsəlman ucqarlarında, o

cümlədən də Azərbaycanda bütün yuxarı sosial təbəqə nümayəndələri üçün kifayət qədər cəlbedici idi.

Amma bunlarla yanaşı, Şamaxı səksəkə içində idi. Hər gün bir ailədən ən azı iki-üç adam erməni gülləsinə tuş gəlirdi.

Rusiya Dövlət Dumasına seçilən Məhəmmədtağı Əliyev deputat səlahiyyətindən istifadə edərək, Duma kürsüsündən ilk müraciətini edir. O, Duma kürsüsündən ermənilərə silahı yerə qoymağı, insanlığa və vicdana yaraşmayan ləyaqətsiz işlərdən əl çəkməyi, Azərbaycan torpaqlarında onlara yaradılmış əvəzsiz şəraitdən istifadə edərək sülh və əmin-amanlıq içində yaşamağa çağırırdı. Ermənilər isə öz anti-Azərbaycan tədbirlərini genişləndirməkdə davam edirdilər. Erməni deputatı S.M.Davidyan 1906-cı ilin martın 4-də Azərbaycanlı deputat M.Əliyevə xəbərdarlıq məktubu göndərir, onu çıxışlarından əl çəkməyə çağırır. Dumanın sədrindən istəyir ki, Yelizavetpol (Gəncə) quberniyasının «siyasi idarəsi»nin əməkdaşı Madlen Qriqoryeviçi dinləsinlər. Həqiqəti ancaq o, deyə bilər. Onun bu sahədə xüsusi arayışı var.

Madlen Qriqoryeviçə gəlincə, onun bir tərəfi Çar Rusiyasında, sərhəd qoşunları komandanlığında çalışan general O.D.Ambartsumova gedib çıxırdı. Daha dəqiq, onun qardaşı qızı ilə ailə qurmuşdu. Maraqlı idi ki, Dumanın sədri Paşkov Madlen Qriqoryeviçə arayışı oxumağa imkan yaradır. Dumada oxunan arayışdan sonra, mayın 5-dən 6-na keçən gecə Şamaxıda iki ruhani ailəsinə sui-qəsd edilir. Həmin ailələrdən biri Kərbəlayi Əhmədağa Əli oğlu məhz deputat Məhəmmədtağı Əliyevin əmisi idi.

Araşdırma materiallarına görə, M.Əliyev Qafqazda gedən əsl həqiqətləri II Nikolaya dostu, İqtisadi Kəşfiyyat İdarəsinin başçısı olmuş, sonradan İmperatorun dəftərxanasında səlahiyyət sahibi olan Oleq Ponteleyevin yardımı ilə çatdırmağa müvəffəq olur. Ondan cəmi iki gün sonra Dumanın sədri Paşkov öz səlahiyyətlərindən uzaqlaşdırılır və «hərəkətləri nəzarətə götürülür». Bütün məsələlərın içərisində ən dəyərli məlumat bu idi ki, general O.Ponteleyev keçmiş dostu M.Əliyevə «nəyin bahasına olursa, olsun onu – Dövlət Dumasının azərbaycanlı nümayəndəsini İmperator II Nikolayla görüşdürməyi söz vermişdi». Bu dövrü və zamanı üçün, milli maraqlar baxımından çox vacib və gərəkli bir məsələ idi. Lakin bu təşəbbüs baş tutmadı. 1906-cı ilin mayın 14-də general O.Ponteleyev öz iş otağında şərabdan zəhərlənib, öldürülür.

Birinci Dövlət Duması az yaşadı. Lakin Azərbaycan tərəfi verilən məhdud vaxtdan istifadə edərək, dünyanın aparıcı dövlətlərinin Moskvadakı diplomatik korpuslarına, beynəlxalq cəmiyyət və təşkilatlarına xatırlatdı ki, Azərbaycan Qafqazda ən güclü və nüfuzlu ərazidir. Onun müharibə ilə, qırğınlarla, terror və basqınlarla heç bir işi yoxdur. Birinci Dövlət Duması buraxıldıqdan sonra Məhəmmədtağı Əliyevin dostları məsləhət bilirlər ki, o, Moskvada qalsın, akademik kimi iqtisadi-elmi araşdırmalarını davam etdirsin. O, isə, qalmadı. Yenidən Şamaxıya qayıtdı.

Akademik M.Əliyev bilirdi ki, ermənilər günü-gündən öz qanlı nəticələrini verən fəaliyyətlərini genişləndirməkdə davam edirdilər. Əlavə olaraq, Şamaxıya 36 erməni ailəsi köçürülmüşdü. İlkin məlumata görə, bu ailələr İrandan gəlmiş ermənilər idi. Onu da bilirdi ki, bu köçürmələrin önündə və arxasında Rus İmperiyasında bu işlərə məsul olan İnsaf Sarıcanyan adlı birisi və onun qrupu dayanmışdı. Bakı bütün bu işlərin önündə aciz qalmışdı. Əksinə, gələn erməni ailələrinə ən yaxşı torpaq sahələri verilir, işlə, yemək və geyimlə təmin olunurdular.

Rusiyada 1917-ci ilin fevralında baş verən içtimai-siyasi hadisələr Azərbaycana həm iqtisadi, həm mənəvi-psixoloji, həm də ictimai-siyasi cəhətdən təsir etdi. Azərbaycanın demək olar ki, bütün yaşayış məntəqələrində həyat öz axarından çıxdı. Fevral inqilabı təkcə inqilab yox, o həm də adama kiçik müharibə meydanlarını xatırladırdı. Moskvalı dostları akademik M.Əliyevə xəbər göndərmişdilər ki, Moskvada Azərbaycan üçün böyük bir bəlanın planı hazırlanır. Məsləhət görürdülər ki, Moskvaya qayıtsın. Amma akademik öz doğulduğu, boya-başa çatdığı Şamaxıdan çıxmadı, o, baş verə biləcək böyük qanlı qırğınların ilk qığılcımlarını görürdü. Bu qırğınların ocağını alışdıran əllər isə görünmürdü. Dirijor, artıq, öz çubuğunu qaldırmışdı. Və bu gözəgörünməz dirijor çubuğu altında ermənilər açıq-aşgar hücuma keçirdilər. Onlar Şamaxının ayrı-ayrı məhəllələrində yığıncaqlar düzəldir, şəhərdəki ziyalı ailələrinə gözlənilməz hücumlar edirdilər. Martın 19-dan 20-nə keçən gecə isə Şamaxıda erməni Rum İsakoviç qonşusu dəmirçi Əlibala Quluzadənin iki qızını ov tüfəngilə vurub öldürdü. Artıq, hər şey göz qabağında idi. Bakı baş verən hadisələrə susurdu.

1917-ci il fevralın 13-də fransız iqtisadçı alimi Jak De Paskual adlı birisi M.Əliyev üçün Şamaxıya təşrif gətirir, onu Fransaya aparmaq məqsədilə rəsmi qaydada dəvətli olduğunu bildirir. Alim Jak De Paskuala gəlincə,

məlum olur ki, o, Məhəmmədtağı Əliyevin Parisdə nəşr olunmuş «Dünya iqtisadiyyatındakı böhran və onun səbəblərinin araşdırılması» kitabının redaktoru olub.

Doğma torpağından ayrılmaq istəməyən M.Əliyev Fransaya getmək üçün aldığı dəvətdən imtina edir. Şamaxıda qalmağı, Şamaxıda yaşamağı, Şamaxıda ölməyi hər şeydən üstün tutur. Gecələrin birində, daha doğrusu, 1918-ci il 10 yanvarda onun ad gününü təbrik etməyə gələn, el-obada Şeyx Şamaxı kimi tanınan din xadimi Şeyx Məcid Axundoğlundan xahiş edir ki, Şamaxıda «qanı coşan azərbaycanlı balalardan ibarət» bir döyüş dəstələri yaratsın (partizan dəstələri –V.S., *R.N.*) Başqa xilas yolu görünmədiyindən Şeyx bu təklifi qəbul edir.

Ad günündən heç bir ay ötməmiş, toplu-tüfəngli ermənilər Şamaxıya soxuldular. Bu qəfil hücum idi Hər yer od tutub, yanırdı. Kimisi qaçır, kimisi əldə-ayaqda qalan uşağını axtarır, kimisi evinə düşən alovu söndürməyə cəhd edir, kimisi də aldığı güllə yarasından can verirdi.

Şamaxı yanırdı. O, can üstündə idi. Erməni quldur dəstəsinə başçılıq edən Stepan Lalayanın əmrilə müsəlman ailələrinə divan tutulurdu. Yol-yolaq, dönüm-döngələr qana bələndi. Cani Stepan Lalayanın «qəhrəmanlıqlarını» gələcək erməni nəsilləri üçün qələmə alan (?) bədnam erməni mirzəsi Baxça-çiyan yazır: «Əvvəlcə Stepan əmr etdi ki, Duma deputatı Məmməd Əliyev diz çöksün. O, isə diz çökmədi. Stepanın işarəsilə birinci gülləni onun övladlarına vurdular. İki qızı öldürüldü. Böyük oğlu da güllələndi. Kiçik oğlu isə həmin vaxt tapılmadı. Lalayanın əsgərləri M.Əliyevi döyə-döyə meydanın ortasına sürüdülər. Sonra onu ağaca bağlayıb, başına saxsı bir vedrə keçirtdilər. Güllə açıldı. Ətrafa qan damcıları çiləndi».

O, yaşamaq istəyirdi. Hələ görüləsi çox işi vardı. Kim bilir, məşhur «Şamaxı şikəstəsi» bəlkə də akademik, Rusiya Dövlət Dumasına seçilən ilk azərbaycanlı deputat, şamaxılı Məhəmmədtağı Hacı Əbdülsəməd oğlu Əliyev faciəli surətdə, qəddarcasına öldürülən gün yaranıb. Ona açılan atəşi isə biz Azərbaycan beyinlərinə, təfəkkürünə vurulmuş güllə yarası kimi qiymətləndiririk.

Materiallardan məlum olur ki, Şamaxını qan içində boğmağa çalışan, günahsız və silahsız insanlara qarşı qırğınlar törədən, dövlət xadimlərini terror edən «DRO» terror təşkilatının Bakı bürosunun üzvü Stepan Lalayan ingilis generalı Tomsonun əmrilə 1918-ci ilin noyabrın 21-də həbs olunur, tələm-tələsik mühakimə olaraq, Gəncə həbsxanasına göndərilir. Arxiv

materiallarına görə, S.Lalayan noyabrın 23-də Gəncə həbsxanasında ürək çatışmamazlığından ölür.

Başqa bir arxiv materialında isə qeyd olunur ki, S.Lalayan noyabrın 27-də Gəncə həbsxanasından ingilis generalı Tomsonun məxfi planı əsasında qaçırılır, xaricə aparılır. Məlumatlara görə, S.Lalayan ingilis generalı Tomsona Şamaxıdan əldə etdiyi qızıl və başqa zinət əşyalarını, qədim Şamaxı xalçalarını «hədiyyə» edir. Bəzi mənbələrə görə, general Tomsonun Şamaxıdan əldə etdiyi xəzinənin bir hissəsi Böyük Britaniyanın Kral ailəsinə bağışlanıb. 1918-ci il Azərbaycanda baş verən bu qırğınları araşdıran keçmiş İttifaqın Baş Kəşfiyyat İdarəsinin polkovniki Yuri Vasilyeviç Popov xatırladır ki, İngilis Kraliçasının bu gün də istifadə etdiyi zinət əşyaları həmin xəzinədəndir.

Maraqlı məlumatlardan biri də budur ki, o vaxt Xorasanda vərəqə şəklində buraxılan «Ostan» qəzeti yazırdı: «Şamaxıda 1918-ci ildə ermənilər bizim tacirləri soyub taladılar, mallarını əllərindən alıb, özlərini də öldürdülər. Həmçinin, Misirdən, Rusiyadan, Əfqanıstandan, Hindistandan və digər ərəb ölkələrindən gələn karvanlara da hücumlar edilirdi.»

Qəzetdə Lalayanın ələ keçirdiyi qənimətlərdən də söhbət edilir. Qəzet yazır ki, ermənilər tərəfindən həmin vaxt Şamaxıya gələn ingilislərə, italyanlara, fransızlara 124 kq-dan artıq zərgərlik məmulatı, tonlarla qızıl külçələri, 2500 qədim xalça satıldı. İngilislər yer üzündə ancaq Şamaxıda bitən Hənəfə otunu çox baha qiymətə almaqda maraqlı idilər. Çünki bu otun qara bazarda bir qramı ağlagəlməz qiymətə satılırdı. Bu ot ancaq matəm mərasimlərində işlənirdi. Lalayan Şamaxıda vaxtilə onların qonşuluğunda yaşayan Mahmudovlar, Talıbovlar, Həsənovlar ailəsini nəsillikcə qırıb məhv etdi. 11 yəhudi ailəsini isə öz evlərində, azərbaycanlı uşaqlarla bir yerdə diri-diri yandırdılar.

## ERMƏNİLƏRİN ƏDALƏTSİZ YÜRÜŞÜ

Xankəndində «məskunlaşmış» 366-cı motoatıcı alaydan tərxis olunmuşların yerini xüsusi təlim keçmiş «Haydad»çılar tutdular. Alaydan ayrılmış, milliyyətcə erməni olan iki komandir də «ekspert» adı ilə gələn erməni dəstəsinə hücum obyekti kimi seçilmiş Xocalı haqqında operativ məlumatlar verirdi. Zabit Suren Ohanyan (o, həm Samvel idi, həm Sirdak idi, həm də Seyran), Vartan Çitçiyan (o, həm Valeri idi, həm də Varqaş) isə Xocalının şimal-qərb hissəsindəki Bodora yaşayış məntəqəsində ayrılmış təlim düşərgəsində gələn «qonaqlar»la ardı-arası kəsilməyən məşvərətlər keçirirdilər. Məşvərətlərin planları isə gah Yerevandan gəlirdi, gah da Moskvadan. 1992-ci ilin yanvar ayının 30-da isə «Mİ-8» hərbi vertolyotundan Xocalı-Şuşa istiqamətindəki yaşayış ərazilərinə üstündə «Böyük Ermənistan» xəritəsi cızılmış vərəqələr atıldı. Həmin vərəqələr də alayın «Səhra mətbəəsi»ndə çap edilmişdi.

Belə ki, 366-cı alayın zabiti Sergey Daniloviç Tuşovun ifadəsinə görə, (Bax: Respublika Prokurorluğu, MTN-yi, DİN-nin "İstintaq qanu"nun materialları. 2000-ci il). 366-cı alay Xocalı hadisələri ərəfəsində:

– 3 motoatıcı batalyondan,
– 1 artilleriya divizionundan,
– 1 polkun minomyot batareyasından,
– 1 zenit divizionundan,
– 1 tank rotasından,
– 1 kəşfiyyat rotasından,
– 1 mühəndis-sapyor rotasından,
– 1 təmir rotasından,
– 1 kimyəvi müdafiə rotasından,
– 1 maddi təchizat rotasından ibarət idi.

Alayda

– 62 ədəd piyadaların döyüş maşını – BMP-1 tipli,
– 30 ədəd BMP-2,
– 3 ədəd BRV (hərbi kəşfiyyat maşını),
– 3 ədəd BREM,
– 5 ədəd BMP-2K,
– 10 ədəd BRDM,
– 1 ədəd BTR,
– 10 ədəd T-72 tipli tank,

– 18 ədəd 122 mm qaubitsa,
– 9 ədəd 120 mm minomyot,
– 4 ədəd ZUS-23,
– 3 ədəd 82 mm minomyot,
– 18 ədəd MTLB olmuşdur.

MTN-in prokurorluğa verdiyi və cinayət işinə əlavə olunmuş məlumata əsasən, 366-cı alayın tərkibində:

– 3 motoatıcı batalyon,
– 1 artilleriya divizionu,
– 1 tank rotası,
– 1 HHM batareyası «Strela-10»,
– 1 kəşfiyyat rotası,
– 1 rabitə rotası,
– 1 komendant vzvodu (şəxsi heyəti 600 nəfərə yaxın).

Alayda:

– 10 ədəd tank T-72,
– 130 ədəd BMP,
– 12 ədəd BRDM,
– 4 ədəd BTR,
– 16 ədəd MTLB,
– 18 ədəd top D-30,
– 4 ədəd 120 mm minomyot,
– 28 ədəd 82 mm minomyot,
– 4 ədəd «Strela-10»,
– 3 ədəd ZSU-23,
– 100 ədəd müxtəlif modifikasiyalı qranotomyotlar,
– 800 ədəddən çox avtomat və pulemyotlar, zabitlər üçün pistoletlər;
– Radiostansiya R-142 yə malik idi.

***Azərbaycanın isə nömrəsiz, qeydsiz yaradılmış, Ali Baş Komandan tərəfindən xeyir-duası verilmiş «Xocalı batalyonu»nun cəmi:***

– Bir batalyon (şəxsi heyət cəmisi 237 nəfər);
– 96 ədəd AKM silahı (onun da 14-ünü dəyişmişdilər);
– 4 ədəd əl pulemyotu;
– 2 ədəd qranatomyot;
– 3 ədəd tapança («marka»sı bilinmirdi);
– 10 ədəd «TOZ-8» markalı tüfəng;
– Könüllü-silahlı birləşmələri var idi.

…1992-ci il yanvarın 31-də Bakıda Milli Təhlükəsizlik Şurasının iclası keçirildi. Bu iclasda, nə qədər qəribə də olsa, hərbi kəşfiyyatın, eləcə də əks-kəşfiyyatın materiallarına toxunulmamışdı. Əslində, heç yox idi də. Hərbi kəşfiyyat və əks-kəşfiyyat strukturları iflic vəziyyətində idi. Ali orqan saydığımız Milli Təhlükəsizlik Şurasında isə həmin vaxt elan edilirdi: «…Erməni yaraqlıları əməliyyatı Xocalı rayonunun Xramort, Fərrux və Naxçıvanik kəndlərində keçiriblər. Lakin Azərbaycanın özünümüdafiə qüvvələri həmləyə keçmiş, nəticədə erməni muzdluları (?) və terrorçu qrupları (?) həmin kəndlərdən sıxışdırılıb çıxarılmış, onların əsas istehkamları (?) məhv edilmişdir…».

Milli Təhlükəsizlik Şurası elə bil xalqla, qulağı səsdə olanlarla gizlənpaç oynayırdı.

Elə həmin gün Sarıkeşiş yaşayış məntəqəsindəki (Xocalının şimal hissəsi) «Alaverdi» kilsəsində «Vartan cəngavərləri»nin bir qrupu «Böyük Ermənistan» himnini oxuyub, and içirdilər. 1992-ci ilin yanvarın 29-da Xocalıya təşrif gətirən bu qrup Xocalının qərb hissəsini araşdırır, operativ-məxfi məlumatlar əsasında planlar tərtib edirdilər.

Əslində, həmin ilin yanvarın 29-da Xankəndindəki təşrif çağırılmamış qonaqlar Xocalı-Şuşa istiqamətində iş görmək üçün şimal, cənub, şərq və qərb istiqamətlərində operativ «Çevik» qruplara bölündülər.

366-cı alay komandirinin göstərişi ilə erməni qruplaşmalarına ruslara məxsus isti geyim paylanıldı. Onlar üçün rotalarda ayrıca məşq zonaları-meydançaları ayrıldı:

1. Xocalı-Şuşa istiqamətində hazırlanmış «Haydad» qrupu:Bu terror qrupuna Suren Paşayan adlı birisi başçılıq edirdi. Qrup «16+97» kodu ilə (yəni, 16 nəfər «Haydad» təşkilatından, 97 nəfər isə 366-cı alaydan) ayrı-ayrı dəstələr şəklində İrək, Mon, Vənli, Piçonıs, Dığ, Cecimli, Ardaşava yaşayış məntəqələrində qərar tutmuşdular. Bu dəstələr öz aralarında «Artsax», «Sunc», «Vano» – «pozıvnoyu» ilə – məxfi çağırışlarla güclü rabitə əlaqələri yarada bilirdilər. Digər tərəfdən, həmin ərazilərdəki kilsələr bir nömrəli qərargah elan olunmuşdu. Suren Paşayan 1953-cü ildə Ermənistanın Zəncirli kəndində anadan olub (Yerevanın cənub-şərq yaşayış məntəqəsi). O, iki yaşında ailəsi ilə Livana mühacir edib. Beyrutdakı «Ermənistan Mübarizə İttifaqı»na üzv olub. Həmin təşkilatın hərbi qanadında Livan «Hezbullah»çıları ilə təlim məşqləri keçib. 17 yaşında isə Fransaya (atası ilə) gedib. İki il erməni icmasının yaratdığı «Krunk» təşkilatının Fransa bölməsində çalışıb. Bir neçə ildən sonra «Haydad»ın

məktubu ilə («Haydad»çılar ona «Tanıtma məktubu» deyirlər – V.S., *R.V.*) – «Ağayan» imzası qoyulmuş məktubla təşkilatın Baş Qərargahına keçib.

Xatırladaq ki, bu həmin «Haydad» beynəlxalq erməni terror təşkilatı idi ki, Azərbaycanın görkəmli şəxsiyyətlərinə, tanınmış nəsillərə, ümumən türk dünyasına qarşı «Ölüm hökmü» çıxartmışdı. Və acınacaqlı olanı da bu idi ki, onlar Azərbaycanda keçirəcək terror aktlarında yerli məmurlardan, rütbə sahiblərindən, müxalifətdə olan qüvvələrdən sərbəst istifadə edə biləcək gücə və imkanlara malik olduqlarını etiraf edirdilər (?).

Suren Paşayan mükəmməl hərbi təhsil görmüş, türklərə qarşı terror aktlarında iştirak edən «Canavar» ləqəbi ilə tanınırdı. Bölünmüş dəstələrə Qurgen Amiryan, Tomris Asadyan, Şarl Balayan kimi qəddar və amansız terrorçular da daxil idilər.

***Bu dəstələrin qarşısında Rusiya MN-nin Baş Qərargahı, Səhiyyə Nazirliyi (?) də vəzifələr qoyurdular:***

**A:** a) Azərbaycan hərbi birləşmələrində türklərin – türk əsgərlərinin öyrənilməsi;

b) Ərazidə əfqan mücahidlərinə məxsus düşərgələrin, dəstələrin öyrənilməsi;

c) Xocalının hərbi-inzibati mərkəzlərinin ərazi dairəsinin öyrənilməsi.

**B:** a) Erməni ailələrindən olan uşaqların alınmasını, «təhlükəsizliyi»ni təmin etmək;

b) Azərbaycan hərbi könüllü birləşmələrin arasındakı ziddiyyətlərdən maksimum istifadə etmək;

c) «Böyük Ermənistan» hərəkat proqramının birinci fazasını təmin etmək;

ç) Xocalı-Şuşa istiqamətində hüquq-mühafizə orqanlarını iflic vəziyyətə salmaq.

«Haydad»çıları təmsil edən bu qrup Daşbulaq və Xanabat istiqamətlərində iki hərbi bloklara ayrıldılar. Daşbulaq hərbi erməni blokuna Qurgen Amiryan, Xanabat hərbi erməni blokuna isə Şarl Balayan başçılıq edirdilər (əlavə olaraq, 366-cı motoatıcı alayın rus əsgərlərindən ibarət «vzvod»ları). Xocalı-Şuşa istiqamətində, yaşayış məntəqələrində qanlı terror aktları da məhz belə birləşmələrin planları ilə həyata keçib.

2-ci qrup isə: Xocalı-Şuşa istiqamətindəki Şərq qrupu. «Vartan cəngavərlər»i qrupu (bu terror qrupunun Vaşinqton bölməsi 1998-ci ilin iyun ayının 4-də ABŞ Konqresinə məktubla müraciət etmişdi. Orada onlar konqresmenləri Azərbaycana tətbiq edilmiş 907-ci qərarın ləğv edilməməsinə çağırırdılar).

1992-ci ilin fevral ayının 3-də polkovnik Pyotr Maslennikov, konstruktor Mixail Poqosyan «Vartan cəngavərləri»nin Vyana bölməsindən gəlmiş Qabriel İşxanyanla Xankəndində hərbi qərargahda görüşürlər. Onlar müştərək planı müzakirə edirlər. Bu planın da mərkəzində Gülablı, Pircamal, Naxçıvanik, Abdal, Malıbəyli yaşayış məntəqələrinin strateji nöqtələri dururdu.

Əslində, Qabriel İşxanyanın da kökü Yenikənd yaşayış məntəqəsindən idi. «Usta Simon» kimi tanınan Murad Simonyanın ailəsində doğulmuşdu. Ümumiyyətlə, «Simonyan»lar tayfası 1987-ci ildə Yenikənddən mühacir adı ilə Brüsselə, oradan da Vyanaya getmişlər. Qabriel İşxanyanın (bu familiyanı Vyanada götürdülər) əmisi Fərhad Simonyan isə Kanada vətəndaşlığını qəbul edir. «Böyük Ermənistan» ideyası uğrunda meydana atılan bu adamın rəhbərlik etdiyi «Yaddaş» qrupu 1988-ci ilin aprel ayının əvvəllərində Ermənistandan qovulan azərbaycanlılara qanlı divan tutmuş və buna görə də «Mesrop» ordeninə layiq görülmüşdür (Fransa erməni icmasının təsis etdiyi qızıl orden). «Vartan cəngavərləri»nin qarşısında isə iki mühüm məqsəd dayanırdı.

**A:** a) Xocalıda əhali arasında 1988-ci il sindromundan istifadə etmək. «Xüsusi Proqram»ların tərtibi. Xocalı ətrafında qorxu xofunu yaratmaq;

b) Gözlənilməz hərbi hücumlardan əvvəl çevik terror aktları.

**B:** a) Yolların, keçid məntəqələrinin öyrənilməsi, Xocalıya giriş və çıxışı əhatə edən ərazilərdə dayaq dəstələrinin – əlaqəçi «vzvod»ların hazırlanması.

Qabriel İşxanyanın Şərq qrupu isə «14+64» kodu ilə hərəkət edirdi (yəni, 14 nəfər «Vartan cəngavərləri», 64 nəfər isə rus əsgər və zabiti).

1992-ci ilin fevral ayının 9-da Rusiya MN-dən BQ-dən general İlya Zarviqarovun adına telefonoqram gəlir. Saat 16 (yəni, dörddə) radələrində alınmış bu telefonoqramda Alayda xidmət edən əsgərlərə ayrı-ayrılıqda mükafat əvəzi (?) maaş verilməklə yanaşı, zabitlərin də Rusiyanın istənilən ərazisində yeni mənzillərlə təmin ediləcəyi xəbəri verilirdi.

Generalın aldığı telefonoqramda daha sonra göstərilirdi ki, Alayda «operativ» tədbirlərin keçirilməsi üçün Səhiyyə Nazirliyinin həkim briqadası göndərilir. Briqada alayın şəxsi heyəti arasında «Sibir yazvası»na və vərəm iltibahına qarşı vaksinlərin vurulmasını təmin edir. İki gün sonra alayın hərbi sursatına yeni texnika əlavə olunur. Hərbi «ekspert», polkovnik Nikolay Medvedyevin başçılığı ilə istehsalı nəzərdə tutulan – «T-80» tanklarında istifadə olunacaq mühərrik «dəstləri», mərmilər, AK üçün yeni millimetrli güllələr… Xankəndinə, oradan da Xocalıya gətirilərək, alayın

komandanlığına təqdim edildi. Bütün bunlar ayrılmış zonada sınaqdan çıxarılmalı idi. Sınaq zonası da, artıq, aydın idi; Xankəndindən 14 kilometr şimal-qərb istiqamətində yerləşən Xocalı şəhər ərazisi (Bax: Xankəndi. "Vartan" qəzeti.1994.III-9. E.Simonyanın: "Cəbhədən ...yarımçıq qaldı məktublar").

Maraqlı cəhət bu idi ki, həmin ərəfədə 366-cı alaydan Moskvaya – Baş Qərargaha ünvanlanmış telefonoqramda bildirilirdi ki, Xanabat, Pircamal ərazilərində vərəm xəstəliyi kütləvi bir həddə çatır. Həm də general İlya Zarviqarovun bu göndərişinin bir nüsxəsi Səhiyyə Nazirliyinə çatdırılmışdı. Bu da «Böyük Ermənistan» hərəkatının azərbaycanlılara qarşı aparılan planlı cinayətin tərkib hissəsi olaraq qalırdı.

Həmin anlar Bakıda isə əsl mənada «Bölünmə», «Parçalanma», «Birləşmə», «Yenidən parçalanma»… kodları ilə minlərlə insanın taleyi həll olunurdu (Bax: İstintaq materiallarının protokolları. Bakı. Respublika Hərbi Prokurorluğunun arxivi.2004-ci il). Amma bu talelərə düyün üstündən düyün vurulurdu. Bir düyün Prezident Aparatında vurulurdu, o biri düyün Nazirlər Sovetində (kabinetində), bir düyün Daxili İşlər Nazirliyində, o biri düyün də Müdafiə Nazirliyində… Hər şeyin kələfi itmişdi. Azərbaycan Xalq Cəbhəsi də hakimiyyət üçün vurnuxurdu…

Cəbhə bölgəsində isə həmin ərəfədə (Ağdam-Əsgəran istiqamətində, Xramort kəndi) kəşfiyyat aparmaq üçün ayrılmış 18 nəfər döyüşçü öldürülür. Uzundərənin (Ağdam rayonu) hərbi sursat anbarı viran edilir, «Qrad» qurğuları oğurlanıb lazımsız istiqamətlərə aparılır. Əlinə silah götürən özünü «qəhrəman» elan edir, vicdanla döyüş meydanlarına atılan özünümüdafiə könüllü silahlı birləşmələrə mane olur, onların planlarını pozur, Bakıda onlarla sıx əlaqəsi olanlar şayiələr yayırdılar… Görünür, hər şey planlı şəkildə davam edirdi (ehtimal olunurdu ki, «ordumuz»da silahlı birləşmələrimizdə erməni terrorçularına xidmət edən, rus kəşfiyyatı tərəfindən «verbovka» edilmiş adamların bəzilərinə «xidmətlərinə görə» xüsusi mükafatlar ayrılmış, bank hesabları açılmışdır, sığınacaqlar ayrılmışdı).

Belə olanda vahid komandanlıq ideyası ortaya atıldı. Ali Baş Komandana (A.Mütəllibova) «Vahid komandanlıq» proqramı təklif edildi. (?) Nəticədə 1992-ci ilin fevral ayının 10-da Respublika Prezidentinin 2 saylı əmri oxundu. Əmrə görə, Azərbaycan Respublikası Daxili İşlər nazirinin müavini, Qarabağ zonası üzrə Daxili İşlər idarəsinin rəisi Tahir Əliyevə Vahid Komandanlıq tapşırıldı… (?) Bu, prezidentin strateji səhvlərindən biri idi. Taktiki gedişlər isə tamam unudulmuşdu. Elə həmin

günün səhəri prezident 3 saylı əmri imzaladı. Və bu əmrə görə də Goranboy ərazisində müdafiənin təşkili Respublika Müdafiə nazirinin müavini Dadaş Rzayevə, Şuşa şəhərinin müdafiəsi isə Rəhim Qazıyevə həvalə edildi…

Onların planları da, ordu haqqında, döyüş haqqında düşüncələri də gümana, ehtimallara və yalanlara söykənirdi. Hər şey yalan üzərində qurulmuşdu. Düşmən mövqeləri, onun qurduğu planlar, hərbi texnikanın sayı, şəxsi heyət haqqında məlumat yox dərəcəsində idi. Hər şey sadəcə fərziyyələr üzərində qurulmuşdu. Bu üçlük rus klassiki Krılovun məşhur «Ördək, Balıq və Xərçəng» təmsilini xatırladırdı.

Erməni tərəf isə özlərinin həm Xankəndində, həm Yerevanda, həm də Xocalıda (məxfi) qərargahlarını yaratdılar. Nəinki Bakıda, hətta ayrı-ayrı «ordu» birləşmələrində baş verən hadisələr açıq-saçıqlığı ilə ermənilər arasında müzakirə edilirdi. Azərbaycan cəbhəsində, Bakıda – yuxarı eşelonda məxfilik prinsipi pozulmuşdu. Nəticədə 1992-ci ilin fevral ayının 12-də Malıbəyli, Yuxarı və Aşağı Quşçular ərazisi, həmin ayın 15-də isə Qaradağlı kəndi işğal olundu. Respublika MN-də Baş Qərargah bilərəkdən öz vəzifəsini iflic bir vəziyyətə saldı. Çünki, artıq, hər bir silahlı birləşmənin öz qərargahı var idi. Bütün bunlar azmış kimi, 1992-ci ilin fevralın 1-də Müdafiə nazirinin vəzifəsini icra edən RF MN Baş Kəşfiyyat idarəsinə sığınmış, İnterpol axtarışında olan agenti Şahin Musayev əmr verdi ki, Fəhmin Hacıyev adlı birisi (görünür, Azərbaycan MN-nin Baş Qərargahının dağıdılması, onun kəşfiyyat və əks-kəşfiyyatla məşğul olan xüsusi şöbələrinin viran edilməsi elə Rusiya MN-yi Baş Kəşfiyyat İdarəsinin ssenarisi əsasında qurulmuşdu) Baş Qərargahın səlahiyyətli nümayəndəsi olsun. Ona üstəlik polkovnik rütbəsi də verildi. Nəticədə qondarma polkovnik Fəhmin Hacıyev Ağdama yetər-yetməz Prezidentin səlahiyyətli nümayəndəsi, bütün silahlı qüvvələrin komandanı kimi özünü elan etdi.

1992-ci ilin fevral ayının 16-da isə Xankəndində – 366-cı alayın nəzdində «Gizli erməni cəbhəsi» deyilən bir rota yaradıldı. Bu rotanın da özəyini Livandakı, Amerikadakı, Kanadadakı, İrandakı, İsveçdəki, Türkiyədəki, İtaliyadakı, Hollandiyadakı… erməni icmalarını təmsil edən, başlarının üstündən «Böyük Ermənistan» xəritəsi asılmış silahlı erməni birləşmələri təşkil edirdi. Fevral ayının 17-də isə «Şuşanik» adlı qızlardan ibarət snayperçilər dəstəsi həmin cəbhəyə qoşuldu. Yüksək hərbi hazırlıq görmüş, atıcılıq göstəriciləri yüksək olan bu erməni qızları Livandan təşrif gətirmişdilər. Artıq, hərbi əməliyyatlar 366-cı motoatıcı alayın komandanlığına da bəlli idi. Az itki verməklə Xocalını, Xankəndini, Şuşanı… işğal

etmək, həmin ərazilərdə, «Böyük Ermənistan» strateji planın birinci fazasını tamamlamalı idi.

«Gizli erməni cəbhəsi»nə isə komandanlıq Xaçik Vartanyana tapşırıldı. 36 məşhur erməni firmasının başçıları (onların arasında silah istehsal edən erməni firmalarının rəhbərləri də var idi) kütləvi şəkildə yardım adı ilə «Gizli erməni cəbhəsi»nə 1991-ci ilin dekabrında 470 min dollar "yardım" etdilər.

Vaxtilə Kanadanın H.H.Q-də xidmət etmiş, istefaya çıxmış mayor Xaçik Vartanyan Xankəndi ətrafında məskunlaşan erməni cavanlarını «Böyük Ermənistan» proqramına cəlb etdi. Cəbhəyə üzv yazdırdı. Beləliklə, işsiz-gücsüz cavan ermənilər maddi yardımlarla təmin olundular. Hərbi qüvvələrimizin boşluğundan istifadə edən Xaçik Vartanyan Qacar, Veysəlli, Zərislu və Çanaxçı yaşayış məntəqələrində özünün dayaq dəstələrini yaratdı.

1992-ci ilin fevral ayının 18-də prezident A.Mütəllibovun 577 nömrəli fərmanı ilə Tahir Əliyevə üç müxtəlif hərbi vəzifə icra etməsinə baxmayaraq, Ağdam şəhərinin komendantlığı da tapşırılır. 1992-ci ilin fevral ayının 24-də isə elan olunmuş fərmana əsasən, Tahir Əliyev Respublikanın müdafiə naziri təyin olunur (bununla da Xocalının işğal möhürü basılır…).

Elə həmin günün axşamı kütləvi məlumat vasitələri belə bir xəbəri yayırlar: «…Şənbə günü Xocalı və Umudluda qızğın döyüşlər olub. Ermənilərin Xanabad, Naxçıvanik, Əsgərandakı strateji obyektləri darmadağın edilib…» Ondan bir gün sonra isə fevral ayının 25-də Yerevanda çıxan «Azq» qəzeti yazır: «…Biz dədə-baba torpaqlarımızı işğalçı türklərdən azad etdik. «Böyük Ermənistan» uğrunda birləşənlərə və ölənlərə eşq olsun…» (?).

«General» Rəhim Qazıyev isə ertəsi gün Xocalıdan erməniləri qovduğunu deyirdi (?). Şuşadan Bakıya zəng edən «general» dərk etmirdi ki, ermənilər, artıq, onun 10 addımlığında dayanıb… Hər şey beləcə yalanların qurbanı olurdu.

1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə (yanvar ayının 19-dan 20-nə keçən gecəni unutmayın – V.S.,*R.V.*) Xocalı yaşayış ərazisi işğal olundu. Beynəlxalq miqyaslı erməni icmalarının birgə hazırladıqları «Böyük Ermənistan» planının birinci fazası, hərəkatın birinci bəndi icra olundu. Rusiya, Ukrayna MN-nin hərbi sənaye komplekslərində möhtəşəm yer tutan «T-80» tankının mühərriki, tərkibində kimyəvi silahlara məxsus başlığı olan mərmiləri, avtomat Kalaşnikova məxsus yeni «Dairəvi»

güllələr, vərəm və «Sibir xorası» əleyhinə vaksinlər, «bronejiletlər»… sınaqdan çıxarıldı. Xocalı həm də sınaq poliqonu oldu. Atılan mərmilərdən sonra 6 yaşından 9 yaşınadək uşaqlar eləcə qan qusur, iflic olub ölürdülər. Zəhərlənmələrə onların ciyərləri tab gətirmir, partlayırdı. Yaşlılar arasında isə baş-sinir sistemi iflic olurdu, gözlər tutulur, qan damarları sıradan çıxırdı. Qadınlar ana südündən məhrum olur, kütləvi şəkildə zəhərlənib tələf olurdular. «Dairəvi» avtomat gülləleri hədəfə dəyən kimi, o hədəfdə qalmırdı, dövr edib yenidən çölə çıxırdı. Bu güllə heç kəsi sağ buraxmırdı.

«Haydad»ın Fransada çap etdirdikləri «Hesabat»ında isə yazırdılar (müəllifi: A.Akopyan. 1993-cü il. Paris): «Biz öz əqidə qardaşlarımızla çiyin-çiyinə «Böyük Ermənistan» uğrunda döyüşə atıldıq. Türklər vaxtilə bizləri qılıncdan keçirmişdi. Biz isə zəhərdən… güllələrdən…».

7 mindən artıq azərbaycanlı yaşayan Xocalı şəhəri talan edildi. Və heç vaxt unudulması mümkün olmayan hadisələrdən biri də budur ki, zəhərlənmələrdən sonra həlak olanların hamısı kütləvi şəkildə güllələnib. Bu 366-cı alayın komandiri İlya Zarviqarovun məxfi əmri idi.

Dörd yaşayış məntəqəsini (Xocalı, Qaladərəsi, Dərələyəz, Həsənabad kəndlərinin bütöv ərazisi) əhatə edən Xocalı şəhərinin 7 min silahsız əhalisi məhv edildi. Bu, beynəlxalq erməni terrorizminin ən böyük, qanlı nümunəsi olaraq qalır. Qərbin və Şərqin, Avropanın beynəlxalq məhkəmələri isə hələ də susurlar.

# «XOCALI»DAN ƏVVƏL «BƏYLİK BAĞI»NDA QƏTLİAM

Tarixdə, həmçinin, dünyanın siyasi lüğətində «Daşnakizm» ifadəsi və yaxud, anlayışı yoxdur. Amma fakt və sənədlərin tutuşdurulmasına, araşdırılmasına, törədilən qanlı cinayətlərin nəticələrinə görə, «Daşnakizm» anlayışı «Faşizm» anlayışının davamıdır. XXI əsr üçün «Daşnakizm» xəstəliyi sağalmaz bəla, daha doğrusu ölumcül xəstəliyin metastaz mərhələsi olduğundan bəşəriyyət, artıq, dərk edəcək ki, nəyin bahasına olursa olsun, onu islah etsin, yer üzündən silib təmizləsin. Yandırılan meyitlərin tüstüsünə, kəsilən başların, öldürülən körpələrin, boynu vurulan, qolları, ayaqları kəsilən, gözlərinə mil çəkilən insanların naləsinə, harayına proqressivləşən bu yayılma hadisəsi daha genişlənir və dərinləşir... Hesab edirik ki, tamamilə dolğun və əsaslı edilən tibbi müqayisənin nəticə etibarı ilə «Daşnakizm» ifadəsi yaddaşlarda qəddarlığın, amansızlığın nişanəsi olaraq qalacaq.

Xocavənd rayonunun Qaradağlı yaşayış məntəqəsində törədilmiş cinayətin nəticələri haqqında təəssüf ki, dünya susur. Bir müddət Qaradağlı ən mötəbər saydığımız kürsülərdən qovuldu. Onunla bağlı hamı susdu. Heç kəs danışmaq istəmədi. Amma fakt bu idi ki, Qaradağlı erməni separatçılarından yaradılmış «And» və «Kilsə uğrunda» silahlı birləşmələrin girovuna çevrilmişdi.

2002-ci ilin mayın 16-da Moskva vilayətində yaradılmış erməni icmasının başçısı L.Markaryan Bakıya açdığı telefon zəngində iddia edirdi ki, bu, müharibədir. «İtirilmiş torpaqlar uğrunda…» müharibədir (?). Bu müharibənin öz qanunları var.

Qaradağlı yaşayış məntəqəsində beynəlxalq hüquq normaları pozulub. İnsanlar erməni terrorunun qurbanına çevrilib, qətllər törədilib.

Yaşayış məntəqəsində insan nəsli tamam sıradan çıxıb. Azərbaycan millətinin genofonduna tuşlanmış bu qəsd planlarının nəticələri artıq, dünya ictimaiyyətinə də məlumdur.

Fikrimizcə, «Daşnakizm» anlayışı metodologiyadan, artıq, bəşəriyyətin çirkin ideologiyasına çevrilib. Özgə torpaqlarını işğal etmək, kütləvi qırğınlar törətmək, terror aktları, soyqırımlarla "Böyük Ermənistan" yaratmaq arzusu ilə kilsələri, din xadimlərini də bu işə cəlb etməklə "Ermənizm" ideologiyası formalaşdırıb beynəlxalq aləmdə bu istiqamətdə

özlərinin mənfur havadarları vasitəsilə şovinist fəaliyyətlərinə iyrənc start verildi. «Ermənizm» Ermənistanda artıq formalaşan dövlət siyasətinin tərkib hissəsi kimi fəaliyyət göstərir.

1992-ci ilin fevralın 15-dən 16-na keçən gecə Qaradağlı viran edilib, yandırıldı. İnsanlar üçün dar ağacları quruldu. Əsir və girovlar diri-diri torpağa basdırıldı. Fevralın 17-də isə kənd yandırıldı. Hamı güllələndi. «Bəylik bağı» deyilən ərazidə 59 nəfər azərbaycanlı qətlə yetirildi.

**15-17 fevral 1992-ci il tarixdə Qaradağlı kənd sakinlərindən Rüstəmova Zibər Alıhüseyn qızı (öz evinin həyətində qətlə yetirilmiş və cənazəsi də orada qalmışdır), Zeynalov Nobil Əliş oğlu (kənd qəbiristanlığının yanında qətlə yetirilmiş və Ağdam şəhəri «Uzun dərə» şəhidlər xiyabanında dəfn edilmiş), Həsənov Altay Məhəmməd oğlu (qəbiristanlığın yanında qətlə yetirilmiş, «Uzun dərə» şəhidlər xiyabanında dəfn edilmiş), Hüseynov Xanalı Həbib oğlu (qəbiristanlığın yanında qətlə yetirilmiş, «Uzun dərə» şəhidlər xiyabanında dəfn edilmiş), Bayramov Rəşid Həşim oğlu (çayın qırağında qətlə yetirilmiş və cənazəsi də orada qalmışdır), Hüseynov Əsgər Səməd oğlu (həyətində qətlə yetirilmiş, «Uzun dərə» şəhidlər xiyabanında dəfn edilmiş), Bayramov Arif İbrahim oğlu (Qaradağlı kəndindəki N.Nərimanov adına kolxozun inzibati idarə binasının yanında qətlə yetirilib, «Uzun dərə» şəhidlər xiyabanında dəfn edilmiş), Dadaşov Manaf İslam oğlu (idarənin yanında qətlə yetirilmiş, «Uzun dərə» şəhidlər xiyabanında dəfn edilmiş), Kərimov Əliqismət Qara oğlu (idarənin yanında qətlə yetirilmiş, «Uzun dərə» şəhidlər xiyabanında dəfn edilmiş), Hüseynov Şahmurad Alıhüseyn oğlu (kənddə pirin yanında qətlə yetirilmiş, «Uzun dərə» şəhidlər xiyabanında dəfn edilmiş), Dadaşov Eldar İsa oğlu (kənddə pirin yanında qətlə yetirilmiş, «Uzun dərə» şəhidlər xiyabanında dəfn edilmiş), Hüseynov İbiş Həbib oğlu (kəndin 2 km-liyindəki «Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cənazəsi oradakı «Silos» quyusunda qalmışdır), Hüseynov Niftalı Bakir oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cənazəsi oradakı «Silos» quyusunda qalmışdır), Quliyev Nəbi Mütalif oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cənazəsi oradakı «Silos» quyusunda qalmışdır), Əliyev Xaliq Məhərrəm oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cənazəsi oradakı «Silos» quyusunda qalmışdır), Dadaşov Uğur Eldar oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cənazəsi oradakı «Silos» quyusunda qalmışdır), Abbasov Sərvər İldırım oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş,**

**cənazəsi oradakı «Silos» quyusunda qalmışdır), Mustafayev Qərib Həsrət oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cənazəsi oradakı «Silos» quyusunda qalmışdır), Əzizov Alov Əfqar oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cənazəsi oradakı «Silos» quyusunda qalmışdır), Nağıyev Aftandil Xanlar oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cənazəsi oradakı «Silos» quyusunda qalmışdır), Əliyev Zahid Zeynal oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cənazəsi oradakı «Silos» quyusunda qalmışdır), Məmmədov Ədalət Şahmar oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cənazəsi oradakı «Silos» quyusunda qalmışdır), Məmmədov Məmməd Əmirxan oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cənazəsi oradakı «Silos» quyusunda qalmışdır), Rəhimov Məhi Surxay oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cənazəsi oradakı «Silos» quyusunda qalmışdır), Kazımov Nəsimi Kazım oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cənazəsi oradakı «Silos» quyusunda qalmışdır), Məmmədov Ərastan Ağalar oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cənazəsi oradakı «Silos» quyusunda qalmışdır), Tağıyev Zakir Gülüm oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cənazəsi oradakı «Silos» quyusunda qalmışdır), Tağıyev Telman Tevon oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cənazəsi oradakı «Silos» quyusunda qalmışdır), Dolxanov Rəhim Möhkəmə oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cənazəsi oradakı «Silos» quyusunda qalmışdır), Tağıyev Fayaq Həsrət oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cənazəsi oradakı «Silos» quyusunda qalmışdır), Hüseynov Nahid Adil oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cənazəsi oradakı «Silos» quyusunda qalmışdır), Əzizov Atəş Əfqar oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, «Uzun dərə» şəhidlər xiyabanında dəfn edilmişdir), Hüseynov Fehruz Mahmud oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, «Uzun dərə» şəhidlər xiyabanında dəfn edilmişdir), Vəliyev Mobil Mürsəl oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, «Uzun dərə» şəhidlər xiyabanında dəfn edilmişdir), Mustafayev Talıb Yaqub oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, Dünyamalılarda dəfn edilmişdir), Quliyev Mirzəli Müslət oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, «Uzun dərə» şəhidlər xiyabanında dəfn edilmişdir), Hüseynov Fədail Zülfüqar oğlu («Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, «Uzun dərə» şəhidlər xiyabanında dəfn edilmişdir), Hüseynov Dəmir Musa oğlu («Bəylik**

**bağı» adlanan ərazidə qətlə yetirilmiş, «Uzun dərə» şəhidlər xiyabanında dəfn edilmişdir), Dadaşov Mikayıl İslam oğlu (Xankəndində qətlə yetirilmiş və cənazəsi də orada qalmışdır), Axundov Hafiz Elmaz oğlu (Xankəndində qətlə yetirilmiş və cənazəsi də orada qalmışdır), Əliyev Vətən Əmirxan oğlu (Xankəndində qətlə yetirilmiş və cənazəsi də orada qalmışdır), Vəliyev Füzuli Cavad oğlu (Xankəndində qətlə yetirilmiş və cənazəsi də orada qalmışdır), Hüseynov Əbülfət Mehman oğlu (Xankəndində qətlə yetirilmiş və cənazəsi də orada qalmışdır), Xəlilov Zahid Əyyub oğlu (Ningi erməni kəndində qətlə yetirilmiş, «Uzun dərə» şəhidlər xiyabanında dəfn olunmuş), Hüseynov Həbib Həmzə oğlu (Ningi erməni kəndində qətlə yetirilmiş, Ağdam şəhidlər xiyabanında dəfn edilmiş), Bayramov Elmidar Rəşid oğlu (Ningi erməni kəndində qətlə yetirilmiş və cənazəsi orada qalmışdır), Quliyev Kamal Bəylər oğlu (Xankəndi türməsində qətlə yetirilmiş, Ağcabədi qəbiristanlığında dəfn edilmiş), Quliyev Əlaslan Nəriman oğlu (Xankəndi türməsində qətlə yetirilmiş, «Uzun dərə» ş.x-nında dəfn edilmiş), Vəliyev Fazil Cavad oğlu (Xankəndi türməsində qətlə yetirilmiş, «Uzun dərə» ş. x-nında dəfn edilmiş), Hüseynov İmran Əhməd oğlu (Xankəndi türməsində qətlə yetirilmiş, Beyləqan r-n Peyğəmbər ziyarətgahında dəfn edilmiş), Nəzərov Şura İbad oğlu (Xankəndi türməsində qətlə yetirilmiş, «Uzun dərə» ş.x-nında dəfn edilmiş), Hüseynov Şura Hüseynalı oğlu (Xankəndi türməsində qətlə yetirilmiş, «Uzun dərə» ş.x-nında dəfn edilmiş), Şirinov Böyükkişi Ləb oğlu (Xankəndi türməsində qətlə yetirilmiş, Beyləqan Peyğəmbər z-da dəfn edilmiş), Tağıyev Kamil Sərdar oğlu (Xankəndi türməsində qətlə yetirilmiş, Beyləqan Peyğəmbər z-da dəfn edilmiş), eləcə də xüsusi dəstə üzvlərindən Quliyev Heydər Qurban oğlu («Bəylik bağı»nda qətlə yetirilmiş, cənazəsi orada qalmışdır), Həsənov Xəyal Zeynal oğlu («Bəylik bağı»nda qətlə yetirilmiş, cənazəsi orada qalmışdır), Rüstəmov Azad Həsənqulu oğlu («Bəylik bağı»nda qətlə yetirilmiş, cənazəsi orada qalmışdır), Arazov Eldar Kamal oğlu (kolxozun inzibati binasında qətlə yetirilmiş, Bakı şəhəri Şəhidlər Xiyabanında dəfn edilmiş), Əlişov Həsən Sədaqət oğlu («Bəylik bağı»nda qətlə yetirilmiş, cənazəsi orada qalmışdır), Abdullayev Abdulla Habil oğlu («Bəylik bağı»nda qətlə yetirilmiş, cənazəsi orada qalmışdır), Mahmudov Akif Məhəmməd oğlu («Bəylik bağı»nda qətlə yetirilmiş, cənazəsi orada qalmışdır), Mirzəyev Məhəmməd Hüseyn oğlu («Bəylik bağı»nda qətlə yetirilmiş, cənazəsi orada qalmışdır), Hacıyev İbrahim**

**Çərkəz oğlu (Xankəndi həbsxanasında qətlə yetirilmiş, cənazəsi orada qalmışdır), Mustafayev Malik İslam oğlu («Bəylik bağı»nda qətlə yetirilmiş, cənazəsi orada qalmışdır), Əmrahov Nasir Nurəddin oğlu (Xankəndi həbsxanasında qətlə yetirilmiş, cənazəsi orada qalmışdır), Abbasov Ayaz Əkbər oğlu (Xankəndi həbsxanasında qətlə yetirilmiş, cənazəsi orada qalmışdır) və Kərimov Firdovsi Azay oğlu («Bəylik bağı»nda qətlə yetirilmiş, cənazəsi orada qalmışdır) ermənilər tərəfindən qətlə yetirilmişlər.**

**Aparılmış istintaq zamanı, eləcə də Hüseynov Xandəmir Qədir oğlu (Qaradağlı qəbiristanlığı), Bayramov Soltan Rəşid oğlu (Qaradağlı qəbiristanlığı), Quliyev Ələkbər Məmməd oğlu (Qaradağlı qəbiristanlığı), Hüseynov Zülfüqar Dəmir oğlu (Qaradağlı qəbiristanlığı), Hüseynova Məxmər Məcid qızı (Qaradağlı qəbiristanlığı), Əliyeva Səbiqə Mürsəl qızı (Qaradağlı qəbiristanlığı), Məmmədov Tohid Cəlil oğlu (Qaradağlı qəbiristanlığı), Tağıyev Bakir Qaçay oğlu (Qaradağlı qəbiristanlığı), Şirinov İltifat Əjdər oğlu (Qaradağlı qəbiristanlığı), Şirinova Qaragöz Habil qızı (Qaradağlı qəbiristanlığı), Babayeva Validə Həmid qızı (Qaradağlı qəbiristanlığı), Quliyeva Nazənin Rəşid qızı (Qaradağlı qəbiristanlığı), Quliyev Əloğlan Əlaslan oğlu (Qaradağlı qəbiristanlığı), Hüseynova Gülzəndə Bakir qızı (Qaradağlı qəbiristanlığı), Hüseynova Qənirə Həmid qızı (Qaradağlı qəbiristanlığı), Hüseynova Rahibə Şahmar qızı (Qaradağlı qəbiritanlığı), Hüseynova Rəxşəndə Bayram qızı (Qaradağlı qəbiristanlığı), Quliyev Gündüz Əlqəmə oğlu (Qaradağlı qəbiristanlığı), Quliyev Qasım Hüseyn oğlu (Dünyamalılar qəbiristanlığı), Tağıyev Elsevər Teyyub oğlu (Qaradağlı qəbiristanlığı), Süleymanov Elçin Möhübbət oğlu (Yevlax qəbiristanlığı), Kazımov Səlim Kazım oğlu (Mahrızlı qəbiristanlığı), Əzizov İltifat Yelmar oğlu (Sabunçu qəbiristanlığı) və Məmmədova Sürəyya Cavad qızı (cəsədi meşədə qalıb) 14-17 fevral 1992-ci il tarixdəki Xocavənd rayon Qaradağlı kənd faciəsindən əvvəlki və sonrakı illərdə Ermənistan silahlı dəstələri tərəfindən şəhid olmaları müəyyən edilmişdir.**(*Azərbaycan Respublikasının Prokurorluğunun, Milli Təhlükəsizlik Nazirliyinin, Daxili İşlər Nazirliyinin, «İstintaq Qrupu»nun materiallarında bu məsələlərə aydınlıq gətirilir*).

Dünyanın erməni diaspor təşkilatları bu biabırçılıqları inkar etmək məqsədilə bütün qitələrdə bir milyondan artıq saxta, uydurma materiallarla yüklənmiş disklər, filmlər paylayıblar. Bu indi də davam edir. Amma qalib gələ bilməyiblər. «Xocalıya Ədalət!»in önündə gedən bir xanımın gücünə

tab gətirə bilmir, aciz olaraq qalır və nəhayət, etiraf edirlər. Məsələn, hüquqşünas A.Danielyan qeyd edir: «...Dağlıq Qarabağ Azərbaycan torpağıdır. Biz orada cinayət törətdik…» (Bax: Ermənistan.”Azq” qəzeti.2004.X).

Alman tədqiqatçısı Albert Şneyder Ermənistanın Azərbaycana etdiyi ərazi iddialarına, separatçı rejimin Qarabağ torpaqlarında törətdikləri cinayətlərə işarə edərək yazır: «…Mən baxdığım filmlərə, oxuduğum kitab və sənədlərə həmişə hörmətlə yanaşmağa çalışmışam. Çünki bütün bunlarda bir insan ömrünün izi var. O yerdə ki, bəziləri öz yazdıqları və yaxud çəkdikləri əsərlərlə aldatmağa çalışır… o yerdə mən deyirəm: – məni aldatdın, bəs tarix necə olsun? Tarixi aldatmaq mümkündürmü?… Qarabağdan həmişə azərbaycanlı ətri gəlib. Məni heç kəs aldatmasın…» (Bax: A.Şneyder: «Vospominanie…». M., «Nauka», 2000. c. 81).

Ermənilər Xocalı əməliyyatlarından öncə Qaradağlını viran qoydular. Bu Xocalıya edilən hücumların başlanğıcı idi, məşqi idi.

Bir parça torpaq həmişə hiylə və məkrin tələsində çırpınıb. 1992-ci ilin fevral ayının 15-dən 16-na keçən gecə çox zaman dumanlı və çisginli Qaradağlı kəndi erməni silahlı birləşmələri tərəfindən mühasirəyə alınır. 119 nəfər mühasirəyə düşür.

O gün heç kəs əsir və girova çevrilmək istəmədi. Qaradağlılar bəlkə də dünyanın yeni tarixində öz torpaqları və yurd yerləri uğrunda vuruşan, döyüşlərdə igidlik göstərərək, şəhid olan… ən qüdrətli insanlar kimi hələ çox tədqiq olunacaqlar.

Hadisələri müşahidə edən İran ermənisi Maqsud Mehriyan yazır: «…Azərbaycan torpaqlarında müharibə idi. Bu müharibə planlarında mən iştirak etmirdim. Qoy bunu tarixçilər, siyasətçilər araşdırsınlar. Mən ədəbiyyatçıyam. Mənşəcə də erməniyəm. Azərbaycanlılar vuruşurdular. Onlar vuruşduqca onlardakı cəsarət və hünərə həsəd aparırdım… Mən ölən, qan içində boğulan azərbaycanlıları gördükcə, qorxurdum. Qan içindən çıxan, qan içindən dirilib gələn azərbaycanlıdan qorxurdum… Nəticədə Qaradağlını tərk etdim. Bir daha o yerlərə getməyəcəyimə söz verdim…» (Bax: M.Mehriyan, «Ermənilər». İsfahan, 1999, səh. 33).

**Axundov Əmir Qoşunəli oğlu:** (Qaradağlı qırğınlarının şahidi):

-Ermənilər kəndimizin fermasına hücum etdilər. Bəkir Qaçay oğlu Tağıyevi, Tohid Cəlil oğlu Məmmədovu, Məxmər Məcid qızı Hüseynovanı, Səbiğə Mürsəl qızı Hüseynovanı, Qaragöz Nəbi qızı Şirinovanı, İltifat Əjdər oğlu Şirinovu diri-diri yandırdılar (Bax: Azərbaycan Respublikası Hərbi Prokurorluğu. 80377 saylı qovluq).

Araşdırmalarımıza görə, bu kadrlar – zorakılıqla ermənilər tərəfindən öldürülmüş meyitlərin yandırılmasını təsvir edən kadrlar, həm Fransanın,

həm Kanadanın, həm də ABŞ-ın… erməni icmalarında nümayişə çıxarıldı. Milliyyətcə erməni olan Armen Akopoviç Ohanyan Parisdə baxdığı bu kadrlardan sonra erməniliyini dandı. 1992-ci ilin fevralın 22-də Qaradağlıdan çəkilən kadrlar Türkiyənin TQRT telekanalında nümayiş etdirildi. Fransa vətəndaşı olan Armen Akopoviç Ohanyan verdiyi müsahibədə qeyd edir: «…Mən özümə nifrət etməyə başladım. Təəssüf edirəm ki, erməniyəm. Bunun üçün əzab çəkirəm…» (Bax: Türkiyənin TQRT telekanalında 1992-ci ilin fevralın 22-də, saat 24-də ekrana çıxarılan verilişdən).

Məlumata görə, ümumən MDB məkanında baş verən qarşıdurmalarda, müharibə və milli zəmində törədilən cinayətlərdə… ilk meyit alverini edənlər də ermənilər oldu.

Qaradağlıda qətlə yetirilmiş azərbaycanlı Xəyal Həbib oğlu Hüseynovun meyiti erməni zabiti Sirac Siracyan tərəfindən «bazara» çıxarılır (nəticədə 1994-1995-ci illərdə işğal olunmuş Azərbaycan torpaqları boyunca 14 məntəqədə ermənilərdən ibarət meyit alveri ilə məşğul olan qrupun fəaliyyəti qeyd olunur. Bu qruplara da Ermənistan Hərbi Prokurorluğunun şöbə müdiri, polkovnik Erik Saakoviç Qriqoryan başçılıq edirdi).

Bu, təhqir idi. Azərbaycanlı təhqir olunurdu. Torpaqları işğal olunmuş, ocaqları viran edilmiş azərbaycanlı üçün bundan böyük təhqir yox idi. Həm Prezident Aparatı, həm Nazirlər Kabineti, güc strukturları susurdu. Ali Baş Komandan, hakimiyyət iddiasında olan müxalifət susurdu, kimin yandırıldığından, kimin satıldığından xəbərsiz idi. Bakıda qan içində boğulan insanları unutmuşdular. Əslində torpaq şəhid olmuşdu.

Moskvada Novinski bulvarındakı ABŞ-nın Diplomatik Korpusunun 19 saylı binasının qarşısında isə dərdini demək üçün gələn Xocalı sakini Murad İmam oğlu Quliyev isə haray çəkirdi.

– Açın qapını, cənab Diplomat, açın… Sizə Qaradağlıda yandırılmış qardaşımın, bacımın külünü gətirmişəm. Baxın…

Diplomatik korpusdan isə heç kim çıxmadı. Səsə səs verən olmadı. Sonra Murad kişi iddia etdi ki, ona imkan versinlər, ona yardım etsinlər ki, gətirdiyi külü Birləşmiş Millətlər Təşkilatına göndərsin…

O vaxt içimizdən bir ağrı keçirdi. Yandırılmış meyidlər haqqında dünyaya səs çatmadı. Səsimiz sərhəddən o yana keçə bilmədi. Amma keçməli idi. Günahsız, əli silahsız insanların külü BMT-yə səpilməli idi. Bu mümkün idi. Dünyanı ayıltmaq üçün, yatan başları, donmuş ürəkləri, susmuş vicdanları silkələmək üçün bu lazım idi.

## «ÇÖL QUŞLARI» – MUZDLU SNAYPERÇİLƏRİNİN XOCALIDA TÖRƏTDİKLƏRİ FACİƏ

Erməni separatçılarının Cənubi Amerika əyalətlərindən dəvət olunmuş muzdlu qrupları Qarabağ ərazisində bir-birindən fərqli, amansız qətllər törədib. Məsələn, 1990-cı ilin aprelin 24-dən 1991-ci ilin aprelin 24-dək nəşr olunan «Berd xəbərləri» qəzetinin hərbi müxbiri, istefada olan mayor Suren Vartanyan yazdığı xəbərdə qeyd edir: «…Berddəki 01261 saylı hərbi qrup, artıq, hazır idi ki, Dağlıq Qarabağa yola düşsün. Bu azadlıq mücahidlərinə (?) Argentinadan gələn qızlar da qoşulmuşdu. Snayperçi qızların hamısı muzdlular idi. Onlar hara gəldiklərini, nə üçün vuruşduqlarını anlamırdılar… Onlar din uğrunda, kilsələrin azadlığı uğrunda vuruşmaq üçün gəlmişdilər. Bu qızların maliyyə xərcləri Kanadada öz işini quran «Erməni Mərkəzi»nə aid idi (?). Onlar yaxşı vuruşurdular. Mən onların Əsgərandakı, Meşəli ərazisindəki döyüşlərinin, Xocalıdakı vuruşmalarının şahidi oldum… Bütün bunlar haqqında əlavə olaraq Axalkalakidəki «Ermənilərin birlik konfransı»nda məlumat verdim…» (Bax: Gürcüstan. «Cavaxeti xəbərləri» qəzeti. S.Vartanyan. 1991-ci il, 16 oktyabr).

**Meşəli kəndinə basqın edən bu vəhşi qrup heç kəsə aman vermədi. Məlumata görə, Xocalıda, Meşəlidə snayperlərini işə salan bu «Çöl quşları» (qrup özünə ad qoymuşdu) 25 nəfərin həyatına son qoydu.**

**1. 1927-ci ildə anadan olmuş Nurməmmədov Hüseyn Rza oğlu; 2. 1936-cı ildə anadan olmuş Nurməmmədova Pakizə İslam qızı; 3. 1967-ci ildə anadan olmuş İbadullayev Nadir Nəbi oğlu; 4. 1964-cü ildə anadan olmuş Mehralıyev Əli Mürsəl oğlu; 5. 1937-ci ildə anadan olmuş Novruzov Novruz Məhərrəm oğlu; 6. 1937-ci ildə anadan olmuş Novruzova Adilə Məhərrəm qızı; 7. 1971-ci ildə anadan olmuş Novruzov Allahverdi Novruz oğlu; 8. 1977-ci ildə anadan olmuş Novruzova Rübabə Novruz qızı; 9. 1975-ci ildə anadan olmuş Novruzova Rahilə Novruz qızı; 10. 1936-cı ildə anadan olmuş Quliyev Qənimət Əli oğlu; 11. 1969-cu ildə anadan olmuş Quliyeva Ruba Nağı qızı; 12. 1969-cu ildə anadan olmuş Quliyev İsmayıl Qənimət oğlu; 13. 1963-cü ildə anadan olmuş Quliyev Mətləb Qənimət oğlu; 14. 1937-ci ildə anadan olmuş Hümbətov Bəhlul Müseyib oğlu; 15. 1938-ci ildə anadan olmuş Kazımov Xəlil Mahmud oğlu; 16. 1977-ci ildə anadan olmuş Allahverdiyev Vidadi Müsül oğlu; 17. 1925-ci ildə anadan olmuş Qasımov Ənvər Bahadur**

**oğlu; 18. 1936-cı ildə anadan olmuş Mahmudova Sürəyya Alış qızı; 19. 1929-cu ildə anadan olmuş Sadıqov Əvəz Alış oğlu; 20. 1937-ci ildə anadan olmuş Sadıqova Qönçə Məmmədbağır qızı; 1992-ci ilin fevralın 25-26-da Xocalıya qohumlarına baş çəkməyə gedən insanlara da aman verilmədi. Onlar geri qayıda bilmədilər. 21. 1970-ci ildə Ağdam rayonu Xıdırlı kəndində anadan olmuş Rüstəmov Hidayət Eldar oğlu; 22. 1969-cu ildə Ağdam rayonu Papravənd kəndində anadan olmuş Ağayev Faiq Alış oğlu; 23. 1961-ci ildə Yevlax şəhərində anadan olmuş Əzimov Tahir Eyyub oğlu; 24. 1964-cü ildə anadan olmuş Mehralıyev Əli Şükür oğlu; 25. 1940-cı ildə anadan olmuş Orucov Miryusif Kərim oğlu; eləcə də, milli ordudan olan Kamil və Musa adlı şəxslər xüsusi amansızlıqla öldürüldü.**

Araşdırmalarımız əsasında müəyyənləşdirdik ki, muzdlu snayperçilərə vasitəçi və yaxud bələdçi olaraq insanların güllələnməsində iştirak edən ermənilərdən – Ernest Baxşiyeviç Sərkisyan, Armais Baxşiyeviç Sərkisyan, Benik Aslanoviç Kasparyan bu gün beynəlxalq axtarışdadırlar.

Araşdırma materiallarından görünür ki, Dağlıq Qarabağın bombalanmasında, yaşayış yerlərinin viran edilməsində Tsxinvali və Telavi (Gürcüstan) vertolyot bazaları yaxından iştirak ediblər. Zaqafqaziya Hərbi Dairəsinin generalı Valeri Pasrikyevin 1992-ci il yanvarın 2-də imzaladığı əmrə əsasən, Telavidə hərbi vertolyotları idarə edəcək milliyyətcə erməni olan 16 pilot hazırlandı. Məlumata görə, pilot kurslarının maliyyə xərcləri Ermənistan Milli Azadlıq Hərəkatının Krasnodarda qeyri-leqal fəaliyyət göstərən «Sevan» şöbəsi (Adler yaşayış ərazisi. Adler küçəsi, 93.) tərəfindən ödənilib. Şöbə müdiri, «Doktor» ləqəbli Frunze Həzaryan qəribə məlumat verir: ***«…Kursa qəbul olunmuş ermənilərə əvvəlcədən elan edilmişdi ki, onlar «Böyük Ermənistan» uğrunda vuruşacaqlar. 1992-ci il yanvarın 9-da isə Beyrutda yaşayan Rafiq Aqabekoviç Qraynyan (o, Livana 1988-ci ildə mühacir olub) da pilotlar hazırlayan kursda müəllim kimi işə başlayır. 32 yaşlı, milliyyətcə ərəb olan, «Həmas» təşkilatından qovulmuş Zahid Əl-Məhəmməd (Nahiz) adlı birisi də kursda göründü. O, erməni dilində çətinliklə danışsa da, məhəbbət və ehtiramını əsirgəmirdi. Ona 45 nömrəli vertolyot həvalə edildi… Biz, artıq, döyüşə hazır idik…»*** (Adler. «Sevane» bülleteni. 19 yanvar 1992).

1992-ci il fevralın 12-də və 16-da Rusiya prezidenti B.N.Yeltsin Telavi vertolyot bazasında kursu bitirmiş erməni pilotlarına yeni və dəqiq hərbi uçuşa malik olan «Mİ-24P» markalı vertolyotların verilməsi haqqında 7-ci ordunun Baş komandanı general-mayor Reuta göstəriş verir (Telavi.

«Eskadrilya» qəzeti. №8 1992-ci il 20 fevral.). Polkovnik Leonid Kapralovun başçılığı ilə iki Mİ-8 vertolyotu Gəncə vertolyot zavodunda təmirə göndərilir. Xocalı istiqamətində hərbi hazırlığın təməli belə qoyulurdu…

Xocalı istiqamətində döyüşə hazır vəziyyətdə dayanmış vertolyotlar üçün Bakıdan 200 ton yanacaq da alınmışdı (!). Polkovnik Raqib Mühəmmədcanov yanacağın bölünməsi və döyüş vertolyotları arasında paylanması məsələlərinə nəzarət üçün ayrıldı. Daha doğrusu, Zaqafqaziya Hərbi Dairəsinin BQ-dan ezam olundu.

…1992-ci il fevralın 17-də Telavi hərbi bazasında ermənilərlə görüşən yazıçı-daşnaq Zori Balayan özünün «Ocaq» kitabını vərəqləyir və döyüşmək üçün silahlanmış ermənilərə başa salır ki, kim «Böyük Ermənistan» uğrunda vuruşursa, o, tarix yaradır – millətin və nəslin tarixini.

1992-ci il fevralın 19-da isə general Reutun Moskvadan aldığı 17 fevral tarixli, general A.N.Kovalyovun imzaladığı «201/4 AK» nömrəli sərəncama əsasən, 16 erməni üçün 9 müxtəlif markalı (əsasən «Mİ-24P») hərbi vertolyot ayrıldı. Fevralın 22-də isə vertolyot eskadrilyası 366-cı alayın tərkibinə keçirildi (vahid komandanlıq üçün).

Məlumata görə, 1992-ci il fevralın 25-də Dağlıq Qarabağ səmasında vuruşa hazırlanmış vertolyot eskadrilyasının siyahısı belə idi:

**– 39 nömrəli vertolyot. Pilot: Qalaqçiyan Romb Arutyunoviç (Livan ermənisi. İxtisasca inşaatçı);**

**– 40 nömrəli vertolyot. Pilot: Razdan Alekseyeviç Minoyan (Suriya ermənisi. İxtisasca mühəndis);**

**– 29 nömrəli vertolyot. Pilot: Zahid Əl-Məhəmməd (Livan müsəlmanı, «Həmas» təşkilatı);**

**– 17 nömrəli vertolyot. Pilot: Ararat Qrekoviç Saracyan (Yerevan. Hərbçi);**

**– 45 nömrəli vertolyot. Pilot: Pirimyan Suren Alekseyeviç (Yerevan. Polis işçisi).**

Bu, ancaq Xocalı rayon ərazisinə havadan zərbələr endirən vertolyotların siyahısıdır. O da məlum oldu ki, fevralın 25-i saat 16:00-dan gecə 00:00-dək Xocalıya bu vertolyotlardan 89 raket atılıb.

Xocalı istiqamətində raket buraxan ilk vertolyot 29 nömrəli olub (Mühəmmədcanovun İ.Zarviqarova raportu. 28 fevral 1992-ci il. Arxiv ZakVO. Qovluq № 467).

Hərbi pilotlar arasında maaşlar da bölünmüşdü. Məsələn, Livan müsəlmanı Zahid Əl-Məhəmmədə 4.450 dollar aylıq əmək haqqı

ayrılmışdı. «Müsəlman qardaşımız» Xocalı ərazisinə atdığı hər bir raket üçün 280 dollar məbləğində mükafatlandırılırdı.

İşğalçılıq və terrorçuluq məqsədilə aparılan döyüşlərdə fəallıq göstərdiklərinə görə, Zahid Əl-Məhəmmədə və Suren Alekseyeviç Pirimyana «Qızıl xaç» ordeni verildi. Martın 3-də isə 29 nömrəli vertolyotun pilot salonunda yanğın baş verir və Zahid Əl-Məhəmməd həlak olur. Müdafiə naziri Serj Sarkisyanın göstərişi ilə onun cəsədi Yerevana gətirilir, Erablur hərbi qəbiristanlığında basdırılır.

Bu, Dağlıq Qarabağ səmasında «cinayət törədən», Xocalını viran qoyan bir pilotun taleyi idi.

Fevralın 25-i saat 19:15-də vertolyotlar Zaqafqaziya Hərbi Dairəsində start götürdü və Xocalıya vertolyot hücumu başladı. General-leytenant Yuri Qrekovun məlumatında göstərilir ki, Xocalı ərazisi Azərbaycan «boyevikləri»ndən təmizləndi və bunun üçün «Qrad», «Uraqan» raketlərindən də istifadə edildi. Xocalı istiqamətində bu raketlərin 39-u atıldı. Həmin ərəfədə Ermənistandan Kremlə, B.N.Yeltsinin adına belə bir qızışdırıcı teleqram vurulur: **"...**Prezident B.N.Yeltsinə... Respublikanın Təhlükəsizlik xidmətinin yüksək vəzifəli əməkdaşı iddia edir ki, son günlərdə Türkiyə - Ermənistan sərhədi boyunca türk qoşunlarının geniş tərkibdə bir yerə yığılması qeydə alınıb. Onun sözlərinə görə, 4 diviziyadan və 7 briqadadan ibarət Türkiyənin 3-cü səhra ordusu, həmçinin onun səhra gərargahları müharibə dövrünün ştatlarına qədər açılmışdır. Ordu İkinci Dünya müharibəsi illərindən sonrakı dövrdə müşahidə olunmayan hərbi hazırlığa gətirilmişdir..."(general O.Sarkisyan, polkovnik Ter-Qriqoryan. 25 fevral 1992-ci il).

Həmin teleqram bilavasitə B.N.Yeltsinin özünün başçılıq etdiyi Təhlükəsizlik Şurasının fevralın 26-da Kremldə keçirilən iclası üçün hazırlandı. İclasa Ermənistan prezidentinin təhlükəsizlik məsələləri üzrə müşaviri Aşot Manuçaryan da dəvət olundu. A.Manuçaryan həmin müşavirədə belə bir fikir vurğuladı: «…"Yaxın gələcəkdə Türkiyə Azərbaycanın xahişilə Qarabağ münaqişəsinin həllində onun köməyinə gələ bilər. Bunu, Ermənistanın sərhədlərini pozmadan yalnız ümumi sərhədin 9 kilometrlik hissəsindən, Naxçıvan tərəfdən keçərək etmək mümkündür. Daha sonra... Ermənistanın ərazisindən keçmək ehtimalı da istisna edilmir..." (26 fevral, 1992-ci il RF BQ-nin arxiv sənədi: US-11, səh. 9).

Fakt və araşdırmalarımızın məntiqi nəticəsi bunu da göstərir ki, 1992-ci ildə Azərbaycan MN-nə tabe olan hərbi kəşfiyyat və hərbi əks-kəşfiyyat

xidmətlərinin işi yarıtmaz təşkil edilmişdi. Kəşfiyyat mərkəzləri iflic olmuşdu. Kadrların təyini məsələsində dostbazlıq, yarınmaq və yaltaqlıq əsas meyar idi. İş o yerə çatmışdı ki, mənzil-istismar idarəsinin sıravi işçisinə birbaşa mayor hərbi rütbəsi verilir, şöbəyə bölmə müdiri kimi qəbul olunurdu. Yaxud, həbsdən yenicə çıxan adamlar hərbi kəşfiyyata daxil olurdular…

Ermənistan Müdafiə Nazirliyinin hərbi kəşfiyyat xidmətinin təlimatçı-müşavirlərinin bir qismi Fransadan gəlmişdi. Yəni, bu adamlar vaxtilə ayrı-ayrı illərdə Fransa SQ-də təhlükəsizlik və kəşfiyyat işləri ilə məşğul olublar. Bu gün Xankəndində «Böyük Ermənistan» xəritəsi önündə gəzinib, düşünən qondarma «DQR»-in hərbi əks-kəşfiyyat xidmətinin özünün («Qaracanyan proqramı») xüsusi strateji proqramı var. Proqramın tərtibçiləri 2001-ci ilin avqustunda DQ-nin terrorçu lideri A.Qukasyana «Goranboyla bağlı xüsusi hərbi-kəşfiyyat proqramı»nı müzakirə üçün təqdim edib. 6 noyabr 2001-ci ildə «Reyter» agentliyinə verdiyi müsahibədə polkovnik Matevos Matevosyan maraqlı və ciddi bir məsələyə toxunur: «…Bizim qurum (yəni əks-kəşfiyyat xidməti) Şaumyan rayonu ərazisində (Goranboy), eləcə də ona yaxın ərazilərdə gedən ictimai-siyasi prosesləri, hərbi durumu, əsgərlərin psixoloji məqamlarını yaxşı bilir. Hətta gələcəkdə Şaumyan rayonunda işləmələri nəzərdə tutulan şəxsləri də tanıyır. Onlar haqqında ilkin məlumatlar verilib. Rayonu idarə edəcək qurumun inzibati binası, orada çalışacaqları nəzərdə tutulan adamlar da müəyyənləşib… Biz heç bir hüquq normalarını pozmuruq. Əksinə, «Böyük Ermənistan»ın qoparılmış tikələrini bir yerə yığırıq…».

Əslində, Xocalı qırğınlarında ermənilər bütün beynəlxalq Konvensiyaların tələblərini pozub, onlara heç bir məhəl qoymamışlar.

## "HAYDAD"ın AZƏRBAYCANA QARŞI TƏXRİBAT PROQRAMI

1. "Haydad"- Əlavə Baş Qərargahı (İrəvan-Xankəndi).

2. Türkiyənin Müstəqil Dövlətlər Birliyi ölkələrindəki diplomatik korpuslarını öyrənən qrup:

a) Azərbaycan ərazisində tanınmış ziyalıların iş yerlərini araşdıran qrup;

b) Hərəkət cədvəllərinin tərtibi;

v) Neft şirkətləri;

q) Əlaqələri (daxili və xarici);

d) Türkiyənin müxalif radikal qrupları ilə əlaqə.

3. Azərbaycan bloku:

a) Tanınmış şəxslərin tədqiqi qrupu;

b) Onlarla bağlı əks-materialların toplanması;

v) Xarici ölkə mətbuatında tanınmış Azərbaycan ziyalılarının (yazıçıların, akademiklərin, ixtiraçıların, politoloqların, ictimai-siyasi xadimlərin, jurnalistlərin, sənət adamlarının, yüksək rütbəli zabitlərin, iş adamlarının) əleyhinə informasiya bloku yaratmaq. İnternetdə onlar haqqında kodlar açmaq;

q) Azərbaycana qarşı "Mübarizə kataloqu"nun tərtibi.

4. Kəşfiyyat qrupu:

a) Hərbi strukturda;

b) Dövlət və hökumət strukturunda;

v) Elm mərkəzlərində, təhsil sistemində, tədqiqat laboratoriyalarında.

5. Baş Qərargahdan alınan qərarların bölünmə mərkəzi:

a) Hökmlərə, çıxarılmış qərarlara nəzarət qrupu (Kilsə ilə müzakirə);

b) Xaricdəki erməni icmalarındakı əlaqələrlə iş qrupu.

6. Azərbaycan XİN-nin diplomatik korpuslarla əlaqələrin araşdırılması.

7. İcraçı silahlı qrup.

8. Hərbləşdirilmiş nəzarət qrupu (mətbəə avadanlıqları da daxil olmaqla).

9. Kompüter mərkəzi (məlumatların yoxlanılması).

10. Qərarların icrasına nəzarət (məxfi qrup).

11. Azərbaycanın "Xocalıya Ədalət!" kampaniyasına qarşı "Xüsusi təbliğatçılar qrup"larının yaradılması.

12. KİV-lərdə anti-Azərbaycan təbliğatının təşkili üzrə işçi qrup.

***Qeyd:*** Erməni separatçılarının, terror birləşmələrinin sığındıqları "ASALA" icraçı təşkilatdır. O icra edir, ölüm hökümlərini, terrorçuluq planlarını həyata keçirir. "HAYDAD" ikinci separatçı təşkilat isə bir qayda olaraq hökm çıxarır.

# “HAYDAD” SEPARATÇI TƏŞKİLATI VƏ BEYNƏLXALQ TERROR QRUPLAŞMALARI XOCALIDA

Məlumatlara görə, Xocalı faciəsində Yunanıstanın bir neçə şəhərində özəyi yaradılmış «17 noyabr» terrorçu təşkilatının üzvləri də iştirak ediblər. Milliyyətcə ermənilərin olduğu silahlı birləşmə «Tiqran»çılar Xocalı ərazisində «Fosgen» kimyəvi silahından geniş istifadə ediblər. Beynəlxalq konvensiyalara görə isə, kimyəvi silahlardan istifadə qadağandır.

Məsələn, Xocalıda «Zarin» və «Zaman» qazlarından, "Fosgen”dən istifadə nəinki insanlara, həm də flora və faunaya ciddi zərbə endirib. Yerevan toksikoloji mərkəzindən 1996-cı il iyulun 14-də Xankəndinə gələn qrupun başçısı Faina Melikyants ölkənin müdafiə naziri S.Sarkisyana (169/024-1002-9.I) göndərdiyi məktubda qeyd edir (tərcümə): ***«…Xocalı ərazisində apardığımız elmi tədqiqatlar və araşdırmalarımızın nəticələri qənaətbəxş deyil. Xocalı ərazisindən əsir götürülən uşaqların təqribən 9 faizinin dalaq və qaraciyərləri sıradan çıxıb… Zəhərli qazlardan istifadə isə uşaqların baş-beyin funksiyasını iflic edib…»***. Erməni həkiminin qeyd etdiyi bu 9 faizin içərisində 16 nəfər 9-10 yaşlı uşaqların (qızların) taleyi, artıq, bəlli idi. Nə qədər acınacaqlı da olsa, bu faktları da açıqlayaq. Belə ki, ölümə məhkum olmuş qızların dünyanın bir sıra elmi-tədqiqat institutlarının mikrobiologiya və virusologiya şöbələrinə göndərilməsi qərara alınmışdı. Sınaq və təcrübə mənbəyi kimi bu qızlardan 4-ü Fransaya, 6-sı Argentinaya, 2-si Suriyaya, 1-i Yerevana, 2 nəfəri Almaniyaya… aparıldı. Həkim Faina Melikyants Ermənistan MN BQ-na, polkovnik Tiqran Lazareviç Adamyana yazırdı: «…Mən öhdəmə düşən məsələni həll etdim…» (Moskva toksikoloji mərkəzilə – Yerevan toksikoloji mərkəzin yazışması: «Vestnik-zdorovye» 1996, №6, səh. 40).

Araşdırmalarımızdan bu da aydın oldu ki, Faina Melikyantsın 6 nəfərlik qrupu Xocalıdan əsir götürülən qız uşaqlarının bədənində «L-Z-21A» və «L-Z-19A» vaksinlərini sınaqdan çıxarıb. Nəticədə 4 nəfər 8 yaşlı qız uşağının taleyinə qələm çəkildi. Heç biri sınaqdan sağ çıxa bilmədi.

Bonnda nəşr olunan «Bundesver» qəzeti 1992-ci il mayın 7-də Yerevandan aldığı məlumatı çap edir. Həmin məlumat mayın 13-də Rusiyada yayılır: “... Nəhayət ki, Xankəndinin (Stepanakertin) erməni hakimiyyəti Dağlıq Qarabağda kimyəvi silahın mövcudluğunu etiraf etdi. MDB qoşunlarının tərk etdikləri anbarlarda 500 ton kimyəvi maddə var.

Əvvəl Rusiya və Ermənistan Dağlıq Qarabağda kimyəvi silahın saxlanılması faktını inkar edirdilər. Hərçənd 25 fevralda Azərbaycan şəhəri olan Xocalı Xankəndi tərəfindən sianidlə doldurulmuş 122 mm mərmilərlə atəşə tutulmuşdu..."(«İzvestiya» qəzeti, 13 may 1992-ci il).

Elə bil dünya bunların qarşısında aciz qalmışdı. Heç kəs danışmaq istəmirdi. 1993-cü il noyabrın 3-də Azərbaycan akademiklərindən bir qrupunun imzası ilə Avropa ictimaiyyətinə Dağlıq Qarabağla əlaqədar bəyanat qəbul olundu.

Sənədin bir yerində qeyd olunur.

«…Avropa Birliyinə bəyanat. Birlik və onun üzv dövlətləri Dağlıq Qarabağın yerli erməni qüvvələrinin Azərbaycan ərazisinə hücumunu ittiham edirlər. Onlar təəssüflə qeyd edirlər ki, belə hərəkətlər silahlı toqquşmanın sərhədlərini genişləndirərək, daha çox Azərbaycan ərazilərini əhatə edir və ölkədə çox ciddi qaçqın problemini yaradırlar. Qonşu ölkələr bu münaqişəyə cəlb olunarsa, regional təhlükəsizlik üçün daim artan təhlükə yarana bilər…»(Bax: Azərbaycan Respublikası XİN arxivi.1993-cü il qovluğu).

Amma buna da bir reaksiya verən olmadı.

Qurani-Kərimin «Qələm» surəsində belə bir hikmət var: «And olsun qələmə…» Bu andın hikməti bundan ibarətdir ki, nə yazılırsa haqdan yazılmalı, haqdan deyilməlidir. Haqdan və hünərdən kənar nə yazılırsa, onda şeytan nəfəsi, şeytan əməli var.

Dağlıq Qarabağın «Şeytan məclisi»nə, yəni qondarma parlamentinə xidmət edən «Pro-Armeni» agentliyinin ideoloqlarından olan Ovanes Kazaryan 2001-ci il iyulun 14-də Kaliforniyada «Hayastan» cəmiyyətinin keçirdiyi «Böyük Ermənistan» adlı diaspor-yığıncağında qeyd edir: «Pro-Armeni» agentliyində həqiqətdən başqa heç nə yoxdur (?).

1992-ci il martın 4-də isə «Pro-Armeni» yazırdı: «Hərbi hücumlar çox çəkmədi. Qəsəbədəki (söhbət Xocalıdan gedir – ***V.S., R.V.***) dinc azərbaycanlı sakinlər sırasında ölənlər olmadı» .

Martın 5-də isə agentlik özünü təkzib edir: «Azərbaycan əsgərlərindən 100 nəfəri əsir götürüldü. 30-40 əsgər isə öldürüldü. Öldürülən dinc sakinlərin meyitləri isə Xocalı-Ağdam yolunda qalmışdı. ( Bax: Qondarma «DQR» «Ali Soveti»nin bülleteni, 1992-ci il, mart, səh. 9-11).

Araşdırdığımız materialların içərisində ermənilərin Xocalı cinayətlərini qələmə alan erməni Daud Xeyriyanın Beyrutun «Əş-Şərq» («Şərq») nəşriyyatında 1993-cü ilin yanvarında çapdan çıxan (bu adda qəzet də var) «Xaç uğrunda…» kitabı da maraq doğurdu. Müəllif kitabının 19-cu

səhifəsindən 76-cı səhifəsinədək Xocalı uğrunda gedən döyüşlərə həsr edib. Kitabın 24-cü səhifəsində yazır: ***«…Bəzən çaşıb ayağımızı meyitlərin üstünə qoyaraq, keçib gedirdik. Daşbulaq tərəfdəki bataqlıqdan keçmək üçün ölənləri yanaşı düzüb yol düzəltdik. Ayağımı ölənlərin üstünə qoyub getmək istəmədim. Polkovnik Ohanyan mənə işarə etdi ki, qorxmayım. Müharibənin qanunlarından biri də budur. Mən ayaqlarımı sir-sifəti qana bələnmiş 9-10 yaşlı bir qızın sinəsinə sıxıb irəli addımladım… Ayaqlarım, fotoaparatım qan içində idi…».***

Bunu erməni Daud Xeyriyan adlı bir jurnalist yazır. O, daha sonra qeyd edir: ***«…Martın 2-də ermənilərin «Qaflan» qrupu (qrup meyitləri yığıb yandırmaqla məşğul idi) 100 nəfərdən çox türk meyitini yığıb Xocalıdan təqribən bir kilometr qərb istiqamətində yandırdı. …Sonuncu maşında təqribən 10 yaşında olan bir qız uşağı da gördüm. O, alnından və qollarından yara almışdı. Sir-sifəti göyərmiş bu uşaq hələ ölməmişdi. Aclığa və soyuğa, aldığı yaralara baxmayaraq ölməmişdi. Asta-asta nəfəs alırdı. Ölümlə çarpışan bu uşağın gözlərini unuda bilmirəm… Bir azdan onu da «Qaflan»çıların səyyar ölüm ocaqları»nda yandıracaqdılar. Heysiz-hərəkətsiz uzanmış, dırnaqlarından qan süzülən bu uşağı Tiqranyan çağırılan bir əsgər tolazlayıb, qalaqlanmış meyitlərin üstünə atdı…***

***…Sonra bu insan qalağına od vurdular. Bu zaman elə zənn etdim ki, yanan meyitlərin içərisində kimsə qışqırır. Aman və imdad diləyir… Mən bütün bunlardan sonra daha irəli gedə bilmədim. Amma fikrim var idi ki, Şuşanı da görüm… Geri qayıtdım. Onlar isə xaç uğrunda döyüşlərini davam etdirirdilər…»*** (Səh. 62-63).

1992-ci il martın 10-da isə Rusiya Federasiyasının prezidenti Boris Yeltsinin poçtuna Daxili İşlər naziri Viktor Yerinin imzası ilə məktub qoyulur (məktubda qeyd edilir ki, məzmunu haqqında şəxsi görüşdə açıqlama veriləcək. Məktubla təqdim olunmuş videokassetə baxılması xahiş olunur). Məktuba əlavə olaraq, prezident poçtuna daxil edilmiş video-kassetdə 1890 nəfər şəxsi heyəti olan 366-cı alayın fəaliyyəti və Xocalı faciəsindən kadrlar var idi. General V.Yerin prezidentə yazırdı: «… Xocalıda qadınlar, uşaqlar və qocalar güllələnir, meyitlərin baş dəriləri soyulurdu. Bunu, Azərbaycan jurnalistləri tərəfindən çəkilmiş film sübuta yetirir. Kamera qulaqları kəsilmiş bir neçə uşağı çəkmişdir. Yaşlı bir qadının üzünün sol tərəfinin dərisi soyulmuşdur. Kişilərin baş dəriləri çıxarılmışdı. Meyitlərdə quldurluğun aşkar əlamətləri var. Onların əksəriyyəti çox eybəcər hallara salınıblar. Hərbi kəşfiyyatın məlumatlarına

görə, əsasən bu haqda hansısa jurnalist Mustafayev danışır və baş vermiş bütün hadisələrdə Dağlıq Qarabağda yerləşən 366-cı alayı günahlandırır…» (N.Qavrilov: «Военные ведомости». İzd…S-Pet. 1998, səh. 96.).

Prezident B.N.Yeltsin videokassetə baxdıqdan sonra bu istiqamətdə işləmək üçün xüsusi sərəncam imzalayır (0219./21.-OD – 12 mart 1992-ci il), rus əsgərlərinin şərəf və ləyaqətinə xələl gətirən belə kadrların çəkilməməsini hərbi kəşfiyyatçıların qarşısında vəzifə kimi qoyur. Həmin vəzifələrdən birincisi müharibə gedən zona və ərazilərdə agentura şəbəkələrinin fəallığının təşkili idi…

…Dünya isə Xocalının yanan meyitlərinə tamaşa edirdi. Bu auditoriyada dost da vardı, düşmən də. Heç kəsdən səs çıxmırdı. Yanan və yaxud yandırılan meyitlərin tüstüsünə heç kəs boylanmaq istəmirdi. 1992-ci il martın 14-də Fransa Xarici İşlər naziri Rolan Düma və Türkiyəli diplomat Hikmət Çətin belə bir fikrə gəlirlər ki, atəşin dayandırılması istiqamətində iş görülsün… Martın 15-i saat 19:20-də Hikmət Çətin ABŞ-ın o vaxtkı Dövlət Katibi Ceyms Beykerdən xahiş edir ki, «Amerikanın ermənilərə olan maraqlarından istifadə edərək…» bu işə kömək etsin.

…Hər şey yalan olaraq qalırdı. Qələm də yalan yazırdı… Rolan Düma 1992-ci il martın 14-də tərəfləri müharibəyə son qoymağa çağırırdısa, martın 16-da Parisdə erməni diasporunun «Mesrop gecəsi»ndə bütün bu bəlalara bais olan akademik Aqanbekyanın və Zori Balayanın sağlığına badə qaldırır, «Böyük Ermənistan» uğrunda atılan bütün addımları alqışlayırdı (S.Bablumyan. «Pokazıvaet Atenn-3». Oçerklər. Yerevan, səh. 91, 1996-cı il). Əldə etdiyimiz digər məlumata görə isə, **1992-ci il martın 18-də Əsgərandakı vertolyot eskadrilyasının başçısı, mayor Leonid İvanoviç Kravtsov Bakıya, Ali Sovetə – millət vəkillərinə ünvanladığı məktubda yazırdı: «Deputatlar!.. Mən yamaca səpələnmiş təxminən 200 meyiti və onların arasında əlisilahlı insanların gəzdiyini görmüşəm. Biz meyitləri götürməyə cəhd etdik... Bu zaman 4 yaşlı bir oğlan uşağının parçalanmış qafasını görüncə mən ağlımı itirdim. Digər bir uşağın isə (onun meyitini biz güllə atəşinə tutulmamışdan öncə götürməyə müvəffəq olmuşduq) başı bədənindən ayrılmışdı. Hər tərəfdə işgəncələrə məruz qalmış qadınların, uşaqların, qocaların meyitlərinin olduğunu gördüm...**

**Sizə müraciət etmək istəyirəm. Oyanın! Öz xalqınıza kömək edin...".**

Məktuba cavab almayan mayor Kravtsov eyni məzmunlu məktubla «İzvestiya» qəzetinə müraciət edir (18 mart 1992).

Həmin ərəfədə Bakıda ilişib qalan ermənilər Şaumyankənd istiqamətindən silah keçirməklə məşğul idilər. Həmin vaxt Bakının mərkəzində, Mərkəzi Komitənin yaşayış evlərindən birini kirayələmiş zabit Aleks Qarunoviç Yeqizaryan silah alış-verişi üçün Bakıda yerləşən hərbi hava hücumundan müdafiə alayı ilə əlaqə yaratmış, zabit Oleq Deyçukovla silahların alınması və daşınması ilə bağlı xüsusi proqram tərtib etmişdi. Oleq Deyçukov alayın radio-mühəndislərindən biri idi. Məhz buna görə hava hücumu əleyhinə hərbi qüvvələrin baş komandanı, general-mayor Valeri Çirkov Bakıya gəlir. Məlum olur ki, O.Deyçukov 29 ədəd «AK» silahını və 7 min patronu, 40 bronejileti, erməni A.Yeqizaryana satıb və həmin silahlar da fevralın 19-da Xocalıya ötürülüb (Bakı şəhər Hərbi Prokurorluğunun sənədlər qovluğu. 1992-ci ilin istintaq materialları. «O.D.Deyçukovun işi üçün arayış»). Amma O.Deyçukova istintaq qovluğu açılmadı.

Məlumata görə, Xocalı ərazisində, daha dəqiq desək, Xanabadla Daşbulaq kəndləri arasında ilk «səyyar ölüm ocaqları» 1992-ci il fevralın 28-i saat 14:00-da salınıb. Birinci dəfə 46 meyit yandırılıb. Ertəsi gün isə 28 uşaq və hamilə qadının meyitlərindən tonqal qalanır. 1988-ci ildən 1989-cu ilədək Çuvaşiyanın Çeboksarı şəhərindəki Çapayev qəsəbəsində yaşayan və V.İ.Çapayev adına hərbi zavodun dəftərxanasında çalışan, ixtisasca filoloq olan Akop Arakelov (zavod Qarabağ istiqamətində erməni hərbi terrorçu birləşmələrinə «Alazan» raketləri satmaqla məşğul idi. Təkcə 1992-1993-cü illərdə bu zavoddan Xankəndinə 98 ədəd «Alazan» raketləri satılıb) 1998-ci ildə Parisdə dərc etdirdiyi «Qarabağ qeydləri…» kitabında yazır: ***«…Meyitləri yandırmaq haqqında təsəvvürüm yox idi. Mən zavodda işləyərkən yanıma gələnlər danışırdılar ki, Xocalıda qəbiristanlıq deyilən ərazi yoxdur… Dəfn olunmuş adamları… gecə çaqqallar və itlər eşib çıxarırdılar. Hərbi həkim Sambat Mirzoyanın tapşırığı ilə meyitlərin yığılıb yandırılması qərara alındı… Mən «Alazan» üçün zavoda gələn zabitə sual verdim: Bəs yaralılar? Bəs əsirlər? Zabit Çebotaryan adlı ellim mənə anlatdı ki, yaralılar da öldürülmədən tonqallara atılır. Bundan sonra mən daha zavodda qala bilmədim… Erməniləri və Ermənistanı, Dağlıq Qarabağı bir daha görməmək üçün oranı tərk etdim…»*** (Bax: eyni mənbə. səh. 42).

Araşdırmalarımıza görə, öldürülən azərbaycanlıların yandırılmasında, əsirlərin təhqir edilməsində… polkovnik, 366-cı alayın komandanı Yuri

Zarviqarovun da başçılıq etdiyi əsgər və zabitlər iştirak edib. 1992-ci il mayın 26-da Ermənistanın Moskvadakı Daimi Nümayəndəliyinin məsullarından olan Nikita Kazaryan açıqlama verir ki, bu, mümkün deyil. Erməni xalqı «torpağını və millətini» sevən bir xalqdır. Onun ardınca isə Zaqafqaziya Hərbi Dairəsinin polkovniki Aleksandr Lukin yazır: «… Xankəndində yerləşən alay, guya tamamilə təxris olunub. Alay plana uyğun döyüş hazırlığı keçir və təxris haqqında heç bir söhbət belə gedə bilməz. Hər hansısa tərəfin hərbi əməliyyatlarında o iştirak etmir…».

Məlumatlarımızda isə ayrı bir mənzərə var. Məsələn, milliyyətcə özbək olan serjant Ümidcan Ziyautdinov, Kərimbay Sadullayev, Sverdlovskdan gəlmiş Pavel Zuyev, Krımdan gəlmiş Yuri Lyaxoviç, Penzadan orduya çağırılmış Aleksey Bondarev Kremlə və Bakıya ünvanladıqları məktublarda iddia edirlər ki, «…onlar 366-cı motoatıcı alayın tərkibində erməni hərbi-terror qruplarına bütün işlərdə yardım ediblər…».

Məsələn, Ümidcan Ziyautdinov yazır: «… Erməni yaraqlıları bizim bölmədə özlərini evlərindəki kimi hiss edirlər. Onlar qoşunun yerləşdiyi ərazidə rahat hərəkət edir və bizim batalyon komandiri, mayor Oqanyanla çox yaxın münasibətdədirlər.

Demək olar ki, hər axşam zirehli avtomobillər və alayın PDM -ri yaraqlılara "icarəyə verilirdi". Özü də bu, alayın komandanlığının razılığı ilə həyata keçirilirdi. Məhz bizə məxsus zirehli texnikanın vasitəsilə yaraqlılar Şuşa şəhərini atəşə tutur, Meşəli, Malıbəyli, Kərkicahanı, Xocalını işğal edirdilər.…».

Kiçik çavuş Şukrat Tanqırov isə açıqlamalarını belə izah edir: «…Bu öldürücü maşınları nəinki yaraqlılar, eləcə də alayın bölməsindəki erməni gizirləri də idarə edirdilər. Burada kapitan Mixayıl Arutyunyan xüsusi aktivlik göstərirdi, amansızlığı və kobudluğuna görə, həmkarlarım onu "kapitan Cekson" adlandırırdılar. Ağır yaralıların və öldürülənlərin əksəriyyəti elə kəndə yaxın yerlərdə də qaldılar. Biz onları çıxara bilmədik, çünki özümüzə də xilas olmaq lazım idi. Bu faktdır: gecələr onlar hərbi sursat ilə dolu zirehli maşınlarla "gecə növbəsinə" çıxırdılar. Səhəri gün isə "əliboş" –hərbi sursatın hamısını tamamilə "xərcləyərək", qayıdırdılar…» (366-cı alayın əsgər və zabitlərinin Daşkənd Təhlükəsizlik Komitəsinə yazdıqları məktublar. 16 aprel 1992-ci il).

1992-ci il aprelin 19-da yazılmış məktuba əsasən, Ermənistan Dövlət Təhlükəsizlik Komitəsi Məşvərət Şurasının rəhbəri, 1978-ci ildən 1988-ci ilədək Respublika DTK-nın sədri işləmiş Marius Yüzbaşyan və birinci

şöbənin müdiri Rudolf Qriqoryan Moskvaya, Müdafiə Nazirliyinə məktubla müraciət edirlər və göstərirlər ki, agent «Ruben» guya Xocalı qırğınının nəticələri haqqında əvvəlcədən rayondakıları xəbərdar edib (məktub RF MN-nin arxivində saxlanılır. Moskva, MO. QŞ-216/1. A.F…. PAP. N-216).

Bu, erməni uydurmasıdır. Çünki erməni polkovniki Rudolf Qriqoryan Fransada çap olunmuş «Erməni nəzəriyyəsi…» kitabında yazır: ***«…Ermənilər öz torpaqları uğrunda vuruşurdular. Bəzi ermənilər türklərlə qohumluq əlaqələrinə görə, əvvəlcədən ayrı-ayrı ailələri, kəndləri xəbərdar etmişdilər ki, vuruşmaq əbəsdir… Xocalıda da biz bunu planlı şəkildə etdik… Türklərə başa saldıq ki, gedin… Bizimlə oynamaq olmaz… Biz onlara dərs verdik»*** ( Bax:Paris. «Stok» nəşriyyatı, 1995, səh. 37-38).

Araşdırmalarımıza görə, Xocalıda vuruşan erməni hərbi-terrorçu birləşmələrinə təkcə 1992-ci il yanvarın 10-dan fevralın 4-dək indiki MDB çərçivəsində yaşayan və məskunlaşan erməni diasporları adından 4 milyon 1368 rubl dəyərində yardım göndərilib…

Məşhur Amerika araşdırıcısı, jurnalist Tomas Qolts «Nyu-York times» və Londonda nəşr edilən «Sandi tayms» qəzetlərində yazırdı: ***«…Güman etməyin ki, ermənilər güclüdür… yox, siz azərbaycanlılar informasiya müharibəsində zəif və gücsüzsünüz… Bu, bir həqiqətdir»***.

Jurnalist 2001-ci il fevralın 12-də Birləşmiş Millətlər Təşkilatına və Xocalı faciəsində erməni terrorçularına fəal yardım etmiş 366-cı motoatıcı alayı ilə bağlı Rusiya prezidentinə ünvanladığı məktubda yazır: «…Mən, amerikalı jurnalist, erməni kanallarından yan keçərək Azərbaycan haqqında məlumatı çatdırıram. Çünki bu, onlara kifayət qədər qıcıqlandırıcı təsir göstərir. Belə ki, ABŞ Konqresinin İnsan Hüquqları üzrə Komissiyasına ünvanlanan məktubda bir qrup erməni mənim Azərbaycanda baş verən hadisələr haqqında verdiyim məlumatların Komissiya tərəfindən nəzərə alınmasına öz çaşqınlıqlarını bildirdilər. Arqumentlər müxtəlif idi: guya ki, mən müsəlmanam, yaxud Azərbaycan Prezidentilə çox yaxınam. Əlbəttə, onlar mənim həyat yoldaşımın milliyyətcə türk olmasını da diqqətdən qaçırmadılar... Amma təbii ki, Komissiya "ədalət uğrunda döyüşənlərin" bütün arqumentlərindən imtina etdi. Mənə belə gəlir ki, ölkəmizin sakinləri arasında Azərbaycan haqqında obyektiv bir təsəvvürün yaranması üçün bütün mövcud kanallardan və imkanlardan istifadə etmək lazımdır. Əgər bunlar yoxdursa, bu kanalları yaratmaq lazımdır. Çünki bu gün Amerikaya Azərbaycan haqqında həqiqət lazımdır…» (Bax: Amerikalı jurnalist T.Qolts

məktubu. 1992-ci ilin noyabr ayının 13-də Rüssiya prezidenti olmuş B.Yeltsinin yazdığı məktubun surəti).

Belə bir məlumat da var ki, 1992-ci il martın 29-da Ballıca kəndini öz gözləri ilə görməyə gələn general-mayor Aleksandr Çindarov MDB üzrə ümumqoşun qüvvələri Bakı komandanı marşalı Şapoşnikova ünvanladığı məktubda qeyd edir: «…Dağlıq Qarabağ və Xocalı ərazisində ermənilərlə birgə ərəb ölkələrindən gəlmiş muzdlu əsgərlər də iştirak ediblər… Öldürülmüş adamlar arasında ərəb mənşəli terrorçuların meyitlərinə rast gəldim. Bunlar ermənilər tərəfindən azərbaycanlılara qarşı vuruşan adamlardır. Sənədlərə, eləcə də hərbi kəşfiyyatın məlumatlarına görə, bu muzdluların bir qismi Fələstin Milli Azadlıq Təşkilatından gələn könüllülərdir (Narakat Al-Tahrir Al Vatani Al-Filastini.). Qrupun əsl adı isə «Qara sentyabr»dır.

Araşdırmalarımızın nəticəsi olaraq, Xocalıda səyyar (?) «Amputasiya otaqları»ndan keçirilən… əlil və şikəst edilən övladlarımızdan bəzilərinin adlarını əldə etdik:

**1.Zəhra Mürşid qızı Həsənova (Qubadlı);**
**2.Elçin Babayar oğlu Qəhrəmanov (Qubadlı);**
**3.Həsən Almurad oğlu Zehniyev (Zəngilan);**
**4.Aytəkin Səfərova (Qubadlı);**
**5.Xurşid Əflatun oğlu Nağıyev (Cəbrayıl);**
**6.Canişin Əhmədağa oğlu Balabəyov (Zəngilan);**
**7.Zərintac Sakitağa qızı Məmmədova (Zəngilan).**

Bu uşaqların toplanmasında, bir yerə yığılmasında qeyri-leqal «Erməni ayparası», onun lideri, keçmiş hərbçi Yeqo Saaktyan xüsusi canfəşanlıq göstərib (İsfahan. Erməni icmasının «Ararat» qəzeti, 3 aprel 2000-ci il). «Amputasiya otaqları»ndan keçirilən, sifətləri və bədənləri tanınmaz hala düşmüş, nitq və görmə, eşitmə qabiliyyətlərini itirmiş, ölənədək əlil arabalarında sürünməyə məhkum edilmiş bu uşaqların taleyi hələlik qeyri-müəyyəndir…

Əldə etdiyimiz digər məlumatlara görə, Ermənistanın Nairi rayonunun (təqribən 1,5 km şimal istiqamətində) Lusoker qəsəbəsində (Sevan gölü yaxınlığında), Dilican ərazisində… 1992-1993-cü illərdə əsir alınmış qadın və qızlarımızın, şikəst edilmiş, əlil arabalarına «qoşulmuş» uşaqlarımızın xarici iş adamlarına satılması, bağışlanması üçün… xüsusi qul bazarları salınmışdı.

Hər şey hələ ki, diqqətdən yayınmışdı, sakitliklə ötüb keçirdi. Rəsmi Azərbaycan qalan əsir və girovları tələb edirdi. Ermənilər isə onlarda əsir və girovların olmadığını, hamısının qaytarıldığı iddiasında israrla dayanırdılar. Erməni eksperti Afik Aşotyan 2000-ci il fevralın 16-da Artsax (Xankəndi) radiosuna belə bir müsahibə verir ki, Azərbaycanın iddialarında

heç bir sənəd və sübut yoxdur. MN-nin informasiya şöbəsinin polkovniki Seyran Şahsuvaryan isə «Mond» (Fransa) qəzetində yazır: ««Azərbaycanlı əsir» mövzusunu unutmaq lazımdır…» (24 sentyabr 2000-ci il, səh. 3).

2000-ci il martın 19-da beynəlxalq təşkilatların gözündən pərdə asmaq, humanist olduqlarını göstərmək üçün Novruz bayramı gecəsi general Avik Xaçaturyan Serqo Avanesyanla birgə Yerevanın ruhi xəstələrin müalicə mərkəzində yerləşdirilmiş əlil və şikəst uşaqlara bayramlıq aparır. Dünyanı unudan, adlarını belə xatırlamayan, yaddaşlarına min cür iynə vurulmuş, gündə üç dəfə lazımsız və zərərli preparatları, dava-dərmanları qəbul edən bu uşaqlar üçün «Novruz, bahar bayramı» anlayışı çoxdan ölmüşdü.

Qəribədir.Əgər Ermənistanda əsir və girov götürülmüşlər yoxdursa, bəs qeneral A.Xaçaturyanla S.Avanesyan "humanistlik" göstərib novruz gecəsi erməni balalarınamı bayram sovqatı apardılar?! Ermənilər haçandan Novruz bayramını qeyd edən olublar?!

Martın 23-də Yerevan-Paris axşam reysi ilə Fransaya uçan general Avik Xaçaturyan, həkim-cərrah Lella Baqdasarovna «Advantis»in Yerevan şöbəsinin işçiləri, «Erməni ayparası», «Ararat» qeyri-leqal «xeyriyyə cəmiyyətləri»nin nümayəndələri Paris yığıncağında iştirak edirlər.

Araşdırmalarımıza görə, uşaqları Parisə buraxmırlar. Onları elə hava limanındaca əvvəlcədən nəzərdə tutulmuş (bu işləri Parisdə qeyri-leqal fəaliyyət göstərən «Eçmiədzin» qrupu görürdü) qaydalar əsasında dörd qrupa ayırırlar. Həmin axşam uşaqların 23-ü Paris-Dəməşq reysilə iş adamı Saleh Qasim Abdullahın başçılığı ilə Suriya istiqamətinə aparılır. Dəməşqdə isə uşaqlar Türkiyə və Almaniya qruplarına bölünürlər.

Hələ fevral ayında Moskvada nəşr olunan «Kriminal xronika» qəzeti yazırdı: «***…Milli münaqişələr zamanı yüz minlərlə uşaq ata-anasını, ev-eşiklərini, isti ocaqlarını itirdi. Onlar kimsəsiz və tənha qaldılar. MDB məkanında bu faciənin əlamətlərinə Azərbaycanda, Tacikistanda, Moldovada, Gürcüstanda, Qazaxıstanda… Özbəkistanda, Qırğızıstanda daha çox rast gəlinir. Atılmış və yaxud əsir alınmış uşaqlar müxtəlif qrup və birləşmələr tərəfindən satın alınır, amputasiya edilir, «dilənçilik biznesi»ndə və yaxud üzv orqanlarının kəsilib satılması sahəsində fəaliyyət göstərən cərrah otaqlarında əsl gəlir mənbəyinə çevrilir…***

***Moskvada və Krasnodarda… «dilənçilik biznesində «işləyən», milliyyəti bilinməyən şikəst və əlil uşaqların hər biri «xozeyin»ə gündə 200 dollar və yaxud 400-450 min əlavə rubl verir… Onların «Amputasiya otaqları» isə Çexov rayonunun sanatoriyalarındadır…***» («Kriminal xronika» qəzeti. 4 fevral 2000-ci il, səh. 2).

# ERMƏNİLƏŞDİRİLƏN VƏ BƏŞƏRİYYƏT ÜÇÜN TƏHLÜKƏYƏ ÇEVRİLƏN QARABAĞ

Ermənilərin özünümüdafiə dəstəsi adı ilə Xocalı yaşayış məntəqəsində terror edən, əslində, "ASALA" terror təşkilatının Xankəndində yaradılmış özəyinin başçısı kimi tanınan İllarion Allaverdiyan 24 rus zabitinə və əsgərinə pul mükafatları elan etdi. Məsələn, dəstənin önünə çıxarılmış rus zabiti Yevgeni Qolubevə üstündə "ASALA" yazılmış 25 qramlıq qızıldan tökülmüş orden və 5 min ABŞ dollarını təntənəli surətdə təqdim etdi. Elə həmin gün sıravi Anastas S.İvanova 10 min dollar təqdim etməklə İrəvanda onu gözləyən "Hunday" markalı avtomobilin sənədlərini verdi...

Nəticədə erməni silahlı dəstələri ilə rus zabitləri arasında şəxsi sövdələşmələr "döyüş müqavilələri"lə tamamlandı. (Bax: 1991-ci ilin aprelin 24-dən, 1992-ci ilin aprelin 24-dək Xankəndində nəşr olunan "Haydad" 12 səhifəlik bülleteninin məlumatı. 1992.III.№1).

Araşdırmalarımıza görə, 2001-ci il iyul ayının 21-də Amerika Birləşmiş Ştatlarının "hərbi strategiyası"nın əsas müddəalarını əks etdirən 30 səhifəlik "məxfi" bir hesabat dinlənildi. Həmin müddəalardan birində belə bir qeyd var: "...Amerika nüvə, kimyəvi, bakterioloji silahlardan qorunmalıdır. O, planetin vacib nöqtələrinə nəzarəti artırmalıdır..."

"Vacib nöqtə" deyəndə sənəddə Avropa, Şimal-Şərqi Asiya, Şərqi Asiya rayonları, Yaxın Şərq, Cənub-Qərbi Asiya... coğrafi ərazilərin adını çəkir. İçməli su üstündə, torpaq üstündə vuruşan münaqişə və ya müharibə zonalarını xatırladır. Təəssüf ki, bu münaqişə və müharibə zonaları cərgəsində torpaqları qəddarlıqla bölünmüş, kütləvi terror planları ilə işğal olunmuş Azərbaycanın... Dağlıq Qarabağın adı çəkilmir.

2000-ci ilin noyabr ayının 19-na olan məlumata görə, dünyada terror hadisələrinin 43 faizi ABŞ-a tərəf yönəlib. 2001-ci ilin iyul ayının 22-nə olan məlumata görə isə, bu rəqəm 56 faizə çatıb. Terror hadisələrində ildən-ilə yüksələn xətt üzrə davam etməkdədir. Deməli, ABŞ terror planlarından hələ yaxa qurtarmayıb, əksinə 8 müəyyən radikal qüvvələrdə bu planları reallaşdırmaq həvəsi artıb. Araşdırmalarımızdan bu da aydın oldu ki, **ABŞ Mərkəzi Kəşfiyyat İdarəsi hər il terror aktları ilə bağlı 1400 məlumat alır. Bunun da 800-i sırf terrorla əlaqədardır. Digər alınan məlumatların 600-i, yəni 42 faizi terror aktları törətmək istəyənlərlə bağlıdır. Və bu 1200 məlumatın təqribən 24 faizi ABŞ**

**ərazisində fəaliyyət göstərən erməni terror qruplarına məxsusdur. Heç də təsadüfi deyil ki, MKİ-nin əməkdaşı, xanım Leyton Marian Vaşinqtonda beynəlxalq araşdırmalar və Strateji Tədqiqatlar Mərkəzinin bülleteni olan "Post-Sovet prospekti"ndə yazır: "...Əvvəllər terror bizdən xeyli uzaqda idi. İndi isə o evimizin içindədir...".**

**... Amerikada belə bir terror dəstəsi var: "13-lər" (Kaliforniya, Nyu-Cersi ştatlarında). Bu terror təşkilatı da 1989-cu ilin may ayının 24-də yaradılıb. "13-lər"in də, məlumata görə, liderlərindən olan hüquqşünas Sirus Badamçıyan adlı birisi "Vadi Əl Kaid" şirkətilə əməkdaşlıq qurdu. ABŞ FTB-nin əməkdaşlarına artıq məlum olub ki, ermənilərin can atdıqları, əlaqələr qurduğu "Vadi Əl Kaid" şirkəti də məhz Üsəma bin Laden tərəfindən maliyyələşdirilir. Sirus Badamçıyana gəlincə, o, da Azərbaycan torpaqlarının işğalında iştirak etmiş "Qızıl Qartal" erməni ordeninə layiq görülmüşdü (1992-ci ilin mart ayı).**

Elə həmin il Xankəndində "13-lərlə" (ABŞ) "ASALA"çıların (Yerevan) "Vuruşan xalqa müraciət"i yayıldı. Bu müraciəti imzalayanlar da Tiqran Hovanesyan və Sirus Badamçıyan idi.

Azərbaycanın ərazilərində qanlı terror əməliyyatları törədən "ASALA"nın ideoloqlarından Aram Qalustyanın, Birma Səlcuqyanın, Varin Adamyanın... "Vaçaqan Barepoşt", "Müqəddəs Georgi", "Andranik"... və "Böyük Ermənistan" orden və medalları ilə təltif olunmaları məhz onların dinc əhaliyə qarşı törədilmiş qırğınların birbaşa iştirakçıları olduqlarından xəbər verir.

Həmin il Dağlıq Qarabağın müdafiə nazirinin belə bir bəyanatı yayıldı: "Bu şəxslər ABŞ-dakı "13-lərlə" birgə Xocalının türklərdən (?) azad edilməsində göstərdikləri fövqəladə qəhrəmanlıqlara görə həmişə tarixin nəzərində qalacaq...".

Araşdırmalar zamanı bu da aydın oldu ki, ABŞ mətbuatı Xocalı faciəsi haqqında son illərdə cəmi 8 material çap edib. Və bu materialların heç birində "Xocalı faciəsi" soyqırım kimi deyil, ermənilərin "öz torpaqlarını düşmənlərdən (?) azad edilməsi kimi təbliğ edilir. Halbuki 11 sentyabr Amerika faciəsini Azərbaycanda göz yaşları ilə qarşılayanlar da az olmadı. Az qala bu faciəni biz ümumxalq faciəsinə çevirək (?)... Məgər Xocalıda güllələnənlər, vəhşicəsinə başları kəsilənlər, gözləri çıxarılanlar, digər bədən üzvləri kəsilib, doğrananlar, diri-diri torpağa basdırılanlar, yandırılanlar, kimyəvi silahlardan zəhərlənənlər insan deyildimi?..

ABŞ Konqresinin kitabxanasında isə "Xocalı faciəsi" haqqında cəmi beş qəzet materialı var (Bakı məktəblərində isə Amerika faciəsi ilə bağlı, artıq muzey, foto-stend yaradırlar. Axundov kitabxanasında yəqin ki, ayrıca "kataloq" da var...). Yoxdur ona görə ki, **həmin kitabxananın Zaqafqaziya bölməsinə milliyyətcə erməni olan Levon Avdoyan rəhbərlik edir... Bax, burda eks-prezident D.Eyzenhauer cənablarının tələb etdiyi ədalət prinsipi pozulur... Cənab D.Eyzenhauer öz xalqına müraciətdə deyirdi: "...Amerika xalqı, ədalətli olun... ədalətli olun... ədalətli olun...".**

Tədqiqat və araşdırmalarımıza görə, **Ermənistanda** istifadəyə verilmiş, daha dəqiq, **yenidən qurulmuş silah istehsalı zavodunda birləşmiş uran və urandan hazırlanmış döyüş sursatlarının hazırlanması yönümündə yeni layihələr planlaşdırılır. Ümumiyyətlə, ermənilərin urandan hazırlayacaqları döyüş sursatı nədir?** Qeyd edək ki, yerin təkində təbii uranın miqdarı daha çoxdur, nəinki gümüşün və yaxud civənin. Demək olar ki, qranit dağ suxurlarının hər tonunda 25 qrama qədər birləşmiş uran var. O iki uran izotopundan ibarətdir: a) İ-238 (99,286) və İ-235 (0,72%).

Sonuncu izotop atom bombalarında əsas partlayıcı maddə kimi istifadə olunur. Bu silah müasir dövrün ən dəhşətli silahıdır. Bu, heç də kimyəvi və bakterioloji silahlardan, hətta rentgen şüasından geri qalmır. **Birləşmiş uran izotopu İ-238 alfa radioaktiv metaldır, sıxlığı 18,7 q sm. kub olub, yarı sönmüş vəziyyətdə 4 milyard 510 milyon il qalır.** ***(Bax: ABŞ-ın "Raket əleyhinə müdafiə sistemi təşkilatı"nın 1995-ci il mayın 13-də elan olunmuş bəyanatı)***

Hazırda beynəlxalq erməni diasporunun (mərkəz Yerevan) Dağlıq Qarabağ ərazisində narkobiznesi, silah alverini və nüvə daşıyıcılarını tənzimləyən büroları fəaliyyət göstərir. 1993-cü ildə Dağlıq Qarabağda "Tiqrançılar" terrorçu təşkilatının (Vardenis təlim düşərgəsindən gəlmiş) tərkibində-yəni beynəlxalq hərbi qanadında vuruşan, milliyyətcə serb olan Koso Mitroviç (Kuçeva şəhəri) ərazidəki silah alverini tənzimləyən dəstənin başçısı olub. Bu gün də zabit Koso Mitroviç, məlumata görə, Robert Paşayan adı ilə Xankəndi ordu birləşməsində xidmət edir. Araşdırmalarımızdan bu da aydın oldu ki, Koso Mitroviç ilk dəfə DQ ərazisinə üstündə ABŞ-ın hərbi sənaye komplekslərinin nişanı və nömrəsi olan minaların, "M-16" tipli avtomat silahların, NATO ordusuna məxsus geyim dəstlərinin daşınmasında və gətirilməsində yardımçı olub. Nəticədə 1993-cü ilin avqust ayında DQ-nin oyuncaq hökumətini müdafiə edən dəstə üçün qaçaqmalçılıq yolu ilə 185 ədəd "M-16" Amerika istehsalı

olan silah gətirildi. Zabit Koso Mitroviç bu malların daşınmasında Gürcüstan və İran ərazilərinin daha açıq olduğunu vurğulayır.

Serb Koso Mitroviç "Mən Artsaxda (?) qaldım..." kitabında yazır: "...Biz Dağlıq Qarabağa Yuqoslaviyadan gəlmişdik. On bir nəfər idik. Beşi həlak oldu: Kapitan Slobodan Vukoviç (Şabats şəhərindən), Antal İvaşeviç (Stremska şəhərindən), Miloş Lozniç (Mladenovats şəhərindən), Petro Kikin (Kuçevo şəhərindən), Levtin Boykoviç (Brlojnik şəhərindən). Bunlar həlak oldular... Mən isə qaldım. Dağlıq Qarabağda qaldım. Həm yaşamaq üçün, həm də ölmək üçün..." (Bax: Koso Mitroviç, "Artsax". 1996. səh.26. Redaktor: Q.Petrosyan MN-nin polkovniki). **K.Mitroviç daha sonra yazır: "...Biz hər gün vuruş və döyüş taktikamızı dəyişirdik. Hərbi sursat və silah sarıdan, geyimdən əziyyətimiz yox idi. İran və Gürcüstan tərəfdən aldığımız və yaxud keçirtdiyimiz yardımlardan dövlətin xəbəri yox idi. Bunu ermənilərin hərbi qüvvəsi olan (?) "ASALA" daha çevik edirdi. "ASALA" həm İran ərazisində və həm də Gürcüstan ərazisində qeyri-leqal şəkildə özünün bürolarını qura bildi... Bu vaxt ona "Akopyan" beynəlxalq şirkəti yardım edirdi..." (Bax: Koso Mitroviç. Eyni mənbə).**

Şübhəsiz, biz separatçılıq əhval-ruhiyyəsilə yaşayan, Azərbaycanın çörəyini yemiş, havasını udmuş, Azərbaycan məktəbində təhsil almış erməni nankorlarının və onların himayədarlarının Azərbaycana qarşı əxlaqsızlıqlarından, ədalətsizliklərindən, cinayət əməllərindən kütləvi informasiya vasitələrində, siyasi partiya və cəmiyyətlərdə, qeyri-hökumət təşkilatlarında danışacağıq. Çünki onların bir qismi 1989-cu il iyunun 14-dən 1991-ci il mayın 19-dək müəyyən fasilələrlə Ermənistanın eks-baş naziri Vazgen Sarkisyanla, Ermənistanın eks-prezidenti (o vaxt Ermənistan milli azadlıq hərəkatının lideri, "ASALA" üzvü) Robert Köçəryanla, bədnam yazıçı Zori Balayanla, Dağlıq Qarabağın Ermənistandakı nümayəndəsi Karen Mirzoyanla, Yerevan strateji və milli araşdırmalar mərkəzinin icraçı direktoru Qrayr Hakopyanla, diplomat Naira Melkumyanla... birgə "təhsil alıb"lar. (Vaşinqton. Milli Arxiv. 2001-ci ildə MKİ tərəfindən təqdim olunmuş materiallardan çıxarış. Texas ştatı, Ostina şəhəri. Lindon Conson adına kitabxana. 2001-ci ildə FTB-in materiallarından çıxarış).

Araşdırmalarımıza görə, həmin məktəbin erməni müdavimlərindən olan Ema Naçaryan (Sosial-Demokrat Partiyasının lideri), Mariya Nersesyan ("Şamiram"-qadın hərəkatının sədri), Artur Baqdasaryan ("Qanun" Partiyasının sədri), Paruir Hayiriyan (Milli Özünüidarəetmə Birliyinin sədri), Ruben Mnaçanyan (Azad Erməni Missiyasının sədri),

Vahan Avakyan (Erməni İnqilab Federasiyasının sədri)... 2002-ci il mayın 24-də "Yerevan məşvərəti"ndə bir qətnaməyə imza atdılar və qondarma Artsax (Xankəndi) də Yerevan kimi " müstəqil bir erməni respublikasının paytaxtı olmaq şansını qazandı". Ermənilərin siyasi liderlərindən olan Ruben Mnaçanyan isə Syunik yaşayış məntəqəsindəki çıxışlarının birində iddia etdi ki, prezident Köçəryanın Dağlıq Qarabağla bağlı "sülhməramlı sənədləri" yandırılsın.

R.Mnaçanyan bunu da elan etdi ki, artıq Dağlıq Qarabağ üçün müstəqil erməni respublikası kimi bütün dövlət atributları, o cümlədən gerbi, himni, bayrağı, pul vahidi də hazırlanıb.

Yalnız nə Azərbaycanın, nə beynəlxalq təşkilatların, dövlətlərin, o cümlədən, Ermənistanın özünün belə bu qondarma respublikanı tanımamaları onların qanunlarının və s. separatçı fəaliyyətlərinin Beynəlxalq hüquq normalarına zidd olmasını sübüt edir.

Bu gün Dağlıq Qarabağ nəzarətsiz zona elan edildiyindən, bütün qanunlar bu fakt qarşısında acizdir. Ermənistan tərəfindən işğal edilmiş Azərbaycanın həmin ərazilərində Azərbaycan qanunlarının həyata keçirilməsi mümkünsüzdür. Digər tərəfdən, terrorizm Ermənistanın dövlət ideologiyasına çevrilməsi nəticəsində işğal edilmiş Dağlıq Qarabağ da bu ideologiyanın çərçivəsinə salınıb. Məlumata görə, dünyanın səkkiz ölkəsinə məxsus terrorçu dəstələr bu çərçivədə özlərinin təlim düşərgələrini yaradıblar.

1. "Vətən qığılcımları" (Çin Xalq Respublikası, başçı Əbdülqafar Şəhriyar).

Ərazi dairəsi: Qubadlı rayonu, Qal və Çərəli ərazisi (cənub istiqamətdə).

2. "Kürd Konqresi" (başçı Öcalan nəslindən olan Zeynal Öcalan).

Ərazi dairəsi: Laçın rayonu, Zabux kəndi (cənub istiqaməti).

3. "Xalq Azadlıq cəbhəsi" (Suriya. Başçısı Zamir Əl-Qisse).

Ərazi dairəsi: Xocavənd. Qırmızı bazar ərazisi (qərb istiqaməti).

4. "Hizbullah" (Livan. Başçı Ömər Şahabi).

5. "Həmas" (Livan. Başçı Musa Qulam Xak).

Ərazi dairəsi: Zəngilan rayonu. Mincivan ərazisi (şərq hissəsi).

6. "Əl-Cihad" (Misir. Başçı Səid Camal. Təşkilat Üsəma bin Ladenin "Əl-Qaida"sı ilə 2001-ci ilin fevralın 3-də birləşməsini elan etmişdi).

1999-cu il iyulun 26-da Ermənistan Təhlükəsizlik Şurasının iclasında Ümummilli Erməni İnqilab Federasiyasının məsul katibi Qaham Manukyanın bu istiqamətdə hazırlanmış məktubu haqqında məlumat verildi. Doktor Q.Manukyan məktubunda təklif edir ki, DQ ərazisindəki

bu "qardaş təşkilatların" mərkəzləşdirilmiş Koordinasiya Şurası yaradılsın və bu şuranın baş qərargahı Xankəndində yerləşdirilsin. (Livan Özəl Xəbərlər Agentliyi: "AVM". "Al-Wikalya ad Duwaliya". Məlumatın yayılma tarixi, 1999, VIII-4. Məlumatı İranın 2-ci telekanalı, 1999. VIII-9-da şərh edib).

Ermənistanın Sisiyan yaşayış məntəqəsində isə rayon kəşfiyyat bölməsi bu işi MN-nin hərbi kəşfiyyat idarəsiylə birgə planlaşdırılır. Regionda azyaşlı uşaqların oğurluğu və alqı-satqısı ilə məşğul olan "Müqəddəs Sultan-Karapet" qrupunun üzvləri həmin ərəfədə Gorusdan Laçın ərazisinə daxil olur. Altı nəfərlik qrupa isə 1989-cu ildən 1992-ci illədək Həştərxanda HDQ-də xidmət etmiş və səhhətilə bağlı istefaya çıxan Abramyan Leon Qustavoviç başçı təyin olunur. Təyinatın "hökmü" isə Fransanın Marsel şəhərində məskunlaşan "Qretta" erməni dini icmasının Baş Qərargahından gəlirdi. 1992-ci il avqustun 16-da Fransa politoloqu, Milli Elmi Araşdırmalar Mərkəzinin direktoru professor Jül Kenel yazırdı: "...Ayrı-ayrı şəhər və rayonlara səpələnmiş bu adamların, din libası geyinmiş bu keşişlərin hər sözündə məqsəd və cəhd var. Öz məqsədlərini cəhdləri üstündə quran bu adamlar daha ciddi və məxfi yerdən idarə olunur və maliyyələşdirilir..." ("Tədqiqat". J.Kenel. Paris. 1998. səh. 79)

1992-ci il fevralın 24-də mülkü geyimdə olan keşiş Leon Abramyan qədim erməni ailələrinin nümayəndələrindən ibarət "Xeyriyyə" Mərkəzi təşkil edir. Fevralın sonunadək mərkəzin 11 nəfər üzvü olur. Məlumata görə, ilk xeyriyyə iclası isə sərhəd kəndi olan Cəmillidə keçirilir. Lakin bir neçə gündən sonra mərkəzin mahiyyətini anlayan ermənilərin altı nəfəri etiraz edərək, "Müqəddəs Sultan-Karapet" qrupundan çıxırlar. Fevralın 28-də isə Gorusdan qrupa məxsus, Yerevan kəşfiyyat xidmətində işləmiş xüsusi dəstə Laçındakı mərkəzə gəlir və martın 1-də, əsasən, cənub istiqamətdə səpələnirlər. Təşkilatın üzvlərisə bilavasitə aşağıdakı vəzifələri icra etməli idilər.

- Erməni böyüklüyünü təbliğ etmək(?).
- Yerli sakinlərdən istifadə edib, onları maliyyələşdirərək şayiələrin yayılmasına nail olmaq.
- Azyaşlı oğlan uşaqlarını yığmaq və Gorusa gətirmək.
- Ayrı-ayrı nəsil və ailələr arasında ədavəti qızışdırmaq.

Məlumata görə, Gorusun şimal-qərb hissəsində salınmış Veraşin yaşayış məntəqəsində oğurlanmış uşaqların saxlanma bürosu var idi. Veraşin bürosunu təsvir edən Livan jurnalisti Məhəmməd Salim-Müslüm

yazır: "...Müharibə ərəfəsində Ermənistanın Azərbaycanla sərhəd rayonlarında belə saxlama kameraları çox idi. Bir qismi boş olsa da, əsasən, Gorus və Qafan ərazilərində yerləşdirilmiş belə kameraların bir neçəsində uşaqlar görürdüm. Onlarla maraqlandığımdan zonaya giriş mənə qadağan edildi. Amma gecələr uşaqların qorxulu qışqırıqlarını, səs-küyünü eşidirdim. Orada onları qorxudurdular..." ("Qorxulu nağıldan, qorxulu həqiqətlərədək". Beyrut. 1997-ci il. "Aş-Şərq" nəşriyyatı, səh. 104.)

Şübhəsiz, qorxu və stress insan geninə asanlıqla təsir edib, onu dəyişir və yaxud parçalayır. Bu barədə İsrail həkimlərinin də dəyərli tədqiqatları var. Məsələn, məlumata görə, Qüdsdəki Yəhudi İnstitutunun və Beer-Şevedəki Ben-Qurion adına universitetin alimləri ciddi açıqlamalar verib. Onların fikrincə, insan orqanizmi əsəb hüceyrələrindən - neyronlardan özünə "tor qurub". Onlar beyin mərkəzində baş verən hər hansı bir qıcıqlanma haqqında xəbər verir və beyin mərkəzindən orqanizmin bütün əzalarına bu ağrı siqnalı ötürülür. Neyronların normal funksiyaları üçün orqanizmdə xüsusi ağ qan hüceyrələri olur ki, onlar da əsəbləri təmin edir. Nə vaxt insanın, əsasən, uşaqların gözü qarşısında hər hansı terror aktı, ölüm hadisəsi, işgəncə və əzab baş verirsə, onun genində dramatik dəyişiklik, "travmalar" baş verir. Bu işin tədqiqatçısı, professor Xermon Sorek "ASNE" adlı geni öyrənib. Alim göstərir ki, uşaqlardakı hansı stress və qorxudan sonra bu gen dəyişir. Orqanizmdə əvəzolunmaz pis dəyişikliklər yaradır. Əlavə vurulan iynələrdən sonra bu dəyişiklik əbədi olur.

Nəticəyə baxaq: Martın 10-da Laçın rayonundakı Zabu kəndindən 2, Hacılardan 3, Pircahandan 2, Əhmədlidən 3, Quşçudan 1 nəfər... oğurlanır. Və bu hadisənin eyni gündə baş verməsini təkcə rayon prokurorluğu bilir. Martın 15-də isə həmin uşaqlardan altısı azad olunur, daha doğrusu, ermənilər onları öz əməliyyatlarını keçirdikdən sonra buraxırlar.

Araşdırmalarımıza görə, xaricdən, əsasən, Fransadan, Suriyadan, Livandan, Amerikadan və Rusiya Federasiyasından sərhəd zonalarına axıb gələn və bilavasitə kəşfiyyat xidmətilə əlaqələr quran dini icmaların liderləri və ideoloqları ilə görüşən erməni həkimləri Laçından, Qubadlı və Zəngilandan oğurlanan uşaqların üstündə "səyyar laboratoriyaları"nı qururdular. Məsələn, Laçın-Qubadlı istiqamətində "Qretta" erməni dini icmasının üzvlərilə Parisdəki Nekker adına xəstəxananın həkimləri arasında "Günəş uşaqları" adlı əməliyyat keçirildi. Rəsmi sənədlərdə bu, "xeyriyyə marafonu" kimi təqdim olunsa da, məsələnin mahiyyətində kölgəli, təxribat xarakterli maraqlar dayanırdı.

MDB çərçivəsində, xüsusən, Qafqazda qaçqın və köçkün çadır düşərgələrində laboratoriyalarını quran, kimsəsiz və yetim uşaqlar üzərində eksperimentlərini aparan, ölümlə nəticələnən işlər görən erməni hərbi həkimi Con Arakelyan 1994-cü ildə tələsik Ermənistanı tərk edir və 1996-cı il iyulun 14-də Vaşinqtonda həbs edilir ("Tribuna" qəzeti. Kaliforniya. 1996. N 26. səh.4).

1991-1992-ci illərdə Laçın rayonu ərazisində 17 nəslə son qoyulur. Məsələn, Abbasquliyevlərin 46 nəfər ailə üzvündən bu gün bir nəfər də salamat qalmayıb. MDB çərçivəsində, xüsusən münaqişə və yaxud müharibə zonalarında depressiyaya uğramış ailə və nəsilləri öyrənən, onun itmə və yaxud həyatdan silinmə səbəblərini araşdıran "Ətraf mühit və sağlamlıq məsələlərilə məşğul olan hökumət institutunun" (ABŞ) bu istiqamətdə ciddi nəticələri və bu nəticələr cərgəsində bəlalara məruz qalan Azərbaycan, onun erməni terrorçu birləşmələri tərəfindən işğal edilmiş əraziləri də var.

İnstitut direktoru, professor Kennet Olden 1997-ci ildə Ağ Evə ünvanlanmış hesabat sənədində xatırladır: "...Ermənistanın Azərbaycan istiqamətində apardığı müharibələrin nəticələlərinə gəlincə, burada təbiətlə insan arasındakı mütənasiblik pozuldu. Dağlıq Qarabağda, müharibə baş verən ərazilərdə qızıl torpaqların və nadir bitki və heyvanatın, dərman preparatları üçün çiçəklərin, kolların tələf olması ilə yanaşı böyük insan nəsilləri də sonadək qırılıb, sıradan çıxıb. Bu, müharibənin vurduğu ən eybəcər yaralardan biridir..." ("Science Digest" jurnalı. 1997. XII səh.14).

Araşdırmalarımıza görə, erməni cadugərlərinin və hərbi həkimlərin sərhəd zolaqlarında və işğal olunmuş ərazilərdə apardıqları "Etnik viruslar" məxfi proqramların birinci mərhələsi 1996-cı il mayın 21-də tamamlandı. Yaxşı olardı ki, itgin və əsir düşən qadın və uşaqların bir qismini Qərbin, eləcə də Şərqin erməni həkimlərinin çalışdıqları eksperimental institut və laboratoriyalarında axtarılsın və araşdırılsın. Xüsusən Azərbaycan ərazisindəki etnik qruplar üzərində tədqiqat aparan erməni həkimləri, eləcə də milliyyəti tam aydın olmayan təbibləri ciddi nəticələri olan araşdırmalar əldə ediblər.

1998-ci il avqust ayının 16-dan etibarən işğal olunmuş ərazilərə dünyanın bir sıra ölkəsində məskunlaşan erməni ailələrinin yaşlı nəsli köçürüldü. İlk köçürülən ailə nəsli 1935-ci ildən Fransada yaşayan Qabriel Ter-Qriqoryants və övladları oldu. Onlar Şuşada məskunlaşdılar. Həkim Qabriel Ter-Qriqoryants isə öz klinikasını Laçında açdı.

Araşdırmalarımıza görə, 2002-ci il fevral ayının 17-də Yerevanda keçirilən səhiyyə işçilərinin müşavirəsində mikrobiologiya sahəsində ciddi araşdırmalar aparan professor Akop Arakelyan son aylar erməni nəsilləri arasında pozulan biokimyəvi və genetik xüsusiyyətlərin çoxalması məsələlərini açıqladı. Professorun fikrincə, erməni ailələrinin təqribən 54,3 faizində "irsi dəyişkənliyin qanunları" pozulub. Məlumata görə, özünün mikrobioloji elmi araşdırmalarını, (1992-1997-ci illər arasında) əsasən azərbaycanlı əsirlər üzərində quran (onun Gorus və Vardenis yaşayış məntəqələrində qapalı laboratoriyaları var) professor Arakelyan çıxış yolunu Ermənistan ərazisini sağalmaz xəstəliklərə tutulmuş insanlardan təmizləməkdə, ərazilərin bioloji və ekoloji depressiyalara məruz qalan hissələrini bərpa etməkdə, şikəst və əlil olan, iş qüvvəsini anadangəlmə itirmiş şəxslər üçün ayrıca düşərgələrin yaradılmasında görür. O, bununla bağlı 2002-ci ilin fevral ayının 25-də təkliflərini ölkənin Təhlükəsizlik Şurasına təqdim edir və yazır: "...Cənab general! Mənim bu təkliflərim gələcək erməni nəsillərini fiziki cəhətdən sağlam, mənəvi cəhətdən zəngin, psixoloji cəhətdən möhkəm... əqli və zehni cəhətdən güclü olmasına yönəlib. Mənim bu proqramımı Ermənistan Milli Təhlükəsizlik Konsepsiyasının tərkib hissəsi kimi qəbul edin..." (Ermənistan. MEA-nın "Xüsusi bülleteni. Yerevan. 2002, 2 mart, səh. 12)

Məlumata görə, professor martın 3-də Ermənistan MN-nə dəvət olunur. Bu vaxt ondan xahiş olunur ki, irəli sürdüyü təkliflərlə bağlı xüsusi proqram hazırlasın. Professorla görüşən hərbi ekspert, kəşfiyyat polkovniki Arkadi Miqranyan bunu da xatırladır ki, proqram hazırlanarkən Ermənistanla məhdudlaşdırılmasın. Dağlıq Qarabağ ərazisi də nəzərə alınsın. Yerevanda, Baş Qərargahın maliyyə yardımı ilə çap olunan "Hərbi bülleten"in (1991-ci ildən rus və erməni dillərində min nüsxə ilə nəşr edilir) 2002-ci il 10-cu nömrəsində belə bir elan verilir ki, MEA-nın professoru A.Arakelyan ölkənin Təhlükəsizlik Şurasına 14 səhifəlik "Xüsusi proqramı"nı təqdim edib. Və bu proqramın işlənməsində, həyata keçirilməsində Ermənistan SQ-nin, xüsusi xidmət orqanlarının yardımı olmalıdır.

Araşdırmalarımıza görə, müzakirəyə çıxarılmış 14 səhifəlik "Xüsusi proqram"ın mahiyyəti aşağıdakı kimi açıqlanırdı:

- Birinci variant: Ağır və sağalmaz xəstəliklərə tutulmuş şəxslərin əhalinin sıx yaşayan şəhər ərazisindən çıxarılmasını təmin etmək. Vərəm dispanserlərinin, onkoloji xəstəxanaların, depressiyalara, sarsıntı və stresslərə məruz qalmış, nəticədə ağıl və əmək qabiliyyətini itirmişlərin sağlamlıq düşərgələrinin yaşayış mərkəzlərindən təqribən 200-250 km

aralıda salınmış zonalarda yerləşdirilməsi. İlkin mərhələdə bu proses Yerevan, Razdan, Kalso, Sevan, Sisyan yaşayış məntəqələrində aparılmalı və 2002-ci ilin mayın 10-dan 2004-cü ilədək davam etdirilməlidir.

- İkinci variant: Dağlıq Qarabağ ərazisində vərəm dispanserlərinin, onkoloji şöbələrin, digər profilaktik mərkəzlərin, laboratoriyaların tikintisini sürətləndirmək. Həkim briqadalarının həmin ərazilərə göndərilməsi işini təmin etmək... Xüsusi sağlamlıq zonalarını yaratmaq. 2002-2004-cü illəri əhatə edən xüsusi proqram hazırlamaq.

Professor A.Arakelyanın “Xüsusi proqramı”na martın 14-də MN-də əlavələr edildi, lakin Arakelyan komissiyanın tərkibinə salınmadı. Proqram hərbi həkimlərin məsləhət və təcrübələrinin, ekspert rəylərinin nəticələri fonunda yenidən işlənildi və martın 21-də aşağıdakı qaydada hərbçilərdən ibarət “işgüzar komissiya” yaradıldı.

- Araz Arustamyan (polkovnik-bioloq);
- Henri Baqdasaryan (mayor-hərbi xəstəxananın həkimi);
- Yangibar Qalustyan (MN-nin əməkdaşı, ekspert);
- Armaik Sattaryan (Toksikoloji İnstitutun əməkdaşı, professor);
- Akop Arakelyan (MEA-nın əməkdaşı, mikrobioloq, istefada olan kəşfiyyat polkovniki).

Araşdırmalarımıza görə, bioloq Araz Daraqunoviç Arustamyan 1957-ci ildə Xankəndində anadan olub. Azərbaycan dilini yaxşı bildiyindən 1983-cü ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsini bitirib. İki il Bakıdakı hərbi xəstəxanada çalışıb. Sonra daimi yaşamaq üçün Yerevana köçüb. İrsi dəyişkənliklə bağlı elmi araşdırmaları var.

Henri Ayvazoviç Baqdasaryan 1950-ci ildə Dəməşqdə anadan olub. Dağlıq Qarabağın işğalında könüllü erməni dəstəsində vuruşmaq üçün Yerevana gəlib. 1994-cü ildə nəşr olunan “Sisyan qəhrəmanları” qəzetində (qəzet 1993-cü ilin mayın 14-dən nəşrə başlayıb, 1995-ci ilin avqust ayının 9-da isə çapı dayandırılıb. Cəmi 26 nömrəsi çıxıb) onu şəxsən tanıyan, Aqudi kənd məktəbinin direktoru Zorik Alaverdiyan yazır: “...Mən eşidəndə ki, torpaqlarımızın (Qarabağ nəzərdə tutulur – V.S.,R.V.) azadlığı uğrunda vuruşan (?) qəhrəmanlardan biri Henri Ayvazoviçdir, sevindim. Onu şəxsən tanıyıram. Mən 1980-ci ildə Suriyada olanda Henri Ayvazoviçin vətənpərvər işinin bir daha şahidi oldum...” (“Sisyan qəhrəmanları”. 1994. N 19. səh. 3).

1992-ci ildə Dağlıq Qarabağda vuruşan Şahab Əl-Qasimin 1996-cı ildə Suriyada çap olunmuş “Vətənə yol...” siyasi oçerklər kitabında yazılır: “...Dağlıq Qarabağda vuruşanların arasında tanışlarım çox idi. Henri

Ayvazoviç onlardan biri kimi diqqətimi cəlb etdi. Bu adam Dəməşqdə Erməni Milli Azadlıq Hərəkatının üzvlərindən biri olub... "ASALA"-nın fəxri qovluğunda onun adı var..." (Dəməşq. "Əl-Vəhda" nəşriyyatı. "Vətənə yol" kitabı. 1996. səh. 34).

Ekspert Yangibar Erokuloviç Qalustyan 1980-1985-ci illərdə Gəncə vertolyot təmiri zavodunda mühəndis işləyib.

Araşdırmalarımıza görə, "Xüsusi proqramda" adı çəkilən Yerevan, Razdan, Kamo, Sisyan yaşayış məntəqələrinin hər birinin professor Akop Arakelyana görə, ciddi demoqrafik problemləri var. Onun Təhlükəsizlik Şurasına ünvanladığı hesabatda Yerevan və Sisyan ölkədə intiharı ən çox olan şəhər kimi fakt və rəqəmlərlə göstərilir (2002. III-30). Məsələn, alimə görə, 2001-ci ildə Yerevanda intiharın sayı 2000-ci ilə nisbətdə 2,5 dəfə çox olub. Ayrıca Yerevan ərazisində heç bir sindroma bənzəməyən vərəm xəstəliklərinin virusları aşkar edilib. Yerevanda, Kamo və Razdanda ayrıca vərəm sindromu yaranıb. Bu sindromların müalicəsi üçün hələlik heç bir preparat-vaksin aşkar edilməyib. Nəticədə 2001-ci il fevralın 25-dən etibarən Ermənistan Səhiyyə Nazirliyinin kollegiyasının qərarı ilə Yerevanda, Razdan və Kamoda vərəm dispanserləri, təcrübə laboratoriyaları bağlanılır. Kamodakı vərəm dispanseri Vardenis rayon ərazisinə köçürülsə də, yerli əhalinin etirazına səbəb olur. Nəticədə, məlumata görə, vərəm dispanseri bir neçə gündən sonra, 2001-ci ilin martın 2-də Vardenisdən işğal olunmuş Kəlbəcər ərazisindəki Zar yaşayış məntəqəsinə köçürülür.

Məlumata görə, Ermənistan Təhlükəsizlik Şurasında bu məsələyə strateji baxımdan ciddi və mühüm bir məsələ kimi yanaşılıb. Birinci mərhələdə 40 nəfərdən ibarət səriştəli və təcrübəli həkim briqadası səfərbər olunub. Gorusdakı və Sisyandakı tibb texnikumunun işsiz qalmış məzunlarından ibarət könüllü dəstələr yaradılır. On gün müddətində hərbçilərin köməyilə Zəngilan, Cəbrayıl və Füzuli rayonlarında, eləcə də Qubadlı, Hadrud, Ağdamda dağılmış 34 ev təmir olunur.

Araşdırmalarımıza görə, Yerevan məmurlarının işğal etdikləri Dağlıq Qarabağ istiqamətində köçürmə siyasəti heç də bu günün planı deyil. Bütün bu siyasət 1994-cü ilin fevral ayında başlayıb. 2000-ci ilin may ayının 5-də isə Ermənistan Təhlükəsizlik Şurasında "Erməni xalqının milli təhlükəsizlik probleminə dair" sənədinin müzakirəsi zamanı səsləndi (General O.S.Baqdasaryanın çıxışında). Və müzakirə zamanı bu da qeyd olundu ki, MDB çərçivəsində "sıxılan və əzilən, tənha qalan" erməni millətinə yardım üçün xaricdəki icma başçılarına, kilsə rəhbərlərinə müraciət edilsin. Əldə etdiyimiz məlumata görə, 2000-ci ilin iyul ayının

7-də (saat 21.00-da. Bakı vaxtı ilə) Vatikan radiosu ilə Roma Papası II İohann Roma ərazisində yaşayan ermənilərə müraciət edir. Roma Papası müraciətində belə bir açıqlama da verir ki, ərazidə yaşayan ermənilərdən kim Dağlıq Qarabağ ərazisinə köçmək, orada ev-eşik sahibi olmaq, "söndürülmüş ocaqları" yenidən alışdırmaq istəyirsə... ona xeyir-dua verməyə hazırdır.

## İşğal olunmuş ərazilərimizə gələn erməni köçü

Araşdırmalarımıza görə, Romadan ilk erməni ailəsi, iş adamı, "keşiş Albertinonun atası" Eramuş Sarkisyan oğlu ilə birgə Xankəndinə gəlir (2002-ci il. VII-21. "Stainra Sera" qəzeti, N81. səh.4). Və bu günədək E.Sarkisyan Xankəndində yaşayır. Onun ardınca isə, 2001-ci il aprelin 15-20-si arası İtaliyadan 26 erməni ailəsi Dağlıq Qarabağa yaşamaq üçün yola düşür.

Əldə etdiyimiz faktlardan bu da aydın oldu ki, hələ 2000-ci ilin mayın 5-də keçirilmiş iclasdan sonra prezident Robert Köçəryanın imzası ilə Fransada, Amerikada (əsasən Kaliforniyada), İranda, Rusiya Federasiyasında, Argentinada, Livanda, Liviyada, Suriyada... yaşayan erməni icmasının başçılarına yardım məktubları göndərilir. Həmin məktublardan biri 2000-ci il iyunun 9-da Parisdə nəşr olunan "La Vie" ("Həyat") jurnalında çap olunur (N28, səh. 2). Ümumiyyətlə, 1994-2001-ci illər ərzində işğal olunmuş Azərbaycan torpaqlarına xaricdən köçürülmüş və yaxud yaşamaq üçün gəlmiş ermənilərin siyahısına gəlincə, bu, aşağıdakı kimidir:

1. Fransa:

- Paris: 21 ailə (1992-ci ildə), 3 ailə (1995-ci ildə), 19 ailə (1999-cu ildə), 33 ailə (2000-ci ildə).
- Marsel: 15 ailə (2000-ci ildə),
- Lion: 8 ailə (2000-ci ildə),

2. Livan:

- Beyrut: 42 ailə Ermənistana gəlib. Ondan 13 ailə Xankəndinə köçüb (1999-cu ildə).

3. Argentina:

- Buenos-Ayres: 5 ailə (2000-ci ildə).

4.Amerika Birləşmiş Ştatları:

- Nyu-Cersi: 7 ailə (1998-ci ildə),
- Vaşinqton: 4 ailə (1999-cu ildə)
- Kaliforniya: 11 ailə (1999-cu ildə), 4 ailə (2000-ci ildə)

5. Suriya Ərəb Respublikası
- Dəməşq: 9 ailə (1996-cı ildə), 2 ailə (1997-ci ildə) Yerevana qayıdıb.

6. Liviya:
- Tripoli: 16 ailə (1995-ci ildə).

7. Sudan:
- Xartum: 3 ailə (1999-cu ildə)...

[Bulleten - I.R.S” (Paris, 1997. N6), “Ararat”- (Livan, 2000. N26.), “La Nacion” (Argentina, 2000. N28), “America”-(Nyu-York, 2000.N4), “Tishrin” - (Suriya, 2000. N16), “Al-Fayr al-Yadid”-(Liviya, 1996. N2), “Al-Sahafa” - (Sudan. 2000. N12).]

Əldə etdiyimiz digər məlumatlara görə, bu adamların bir qismi Yerevan rəsmiləri tərəfindən ikili vətəndaşlıq sənədləri də alıb.

**Əldə olunmuş digər məlumatlardan aydın olur ki, işğal olunmuş ərazilərimizə son 10 ildə Suriyadan 78, İraqdan 47, İrandan 12, RF-dən 31, Avstriyadan 19, Fransadan 11, Argentinadan 16, ABŞ-dan 17, Türkiyədən 21 erməni ailəsi köç edib. Bütün bu qeyri-qanuni immiqrasiya siyasətini ermənilərin Xankəndində yaratdıqları "Vətən çağırır" (?) separatçı təşkilatının əməkdaşları icra edirlər.**

# XOCALI SOYQIRIMINDA "ƏL-QAİDA"nın İZLƏRİ

Üsəma bin Ladenin «nüvə araşdırıcıları» üçün buraxılan kitabın üz qabığında belə bir ifadə var: «***…Hər şey cihad üçün***». Kitabın 11-ci səhifəsində yazılıb: «…Biz öz raketlərimizin, tərkibi uran olan mərmilərimizin üstündə bir imza yazmalıyıq: «Cihad üçün, İslam üçün…». Bütün bu silahları düşünməyin ki, haradasa qurub, kiməsə yönəldəcəyik… Yox… Biz bütün bu raketləri elə Amerikanın öz ərazilərində quracağıq… Biz bu silahları Balkanlarda quracağıq… Biz bu silahları Orta Asiyada quracağıq… Biz bu silahları Zaqafqaziyaya nəzarət etmək üçün Gürcüstan şəbəkəsində quracağıq…».

Məhz bundan sonra Üsəma bin Laden Balkanlarda ikinci cəbhəni açdı. Onun Kosovoda, Metoxiyidə, Makedoniyada, cənubi Serbiyada, Albaniyada, Bosniya və Herseqovinada radikal dayaqları var. Üsəma bin Laden əslində Balkanlarda «Avropaya qarşı 2-ci cəbhə» açdı. Digər cəbhəni isə o, Orta Asiyada açaraq, Güney Qafqaz üçün «Gürcüstan şəbəkəsi»ni yaratdı. Balkanlarda yaratdığı «Balkan mübarizə gücü» təşkilatına misirli Əymanəz- Zəvahiri başçı təyin edildi. Tiranada qərargahı açıldı.

«Əl-Qaida»nın cənubi Serbiyadakı koordinatoru milliyyətcə erməni olan, 1992-ci ildən Yerevandan mühacir etmiş İsfand Sərdaryandır. O, 1989-91-ci illərdə Krasnodardan hərbi xidmətə çağrılıb. Xocalıda 1992-ci ilin fevralın 25-dən 26-na keçən gecə baş verən qırğınlarda, kütləvi qətliamda iştirak edib. Buna görə ermənilər onun şəklini poçt markalarında dünyaya yaydılar. 2009-cu ilin dekabrın 15-dən isə ermənilərin terrorçunu təbliğ etmək kompaniyası dayandırıldı. Çünki dünya mətbuatı artıq onu Xocalı cinayətkarı kimi tanıtmaqda materiallar yaydı.

Erməni terrorçusu İsfand Sərdaryanın əqidə dostu olan Şeyx Əyman əz-Zəvahiri isə 18 yaşında olarkən Dağıstanda həbs olunub. O, Londonda öz radikallığı ilə seçilən, ölkənin «Mİ-6» kəşfiyyat idarəsi ilə əlaqələr quran «Müsəlman təşkilatı»nın üzvləri ilə də görüşüb. 2001-ci il avqustun 4-də baş tutan bu görüşün mahiyyəti açıqlanmasa da, Üsəma bin Ladenin başçılıq etdiyi «Əl-Qaida»nın ölkəyə mühacir etmiş MDB ölkə vətəndaşları ilə əlaqələrin qurulmasını təşkil edirdi. Üsəma bin Laden «Müsəlman təşkilatı»nın liderləri Əbu Həmzə əl- Məsri və Əbu Koutədin qarşısında əsasən iki vəzifə qoydu.

**1. Nüvə texnologiyası və materiallarının MDB ölkələrindən daşınma yolları haqqında məlumatların toplanması.**

**2. Nüvə məsələləri və tədqiqatı ilə məşğul olan alimlərin, analitiklərin «Əl-Qaida» bürolarına cəlb edilməsi.**

Avqust ayının 12-də Ermənistan vətəndaşı, AES-in sabiq işçisi, fizika elmləri doktoru Rudolf Ayvazxanoviç Manukyanın «Müsəlman təşkilatı»nın liderlərindən olan Reda Hüseynlə görüşü təşkil olunur. Avqustun 14-də isə R.Manukyan Fransanın Londondakı səfarətxanasında Parisdən təşrif gətirən Xarici Təhlükəsizlik Baş İdarəsinin əməkdaşları ilə görüşür. Avqustun 17-də R.Manukyan Londonun «Fkisbern» və «Ricens» parklarında islamçılar üçün salınmış təlim mərkəzlərində olur.

Bu görüşlərdə Londonun Paris Təhlükəsizlik Xidməti ilə üst-üstə düşən mövqeyinə heç olmasa, ABŞ MKİ-nin münasibəti açıqlanmalı idi. Kəşfiyyat ən azı «Fkisbern» parkında qurulan laboratoriyadan və ora işləmək üçün (yüksək maaşla) cəlb olunmuş erməni aliminin məxfi planlarından xəbər tutmalı və lazımi açıqlamalar verməli idi. Həmin ilin sentyabrında təkcə «Ricens» parkındakı təlim düşərgəsinə Yerevandan 1962-ci il təvəllüdlü, DU-nun riyaziyyat fakültəsinin məzunu Aşot Odabekyan və Levon Soomoviç Sitafyan gəliblər.

Apardığımız araşdırmalar bunu da göstərir ki, islam ekstremist dəstələrinin, eləcə də nüvə və digər kütləvi qırğın silahları axtarışında olan «Əl-Qaida»nın MDB ölkələrinin strateji obyektləri ilə maraqlanmaları Rusiya prezidenti V.Putinin başçılığı ilə keçirilən Təhlükəsizlik Şurasının iclasında (16 sentyabr 2001-ci il) müzakirəyə çıxarıldı…

...Məhəmmədin sayca 19-cu oğlu İbrahim bin Laden 1984-cü ildən "Laden" beynəlxalq tikinti şirkətinin əsasını qoydu və ixtisasca tikinti mühəndisi olan İbrahim bin Laden 1999-cu ildə Dağlıq Qarabağın Xankəndində göründü. İki gün sonra onun səsi Laçın və Şuşadan gəldi. 1999-cu il iyun ayının 16-da və 19-da Dağlıq Qarabağın "Artsax" telekanalında müsahibə verdi (?). Bu zaman onun yanında Nyu-Cersi (ABŞ) ştatında milyonçu, tikinti şirkətinə başçılıq edən Qirayn Ovanyan adlı birisi də var idi. Milyonçu Ovanyan İbrahim bin Ladeni başa salmağa çalışırdı ki, Dağlıq Qarabağda ermənilər artıq "...Gümüş toyu çalıb qurtarıblar..."

İbrahim bin Ladenə gəlincə, o, Məhəmmədin milliyyətcə erməni olan, Suriyada (Dəməşq) yaşayan tacir Afik Akopyanın qızı Ləyyadan olan oğlu idi (?).

Çünki milyonçu, mərhum Məhəmməd bin Ladenin ailəsi qan qohumluğuna görə bölünürdü. Onun suriyalı erməni qadından olan övladları bir cəbhə idi, İordaniya qadınından olan övladları isə başqa bir

cəbhə... Lakin bütün bunlara baxmayaraq onların hamısı mərhum Məhəmmədə tabe idi.

Zahirən "Laden" tikinti şirkətinin başçısı kimi tanınan İbrahim bin Laden ərazisindən uran çıxarılan, təbii sərvətlərindən bir sıra kimyəvi məhsulların hazırlanması üçün şəraiti olan ölkələrin hər birində investisiya qoyur. Suriya, İraq, İran, Pakistan, Hindistan, Çin, Rusiya Federasiyası, Amerika, İngiltərə, Almaniya... torpaqlarında onun öz tikinti dəstəsi var və bir qismi bu gün də çalışır. "Laden"çilər həmin ərazilərdə dərman fabrikləri tikir, nüvə qalıqları üçün anbarlar inşa edir, tam məxfi şəraitdə işləyə bilən elmi tədqiqat laboratoriyalarının özülünü qoyurlar. ABŞ MKİ-nin məxfi sənədlərində "üçüncü dövlət" kimi - daha doğrusu, tranzit dövlət və yaxud ərazi kimi nüvə materiallarının qaçaqmalçılıq yolu ilə daşınmasını və ya ötürülməsini təmin edən mərkəzlərin sırasında Ermənistanla Əfqanıstan da güstərilir. (?).

## "Vadi əl-Kaid" Yerevanda və Kəlbəcərdə

Bu da maraq doğurmaya bilmir ki, 2000-ci il may ayının 4-də İbrahim Ladenə məxsus (qoyulan investisiya ona məxsusdur) "Vadi Əl-Kaid" şirkətinin filialı Yerevanda təşkil olundu. Ermənistan Dövlət Universitetindən (o ərazidə) cənub-qərb tərəfdə, əsas binadan təqribən 500 metr aralı A.Manukyan küçəsində ona ofis verildi. 1994-2000-ci illərdə Yerevan Dövlət Universitetini bitirən 9 nəfər əfqan tələbənin bütün xərclərini məhz "Vadi Əl-Kaid" şirkəti çəkib (?). Həmin tələbələr üçün (işğal olunmuş) Kəlbəcər ərazisinin şimal istiqamətində salınmış İstibulaq-Çaykənd zonasında istirahət təşkil edilib və onlara "Vadi Əl-Kaid" şirkətinin məsul iş adamı Əyyubxan Şirzad 055 nömrəli briqadanın (üstündəki təsvir: kəsişən qılınc, Yer kürəsi və Quran) nömrələri yazılmış vəsiqələri təqdim edib.

## NƏZARƏTSİZ ZONANIN— İŞĞAL OLUNMUŞ DAĞLIQ QARABAĞIN ERMƏNİ TERRORÇULARI

1992-ci ilin iyun ayının 12-dən Qarabağda könüllü mücahidlər dəstəsi kimi formalaşan "Evkrapa" terrorçu qrupunun məlum 055- nömrəli Laden briqadasının üzvlərilə müştərək iş birliyi qurulur. Vaxtilə "Araratsement" zavodunun keçmiş direktoru olmuş, Ermənistanın eks-baş naziri Aram Sarkisyan tərəfindən maliyyələşdirilən bu təşkilatın üzvlərinin iki qrupu - "Artsax-3" və "Aram-4" - qrupları Azərbaycanın işğal olunmuş Kəlbəcər rayonu ərazisinin Orta-Qaraşanlı və Ağcakənd yaşayış məntəqələri ərazisinə bilavasitə nəzarət edirlər... "Düşənbə-Moskva" aviareysində (reys N 632) narkobiznes mafiyasında ittiham olunan Qarun Xanzadyan və Taran Sirdaqyan ifşa olundular. Bu da məlum oldu ki, hər iki şəxs 2000-ci ilin sentyabr ayının 26–dan 30-dək "Evkrapa" dəstəsində Ağcakənddə olmuş, Düşənbədə məskunlaşan narkobiznes mərkəzinə Kəlbəcərin və Laçının, həmçinin Xankəndinin ətraf kəndlərinin coğrafi xəritəsini özlərilə götürmüşlər (?).

***Qısa arayış***: 1962-ci ildə Beyrutda anadan olub. 1992-ci ilin may ayının 1-dən Dağlıq Qarabağda terror aktlarında iştirak edib. İxtisasca həkim olan Orlik 17 nəfərlik muzdlu dəstə ilə Şuşada vuruşub. Həmin an Şuşa həbsxanasında olan dörd azərbaycanlını qətlə yetirib. Digər bir məlumata görə, Orlikin başçılıq etdiyi bu dəstə 1992-ci ilin sentyabrın 12-də Ermənistan Ədliyyə Nazirliyində qeydə alınıb. Özü də yardım edən, xeyriyyəçi təşkilat kimi.

Maliyyə mənbələri:

a) Narkotik maddələrin qaçaqmalçılıq yolu ilə alınıb, daşınmasından əldə olunan gəlir.

b) Dağlıq Qarabağ ərazisindən nüvə texnologiyasının üçüncü dövlətə ötürülməsindən gələn gəlir.

Təşkilatın Baş Qərargahı Livandadır. 1993-cü ilin aprelin 9-dan etibarən "Qayıdan qəhrəmanlar" təşkilatı Kəlbəcər rayonunun (1936 kv.km. ərazi). Başlıbel yaşayış ərazisində fəaliyyət göstərirdi. 2002-ci ilin yanvarın 10-dan etibarən bu təşkilat həm Başlıbeldə və həm də Şuşanın

Xəlfəli kəndində öz ofisini açdı. (Bax: “Zartunk” qəzeti, 1994-cü il (Beyrut), “Ramqavar” Erməni partiyasının qəzeti, 13 iyul, səh.2. “Orlikin dəstəsi qayıtdı” müəl: O.Allahverdiyan).

Dağlıq Qarabağ ərazisində Ermənistan Ədliyyə Nazirliyində 2001-ci ilin iyunun 17-də qeydiyyatdan keçmiş “Milli Dirçəliş Təşkilatı” da (Yunanıstan) 1992-1993-cü illərdə Laçın və Kəlbəcərin işğalında fəal olublar. Gerbi, himni və nizamnaməsi qana bələnmiş bu təşkilatın başında milliyyətcə erməni olan, snayperçi qadın Elvira Qalustyan dayanır. İxtisasca uşaq həkimi olan E.Qalustyan Dağlıq Qarabağda ilk amputasiya otağının təşkilatçısı olub (Kəlbəcər). Xocalı faciəsində altı nəfərlə iştirak etmiş “Elviranın qrupu” uşaqların öldürülməsində və yandırılmasında iştirak edib. Bu qadının fəaliyyət dairələrindən biri də DQ ərazisindən çəkdiyi kadrları ərəb ölkələrində, Kipr və Yunanıstanda “erməni millətinin faciəsi” kimi yayıb, nümayiş etdirməsidir...

Məlumata görə, bu təşkilatın özünəməxsus təlim-məşq zonası var. Onlar burada terror aktlarının yerinə yetirilməsi, təşkili və bu istiqamətdə informasiyaların toplanması, həmçinin “Həmzə” deyilən dərs proqramlarının icrası qaydalarını öyrənirlər. ( “Hücum” qəzeti, 2001, IV-8, səh. 2)

Araşdırmalarımız nəticəsində bu da aydın oldu ki, Dağlıq Qarabağda zahirən sakitlikdir. Həqiqətdə bu nəzarətsiz zonaya bəlkə də hər gün yeni-yeni şirkətlər, dəstə və qruplar ayaq açır. Daha dəqiq desək, ermənilər tərəfindən işğal olunmuş ərazilərimiz yaxın gələcəkdə beynəlxalq terrorizmin yuvalarından biri kimi tanınacaq. Bütün bu qeyri-qanuni işlər Avropa Şurası həmsədrlərinin, eləcə də BMT-nın nümayəndələrinin gözü qarşısında baş verir.

Araşdırmalarımıza görə, Suriyada özəli qoyulmuş “Qaflan” kürd separatçı təşkilatının liderlərindən olan Cəmil Bank (kapitan) və “ASALA” erməni terror təşkilatının bir qolu olan “Qara qartalın Akopu” adlı dəstənin 9 nəfərlik üzvü Yerevana, oradan da Sisyan rayonuna gəlirlər. Onlar Laçın ərazisinə yaxın olan Xnatsak erməni kəndində məşvərət keçirirlər. Məşvərətdə Rusiya tərəfindən Baş Kəşfiyyat İdarəsinin altı nəfərlik qrupu (başçı polkovnik Aleksandr İvanoviç Aleksandrov), Yerevan MN-nin məsul eksperti, 1980-1986-cı illərdə Azərbaycanın sərhəd qoşunlarında xidmət etmiş Arkadi Aqayan iştirak

edirdi. Həmin gecə Xnatsakdan Malıbəyli və Caqazur (Laçın ərazisi) kəndlərinə ilk silahlı erməni dəstəsi girdi. Laçında və Şuşada "Qaflan" kürd separatçı təşkilatının özəyi yarandı.

Fikrimizcə, artıq bütövlükdə Türk dünyasının irili-xırdalı xalqları "Regional Vahid Təhlükəsizlik Doktrinası"nın yaradılması uğrunda baş sındırmalıdırlar. Maraqlıdır ki, ərəb dünyası, yəni Fars Körfəzi ölkələri artıq belə bir birləşmənin istəyilə çıxış edir. Birləşmiş Ərəb Əmirliklərinin generalı, BQ rəisi Şeyx Məhəmməd bin Zahid əl Nahayyan təklif edir: "...Təcili birləşmək vaxtıdır. Təhlükəsizlik doktrinasını yaratmaq lazımdır. Xarici silahlı qüvvələr müvəqqətidir. Ərəblərin mənafeyinə görə İraqı da bu birliyə dəvət etmək lazımdır... Birləşmək... Birləşmək... Birləşmək..."

Bu, neftlə dünyanın infrastrukturlarını hərəkətə gətirən ərəb dünyasının kütləvi qırğın silahları hazırlayan və yaxud istehsalı üçün düşünən ölkələrə və yaxud terrorçuluğu öz dövlət siyasətindən ayırmayan məkrli düşmənlərə qarşı strateji proqramıdır.

# ƏSİR UŞAQLARIN SATILMASI

1992-ci ildən Ermənistan hərbi kəşfiyyatında xidmətdə olan, 2001-ci ilin may ayından başlayaraq “Vətən” cəmiyyətinin Fransa bölgəsində çalışan polkovnik Daniel Aruşanbekyan və 1996-cı ildən Yerevan Təhlükəsizlik Xidmətində İcevan rayon şöbəsinin rəis müavini işləyən polkovnik Marsel Avakyan “Hayastan” xeyriyyə cəmiyyətinin Xankəndi şəhər mərkəzində aparıcı vəzifələri tuturlar. Bu şəxslər bilavasitə əsir uşaqların xaricə daşınmasında, onların terrorçuluqla məşğul olan təlim düşərgələrinə göndərilməsində, zəhərli dərman fabriklərində, uranı zənginləşdirən zavodlarda işlədilməsində ittiham olunası adamlardır. ***Qeyd:*** – Ata və analarından məhrum olan, kimsəsiz və tənha qalan əsir və girov götürülmüş Azərbaycan uşaqlarının bir müddətdən sonra öz vətənlərində və dünyanın istənilən nöqtəsində terror aktlarını həyata keçirə biləcək şəxsə dönəcəklərinə isə şübhə etməyək.

Bu da maraqlıdır ki, Qərb, xüsusən ABŞ-ın administrasiyası dünyada baş verən son terror aktlarında bilavasitə islam terrorçu təşkilatlarını günahlandırır. Halbuki, ölkənin (ABŞ-ın) xüsusi xidmət orqanlarının “ASALA” erməni terror təşkilatının Livan, Marsel (Fransa), Suriya, Kanada, Kipr, Argentina, İraq ərazilərində fəaliyyət göstərən təlim düşərgələrilə birgə əldə etdikləri araşdırmaları təhlil edən tapılsaydı, maraqlı və ciddi mənzərələrin, nəticələrin şahidi olardılar. Buna isə hələlik heç kəs ehtiyac duymur. Azərbaycan tərəf həm ABŞ-dan, həm RF-dən tələb edib ki, onlar işğal olunmuş Azərbaycan ərazilərində məxfi qaydalarda salınmış əsir düşərgələrinin, terror məskənlərinin, narkotik plantasiyalarının süni peyklər vasitəsilə əldə etdikləri fotoşəkilləri və digər sənədləri açıqlasınlar. Şübhə etməyək ki, bu gün "Xocalıya Ədalət!" çağırışı böyük dövlətləri ermənilərlə münasibətdə sual qarşısında qoyub. Beynəlxalq terrorun bir qolu olan erməni terroruna qarşı strateji bir xətt götürən "Xocalıya Ədalət!" çağırışı artıq bəşər övladını ciddi-cəhdlə düşündürür.

## METRONUN PARTLADILMASI PLANI LİVAN GÖRÜŞLƏRİNDƏ

1994-cu ilin iyun ayının 3-də (səhər saat 8:31 dəqiqədə) Bakı metrosunun partladılması planı da elə Beyrutda - redaksiya binasında müzakirə edilmişdi. Bu terror aktının keçirilməsində qərara alınmışdı ki, kürdlərin radikal qanadlarından istifadə olunsun. Bununla əlaqədar PKK-nın Cənubi Kiprdə qərar tutan təlim düşərgəsinə də müraciət edilmişdi. Lakin "Ramr" təlim düşərgəsinin liderlərindən olan Cəlil Fəxr Alim belə bir aksiyada iştirak etməkdən imtina etmişdir. 1994-cü ilin iyun ayının 17-də məşvərət iştirakçısı Robert Köçəryanın fikrincə, bu aksiyanın keçirilməsində daha həssas olan ləzgi və yaxud talış etnik qrupundan istifadə edilməsi məqsədəuyğun bilindi: "...Azərbaycanda, ilk növbədə, dramatik bir mənzərə yaratmaq lazımdır. Növbəti hərbi əməliyyatlaradək biz həm psixoloji, həm də informasiya müharibələrində udmalıyıq. Bütün bunlardan sonra qələbə üçün şansımız təmin olunur. Rusiyasız və İransız (?) heç bir qələbəmiz təmin olunmayacaq. Bunu da yaddan çıxarmayaq..." (Qovluq: 19210 - ünvan: Şkuleva, 272).

1994-cü ilin iyun ayının 21-də Xankəndinə qayıdan Zori Qaykoviç Balayan Şuşa, Laçın, Kəlbəcər, Kərkicahan, Qubadlı, Xankəndi şəhər həbsxanalarına baş çəkir. Milliyyətcə kürd olan əsirlərin siyahısını tərtib edir. İyun ayının 24-də isə o, Xankəndi əsirlərinin saxlandığı ərazidə plana uyğun olaraq Azərbaycanda terror aktlarını həyata keçirə bilən şəxslərlə ayrı-ayrılıqda söhbətlər təşkil edir. İyun ayının 25-də, saat 21:00-da Xankəndində əsir kimi əzab və işgəncələrə məruz qalmış, milliyyətcə ləzgi olan Azər Salman oğlu Aslanovu tapır... Xankəndi hərbi əks-kəşfiyyatının mayoru Alik Manilyanın və müstəntiq Serj Ter-Qriqoryantsın iştirakı ilə keçirilən "verbovka əməliyyatı"nda iştirak edir. Bu zaman bədnam "yazıçı" Zori Balayan "ASALA" beynəlxalq erməni terror təşkilatının tapşırıqlarını yerinə yetirirdi.

### "Aztaq" qəzeti yazırdı...

Torpaqlarımızın işğalında Suriyaya "arenda"ya verilmiş RF-yə və Ukrayna HHQ-nə məxsus yük təyyarələri də "fəallıq" göstəriblər. Araşdırmalarımıza görə, yük təyyarələrindən birinin heyəti "Matevosyan qrupu" adlanırdı. Və bu qrup 1993-cü il may ayının 6-da və iyul ayının 9-da Suriyanın Aleppo yaşayış məntəqəsindən Yerevana uçub, müxtəlif növ

silah və digər hərbi sursat daşıyıb. Həmin silahların bir qismi də Ermənistan MN-nin xəttilə Dağlıq Qarabağ istiqamətində fəaliyyət göstərən, "özünümüdafiə" yarlığı ilə işğalçı mövqedə dayanan "ASALA" erməni terrorçu qruplar arasında bölüşdürüldü. Və bu silahların da bir qismi 1993-cü ilin aprel ayının 16-da Birləşmiş Ərəb Əmirliklərində Dubayda keçirilən beynəlxalq sərginin Rusiya Federasiyası bölməsində nümayiş etdirilən silahlar idi. RF-nin hərbi zavodlarında istehsal olunmuş müasir silahların Dubaydan Dəməşq, oradan Yerevana, sonra isə DQ-a ötürülməsi xüsusi planın tərkib hissəsi idi. Artıq DQ silah anbarına çevrilmişdi. Məlumata görə, DQ ərazisində fəaliyyət göstərən "ASALA" terror qrupları üçün aşağıdakı miqdarda silah və digər hərbi sursat göndərilmişdi:

- Xankəndində yerləşən hh 10-201 nömrəli "ASALA" qrupuna 72 min ABŞ dollarlıq həcmində müasir silah;
- Şuşada yerləşən hh 01-604 nömrəli "ASALA" qrupuna 44 min ABŞ dollarlıq həcmində müasir silah;
- Kəlbəcərdə yerləşən hh 61-601 nömrəli "ASALA" qrupuna 39 min ABŞ dollarlıq həcmində müasir silah.

Araşdırmalarımızdan bu da aydın oldu ki, DQ ərazisində fəaliyyət göstərən terrorçu qruplara ilkin nömrələr Ermənistan MN-də qoyulmuşdu. DQ-da yaradılmış BQ-da isə bu nömrələri daşıyan qruplar hərbi hissə kimi qeyd alındı.

"ASALA" erməni terrorçularının əlinə keçən ən müasir silah isə əsasən tank əleyhinə işlədilən "Şturm-S" kompleksi idi. RF-nin hərbi sənaye komplekslərində istehsal olunmuş bu silahın DQ ərazisində peyda olunması səbəblərini BQ (Moskva) heç cür aydınlaşdıra bilmirdi. Digər tərəfdən, ekspert materiallarının araşdırılmasından sonra bu da bəlli oldu ki, 1994-cü il 25 mart saat 23.30 dəqiqədə Xankəndinin şimalında vurulan İran şirkətinə məxsus "S-130" "Herkules" tipli sərnişin təyyarəsi (Moskva-Tehran) məhz həmin silahla vuruldu. Çünki təyyarə aşağıdan uçurdu... Ekspertlərin rəyində atılan mərminin sürəti, hədəf zərbəsi, dağıdıcılıq radiusu eynilə "Şturm-S" silahının əlamətləri ilə üst-üstə düşürdü. Nəticədə 32 diplomat ailəsi həlak oldu.

... 1993-cü ilin dekabr ayının 26-da isə Xankəndinə Fransanın Viller-Kotre yaşayış məntəqəsindən üstündə məxfi möhürü olan (məktublar ilkin olaraq Ermənistanın MN-nə göndərilmişdi) iki bağlama göndərilir. Bağlamaları da Xankəndinə Ermənistan MN-nin BQ-də çalışan zabit Aslanyan çatdırmışdı. Dekabr ayının 27-də həmin bağlamalar DQ "özünümüdafiə komitəsi"nin BQ-da açıldı. Üstündə "Böyük Ermənistan"

xəritəsi cızılmış və "ASALA" sözləri yazılmış biletlər təntənəli surətdə öz sahiblərinə təqdim edildi. Robert Setrinoviç Köçəryana və Zori Qaykoviç Balayana. Hər iki bilet nömrəsiz bilet idi. Ermənilər belə biletlərə "fəxri-təəssübkeş biletlər"i deyirdilər. Hər iki biletdə möhür və "Tilovyan" imzası var idi. (Barat Tilovyan "ASALA"nın DQ-dakı daimi nümayəndəsi kimi səlahiyyətə malik olsa da, hələlik Fransada BQ-da çalışırdı).

Beləliklə, Zori Balayan və Robert Köçəryan əsl terrorçu kimi "ASALA"nın fəxri siyahısına düşdülər.

* * *

Hər şey Şuşadan idarə olunurdu. 1992-ci il sentyabr ayının 26-da isə Şuşada - Baş Qərargahda "Hayastan" (1991-ci ilin iyul ayının 4-də yaradıldı. Başçısı L.Gülbekyan), "Haydad" (filial 1992-ci ilin mart ayının 2-də yaradıldı. Başçısı S.Karacanyan), "Ksammet" (filial 1990-cı il fevralın 23-də yaradıldı. Başçısı kapitan N.Ağabekyants), "Artsax" (1989-cu ilin noyabr ayının 12-də yaradıldı. Başçısı F.Feliksyan)... Rusiya erməni diasporunun liderlərindən olan Edvand (Edmund) Safaryan, Suriya erməni diasporunun Dəməşqdə təsis etdiyi "Yeish al-Shaab-Armenia" ("Ermənistan xalq ordusu") cəmiyyətinin üzvlərindən Ağaran Stepanyan, Livan erməni diasporunun Beyrutda yaratdıqları "Daşnaksütyun" təşkilatının hərbi qanadına başçılıq edən Abakum Avakyan... eləcə də "ASALA" terror təşkilatının Fransa, İngiltərə, İspaniya, İran, Argentina, İraq mərkəzlərindən gəlmiş nümayəndələrin (L.Kasparyan, A.Duriyan, S.Tiqranyan, D.Sumbatyan, Ş.Ararat...) iştirakı ilə hərbi müşavirə keçirildi. 1992-ci ilin sentyabr ayının 30-da isə Beyrutda (Livan) erməni dilində nəşr edilən "Aztaq" ("Mövqe") qəzeti keçirilən müşavirəyə işarə edərək yazır: "...Ermənistandan müxbirimiz Robert Badalyan məlumat (telefonla) verir ki, Şuşada Ermənistanı, eləcə də Dağlıq Qarabağı idarə edə biləcək güclü Təhlükəsizlik şurası yaradıldı. Bu şuranın üzvləri Dağlıq Qarabağı azad və müstəqil (?) edənədək yaşayacaq... Şurada "Ermənistan Azadlıq Hərəkatı"nın Yerevan bürosunun əlaqələndiricisi Arkadiy Qukasyan "özünümüdafiə dəstələri"nin hərbi qərargahına rəis müavini seçildi..." (?)

"Aztaq" qəzeti (Livan) 1992-ci il oktyabrın 4-də dərc etdiyi "Erməni əsirləri" adlı yazısında göstərir: "...Şuşada alınmış ilk əsirlərin sayı 16 nəfərdir. Onların hamısı uşaqlardır". Qəzet daha sonra yazır: "...Bu

uşaqlar qan içində qalmışdılar. Onların bir qismini üstünə örtük çəkilmiş maşınlara yığıb, şəhərdən çıxartdılar...”

Bunu qəzetin erməni müxbiri (bu ilk erməni qəzeti idi ki, Şuşada öz müxbir məntəqəsini yaratmışdı) Erem Lalayan yazırdı. Amma araşdırmalarımız bizim üçün başqa mənzərə açırdı. 1992-ci ilin noyabr ayının 4-də Ermənistan MN-nin hərbi hospitalında həkim-cərrah işləyən Armen Baqdasaroviç Baqdasaryan keçirilən müşavirədə (müşavirə Bakı vaxtı ilə saat 17:30 dəqiqədə başladı, saat 21:10 dəqiqədə tamamlandı) Şuşada yaradılmış “amputasiya” otaqlarının bağlanmasını tələb edir (bu faktı unutmayın.)... Lakin müşavirə iştirakçılarının 11 nəfəri bu tərkibin əleyhinə səs verir və onun işdən çıxarılması məsələsini qoyur. 1992-ci ilin noyabr ayının 7-də hərbi həkim A.Baqdasaryan vəzifəsindən azad edilir.

Amma erməni həkimin etirafı həqiqi etiraf idi. Şuşada Dağlıq Qarabağın tarixində ilk amputasiya otağı yaradılmışdı. Bu otaqlarda güllə yarası almış və eləcə də döyüşlər zamanı əzilmiş, minaya düşmüş... uşaqların dağılmış əzaları kəsilib atılır, bəzən bilərəkdən onların gözlərini çıxarıb, barmaqlarını qırırdılar. Sonra şikəst, sıxıntıdan və ona-buna əl açıb dilənməkdən savayı heç bir işin qulpundan yapışa bilməyən... az yaşlı uşaqlardan ibarət gəlir, varlanmaq mənbəyi kimi istifadə edirdilər.

## Separatçıların gizli qəbiristanlıqları

*(Avropa Şurasının həmsədrlərinə kiçik bir xatırlatma)*

İraqda kimyəvi, bioloji silahlar, zəhərli qazlar axtaran... BMT nümayəndələrinə xatırlatmaq yerinə düşər ki, yollarını Ermənistandan və Dağlıq Qarabağdan salsınlar. Kütləvi şəkildə güllələnmiş, zorla amputasiya otaqlarına salınmış, lakin cərrahiyyə əməliyyatlarından çıxa bilməyib, ölən, həlak olan günahsız uşaqların, qadınların, qocaların... basdırıldığı qəbiristanlıqlara nəzər salsınlar... Gəlin, görün, cənablar... Biz sizə həmin xəlvət qəbiristanlıqların ərazi dairəsini xatırladırıq:

1. Kəlbəcər rayonu üzrə (Başlıbel yaşayış ərazisində. Cənub-şərq istiqaməti. Dəlidağın ətəyi. Uşaq qəbristanlığı. 1994-cü ilin iyun ayının 9-da ilk uşaq basdırılıb).

2. Zəngilan rayonu üzrə (İsgəndərbəyli kəndi ərazisi. Şimal istiqaməti. 1994-cü ilin may ayının 3-də ilk ölü hamilə qadın oğlu ilə basdırılıb).

3. Əskəran rayonu üzrə (Naxçıvanlı kəndi ərazisi. Şərq istiqaməti. 1995-ci ilin avqust ayının 16-da ilk uşaq basdırılıb).

4. Cəbrayıl rayonu üzrə (Dağ-Tumas kəndi ərazisi. Qərb istiqaməti. 1995-ci ilin iyul ayının 26-da ilk ölü basdırılıb. Dəfn olunan 10-11 yaş arasında olub).

## "Artsax Komitəsi" və erməni separatizmi

Terrorçu erməni birləşmələrinin, qrup və cəmiyyətlərinin Dağlıq Qarabağ istiqamətində başlanacaq hücumlarının özəkləri elə içimizdə quruldu. Yəni DQ-a erməni hücumu, tutalım, Moskvadan, Yerevandan, Xankəndindən başlanmadı. Ermənilər ilk hücumlarını elə Bakıdan başladılar.

1988-ci ildən Azərbaycan ərazisində — Dağlıq Qarabağda, Bakıda, Sumqayıtda, Gəncədə, Naxçıvanda "Artsaxın azadlığı uğrunda Komitə" adlı təxribatçı və terrorçu dəstə fəaliyyətə başladı. Ona qədər bu dəstənin üzvləri xaricdə, xüsusən Fransa, Livan, İran və Amerikada xeyriyyəçi işlərlə məşğul olurdular. Onlar 1982-ci ildən həmin ölkələrin qanunları çərçivəsində fəaliyyətə başlamışdılar. O vaxt bu erməni təşkilatının adı belə adlanırdı: "Artsax ermənilərinin xeyriyyə fondu...". 1985-ci ilin iyul ayının 22-dən etibarən bu təşkilat özünün Leondakı (Fransa) iqamətgahında konfransını keçirir və "ASALA" erməni terror təşkilatına yardımçı orqan kimi fəaliyyət göstərməklə "Artsaxın azadlığı uğrunda Komitə" kimi formalaşır.

Bu zaman təşkilatın qarşısında üç mühüm vəzifə qoyulur:

1) Azərbaycan müxalifətində və KİV-də özəklərin təşkili (?);

2) Azərbaycanda erməni ilə qan qohumluğu olan ictimai-siyasi xadimlərlə əlaqələrin qurulması və yaxud bərpası;

3) Şərqi Avropada geniş fəaliyyət göstərən "Erməni azadlıq hərəkatı"nın Yuqoslaviya və Polşadakı qərargahları ilə əlaqələrin genişləndirilməsi.

"Artsaxın azadlığı uğrunda komitə" Dağlıq Qarabağı silahla təmin edən təşkilat olmalı idi. Əslində 1989-1990-cı illərdə bu missiyanı yerinə yetirməyə başlayan təşkilat polkovnik Vazqen Baqramoviç Sisliyanın rəhbərliyilə Yuqoslaviyadan ilk silah sursatını alır. Silahın Xankəndinə daşınma yolu isə belə idi: Belqrad (Yuqoslaviya) - Tehran (İran) - Xankəndi (Dağlıq Qarabağ) (indi bu yol həm də narkobiznes yoludur). "ASALA" 1998-ci ilin fevral ayının 4-də Livanda "Əl-Qaida" nəşriyyatında "MDB - ölkələrindəki dostlarım..." kitabının 26-cı səhifəsində yazır: "...Mən Bakıda 1988-ci ildə - düz on il qabaq oldum. Hətta Azərbaycan dilini gözəl bildiyimdən, yerli adamlardan seçilmirdim.

1990-cı ilin fevral ayının 21-də mən müxalifət partiyalarından birinin üzvü oldum... Mənim albomumda Bakı müxalifətinin liderlərilə çəkdirdiyim fotoşəkillər var. Onların hamısını tanıyıram. (?) ... Torpaqdan çox, ailədən çox, onlar hakimiyyət uğrunda vuruşmağa hazır olan məntiqsiz və aciz uşaqlardır... Dağlıq Qarabağa gəlincə, o torpaq artıq bizimdir... Fotoşəklə baxın. Əlini boynuma salan bu şəxs Bakıda müxalifətdə dayanmış şəxslərdən biridir" (?).

***Haşiyə:*** Nə qədər acınacaqlı olsa da, həmin şəxs - "Artsaxın azadlığı uğrunda komitə"nin liderlərindən olan polkovnik Vazqen Sisliyanla qolboyun dayanan bu müxalif indi də prezidentlik iddiasındadır (?).

Dağlıq Qarabağın işğalı dövründə MDB ölkələrində məskunlaşmış erməni diasporuna, kilsə keşişlərinə ünvanlanmış məktublara nəzər salaq.

a) "...ABŞ Konqresinə. İnsan hüquqları komitəsinin həmsədri cənab Con Edvard Porterə.

Biz, Dağlıq Qarabağ erməniləri çox şadıq ki, bizim haqq və ədalətli işimizi demokratiyanın beşiyi olan Amerika Birləşmiş Ştatlarında müdafiə edirsiz. Bəli, Siz məsələni düz qoyursuz. Dağlıq Qarabağ bizim ədalətli döyüş səhnəmizdir. Amma bu döyüş səhnəsində azərbaycanlılara türklər kömək və yardım edirlər. Silah və sursat verirlər... Bütün bunlar gözlərimiz qarşısında olur... Amma vuruşuruq. Ölənədək vuruşuruq. Xanımınız Katrin Porterə də salamlarımızı yetirin...

Hörmətlə "Erməni azadlıq hərəkatı"nın "Şura üzvü" Levon Abakumoviç Abqaryan..." 1993,VIII-2".

b) "...İngiltərə-Ermənistan" parlament qrupunun başçısı, cənab Oder Bazilə...

Dağlıq Qarabağda bizim mübarizəmizi "ədalətli mübarizə" adlandırdığınız üçün minnətdarıq. Biz Londondakı erməni lobbisinin etdiyi yardımdan da məmnun qaldıq (?)... Biz haqq işimizi qurban verən məğlub millət olmadıq. Çünki apardığımız mübarizə gərəkli və lazımlı işdir...

Qəlbən:"Artsaxın azadlığı uğrunda komitə"nin üzvləri: pr. Qriqoryan, d-r Ter-Qriqoryante, d-r Alixanyan." 1993, XII-S"

# TERRORÇU ERMƏNİ QADINLARI

Araşdırmalarımıza görə, Ermənistan Təhlükəsizlik Xidmətinin bu istiqamətdə xüsusi qrupu hələ 1990-cı ildən ərazilərimizdə aktiv iş aparıblar Bilavasitə "Ermənistan Milli Azadlıq Hərakatı" adlı terrorçu qrupun nəzdində fəaliyyət göstərən qadın və qızlardan ibarət dəstə ilkin məlumata görə, Dağlıq Qarabağ ərazisində fəaliyyətə başlayıb. Məsələn, 1991-ci ildə (dekabrın 22-dən 23-nə keçən gecə, saat 22-də) Laçın rayon ərazisində - Qarıqışlaq kəndində bağların və meşə ərazisinin partladılıb, yandırılmasında "Yevangiley" qrupu aktiv olub. 14 nəfər erməninin birləşdiyi bu qadın terrorçu qrupunun fəaliyyət dairəsi 1992-ci ilin may ayından başlayaraq genişləndi. Yurd yerlərinin dağıdılmasında, meşələrin yandırılmasında, qadın və uşaqların sorğu-sualsız öldürülməsində bu qrupun üzvləri aktiv olublar.

1991-ci ilə nəzər salsaq, bu yönümdə daha ciddi nəticələr əldə edərik. Araşdırmalarımıza görə, "Yevangiley" adı ilə çağırılan Yevangiley Abramovna Vaskanyan 1962-ci ildə Əsgəranda anadan olub. Uşaq həkimi işləyən Yevangiley Görus rayonunda yaradılmış "İntiqam" qrupunun (1989-cu ilin may ayının 19-u) üzvü olub. Torpaqların nəzarətsiz qaldığından, sərhədlərin başlı-başına buraxıldığından istifadə edən "İntiqam" terrorçu qrupun iki üzvü Bakıyadək gəlib, Ali Sovetin foyesində və eləcə də MN-nin BQ-da məsul şəxslərlə görüşlər keçirib. Erməni qadını Yevangiley Abramovnanın dərc etdirdiyi "Armyanskiy vestnik" qəzetindəki (1999-cu il 15 iyul tarixli) qeydlərinə görə, hər yerdə onu azərbaycanlı kimi qəbul ediblər. "Bu zaman, mən istədiyim planları asanlıqla həyata keçirirdim..." (Bax. Eyni mənbə).

"İntiqam"çı erməni qadın bunu da iddia edir ki, o, 1992-ci ilin may ayının 4-də Tehranda olub. O vaxtkı (Şuşanın verilməsi ərəfəsi) Azərbaycan rəhbərliyinin məsul şəxslərilə də görüşləri olub.

Erməni killer-terrorçu qadınların siyahısına baxaq:

- Laura (Arnold) Gevorkovna Lalayan (1962-?);
- İrina Andreyevna Kasparyan (1960-?);
- Rozanna Sayavuşovna Kapilyan (1964-1996);
- Evangiley Abramovna Vaskanyan (1962-?);

- Laluya Abramovna Çinaryan (1967-?);
- Susanna-Qarik Sitaryants (1966-?);
- Aramik Baxtovna Əmiryan (1968-?);
- Berta Danilovna Danilyan (1963-?).

***Qısa arayış***: Laura Gevorkovna Lalayan 1962-ci ildə Sumqayıtda anadan olub. Şəhər mənzil istismar idarəsində pasportların qeydiyyatı şöbəsində işləyib. 1989-cu ildə Yerevana köçüb. 1990-cı ildə Yerevanda müxalifətin çap etdiyi "Krunk" bülletenində (6-cı və 8-ci nömrələrində) Sumqayıt şəhərində yaşayan ermənilərin siyahısını dərc etdirir. 1993-cü ildən Ermənistan MN-də hərbi-kəşfiyyat xidmətində çalışır. 1992-ci il mayın 1-dən 10-dək Şuşa istiqamətində gedən döyüşlərdə əsir götürülən qadın və uşaqların dindirilməsində iştirak edib.

Şuşanın alınmasında öz adı ilə erməni qadınlarından təşkil etdiyi "Laura" qisasçı-terror dəstəsinin başçısı olub. Azərbaycan ərazilərindəki Daşaltı yaşayış məntəqəsində erməni qoşun birləşmələrinin təşkil etdiyi "Tiqran" əməliyyatında iştirak edib. 1993-cü ilin mart, aprel aylarında Amerikada çap olunan "Con Berçi təşkilatı"nın aylıq "American Orinion" ("Ameriki fikri") adlı faşist təmayüllü jurnalında onun haqqında yazılar dərc olunub (Bax: Eyni adlı jurnal. 1993, III-IV.) Materiallardan bu da aydın olur ki, Laura Kevornovna Şuşa ərazisindən (1992-ci il) əsir götürülən 19 uşağın taleyinə son qoyub. Qəddarlığı ilə seçilən qisasçı Lauranın öz məktəbi və Şuşanın qərb hissəsindəki Xəlfəli yaşayış məntəqəsində isə xüsusi amputasiya otağı olub... Bu otağa qədər uşaqlar aşağıda göstərilən "protsedura"nı keçməli olurdular.

- Ermənistan himnini dinləmək;
- "Mənim arzum" şeirinin Azərbaycan variantını söyləmək (bu şeirin məllifi erməni şairi Aleks Ohanesyan idi);
- Xaça səcdə və "əzabkeş erməni xalqına" dua etmək. Onu Allaha tapşırmaq. Roma papasının Dağlıq Qarabağla əlaqədar "Allaha yaxın olan Avraam" duasını oxumaq (bu duanı Roma Papası ilk dəfə 1991-ci ilin avqustunda "Vatikanın səsi" radiosu vasitəsilə yayıb.

Bütün bunlardan sonra Laura ata-analarını itirmiş, didərgin düşmüş uşaqların bir qismini Yerevandakı hərbi hospitala göndərirdi. Erməni terrorçu-qadını Lauranın əməllərindən, həyatının "qəhrəmanlıq

səhifələrin"dən bəhs edən jurnalist Ömər Səid Fərrahın (Suriya) "Laura-taleyindən küsən qız"- adlı kitabı 1996-cı ildə Dəməşqdə "Əl-Vəhda" nəşriyyatında min nüsxə ilə çap olundu (ərəb, rus və erməni dillərində. Redaktorlar: O.Solomonov (rus), S.Ohanyan (erməni)).

Müəllif Ömər Səid üstü örtülü də olsa, anlatmağa çalışır ki, bu amansız və qəddar, analıq şərəfini itirmiş qadın uşaqlarla acınacaqlı "rəftarından həzz alırdı... O, cəld və çevik idi. Bir göz qırpımında... istəyinə çatırdı". Nə qədər təəccüblü də olsa, Ömər Səid öz yazısında həqiqi müşahidələrini gizlədir, terrorçu-qadının istəyini açıqlamır. Lakin 1995-ci ildə elə "Krunk"un Şuşa şöbəsinin 16 səhifəlik "Nasionalnıy spravoçnik" adlı bülletenində Laura Gevorkovna Lalayanın pərdəarxası əməyi şərh olunur. Bülletenin 9-cu səhifəsində dərc olunan "Qeroiçeskaya mısl" yazısında müəllif R.Babacanyan yazır: "...Bu igid erməni qızı (yəni Laura-V.S.,R.V.) öz əməllərilə düşmənə qarşı barışmazlığa çağırır. Laura erməni milli azadlıq hərəkatında türk dünyasına qarşı, Azərbaycana qarşı açılan yeni cəbhənin banisidir..." 1992-ci ildə isə Moskvadakı 1110 və 1888-nömrəli erməni məktəblərində "Lauranın Şuşa döyüşləri" adlı fotoalbomları nümayiş etdirilir. Başqa bir məlumatda isə göstərilir ki, Laura Şuşa əməliyyatlarında əsir götürdüyü uşaqlarla bağlı Fransa həkimlərilə, Parisdəki Nekker adına xəstəxananın cərrahları ilə sıx əlaqə olub. "Qeroiçeskaya mısl" bütün bunlara toxunsa da, hər şeyi qapalı saxlamağı lazım bilir.

## Killer Rozanna Kapilyan

Qısa arayış: Rozanna Sayavuşovna Kapilyan 1964-cü ildə Gəncədə anadan olub. 1983-cü ildən 1986-cı ilədək Dəmiryol xəstəxanasının doğum şöbəsində tibb bacısı işləyib (o vaxt, yəni 1985-ci ilin iyul ayının 21-də "Kommunist Kirovabada" qəzeti "Novorojdennıe... (potom beda)" adlı yazıda (müəllif: Q.Asgərov) məlumat verir ki, Dəmiryol xəstəxanasının doğum şöbəsində yeni doğulan uşaqlar arasında ölüm halları çoxdur. Səhiyyə Nazirliyinin Kollegiyasında bu məsələ müzakirə edilmiş, həkim S.Avakyana, O.Potapovaya, D.Şahnazarovaya, F.Ambar-sumovaya töhmət elan olunub).

1989-cu ildə Rozanna Kapilyan ermənilər yaşayan Leninkəndə (Baş kənd) köçür. 1989-cu ilin sentyabrında isə o, Ermənistanın Vardenis rayonuna daimi yaşamaq üçün gedir. 1991-ci il iyulun 2-də Ermənistan Milli Azadlıq Cəbhəsinin Vardenis rayon şöbəsinə yazılır və dərhal da "vətənpərvər" qızlardan ibarət snayperçi qrup yaradır. 1992-ci ildən isə "Ermənistan inqilab ordusu" terrorçu təşkilatına üzv olur. Araşdırmamıza görə, 1992-ci ilin mart ayının 22-dən etibarən təşkilatın Xankəndi özəyini yaradır. Tehranda erməni icmasının (İsfahan) içərisində, əsasən kilsə daxilində qeyri-leqal fəaliyyət göstərən "Kerecliyan" xeyriyyə fondu tərəfindən 14 min Ermənistan MN-nin tərəfindən isə 6 min ABŞ dolları həcmində yardım alır.

Erməni terrorçu-qadın Rozanna Kapilyanın dəstəsi (səkkiz nəfərlik qızlar) əsasən 1998-ci ildən etibarən türk dünyasının diplomatlarını öz hədəfləri elan edib.

## Kapilyanın "Moskva dəstəsi"

Araşdırmalırımza görə, Rozanna Kapilyanın Şuşanın Qarıslı yaşayış məntəqəsində 1995-ci ilin avqust ayının 21-dən fəaliyyətə başlayan "Kurs -boyı" adlı terrorçu dəstəsi bu gün də öz çirkin niyyətindən əl çəkməyib. Məlumata görə, 1995-ci ilin sentyabr ayının 19-da Rozanna Kapilyan Şamil Basayevlə görüşüb. Bu vaxt ona çeçenlərin döyüş və mübarizə metodlarından bəhs edən 1994-cü ildə imperiyada çap olunan "Mübarizə metodları", "Taliban" döyüşlərində çeçen sindromu", "Xəlifə", "Qafqaz" adlı kitablar hədiyyə edilir.

***Qeyd:*** 2001-ci ilin noyabr ayında erməni-terrorçuların işğal etdikləri Dağlıq Qarabağ ərazisindəki qoşun birləşmələrində Əmir Xəttabın (Çeçenistan) "Döyüşmək və öldürmək üçün mücahidin 12 üsulu" adlı kitabı geniş yayılır. Kitab 1999-cu ildə Şimali Qafqazdakı (Mahaçqala ərazsində) "Qafqaz" nəşriyyatında erməni, çeçen, avar və kürd dillərində çap edilib.

Araşdırmalarımıza görə, Rozanna Kapilyanın 1997-ci ildə Pyatiqorskda (RF) keçirilən terror aktlarında çeçen terrorçu qadınları ilə-Dadaşova və Teymosxanovayla yaxın əlaqələri olub. Armavir partlayışlarında bilavasitə iştirak edib. Amma müəmmalı səbəblərə görə RF-nin təhlükəsizlik

xidməti Rozanna Kapilyanın adını hadisələrin istintaq materiallarından çıxarılıb.

Terrorçu erməni qadını Rozanna Kapilyanın Vayk rayon ərazisində (Ermənistan) olan "Rozovıy platok" qrupu (şübhəsiz, Rozanna qrupu) Naxçıvan istiqamətində "Xatun" adlı erməni-kürd birgə təxribat planlarının reallaşmasında fəallıq göstərir. Moskvada nəşr olunan "Armyanskiy vestnik" bülletini 2001. XI-9. N-24 sayında qeyd edir ki, "Rozovıy platok" qrupunun üzvlərinin hamısı "milli vətənpərvərlik hisslərilə" başqalarına nümunə olaraq qalır.

Alınan digər məlumatdan və araşdırdığımız materiallardan bu da aydın olur ki, Rozanna Kapilyanın "Moskva dəstəsi" yaranıb və bunun da üzvləri əsasən RF-sı ərazisində təhsil alan və sonra işsiz-gücsüz qalan erməni qızlarıdır. 13 nəfərlik bu erməni qızları 2001-ci il aprelin 14-dən etibarən RF-nin ərazisində iş və yaxud təhsil üçün getmiş azərbaycanlılar arasında özlərinin "Verbovka" planları ilə məşğuldurlar. Onların bir qismi azərbaycanlılarla tanış olur, kommersiya əlaqələri yaradır və nəticədə bir qismi ilə ailə qurub, yenidən Azərbaycana qayıdırlar. Terrorçu Kapilyanın qrupu Moskva ərazisində çalışan azərbaycanlı ziyalıların, elm və texnika, (kibernetika və kompüter, nüvə fizikası üzrə) mütəxəssislərilə əlaqələr qurur, onlarla informasiya mübadilələri qurmağa cəhd edirlər.

## VERTOLYOT FACİƏSİ
## (Mİ-8 xüsusi silahla vurulub)

Hər şeyin birinci pilləsi həqiqətdir. Gördüyümüz həqiqət və görmədiyimiz, bəzən dərk edə bilmədiyimiz həqiqət. Üstündən düz 22 il ötüb keçən "Vertolyot" adlı bir həqiqəti gördük və indi də görürük. Amma "Vertolyot" adlı hələ görmədiyimiz, dərk edə bilmədiyimiz həqiqətlər də var. Çünki bu günədək onu qəza kimi qəbul edənlər var. 1991-ci ilin noyabr ayının 20-də "Mİ-8 N-72" hərbi vertolyotunda həlak olanları bir daha yadınıza salıb xatırladırıq:

- Tofiq Kazım oğlu İsmayılov - Dövlət katibi;
- İsmət İsmayıl oğlu Qayıbov - Baş prokuror;
- Məhəmməd Nəbi oğlu Əsədov - Dövlət müşaviri;
- Zülfü Saleh oğlu Hacıyev - Baş nazirin müavini;
- Vaqif Cəfər oğlu Cəfərov - millət vəkili;
- Vəli Hüseyn oğlu Məmmədov - millət vəkili;
- Osman Mirzə Hüseyn oğlu Mirzəyev - Prezident Aparatında şöbə müdiri;
- Qurban Hüseyn oğlu Namazəliyev - nazir müavini;
- İqor Aleksandroviç Plavskiy - Dağlıq Qarabağın prokuroru;
- Vladimir Vladimiroviç Kovalyov - Dağlıq Qarabağın Dİ-idarəsinin rəisi;
- Sergey Semyenoviç İvanov - MTN-nin idarə rəisi;
- Nikolay Vladimiroviç Jinkin - xüsusi rayonun komendantı;
- Saylala Dasumoviç Serikov - Qazaxıstan Dİ nazirinin müavini;
- Mixail Dmitriyeviç Lukaşev - general
- Oleq Nikolayeviç Koçerov - general
- Rafiq Məmməd oğlu Məmmədov - Dövlət katibinin köməkçisi
- Alı Mustafa oğlu Mustafayev - telejurnalist
- Arif İsmayıl oğlu Hüseynzadə - AzTV-də işıqçı
- Fəxrəddin İbrahim oğlu Şahbazov - videooperator
- Vyaçeslav Vladimiroviç Kotov – vertolyotun uzuş heyətinin komandiri;
- Gennadi Vladimiroviç Dolqov – vertolyotun pilotu;
- Dmitriy Borisoviç Yakovlev – vertolyotun pilotu;

Araşdırmalarımıza görə, Qarakənd istiqamətində uçan vertolyota Qurban Namazəliyev, Tofiq İsmayılov, Saylala Serikov, Rafiq

Məmmədov, Vəli Məmmədov, Məhəmməd Əsədov, Zülfü Hacıyev minməli deyildilər.

Xüsusi rayon komendantı Nikolay Jinkinin müavini, ermənilər arasında “Posol” kimi tanınmış Vladimir İqnatyeviç Kuşnarinin 1991-ci il noyabr ayının 18-də tərtib etdiyi və Bakı ilə razılaşdırılmış (?) siyahısına “Aşanak” kolxozunun heyvandarlıq birliyinin sədri “geroy” Emil Balayan, Vladimir Kuşnarikin özü, beynəlxalq erməni diasporu (əsasən Fransa və Kaliforniya erməni kilsələri) tərəfindən maliyyələşdirilən “ Krunk” təşkilatının Dağlıq Qarabağdakı ideoloqlarından Oleq Ovanesoviç Yeseyan, “Evkrapa” cəmiyyətinin maliyyə məsələlərinə baxan, onun Livan erməni diasporu ilə əlaqələndiricisi Leonard Avakumoviç Petrosyan, zabit Tatavis Baqramoviç Baqramyan... və bir də qərara alınmışdı ki, Azərbaycan Xalq Cəbhəsinin Ağdam, Xocavənd, Füzuli, Cəbrayıl, Xocalı, Əskəran... rayon şöbələrinin liderləri və onların Bakı nümayəndəsi daxil olsun. Məşvərət lentə alınmalı və respublika televiziyasının “Günün ekranı” xəbərlər proqramında göstərilməli idi. Amma saat 13.40 dəqiqədə Ağdam aeroportuna verilən naməlum xəbərdən (?) sonra ... bu adamlar vertolyota minmirlər(?!)

## Dolqov 2 dəfə “ölüb”

1991-ci ilin noyabr ayının 20-də saat 12.57 dəqiqədə Ağdam uçuş zolağındakı Mİ-8 tipli iki vertolyotun (69 və 72 nömrəli vertolyotların) yanacaq bakları doldurulur. Mİ-8 N-69 vertolyotu əsas vertolyot olmalı idi. Vertolyotu isə iki nəfər idarə etməli idi: 1981-ci ildə Əfqanıstan döyüşlərində iştirak etmiş kapitan Mamontov və kapitan Babuşkin.

İkinci vertolyot - Mİ-8 N-72 isə birinci vertolyotu müşayiət etməli idi. Lakin ikinci vertolyot müşayiət olunmadan, yəni təhlükəsizliyi təmin edilmədən 13.48 dəqiqədə birincinin yerinə havaya qalxır.

***Haşiyə:*** “Mİ-8 N-72” vertolyotu idarə edənlərin şəxsiyyətlərinə gəlincə, kapitan Gennadi Vladimiroviç Dolqov adlı pilot 1984-cü ilin mart ayının 26-da Əfqanıstanda Cəlalabadda “İslam cəmiyyəti”nin Mö’min Camalxanın dəstəsi tərəfindən idarə etdiyi Mİ-8 N-26 vertolyotu ilə birgə vurularaq öldürülüb (?). (Özbəkistan, Daşkənd Hərbi Dairəsi. Əfqanıstan-İran istiqamətində polkovnik V.İ.Qurinin 1984-cü ilin dekabrın 12-də Moskvaya, MN- BQ-a ünvanladığı 216051 saylı məktubundan).

## Rabitə nəyə görə qırıldı?

Həmin ərəfə Gülablı və Yenikənd istiqamətlərində hərbi maşınlarda qurulmuş (M-16-26 və MS-22-22 nömrəli) və Ağdam, Xocalı aeroportlarının uçuş və enmə zolaqlarını nəzarətə götürən radarlar vasitəsilə Ağdamdan Qarakənd istiqamətində uçan Mİ-8,N-72 vertolyotun rabitə əlaqələri kəsilir (saat 14.05 dəqiqədə).

Qırılmış rabitə ilə bağlı ilkin məlumatlar Xocavənd istiqamətində verilir. Lakin törədilən faciə, terror haqqında ilkin məlumat təqribən altı saatdan sonra (beş saat 47 dəqiqədən sonra) verilir. Ağdam, Xankəndi və Xocavənd hərbi birləşmələrinin komandanlığı susurdu...

Hesablamalara görə, Qarakənd üzərində üç yüz metr yüksəklikdə uçan (sabit sürətlə uçmayan) Mİ-8, N-72 vertolyot noyabr ayının 20-də (1991-ci il) saat 14.42-dəqiqədə vuruldu. Faciə haqqında ilkin məlumat Prezident Aparatına saat 19.55 dəqiqədə çatır.

Lakin Xankəndindən erməni dilində yayımlanan "Vətən və Vətəndaş" verilişinin xəbərlər bölümündə, bu faciə haqqında xəbər saat 15.30-dəqiqədə yayımlanmışdı. Həmin fasiyənin Yerevan radiosu saat 16.15 dəqiqədə həmin xəbərin "qəza" kimi şərhini verir. Saat 16.40 dəqiqədə Tehran (İran) radiosu, 17.00-da Moskva (RF) radiosu... bu xəbəri açıqlayır.

***Haşiyə:*** Mİ-8, N-72 hvertolyotun yük tutumu 4 tondur. Uçuş sürəti saatda 250 km, uzaq uçuşu 465km-dir, 40-45 nəfər (80-90 kiloqram çəkidə) sərnişin götürə bilər.

## İşi aparan prokurorun anası ermənidir

Xankəndindəki rus qarnizonunun hərbi prokuroru, polkovnik (bu cinayət işindən sonra ona polkovnik rütbəsi verdilər) İ.Lazutkin 248-ci maddə ilə (RFCM) ("Uçuşun düzgün idarə olunmaması və insan tələfatı") cinayət işi açır. Polkovnik İ.Lazutkinin (anası Emiliya Arustamovna Baqdasaryan. Axalkalakidə anadan olub. İ.Lazutkin özü də 1989-cuilədək Cavaxetiyada işləyib) cənablarının ilkin istintaq materiallarını düzgün tərtib etmədiyindən, heç bir şey anlamaq olmur. 1991-ci ilin noyabr ayının 24-də Yerevan televiziyasının xəbərlər proqramına müsahibə verən prokuror İ.Lazutkin iddia edir ki, həlak olan azərbaycanlılara ilkin yardımı "...ermənilər göstərib..." (?). Polkovnik bu cinayəti - terror aktını adi bir qəza kimi qələmə verəcək, onu soyuqqanlıqla şərh edirdi...

## "Qara qutu"

Vertolyotun "qara qutusu"na gəlincə, onu da birinci olaraq əlinə keçirən polkovnik oldu. Qutuya toxunmaq qadağan edildi. Belə bir məlumat da yayıldı ki, "qara qutu" "istidən" və "yanıqdan", "partlayışdan" (onun sözləridir)... sıradan çıxıb, əriyib (?). "Qara qutu"nun oxunması məsələsini ancaq Moskvada aşkarlamaq mümkündür. Mütəxəssislərimiz yaxına buraxılmadı. Halbuki "qara qutu" Gəncədəki vertolyot təmiri zavodunda aşkarlana bilərdi. Digər tərəfdən, prokuror İ.Lazutkin hamını aldadırdı. "Qara qutu" salamat idi. Onun əzilməsi, sıradan çıxması üçün 3.800 dərəcə istilik lazım idi (?).

Araşdırmalarımıza görə, Mİ-8, N-72 hərbi vertolyotuna Amerika istehsalı olan və fundamentalist qruplar, eləcə də islam terrorçuları arasında geniş yayılmış, həmişə təhlükə doğura biləcək "Barret M81-A1" və "Barret M82-A1" silahından atəş açılıb. (Bu silahın tərkibində birləşmiş uran izotonu - "V-238" var).

***Haşiyə:*** ABŞ-da istehsal olunmuş 50 kalibrli snayperli, tərkibində nüvə olan bu silahla 2 km məsafədə uçan təyyarələri, vertolyotları, həmçinin zirehli maşınları sıradan çıxarmaq mümkündür. ABŞ Konqresində adı hallanan bu silah həm də kütləvi qırğın silahları cərgəsində gedir.

Həmçinin, tədqiqatlarımızdan bunu da əldə etdik ki, bu silahlardan "Əl-Qaida" terror təşkilatı da alıb. Bunu İssam Əl-Ridi adlı silah alverçisi 6 min dollar təşkil edib. İssam Əl-Ridiyə gəlincə, o, "Sakina sekyuriti servis" (London) təşkilatının üzvlərindən olan Safur Alamzaryanla həmişə təmasda olub. İssam Əl-Ridi Misirdə doğulub. 1994-cü ildə ABŞ vətəndaşlığını alıb. Buna qədər isə Misirdə "gənc terrorçu kursu"nu keçib (?).

***Haşiyə:*** Əldə olunmuş məlumatlardan biri də budur ki, "Barrit M81-A1 və M82-A1" silahlarının 25 ədədi bu gün ABŞ-ın müxtəlif ştatlarındakı islamçı-terrorçu qruplarındadır və bu silahla ola bilsin, yeni terror aktları törədilsin, təyyarələr vurulsun (?). Əlamətinə görə, bu silah hədəfə dəyərkən ilkin olaraq güclü yanğın törədir. Buna "nüvə yanğını" deyirlər. Və bu yanğının dalğa zərbəsindən obyektin - yəni, tutalım, təyyarənin qalıqlarını 500-600 metr özündən, kənara atır.

Barret M81-A1 - silahı ilə vurulmuş vertolyotla, tutalım, DQ üzərində vurulmuş (1996) və 17 İran diplomatının ölümü ilə nəticələnmiş "Herkules" təyyarəsini müqayisə edərkən qəribə bir mənzərə yaranır. Ekspertlər göstərirlər ki, "Herkules" təyyarəsinə atılan gllədən sonra

güclü yanğın baş verib. Təyyarənin hissələri 500-600 metr kənara sıçrayıb. Adamlar tanınmaz dərəcədə yanıb kül olublar. Mİ-8 N-72 vertolyot göydə deyil, yerə endirildikdən sonra vurulub, yandırılıb.

## Vertolyotda öncə atışma olub

1991-ci ilin noyabr ayının 20-də saat 13.48 dəqiqədə havaya qalxan Mİ-8 N-72 vertolyotunda yanğından qabaq atışma olub. Və bunu ehtimal edək ki, (yəqin edirik – V.S.,R.V.) ilk atəşi vertolyotu saxta sənədlərlə idarə edən Gennadi Vladimiroviç Dolqov açıb. Çünki yanıb dağılmış vertolyotun hissələrində içəridən açılan (yəni vertolyotun içindən – V.S.,R.V.) güllələrin diametri, açıq yerləri var (İstintaq sənədlərində bu, aydın görünür)... Vertolyot Qarakəndə yerə endirilib... Malik Paşayan və Safur Alamzaryanın "ASALA" qrupu məhz bundan sonra sərnişinləri tərksilah ediblər (silahların, diplomatların, sənədlərin itməsi, ayaqqabıların cütlənməsi, plastmas su qablarının səliqə ilə qoyulması səbəbləri və s. məsələlər hələ araşdırılmayıb). Nəticədə Mİ-8 N-72 hərbi vertolyotu 1991-ci ilin noyabr ayının 20-də saat 14.42 dəqiqədə "Barret M81-A1" silahı ilə vurulur və bu zaman güclü nüvə yanğını baş verir.

# HEÇ VAXT SÖNMƏYƏN XOCALI

Qarabağ torpaqlarında – Azərbaycanın qüdrətli və tarixi bir parçasında yanğınlar hələ də davam edir. Genofondumuza ağır bir zərbə vuruldu. 92 azərbaycanlı nəsli tamam kəsildi. Ərazi bütövlüyümüzə qəsd edən erməni separatçıları, işğalçı və terrorçu qrupların törətdikləri cinayətlər isə NATO-da, BMT-də, AŞ-da, AB-də… beynəlxalq konfranslarda, simpozium və görüşlərdə ört-basdır edilirdi. Halbuki, o vaxt hadisələrin canlı şahidi olan rusiyalı akademik A.Aleksandrov 1999-cu ilin aprelin 2-də Moskvadan yayımlanan Mərkəzi Televiziyanın müxbiri H.Boroviklə müsahibəsində bildirirdi: «...Qarabağ məsələsinə Haaqa məhkəməsində baxıla bilər... Bu məsələnin daha real perspektivi mövcuddur: Təhlükəsizlik Şurası və ya BMT-nin Baş Məclisi Ermənistan tərəfindən Azərbaycan torpaqlarının davam edən işğalına son qoyulması və BMT-nin qətnaməsinin icrası sorğusu ilə Haaqa məhkəməsinə müraciət edə bilərlər. Belə presedent artıq var. 1974-cü ildə BMT-nin TŞ-sı CAR-sı tərəfindən BMT-nin TŞ-nın qətnaməsini əməl etməməsi haqqında Beynəlxalq məhkəməyə müraciət etmişdir (Bax: «Sovetskaya Rossiya» qazeti (Moskva) müsahibəni 1999-cu ilin aprel sayında dərc edib).

Müstəqil Dövlətlər Birliyi çərçivəsində Ermənistan qədər ziddiyyətli region yoxdur. «…Burada qorxu və sədəqə üzərində qurulan hökmranlıqdan savayı nəzərə çarpan elə bir ciddi şey gözə dəymir. Burada hər hansı kiçik bir hadisəyə düyün üstündən düyün vurulur. Bütün bunlar haqqında Ermənistan Konstitusiyasının yaradıcısı, professor Vladimir Nazaryandan soruşdum. O isə cavab vermədi…» (professor O.Voskopulos. Yunanıstan).

«Böyük Ermənistan: hüquqi və fəlsəfi araşdırmalar» kitabına müəlliflik etmiş (1994-cü il. Yerevan, «Ambarsum + Mon» nəşriyyatı) hüquqşünas Vladimir Nazaryan Kaliforniyada çapdan çıxan (San-Fransisko, 2002-ci il, «Kinq fiçerz» nəşriyyatı) 235 səhifəlik «Ölüm hökmü lazımdırmı?» kitabının da redaktoru və ön söz müəllifidir. Erməni hüquqşünası ön sözdə iddia edir: «***…Ermənistan öz milli qanunları çərçivəsində ölüm hökmünə riayət etməlidir. Amma bu hökm erməni milləti üçün nəzərdə tutulmamalıdır. Bu ölüm hökmü bizə qarşı həmişə düşmənçilik mövqeyində dayanan türk və türk dünyasına şamil edilməlidir***» (səh. 101).

Vladimir Nazaryanın həm Ermənistan, həm də işğal olunmuş Qarabağ ərazilərində fəaliyyət göstərən separatçı terror təşkilatlarının nizamnamə və proqramlarının işlənilməsində də xüsusi xidməti olub. 2000-ci il sentyabrın 22-də V.Nazaryan özünün hazırladığı, heç bir beynəlxalq hüquq normalarına sığmayan «Dağlıq Qarabağ Respublikasının Konstitusiyası» sənədini Ermənistan Təhlükəsizlik Şurasına baxılmaq üçün təqdim edir. Oktyabrın 1-də Xankəndində qondarma «DQR»in «prezidenti» Arkadi Qukasyanın iştirakı ilə kitabın ilk variantının müzakirəsi keçirilir. Terrorçuların ideoloqlarından biri, erməni yazıçısı Zori Balayan 1996-cı ildə Moskvada çap olunmuş «Ermənistanın bəşəri qanunları» qeydlərində həmkarlarına məsləhət bilir ki, Ermənistanın məşhur və tanınmış hüquqşünası Vladimir Nazaryanı «Qanun Nazaryan» kimi çağırsınlar (Moskva, «Literaturnaya qazeta ». 1996-cı il 4 aprel, səh. 26). Çünki o, həm də 1995-ci il iyulun 5-də referendum yolu ilə qəbul olunmuş ölkə Konstitusiyasının «xaç ataları»ndan biridir. Digər bir məlumatda isə göstərilir ki, V.Nazaryan 1991-ci ilin iyul ayından regiona, yəni Ermənistan ərazisinə və eləcə də Dağlıq Qarabağın işğal olunmuş yaşayış məntəqələrinə silah və hərbi sursat daşınmasını təşkil edən «Tiqran» və «Sxem-16» qruplarının başçılarından olub. Bu barədə keçmiş Daxili İşlər naziri, «Ermənistan Ümummilli Hərəkatı»nın lideri (təşkilat 1992-ci il yanvarın 16-da Ermənistan Ədliyyə Nazirliyində qeydə alınıb), Dağlıq Qarabağ ərazisində işğalçılıq siyasətilə tanınan, yüzlərlə adama təcavüz edən, hazırda Livanda yaşayan general Vano Siradeqyan Beyrutda çap olunan «Ararat» qəzetinə verdiyi müsahibədə deyib (9 aprel 2002-ci il, səh. 2).

* * *

«Tiqran» separatçı qrupunun adı isə (1988-ci il iyulun 14-də yaradılıb) Bakı ermənisi Tiqran Moiseyeviç Xaçenyanın adı ilə bağlıdır. 1989-cu il fevralın 3-dək Sumqayıtda, Bakının Nəsimi və Nizami rayonlarında «Tiqran + Moisey» xeyriyyə təşkilatı kimi fəaliyyət göstərib. Bakıda yaşayan ermənilər təşkilata oktyabr, noyabr, dekabr ayları ərzində 692 min manat yardım köçürürlər («Tiqran». RF, Stavropol…, xeyriyyə təşkilatının bülleteni. Noyabr 2000-ci il, №81).

1991-ci il martın 13-də «Tiqran» qrupu Azərbaycan ərazisindən RF-nin Kursk vilayətinə köçür. 1991-ci il mayın 8-də qrupun 11 üzvü Yerevana gəlir və mayın 19-da Ermənistan Ədliyyə Nazirliyi tərəfindən qeydə alınır

(«Armyanskaya obşina ». RF, Kursk…, 4 mart 1999-cu il. «Naş natsionalnıy qeroy Xaçenyan…» səh. 9).

1991-ci il iyulun 2-də Tiqran Moiseyeviç Levon Eranosyan adlı bir polkovniklə Livana gedir. İyulun 9-da Əş-Şimal yaşayış məntəqəsində keçirilən «Axşam konqresi»ndə iştirak edir. «Axşam konqresi» Braziliyada, Kolumbiyada, Suriyada, Sudanda, İraqda, İranda, Çin və Yunanıstanda silah alverilə məşğul olan qrup başçılarının iştirak etdiyi yığıncaqdır, bu barədə Sudan SQ-nin orqanı olan həftəlik «De Kuwwat al-Mussallaha» jurnalı hərbi kəşfiyyatın icmalında məlumat verir (1992-ci il, №8, səh. 10).

Dağlıq Qarabağın işğalında ermənilərə silah yardımının ilk təşkilatçıları da məhz «Tiqran»çılar olub. Tiqran Moiseyeviçin başçılıq etdiyi digər bir qrup «Sxem-16»nın adı isə ABŞ Dövlət Departamentinin sənədlərində bilavasitə regionda, yəni Ermənistan ərazisində nüvə materiallarının və texnologiyasının daşınmasında, narkotik maddələrin alış-verişində hallanır («Bülleten-icmal» – İnternational Criminal Police Orqanization. Leon, 1992-ci il, №6).

1992-94-cü illər arasında «Tiqran» qrupunun üzvləri Livandan Dağlıq Qarabağ ərazisinə 19 adda silah və hərbi sursat daşıyıblar. 1993-cü ilin avqustunda Razdan ərazisində silah anbarında baş vermiş partlayışa görə «Tiqran»çıların dörd üzvü – Abram Alekseyeviç (hərbçi), Qauar Robertoviç Avanesyan (vəkil), Papan Aradiyeviç İqityan (kəşfiyyatçı) və Rimma Serqeyevna Raçikyan (jurnalist)… həbs olunur. Dörd gündən sonra general Vladimir Nazaryanın səyi ilə hər şey öz axarına düşür. Məlumatlardan bu da aydın olur ki, Ermənistanda 1993-cü il fevralın 14-də (ilk iclas Yerevanda, general Baqramyan küçəsindəki 216 nömrəli binada keçirilib) Azərbaycana qarşı «Qafqaz cəbhəsi» deyilən hərbi-siyasi, bilavasitə iqtisadi kəşfiyyatla məşğul olan (mövcud infrastrukturlara qarşı) bir təşkilatın əsası qoyulur. 1994-cü il dekabrın 2-dən isə bu təşkilat öz fəaliyyət dairəsini təkcə Azərbaycanla bitmiş hesab etmir. Cəbhənin qapıları həm də bütövlükdə Türkiyə dövlətinə tərəf açılır. Tiqran Moiseyeviç Xaçenyan Yerevanla Afina və Tehran arasında əlaqələndirmə şurasının başçısı təyin edilir. Professor Vladimir Nazaryan isə «Qafqaz cəbhəsi»nin nizamnaməsini yazır. Bu arada Türkiyə MİT-nın (xüsusi xidmət orqanı) topladığı sənədlərə əsasən, Yunanıstanın İstanbuldakı Baş konsulluğunun idarə işləri üzrə attaşesi Elestratnos Horolombus ifşa olunur.O, PKK kürd separatçıları və erməni terror təşkilatı olan «ASALA»çılarla məxfi əlaqələr quraraq, Yerevan və Afina istiqamətində kəşfiyyat materialları ötürməklə məşğul olub. Bir qədər sonra erməni terrorçuları ilə iş qurmağa cəhd edən hərbi

attaşe, polkovnik Konstantin Balanos ölkəni tərk edir («Cümhuriyyət» qəzeti, Türkiyə, 12 iyun 1995-ci il).

«Tiqran»çıların işğal olunmuş zonaya – Qarabağ ərazisinə silah və hərbi sursat daşınmasını nizamlayan və «Qafqaz cəbhəsi»nin aktiv üzvlərindən olan polkovnik Levon Eranosyana 2001-ci il noyabrın 4-də Ermənistan prezidentinin sərəncamı ilə general-mayor rütbəsi verilir və o, Birinci Ordu Korpus komandanı təyin edilir («Армянский вестник» Yerevan variantı. 6 sentyabr 2001-ci il, səh. 11).

2001-ci il noyabrın 19-da Tiqran Moiseyeviçə «Qızıl xaç» ordeni təqdim edilir. İşğal olunmuş ərazinin terrorçu «prezidenti» Arkadi Qukasyanın, üzdəniraq diplomat Naira Melkumyanın iştirak etdikləri bu yığıncaqda Tiqran Moiseyeviçə polkovnik rütbəsi də verilir və ona hərbi kəşfiyyat idarəsində aparıcı şöbələrdən biri həvalə olunur. Polkovnik Tiqran Moiseyeviçin başçılıq etdiyi şöbənin əsl adı isə noyabrın 26-da Xankəndində keçirilən hərbi məşvərətdə açıqlanır: «…Kütləvi qırğın silahlarına qarşı mübarizə aparan strateji şöbə…» («Artsax» qəzeti. Xankəndi, 28 noyabr 2001-ci il, səh. 1).

Nəzarətsiz qalan Qarabağ ərazisində silah alverindən tutmuş terror təşkilatlarınadək hər şey rəsmiləşdirilirdi.

Bütün işlər yazılmamış qanunlar çərçivəsində görülürdü. Qeyri-qanuni əldə olunmuş silahların, nüvə texnologiyasının, uran və plutonium materiallarının, narkotik qaçaqmalçılığın marşrutları, keçid və daşınma istiqamətilə bağlı ilkin nəticələrimiz də var. Xatırladaq ki, Ermənistanın ümumilikdə 1254 km quru sərhəd zolağı var. Bunun Naxçıvan da daxil olmaqla 787 kilometri Azərbaycanla, 35 kilometri İranla, 268 kilometri Türkiyə ilə, 164 kilometri isə Gürcüstanladır.

Təkcə Gürcüstanla sərhəd zonasında 2001-ci ildə 14 dəfə nüvə texnologiyası materiallarının oğurluğu, daşınması ilə bağlı insident baş verib. On dörd cinayət işindən cəmi ikisi ilə bağlı istintaq işləri aparılıb. Nəticəsi hələlik yoxdur.

İranla sərhəd zolağında isə 2000-ci il avqustun 4-də 59 kq heroin aşkar edilmişdi. 2001-ci il iyulun 2-də İranın sərhəd qoşunlarının əməkdaşları Ermənistan ərazisindən İrana keçən narkokuryeri həbs edərək, ondan 32 kq müxtəlif adda narkotik maddələr müsadirə ediblər. Nəticə yenə də yoxdur: tranzit yolları bu gün də nəzarətsiz və açıqdır («İran» qəzeti, Tehran. 14 noyabr 2001-ci il, səh. 6).

2001-ci ilin oktyabrın 19-da polkovnik Tiqran Moiseyeviç və hüquqşünas Vladimir Nazaryan Amerika Birləşmiş Ştatlarına səfər edirlər.

Bu qeyri-rəsmi səfərlərin bütün xərclərini Amerika Erməni Assambleyasının hökumətlə əlaqələr üzrə direktoru C.Braun Erdouni çəkib. Oktyabrın 24-də ABŞ Konqresinin kitabxanasının məsul işçisi Levon Avdoyanın iştirakı ilə Tiqran Moiseyeviçin və Vladimir Nazaryanın ermənipərəst konqresmen Kristofer Smit və Frenk Polione arasında görüşü keçirilir. İki strateji məsələ müzakirə edilir:

**1.Dağlıq Qarabağın statusu və gələcək taleyi;**

**2.Dağlıq Qarabağ torpaqlarının Amerika milli təhlükəsizliyi baxımından istifadəsi.**

İkinci məsələ ilə bağlı ABŞ Senatının qəbul etdiyi qanun layihəsində Qarabağ münaqişəsinin (müharibəsinin – *red.*) tənzimlənməsi pərdəsi altında xüsusi yardım bankı da açılıb (ABŞ-ın Kaliforniya ştatındakı erməni icmasının nəşr etdirdiyi «Politiçeskaya mısl » jurnalı, dekabr 2001-ci il, səh.29).

Həm Senatda, həm Konqresdə, həm də Dövlət Departamentində, eləcə də kütləvi informasiya vasitələrində çalışan erməni yazarların, erməni təəssübkeşlərinin qarşısında yeni, əslində isə, mahiyyət etibarı ilə köhnə olan strateji məsələ qoyulmuşdu: Dağlıq Qarabağ bütövlükdə dünyanın aparıcı dairələrində, siyasi birlik və təşkilatlarında «hüquqi dövlət» kimi təbliğ olunmalı idi. İşğal olunmuş ərazinin erməni icmasının ciddi nəzarətində qalması, adamların beynəlxalq hüquq normaları çərçivəsində yaşamalarının təmin olunması haqqında beynəlxalq miqyaslı rəylər alınmalı idi.

«Dağlıq Qarabağ haqqında müstəqil konsepsiya» adlı siyasi sənədin ilkin nüsxələri yayılmalı idi. Tarixi baxımdan, hələlik kənarda qalan, lakin lazım olan anlarda «ciddi bir mexanizm» kimi işə salınan bu sənəd, əslində 2000-ci il yanvarın 3-də hazırlanmışdı («Artsax» qəzeti. Xankəndi, 21 fevral 2000-ci il, səh. 2).

Belə bir konsepsiyanın ilkin variantı hələ 2000-ci il avqustun 9-da Xankəndində müzakirə edilmiş və kiçik düzəlişlərlə ABŞ politoloqu Pol Qobla ötürülmüşdü. Konsepsiya 2000-ci il avqustun 14-də «Regional təhlükəsizliyin təmin olunması» mövzusunda Xankəndində keçirilən müşavirədə səsləndirildi. «Regional» dedikdə, Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ ərazisi nəzərdə tutulur. Bu barədə «Şuşa ərazi kəşfiyyat xidməti»nin məsul işçilərindən olan mayor Artaşes Nailyan məlumat verib. Bu haqda Şuşa hərbi dairəsi üçün nəzərdə tutulan 2000-ci il avqustun 21-də Şuşada nəşr olunan «Korpus – nasional» bülleteninin 12-14-cü səhifələrində material var.

Erməni terrorçularının işğalına məruz qalmış regionla bağlı «Dağlıq Qarabağ haqqında müstəqil konsepsiya»nın hazırlanmasında hüquqşünas Vladimir Nazaryan, ermənipərəst konqresmenlərdən Kristofer Smit (ABŞ Konqresinin ATƏT-lə əlaqələr komitəsinin həmsədri), Frenk Polione, Braun Erdouni da yaxından iştirak ediblər. (V.Nazaryan: «Dağlıq Qarabağ haqqında hüquqi sənəd». Yerevan. «MTİK» nəşriyyatı. Noyabr 2000-ci il. Rus, ingilis və erməni dillərində.)

«Müstəqil konsepsiya»nın mahiyyətinə görə yaxın gələcəkdə Dağlıq Qarabağın «müstəqil respublika» kimi hökumət və dövlət strukturları, kəşfiyyat mərkəzləri və beynəlxalq əlaqələri yenidən qurulmalı olacaq.

Bu arada Dağlıq Qarabağın «Yeni hökumət strukturu» adlı proqram-sənədinin də müzakirəyə çıxarılacağı haqqında da ilkin məlumatlar yayılırdı. 24 səhifəlik bu strateji proqramın 13-cü bəndində yazılır: ***«…Dağlıq Qarabağın beynəlxalq hüquq normaları çərçivəsində hazırlanmış və Avropa standartlarına uyğun təşkil ediləcək hökumət strukturunda xaricdə yaşayan və tanınan ermənilər iştirak edə bilərlər…»*** (Yenə orada, səh. 42).

Araşdırmalarımıza görə, 2000-ci il oktyabrın 1-dən 2001-ci il fevralın 4-dək Dağlıq Qarabağ istiqamətində hazırlanmış sənədlərin hüquqi cəhətdən rəsmiləşdirilməsində və yayılmasında xüsusi rol oynayan Vladimir Nazaryan 2001-ci il fevralın 16-da Tehrana yola düşür. İlk günlər bu səfərin məqsədi açıqlanmadı. Lakin Ermənistanın həm Moskvada, həm Tehranda və həm də Vaşinqtondakı səfirliyində Dağlıq Qarabağ problemi ilə məşğul olan nümayəndəlik statusunda ayrıca bölmə fəaliyyət göstərir. Vladimir Nazaryan Tehrandakı erməni səfirliyinin «DQ üzrə nümayəndəsi» ilə görüşündə qeyd edir ki, o, 1988-89-cu illərdə Dağlıq Qarabağ ərazisindən, eləcə də Azərbaycanın müxtəlif regionlarından İran İslam Respublikasına köçmüş erməni icmasının nümayəndələri ilə görüşəcək. 2001-ci il fevralın 21-də Vladimir Nazaryan 1990-cı ilin avqust-sentyabr aylarında Şuşadan İrana köçmüş və hazırda İsfahanda məskunlaşan «Şuşa erməni icması»nın başçısı Aleks Karaxanyanı qəbul edir. Fevralın 24-də isə 1990-cı ildə Bakıdan, Gəncədən və Naxçıvandan köçüb getmiş və hazırda Tehranda məskunlaşan «Azərbaycan erməni icması»nın nümayəndələri ilə görüşür. 1985-ci ilədək Azərbaycan Dövlət Universitetində işləyən Tolik Vardanyan, fizik Suren Çekoryan, alim Dadun Saradeqbekyan, vəkil Aleksey Çitçiyan da həmin görüşdə iştirak ediblər. Bu şəxslər İranda Dağlıq Qarabağın Ermənistana mənsubluğu haqqında 1990-cı il dekabrın 12-də, 1991-ci il iyulun 3-də, 2000-ci il avqustun 26-da, 2001-ci il martın 23-də

İranın ermənipərəst diplomatları ilə birgə «hüquqi sənədlər»in hazırlanmasında iştirak ediblər. «Azərbaycan erməni icması»nın ictimai bir təşkilat kimi qeydə alınması, artıq, Tehran rəsmiləri tərəfindən təmin olunub (5 iyul 1992-ci il). General Vladimir Nazaryan 2001-ci il fevralın 28-də (Tehran, İmam Xomeyni xiyabanı, Hüseynabad meydanı) Azərbaycan ərazisindən, o cümlədən, Naxçıvandan, Bakıdan, Gəncədən və Dağlıq Qarabağdan köçüb getmiş və hazırda Tehranda, İsfahanda, Təbrizdə və Ərdəbildə məskunlaşan erməni nümayəndələri ilə görüşündə inandırmağa çalışır ki, yerli ermənilərdən (yəni, İran ermənilərindən) fərqli olaraq, onlar 1992-93-cü illərdə Dağlıq Qarabağdan İrana pənah gətirmiş azərbaycanlılarla, eləcə də bugünkü Azərbaycan dövlətinin siyasi kursunu tənqid etdikləri üçün İrana sığınmış şəxslərlə sıx təmasda olmalı, «incidilmiş azərbaycanlılar»ın təşkil etdikləri «Azərbaycanın demokratik hökuməti» adlı qurumda iştirak etməlidirlər və buna onların hüququ var. Çünki onların əksəriyyəti İran vətəndaşlığını qəbul etməyib və rəsmi dairələrdə, xeyriyyə və imdad təşkilatlarında Azərbaycan vətəndaşı kimi qeydiyyata alınıblar («Pegah» həftəlik qəzeti. Gilan. 9 mart 2001-ci il, səh. 6).

Erməni hüquqşünasının etiraf etdiyi kimi, belə bir qondarma və üzdəniraq hökumətin BQ-ı ABŞ və Rusiya ərazilərində də fəaliyyət göstərir.

«Azərbaycanın demokratik hökuməti» adlı qurum 1999-cu il fevralın 14-dən martın 24-dək İranın Əhər yaşayış ərazisinin Reyhan məntəqəsində fəaliyyət göstərib. 11 nəfərin iştirak etdiyi bu «Kölgə hökuməti» Azərbaycanda mövcud quruluşu qəbul etmir. Onların fikrincə, Azərbaycan ərazisi zahirən müstəqildir. Onun qanunları da, islahatları da, parlamenti də… ümumən hökumət təmsilçiləri də regionda geosiyasi və geoiqtisadi maraqları olan NATO-ya üzv ölkələrin maraq dairəsinə salınıb. 2000-ci il sentyabrın 2-də «Kölgə hökuməti» Rəşt şəhər mərkəzinin cənub-qərb zonasına köçürülür. Qondarma hökumətin üç erməni, iki talış, iki kürd, dörd azərbaycanlı üzvü var. Başqa bir məlumatda isə bildirilir ki, «Kölgə hökuməti»nin tərkibində müstəqil «hərbi səhra məhkəməsi» deyilən bir qurum da fəaliyyət göstərir. Bu qurumun da dörd üzvü var. İki həftədən bir məşvərət keçirən qurumun üzvləri Azərbaycan ərazisində baş verən hüquqi dəyişiklikləri araşdırır, ayrı-ayrı şəxslər haqqında əldə etdikləri informasiya və məlumatları müzakirə edir, ***«gələcəkdə etdikləri əməllərə görə cəzalanacaq adamların siyahısına əlavə edirlər»***.

Quruma daxil olan üzvlərin hər birinin həm Rusiya, həm Orta Asiya və Ermənistanla, həm Naxçıvan və Türkiyə ilə, həm də Azərbaycanla biznes

və kommersiya əlaqələri mövcuddur. «Kölgə hökuməti»nin Rəşt Beynəlxalq İslam Bankında hesabı var. Araşdırmalarımızdan bu da məlum oldu ki, sərhəddən kənar qeyri-qanuni Azərbaycanın müstəqilliyinə və dövlətçiliyinə zidd fəaliyyət göstərən bu qurumun – "Əsl milli hökumət"in üzvlərinin bir qismi 2001-ci il oktyabrın 3-dən 9-dək Azərbaycanın ermənilər tərəfindən işğal olunmuş ərazilərinə baxış keçirib. Onlar Zəngilanın, Qubadlının, Laçının, Şuşanın… yaşayış məhəllələrini gəzdikdən sonra Xankəndində Naira Melkumyanla görüşüblər. Bundan sonra qondarma hökumətin üzvləri ABŞ Dövlət Departamentinə, Rusiya prezidenti Vladimir Putinə, Avropa Şurasına və Ermənistan Təhlükəsizlik Şurasına nəzarətdən kənar zona elan edilmiş Qarabağın yaşayış məntəqələrinin ictimai-siyasi, iqtisadi və hərbi durumu ilə bağlı hesabat məktublarını hazırlayıblar. İran rəsmiləri isə hazırlanmış hesabat məktublarına möhür vurmaqdan imtina edərək, tezliklə onların ərazidən çıxarılmasını tələb ediblər. 16 səhifəlik hesabat 2001-ci il noyabrın 21-də Ermənistan Təhlükəsizlik Şurasında müzakirəyə göndərilib. Noyabrın 29-da isə Tiqran Moiseyeviç «Əsl milli hökumət»in Dağlıq Qarabağdakı nümayəndəsi təyin olunub (Xankəndi ərazisindən yayımlanan «Artsax» telekanalının 2001-ci il noyabrın 26-da yayımlanan verilişi).

Ermənistanın Prezident Aparatında müzakirəyə çıxarılmış sənədin mahiyyətindən aydın olur ki, guya «***…Dağlıq Qarabağ ərazisində hər şey qanun çərçivəsində həll edilir. Bu ərazi zorakılıq və təcavüzkarlıq siyasətindən uzaq bir ərazidir…***» («Pan Armenian», Yerevan. Dekabr 2001-ci il).

Araşdırmalarımıza görə, Azərbaycanın müstəqil daxili və xarici siyasətinə qarşı ikinci «Kölgə hökuməti» Rusiya Federasiyası ərazisində qurulub. Tehran rəsmilərindən fərqli olaraq, bu hökumət bir qurum və yaxud hər hansı bir xeyriyyə təşkilatı kimi qeydə alınmayıb. 1998-ci il iyulun 2-dən formalaşan və ilk iclası Moskva Dövlət Universitetinin tətbiqi riyaziyyat fakültəsinə mənsub otaqlardan birində keçən bu qurumun 17 üzvü var. Məlumata görə, ilk iclasdan sonra qurumun ayrı-ayrı üzvləri RF Federal Təhlükəsizlik Xidmətinin və Prezident Aparatının səlahiyyətli nümayəndələri ilə də əlaqəyə giriblər. Moskvada qeyri-leqal qurulmuş bu təşkilat İrkutskdakı «Təbriz-Azərbaycan Cəmiyyəti» (1992-ci il iyulun 16-da yaradılıb), Həştərxandakı «Xəzər» (1992-ci il iyunun 3-də yaradılıb), 1990-cı il mayın 12-də Ulyanovskda qeydiyyata götürülmüş «Odlar Yurdu», azərbaycanlı mühacirlərin Samarada (1994-cü ilin 4 sentyabrında yaradılıb)

təşkil etdikləri «Ozan» cəmiyyətinə də sorğu ilə müraciət edib («Region». Moskva, müstəqil siyasi xəbərlər qəzeti. 4 noyabr 1998-ci il).

Moskva vilayətində formalaşmaqda olan «Azərbaycan Milli Hökuməti»nin tərkibində uzun müddət Bakıda yaşamış, Səhiyyə Nazirliyi sistemində çalışmış professor Hacıbəy Əmiryan, prokurorluq orqanlarında işləmiş «Lyova» ləqəbli Qriqori Avakyan da var… Digər bir məlumatda bu da qeyd olunur ki, 2000-ci il aprelin 17-də «Dağlıq Qarabağ Respublikası Konstitusiyası»nın rus variantını Moskvaya gətirən və onun Rusiya Ədliyyə Nazirliyində kiçik müzakirəsini təşkil edən doktor Vladimir Nazaryan da bu qurumun erməni üzvləri ilə görüşlər təşkil edib («Armyanskiy vestnik» qəzeti, 6 aprel 1999-cu il).

Amerika Birləşmiş Ştatları ərazisində isə belə bir qurumun əsası 1999-cu il dekabrın 9-da qoyulsa da, bu gün də formalaşmayıb (O.Lalayan-Arutunyan: «Dağlıq Qarabağın xarici əlaqələri»… Moskva «Hüquq ədəbiyyatı» nəşriyyatı. 1999-cu il). Ona görə formalaşmayıb ki, Vaşinqton ərazisində təməli qoyulan «Azərbaycan Milli Demokratik Hökuməti»ndə ayrı-ayrı neft şirkətlərinin, ermənipərəst konqresmenlərin və senatorların maraqları var. Məlumata görə, son üç il ərzində Azərbaycandan gedən 37 şəxs bu maraqlar baxımından sorğu-suala tutulub. Qeyd edək ki, iqtidar-müxalifət anlayışı Azərbaycan sərhədlərinədəkdir. Sərhəddən sonra bu anlayış heç bir Qərb dövlətində dərk olunmur. Məsələn, Amerikanın rəsmi sənədlərində iqtidar-müxalifət anlayışı yoxdur. Bu ölkədə bütün məsələlərə demokratik prizmadan yanaşırlar. Hələlik Amerika administrasiyası üçün «Bakı demokratları və islahatçıları» tam qəbul edilmir. «Azərbaycan Milli Demokratik Hökuməti»nin Vaşinqton ərazisində təkcə özəyi var. Onun üzvləri pərakəndə bir formada elə Azərbaycandadır. Bu qurumun üzvləri Tehrandakı qurumun üzvlərindən 2,5, Moskva ərazisindəki qurumun üzvlərindən isə 3 dəfə artıq maliyyə yardımı alırlar. Bu yardımlar da, məlumata görə, şəxsi görüşlərdə, rəsmi yığıncaqlarda, diskussiya və müşavirələrdə nəzərdə tutulmuş ünvanlara ötürülür(?)…

***«Kölgə hökumətləri» ilə bağlı əldə etdiyimiz məlumatlardan biri də bu olub ki, Dağlıq Qarabağda açılan silah bazarının təşkilatçılarından olan, «Ermənistanın gələcəkdə nüvə silahına sahib olmasını» açıqca elan edən, ölkə Konstitusiyasının yaradıcısı və qondarma «Dağlıq Qarabağ Respublikası Konstitusiyası»nın ilkin variantlarını (bu variantlar dörddür) hazırlayan professor Vladimir Georgiyeviç Nazaryan 2002-ci il iyunun 20-də saat 21:40 dəqiqədə özünü asaraq intihar edib…*** (Bax: «Azq» qəzeti. Ermənistan, 2002, V.21).

## XÜSUSİ SEPARATÇI QRUPLAR

Erməni işğalçıları Xocalı yaşayış məntəqəsində etdikləri terror əməlləri ilə bağlı dünya mətbuatı səhifələrinə çıxarıla biləcək ən kiçik informasiyanın yayınmaması üçün «Qaranquş» adlı xüsusi qruplar yaradıblar. Təşkilatın üzvləri birbaşa xarici ölkələrdə məskunlaşmış erməni diaspor təşkilatları ilə, icma üzvlərilə, kilsə şurası ilə əlaqəyə girir, Qarabağ istiqamətində məlum olan erməni cinayətlərinin ört-basdır edilməsində xüsusi canfəşanlıq göstərirlər. Ümumiyyətlə, Yerevan Azərbaycan istiqamətində antiazərbaycan siyasətini yürütmək üçün 1990-cı ildən 2010-cu ilədək 19 milyon dollar vəsait xərcləyib. Bunun da 75 faizi İsveçrə, Kanada, Fransa, ABŞ-ın payına düşür… (?).

Hələ 2000-ci ilin 25 iyununda Beyrutdakı Ümumerməni Kilsə Şurasının çıxardığı «Erməni üçün bərabər pay bölgüsü» qətnaməsinin girişində yazılırdı: «…Böyük Ermənistan torpağı uğrunda vuruşan və, əsasən, Dağlıq Qarabağda – Artsaxda (Xankəndi) düşmənə qarşı azadlığı və vətən sevgisi üçün meydanlara atılan «ASALA» ordusunun böyük əsgərlərinə hörmət və ehtiramla ayrılmış pay bölgüsünü qurtardıq. «ASALA» bizim nəzərimizdə «Vartan cəngavərləri»dir. «Vartan cəngavərləri» «ASALA»nın döyünən ürəyi və vuran əlidir, düşünən beyni, eşidən qulağı, görən gözüdür» (Livan. «Aztaq» erməni qəzeti. Daşnaksutyun partiyasının orqanı. 2000-ci il 27 iyun nömrəsinə əlavə, səh. 2).

2001-ci il fevralın 4-də isə Şuranın katibliyində beynəlxalq əlaqələrə baxan, 1964-cü ildən 1985-ci ilədək Sumqayıt şəhərində pasport qeydiyyatında olan mühəndis Qurgen Matesxoviç Seraqanyan Roma İlahiyyat Akademiyasının üzvü Xose Luisa Şaneyə göndərdiyi məktubda xahiş edir ki, «…erməni mənəviyyatı və əqidəsi uğrunda vuruşan…» «Vartan cəngavərləri»nin katolik kilsəsinin məxfi ordusu kimi qüdrət və güc sahibi olan «OPUS DEI» («Allahın ordusu») ordusu ilə əlaqələrində yardımçı olsun. Onun fikrincə, «…yer üzündə elə bir millət tapılmaz ki, erməni milləti qədər atdığı addımlarda Allahın əmri və hökmü olmasın…».

2001-ci il martın 9-da Livanın Sayda liman şəhərindəki Dini Mərkəzdə Roma katolik kilsəsinin «Allahın ordusu» ilə «ASALA» erməni terrorçu hərbi korpusunun bir qolu olan «Vartan cəngavərləri» arasında «Yardım

aktı» imzalandı və qəbul olunmuş müştərək bəyannaməyə əsasən qeyd olundu: ***«…Biz ulduz kimi parlamaq, yerə və göyə sahib olmaq istəyiriksə… heç kəsə inanmamalı, heç kəsi özümüzə dost hesab etməməliyik. Qoy, hamı bizim dostumuz olsun. Məhəbbətimizi və istəyimizi bildirmədən… əqidə və torpaq uğrunda vuruşmalıyıq…».***

«Allahın ordusu» məxfi təşkilatın «İcmal» bülletenində isə qeyd edilir: «…Bizim ən böyük ambisiyalarımız özünü həyatın siyasi, dini, iqtisadi, mədəni sahələrində daha qabarıq göstərir. Biz bütün məsələlərə sivil qaydada yanaşırıq…» (Yanvar 2000-ci il. №2, səh. 11).

Əslində, «Vartan cəngavərləri»nin fəaliyyət prinsipinə Roma katolik kilsəsində yaxşı bələd idilər. «Vartan cəngavərləri», artıq, «ASALA»nın ən möhtəşəm silahlı birləşməsi kimi özünü tanıda bilmişdi. Məsələn, Xocalıda həlak olanların bir qisminin ayaqlarında, sinə və sifətlərində belə işarələr var idi: «… B…», «A…», «S…», «M…». Bütün bu hərflərin küt erməni bıçaqları ilə bədənə «yeridildiyi hiss olunurdu…». Amma biz bu işarələrin əsl mahiyyətini öyrənə bilmədik.

«Vartan cəngavərləri»nin «ASALA»nın bir qolu olması haqqında həm MKİ-də (ABŞ), həm «Mİ-6»-da (İngiltərə), həm «MOSSAD»da (İsrail), həm «MİT»-də (Türkiyə), həm «BND-5»-də (Almaniya), həm RTX-də (RF), həm «ETTELAAT»da (İran)… kifayət qədər informasiya var. Buna baxmayaraq, Beyrutda və Parisdə məxfi Baş Qərargahını yaradan «Vartan cəngavərləri»nin – terrorçu bir qurumun imzası Ağ Evdə (ABŞ) göründü.

Çünki «Xocalıya Ədalət!» çağırışları onların əsl məramını, Azərbaycana qarşı tutduqları düşmənçilik və terrorçuluq siyasətlərinin üstündən qələm çəkmişdi. «Xocalıya Ədalət!» xocalılara qarşı qanlı və cinayətkar aksiyalarda iştirak edən bütün erməni dəstə və qrupları, terror birləşmələrini ifşa edib, dağıdırdı.

2010-cu ildə Ağ Evə «Vartan cəngavərləri»nin məktubu təqdim edildi. Məktubu iş adamları və diaspor nümayəndələri (O.Babayan, S.S.Soleymanyan, T.Ş.Badamçıyan, Q.Qriqoryan, L.Şaqen, F.Petrosyan…) imzalamışdılar. Bu dəfə «Vartan cəngavərləri» eyni adlı və eyni məzmunlu məktubu ABŞ prezidentinə ünvanladılar. Onların imzaladıqları məktub da əvvəlki kimi idi. Üstündə əl gəzdirilmiş məktubda «cəngavərlər» yazırdılar: ***«…Cənab Prezident!… Dağlıq Qarabağın öz müqəddəratını təyin etmək hüququnun alternativi yoxdur. Seçmək azadlığı olmadan möhkəm sülh ola***

***bilməz. Bu hüququ özünə DQ xalqı ağlasığmaz qurbanlar bahasına qazanıb. Birləşmiş Ştatlar bu əsas hüquqdan dincliklə istifadə etməyə çalışan Qarabağ xalqının tərəfində durmalıdır».***

«Vartan cəngavərləri» «təşkilatlanmışıq» deyəndə onlar üçün yaradılmış şəraiti nəzərdə tutmurdular. Əksinə, demək istəyirdilər ki, bizə, artıq, istənilən tapşırığı verə bilərsiniz… Nəticədə «Vartan cəngavərləri» Azərbaycan ərazisində, eləcə də Naxçıvan regionunda mikrobiologiya, kimya, Kvant fizikası və nüvə araşdırmaları ilə məşğul olan strateji obyektlərdən informasiyalar toplamaq, videokassetlər almaq, sənəd və layihə-sxemlər əldə etmək üçün xüsusi planlar hazırladılar.

Ümumiyyətlə, «Vartan cəngavərləri»nin Beyrut bürosu hələ 1994-95-ci illərdə özlərinin Kennedi (ABŞ), Domodedovo (RF), Şarl De Qol (Fransa) adına, eləcə də Türkiyə və İranın, Almaniya və Yaponiyanın, Çin və İsveçrənin, İngiltərənin… hava limanlarında informasiya bölmələrini yaratmışdılar. Bu bölmələrə Azərbaycan dilində mükəmməl danışan, Bakını tanıyan və nə zamansa bu şəhərdə işləmiş şəxslər cəlb olunurdular. Onlar hava limanlarında ikən təyyarələrdə azərbaycanlı ziyalılarla, xüsusən Azərbaycan hakimiyyətindən narazı olanlarla görüşür, əlaqələr qurur və yeri gələndə yardımlar da edirlər. Məsələn, 1995-ci ildə «Vartan cəngavərləri» təkcə ABŞ-ın hava limanlarında Bakıdan görüş və yığıncağa gedən şəxslər üçün 74 min ABŞ dolları xərcləmişlər. Əvəzində «Vartan cəngavərləri» həmin şəxslərlə dostluq əlaqələri yaratmış, ev və iş telefonlarını, ünvanlarını götürmüş, əlaqələr qurmuşlar. Beyrut «Bülleten»inin «İcmalçı yazır» xəbərlər toplusunda belə bir qeyd də diqqətdən yayınmadı: «…Biz onların bəziləri ilə elə əlaqələr qurmuşuq ki, hər hansı demokratiya və insan hüquqları ilə məşğul olan qeyri-hökumət təşkilatları vasitəsilə istədiyimiz ölkəyə dəvət edə bilərik…» (4 oktyabr 1995-ci il. Roma, №20, «Bülleten», səh. 4).

Bir faktı da xatırladaq ki, 2001-ci il tarixə yeni bir mafiya – nüvə mafiyası ili kimi daxil oldu. Çünki hesablamalara görə, 2001-ci ildə daha çox nüvə materialları oğurlanaraq üçüncü ölkələrə daşınıb və bu tipli oğurluğun həcmi 20 faiz artıb. Məsələn, 2001-ci ilin 10 ayı ərzində MDB ölkələri ərazilərindən 12 kiloqram uran yoxa çıxıb. 2005-ci ildə isə bu rəqəm 28 faizə çatıb. Digər bir oğurluqda isə 6 kiloqram «Uran-235» qeydə

alınıb. Səkkiz kiloqram «3 D 20» nişanlı plutoniumu asanlıqla sərhəddən keçiriblər.

Heydər Əliyev Fondunun RF-dakı Nümayəndəliyinin rəhbəri Fondun vitse-prezidenti Leyla xanım Əliyevanın «Xocalıya Ədalət!» strateji çağırışı və mütamadi olaraq müxtəlif formalarda, nüfuzlu formatlarda təşkil edib, həyata keçirdikləri geniş miqyaslı tədbirlər başqa erməni ziyalıları kimi, Akopyan nəslinin üzvlərini də çaşdırırdı. Bu nəslin üzvləri Ermənistan rəhbərliyinə ünvanladıqları məktub və sorğularda «Xocalıya Ədalət!»in mahiyyətini xəbər alır, onlardan cavab istəyirdilər. Professor A.A.Akopyan qeyd edirdi: «Xocalıya Ədalət!» böyük bir nəslin arxasını yerə vurdu… Ermənilər susurdular. Sanki bütün bunlardan xəbərsiz idilər. Rəsmi Yerevan da susurdu…» («Amerikanın səsi» radiosu. 2009-cu il. XII).

Professor, həmçinin, Xocalıda 1992-ci ilin fevralın 25-dən 26-na keçən gecə güllələnmiş, məhv edilmiş, zəhərdən boğularaq ölmüş az yaşlı uşaqlara görə Beynəlxalq aləmdən ermənilərin bağışlanmalarını istəyəcəyini bildirirdi.

# XOCALI TERRORU ÜÇÜN MALİYYƏ

Erməni təşkilatının bank hesablarından biri Qafqaz İnvestisiya Bankı nəzdində açılır və bu bank da yanacaq və energetika sahəsində iş gördüyündən Qafqaz ölkələrinin Avropa və Yaxın Şərqlə ticarət əlaqələrini qurur. Nəticədə 1992-ci il mayın 14-də erməni Harri Marat Ambarsumyan Qafqaz İnvestisiya Bankı»nın xətti ilə (bankın rəhbəri milliyyətcə Livan ermənisi milyonçu Adnan Holkoyandır) (Haşoqqi) Bakıda olur, Gəncə və Naxçıvana qısa səfərlər edir. H.M.Ambarsumyan Bakıda olarkən ölkə parlamentində, Prezident Aparatında rəsmi şəxslərlə görüşür… Məqsəd strateji baxımdan diqqətdə olan, müharibə günlərini yaşayan Azərbaycanın əsas iqtisadi-strateji mərkəzlərini, infrastrukturlarını, bank sistemini öyrənmək idi. Digər tərəfdən, Harri Marat Ambarsumyan öz təşkilatlarına məxsus bank hesabını bankdan-banka keçirərək Bakıda saxlamağa cəhd edirdi. Bu bank hesabı Azərbaycan çevrəsində iş görmək üçün ona hökmən lazım idi.

Qafqaz İnvestisiya Bankının 1996-cı il üçün illik hesabatında belə bir açıqlama verilir ki, bank öz hesabından Yerevanda, Bakıda və Tbilisidə işlərini demokratik ruhda qurmağa səy edən bir neçə mətbu orqana, cəmiyyət və təşkilata əvəzsiz yardımlar edib. 1996-cı il avqustun 12-də Beyrutda nəşr olunan «Qafqaz İnvestisiya Bankı:  daxili məsələlər üçün illik hesabat"ının 14-cü səhifəsində deyilir: ***«Qafqazda investisiyalar qoyduq… Bank bununla öz işini tamamlamır. Biz regionlarda strateji əlaqələrin qurulması naminə dayaqlarımızı da yaratdıq…»*** Məlumata görə, başqa banklardan fərqli olaraq, bu bank strateji əlaqələrə dair informasiyaları 2006-cı ilədək qoruyub saxlayacaq. Yəni, bankın Azərbaycan ərazisində, eləcə də Qarabağ regionundakı fəaliyyəti ilə bağlı materialları əldə etmək mümkündür.

Araşdırmalarımıza görə, 1992-ci il yanvarın 14-dən etibarən bankın Gorusda və Qafanda da ofisləri və bu ofislərdə Mərkəzləşdirilmiş Erməni İcmaları İttifaqının Gorusda OI: BO11421-BANK.AR, Qafanda isə OI:B244001-BANK. AR nömrəli hesabları açılır. Nəticədə xarici ölkələr-dən terrorçu qardaşlarına yardım üçün Dağlıq Qarabağa təşrif gətirən erməni təşkilatları, ilk növbədə, Gorusda və Qafanda açılmış banklarda qeydiyyatdan keçməli oldular. Gorus bankında nəzarətçi işləyən yerli erməni Halonis Arakelyanın fikrincə, bu bank çox mətləblərdə yardımçı olurdu. Orada rus və İran iş adamları da görünürdülər. Bu üzvlər bilavasitə

Mərkəzləşdirilmiş Erməni İcmalarının İttifaqında qeydə alınan təşkilatlardan idilər. Beləliklə, məlumata görə, 1992-ci il martın 28-də əsasən Laçında qərar tutan və məxfi özəklərini yaratmağa səy edən təşkilatlar, o cümlədən:

– **«Müqəddəs erməni vətən birliyi» təşkilatı (Sudan. 3 dekabr 1989);**
– **«Katolikos» təşkilatı (Misir. 26 iyun 1989);**
– **«Dağlıq Qarabağa yardım mərkəzi» (Livan. 2 avqust 1990);**
– **«Ararat + Araz» təşkilatı (İordaniya. 26 fevral 1990);**
– **«Böyük erməni ideyası» (Suriya. 21 aprel 1989)**

bu ittifaqda fəaliyyətlərini rəsmiləşdirdilər.

Araşdırmalarımıza görə, «Müqəddəs erməni vətən birliyi» təşkilatı 1989-cu il dekabrın 3-də iş adamı, erməni mühaciri Emin Aydınyanın təşəbbüsü ilə Xartumda yaranıb. Təşkilat Azərbaycanda yaşayan ermənilər arasında 1989-90-cı illərdə sadəcə «Birlik» adı ilə fəaliyyət göstərib. Bakının Nəsimi və Sahil (o vaxtkı «26-lar» rayonu) rayonlarında özəkləri olub. İxtisasca inşaat mühəndisi olan Emin Urabekoviç Aydınyanın başçılıq etdiyi təşkilat 1991-ci il noyabrın 4-də özünün radikal qanadını yaradır və Nizamnaməsində dəyişikliklər edir. 1991-ci il noyabrın 20-də 12 nəfərlik könüllü dəstə ilə E.U.Aydınyan Xartumdan 0121 reysilə Beyruta gəlir, noyabrın 23-də Beyrut-Yerevan reysilə Ermənistana uçur. Noyabrın 26-da Yerevanda ölkənin Xarici İşlər naziri Raffi Ovanesyanla və Daxili İşlər naziri, general Vanik Siradeqyanla görüşür. Dəstənin rəsmi sənədləri və xarici vətəndaşlığı göstərən və ya təsdiq edən pasportlar XİN-in konsulluq şöbəsinə verilir. Noyabrın 28-də dəstə Ermənistan DİN-nin Daxili Qoşunlarına qəbul olunur. Noyabrın 29-da isə E.U.Aydınyan Beyruta qayıdır. Könüllü mühacir dəstəsinə Ermənistan Daxili Qoşunlarının əməkdaşı, polkovnik Mark Ovsepyan başçılıq edir… Silahlı dəstə müstəqil bir qrup kimi 1992-ci ilin aprelin 19-da Laçın rayonunun Hacılar kəndində qərar tutur.

## Generala «qara məktub»

Erməni ideoloqu E.Aydınyan «Generala məktub… Siradeqyana salam…» 114 səhifəlik kitabında yazır: «***…Laçın yaşayış ərazisinin kimə aid olması məni maraqlandırmır. Məni maraqlandıran və heç vaxt maraq dairəmdən çıxmayan XXI əsr erməni tarixinə necə düşməyimdir… Şübhə etmirəm ki, bizim təşkilatın əli silahlı dəstələri erməni tarixinin XXI***

***əsrini yaratmaq iqtidarında olacaq…»*** (Beyrut. 1996-cı ilin fevralı, səh. 42).

Araşdırmalarımıza görə, polkovnik M.Ovsepyanın mühacir dəstəsi 1992-ci il mayın 13-də Laçın istiqamətində hücuma hazırlaşır. Bu barədə isə Gorusda erməni və rus dillərində çap olunan «Front» («Cəbhə») qəzeti 1992-ci il 26-cı sayında məlumat verir. Bu arada beynəlxalq «Reyter» (Reuters Ltd) İnformasiya Agentliyi öz müxbiri Vanori Bennetin Laçın ərazisindən belə bir məlumatını açıqlayır: «…Yerevan rəsmiləri bildirmişlər ki, Laçında yaşayan kürdlər ermənilərə humanitar yardımların – ərzaq mallarının və tibbi avadanlıqların çatdırılması üçün yolun dəhliz kimi istifadə edilməsinə könüllü olaraq icazə vermişlər...

Lakin iki gün sonra mən yenə də Laçından keçərkən, meyitlərin hələ də xəndəklərdə olduqlarını gördüm. .. Meçi adlı yerli jurnalist: "Baxmayın. Elə şeylər var ki, Siz onlara baxmamalısınız və elə suallar da var ki, onları verməməlisiniz...", dedi. («Reuters» agentliyinin 1992-ci il 19 may tarixli məlumatı. İki qoşa səhifə. Əlavə məlumat: Moskva. «Nezavisimaya qazeta». Həmin tarix, səh. 2.)

Laçın yolları və keçidləri öldürülmüş, güllədən keçirilmiş… insanlarla dolu idi. İngilis jurnalisti V.Bennet bunu da deyir ki, ona əzab və işgəncələrlə öldürülmüş meyitlərə baxmaq qadağan olunurdu. ***«Onların bir qisminin başı kəsilmişdi…»,*** deyən V.Bennet, özünə bir daha «bu eybəcər vəhşilik və qəddarlıqla dolu olan yerə» gəlməyəcəyinə söz verir.

## Başı kəsilmiş qız uşaqları

1992-ci il mayın 18-də saat 13.50-də Laçın ərazisindəki Qarıqışlaq kəndində (qərb hissəsində) səkkiz qız uşağı güllələnir. Yaşı 9-la 11 arasında olan bu uşaqların dördü Hacılar kəndindən idi. Bütün bunlar, məlumata görə, V.Bennet tərəfindən lentə köçürülür. Lakin Londona qayıtdıqdan sonra həmin kasset İngiltərənin «Mİ-6» kəşfiyyat xidməti tərəfindən alınır. Nə üçün məhz qız uşaqları? Fikrimizcə, **erməni separatçıları bu qızların simasında sabahın qeyrətli, ədalətli, yüksək mənəviyyata sahib, xalqını, millətini sevən, Vətənləri -müstəqil Azərbaycan üçün igid və cəsur övladlar dünyaya gətirə biləcək anaları görürdülər.**

«Dağlıq Qarabağa yardım mərkəzi» 1992-ci il martın 13-də Sisiyan rayon ərazisindəki «V/ç-2101» nömrəli xüsusi dəstənin tərkibində məskunlaşır. Martın 16-da isə doqquz nəfərlik silahlı dəstə Xnatsax sərhəd məntəqəsinə köçür. Martın 22-də Xnatsaxla Verişen əraziləri arasındakı

«Şimal» təlim düşərgəsində hərbi təlimlərə başlayır. 1992-ci il mayın 15-də hərbi hissənin mayoru Abram Arşakyanın komandanlığı ilə muzdlu rota Sadınlar kəndinə hücum edir. Mayın 16-da 13 kənd sakini əsir alınır. Məlumata görə, onların bir neçəsi hələ də Ermənistan Təhlükəsizlik Xidmətinin həbsxanasında saxlanılır. Ermənistan MTN-nin rəsmiləri bu faktı inkar etməklə işini bitmiş hesab edir. AŞ-sı isə hələ də susur.

***1992-ci il mayın 19-da sağ qalan 7 əsir «Sonasar» əsir düşərgəsinə göndərilir. Bu düşərgədə hər şey satılırdı… Can üstündə olan əsirlərimiz dava-dərmandan məhrum edilirdi. Həkim Aida Nersesovna Saakyan üçün güllə yarası almış uşaq-əsirlər diriykən ölümə məhkum edilmişdilər. «Sonasar»da həkim-terrorçu Aida Saakyanın iynə və zəhərli preparatları ilə qətlə yetirilən uşaqlar üçün ayrıca qəbiristanlıq salınmışdı. Erməni muzdlularının «Dərə» adlandırdıqları bu qəbiristanlıqda bir gündə 36 insan dəfn edildi. Bu barədə əldə etdiyi ilk məlumatı mayın 27-də BMT-nin Uşaq Fonduna diplomat Françesko Vendrelli çatdırdı (BMT. «Uşaq fondunun məlumat və hesabatı», 9 oktyabr 1992-ci il).***

Araşdırmalarımıza görə, İngiltərənin, Amerika Birləşmiş Ştatlarının, İranın, Almaniyanın, Rusiya Federasiyasının və Fransanın dövlət arxivlərində, xüsusi xidmət orqanlarının qovluqlarında erməni terrorçu dəstələrin Azərbaycanın Dağlıq Qarabağ ərazisində törətdikləri cinayətlərə, vəhşilik və genosid siyasətlərinə dair kifayət qədər sənəd və lent yazıları var. Ermənistanı təcavüzkar və terrorçu bir dövlət kimi göstərmək, dünyaya tanıtmaq üçün 17 dəqiqəlik bu sənədli lent kifayət edərdi…

## Hamilə qadınlar üçün dar ağacı

1992-ci il mayın 19-da Laçın rayonunun 6 kəndində dar ağacı qurulmuşdu.

«***…Dar ağacları məni vahiməyə salmışdı… Alxaslı kəndində qurulan qoşa dar ağaclarında iki qadın asılmışdı… Bəlkə də ana-balaydı, bilmədim… Amma bu mənzərə dünyanı sarsıda, ürəyi olan kəsləri düşündürə biləcək bir mənzərəydi. Xilas üçün əlimiz çatmadığından, Allahdan bağışlanmamızı istədik… İranda bu kadrları heç kəs çap etmədi…***» (İran jurnalisti Səyyah Hüseyn. «Laçın dəftəri» kitabı. «Morteza qardaşları» nəşriyyatı. 1995, səh. 52).

Ermənilərin dar ağaclarına çəkdikləri qadınlar, 1993-cü ilin araşdırmalarına görə, Hicar Əjdər qızı Əmirova (1948-ci il təvəllüdlü,

pasport: XI-JQ N469214) və Rəbiyyə Aslan qızı Abdullayeva (1950-ci il təvəllüdlü, pasport: XI-JQ N312612) olub.

1995-ci ilin materiallarında isə bu adamların adları bir daha dəqiqləşdirildi:

**1. Hicar Ələsgər qızı Əmirova (doğum sənədi eynidir).**

**2. Rəbiyyə Aslan qızı Abdulova (doğum sənədi eynidir).**

Erməni terrorçuları həmin şəkilləri «Zartunk» (Livan), «Ararat» (Türkiyə), «Vestnik» (RF), «Araz» (İran), «Verayeti» (Variety – ABŞ)… qəzet və jurnallarında çap etdirərək sənədli xronikanın faktları kimi öz mövqelərindən (1992-93-cü illər) şərh edirdilər. Guya həmin qadınlar azərbaycanlılar tərəfindən Xankəndində asılıblar. Məkan, təhlillər və toplanmış materiallar isə başqa səmtə aparıb çıxarırdı. 1995-ci ildə ermənilər Kaliforniyada keçirilən «Həvəskarların sənədli kadrları» sənədli kinofilmlər festivalında bu kadrların nümayişinə görə gümüş, 1997-ci ildə isə Parisdə eyni adlı festivalda qızıl medala «layiq görüldülər»… («San-Fransisko xəbərləri», 26 noyabr 1995-ci il. «Le Monde» – «Dünya» 13 aprel 1997-ci il).

1992-ci ilin yanvar-iyun aylarında Qarabağ ərazisində terrorçuluq aktlarında iştirak edən «V2:216/43» nömrəli erməni-rus hərbi dəstənin üzvlərindən olan sıravi Usman Xocayev Sadulla Daşkənd Hərbi Komissarlığına yazdığı «Etiraf» məktubunda göstərir: «…Bu, müharibədən çox qəsdə oxşayırdı. Ermənilərlə ruslar yerli adamların qəsdinə durmuşdular. Əsir alınmışlara anket paylayırdıq. Onları məcbur edirdik ki, kağızın işarə olunmuş hissəsinə milliyyətcə erməni olduqlarını yazsınlar. Etiraz edənlər öldürülürdü. Bəzilərinə isə tələm-tələsik dar ağacı düzəldilirdi…» (Daşkənd HK-nın arxiv sənədləri. Qovluq N431. «Qafqaz», səh. 363, II qovluq).

Məktubun bir hissəsi «İzvestiya» qəzetinin 1992-ci il 4 sentyabr tarixli sayının 2-ci səhifəsində çap olunub.

Həmin ilin sentyabrında Nyu-Yorkda nəşr olunan həftəlik «NATİON» qəzetində jurnalist Dilip Hiro «The Question on Azerbaijan» («Azərbaycanla bağlı sual») yazısında qeyd edir: «…Ərazisi üç dəfə, əhalisi isə iki dəfə Ermənistanı üstələyən , neft və qaz yataqları ilə zəngin olan bir ölkənin xalqı nizami orduya deyil, yaraqlılara məğlub olması fikrilə heç cür barışa bilmirdi. Onlar öz uğursuzluqlarını MDB ordusunun ermənipərəst zabitlərilə Moskvadakı siyasətçilərin birgə hazırladıqları sui-qəsdlə, Tehrandakı erməni diasporunun, daşnak ekstremistlərinin və fanatik İran mollalarının birliyilə , eləcə də yüksək qiymətlə Azərbaycan

silahının ermənilərə satmaqda şübhəli olan satqın Azərbaycan "mafiyası"yla da əlaqələndirdilər…».

Məlumata görə, 1992-ci il noyabrın 10-da Ümummilli Erməni Hərəkatının lideri, Azərbaycan torpaqlarının işğalında fəal iştirakına görə «Müqəddəs Georgi» ordeni alan Aşot Beloyan Bakıya gəlir… Ondan bir qədər əvvəl isə, 1992-ci ilin iyulun 1-də Ermənistan prezidenti Levon Ter-Petrosyan elan edir: «…Dağlıq Qarabağdakı lokal müharibə genişmiqyaslı olarsa Ermənistan üçün əlverişli nəticə alına bilər…» (Moskva, «İzvestiya» qəzeti, 1 avqust 1992-ci il).

## İşğalçıların elektron poçtu

«Ekranlaşdırma» adicə söz birləşməsi və ya mücərrəd məfhum deyil. Bu sözün leksikonda öz yeri və mənası var. Fransız sözü kimi siyasi bir tutumu da bəllidir. ABŞ Məxfi Xidmət İdarəsinin direktoru Lyuis Merlettinin fikrincə, bütün məxfi xidmət idarələri, mərkəzləri, güc mərkəzləri «ekranlaşdırma» əməliyyatından keçməlidir. Belə olmazsa, həmin ərazidə və yaxud ərazilərdə heç bir məxfilik prinsiplərindən danışmaq olmaz. «Ekranlaşdırma» əməliyyatı imkan vermir ki, həmin ərazilərdən hər hansı bir məxfi informasiya və məlumat axını olsun. Bu texniki proseslərdən sonra kompüterlərə və telefon danışıqlarına, məxfi müşavirələrə və söhbətlərə, yazışma və elektron poçtlarına girmək mümkün olmur. «Ekranlaşdırma» anlayışı onlara sədd çəkir. Məsələn, Vaşinqtonla Yerevan arasında bağlanmış hərbi əməkdaşlığın (24 iyul 2000-ci il) bir qolunu Ermənistan xüsusi xidmət orqanlarının elektron şəbəkəsinin yenidən qurulması təşkil edirdi. Ayrılmış 300 min ABŞ dollarının 75 mini məhz bu məqsəd üçün xərcləndi. Ermənistanın hərbi kəşfiyyat və əks-kəşfiyyat idarələrinin texniki imkanları Pentaqonun sənəd və layihələrinə uyğun olaraq, yenidən quruldu. Azərbaycan və Gürcüstan istiqamətində, eləcə də Orta Asiya xəttində yeni kanallar – elektron poçt kanalları açıldı. Enriko Apriamov bunlarla bağlı belə bir açıqlama verdi: ***«Bizim üçün vaxt gözləmir. Yerevan bütün mövcud texniki imkanlardan istifadə edərək istənilən saytlara girmək şansı qazanıb. İnformasiya əməliyyatlarının bizim üçün əhəmiyyəti böyükdür. Elektron poçtlarına gəlincə, Yerevan, artıq, informasiya texnologiyasının bu qolunu həm Orta Asiyada, həm də Azərbaycan və Gürcüstanda nəzarətə götürmək və həmin elektron poçtlarını araşdırmaq üçün güclü «Strateji informasiyaların təhlükəsizlik konsepsiyası»na malikdir…»***. Deməli, erməni generalının fikrincə,

Yerevan istənilən vaxt elektron poçt vasitəsilə Bakının idarə və müəssisələrində, məxfi təşkilatlarında, güc nazirliklərində gedən hər hansı bir məlumatın ən azı 70-75 faizini əldə edə bilər. Bu yolda isə birinci çıxış «provayder»ə olur. Azərbaycanda olan 7 «provayder»dən 3-ü ABŞ, 4-ü isə Rusiya Federasiyası üzərindən keçən kanallardan istifadə edir. Pentaqon layihəçilərinin Yerevanda yaratdıqları yeni texniki imkanlar da ermənilərin məxfi qruplarının asanlıqla bu kanallara qoşulmasına şərait yaradır. Nəticədə Yerevan kəşfiyyat xidməti hər hansı elektron poçtuna daxil olan məxfi informasiya və yaxud məlumatı, ümumilikdə e-mail poçtunu öz ofisinə istiqamətləndirir.

Araşdırmamız zamanı bir fakt da aydın oldu ki, Yerevan Müdafiə Nazirliyi ilk elektron yazışmalarını Ermənistanda 1999-cu il iyun ayının 2-də özünün ofisini açan «Əhmədcan Hacı Məhəmməd» şirkəti ilə qurdu. Bu elektron yazışmalarına erməni məmuru, kompüter biznesi quran zabit Qeqam Arutyunyan başçılıq edirdi. 2000-ci ilin aprel ayında isə Yerevana aydın oldu ki, «Əhmədcan Hacı Məhəmməd» şirkətinin Baş Qərargahı Pakistanın Ravalpindi şəhərində yerləşir və Üsəma bin Laden tərəfindən maliyyələşdirilir. Bu da aydın oldu ki, şirkətin Orta Asiyada, xüsusən Qazaxıstanda da güclü işgüzar ofisləri və bu ofislərin dördünün radioaktiv materialların satılmasında, oğurlanmasında, müxtəlif istiqamətlərə daşınmasında xüsusi rolu var.

Digər tərəfdən, Yerevan özünün hərbi və təhlükəsizlik sistemindəki elektron poçt kanallarına 2001-ci il fevralın 13-də «COMIT» texnoloji sistemini də qoşub. Bu, ona aşağıdakı vəzifələri icra etməyə imkan və şərait yaradır:

– **«COMIT» vasitəsilə Azərbaycana daxil olan kod və siqnallarla radarların dislokasiyası və onun növlərinin aydınlaşdırılması ;**

– **Radarların elektron şüalarını nizamlaya bilən kodların və şifrlərin elektron poçtlarına daxil olması. Bu elektron şüaları vasitəsilə raketlərin və təyyarələrin hərəkət istiqamətinin dəyişmək, itirmək olar;**

– **Elektron poçtlarının iqtisadi kəşfiyyata vurduğu ziyan. Bu poçt vasitəsilə ayrı-ayrı diplomatik korpusların, neft şirkətlərinin aralarındakı yazışmalara, söhbətlərə, kommunikasiya əlaqələrinə asanlıqla müdaxilə etmək mümkündür;**

– **Elektron poçtu hər hansı mobil telefon əlaqələrinə girə bilir.**

Pentaqonun kəşfiyyat və rabitə üzrə informasiya sisteminin təhlükəsizlik məsələləri ilə məşğul olan operativ dəstəsinin başçısı Riçard Şefferin fikrincə, «Elektron poçtu kəşfiyyatda strateji informasiya və yazışmaların

əsas təminat bazasıdır…»

Məhz bu baxımdan, ayrı-ayrı dövlətlərdə elektron poçt və yazışmalar məsələsi ilkin olaraq, özünün qanuni hüququnu almaq üçün qanunverici orqanların müzakirəsinə çıxarılır. Məsələn, Şərqi Avropa ölkələri bir qayda olaraq, elektron poçt və yazışmalara milli təhlükəsizlik baxımından, məhdudiyyət və qadağalar qoyub. Özbəkistan, Qazaxıstan və Türkmənistan bunu ölkənin kəşfiyyat idarələrinə həvalə edib. Tacikistanda isə bu, tamamilə qadağan olunub. Düşənbə ilə Herat (Əfqanıstan) arasında qeyri-qanuni yolla qurulan elektron poçtu aşkarlanarkən 2002-ci ilin ilk üç ayı ərzində 67 müxtəlif məxfi informasiyanın olduğu aşkarlanıb.

«E.Kantriz» informasiya xidməti (Nyu-York) əməkdaşlarının isə elektron poçtu və informasiya axını haqqında düşündürücü qənaəti var. Xidmət bu il martın 4-də hazırladığı hesabatda göstərir: «***…Elektron poçtu vasitəsilə ötürülən, alınan və yaxud verilən strateji məlumat və informasiyalarla, kod və rəqəmlərlə… danışıq və yazışmalarla istənilən dövlət strukturunu pozmaq və yaxud dağıtmaq mümkündür. Elektron poçtu istənilən infrastruktura təsir etmək gücünə malikdir…***» (Bax: "E.Kantriz" inform. xidmət. (ABŞ) 2002.IV.4).

## Oğurlanmış kod

Məlumata görə, ABŞ-da ticarətin 49, Almaniyada 12, Sloveniyada 8 faizi bu sistem üzrə kodlaşdırılıb və bu sistemlə fəaliyyət göstərir. Bunun üçün xüsusi qanunlar da hazırlanıb. Rusiya da özünün iqtisadi qanunları ilə elektron ticarətinə qoşulub. O da düzdür ki, bu ticarət növünün özünəməxsus üstün cəhətləri var. Məsələn, vaxt itkisinə qənaət və maya dəyərinin aşağı düşməsi, operativ iqtisadi əlaqələr… Lakin bütün bunlar o vaxt mümkün olur ki, güclü və hərtərəfli informasiya təhlükəsizliyi konsepsiyası olsun. Bunsuz elektron ticarət sisteminə, eləcə də elektron poçtuna qoşulmaq məcburiyyətdən başqa bir şey deyil.

Yerevan elektron ticarətinə qoşulmayıb, elektron poçtuna isə informasiya və məlumat verən, yazışmalar təşkil edən tərəf kimi yox, əksinə informasiya və məlumatlar qəbul edən tərəf kimi qatılıb. Erməni mütəxəssisləri Arustamyan və Poqosyan San-Fransiskoda elektron terrorizmi mövzusunda keçirilmiş simpoziumda iştirak ediblər. Bu simpoziumu da çox istiqamətli internet şəbəkəsi olan məşhur «Ziff Devis» şirkəti təşkil edib.

Ermənilərin ciddi-cəhdlə öyrəndikləri və yaxud öyrənmək istədikləri elektron terrorizminin törədə biləcəyi fəlakət bombaların törədə biləcəyi dəhşətlərdən ağırdır. Çünki məhz bu yolla hər hansı ölkənin enerji sistemini pozub dağıtmaq mümkündür. Eləcə də nəqliyyat sistemi sıradan çıxa bilər, özbaşınalıq, xaos yaranar. Bank sistemi, elektron bazaları məhv olar… 11 sentyabr faciəsində faktiki olaraq Amerikada fiziki terrorla elektron terrorizmi eyni anda icra olundu və dünyanın bir-birilə bağlı olan infrastrukturlarına öldürücü zərbələr endirildi.

ABŞ Federal Təhqiqatlar Bürosunun Xuantikadakı kompüter laboratoriyasında məhz bu istiqamətdə maraqlı və ciddi araşdırmalar aparılır. Elektron texnologiyası şöbəsinin başçısı, polkovnik Marius Tomasın fikrincə: «***Münaqişədə və müharibə ərəfəsində olan dövlətlərin kəşfiyyatının elektron şəbəkəsinə, o cümlədən elektron poçtuna olan maraq daha genişdir. Elektron poçtu «canlı agentura» şəbəkəsi ilə «elektron agentura» şəbəkəsinin əyani birləşməsidir…***».

Fransa kəşfiyyatı məlumatlarının 29 faizi, Suriya 41, Livan kəşfiyyatı məlumatlarının 47 faizi (Beyrut-Yerevan hərbi bağlaşması da (22 oktyabr 2001-ci il) bu məsələyə həsr olundu. Ermənistan Müdafiə naziri Serj Sarkisyan və Livanın Müdafiə naziri Xəlil Əl Xraun arasında imzalanmış müqavilədə hərbi kəşfiyyat əlaqələrində elektron texnologiyası, elektron poçt və yazışmaları haqqında da ayrıca bənd var. Ermənistan müdafiə naziri belə bir müqaviləni 2001-ci il oktyabrın 28-də Suriya ilə imzaladı , Almaniya kəşfiyyatı məlumatların 33%-ni, ingilis kəşfiyyatı 35%-ni, Yaponiya kəşfiyyatı 37%-ni elektron poçtlarından alır. Hərbi kəşfiyyata gəlincə, Rusiya elektron poçt vasitəsilə məxfi hərbi məlumatların 46, İran İslam Respublikası 31, Türkiyə isə 48 faizini əldə edə bilir. Bura bütün kommunikasiya, rabitə əlaqələri, mətbuat və yazışmalar da daxildir.

2000-ci ilin avqust-sentyabr aylarında Ermənistan kəşfiyyat mərkəzi, Müstəqil Dövlətlər Birliyi ərazisində məskunlaşan ermənilər (birlik və cəmiyyətlərlə, diaspor mərkəzləri ilə) birbaşa əlaqələrin zəruri olduğunu və bunun üçün xüsusi proqramların hazırlanması məsələsini ölkənin Təhlükəsizlik Şurasında qaldırdı. Məhz bundan sonra, avqustun 14-də Yerevandan Moskvaya, Xankəndinə, Dağıstana, Düşənbə və Daşkəndə, Astanaya, Tbilisiyə, Aşqabada «mütəxəssislər», «poçtalyonlar» və tədqiqatçılar ezam olundular. Məqsəd vaxtilə münaqişələr, müharibələr, etnik ziddiyyətlər zamanı yaşadığı məkanı tərk etmiş ermənilərlə əlaqələrin saxlanılması, onların müxtəlif işlərə cəlb olunması, Yerevanla birbaşa biznes və işgüzar əlaqələrin qurulması idi. Erməni «poçtalyon»ları

Sumqayıtdan, Bakıdan, Gəncədən, Naxçıvandan köçüb getmiş ermənilərlə xüsusi əlaqələr yaratmaqdan ötrü «Böyük Ermənistan» ideyası ilə bağlı sorğu anketləri də paylamışdılar…

Yerevan elektron poçtları üçün Həştərxanda, Stavropolda, Saratovda, Moskvada, Alma-Atada, Aşqabad və Mahaçqalada bir neçə özəlləşdirilmiş binaları da satın alıb və orada bilavasitə yerli erməni diasporlarının başçılığı ilə yeni texniki, kompüter və elektron avadanlıqları quraşdırılır. Bütün elektron şəbəkəsinə erməni zabiti Manvel Qriqoryan başçılıq edir. Erməni diasporunun Stavropolda, Pyatiqorskda, Krasnodar və Soçidə, eləcə də Şimali Qafqazın digər regionlarında «Siz Dağlıq Qarabağa getmək istəyirsinizmi» sualı ilə keçirdiyi sorğuya ermənilərin 45 faizi «hə» cavabını verib. Sorğunu «Riçel» erməni şirkəti maliyyələşdirib.

## Apostol kilsəsi və Xocalı

Yerevan kəşfiyyat materiallarının toplanmasında, məxfi məlumatları gələcəkdə elektron poçtlarına yönəltməkdə dini icmalardan, cərəyanlardan və din pərdəsi altında fəaliyyət göstərən xeyriyyə təşkilatlarından, beynəlxalq hüquq və vicdan azadlığı ilə məşğul olan mərkəzlərdən də geniş istifadə edir. Bu məqsədlə Ermənistan Apostol kilsəsi regionlarda və diasporların tərkibində işləmək məqsədilə 2 min paster tələb olunduğunu bildirib.Əldə etdiyimiz çox saylı məlumatlara görə, Apostol kilsəsi Xocalıya qarşı ilk tezisləri hazırlayan və onu ermənilər arasında yayan siyasi-dini mərkəz olub. 1992-ci ildə bu kilsəyə kəşfiyyatdan taqaüdə göndərilmiş polkovnik Ruxsam Saatyan adlı birisi başçılıq edib.

Digər tərəfdən, müntəzəm olaraq, Bakıda yayılan və azad satışı təşkil olunan «Bxaqavat gita» (krişnaçıların) kitabları Yerevanda «MİTK» nəşriyyatında politoloq Stepan Danielyanın başçılığı ilə çap olunub (1999-cu ildə iki, 2000-ci ildə üç, 2001-ci ilin birinci yarısında iki dəfə 10-20 min nüsxə ilə).

Araşdırmalarımızdan bu da aydın oldu ki, hələ 1995-ci il aprelin 24-də Ermənistan MN-də Apostol kilsəsinə mənsub olmayanlar haqqında məxfi bir qərar hazırlandı. Bu qərarın əsas maddələrindən birini başqa ad və soyad altında MDB ölkələrində, o cümlədən Azərbaycanda yaşayan ermənilərlə əlaqələrin bərpası təşkil edirdi. 1999-cu il noyabrın 9-da bu maddə «Elektron kəşfiyyat proqramı»na daxil edildi.

2000-ci ilin dekabr ayında isə Ermənistan hökuməti ilə Apostol kilsəsi arasında memorandum imzalandı. Yerevanda fəaliyyət göstərən «İyeqova şahidləri» adlı dini mərkəzin lideri Rüstəm Xaçaturyanla MN-nin kəşfiyyat xidməti arasında informasiya mübadiləsi çərçivəsində bir sənəd də imzalandı. «Saxarov fondu»nun sədri Ağası Arşanyan isə MN-nə könüllü olaraq informasiya yardımı edəcəyini bildirdi… Artıq, Qərbin bir sıra aparıcı dövlətlərinin xüsusi xidmət orqanları, diplomatik korpuslar internetdən istifadəni məhdudlaşdırıb. Bu da onların bu şəbəkəyə inamsızlıqları ilə bağlıdır. Hazırda ABŞ və İngiltərə məxfi mərkəzləri «İnterlink» adlı ciddi elektron proqramına keçib. Elektron poçtlarına gəlincə, bu istiqamətdə də tam məxfi proqramların işlənib hazırlanması məsələsi hələlik diqqətdən yayınmır.

Elektron poçtu müasir kəşfiyyatın tərkib hissəsi olduğundan ABŞ təhlükəsizlik xidməti, ümumiyyətlə, internet şəbəkəsində ciddi rejimə keçdi. Çünki ölkədə baş verən son terror aktlarının törədilməsinin günahının 63 faizi, Harvard Universitetinin Strateji Araşdırmalar və Tədqiqatlar Mərkəzinin məlumatına görə, nəzarətdən çıxmış elektron poçtlarının üzərinə düşür.

Diplomat, Milli Təhlükəsizlik Agentliyinin analitiki Styuart Beykerə görə, elektron poçtları və onun büroları ciddi nəzarətə götürülməlidir. Çünki elektron poçtları terrorçuların fəaliyyət dairələrinin genişləndirilməsi, qaçaqmalçılıq, silah və narkobiznes məsələlərində… nüvə materiallarının çıxarılmasında və oğurlanmasında ən etibarlı mənbədir, daha dəqiq desək, «elektron xəritə»dir…

Məhz bu baxımdan, Amerikanın Federal Təhqiqatlar Bürosu ölkənin əsasən strateji mərkəzində fəaliyyət dairələrini genişləndirən informasiya mərkəzlərinə və elektron poçtlarına nəzarət üçün «Garnivar» adlı kommunikasiya-nəzarət sisteminin tətbiqinə keçib.

Elektron poçtlarının büroları texniki sisteminə görə, regionun və yaxud ərazinin strateji nöqtələrinin bütün qütblərində yerləşdirilir.

2000-ci il dekabrın 13-də («İravunk» qəzeti. Yerevan) Ermənistan MN-də elektron və telekommunikasiya məsələləri ilə bağlı yığıncaqda nazirliyin kəşfiyyat bölməsində aparıcı zabitlərdən olan polkovnik Artur Ağabekyan Azərbaycan və Türkiyə istiqamətində qurulacaq kəşfiyyat kommunikasiya sistemindən geniş danışır və bu ciddi məsələnin bir neçə mərhələdə həyata keçirilməsini təklif edir. Kəşfiyyat polkovnikinə görə, bu nazirlik elektron poçt məsələsini dörd mərhələdə başa çatdırmalıdır.

**Birinci mərhələ –2001-2005;**
**İkinci mərhələ – 2005-2010;**
**Üçüncü mərhələ –2010-2015.**
**Dördüncü mərhələ - (mövcuddur, araşdırılır).**

## «Akopyan» firmasının «Məxfi bürosu»

Türkiyə və Azərbaycan, işğal olunmuş Qarabağ sərhədlərində hərbi mövqelərini möhkəmləndirən beşinci ordu korpusu komandanı, polkovnik Aykaz Bəhmanyana, birinci ordu korpusu komandanı, polkovnik Levon Yeronosyana, ikinci ordu korpusu komandanı, polkovnik Seyran Saroyana strateji informasiyaların toplanmasında və işlənməsində komandanlığın tərkibindəki elektron poçtlarının şəbəkəsinin genişləndirilməsi işi tapşırılır. Azərbaycan və Türkiyə istiqamətində qurulan elektron mərkəzlərinə də nəzarət bilavasitə Müdafiə naziri, general Serj Sarkisyana (Ermənistanın indiki prezidenti — ***V.S., R.V.***) həvalə olunmuşdu. Elektron kəşfiyyat məsələlərinə dərindən bələd olmaq üçün 2002-ci ilin aprel-may aylarında Yerevandan və Xankəndindən ayrılmış 56 nəfərlik zabit qrupu Rusiyaya, Çin Xalq Respublikasına, İrana, Livan və Suriyaya gedib. 2001-ci il iyunun 19-da Amerika Erməni Demokratik Şurası (Armenian-American Democratic Leadershin Council) tərəfindən (Maxdesyanın qrupu) Dağlıq Qarabağın «özünümüdafiə dəstələri»nə 30 adda müxtəlif kompüter və elektron avadanlığı «hədiyyə» edilib. Səkkiz nəfərlik mühəndis qrupu da Ermənistanın Türkiyə və Azərbaycan sərhədləri istiqamətində həmin elektron avadanlıqlarının quraşdırılmasında, elektron poçtlarının qurulmasında iştirak ediblər.

Ermənistanın Azərbaycan istiqamətində planlaşdırdığı elektron hücumunun birinci mərhələsində (2001-2003-cü illər) qütblərdə strateji məntəqələrin müəyyənləşdirilməsi və həmin dairələrdə elektron poçtlarının – büroların yaradılması əsas məsələdir. Bu məqsədin planlı və ardıcıl həyata keçirilməsi üçün erməni kəşfiyyatı təkcə «daxili resurslar»dan deyil, eləcə də xaricdəki erməni diaspor mərkəzlərindən ciddi istifadə edir və əlaqələri genişləndirir. Məsələn, Fransa, Suriya, Yerevan və Xankəndi ilə güclü əlaqələri olan Tehranda kök salmış «Akopyan» erməni firmasının nəzdindəki internet şəbəkəsinin, elektron poçtu və rabitə-kommunikasiya mərkəzinin Təbrizdə, Ərdəbildə, Culfada, Biləsuvar və Parsabadda yaradılmış bürolarını araşdıraq. Bilavasitə İrandakı erməni diasporu ilə iş

birliyi quran «Akopyan» firmasının geniş texniki imkanlara malik olması və bu imkanların Azərbaycan istiqamətinə yönəlməsi araşdırılması vacib olan məsələ kimi diqqətdən yayınmamalıdır. Bu bürolarda qurulan və Azərbaycanın sərhədləri istiqamətinə «start» götürən güclü «Armenia» ötürücüləri, elektron poçtları Astara-Lənkəran, Biləsuvar-İmişli bölgələrini asanlıqla əhatə edir. Dağıstan ərazisində fəaliyyət göstərən və eləcə də öz emissar-müxbirlərini «Araz» erməni cəmiyyətində (Mahaçqala, Şamil küçəsi 14) təlimatlandırıb şimal rayonlarına – Şəki, Zaqatala, Balakən, Qusar ərazilərinə istiqamətləndirən ermənilər elektron poçtlarının bir qismini ayrı-ayrı şirkət və firmaların (neft şirkətləri həmçinin), insan hüquqlarının müdafiəsini «təmin edən» cəmiyyətlərin, beynəlxalq xeyriyyə təşkilatlarının, KİV-in nəzdində asanlıqla qura bilirlər. Ermənilərin kəşfiyyat prinsipləri əsasında qurduqları «Azərbaycan ərazisindəki elektron poçtları»nın vəzifələrindən biri də, əsasən müxalifət mətbuatı vasitəsilə böhtan, tələb və təkid məzmunlu məktubların, xəbər və məlumatların göndərilməsi təşkil edir.

2001-ci il avqustun 9-da Xankəndində ermənilərin qondarma lideri Arkadi Qukasyanın yanında keçirilən hərbi müşavirədə Kaliforniya ştatının keçmiş qubernatoru milyonçu erməni Edvard Cerecyanın məktubu oxunur. Edvard Cerecyana görə, Kaliforniyada erməni diasporunun müstəqil «Artsax» (Xankəndi) bölməsi yaradılıb və bu bölmənin də fəaliyyəti Xankəndinin ordu quruculuğuna yardımdan ibarət olacaq (Bax: Ermənistan. «Asun» informasiya agentliyi. 2001, VIII-11).

Ermənistan 2001-ci il avqustun 2-də RF-nin FTX-nin nəzarətində olan «Qafqaz informasiya əməliyyatları»na qoşulmaq üçün müraciət edib. 2001-ci il avqustun 4-də Xankəndindən də belə bir müraciət eyni ünvana daxil olub. Rusiya Təhlükəsizlik Şurasında müzakirəyə çıxarılmış və qəbul olunmuş (19 aprel 2001-ci il) «İnformasiya Təhlükəsizliyi Konsepsiyası»ndan sonra onun xüsusi xidmət orqanlarında güclü texnoloji proqram təminatı sistemi yaradılıb. Bunun vasitəsilə ayrılmış kanalla «provayder»ə çıxış mümkündür.

# ETNİK TƏMİZLƏMƏDƏ VƏ XOCALI SOYQIRIMINDA "ASTARCANYAN LAYİHƏSİ"

2002-ci il yanvarın 14-də Ermənistan Təhlükəsizlik Nazirliyi 1998-2000-ci illər ərzində ABŞ və İsraildə çalışan, hazırda istefada olan rus kəşfiyyatçılarından dördünü Yerevana işləmək üçün dəvət edib. Yanvarın 19-da sabiq rus kəşfiyyatçılarından polkovniklər Oleq İvanoviç Safanov, Yefim Boqdanoviç Suvorov, Valeri Aleksandroviç Popov, Sergey Trofimoviç Antonov Yerevana gəlmiş, müvəqqəti pasport qeydiyyatına salınmışlar. Yanvarın 24-də Sergey Trofimoviç Antonov və Oleq İvanoviç Safanov Xankəndi Kəşfiyyat departamentinə yollanıblar.

Polkovnik Valeri Aleksandroviç Popov qeyd etdiyimiz illərdə İsrailin Nes-Tsiana şəhərində çalışıb. Şəhər strateji əhəmiyyətlidir. Təl-Əvivin cənub-şərqindən 24 km aralı yerləşir. Ölkənin məxfi Biokimya İnstitutu da bu ərazidədir. İnstitut ölkənin kəşfiyyat xidmətləri üçün kimya-biologiya sahəsində strateji planlar işləyir və bu planlar keçmiş baş nazir David Ben-Qurionun adı ilə bağlıdır.

Polkovnik Sergey Trofimoviç Antonov isə Livermorda çalışıb. Livermor ABŞ-ın strateji əhəmiyyətli şəhərlərindəndir. Lourens adına radiasiya üzrə milli laboratoriyalar bu şəhərdə yerləşir.

Yerevanın regionun «şahmat taxtası»ndakı bu siyasi gedişi ABŞ prezidenti Corc Buşun İran İslam Respublikasına göndərdiyi ultimatumundan sonra (2002-ci il yanvarın 10-u, fevralın 9-u, 13-ü) daha da ciddiləşdi. 2002-ci il yanvarın 9-da Corc Buşun Konqresdə «Ölkədəki vəziyyətə dair» çıxışı dinlənildi. Çıxışda deyilirdi: ***«…İran nüvə silahlarının hazırlanmasında və yeni raket texnologiyasına yiyələnməkdə strateji maraqlarını genişləndirib. Tarix bizi və bizim müttəfiqləri bu istiqamətdə mübarizəyə çağırır» (Azərbaycanın da müttəfiqlər cərgəsində olmasını yadda saxlayaq – red.).***

Amerika XXI əsrdə «Azadlıq korpusu» deyilən yeni strateji proqrama keçib. Bu proqram onun milli təhlükəsizliyinin təminatçısı olacaq… Digər tərəfdən, bu, təbiidir. Bu ilin yanvarından başlayaraq, NATO-ya üzv ölkələrin bir qismi, MDB-yə üzv ölkələrin bir neçəsi və İraq, Əfqanıstan, Suriya, Livan, Liviya və İran Ermənistanı güclü dövlətlər sırasında təbliğ edir, Yerevanın timsalında «güclü dövlətin güclü paytaxtı» mifini yaradırlar.

2002-ci il yanvarın 28-də Ermənistan Təhlükəsizlik Şurası ölkənin hərbi kəşfiyyat və əks-kəşfiyyat xidmətlərinin «inkişaf perspektivləri»ni nəzərə

alaraq, İranın hərbi kəşfiyyat və əks-kəşfiyyat mərkəzləri ilə quracaqları əlaqələrin sənədlərini müzakirəyə çıxartdı. General S.Sarkisyanın fikrincə, bu əlaqələr Ermənistan və Dağlıq Qarabağın hərbi kəşfiyyat işlərinin yenidən qurulmasında önəmli rol oynayacaq.

Araşdırmalarımızın məntiqi və real nəticəsi onu deyir ki, Moskva özünün kəşfiyyat və hərbi planlarında Tehranı tək buraxmayıb və bu istiqamətdə Yerevanı ən etibarlı körpü və region kimi mühüm mərkəz sayır. Faktiki olaraq, Tehran istiqamətindən Vaşinqtona açılan «atəş»də Moskva da iştirak edir. Bu, onun strateji məqamlarından biridir. Qubadlı, Füzuli, Zəngilan, Cəbrayıl istiqamətindən sərhədlərə (İranla), eləcə də Dağlıq Qarabağ istiqamətindən Azərbaycana nəzarət ruslara məxsusdur.

Məsələn, Rusiyanın Xarici İqtisad Kəşfiyyatının tanınmış simalarından olan polkovnik İsay Lobov qeyd edir: ***«…Rusların ermənilərə münasibəti həmişə yüksək olub və tarix boyu bu münasibət pillə-pillə qalxıb. Rus siyasətçiləri nəinki MDB çərçivəsində, eləcə də dünyada qərar tutan erməni diasporları ilə əlaqələr yaratmaqda, birgə strateji tədbirlər hazırlamaqda maraqlıdırlar»*** (İ.O.Lobov. «…Üfüqi xətt» kitabı. M., 1999, səh. 61). İran İslam Respublikasının da mövqeyi aydındır: 2001-ci il dekabrın 13-də ölkənin eks Xarici İşlər naziri Kamal Xərrazi Tehrandakı erməni icmasının üzvlərinə açıqca bəyan edib: **«…Ermənilər bizim dostumuz, qonşumuz yox, qardaşımızdır. Onlarla qan qohumluğumuz haqqında çoxlu tarixi sənədlər var…».**

Afinada çıxan «Estiya» («Ocaq») qəzeti 2001-ci il noyabrın 10-dakı sayında «Redaktor sütunu»nda yazır (səh. 1): «Ermənistanla bağladığımız hər hansı sənəd tarixi sənəd kimi qiymətlidir. Dağlıq Qarabağ məsələsi isə onları tarixə yenidən baxmağa və buraxılmış səhvləri düzəltməyə məcbur edəcək. Afina Yerevana hərbi və təhlükəsizlik xidmətlərində yardımçı olacağını həmişə elan edir…».

Yunanıstanın prezidenti Konstantinos Stefanopulos ABŞ-ın Yunanıstana yönəlmiş siyasətinə işarə edərək deyib: «Bu, dost siyasəti deyil…».

«Vaşinqton Times» qəzeti isə bu fikirdədir: «Dövlətlər var ki, onu terrorçular maliyyələşdirir və onlar həmin ərazidə azad, sərbəst dolanırlar. Bu dövlət Yunanıstandır». Təqribən 18 faizini milliyyətcə ermənilər təşkil edən «17 noyabr» terror qrupunun isə ölkədə az qala toxunulmazlıq statusu var.

Pekində nəşr olunan «Çayna deyli» qəzeti («Çin gündəlik qəzeti») isə ermənilərlə MDB məkanının, eləcə də dünyanın erməni diasporları ilə hər cür əlaqələrin qurulmasını vacib sayır: ***«…Ermənistan müstəqil ölkə kimi***

***Çinlə münasibətlərini genişləndirməyə çalışır. Ermənilərin hərbi təlim dərslərini alması, bu sahədə əməkdaşlığın genişləndirilməsi üçün Çin real təkliflər irəli sürüb. Çin investisiya məsələsində də ciddi təkliflər irəli sürməyə hazırdır***».

Livan isə Azərbaycan torpaqlarının işğalında ermənilərə bilavasitə yardımçı olub.

Sözügedən ölkələrin mətbuat səhifələrində, rəsmi dairələrində Azərbaycana belə yanaşılmır, ölkəmiz haqqında belə düşünülmür. Halbuki Azərbaycan geostrateji cəhətdən dünyanın həm siyasi, həm də iqtisadi maraqlarının diqqətindədir. Bu da maraqlıdır ki, NATO-ya üzv ölkələrin bir qismində Bakı Beyrut kimi səciyyələndirilir. Yəni, neft Bakısının Beyruta çevriləcəyi günün yaxınlaşdığı deyilir…

Bilavasitə Tehranın təklifi ilə yaranmış Şuşadakı «Amerika planlarına qarşı kollektiv kəşfiyyat» blokunun təhlükəsizliyi Xankəndi Hərbi Əks-Kəşfiyyat Departamentinə həvalə edilib.

2001-ci il noyabrın 22-də yaradılmış bu strateji mərkəz ərazidə radiasiyanın səviyyəsi yüksək olduğundan işini müvəqqəti təxirə salsa da, sonralar gücləndirdi.

Dağlıq Qarabağ ərazisindəki radiasiya durumu haqqında Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin Texniki Əməkdaşlıq Departamenti Avropa şöbəsinin rəhbəri Məsud Səhmayi və agentliyin radiasiya və radioaktiv tullantıların təhlükəsizliyi departamentinin əməkdaşı Aleksandro Bilbao-Alfonso öz hesabatlarında (4 sentyabr 2001-ci il) məlumat verir. Göstərilir ki, regionda radiasiya durumu normal deyil. Radiasiya araşdırmaları ilə məşğul olan Aleksey Koltsov isə (RF) qeyd edir ki, Dağlıq Qarabağ, Dnestryanı ərazilər, Abxaziya, Çeçenistan… ərazilərində radiasiya həddini aşıb. Professor yazır: «***…Təkcə Dağlıq Qarabağ ərazisində 29 radiasiya mənbəyi var. Buna səbəb olan amillərdən biri «Metsamor» Atom Elektrik Stansiyasının (Ermənistan) radioaktiv tullantılarının bu əraziyə daşınmasıdır…***» (A.Koltsov: «Beynəlxalq Agentliyə hesabat», 3 dekabr 2001-ci il. RF MEA).

Baş Qərargahı Şuşada yerləşən «Kollektiv kəşfiyyat»ın ilk yığıncağı, məlumata görə, 2002-ci il yanvarın 14-də qeyri-leqal keçirildi. Yığıncaqda Yerevandan, Afinadan, Pekindən, Moskvadan, Beyrutdan və Tehrandan gəlmiş nümayəndələr iştirak edirdilər («Artsax» qəzeti. 2002, № 6, «Redaktor sütunu»). Bunu Yerevan-Tehran əməkdaşlığının yeni səhifəsi hesab etmək olar.

Yerevanla Tehran arasındakı birinci ciddi sövdələşmədə Naxçıvan ərazisi bölündü. Əslində, bu, hər iki ölkənin hərbi kəşfiyyat xidmətlərinin şərti bölgüsü idi. Həm Yerevanda, həm də Tehranda aparılan bu bölgü (1998-ci il aprelin 19-da) əsasında hərbi xəritələr də cızıldı. Məxfi bölünmə planlarını «Qriqoryan qrupu»nun üzvləri ilə 1998-ci ilin yanvarında Yerevan təhlükəsizlik xidmətində yaradılmış «Naxçıvan kəşfiyyat qrupu»nun (bölmə müdiri Aruşan (bek) Markaryan) üzvləri birgə işləyiblər.

İranın münasibətini isə Tehran Universitetinin professoru Rza İnayətullahinin 1998-ci il aprelin 29-da Yerevanda keçirilən simpoziumdakı «Ermənistana və Azərbaycana münasibətdə İran siyasəti» çıxışından bilmək və müəyyən etmək çətin deyil. Yaxud, Naxçıvanın bölünməsindən sonra onun işğal olunmuş Qarabağla birləşdirilməsi, sərhədlərin dəyişdirilməsi strateji plan kimi, «Böyük Ermənistan» ideyasının tərkib hissəsi kimi dayanır. İşğal planında Şahbuz rayonunun «Naxçıvan» adlandırılması, Babək rayonunun ləğv edilməsi, ümumilikdə «Artsax Muxtar Respublikası»nın yaradılması məntiqə sığmasa da, bu, xüsusi xidmət orqanlarının bağlı qapılar arxasında müzakirə obyektidir.

* * *

Amerikanın məşhur «New LOGIC INC» kompüter firmasının «ekran»lara çıxarıb İnternet şəbəkəsinə qoşduğu oyunlardan birini (2001-ci il martın 19-dan mayın 21-dək) Ermənistanın Azərbaycanla apardığı müharibə səhnəsi təşkil edir. Müharibənin sonuna yaxın erməni tərəfdən üstündə «Armenia» yazılmış qanadlı ballistik raketlərin Azərbaycana tuşlanması səhnəsi təsvir olunur. Ermənilər buna «Astarcanyan layihəsi» deyirlər (doktor Astarcanyan 1985-ci ildən Vaşinqtonda erməni lobbisi tərəfindən maliyyələşdirilən Erməni-Kürd Strateji Araşdırmalar Mərkəzinin rəhbəridir). Bu eybəcər layihənin hazırlanması üçün Kaliforniya erməniləri hər il «Stepanovan» fonduna 386 min dollar (sonradan bu fond «Hayastan» adlandırıldı köçürdülər. Hazırda bu rəqəm 400 min dolları əhatə edir). 1985-ci ilin əvvəllərində Yerevandakı Fizika İnstitutunda keçirilən müşavirədə professor Karen Egiyan məsələ qaldırır ki, ABŞ kompüter firmasının internet şəbəkəsinə qoşduğu məsələni reallaşdırmaq lazımdır. Müşavirədə K.Egiyan belə bir məsələni də açıqlayır ki, üstündə «Armenia» sözü yazılmış ballistik raketləri «həyatiləşdirmək üçün» (onun sözüdür) uran axtarışlarını Naxçıvan ərazisində aparmaq mümkündür…

Bu da məlumdur ki, ermənilərin «Araz» ekspedisiyasının İranla birgə Naxçıvan ərazisində 1985-ci ilin əvvəllərinə təsadüf edən ilk uran axtarışları yarımçıq qalır. Ona görə ki, ekspedisiyanın tərkibində olan Yerevan Dövlət Universitetinin fizika fakültəsinin tələbəsi Arşak Tiqranoviç Qaçikyan və Tehrandakı Nəzəri Fizika və Riyaziyyat İnstitutunun müəllimi Əhmədziya Mehdipur naməlum dəri xəstəliyindən vəfat edirlər. Həkim rəyindən aydın olur ki, onların hər ikisi şüalanmadan ölüb. Nəticədə 1985-ci il martın 28-də «Araz» ekspedisiyası işini yarımçıq qoyub, geri qayıdır. Lakin həm Ermənistan MN-nin strateji xəritəsində, həm də İranın hərbi kəşfiyyat planında («Sepah-e-Pastaran» korpusunda) Naxçıvan ərazisi uran mənbəyi kimi dairəyə alınır.

Ekspedisiyanın fəaliyyətindən 15 il sonra, yəni 2000-ci il dekabrın 21-də vaxtilə «Araz» ekspedisiyasında tələbə kimi iştirak edən Rafik Dəmirçiyan Moskva Dövlət Universiteti nəzdindəki D.V.Skobeltsin adına nüvə fizikası üzrə ETM-də alim kimi çıxış edir (ünvan: RF, Moskva, «Vorobyevı qorı». Moskva vaxtilə saat 16:00-da). Göstərir ki, guya «Böyük Ermənistan»ın bir parçası olan Naxçıvan ərazisində uran var. Həmin ilin dekabrın sonunda Rusiya Federal Təhlükəsizlik Xidməti üçün hazırlanmış 42 səhifəlik «nüvə icmalı»nda doktor Dəmirçiyanın fakt və rəqəmləri, «Ermənistan ərazisi Naxçıvan» fikri əksini tapır. 2001-ci il fevralın 14-də isə RF FTX-nin Kəşfiyyat İdarəsi ilə Ermənistan Təhlükəsizlik Xidməti arasında «Nüvə informasiyaları ilə bağlı» məlumat mübadiləsi haqqında sənəd imzalanır.

2001-ci il martın 13-də nüvə fizikası üzrə ixtisaslaşan R.Dəmirçiyan Tehranın şimal istiqamətindəki Şəhid Əkbəri küçəsinin 1/6 nömrəli binasında yerləşən MDB ölkələri ilə elmi-texniki əməkdaşlıq üzrə İran cəmiyyətində peyda olur, həmin il martın 19-da isə Tehranın Elm və Texnologiya Universitetində çıxış edir və belə bir fikir söyləyir ki, hər bir ölkə öz ərazisindəki nüvə tullantıları, onun qorunması və satılması haqqında ciddi düşünməlidir. Nə qədər qəribə də olsa, R.Dəmirçiyan «qonağı» olduğu ölkənin nüvə texnologiyası ilə məşğul olan alimlərinə və araşdırıcılarına bunu da məsləhət görür ki, İran öz nüvə tullantılarını qorumaq üçün anbarların böyük hissəsini ölkənin subtropik və az mülayim iqlimi olan zonalarında tikməyə üstünlük verməlidir.

## "ASALA" TERROR TƏŞKİLATININ AZƏRBAYCANA QARŞI FƏALİYYƏT PROQRAMI

1. "ASALA" – Əlavə Baş Qərargahı (İrəvan-Xankəndi).
2. Birinci qrup ("ASALA" ilə əlaqə qrupu).
3. Çıxarılmış hökmlərə, qərarlara nəzarət.
4. İkinci qrup ("İBDA-S" qrupu ilə əlaqə).
5. Azərbaycanlıların "Xocalıya Ədalət!" Beynəlxalq kampaniyasına qarşı Şərqi Avropa, Orta Asiya, ABŞ, Fransa, Böyük Britaniya, İran İslam Respublikası, Səudiyyə Ərəbistanı, Çin , Hindistan, Türkiyə və s. dövlətlərin ərazilərində fəaliyyət göstərən Ermənistanın diplomatik korpuslarında, erməni diaspor təşkilatlarında təbliğat qrupları yaratmaq.
6. Azərbaycanın sərhəd bölgələrindəki müxalifət liderləri ilə əlaqələr yaradan qrup:

a) Hakimiyyətdən (bütün dövrlərdə) narazı qruplarla, tanınmış şəxslərlə operativ əlaqə qrupu;

b) Erməni mənşəli şəxslərə çıxış yollarını araşdıran və öyrənən qrup.

7. Azərbaycandan köçmüş ermənilərlə iş qrupu:

a) Azərbaycan əleyhinə "ideoloji qrup". Azərbaycan müxalifətçiləri ilə əlaqələrin qurulması;

b) Kiçik özəklərin təşkili;

v) Mətbuatın araşdırılması (Bakıda nəşr olunan mətbuat, radio və televiziya verilişlərinin analitik baxımdan öyənilməsi). Radio və TV proqramlarında tərəfdaşların tapılması.

8. Regionda yaşayan azsaylı xalqların siyasi təşkilatları ilə əlaqələr yaradan qrup:

a) "Sadval" ləzgi separatçı təşkilatları ilə;

b) "Kürd" separatçıları ilə;

v) "İslam təşkilatları" ilə;

q) Rus icması (kilsə) ilə;

d) Yəhudi icması (sinaqoq) ilə;

j) "Həmas" təşkilatı ilə (Livan).

9. Strateji mərkəzləri araşdıran operativ qrup.
10. Ordu və güc strukturlarını araşdıran qrup.

11. Analitik hərbi informasiyalar qrupu:

a) Bülletenlərin ("Məxfi" qrifdə hazırlanan aylıq) araşdırılması;

b) Bakının neft siyasəti ilə bağlı məlumat (eləcə də iqtisadi və maliyyə informasiyaları);

v) "Sərhəd" informasiya bloku.

12. Üçüncü qrup ("Hizbullah" qrupu ilə əlaqə).

13. Məxfi qrup (MDB-dəki, eləcə də xaricdəki erməni icmaları ilə əlaqə).

## «XOCALIYA ƏDALƏT!» «ASALA» ERMƏNİ TERROR TƏŞKİLATINA QARŞI

**Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu** (Armenian secret army for liberation of Armenia (“ASALA”)). Erməni diasporunun terrorçu təşkilatıdır. Formal olaraq **Qnçak** (zəng) partiyasının hərbiləşdirilmiş qanadı hesab edilir. 20 yanvar 1975-ci ildə Ermənistanlı emiqrantların nəsilləri tərəfindən yaradılmış, hazırda ABŞ-da qərarlaşmışdır. **Banisi** – mücahid Akop Akopyandır (1988-ci ildə öldürülmüşdür). **Bəyan edilən məqsədi** – Türkiyə tərəfindən erməni genosidi faktının etiraf edilməsi; reparasiyadan çıxan nəticələr; Qərbi Ermənistan dövlətçiliyinin bərpası və maksimum arealda tarixi Ermənistan ərazilərinin vahidliyi. Fəaliyyətinin ilkin mərhələsində formal olaraq marksist-leninçi mövqedən çıxış etmişdir; 1981-ci il proqramında milli konsepsiyaya keçid xülasə edilmişdir. İsrail hərbi qüvvələrinin 1982-ci ildə Livana təcavüzün nəticəsində əsas infrastrukturların məhv edilməsi idi. Təşkilatın tərkibindən bir neçə fraksiya ayrılmışdır (o cümlədən “ASALA”). **Operativ xronologiyası** – strukturlaşma və genişlənmə (70-ci illərin ikinci yarısı); aktivlik zirvəsi (1981); parçalanma (1983); böhran (80-ci illərin ikinci yarısı); aktivliyin qismən bərpa edilməsi (1990-cı ildən etibarən). Vəziyyətə görə cari dövrdə təşkilat latent aktivlik rejimində fəaliyyət göstərir. **Rəsmi registrləri** – ABŞ Dövlət Departamentində xarici terrorçu təşkilat kimi registri (1999-cu ilə qədər).

**Cari dövrün rəhbəri** – Levon Karançiyan. **Sayı** – bir neçə yüz özək döyüşçüləri + bir neçə yüz onlarla fəal əməkdaşlıq edən tərəfdarlar. **Təşkilati strukturu** – müstəqil döyüşçü qruplar (humb). 90-cı illərin ortalarına olan vəziyyətə görə müxtəlif dövlətlərin ərazilərində 23-ə qədər döyüş qrupları fəaliyyət göstərmişdir. “ASALA”nın **əsas xarici rezidenturaları** – Livan (Beyrut), Suriya (Aleppo, Dəməşq), Misir (Aleksandriya). Təşkilat, həmçinin, ABŞ-da, Türkiyədə, Fransada, Yunanıstanda, İsveçrədə, İspaniyada, Avstraliyada, Böyük Britaniyada, İtaliyada, İranda fəaliyyət göstərir. Döyüş hazırlığı üçün Livan (Bekaa vadisi) və Kipr (Trudos dağları) ərazilərində tutulmuş infrastrukturlardan istifadə edilir. **Təşkilatın operativ parametrləri** – xarici ölkələrdəki türk diplomatik korpusunun əməkdaşlarına qarşı fiziki terror (52 nəfər qətlə yetirilmişdir; girovların, obyektlərin və nəqliyyat vasitələrinin ələ keçirilməsi; uçuş idarəetmə aktları tətbiq etməklə terror aktları. **Əsas düşməni** –

Türkiyə. Həmçinin, Qərb aviaşirkətlərinin, fransız və İsveçrə obyektlərinin (təbliğat məqsədi ilə diqqəti cəlb etmək üçün və həbsxanalarda olan yaraqlıları azad etmək üçün hakimiyyətə təzyiq göstərməkdən ötrü) nümayəndələrinə, Livandakı erməni partiyalarının funksionerlərinə (siyasi ziddiyyət kontekstində) qarşı bir neçə əməliyyat keçirilmişdir. Qeydə alınmış terror aktlarının ümumi miqdarı 180-ə qədərdir. 70-90-cı illərdə "ASALA"nın keçirdiyi əsas terror aktları nəticəsində 70 adam qətlə yetirilmiş, 534 nəfər yaralanmış, 105 nəfər girov götürülmüşdür. "ASALA"nın operativ parametrlərinin xarakterik xüsusiyyəti operativ döyüşçü strukturun desentralizasiyası və terror aktlarının həyata keçirilməsi zamanı dəyişən adlardan (birdəfəlik) istifadə edilməsi hesab olunur. 70-90-cı illərdə **qeydə alınmış adları** (bir sıra adlar davamlı struktur halqaləri tərəfindən uzun bir dövr ərzində istifadə edilə bilərdi): Erməni inqilabi ordusu; Erməni azadlıq cəbhəsi; Erməni məhkəməsi (Haydad); Ermənistanın azadlığı uğrunda yeni erməni müqaviməti; Erməni azadlıq hərəkatı Erməni azadlıq təşkilatı; Erməni genosidinə münasibətdə ədalət uğrunda döyüşçülər (Yustice Commandas of the Armenian Genoside); 9 iyun qrupu (İsveçrə qrupu; 28 may qrupu; Orli qrupu; Van Kommandosu; Yaxın Şərqin siyasi dustaqları ilə həmrəylik Komitəsi (CSAMEPP); Erməni genosidi intiqamçıları / Vrezh qrupu; Yeni erməni müqaviməti; 3 oktyabr təşkilatı (qrupu); Gənc ermənilər ittifaqı; Ölümə gedənlər Eskadronu. "**ASALA"nın əlavə operativ parametrləri** – silahlı münaqişə zonalarında (1975-90-cı illərdə Livanda vətəndaş müharibəsi; 1988-94-cü illərdə Dağlıq Qarabağda erməni-azərbaycan münaqişəsi) döyüş hərəkətlərində iştirak etmə. "**ASALA"nın pərdələnmə strukturları** – Erməni Milli Assambleyası (Yerevandakı nümayəndə – Vazgen Petrosyandır); Demokratik Cəbhə ("ASALA" və Erməni hərəkatı Təşkilatının ABŞ-da, Kanadada, Qərbi Avropada birliyi). **Təmasları** – Ermənistan (müxtəlif dövlət və hökumət strukturları, xüsusi xidmətlər, silahlı qüvvələr); Suriya (Xüsusi xidmətlər); Livan qruplaşması (Kataib, Hezbollah); Fələstin qruplaşması (NFOP, NFOP-QK); Liviya (daha üstün olaraq).

Erməni inqilabi federasiyası – Daşnaksütyun (Armenian Revolutionary Federation Dashnaksution (ARFD)). Erməni diasporunun transmilli hərbi-siyasi təşkilatı. **Elan edilmiş məqsədi** – şərh edilən maksimal tarixi sərhədlərdə (o cümlədən Şərqi Türkiyə və Azərbaycan da daxil olmaqla) bütün tarixi erməni ərazilərində nəzarətin bərpası. İlkin strukturları XIX əsrin sonunda siyasi partiya formasında yaradılmışdır (təsis qurultayı 1890-

cı ildə Tbilisi şəhərində keçirilmişdir). Sonrakı praktika qarşıya qoyulan məqsədlərin terrorçuluq və zorakılıq vasitələri ilə reallaşdırılmasına müncər edilir. **Yeniləşmiş siyasi proqram** (Ermənistan Respublikası yarandıqdan sonra) erməni millətçiliyinin elementlərini və radikal sosialist konsepsiyasını inteqrasiya edir. Cari mərhələdə ARFD erməni döyüş strukturlarının pərdələnməsinin çətir strukturu kimi çıxış edir; eyni zamanda təşkilatın siyasi komponentinin aktivliyinin artması qeydə alınır. **Lideri** Vaan Ovanisyandır. **Rəhbər strukturu** – Ali orqandır. ARFD-nin erməni və xarici qanadlarının mənzil-qərargahları müvafiq olaraq Yerevan və Afina şəhərlərində yerləşir. **Regional bölmələri və nümayəndəlikləri** Ermənistanda, Livanda, İranda, Suriyada, Misirdə, İordaniyada, İraqda, ABŞ-da, Avropa dövlətlərində fəaliyyət göstərir. Bir qayda olaraq, təkrar təşkilat strukturları tətbiq edilir (rəsmi və qeyri-rəsmi). Qeyri-rəsmi strukturların tərkibinə döyüş özəkləri (humb) daxildir ki, onlar latent rejimdə konservasiya edilirlər. Təşkilatın döyüşçüləri Livandakı vətəndaş müharibəsində (70-80-ci illər; iştirak məhdud xarakter daşımışdır), eləcə də 1988-94-cü illərdə Qarabağdakı döyüş əməliyyatlarında iştirak etmişlər. **Nümayəndəli strukturları** – Ermənistan və «Dağlıq Qarabağ Respublikası» parlamentlərində şəxsi deputat fraksiyaları. ARFD-nin Kilikiyaya / Erməni kilsəsinin Qərb katolikasatına mühüm siyasi təsiri müşahidə edilir (Mərkəz Beyrutdadır, Livanda, Suriyada, İordaniyada, İsraildə, Kiprdə, Yunanıstanda, İranda, Venesuelada, ABŞ-da, Kanadada yeparxiyaları vardır). **Xarici təmasları** – Yaxın Şərqin ekstremist qruplaşmaları; Qərbi Avropanın sol radikal hərəkatı. SSRİ-nin dağılmasına qədər təşkilat DTK ilə operativ əlaqələrə malik idi.

**Erməni cinayətkar birliyi** (Armenian Criminal Community). Ermənistandan çıxan etnik cinayətkar birlik RF ərazisində fəaliyyət göstərir. Moskva şəhərində, Şimali Qafqazda, Rusiyanın cənub regionlarında daha davamlı mövqeyə malikdir. Əsas özəkləri şimali Qafqazdadır: – Pyatiqorsk, Mineralnaya voda, Rostov, Krasnodar. **Operativ profili** – reketçilik, bazarlara, kazinolara, restoranlara nəzarət, saxta alkoqol içkiləri istehsalıdır. Son dövrlərdə neft biznesi üzərində nəzarət yaratmağa intensiv cəhdlər edilir. **Özəklərin miqdarı** Moskva şəhərində 17-dir, sayı – ən azı 500 nəfərdir. Hərbi nümunə üzrə strukturlaşmışdır; sərt intizam və yüksək dərəcəli konspirasiya ilə xarakterizə edilir.

Erməni etnik cinayətkar birlik daxili ziddiyyətlərə məruz qalmışdır; rəqabət aparan özəklər və sahibkarlıq strukturlarına münasibətdə aydın ifadə edilmiş zorakılıq təzahür edir. Fiziki terror nəticəsində Erməni

cinayətkar birliyi 90-cı illərdə yalnız Qafqaz Minvodu regionu üzrə 100-dən yuxarı adamı qətlə yetirmişdir. Etnik cinayətkar birlik regional və federal səviyyələrdə dövlət və hüquq-mühafizə strukturlarında lobbiçilik imkanlarına və mühüm dərəcədə pərdələnmə qabiliyyətinə malikdir.

Bütün bu terror təşkilatları digər erməni separatçı birləşmələri ilə birgə Dağlıq Qarabağda etnik təmizləmələrdə, azərbaycanlılara qarşı törədilmiş genosid siyasətində aktiv rol oynamışlar.

Heydər Əliyev Fondunun RF-dakı Nümayəndəliyinin rəhbəri Leyla xanım Əliyevanın "Xocalıya Ədalət!" çağırışından, Türkiyədə nəşr olunan "Ararat" erməni qəzeti xəbər verdi ki, (2009.XI) "ASALA" erməni azadlıq ordusu (?) özünün strategiyasında və nizamnaməsində üç dəfə dəyişiklik edib.

"ASALA" terror təşkilatı bu istiqamətdə türk dünyasına, xüsusən Azərbaycana qarşı özünün mübarizə xəttini də dəyişdi. O, açıq cəbhədən kölgəyə çəkildi. "Xocalıya Ədalətin!"in qarşısında aciz qalan "ASALA" 2010-cu ilin iyulun 14-də İstanbulda keçirdiyi konfransda etiraf etdi ki, "Xocalıya Ədalət!"in strategiyası güclüdür, kontingenti böyükdür. "Ararat" qəzeti yazır: "... "ASALA"nın etirafı erməni ideoloqlarını çaşdırdı..."(14 iyul konfransından).

Bu, şübhəsiz beynəlxalq terrorun bir qolu olan erməni terrorunun üzərində ən ciddi bir qələbə idi.

Beynəlxalq erməni diasporunun (mərkəz Yerevan) Qarabağ ərazisində narkobiznesi, silah alverini və nüvə daşıyıcılarını tənzimləyən bürolari fəaliyyət göstərir. 1993-cü ildə Dağlıq Qarabağda Vardenis təlim düşərgəsindən gəlmiş «Tiqrançılar» terrorçu təşkilatının tərkibində, yəni beynəlxalq hərbi qanadında vuruşan, milliyyətcə serb Koso Mitroviç (Kuçeva şəhəri) ərazidəki silah alverini tənzimləyən dəstənin başçısı olub. Bu gün də zabit Koso Mitroviç, məlumata görə, Robert Paşayan adı ilə Xankəndi ordu birləşməsində xidmət edir. Araşdırmalarımızdan bu da aydın oldu ki, Koso Mitroviç ilk dəfə Qarabağ ərazisinə üstündə ABŞ hərbi sənaye komplekslərinin nişanı və nömrəsi olan minaların, «M-16» tipli avtomat silahların, NATO ordusuna məxsus geyim dəstlərinin daşınmasında və gətirilməsində yardımçı olub… 1993-cü ilin avqust ayında Qarabağın oyuncaq hökumətini müdafiə edən dəstə üçün qaçaqmalçılıq yolu ilə 185 ədəd «M-16» Amerika istehsalı olan silah gətirildi. Koso Mitroviç bu malların daşınmasında Gürcüstan və İran ərazilərinin daha açıq olduğunu vurğulayır.

K.Mitroviç «Mən Artsaxda qaldım…» kitabında yazır: «***…Biz Dağlıq Qarabağa Yuqoslaviyadan gəlmişdik. On bir nəfər idik. Beşi həlak oldu: Kapitan Slobodan Vukoviç (Şabats şəhəri), Antal İvaşeviç (Stremska şəhəri), Miloş Lozniç (Mladenovats şəhəri), Petro Kikin (Kuçevo şəhəri), Levtin Boykoviç (Brlojnik şəhəri)… Mən isə qaldım. Dağlıq Qarabağda qaldım. Həm yaşamaq, həm də ölmək üçün…***» (Xankəndi, «Artsax» qəzeti, 1996, səh. 26. Redaktor: Q.Petrosyan, MN-nin polkovniki). K.Mitroviç daha sonra yazır: «…Biz hər gün vuruş və döyüş taktikamızı dəyişirdik. Hərbi sursat və silah, geyim sarıdan problemimiz yox idi. İran və Gürcüstan tərəfdən aldığımız və yaxud keçirtdiyimiz yardımlardan dövlət xəbərsizdi. Bunu ermənilərin hərbi qüvvəsi olan «ASALA» daha çevik edirdi. «ASALA» həm İran, həm də Gürcüstan ərazisində qeyri-leqal şəkildə özünün bürolarını qura bildi… Bu vaxt ona «Akopyan» beynəlxalq şirkəti yardım edirdi…».

Ermənistanın Razdan şəhərində 1998-ci ildən (Sevan gölünün qərb sahilində) «Nüvə bürosu» qeyri-leqal fəaliyyət göstərir və bu məxfi büroya başçılığı Bağdad ermənisi, şəhərdən 35 km şimal-qərb istiqamətində dərman preparatları hazırlayan fabriki maliyyələşdirən Hüseyn Qəffur edir. İxtisasca kimyaçı olan Hüseyn Qəffur İsrail əleyhinə kəskin radikal mövqedə dayanan, islamçı təşkilat «Əsbat əl-Ənsar» təşkilatının maliyyə dayağıdır. Təşkilatın təlimat qaynağı olan «SD-ROME» kitabı digər radikalların da təlimat mənbəyidir. Bu kitabın 8-ci səhifəsində yazılır: «***Təşkilat vəhdətli bir təşkilatdır. Orada təkcə müsəlmanlar, yəni təkcə islamçılar birləşmir. Bu təşkilatda hüququ tapdalanmış adamlar birləşir və bir yerdə mübarizə aparır…***».

Digər bir məlumatda bu da bildirilir ki, islam təşkilatları içərisində «Əl-Qaida»nı (Üsəma bin Laden) nüvə materialları ilə təchiz edən də elə bu qrup idi: «Əsbat əl-Ənsar». Aprelin 14-də Sudanda «Əsbat əl-Ənsar» təşkilatının yerli şöbəsi «Əl-Qaida»da çalışan nüvə araşdırıcıları üçün «Təlimat… hikmət və hümmət» adlı bir kitab nəşr edir. Ərəb, puştu və urdu dillərində çap olunan bu kitabın üç müəllifi var: Pakistanlı alim Nazirxan Əhməd, ərəb Şeyx Cabbar Əl-Zahir, erməni (İraq) Arakel Stepanoviç Alanakyan. Sonuncu, yəni Arakel Alanakyan Ermənistan Dövlət Universitetinin fizika fakültəsini bitirib. 1990-cı ildə Yerevandan Suriyaya, oradan da 1995-ci ildə İraqa köçüb. Bağdad hərbi-sənaye komplekslərinin birində – «Ter-Qriqoryan» qrupunda işə başlayıb.

## TERRORÇULARIN ƏMƏKDAŞLIĞI

Vaşinqtondakı "Erməni-kürd araşdırmalar mərkəzi"nin başçısı doktor Hank Astarcanyanın (nəvə Astarcanyan) fikrincə, "...qartal təsviri vətən və torpaq itkisinə məruz qalmış türklərin əlində girova çevrilmiş kürdlərin (?) rəmzi nişanıdır. Bu rəmz, mifdən çox həqiqət olduğundan bizim dünyəvi işarəmizlə eynidir...". (H.Astarcanyan: "Nəticələr"... Mərkəzin aylıq bülleteni, 2000-ci il, səh.23).

Dağlıq Qarabağın "Özünümüdafiə komitəsi"nin tezislərini (17.tezis) hazırlayan (1991-ci ilin iyun ayının 14-də) Hank Astarcanyan "Böyük Ermənistan... Böyük Kürdistan" başlıqlı tezislərində iddia edir ki, ermənilərlə kürdlər tarixi baxımdan, bir-birlərinə həmişə yaxın olublar: "Tale "... əsrlər boyu hər iki xalqı əzab və işgəncələrə məruz qoyub..." Daha sonra H.Astarcanyan xatırladır: "... qurulmuş respublikaların hər ikisində təhlükəsizlik məsələləri önə çəkilməlidir...".

**1993-cü ilin avqust ayının 16-da isə H.Astarcanyan o vaxt "DQ Respublikası Dövlət Özünümüdafiə Komitəsi" adlanan qondarma bir qrupa sədrlik edən Robert Setrakoviç Koçaryana belə bir məktub göndərir: "...Sizin başçılıq etdiyiniz qurumun nəzdində başçılıq etdiyim mərkəzin bir bölməsini yaratmaq planımız var. Bu bölmə sizin ən məxfi işlərinizi görmək iqtidarında olacaq. Çünki sizin ərazilərdən Vaşinqton bürosuna daxil olan məlumatlar dəqiq deyil. Fəaliyyətinizlə bağlı verdiyiniz məlumatlar bizi çaşdırır. Görünür, sizin fəaliyyətinizdəki çatışmamazlıqlarla bağlı əlavə Livan görüşünə ehtiyac var...".**

**Xatırladım ki, H.Astarcanyanın qeyd etdiyi "Livan görüşü" Yerevanda buraxılan "Müasir erməni tarixi" kitabının 87-ci səhifəsində öz əksini tapıb. Bu görüşün də mahiyyətini Dağlıq Qarabağ ərazisində "Neft Bakısına qarşı...", "Müstəqil Azərbaycana qarşı...", ümumən türk dünyasına qarşı yaranacaq və yaranması zəruri sayılan məxfi orqanların kəşfiyyat və əks-kəşfiyyatın proqramı təşkil edir. Və göstərilir ki, "Böyük Ermənistan... dövlətini yaradarkən birinci onun düşmənə qarşı (?) amansız xətt götürən kəşfiyyat və əks-kəşfiyyat qurumlarını yaratmaq vacibdir. Kəşfiyyatsız Ermənistan... və DQ ölümə məhkumdur...".**

**Livan görüşünə gəlincə, bu görüş ilk dəfə 1992-ci ilin may ayının 17-də Beyrutda keçirilib. Görüşdə DQ-ni təmsil edən 9 nəfər, o**

**cümlədən Robert Koçaryan, Zori Balayan, Naira Melkumyan, D.Manuçaryan, E.Qriqoryan, A.Gevorkyan... iştirak edib.**

Vaşinqtondakı "Erməni-kürd araşdırma mərkəzi" "ASALA" erməni terror təşkilatının Baş Qərargahı üçün də (Fransa, Livan) görüləcək işlərin strateji, hərbi-döyüş "konspekti"ni hazırlamışdı. Bu mərkəz 1992-ci ilin may ayının 21-də Yerevana və DQ-nin ayrı-ayrı silahlı birləşmələrinə surğucunda "Armenia-Rekord-4" işarəsi olan məxfi məktublar yola salıb (?). Bu məktublarda işğalçılıq siyasətini həyata keçirməkdə davam edən erməni terror dəstələri üçün Azərbaycan ərazisindəki bütün hərbi yüksəkliklərin, istehkamların, strateji obyektlərin hərbi xəritələri, nişanları, mühafizə punktları açıq-aşkar qeyd edilirdi. Mərkəz tərəfdən bu da tövsiyə olunurdu ki, ləngimədən "Böyük Kürdistan" ideyasının daşıyıcıları ilə təxirəsalınmaz görüşlərin keçirilməsi regiondakı "ASALA" qrupu üçün vacib şərtlərdən biridir. Çünki regionda kürd faktoru böyük maneə-faktorudur. "Onu tənzimləmədən qələbə qazanmaq mümkün deyil..." (səh.4). Bu barədə "ASALA"nın Laçın bürosunun başçısı RF-nin qoşun birləşmələrində və sonra Razdan hərbi komissarlığında işləyən, 1991-ci ilin dekabr ayının 12-dən Laçında dəstəyə qoşulan polkovnik Barxudar Qiçakyana məsləhət verirdi.

1992-ci ilin iyun (9-12) və 1993-cü ilin noyabr (9-16) aylarında ermənilərin kürdlərlə bir-birinin ardınca iki görüşü keçirilir. Görüşlərdən biri Maku şəhərindəki (İran İslam Respublikasının qərb hissəsi) görüşdə hər iki tərəfin səlahiyyətli nümayəndələri iştirak edirlər. Kürd "mücahidləri" tərəfindən PKK lideri Abdulla Öcalanın qardaşı Hüseyn Öcalan bu görüşün təşkilatçılarından idi.

1992-ci ilin sentyabr ayının 19-da isə Zəngilan və Qubadlı istiqamətində hərəkət edə biləcək "Erməni azadlığı uğrunda hərəkat"ın 6 yerdə özəyi yarandı. Regionda geniş miqyaslı işğalçılıq və talançılıq proqramı ilə hərəkət edən bu terror qruplarının 83 nəfər üzvündən 47 nəfəri "ASALA"nın Livan məktəbindən təşrif gətirmişdi. Nəticədə 1993-cü ilin aprel ayının 3-də Laçının işğalında (1.835 kv.km), iyulun 23-də Ağdamın işğalında (1.094 kv.km), avqustun 23-də Cəbrayılın işğalında (1.050 kv.km), Füzulinin işğalında (1386 kv.km), avqustun 31-də Qubadlının işğalında (802 kv.km), oktyabrın 30-da isə Zəngilanın işğalında (707 kv.km) bu qanlı-cinayətkar təşkilatlar yaxından iştirak etdi. Beləliklə, növbəti görüş üçün zəmin yarandı.

**"ASALA" liderlərilə PKK liderləri arasında ikinci görüş 1993-cü ilin noyabr ayının 9-da Ermənistan ərazisində başlandı. Bir həftəlik**

**bu görüşdə Zori Balayan, silahlı birləşmələrə başçılıq edən Robert Küçəryan və PKK lideri Abdulla Öcalan iştirak edirdilər. Görüşdə "Kürdistan milli azadlıq hərəkatı"nın lideri, general Amid Candora da var idi.**

Uzun müddətli araşdırmalarımızın nəticəsi olaraq, keçirilən bu görüşün bizim üçün mahiyyəti də açıqlandı. Moskvanın (RF) Şkuleva küçəsindəki 272 nömrəli binada yerləşən "Kürdistan" jurnalının redaksiyasında saxlanılan qovluğun üstündə "Dlya spravki" yazılmış və vərəqələrinə bir neçə dairəvi, üçkünc möhür basılmış 16-cı sənədlər qovluğu çox mətləblərdən xəbər verir. Bu qovluqda həmçinin erməni-kürd təşkilatlarının birgə bank hesab nömrəsi də var: RF, Moskva, "Mosstroybank", "MFO-201575". Bu bank hesabı həm də "Böyük Ermənistan" və "Böyük Kürdistan..." istiqamətində aparılan nəşriyyat-çap işlərində güclü maliyyə mənbəyidir.

Üstündə "Dlya spravki" yazılmış 211 səhifəlik qovluğun 136-cı səhifəsində 1993-cü ilin noyabr ayının 9-da Ermənistan ərazisində keçirilən siyasi görüşün nəticəsi olaraq imzalanmış və yaxud tərəflər arasında bağlanmış müqavilənin çıxarış sənədi də var.

Araşdırdığımız sənədlərdən məlum olur ki, "Sevan üçlüyü" kodu ilə keçirilən görüşdə çıxarılan qərara əsasən, kürdlərin separatçı "PKK" terrorçu təşkilatının Baş Qərargahı 2005-ci ilin iyun ayının 19-dək Ermənistan ərazisinə köçürülür. BQ-ın Moskva, Tehran, İraq, Türkiyə, Azərbaycan, Orta Asiya, Dağlıq Qarabağ bürolarına bu barədə məlumatlar verilir. Hər yarım ildə neytral zonalarda erməni-kürd birgə "Strateji məsələləri həll edə biləcək" konfrans keçirilir. Beləliklə, kürd-erməni görüşündə iştirak edənlərin siyahısını dərc edirik:

- Levon Abramoviç Molnosyan - ("ASALA" erməni azadlıq ordusundan) (?);
- Nubar Rezaltoviç Gevorkyan - ("Artsax" uğrunda azadlıq komitəsinin Almaniya üzrə koordinatoru);
- Cavad Kazımi - ("Hayastan" təşkilatının Avropa erməni diasporu üzrə koordinatoru);
- Robert Setrakoviç Köçəryan - (DQ "özünümüdafiə" komitəsinin sədri);
- Zori Qaykoviç Balayan - (DQ - qondarma "Böyük Ermənistan" üzrə ideoloq, yazıçı);
- Cəmil Bayik - ("ARST" Kürdistan xalq azadlıq ordusunun lideri);

Ümid Çandərə - ("ERMK" - "Kürdistan milli azadlıq Hərəkatı"nın lideri);

- Abdulla Öcalan - (Separatçı - PKK lideri);
- Mustava Vəkili - (DQ, Kürd Məsləhət Məclisinin üzvü).

"Sevan görüşü"ndə iştirak edən bu adamların hamısı hərbi geyimdə idilər. Hərbi geyimlərin oxşar cəhətlərindən biri bu idi ki, hər iki geyimdə qanadlarını açmış və ov dalınca uçuşa hazır olan qartal şəkli təsvir olunmuşdu.

***1993-cü ilin noyabr ayının 11-də isə Robert Küçəryan, Zori Balayan və Abdulla Öcalan arasında üçtərəfli görüş keçirilir. Bu görüş saat (Yerevan vaxtı ilə) 16.00-da Sevan gölünün şimal-şərq hissəsindəki Çambarak deyilən erməni yaşayış ərazisinində yerləşən birmərtəbəli binada keçirildi (noyabr ayının 26-da PKK-nın BQ da elə bu əraziyə köçürüldü). Qovluqdakı və araşdırdığımız materiallara əsasən hazırladığımız tərəflərarası söhbətin mətni də qəribədir.***

***"Abdulla Öcalan:***

***- Bizi narahat edən budur ki, alınmış əsir azərbaycanlı qadın və qızlar arasında kürd millətindən olanlar var. Onların azadlığını təmin ediniz. Bu bizim üçün psixoloji cəhətdən çox gərəkli bir işdir.***

***Robert Köçəryan:***

***- Bizim bu barədə xüsusi komissiyamız var. Kürdlərə azadlıq veriləcək. Onlar Laçın və Kəlbəcərdə evlə, həyətyanı sahələrlə təmin olunacaqlar. Amma onların hamısı özünü azərbaycanlı hesab edirlər. İşimizi bu çətinləşdirir.***

***Abdulla Öcalan:***

***- Bizdə olan hesabat məlumatına görə, siz onların 13 nəfərini öldürmüsünüz.***

***Robert Köçəryan:***

***- Kürdlərin?***

***Zori Balayan:***

***- Bu, mümkün olan iş deyil. Amma komissiyanın üzvü kimi deyim ki, Şuşada əsir götürülmüş qadınlardan üç nəfəri özünə qəsd, intihar etdilər. Bu məsələdə bizi ittiham etmək olmaz.***

***Robert Köçəryan:***

***- Biz kürdləri azad edəcəyik. Onlar bu müharibəyə zorla göndəriliblər. Onlar bu müharibəyə təhrik ediliblər.***

***Zori Balayan:***

***- Bunları araşdıran komissiya BMT-yə xüsusi məktub da hazırlayıb.***

***Robert Köçəryan:***

***- Biz istəyirik kürd və ermənilərdən ibarət hərbi dəstələr təşkil edək. Xüsusi bir korpus yaradaq. Bu korpus bizim sənədlərdə 46 nömrəli hərbi korpus adlanır... Bizim əldə etdiyimiz (?) torpaqların heç birini geri qaytarmaq fikrimiz yoxdur. Bu torpaqlar həm sizindir, həm də bizim. Biz bu torpaqları birlikdə azad etmişik.***

***Abdulla Öcalan:***

***- Biz Laçında Məsləhət Məclisimizi təşkil etmişik. "Böyük Kürdistan..." uğrunda fikrimiz qətidir.***

***Robert Köçəryan:***

***- Bütün bunlar türklərə qarşı birgə mübarizəmizin başlanğıcıdır. XXI əsr - bizim haqq işi uğrunda mübarizə apardığımız əsridir.***

***Zori Balayan:***

***- Bizim komissiya həm də sizin təşkilatın "ASALA" erməni milli azadlıq ordusu ilə bağlaşmasını da xeyirli bir iş hesab edir. Çünki bu yaxınlaşma çoxdan lazım idi. Bizim belə yaxınlaşmamız düşmənlərimizi çox narahat edir. Əslində qorxudur. Bu isə olacaq qələbələrin başlanğıcıdır.***

***Abdulla Öcalan:***

***- Bizim adamlar artıq "ASALA" tərkibində birgə təlimə də başlayıblar.***

***Robert Köçəryan:***

***- Sizin də təcrübənizdən istifadə etmək məqsədəuyğundur.***

***Zori Balayan:***

***- Biz artıq DQ-nin özünümüdafiə dəstələri üçün, tutalım, çeçen mücahidlərinin istifadə etdikləri "Strateji və taktiki döyüş planları"ndan ibarət "Yardımçı kitab" da hazırlamışıq. O cümlədən PKK-nın da maraqlı taktiki döyüş manevrlərini də öyrənirik...***

***Abdulla Öcalan:***

***- Sizin Azərbaycan ərazisindəki mövqeləriniz necədir? Bu barədə bizdə elə bir narahatçılıq yoxdur. Bizim mövqelərimiz lazımi qaydadadır. Rusiya ilə, İran hərbi dairələrilə də münasibətlərimiz normaldır.***

***Robert Köçəryan:***

***- Bu barədə bizim dəstənin xüsusi bir planı var. Buna baxmayaraq, Azərbaycan ərazisindən kifayət qədər məlumat alırıq... Oradakı dayaqlarımızdan maksimum istifadə edirik. Qohumluq və dostluq əlaqələrimizi qoruyuruq (!).***

***Zori Balayan:***

***- Bizim üçün bu sahədə problem yoxdur. Əsir düşənlərin bir qismi könüllü bizimlə əlbir olmaları haqqında öz zəmanətlərini imzalayırlar(?). Onların dindirilməsində, söhbətlərdə dostlarımız da çox vaxt iştirak edirlər.***

***Qeyd:*** Əlavə səhifələrdə Zori Balayanın "dostlarımız" ifadəsinə aydınlıq gətirilir. Məlum olur ki, hərbi əsirlərin dindirilməsində ermənilərlə yanaşı RF-dən çağırılmış və yaxud dəvət olunmuş mütəxəssislər də (əsasən FTX-dən və BKİ-dən) iştirak edirlər. Onlar əsasən strateji informasiyalar toplayır, Azərbaycanın MN sahəsindəki, xüsusən Türkiyə ilə hərbi münasibətlərinə dair suallar verirlər. Şübhə etməyək ki, dindirmənin bu texnologiyası Ermənistan xüsusi xidmət orqanlarında indi də davam edir.

***Robert Köçəryan:***

***- Bakıda fəaliyyət göstərən, müxalifətdə dayanmış qüvvələrlə, ayrı-ayrı şəxslərlə, siyasi-ictimai nüfuzu olan adamlarla bizim xüsusi taktiki "hərəkət planımız" var. Bu planı bizim Fransadakı dostlarımız hazırlayıb.***

***Abdulla Öcalan:***

***- Bizim də hərəkatın əsas xətlərindən birini elə bu təşkil edir. Bunsuz, yəni içəridə dayaq dəstələrimiz olmasa, planlarımızın əksəriyyəti yarımçıq qalar...***

Başqa bir araşdırmalarımıza görə, erməni tərəf həmişə əsir və girov götürülmüş qadın və qızlarımızın həqiqi sayını beynəlxalq ictimaiyyətdən gizlədir. Dünənə qədər qapalı qalan bu proqramlar araşdırmamız zamanı açıqlanır, qaranlıq məqamlara bir daha aydınlıq gətirilir. Məlumata görə, ermənilər may ayının 26-da (2000-ci il) Eheknadzor yaşayış məntəqəsində (Ermənistanın cənub hissəsində) 400 nəfərlik qadın həbsxanasını istifadəyə veriblər. Əsir götürülmüş azərbaycanlı qadınların təqribən 60 nəfəri burada saxlanılır. Bundan əlavə, biz Ermənistan və Dağlıq Qarabağ ərazisində (1994-2000-ci illər ərzində) inşa edilən (əsasən Argentina, Portuqaliya, Əfqanıstan, Rusiya, İran, Çin fəhlələrinin əlilə tikilən) və bilavasitə azərbaycanlıların saxlandığı əsir düşərgələrinin də sayını müəyyənləşdirdik:

a) Vardenis (Şərqi Ermənistan) - uşaq düşərgəsi (250 nəfərlik);

b) Qetaşen (Martuni rayon ərazisi. Qərb hissədə) - qadın düşərgəsi (380 nəfərlik);

v) Cermuk (Şərqi Ermənistan) - qadın düşərgəsi (250 nəfərlik);

q) Razdan (Qərbi Ermənistan) - uşaq düşərgəsi (180 nəfərlik);

d) Kəlbəcər ərazisi (Zar kəndində - cənub hissədə) - 150 nəfərlik qadın düşərgəsi;

z) Xankəndi ərazisi (Kərkicahanda - cənub hissədə) - 180 nəfərlik uşaq düşərgəsi.

Hər düşərgənin ərazisində ad və ünvanları məlum olmayan insanlardan ibarət qəbiristanlıqlar salınıb. Məsələn, Kərkicahan ərazisindəki uşaq düşərgəsi ərazisində ana və uşaqların birgə dəfn olunduğu qəbrlərin - adsız, ünvansız məzarların sayı hələ ki, 28-də dayanıb (Rəşt şəhəri "Xəzər" məcmuəsi. İran, 1996-cı il, may. səh. 26). Bütün bunları müşahidə edən və müəyyən mənada yarımçıq açıqlamalar verən İsveç diplomatı Yan Eliassonun fikrincə "...Bütün beynəlxalq aləmdə həyəcan təbili çalınmalıdır. Mən Xankəndində azərbaycanlı əsirlərin... onlara verilən işgəncələrin şahidi oldum..."

Araşdırmalarımıza görə, fevral ayının 13-dən etibarən (2001-ci il) işğal olunmuş Cəbrayıl (Xorovlu kəndində), Xocavənd (Muğanlı ərazisində) və Füzuli (Alxanlı) yaşayış məntəqələrində "Artsaxın azadlığı uğrunda komitə"nin özəkləri yaradıldı. Fevral ayının 25-də isə Kəlbəcər rayonunun Qılıclı və Laçın rayonunun Alxanlı kəndlərində "Kürdistan milli azadlıq hərəkatı"nın dayaq dəstələri təşkil olundu.

Baş Qərargahı Laçında yerləşdirilən PKK-nın Məsləhət Məclisi yaradıldı (ABŞ Dövlət Departamenti 2001-ci ilin aprel ayının 30-da PKK-nın adını terrorçu təşkilatların sırasında rəsmiləşdirdi).

Mart ayının 12-də isə (2001-ci il) "ASALA" erməni PKK-kürd terror təşkilatlarının Yerevanda və Moskvada dayaq dəstələri yaradıldı. Əsası 1990-cı ilin avqust ayının 26-da Portuqaliyada və sonra Argentinada qoyulan (sentyabr ayında isə Fransa, Suriya, Livan, Pakistanda yaradıldı), bilavasitə "ASALA"çıların icra orqanına çevrilən "Erməni azadlıq hərəkatı"nın Yerevan bürosunun (Yerevan, Alaverdiyan küçəsi, 5...) "Bülleten"i dörd dildə nəşr edilməyə başladı.

## Separatçıların müdafiə birliyi

**...MDB çərçivəsində "Beynəlxalq erməni diasporu"nun "Müdafiə Birliyi" öz əlaqələrini ləzgi diasporu ilə qurmaqda görür.**

**Vaxtilə eks-prezident Ter-Petrosyanın yanında ekspert kimi tanınan Xaçik Alekseyeviç Surencyan artıq indi Mahaçqalada yerləşdirilmiş "Araz" erməni diasporuna başçılıq edir.**

**Şimali Qafqazda, xüsusən Dağıstan ərazisində özəklərini yaradan və bilavasitə "Beynəlxalq erməni diasporu" tərəfindən maliyyələş-**

**dirilən "Müdafiə birliyi" özünün hərbi qanadını yaradarkən radikal "Sadval"çılara arxayın idilər. Çünki Dağıstanda, ümumən RF-də altı leqal, səkkiz qeyri-leqal separatçı təşkilat - mərkəz fəaliyyət göstərir. Rusiya MN-nin Baş Kəşfiyyat İdarəsində, eləcə də digər xüsusi xidmət orqanları və güc nazirliklərində adları, ünvanları qeyd olunan bu təşkilatlara isə münasibət hələ ki, açıqlanmır.**

**Yadınıza salaq ki, "Sadval" separatçı ləzgi təşkilatı 1992-ci ilin sentyabrında Moskvada RF-nin Ədliyyə Nazirliyində qeydiyyatdan keçib. Təsisçilərin dəyişdirilməsi adı ilə (əslində Nizamnamədə dəyişiliklər edilmişdi) təşkilat 1993-cü ilin əvvəllərində təktarən qeydiyyatdan keçib. Sonradan məlum olur ki, təşkilatın "Beynəlxalq təşkilat" kimi qeydə alınmasında o vaxt RF prezidentinin köməkçisi olmuş, politoloq Georgiy Sattarov və ölkədə təhlükəsizlik konsepsiyaların müəlliflərindən biri kimi tanınan Andranik Miqranyan... canfəşanlıq ediblər. Bu barədə RF-də müzakirəyə çıxarılan "Rusiya və Ermənistan strateji əlaqələri XXI əsrdə" adlı siyasi diskussiyada açıqlama verən A.Miqranyan bunu irəliləyiş hesab edərək göstərir ki, 1992-ci ilin əvvəllərində o, Ermənistan təhlükəsizlik xidmətinin 4 nəfər yüksək rütbəli şəxsinin imzası ilə məktub da alıb. Məktubu imzalayan Avakyan, Babayan, Xancanyan, Gevorkyan... xahiş edirdilər ki, "Sadval" ləzgi təşkilatının qeydiyyata alınmasında yardımçı olum... Lakin hadisələrin sonrakı cərəyanında pərdə arxasındakılar məlum oldu. Nəticədə 1993-cü ilin iyun ayında "Sadval" separatçı təşkilatının qeydiyyatı dayandırıldı. 1994-cü ildə isə "Sadval" təşkilatının beynəlxalq təşkilat kimi fəaliyyəti ləğv edildi. Ondan az keçmiş RF Nazirlər Kabineti (1995-ci il, 12. XII) Şimal zonasında "təxirəsalınmaz" ictimai-siyasi vəziyyətlə bağlı 1000 nömrəli sərəncam verdi. Həmin sərəncamda göstərilirdi ki, 100 min hektarlıq Samur meşələrinin qırılması və meşə sahəsinin 14 dəfə azalması ilə bağlı ciddi problem qalır. Samur çayının suları haqqında ləzgi separatçılarının qaldırdıqları məsələ isə 1967-ci ildə həll edilib. Dağıstan və Azərbaycan arasında bağlanmış müqaviləyə əsasən, suların 75 faizi Azərbaycana məxsusdur. Sərhədlər dəyişilməz və toxunulmaz qalır.**

"Sadval"çılar iddia edirlər ki, Azərbaycanda bir milyon ləzgi var. Halbuki statistik məlumata görə (RF), bu rəqəm 300-400 min nəfəri əhatə edir. Lakin iddia iddia olaraq qalır. Yerevanda "Daşnaksütyun" partiyasının liderlərindən biri Kim Balayanın qonağı olan "Sadval"çıların

əlaqələndiriciləri Səid Murad Qınçayev, Gülümsəməd Qeybalıyev yenə "öz diqtəsi ilə yaşayan bir milyon nəfər ləzginin taleyini" araşdırmaqla məşğul olublar. K.Balayan partiyasının fevralın 9-da (2001-ci il) açıq səma altında keçirdiyi konfransda xüsusi olaraq qeyd edib ki, ***Azərbaycana qarşı nəinki ləzgi qardaşlarımızla, hətta əfqan "Taliblər"i ilə də yaxınlaşmaq arzusundayıq (?).***

**Erməni diasporunun Qarabağ hərbi qanadı ilə "Sadval"çılara məxsus ləzgi diasporunun hərbi qanadı arasındakı bu əlaqə 2000-ci il noyabr ayının 4-də Mahaçqalada, oktyabr ayının 7-də isə Xankəndində reallaşdı.** Zahirən hər iki tərəf bu işi leqal görürdü... Lakin pərdə arxasında Azərbaycana qarşı gizli sövdələşmələr də var idi. Dağıstan və Yerevan təhlükəsizlik xidmətləri əməkdaşlarının da bundan xəbəri olub və onlar "Şeytanın əli ilə nicat tapmaq" prinsipi ilə yaşayıb. 2001-ci il yanvar ayının 16-dan etibarən Baş Qərargahı Parisdə olan "Vartan cəngavərləri" radikal erməni qrupu belə bir bəyannamə də yaydılar ki, artıq dünyanın müxtəlif (separatizmə meyilli) dövlətlərində məskən salmış erməni diasporları öz aralarında hərbi bağlaşma və razılaşmalar aparırlar... Onlar bunu da etiraf etdilər ki, bu bağlaşmaların da mərkəzində ümummilli erməni maraqları dayanır. Və bu maraqların qorunmasında bütün vasitələrdən rəsmi qaydada istifadə ediləcək. Demək, "Beynəlxalq erməni diasporunun... Müdafiə birliyi"nin tərkib hissəsi olan hərbi birləşmələrin öz qanunları yazılır. RF-nin Stavropol vilayətindəki erməni diasporuna məxsus "Stella Samara" iri biznes mərkəzi isə bu bəyannamənin RF ərazisində yayılması xərcini öz boynuna götürdü.

Xarici ölkələrdə məskən salmış erməni diasporunun başqa millətlərə məxsus diasporlarla əlaqələri də genişlənir və bu əlaqələr adətən üç istiqamətdə inkişaf edir: ticarət, mədəniyyət və hərbi.

Araşdırmalar zamanı aydın oldu ki, Yunanıstanda yaşayan erməni diasporunun "Karagençilər" qrupu ərazidəki kürd diasporunun "Öcalançılar" qrupu ilə Türkiyə və Azərbaycan əleyhinə strateji informasiyaların mübadiləsi və işlənməsi adı ilə müştərək bağlaşma imzalayıblar. Bu sənədi "Karagençilər" qrupunun başçısı Barat Osipyan, kürd tərəfdən isə Hənifə "xanım" imzalamışdı. Burada həmçinin erməni və kürd millətləri arasında izdivac, eləcə də qan qohumluğunun artırılması məsələləri də müzakirə edilib (?). Bu məsələ həm də Yerevanda "XXI əsr — erməni diasporunun siyasi-strateji vəzifələri" mövzusunda 2013-cü ilin may ayının 14-də keçirilmiş məşvərətdə də qabarıq vurğulanıb.

## Erməni diasporunun hərbi qanadındakı “Sadval” və “PKK”... birliyi

Suriyaya 1997-ci ildə mühacirət etmiş, 1999-cu ildən Vaşinqtonda yaşayan, “Daşnaksütyun” partiyasının Avropa Şurasına üzv ölkələrin ərazisindəki “Erməni diasporu” ilə əlaqələndiricilərindən olan hərbi ekspert Sauri Şakinyan “Ağıl” publisistik qeydlərində yazır: “... Siz (yəni ermənilər) az danışın daha. Çünki çox iş gördünüz. Dağlıq Qarabağı yenidən diriltdiniz... (?) ...Azərbaycanlılar kimi hissə qapılmayın. Çünki çox şeyi itirə bilərsiniz. Baxın, görün Poqosyan qardaşınız haradadır... Sevimli Ambarsumyanı düşünün... şöhrətli Valiyanı, Matevosyanı, Fazilyanı... düşünün. Onları ağılla qorumasaq, hisslərimizə qurban versək, uduzarıq...(?)” (Vaşinqton. “Erməni dirçəlişi” qəzeti. 2001. II).

Moskva mətbuatının yaydığı məlumatlara görə, erməni eksperti Saurinin xatırlatdığı Mixail Poqasyan Rusiya Federasiyası prezidentinin sərəncamı ilə “Suxoy” hərbi sənaye kompleksinin baş direktoru təyin olunub. (Onun “Suxoy” hərbi sənaye kompleksində baş layihəçi kimi fəaliyyətini biz kitabın birinci cildində qeyd etmişik). Xatırladaq ki, “Suxoy” hərbi sənaye kompleksi dünyada analoqu olmayan, “Topol-M” nüvə başlıqlı, uzaqmənzilli ballistik raketlərin hazırlanmasında aparıcı rol oynayır. Burada həmçinin “S-37” gözəgörünməz təyyarələri hazırlanır, yeni “MiQ-29”, “MiQ-30” bombardmançı təyyarələrin mühərrikləri sınaqdan çıxarılır.

Strateji əhəmiyyəti geniş olan belə bir mərkəzin - kompleksin erməni millətindən olan Mixail Poqosyana həvalə edilməsinə ötəri bir iş kimi yanaşmayaq.

O, həm də RF-də erməni diasporuna başçılıq edən liderlərdən biridir. 2000-ci ilin avqust ayında on bir dildə (?) çap olunan “Dağlıq Qarabağın erməni diasporu üçün strateji əhəmiyyəti” kitabının da müəlliflərindəndir. “Beynəlxalq erməni diasporu” Paris şöbəsinin (1999-cu il) əlaqələndiricilərindən biridir. Həmçinin Mixail Poqosyan “Suxoy” hərbi sənaye kompleksinə başçı təyin edildikdən sonra həmin mərkəzdə işləyən 17 nəfər azərbaycanlı vəzifələrini itirdilər, işdən qovuldular (?!).

Və yaxud Səudiyyə Ərəbistanında ermənilərin (2001-ci il fevralın 24-ü) yaratdıqları diaspor mərkəzinə əlaqələndirici, ixtisasca tarixçi olan Əşrəfbəy Fazilyanın təyin edilməsi də maraq doğurmaya bilmir. Hansı ki, Əşrəfbəy Fazilyan elə həmin ərəfədə RF-nin Məkkə, Mədinə şəhərlərində konsulu təyin olundu və ona diplomat kimi toxunulmazlıq statusu verildi (Əşrəfbəy Fazilyanın Səudiyyə Ərəbistanında “Vəhhabiçiliyin” özəyini yaradan, Mədinə imamı Əbdül Həmid Cəfər Dağıstani ilə

görüşləri diqqətdən yayınmır. Ona görə ki, Mədinə imamının Qafqazda, xüsusən Dağıstanda və Azərbaycanda neft məsələlərilə maraqlanması və bu yönümdə xüsusi strateji planlarının olması fakt olaraq, qalır). Başqa bir diplomat, Ermənistan parlamentinin keçmiş sədri Babgen Araksyan isə erməni diasporunun "Ermənistan-Yaxın Şərq diasporu" üzrə əlaqələndiricisi seçildi. Bundan sonra məhz onun topladığı və Livan parlamentinə təqdim etdiyi sənədlər əsasında, parlamentin başçısı Nabih Berrinin şəxsi fəaliyyətilə "erməni soyqırımı" adlandırılan bədnam qətnamə qəbul olundu.

Beyrutda "Ermənistan-Livan-Suriya diasporları"nın "Müdafiə birliyi" adlı təşkilatı yarandı. Yanvar ayının 16-da isə bu birliyin "Apostol" adlı hərbi qanadı quruldu və Azərbaycanla bağlı belə bir qətnamə qəbul edildi: "...Əgər biz müqavimət göstərməli olsaq, onda hücum edən tərəflər kimi müdafiə olunan tərəflər də birləşməlidirlər..."

Erməni katolikosu Birinci Qaregin isə "Kilsə və erməni diasporu" kitabında yazır: "...Livanın erməni icması erməni diasporunun ən sanballı hissəsidir. Livan və Suriya Qərb ermənilərinin böyük bir "hissəsinin soyqırımından sonra rahatlıq və sığınacaq tapdıqları ölkələrdir..." (Yerevan. 1999-cu il). Əslində erməni diasporunun yaratdıqları müdafiə birliyi yeni məsələ deyildi. Buna qədər 1991-ci ildə Avropada (mərkəzi Moskva, Afina, Roma, London, Marsel), 1993-cü ilin sentyabr ayının 16-28-i arasında Asiyada (mərkəzi Dehli, Tehran, Əbu-Dabi, Tokio olmaqla), 1996-cı ilin noyabr ayının 24-ü, dekabr ayının 16-sı arasında Afrikada (mərkəzi Misir, Rabat, Əlcəzair olmaqla), 1997-ci il iyul ayının 26-da Amerikada (mərkəzi Florida, Los-Anceles, Vaşinqton, Buenos-Ayres, Ottava, Karakas olmaqla)... eləcə də Şərqi Avropada - 1998-ci ildə (mərkəzi Buxarest, Praqa olmaqla) erməni diasporunun "Müdafiə birlikləri" yarandı. Və bu birliklərin – mərkəzlərin bir qismi rəsmi qaydada xeyriyyə təşkilatları kimi qeydiyyatdan keçdi. Dünyada Azərbaycana və ümumən türk xalqlarına qarşı 869 irili-xırdalı erməni təşkilatı var. Xeyriyyəçilik adı altında fəaliyyət göstərən bu hərbi-siyasi, strateji qurumların maliyyə yardımları, proqram və sənədləri, dünyaya "diplomatik" çıxışları bilavasitə aşağıdakı erməni diaspor mərkəzləri tərəfindən, necə deyərlər, tənzimlənir, qaydaya salınır:

1) Erməni Katolik Kilsəsi (dünyanın 56 ölkəsində mərkəzi var. 2001-ci ilin iyun ayının 4-dən Xankəndində özəyi yaradıldı);

2) Amerikanın Erməni Assambleyası (iyirmi iki ştatı əhatə edir. 2001-ci ilin iyul ayının 14-də Dağlıq Qarabağda Mərkəzi yaradıldı);

3) Erməni Hüquqçular Assambleyası (Avropa ölkələri üzrə);

4) Erməni Ümumdünya Yevangelist Şurası (Avropa ölkələri üzrə);

5) Erməni Ümumi Xeyriyyə İttifaqı (mərkəzi Nyu-York, London. 2001-ci ilin iyul ayının 29-da Dağlıq Qarabağda şöbəsi yaradıldı);

6) Amerikanın Erməni Missioner Assosiasiyası (MDB ölkələri istiqamətində. 2001-ci ilin avqust ayının 3-də Dağlıq Qarabağda yaradıldı);

7) Amerikanın Erməni Milli Komitəsi;

8) Humanitar yardım göstərilməsi üzrə Şimali Amerika Erməni Cəmiyyəti (DQ-da 2001-ci il martın 3-də yaradılıb);

9) Erməni Apostol Kilsəsinin Şərqi Yeparxiyası;

10) Erməni Apostol Kilsəsinin Qərbi Yeparxiyası;

11) "Vartan cəngavərləri" (2001-ci ildə DQ-da rəsmi leqal qaydada fəaliyyətə başladı);

12) Erməni Apostol kilsəsinin Şərqi Yepiskopal İdarəsi;

13) Erməni Apostol kilsəsinin Qərbi Yepiskopal İdarəsi...

**Həmçinin, 1997-ci il yanvar ayının 7-də bu təşkilatların imzası ilə ABŞ "administrasiyasına", eks-prezident Uilyam Klintonun adına Dağlıq Qarabağla əlaqədar ciddi bir məktub da göndərilmişdi. 2001-ci ildə həmin məktub kiçik bir redaktə ilə ABŞ-ın yeni prezidenti Corc Buşun adına göndərilir. Məktubda yazılır:** "***... Cənab prezident!.. Dağlıq Qarabağın öz müqəddəratını təyin etmək hüququnun alternativi yoxdur. Əsas hüququ vəzifələri – seçim azadlığı olmadan möhkəm sülh ola bilməz. Özünə bu hüququ DQ xalqı ağlasığmaz qurbanlar bahasına qazanmışdır (?). Birləşmiş Ştarlar bu əsas hüquqdan dincliklə istifadə etməyə çalışan Qarabağ xalqının tərəfində durmalıdır.***

***Məhz həmin prinsiplə Birləşmiş Ştatlar köhnə xətt tutan, qoşunlara qarşı iqtisadi blokadanı genişləndirən və müntəzəm surətdə dəstəkləyən, birliyə kömək etməyən, Ermənistan və Dağlıq Qarabağ xalqının başına olmazın müsibətlər gətirən, irqçilik şüarlarından istifadə edən Azərbaycan hökumətinə haqq qazandırmamalıdır. ABŞ Konqresi Azərbaycan hökuməti tərəfindən təcavüz siyasətinin əleyhinə olduğunu bütöv bir sıra hallarda bildirmişdir. Hökumət Konqresin tutduğu prinsipial mövqeyi dəstəkləməlidir... Azərbaycana və regionun başqa ölkələrinə demək lazımdır ki, Dağlıq Qarabağın təhlükəsizliyi üçün yeganə təminat onun öz gələcəyini seçmək hüququdur...".***

Onu da qeyd edək ki, Amerikaya köçüb gedən və daimi yaşamaq üçün (90-cı illərdə) Amerika vətəndaşlığını qəbul edən ermənilərin sayı 80 min nəfər idi. 1999-2000-ci illərdə isə bu rəqəm 650-700 min nəfər olub. Bu da Ermənistan əhalisinin 20 faizini təşkil edir.

## TERROR DÜŞƏRGƏLƏRİ

Araşdırmalarımıza görə, Ermənistan Respublikasının daxili yazışmalarında, dövlət və hökumət məmurlarının imzaladıqları protokol və məruzələrdə, xarici ölkələrdəki diplomatik korpus və ticarət palatalarında, diaspor, kilsə və icmalarda keçirilən yığıncaqlarda həyasızlıq edərək işğal olunmuş Dağlıq Qarabağ ərazisi «müstəqil bir respublikanın-Dağlıq Qarabağ Respublikası»nın ərazisi kimi qeyd olunur («Azq» qəzeti. Yerevan. 2001-ci ilin oktyabrından 2002-ci ilin may nömrələrinədək).

Məlumata görə, bu siyasi kampaniya dərc olunmuş materiallar toplusu əsasında 2002-ci il fevralın 16-dan etibarən aparılır. Fevralın 27-də isə Ermənistan XİN-in mətbəəsində, «Dağlıq Qarabağ – müstəqil və yeni respublika» adlı altı dildə (erməni, ingilis, ərəb, fransız, fars və rus dillərində) 140 səhifəlik yeni bir kitab çap edilir. On min nüsxə ilə çıxan bu kitab Ermənistanın xaricdəki diplomatik korpuslarına göndərilib. Başqa bir məlumatda isə bildirilir ki, Yerevanda, bilavasitə ölkənin Təhlükəsizlik Şurasına tabe olan, Dağlıq Qarabağın bugünkü ictimai-siyasi, iqtisadi və coğrafi durumunu tədqiq edən «Dağlıq Qarabağ» adlı Strateji Araşdırma Mərkəzi yaradılıb. Bu strateji-siyasi qurumun 16 işçisi var və 2002-ci il martın 3-də təsis edilib. Analitiklərin yeddisi Ermənistanın xüsusi xidmət orqanlarından müxtəlif illərdə istefaya çıxmış yüksək rütbəli zabiti olub. Bu adamlar araşdırma mərkəzində kütləvi qırğın silahları və terrorizm məsələləri ilə məşğuldurlar (XİN-nin «Xüsusi bülleten»i. 19 mart 2002-ci il, səh. 4).

Ermənistan Strateji və Milli Araşdırmalar Mərkəzinin icraçı direktoru, professor Qrayr Hakopyanın fikrincə, «…burada qeyri-qanuni heç bir iş yoxdur. Biz, sadəcə, türklərin işğalı altında qalan torpaqlarımızı azad etmişik» («Səs». Kaliforniya erməni icmasının həftəlik qəzeti, 9 yanvar 2002-ci il).

Amerikanın Ermənistana olan iqtisadi və siyasi münasibəti çoxşaxəli bir strateji proqram əsasında həyata keçirilir. Ekspertlərin fikrincə, faktiki olaraq, Azərbaycan həm geoiqtisadi, həm də geosiyasi baxımdan, Amerikanın blokadasındadır. Bu məsələ Respublika Ticarət Nazirliyinin ekspertləri tərəfindən hazırlanıb və məxfi qrifi olan analitik hesabatda da öz əksini tapır. Hesabatdakı məsələlərdən birini Amerikanın «USAID» beynəlxalq humanitar təşkilatın xəttilə (Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyi) edilən yardımlar təşkil edir. Bütün bu

rəqəmləri Ermənistanla, Gürcüstanla müqayisə edəndə düşünməyə bilmirsən. Məsələn, Amerika bu humanitar təşkilatın xəttilə 1998-ci ildə Azərbaycana cəmi 34 milyon 291 min dollar ayırıb. 1999-cu ildə bu rəqəm azalaraq 23 milyon 840 min dollar olub. 2000-ci ildə 33 milyon 500 min dollar, 2001-ci ildə isə bu yardımın məbləği 26 milyon 480 min dollar təşkil edib. Müqayisə üçün Ermənistana olunan yardımlara nəzər salın. Amerika administrasiyası Ermənistana 1998-ci ildə 87 milyon 500 min dollar, 1999-cu ildə 79 milyon 900 min dollar, 2000-ci ildə 71 milyon 500 min dollar, 2001-ci ildə 92 milyon 680 min dollar… və nəhayət, 2002-ci ilin altı ayı ərzində 180 milyon 440 min dollar yardım edib. Məlumata görə, 2012-ci ildə isə bu yardımların məbləği üst-üstə 3,8 milyard 480 milyonda dayanıb. Yardımların təyinatı üzrə cədvələ nəzər salaq:

**a) 103 milyon dollar (2002-ci il mayın 13-də) Ermənistanın təhlükəsizliyinin təmin olunması məqsədilə;**

**b) 43 milyon dollar (2002-ci il iyunun 11-də) hərbi məqsədlər üçün;**

**c) 25 milyon dollar (2002-ci il iyunun 26-da) kütləvi qırğın silahlarının və narkotik maddələrin qaçaqmalçılıq yolu ilə daşınması əleyhinə keçirilən operativ tədbirlər üçün;**

**ç) 10 milyon 440 min dollar (2002-ci il iyulun 4-də) isə ölkənin kəşfiyyat və sərhəd xidmətinin gücləndirilməsi məqsədilə yardım edilib.**

Azərbaycanda isə bu rəqəm 357 milyon dollardan artıq olmayıb («Ekspert Evrazii» jurnalı, Moskva, 4 avqust 2001-ci il, «Novaya qazeta», Moskva, 20-26 may 2001-ci il).

On ildən sonra, yəni 2012-ci ildə bu rəqəm 3,5 milyarda çatdı. Bunun 1,8 milyard dolları erməni diasporu təşkilatlarına aid idi. Bu yardım onlar tərəfindən edilmişdi.

Amerikanın ermənilər tərəfindən işğal olunmuş Qarabağ ərazisinə, ümumən Ermənistan – Azərbaycan müharibəsinə münasibəti ilə bağlı «Rossiya i musulmanskiy mir» jurnalı belə bir açıqlama verir: «…Ermənistan-Azərbaycan münaqişəsinin amerikasayağı nizamlanması Azərbaycan üçün Dağlıq Qarabağı tamamilə itirilməsinə gətirib çıxaracaq və bu da Bakı üçün qəbuledilməzdir. Azərbaycan hələ də ABŞ tərəfindən "ticarətdə ən əlverişli imtiyazlar" ın ona verilmədiyi bir ölkədir. Belə ölkələrin siyahısına Vaşinqtonun strateji "düşmənləri" olan Şimali Koreya, Kuba, İran, İraq və b. daxildir. Beləliklə də, qeyri-rəsmi olsa da Azərbaycan ABŞ üçün "düşmən ölkələr"dən biri hesab edilir » (2002-ci il, №1, səh. 64).

Araşdırmalarımıza görə, Yerevan Vaşinqtondan aldığı 103 milyon dolların (2002-ci ilin mayın 13-də) 42 milyonunu ərazidə nüvə tədqiqatı

məsələlərinə sərf etməyi planlaşdırıb. Vaşinqtonun diktəsilə Yerevan 1999-2000-ci illərdə Dubna Nüvə Tədqiqatları Mərkəzindən və Yerevan Fizika İnstitutundan İran İslam Respublikasına işləməyə getmiş nüvə texnologiyası üzrə tədqiqatlarını aparan erməni alimlərinə regionda iş təklif edir.

2002-ci ilin iyununda 11 erməni alimi İrandan Ermənistana gəlib. Onların 4-ü (professor O.Ovquyan, B.Batum, S.Sərkisyan, Q.Petrosyan) işğal olunmuş Qarabağın strateji yüksəkliklərində elmi-tədqiqat mərkəzləri açıblar və maraqlıdır ki, Amerika ayrılmış yardımların təyinatları ilə hələlik maraqlanmaq istəmir. Ermənistanın nüvə silahları sorağında olması və bu istiqamətdə ilkin nəticələr əldə etməsi (Yerevan silah zavodunda nüvə başlıqlı güllələrin və mərmilərin istehsalına başlanılıb) bəziləri üçün xülyadan başqa bir şey deyil. Amma fakt və reallıqdan qaçmaq mümkün deyil.

## Separatçıların təhlükəsizlik konsepsiyası

Ermənistan XİN-nin məsləhətçisi, diplomat Arsen Kasparyan isə «Ermənistan-Rusiya Federasiyası: XXI əsrin strateji əməkdaşlığı» adlı simpoziumda (Moskva, 9 oktyabr 2000.) belə bir fikri açıqlayır: «... Rusiyanın Qafqazdakı ənənəvi müttəfiqi sayılan Ermənistan regionda xüsusi geosiyasi rol oynayır. Müasir zamanda, Ermənistanın Milli təhlükəsizliyi digər dövlətdə olduğu kimi yalnız öz daxili resursları hesabına əldə edilə bilməz. Hətta güclü potensialı olan hansısa bir müttəfiq dövlətin köməyilə də. Lakin buna dövlətin milli maraqlarının digər dövlətlərin və ən başlıcası həmsərhəd- regional lider dövlətlərin maraqları ilə uyğunlaşması şərtilə nail ola bilər. Bir çox erməni siyasətçilərinin hesab etdikləri kimi, bu gün Ermənistanın təhlükəsizliyinin yeganə təminatçısı onun şəxsi hərbi qüvvələri və ərazisində yerləşən Rusiya hərbi bazasıdır » («Nezavisimaya qazeta», Moskva, 17 oktyabr 2000-ci il, səh. 4).

Diplomat Arsen Kasparyan bunu da iddia edir ki, Ermənistan öz milli təhlükəsizlik konsepsiyasına yenidən baxmalı, onu RF-nin analoji adlı strateji sənədinə uyğun hazırlamalıdır. Diplomat A.Kasparyan fikirlərini yekunlaşdırarkən belə bir iddianı da irəli sürür ki, əslinə qalsa, qarabağlılar öz ərazilərini Rusiyanın ərazisi sayırlar. Çünki hələ 1813-cü ildə bu ərazilər İrandan qoparılıb Rusiyaya verilib. Bu ərazilər Rusiyanın maraq dairəsindən heç vaxt çıxmır (bu fikirlər tarixçi Aşot Manuçaryanın 1994-cü ildə söylədiyi fikirlərlə üst-üstə düşür).

Məlumata görə, RF FTX-nin başçısı, general Nikolay Patruşevin Yerevanda ölkə başçısı Robert Köçəryanla və Təhlükəsizlik Şurasının katibi, general Serj Sarkisyanla, Kəşfiyyat Departamentinin rəhbəri, general Karlos Ter-Petrosyanla görüşlərində də bu məsələ geniş şərh edilmiş, qərara alınmışdır ki, hər iki dövlətin nümayəndə heyəti Dağlıq Qarabağın İran İslam Respublikası ilə sərhəd zolaqlarını gəzsinlər. («İTAR-TASS». 25 iyul 2002-ci il).

Araşdırmalarımıza görə, erməni terroruna məruz qalmış torpaqlarımızın İranla sərhəd zolaqları Rusiya Sərhəd Qoşunlarının nəzarətinə verilə bilər. Ermənistanın Müdafiə naziri Serj Sarkisyanın 2002-ci ilin aprelində ABŞ-a səfəri zamanı Pentaqonun keçmiş şefi, general R.Ramsfeldlə də bu məsələ ilə bağlı söhbətlər keçirilib. Nəticədə Pentaqon Ermənistanın təhlükəsizlik məsələləri üçün 103 milyon dollar da ayırıb. Məlumata görə, Amerika administrasiyası işğal olunmuş ərazilərin (İranla sərhəd zolaqlarının) rus sərhədçilərinin nəzarətinə keçməsinə bu şərtlə razılıq verib ki, Amerikanın Yerevandakı səfarətxanasında kütləvi qırğın silahlarına və narkotik maddələrin qaçaqmalçılığına nəzarət edən xüsusi şöbə fəaliyyət göstərsin. Bu fakt da vurğulanır ki, həmin nəzarət qrupuna istənilən vaxt sərhəd məntəqələrində «yoxlama-baxış» reydlərini keçirmək səlahiyyəti də veriləcək.

İşğal olunmuş Qarabağla əlaqəli olan bütün siyasi gedişlərdə və açıqlamalarda Azərbaycan heç xatırlanmır da. Erməni terroruna məruz qalmış Qarabağ ərazisi Moskva-Vaşinqton-Yerevan-Tehran kontekstində həll olunur. Azərbaycanın ərazi bütövlüyü termini üstündən xətt çəkilir.

Məlumatlara görə, Qarabağ «yenidən qurulur». İşğal olunmuş ərazilərdə Azərbaycana məxsus bütün atributlar sökülüb dağıdılır, talan edilir. Ukrayna mütəxəssislərinin (18 nəfərdən ibarət mühəndis qrupu) iştirakı ilə Xankəndində uzunluğu 436 metr olan tank təmiri zavodu qurulub. Argentinadakı «Kilsə» erməni cəmiyyətinin yardımı ilə (21 milyon dollar) işğala məruz qalmış ərazilərdə hərbi məqsədlər üçün yollar çəkilir, körpülər qurulur. Məlumata görə, 2001-ci il dekabrın 23-də Ermənistanın Tarixi Abidələrinin və Sənət Nümunələrinin Mühafizəsi İdarəsinin rəisi Qarik Gürcyan və Dağlıq Qarabağ Tarixi Abidələr və Muzeylər İdarəsinin başçısı Serj Tatevosyanın «Armen press»ə verdikləri açıqlamalara görə, 2002-ci ilin mart-aprel aylarında İran mütəxəssislərinin (42 nəfər) bir qrupu regiondakı abidələrin bərpasına başlayıb və bu məsələnin 2015-ci ildə tamamlanması nəzərdə tutulur (ola bilsin bu iş 2020-ciilədək davam etsin). S.Tatevosyan bunu da vurğulayıb ki, Dağlıq Qarabağda «hər şey dəyişir, hər şey həqiqi

adını alır»… Buna qədər iranlı bərpaçılar Tehrandakı Tadevos və Sorsor erməni kilsələrini təmir ediblər. Təbrizdə isə 120 hektarlıq ərazidə yeni erməni kilsəsinin əsası qoyulub.

Araşdırmalarımızdan bu da aydın olur ki, işğal olunmuş Qarabağ ərazisində 2001-ci il sentyabrın 1-dən etibarən Yerevan-Tehran birgə müəssisələrinin əsası qoyulub. Məlumata görə, bu birgə müəssisələrin illik gəliri 4,5 milyarddan 5 milyard dolladək ehtimal olunur. Bu rəqəm ilkin olaraq 2014-cü ilin sonunda özünü göstərməlidir. Ərazidə neft və qaz boru kəmərlərinin, elektrik xətlərinin çəkilməsi üçün 24 milyon dollar vəsait ayrılıb. Bunun 16 milyon dolları İranın hesabınadır. 2002-ci il yanvarın 14-də bağlanmış rəsmi müqaviləyə görə, tərəflər belə bir razılıq əldə ediblər ki, Mehri rayonunda neft emalı zavodu tikilsin. Bunun üçün ümumi dəyəri 89 milyon dollar olan yeni tikintinin layihəsini də işləyiblər («Xəzər» jurnalı. Rəşt. 2002-ci il fevral, №7). Ümumiyyətlə, iranlı mütəxəssislər 2001-ci il oktyabrın 3-dən 2002-ci il mayın 19-dək Dağlıq Qarabağın Xankəndi, Şuşa, Əsgəran, Xocavənd ərazilərindən keçən, uzunluğu 186 km, dəyəri 48 milyon dollar olan yeni qaz kəmərinin çəkilişini başa çatdırıblar. Bu işdə iranlı mütəxəssislərə «Artsaxqaz» (Xankəndiqaz) Səhmdar Cəmiyyəti yardımçı olub.

İranla Ermənistan arasında qaz kəmərlərinin çəkilişi ilə bağlı iki bağlaşma imzalanıb – 1992-ci ilin avqustun 14-də və 1995-ci il iyunun 9-da. Bağlaşmaya əsasən, birinci qaz kəmərinin uzunluğu 110 km, ikinci kəmərin uzunluğu isə 140 km olmalıdır. İranla sərhədə qədər olan 120 km məsafə artıq tamamlanıb…

Ermənistan regionda öz strateji dairəsini genişləndirmək üçün beynəlxalq şimal-cənub dəmiryolu şəbəkəsinə qoşulmaq niyyətindədir. Maraqlıdır ki, bu strateji tədbirdə Ermənistana bilavasitə xarici ölkələrə səpələnmiş erməni diasporları yaxından yardımçı olur. Bu yolun həm iqtisadi, həm də siyasi əhəmiyyəti var. Regionda strateji-hərbi cəhətdən diqqətdən yayınmayan magistralın (İran-Rusiya-Azərbaycan yolu da adlanır) uzunluğu 355 km olacaq. İldə 260 milyon dollar gəlir verəcək bu yol Qəzvinlə Astaranı birləşdirəcək və yüklərin İrandan və Fars körfəzindən daşınmasını təmin edəcək.

# TORPAQLARIMIZ HƏRRACA QOYULUR

…Dağlıq Qarabağ və işğal olunmuş digər torpaqlarımız bu gün hərraca çıxarılır, icarəyə verilir. Məsələn, Kaliforniyada yaşayan erməni milyarderi Kirk Kirkoryan strateji məqsədləri həyata keçirmək naminə Laçın, Kəlbəcər, Şuşada yüz milyon dollarlıq torpaq aldı. Qondarma «respublika»nın «millət vəkilləri» Dağlıq Qarabağ torpaqlarının xarici ölkə vətəndaşları (şübhəsiz, ermənilər) tərəfindən asanlıqla alınıb-satılmasına zəmanət verdilər, qanun qəbul etdilər. Laçın-Kəlbəcər meşələrində isə «Nun» (Argentina), «Shnai» (Almaniya) özəl şirkətləri müasir silahlar üçün palıd və qoz ağaclarından qundaqlar, hərbi sursat üçün qutular və digər strateji materiallar hazırlayırlar. Təkcə Kəlbəcər faunasından ingilislərin heyvanxanaları üçün 36 adda nadir quş növü tutulub ki, bunun da dəyəri 51 min dollar olub (funt-sterlinq ödənilməyib). Çin alimlərinin Şuşa torpağında bitən 42 növ gül və kol nümunələrindən qan xəstəliklərini tədqiq etmək və vaksinlər, eləcə də digər dərman preparatları hazırlamaq üçün xüsusi strateji proqramları var. Maraqlıdır ki, bu proqramda həmin gül və kol nümunələrinin sahələri də nişan verilir. Florida ştatının antibiotik istehsalçısı olan «Bablumyan» şirkəti isə dərman preparatları hazırlayan «Kinrey» şirkəti üçün yüksək dəyərli dəmirağacı və küknar tozunu təklif edib.

Rusiya və Ermənistan isə işğal olunmuş torpaqların bir qismini icarəyə götürsə də, əslində heç bir icarə haqqı ödəmədən onları zəbt ediblər, necə dəyərlər, özəlləşdiriblər. Beləliklə, Dağlıq Qarabağda «nüvə zonası» deyilən ərazilər yaradıldı. Tikanlı məftillərlə hasarlanmış bu zonalarda həm Rusiya, həm də Ermənistan özlərinin nüvə qalıqlarını yerləşdirməklə məşğuldurlar. Ermənistanda qablaşdırılmış, üstündə «A-TOOZ» sözləri yazılmış xüsusi qutularda yola salınan nüvə tullantıları əvvəlcədən nəzərdə tutulmuş kəndlərdə qazılan xüsusi çalalarda basdırılır. Apardığımız araşdırmalara görə, artıq, Xocalı yaşayış ərazisinin şimal-qərb hissəsindəki Kolataq, Seyidbəyli və Almalı kəndlərinin həm faunası, həm də «iqlim zolağı» dəyişib. Ötən il təkcə Kolataqda Ermənistandan göndərilən nüvə tullantılarından ibarət 11 dəmir qutu basdırılıb. Seyidbəyli və Almalı kəndləri isə sözün əsl mənasında tikanlı məftillərlə əhatəyə alınmış «nüvə qəbiristanlığı»na çevrilib. Lakin ermənilər bununla kifayətlənmirlər. Digər bir məlumata görə isə, Rusiya nüvə tullantılarını (1998-ci ilin iyunun 12-dən etibarən öz nüvə tullantılarını Almaniyaya və Yaponiyaya satır) Dağlıq

Qarabağ ərazisində yerləşdirərsə o, bütün beynəlxalq hüquq normalarını pozmuş olur.

Məşhur politoloq, yazıçı Frankis Fukuyama (Yaponiya) bunlara işarə edərək «Zamanın sonu» əsərində yazır: «***...Dünyanın axırıdır, qardaş. Amma deyəsən, bir qisim dövlət qalacaq ki, onlar da dünyanın son işığınadək bir-biriləri ilə vuruşacaq... və bu vuruşmada onlar bilərəkdən Allahın və bəndənin acığına torpaqlara zəhər qatacaq, suları bulandıracaq, ağacları, gülləri yandıracaqlar... Bu da terrordur. Təbiətə qarşı, insanlığa qarşı, vicdan və əxlaqa qarşı terror. Bu terrora isə nə insanlıq davam gətirər, nə də təbiət... Yer kürəsini, zamanı məhv edən də elə bu terror olacaq...***».

Politoloq adını çəkməsə də, bunun nüvə terroru olmasına işarə edir.

## Regionda yeni təhlükə mənbələri

Ermənistanla Rusiya Federasiyası özlərinin milli təhlükəsizlik və kəşfiyyat sənədlərində işğal olunmuş Qarabağ ərazisinə nüvə bazası kimi baxır. Ermənistanın və RF-nin nüvə proqramlarında bununla bağlı ayrı bəndlər var. Ola bilsin, Moskva və Yerevanın kəşfiyyat sənədlərində qeyd olunan bu məsələ ilkin olaraq 2005-ci ildə reallaşsın. Araşdırmalarımıza görə, Ermənistanın nüvə proqramı 2000-ci il dekabrın 14-də qəbul edilib. Təhlükəsizlik Şurasının Yerevanda keçirilən iclasında bu proqramı hazırlayanların adları da açıqlandı – professorlar Q.Ter-Akopyan, K.Ter-Martirosyan, S.Avakyan, R.Saakyan, K.Alanakyan... Otuz altı maddədən ibarət olan bu strateji proqramda dörd yerdə – 12-ci, 14-cü, 19-cu və 26-cı maddələrdə işğal olunmuş Qarabağın adı çəkilir, ərazilərin bir qismi «nüvə zonaları»na ayrılır:

1. Kəlbəcər rayon ərazisi (cənub-qərb hissəsindəki Başlıbel yaşayış məntəqəsi);
2. Şuşa rayon ərazisi (cənub-qərb hissəsindəki Göytala yaşayış məntəqəsi);
3. Laçın rayon ərazisi (şərq hissəsindəki Micidərə, Malxələf, Aşağı Fərəcan yaşayış məntəqələrinin ərazisi).

Topladığımız strateji materiallardan bu da aydın olur ki, Ermənistanda nüvə başlıqlı silahların (Yerevandakı iki min işçisi olan, 2002-ci il aprelin 13-də işə fəaliyyətə başlayan silah zavodunu xatırlayaq) istehsalı və eləcə də Silahlı Qüvvələrin tərkibindəki «Skad» və «Tayfun» tipli nüvə başlıqlı raketlərin modernləşdirilməsi üçün kifayət qədər imkan var. Bir müddət

ABŞ MKİ-nin rəsmi sənədlərinə görə, «Uran-238» materialını qaçaqmalçılıq yolu ilə əldə edib DQ ərazisi ilə İrana və İraqa ötürən Yerevan bu gün özü nüvə texnologiyasına ehtiyac duyur. Bununla bağlı 2013-cü il yanvarın 10-da Yerevanda keçirilən Təhlükəsizlik Şurasında yeni məsələ müzakirə olundu. Təqribən 12 ildən sonra yenidən bu məsələyə qayıtmaları ermənilərin yeni «Müharibə taktika»sından xəbər verir.

Ermənilər iddia edirlər ki, «Metsamor» Atom Elektrik Stansiyasının hələ 15 il işləməsi mümkündür. Stansiyanın «B-230» mühərriki 30 il müddətinə hesablanıb və 2016-cı ilədək etibarlıdır (lakin bu mənbədən Araz çayına tökülən zəhərli kimyəvi birləşmələrin, tullantıların nəticəsidir ki, hövzədə qızılbalığın kökü kəsilmək üzrədir). Hesablamalara görə, bu stansiya 10 bal gücündə zəlzələyə davamlıdır. Lakin stansiyanın enerji bloklarında, artıq, çat əmələ gəlib və ətrafda şüalanmanın dərəcəsi artıb. Məlumata görə, təkcə ötən il Atom Elektrik Stansiyasında çalışan 14 işçi şüalanmadan ölüb, 26 nəfər isə Yerevan hərbi xəstəxanasında müalicə olunur. Odur ki, «Metsamor» Atom Elektrik Stansiyasına ərazinin enerjiyə olan tələbatını ödəyəcək enerji mənbəyi kimi deyil, nüvə materiallarını araşdırma mənbəyi kimi baxmaq lazımdır. Çünki Ermənistanın enerjiyə, yanacağa olan ehtiyacını həm Rusiya Federasiyası, həm İran, həm də Gürcüstan ödəyir.

Erməni politoloqu Armen Xanbabyan belə bir açıqlama verir: «…Bakı yenidən Erməni Atom Elektrostansiyası məsələsini aktuallaşdırdı. Azərbaycanda bu stansiyanın "ətraf mühit üçün təhlükəli" olmasını iddia edirlər. Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvü Gültəkin Hacıyevanın sözlərinə görə, Bakı bu məsələni Kənd Təsərrüfatı və Ekologiya üzrə Komitənin müzakirəsinə çıxarmağa çalışacaq. Azərbaycan deputatları avropalı həmkarlarının anlayışlı olmalarına güvənirlər, çünki "Avropa ekoloji problemlərə çox həssaslıqla yanaşır. Ancaq aydındır ki, bu ekoloji deyil, siyasi problemdir…» («Nezavisimaya qazeta», Moskva, 14 aprel 2002-ci il). Araşdırmalarımızın nəticələrindən biri belədir ki, həqiqətən «Metsamor»dakı Atom Elektrik Stansiyası bu gün ekoloji məsələ deyil, sırf siyasi məsələdir. 2001-ci ilin noyabr-dekabr aylarında ermənilərin Axalkalaki qruplaşmaları – «Pediani» üzvlərinin (Kvant fizikasından Tbilisi universitetində dərs deyən doktor Aşot Arakesyan və laboratoriya müdiri Ermik Sasunyan) başçılığı ilə Gürcüstanın Mtsexet yaşayış məntəqəsindən «Uran-238» materiallarının və tədqiqat üçün ayrılmış (əslində sınaq üçün) nüvə mühərriklərinin oğurlanması planlı şəkildə həyata keçirilir. Məlumata görə, ərazidən təqribən 2 kiloqram «Uran-238» materialı oğurlanıb. Üstəlik

Suxumi nüvə tədqiqatları mərkəzindən çox da böyük olmayan üç mühərrik aparılıb. Amerikadakı Beynəlxalq Məsələlər və Elm üzrə Belfer Mərkəzinin (Harvard Universiteti nəzdində) nüvə tədqiqatları üzrə məsləhətçisi Metyu Bann Gürcüstan ərazisindən oğurlanmış nüvə materiallarına işarə edərək yazır: «…Terrorçular bütün imkanlardan istifadə edirlər ki, bu materiallardan heç olmasa, bir qismini əldə etsinlər… Biz də bunun müqabilində bütün gücümüzü ortaya qoymalıyıq ki, onlar bu qırğın silahlarını ələ keçirməsinlər…» («Vaşinqton post» qəzeti. 3 iyun 2002-ci il. Müəllif Cobi Uorrik). Harvard Universitetinin «nüvə təhlükəsi» ilə bağlı MKİ-yə ünvanladığı hesabatda isə göstərilir: «***…Kim atom bombası üçün material axtarırsa, o, çalışıb tapacaq. Oğurluq yolla da olsa, tapacaq, qaçaqmalçılıq yolu ilə də olsa… Milli təhlükəsizlik naminə ciddi addımlar atılmalıdır…***».

«Nüvə laboratoriyaları», mühərriklər və nüvə texnologiyasının Gürcüstan ərazisindən oğurlanmış komponentləri Ermənistan ərazisindən kənara çıxarılmayıb. Nüvə materiallarının bir qismi Livan ermənilərinə satılıb. Həmin materialların bir hissəsinin «Həmas» terrorçu qrupunun əlinə keçməsi də həqiqətdir. «İslam bombası»nın hazırlanması da ehtimaldan çox reallıqdır.

Ermənistan nüvə tədqiqatçıları son iki ildə bu sahədə aktiv iş aparırlar. Məsələn, Rusiya ərazisindəki nüvə tədqiqatları mərkəzlərində çalışan erməni mütəxəssisləri istəyərlər ki, onların vətənində – Ermənistanda nüvə silahı yaradılsın, Ermənistan nüvə ölkəsi olsun. Çünki onların fəlsəfəsinə görə, Türkiyə və Azərbaycan bu istiqamətdə Ermənistana həmişə təhlükəli görünür. Məlumata görə, artıq, RF-nin müxtəlif institutlarında çalışan erməni alimlərinin bir qismi laboratoriyalarını Yerevana və yaxud Dağlıq Qarabağ ərazisinə köçürüblər. Məsələn, Kurçatov adına Fizika İnstitutunun nüvə mühərriki üzrə tədqiqatlar aparan mütəxəssisi L.Mikailyan, Nüvə Tədqiqatları İnstitutunun müəllimi G.Ter-Akopyan, Nəzəri Eksperimental İnstitutunun professoru R.Saakyan, Nəzəri Fizika və Eksperimental İnstitutunun müəllimi, doktor L.Ter-Petrosyan özlərinin tədqiqat laboratoriyalarını açıblar («İran» qəzeti, Tehran, 6 iyul 2001).

Araşdırmalarımıza görə, Yerevan Fizika İnstitutunun nüvə texnologiyası sahəsində tanınmış alim- tədqiqatçılardan N.Egiyan, K.Alananyan və Ə.Şərabyan Kəlbəcərdə nüvə və Kvant fizikası ilə mühərriklərin hazırlanması və nüvə enerjisi məsələlərilə məşğul olan «xüsusi laboratoriya»lara başçılıq edirlər. «Nüvə silahlarına nəzarət üzrə Viskonsin

proqramı»nın direktoru, doktor Herm Millolinin fikrincə, «… bu yerlərə, yəni nüvə tədqiqatı, alış-verişilə məşğul olan yerlərə strateji materiallar adətən (nüvə texnologiyasını nəzərdə tutur) RF-dən gəlir. Bu region nüvə qaçaqmalçılığına öz qapılarını geniş açıb…» («Nuclear Times» Nyu-York. 12 dekabr 2001-ci il, səh. 6) Amerika MKİ-nin keçmiş başçısı Corc Tenet isə dünyanı sarsıdan nüvə oğrularına müharibə elan edilməsini istəyib. Bu proqramın birinci mərhələsi 2012-ci ildə, ikinci mərhələsi isə 2022-ci ildə tamamlanmalı idi. Onun açıqlamalarına görə, Amerika Birləşmiş Ştatlarının qorxusu və ehtiyatı növbəti nüvə terroru ola bilər. Toplanmış kəşfiyyat materialları bunu deməyə əsas verir. Nüvə əleyhinə kampaniyanın sədri (İngiltərə) Kerol Noton isə qeyd edir: ***«…Müharibə – bu, cavab deyil. Silaha silahla cavab vermək düzgün addım deyil. Bu, yeni bin ladenlərin yaranmasına gətirib çıxaracaq…»*** (Eyni mənbə. K.Notonla müsahibə. 21 fevral 2002-ci il, səh. 9).

Araşdırmalarımıza görə, 2002-ci il martın 26-dan etibarən Ermənistan ərazisində «Hökumət və məxfilik» proqramı qüvvəyə minib. Bu strateji-siyasi proqramın açıqlanmasından iki gün ötmüş işğal olunmuş Dağlıq Qarabağ ərazisində də belə bir addım atılıb.

Xankəndinin kəşfiyyat zabiti O.Aleksandryan proqramın məzmunu haqqında belə bir açıqlama verir ki, məqsəd strateji obyektlərə, yazışmalara və erməni alimlərinin mikrobiologiya, kimya və nüvə tədqiqatları üzrə apardıqları araşdırmalara ciddi nəzarət mexanizminin qurulmasıdır. Onun fikrincə, bu mexanizm, artıq, qurulub. Məxfilik prinsipi isə bu mexanizmin əsasını təşkil edir.

Məlumata görə, Ermənistanda tətbiq edilən «Hökumət və məxfilik» proqramının məzmunu və mahiyyəti Amerika Alimlər Federasiyasının ölkənin MKİ-nin başçısı Corc Tenetə təqdim etdikləri layihənin əsasında yazılıb. Amerika alimləri belə bir proqram layihəsini hələ 2000-ci ildə Ağ Evə və MKİ-nə təqdim ediblər. Burada söhbət ölkənin nüvə texnologiyası ilə məşğul olan elmi-tədqiqat obyektlərinin, tədqiqat sənədlərinin qorunmasından gedir (BULL. OF THE ATOMIC SCIENTISTS – Chicago, 2000, Vol. 56, N-6, P. 25-29). Tədqiqatçı A.Lalayan daha sonra yazır ki, Yerevanda 2013-cü ildən başlayaraq təhlükəsizlik prinsiplərini əhatə edən konfransların keçirilməsi planlaşdırılır.

Əldə etdiyimiz məlumatlara görə, Yerevanın strateji mərkəzlərində tez-tez ölkə kəşfiyyatının zabitləri görünür, ayrı-ayrı şəxslərə ciddi nəzarət

qaydaları tətbiq olunur. Artıq, 2013-cü ilin bir ayı ərzində (may) strateji tədqiqatlarla məşğul olan 13 erməni alimi ölkədən çıxarılıb.

Professor Andrianik Lalayan «Armyanskiy vestnik» bülletenine verdiyi müsahibədə qeyd edir: «***...Ermənistan istəyir ki, strateji tədqiqat mərkəzlərində bürokratik məxfilik prinsiplərinə son qoysun. Həqiqi siyasi məxfilik kursuna keçsin. Bu, müharibə şəraitində olan Ermənistan üçün həmişə, hər vaxt lazım olan məsələdir...***» («Armyanskiy vestnik ». 26 may 2002-ci il, səh. 3).

2002-ci il aprelin 2-dən Ermənistan hərbi kəşfiyyat və əks-kəşfiyyat xidmətlərində «Post-14» adlı proqramın işlənməsilə bağlı SQ Baş Qərargahında xüsusi müşavirə keçirilib.

Ərazidəki nüvə tədqiqatları ilə məşğul olan elm adamlarının, analitiklərin qorunması məsələsi dayanır. Hərbi kəşfiyyat xidmətində (polkovnik S.Alaverdiyan), eləcə də hərbi əks-kəşfiyyat xidmətində (polkovnik O.Ambarsumyan) kütləvi qırğın silahlarına nəzarət bölmələri yaranıb.

Ermənistan Fizika Tədqiqatları İnstitutunun professoru (Ermənistan MEA Aştarak-2) Serj Ter-Avetisyan ölkə kəşfiyyatında aparılan belə bir islahatın Ermənistan, onun milli təhlükəsizliyi üçün «misilsiz... qiymətsiz bir addım olduğunu...» vurğulayıb.

Araşdırmalarımızdan məlum oldu ki, Ermənistanın nüvə tədqiqatçıları həm Rusiya, həm də İranlı həmkarları ilə ciddi elmi əlaqələr qurublar. Lakin əvvəllər müəyyən mərhələlərdə açıq görünən bu əlaqələr, indi daha qapalı və məxfilik prinsipləri əsasında həyata keçirilir.

## ERMƏNİ SEPARATÇILARININ YENİ İDDİALARI
*(əslində bu iddialar bir əsr bundan qabaq da olmuşdu)*

Ermənistanın Artaşest yaşayış məntəqəsində ermənilərin yeni «Çeqakron» təxribat qrupunun yuvası, artıq, qurulub.

Bu təşkilat Ermənistanda heç bir yerdə qeydiyyatdan keçməyən qeyri-leqal təşkilatdır. Heç bir beynəlxalq hüquq normalarına sığmayan bu təşkilatın məramnaməsində deyilir: «…Sizi (yəni, erməni gənclərini – V.S., *R.*V.) vuruşa çağırırıq. Hələ alınmayan qalalarımız, torpaqlarımız var. Alınmayan torpaq bizim deyil».

«Çeqakron» təxribatçı qrupun 2012-ci ilin mart ayında qızlardan ibarət qanadı da təşkil olundu. «…Onlar yaxşı güllə atır, mərmi qutularını daşıyır, minaatanların sirlərinə bələd olur, sürücülük edirlər». Bu sətirləri Livan jurnalisti Əbdül Saleh yazır. O, daha sonra qeyd edir: «Mən əlbəyaxa döyüşlərin qaydalarına oğlanlardan yaxşı riayət edən erməni qızlarını gördüm… Sonra mənə orada, sərhədin kənarında bir yeri nişan verib dedilər: «…Ora Sədərəkdir». Hazırda bu təşkilatın 11 min üzvü var.

Sədərək Şərurun mərkəzindən 27 kilometr Şimal-qərb istiqamətində Sədərək düzündədir. Sədərək düzü Arazboyu düzənliklərdən biridir. Cənub-şərqdə Vəlidağ və Dəhnə yüksəklikləri vasitəsilə Şərur düzündən ayrılır. Şimal-qərbdə isə Ararat (Ermənistan) düzənliyi ilə birləşir.

Ötən il Almaniyada Azərbaycanı öyrənən bir qrupun qeydlərində Sədərək camaatı Şotlandlarla müqayisə edilərək, göstərilirdi: «…Azərbaycanda comərd yerlər çoxdur. Sədərək (O Naxçıvandadır) həmin yaşayış məntəqələrindən biridir. Burada insanları tez qızışdırmaq olar. Çünki onlar hissə daha tez qapılırlar…».

Sədərəklə sərhəd zonasında yaradılmış «Çeqakron» təxribat dəstəsinə vaxtilə Xocavənd rayonunun «Amaras» kilsəsi yaxınlığında milis işçilərinə divan tutub, onları qətlə yetirən Hari Sarkisyanın yaxın qohumu, silahdaşı Vano Sarkisyan (ləqəbi «Beço»dur) başçılıq edir.

45 yaşlı Vano Sarkisyan 2 il İran İslam Respublikasında yaşayıb. Erməni icmasının başçısı Vartan Vartanyanla dostluq əlaqələri saxlayıb. Yüksək hərbi təlim görüb, bir müddət Rusiya sərhəd dəstəsində (1989-cu il) kəşfiyyat bölməsində çalışıb, oradan istefaya göndərilib. Sədərək barəsində xüsusi plan hazırlayan bu dəstənin Ermənistan MN-in xüsusi xidmət orqanları ilə iş planları da mövcuddur. Dəstədə MN üçün strateji əhəmiyyəti olan informasiyalar toplayan 6 nəfərlik «analitik qrup» da fəaliyyət göstərir. Bu qrupun öz mətbəəsi, çap avadanlığı var. Təqribən

*Tarix – müəllim deyil, nəzarətçidir, o heç vaxt heç nə öyrətmir, amma dərsləri bilməməyə görə həmişə cəzalandırır.*

*V.O.Klyuçevski*

# «XOCALIYA ƏDALƏT!» BEYNƏLXALQ KAMPANİYASI FOTOREPORTYORLARIN TƏQDİMATINDA








Cafeteria
m Neuen Palais
o-Do 8.00 Uhr bis 16.00 Uhr
Fr 8.00 Uhr bis 14.30 Uhr
* während der Vorlesungszeit
JUSTICE FOR KHOJALY



JUSTICE FOR
KHOJALY NOW
JOIN CAMPAIGN
OF JUSTICE
JUSTICE FOR KHOJALY
JUSTICE
FOR
KHOJALY


1992
ПРЕСТУПЛЕНИЯ
АРМЯНСКИХ ТЕРРОРИСТИЧЕСКИХ
И БАНДИТСКИХ ФОРМИРОВАНИЙ
ПРОТИВ ЧЕЛОВЕЧЕСТВА
(XIX-XXI вв.)
Краткая хронологическая
энциклопедия
THE PEOPLE THE WORLD FORGOT
KHOJALY
GENOCIDE:
VÖLKERMORD
VON
CHODSCHALI
FAKTEN
HINTERGRÜNDE
AUGENZEUGEN
PRESSEBERICHTE
DOKUMENTE
BERLIN 2007
Марк
МИЩИН
одна
из
историй
и антиисторий
КАВКАЗА


WELCOME to Corinthia Hotel, St. Petersburg




25.2.2011 03:41 AM


25.2.2011 04:26 AM












25.2.2011 03:12 AM


25.2.2011 03:35 AM


QARADAĞ RAYON İCRA HAKİMİYYƏTİ VƏ YENİ AZƏRBAYCAN PARTİY
"XOCALIYA ƏDALƏT" KAMPANİYASI: SİYASİ-HÜQUQİ QİY
ƏMƏKDAŞLIQ VƏ HƏMRƏYLİK ADLI BEYNƏLXALQ KONFR
INTERNATIONAL CONFERENCE CALLED "JUSTICE FOR KH
AND SOLIDARITY IN THE P
POWER OF GARADAGH DI
МЕЖДУНАРОДНАЯ КОНФЕРЕНЦИЯ "К
СОТРУДНИЧЕСТВО И СОЛИДАРНОСТЬ
СОВМЕСТНО ИСПОЛНИТЕЛЬНОЙ ВЛА


AZAD AZƏRBAYCAN RESPUBLİKASI
MÜSTƏQİL DÖVLƏT KİMİ BUNDAN SONRA
ƏSRLƏR BOYU YAŞAYACAQDIR.
HEYDƏR ƏLİYEV


ТОРГОВЫЙ


İstanbul Ulaşım
BİR DAHA
HOCALI
YAŞANMASIN
HOCALI İÇİN ADALET


JUSTICE FOR KHOJALY


CALI İÇİN
DALET!
İstanbulUlaşım
DÜNYA
BİR DAHA
HOCALI
YAŞANMAS
HOCALI İÇİN ADALE


JUSTICE FOR KHOJALY
JUSTICE FOR KHOJALY
JUSTICE FOR KHOJALY
JUSTICE FOR KHOJALY
JUSTICE FOR KHOJALY


HOCALI İÇİN ADALET!
BİR DAHA HOCALI YAŞANMASIN
HOCALI İÇİN ADALET
İstanbulUlaşım
İSTANBUL


посуда
сувениры
JUSTICE FOR
KHOJALY


BİR DAHA
HOCALI
YAŞANMASIN
HOCALI İÇİN ADALET
17-19 ŞUBAT
TAKSİM METROSU SERGİ SALONU
İstanbulUlaşım
İSTANBUL
BÜYÜKŞEHİR
BELEDİYESİ


JUSTICE
FOR
KHOJALY
СПРАВЕДЛИВОСТЬ ХОДЖАЛАМ
www.justiceforkhojaly.org


Prevention
Story










JUSTICIA PARA
KHOJALY


РЕГИСТРА


СЛУХОВЫЕ АППАРАТЫ
JUSTICE FOR KHOJALY
JUSTICE FOR KHOJALY




JUSTICE
FOR
Sarajevo '84


.org




TRG
DJECE SARAJEVA
UNIQA
Raiffeisen BANK


JOIN CAMPAIGN
OF JUSTICE


radimo vikendom


JOIN CAMPAIGN
OF JUSTICE
www.justiceforkhojaly.org
26.02.92
JUSTICE FOR KHOJALY




QARABAĞ
GARABAGH








ОБСЄ
Координатор проектів ОБСЄ в Україні
OSCE




ОБСЕ
OSCE


JUSTICE FOR KHOJALY
www.justiceforkhojaly.org
STOP ARMENIAN
I want
CRUELTY


KHOJALY
IN THAT WE
NOT FORGET
STOP
ARMENIAN


SUPPORTING ARMENIA
=
SUPPORTING TERRORISM
SUPPORTING ARMENIA
=
SUPPORTING TERRORISM
JUSTICE FOR KHOJALY
Armenians made


I want
to go home
to Karabakh
JUSTICE
FOR
KHOJALY
www.justiceforkhojaly.org
SUPPORTING ARMENIA


Симферополь
Харьков
STOP
ARMENIAN
Nice
www.justiceforkhojaly.org


НАУЧНО-ПРАКТИЧЕСКАЯ КОНФЕРЕНЦИЯ
"СПРАВЕДЛИВОСТЬ ХОДЖАЛАМ"
ОРГАНИЗАТОРЫ
25 февраля, 2011 г. начало в 18:30
контактные телефоны: 717 3690, +7 951 640 6459


НАУЧНО-ПРАКТИЧЕСКАЯ
ОРГАНИЗАТОРЫ


НАУЧНО-ПРАКТИЧЕСКАЯ КОНФЕРЕНЦИЯ
"СПРАВЕДЛИВОСТЬ ХОДЖАЛАМ"


«Ходжалинский геноцид, направленный против всего азербайджанского народа, по своей неописуемой жестокости и бесчеловечным методам наказания является актом злодеяния в истории цивилизации. В то же время этот геноцид является историческим преступлением против всего человечества».
Гейдар Алиев
NO MORE GENOCIDES






















Justice for Kho
XOCALI
İRƏLİ
Xocalıya ədalət


XOCALI









Kampaniya davam edir. Məqsədimiz Xocalı hadisələri barədə dünya ictimaiyyətini məlumatlandırmaq və beynəlxalq-hüquqi müstəvidə tanınmasına nail olmaqdır.

Leyla Əliyeva
Heydər Əliyev Fondunun
vitse-prezidenti

1500 kv. metr ərazidə salınmış təlim düşərgəsində isə dərslər aşağıdakı proqramla keçirilir:

a) Silahlardan istifadə qaydaları;

b) Əlbəyaxa döyüş növləri;

c) Partlayıcı maddələrin hazırlanması və istifadəsi;

ç) Naxçıvanda strateji mərkəzlər.

Sədərək Naxçıvanın ən kövrək hissəsidir. Düşmən bu yaşayış mərkəzi üçün harın nəfsini heç vaxt gizlətmir. Kaliforniya ştatının Beverli-Hills şəhərində «Armeniya fond ink» – şirkətinin Dağlıq Qarabağa yardım adıyla keçirdiyi marafondan topladıqları 2,3 milyon dolların 28 faizi məhz Sədərək istiqamətindəki təxribatlar üçün ayrılmışdı.

Hələ 4 il bundan qabaq Rusiyadan alınan silahların, hərbi sursatın bir hissəsi də Sədərək zolağına daşınmışdı.

Rusiya Federasiyasının ordu generalı Mixail Kolesnikov 13/3/0220 saylı şifroteleqramda yazırdı: «…Öz adımızdan Sizə (yəni, öz nazirliyinə – ***V.S.,*** *R.V.*), Ermənistan Müdafiə Nazirliyinə 55 «T-72» tank verməyinizi əmr edirəm…».

Həmin tanklardan 9-u hazırda Sədərək istiqamətinə «gətirilib», özünə yer tutub. «Çeqakron» həmin tanklardan istifadə qaydalarını öyrənir. Rus «müşavirləri» isə bu tankların atıcılıq qabiliyyətindən, uzaqvuran mərmisindən, sürətindən həvəslə söz açırlar. Sədərək istiqamətində qurulmuş təxribat yuvalarının hamısı bir nöqtədən idarə olunur. Ermənistan dövləti həmin təxribatçı dəstələrini nə qeydə alır, nə də onları nəzərdən kənarda qoyur.

Sədərəkin şimal hissəsində yerləşdirilmiş «Araz» qrupu iki bölmədə (hər bölmədə 6 nəfər) hazırlıq keçir. Qrupa keçmiş «KQB» mayoru Alik Baqramoviç Gevorkov başçılıq edir. O həm də «Seyran» adı ilə tanınır. Alik Gevorkovun əmisi vaxtilə Bakıda sərhəd dəstəsində, sonra Mərkəzi Aparatda çalışıb.

«Seyranın məktəbi»ni Artaşsatda az adam tanıyır. Çünki qapalı olan bu məktəb həm də ciddi nəzarət altındadır.

Sədərəkdə baş verən gündəlik hadisələr, psixoloji vəziyyət haqqında, Türkiyə ilə strateji və iqtisadi əlaqələr barədə informasiya toplanılır.

Onu da qeyd edim ki, 1998-ci ildən «Seyranın məktəbi»ni bitirən cavanların bir neçəsi oxumaq üçün Rusiyanın kəşfiyyat məktəblərinə – Moskva ətrafındakı qısa kurslara göndərilir.

Ararat yaşayış məntəqəsində 1998-ci ilin oktyabr ayında özəyi qurulmuş «Sədərək» təxribat qrupu isə daha ciddi proqrama malikdir. 14 (əsas qüvvə)

nəfərlik «Sədərək» təxribat mərkəzinə 1947-ci ildə Şuşada doğulmuş Alo Aramoviç Babayan adlı birisi rəhbərlik edir. O, vaxtilə Laçın rayonunda «Ermənistan müqavimət hərəkatı»na başçılıq edənlərdən idi. Alo Babayan Laçında, arxa cəbhədə xeyli qanlı cinayətlər törədib.

Onun «Sədərək» adlı vərəqəsində yazılır: «Laçına birinci biz girmişdik. Onda Laçında sakitlik idi. Adamlara tez qaynayıb-qarışdıq. Laçının ilk hərbi gücü, əsgərlərin döyüş qabiliyyəti, adamların həyəcan və təlatümü… haqqında topladığımız məlumatlardan mərkəz (Yerevan – V.S., *R.V.*) geniş istifadə edirdi. Laçında rahat yaşayırdıq. Tapşırılan işi rahat görür, əlaqələrimizi qururduq. Sədərəkdə də Laçın variantına əl atmaq daha yaxşı nəticələr verəcək…».

«Sədərək» qrupunun üzvləri Livandan, Fransadan, Suriyadan, İrandan, Rusiya və Amerikadan olan erməni icmasının nümayəndələrilə gizli görüşlər keçirirlər. Alo Babayanın «Laçından sonra Sədərək» adlı xatirələrini Fransada yaşayan ermənilər həvəslə çap edib yaydılar.

O, yazır: «Bizimkilərdə (öz qrupunu nəzərdə tutur – V.S., *R.V.*) Naxçıvanı parçalamaq üçün, onu hissə-hissə iflic və məğlub etmək üçün hər cür imkan var. Sadəcə, əmr gözləyirik… Mən Sədərəyi qana bələnmiş, dağılmış və parçalanmış, dilənçi kökündə görəcəyəm».

A.Babayanın başçılıq etdiyi təxribat dəstəsindəki «Sədərək müxalifəti ilə iş qrupu»nda 4 nəfər çalışır. Bu adamlar vaxtilə Sədərəkdə yaşayıb, işləmişlər.

«İqtisadi kəşfiyyat» qrupu isə bilavasitə Ermənistan Gömrük Komitəsi tərəfindən maliyyə yardımı alır və toplanmış iqtisadi informasiyalar, iqtisadi araşdırmaların nəticələri onlara ötürülür. Bu qrupa 1952-ci ildə Yerevanda anadan olmuş Armik Ağayaroviç Adamyan başçılıq edir. O, az müddət Ermənistan Təhlükəsizlik Xidmətində çalışıb. Sədərək istiqamətində görüləcək təxribat planları, şübhəsiz, onun adı ilə bağlıdır. O, ötən ilin mart ayında Artsvanik kəndindəki əsir düşərgəsinə baş çəkmiş, azərbaycanlı əsirlər arasında erməni dilini mükəmməl bilən adamların siyahısını tərtib etmişdir. Xatırladaq ki, Artsvanikdəki əsir düşərgəsində cəza üsulları daha ağır və işgəncəlidir.

1999-cu ilin aprel ayından isə Armik Ağayaroviç Fransa ermənilərinin yardımı ilə qısa kurslar təşkil edir. Fransa xüsusi xidmət orqanlarının məxfi nümayəndələri bu kurslarda iştirak etmiş əsirlərdən «ən layiqli olanlarına» yaxşı həyat vəd edərək özləri ilə aparmışlar. Bu işin arxasında gələcək üçün nələr planlaşdırıldığını anlamaq o qədər çətin deyil.

Erməni təxribat mərkəzinin qarşılarına qoyduqları məqsədlərdən biri də narazı qalan təbəqənin arasına yol tapmaq, onları indiki hakimiyyətə qarşı qaldırmaq, giley-güzarlı, iqtisadi durumu çətin olan şəxslərə nüfuz edib sarsıtmaq, yeri gələndə onlardan istifadə etmək kimi prinsipcə adi görünən, lakin dərin ictimai kökləri olan, faciələrə aparıb çıxara bilən məsələlərdir.

Şübhəsiz, Sədərək camaatını belə fitnələrlə sındırmaq, əzmək, fikirlərini dolaşıq salıb sarsıtmaq çətin məsələdir. Bu yolda sədərəklini həqiqi sədərəkli kimi möhkəm və bükülməz görməyi qarşılarına məqsəd qoyan, onları mənəvi aşınmalardan, inamsızlıqdan və imkansızlıqdan qoruyan Bakıdakı «Sədərək» cəmiyyəti az iş görmür. Amma nə etmək olar ki, düşmən məkrindən əl götürmür. Son dərəcə ehtiyatlı olmaq lazımdır.

İndi Sədərək daha ağır bir qüvvə ilə üz-üzə dayanıb. Bu da sərhəd məntəqəsi zonasında ermənilərin yaratmağa səy etdikləri «Naxçıvan korpusudur». Şübhəsiz, belə bir korpusun yaranmasının ilk xeyir-duasını elə Ermənistan MN-in Baş Qərargahı verib…

Bu korpusdan əvvəl isə ermənilər özlərinin «Naxçıvan icması»nı təşkil etdilər. «Naxçıvan icması»nın «həmvətənlərə» müraciətində deyilir: «…Biz öz icmamızı yaratdıq. Vətənə, ata-baba ocağına dönmək üçün, sönmüş ocaqlarımızı, əcdadlarımızın soyumuş məzarlarını isitmək üçün, yenidən alovlandırmaq üçün «Naxçıvan» adlı bir icma yaratdıq! «Naxçıvan icması». Naxçıvan ermənilərinin ata-babalarının doğulduğu tarixi torpaqlarında yaşamaq haqqını bərpa etmək üçün də mübarizə aparacağıq. Biz dini-sitayiş ocaqlarına sərbəst gedib-gələcəyik».

Bu icmanın beşiyi Yerevandır. İlk laylası da orada çalınıb. İcma üzvlərinin yaxasında Naxçıvanı əks etdirən döş nişanı var. «Naxçıvan» adlı qəzetin ilk nömrəsi də çapdan çıxıb. İcmanın özünəməxsus Şurası təşkil edilib. Ermənistanda ictimai-siyasi xadim kimi tanınan Rafael Ambarsumyan Şuraya başçı seçilib. Akademik Lanser Aqolovyan, Lendruş Xurşudyan, Yuri Xocəmiryan, Sos Sərkisyan kimi tanınmış adamlar Şuraya üzv olublar.

Bu icma onu da qeyd edir ki, onlar BMT-nin İnsan Hüquqları Deklarasiyasına, əsasən qaçqınların, deportasiya edilən şəxslərin daimi yaşayış yerinə qaytarılması haqda beynəlxalq qurumların qəbul etdiyi sənədlərə uyğun Naxçıvan ermənilərinin haqlarını müdafiə etmək niyyətindədirlər.

«Naxçıvan icması» yarandığı gündən dövlət orqanları, o cümlədən, xüsusi xidmət orqanları öz proqramlarında müəyyən dəyişiklik etdilər. Fevral ayında (1999-cu il) bu icmanın erməniləri müdafiə məqsədilə

«Naxçıvan» adlı hərbi qanadı yaratdılar. Vaxtilə Hərbi Dəniz Donanmasında işləmiş (Pribaltika) polkovnik Rum Avanesoviç Kazaryan adlı birisi bu hərbi qanada başçılıq edir. Bura vaxtilə Əfqanıstanda, Qarabağda xidmət etmiş, hərbi hazırlıq keçmiş şəxslər daxil edilir. Bu «könüllü dəstə»lər üçün Sədərəkin şərq hissəsində onlar üçün təlim-məşq zonasının da yaradılması planlaşdırılır. Hərbi qanadın yeddi nəfərdən ibarət iki qrupu Rusiya, Fransa, İran erməni icmaları ilə ilkin əlaqələr yaratmaq üçün oraya müntəzəm ezam olunurlar.

«Naxçıvan» hərbi qanadının üzvlərinin Rusiya xarici kəşfiyyat xidmətinin rəhbərlərilə məxfi görüşləri də maraq doğurmaya bilməz.

«Naxçıvan korpusu» ilk yardımı artıq Ermənistan MN-dən aldı. Korpusun hərbi qüvvə kimi təşkilatlanması üçün 10 müxtəlif zirehli maşın, 10 «T-72»tankdan ibarət iki bölmə, əlavə olaraq, radiotelefon avadanlığı verilmiş, avtomobil xidməti bölməsi xəritələrlə təmin edilmiş, tibb məntəqəsi yaradılmışdır.

«Naxçıvan korpusu»nun özünün əlavə «Azərbaycan müxalifəti qrupu» var. 8 nəfərdən ibarət bu qrupun üzvləri Azərbaycanın siyasi partiyalarında, cəmiyyət və təşkilatlarında siyasi-psixoloji durumları araşdırır, təhlil edir, məqsəd və məramlarını öyrənirlər. Korpusun üzvləri müxalifət dəstələrində özlərinə «yaxınlaşanlarla» ciddi maraqlanır və bu yolda yeni hərbi-siyasi planlar işləyirlər.

Elə bilirik ki, bütün bu hadisələrə tarixi baxımdan yenidən nəzər salmaq lazımdır. Naxçıvan iddiası bir əsr bundan əvvəlki iddianın davamı olaraq qalır. O vaxt Şərur-Dərələyəz-Zəngəzur, Naxçıvan bölgəsinə tamah salan erməni separatçıları bu gün də eyni ssenarini ortaya qoyublar.

1919-cu ilin noyabrın 23-də ABŞ diplomatiyasının səyilə Azərbaycan-Ermənistan arasında saziş imzalanır. Sazişi Azərbaycan tərəfdən Hökumətin başçısı N.Yusifbəyli, Ermənistan tərəfdən Nazirlər Şurasının sədri A.Xatisyan, ABŞ nümayəndəsi C.Rey, Gürcüstan XİN E.Gegeçkori imzaladılar (Bax: Azərbaycan Mərkəzi Dövlət Yeni Tarix Arxivi, f. 970, siy. 1, iş 190, v. 9).

Nəticədə separatçı erməni dəstələri şərtləri pozaraq Zəngəzurun, Dərələyəz mahalının dinc müsəlman əhalisinə divan tutdu. Minlərlə dinc əhali «genosid maşını»ndan keçirildi. Ərazidəki 94 nəslin kökü tamam məhv edildi, güllələbaran olundu.

Fikirlərimiz aydın olsun deyə, bir az əvvələ qayıdaq.

Erməni separatçılarının Naxçıvan iddiaları hələ də səngimir. 2004-2012-ci illər ərzində Ermənistan Naxçıvanla bağlı tarixi saxtalaşdıraraq 128 adda

irili-xırdalı kitab buraxıb. Onlar bu iddiada yenə də Londonu, Vaşinqtonu axtarıb, tapıblar.

Qeyd etməliyik ki, Ermənistan hökuməti, daxili və xaricdəki erməni iş adamlarının maliyyə dəsdəyi ilə Azərbaycan əleyhinə təbliğata xüsusi əhəmiyyət verir. Ayrı-ayrı dövlətlərdə, xalqlar, millətlər arasında Azərbaycanın əleyhinə qara piyar kampaniyasını intensiv surətdə davam etdirir. Böhtan və iftiralarla dolu yazdıqları və yazdırdıqları kitabları müxtəlif dillərə tərcümə etdirib təbliğat, təşviqat vasitəsi kimi yayırlar. Xarici KİV-lərdə, telekanallarda, internet şəbəkələrində ya özlərindən, ya da ki, qeyri millətlərdən olan nümayəndələrini yerləşdirir, maliyyələşdirir və onlardan Ermənistanın xeyrinə materiallar yazdırırlar. Məzlum, əzabkeş, haqları tapdalanmış bir millət kimi özlərini təqdim edir və dünya ictimai fikrini çaşdırmağa çalışırlar. Bu yolla xarici dövlətlərdən dəstək almaq üçün ağına-bozuna baxmadan hər şeyə əl atırlar.

Artıq informasiya "müharibəsində" əvvəlki illərdən fərqli olaraq xeyli irəliləyiş var. Bu təkzibedilməz faktdır. Lakin keyfiyyət və kəmiyyət baxımından işlərimiz bir daha nəzərdən keçirilməli, fəaliyyətimizin səmərəliliyini artırmaq üçün bütün mövcud imkanlardan maksimum istifadə etməliyik. Bu gün ölkəmiz buna qadirdir.

"Xocalıya Ədalət!" Beynəlxalq Təbliğat və məlumatlandırma kampaniyası 5 illik fəaliyyəti dövründə dünya ictimai fikrinin ölkəmizin xeyrinə formalaşmasında həyata keçirdikləri tədbirlərin müsbət nəticələri buna ən yaxşı nümunədir.

# «DAİRƏ» – EKOLOJİ FƏLAKƏTİN ERMƏNİ PLANI

Elektron poçtu kəşfiyyatın tərkib hissəsi olduğundan ABŞ təhlükəsizlik xidməti bu istiqamətdə, ümumiyyətlə, internet şəbəkəsində ciddi rejimə keçdi. Çünki ölkədə baş verən son terror aktlarının törədilməsində Harvard Universitetinin Strateji Araşdırmalar və Tədqiqatlar Mərkəzinin məlumatına görə, dünyanın münaqişəli zonalarında, o cümlədən işğal olunmuş və nəzarətsiz qalan Dağlıq Qarabağ ərazisində fəaliyyət göstərən şirkətlərin demək olar ki, hamısı təbii sərvətlərin daşınması istiqamətində «Xüsusi Proqrama» malikdir.

Diplomat, Milli Təhlükəsizlik Agentliyinin analitiki cənab Styuart Beykerin fikrincə, elektron poçtları və eləcə də onun büroları ciddi nəzarətə götürülməlidir. Çünki elektron poçtları ekoloji sahədə fəaliyyət göstərən terrorçuların hərəkət dairələrinin genişləndirilməsi, qaçaqmalçılıq, silah və narkobiznes məsələlərində… nüvə materiallarının çıxarılmasında və oğurlanmasında ən etibarlı mənbədir, daha dəqiq desək, «elektron xəritə»dir…

FTB (ABŞ) ölkənin əsasən strateji mərkəzində fəaliyyət dairələrini genişləndirən informasiya mərkəzlərinə və elektron poçtlarına nəzarət üçün «Garnivar» adlı kommunikasiya-nəzarət sisteminin tətbiqinə keçib.

Elektron poçtlarının büroları texniki sisteminə görə, əsasən regionun və yaxud ərazinin strateji nöqtələrinə görə bütün qütblərində yerləşdirilir.

2005-ci ilin dekabr ayının 13-də («İravunk» qəzeti, dekabr) Ermənistan MN-də elektron və telekommunikasiya məsələləri ilə bağlı yığıncaqda nazirliyin kəşfiyyat bölməsində aparıcı zabitlərdən olan polkovnik Artur Ağabekyan Azərbaycan və Türkiyə istiqamətində qurulacaq kəşfiyyat kommunikasiya sistemindən geniş danışır və bu istiqamətdə amerikalılardan öyrənməyə çağırırdı. Mövcud olan mexanizm ərazilərimizin təbii sərvətlərinin daşınması və talanı üçün ən sərfəli iş metodu idi.

Bu həm də ermənilərə ciddi məsələnin bir neçə mərhələdə həyata keçirilməsi üçün şərait yaratdı. Kəşfiyyat polkovnikinin fikrincə, bu nazirlik elektron mərhələsini üç etapda başa çatdırmalıdır:

1. «DQP»-də (?) təbii sərvətləri nəzarətə götürmək;
2. Xarici şirkətlərin cəlb olunması;
3. Təbii sərvətlərlə bağlı elektron poçt yazışmalarını təşkil etmək.

Digər tərəfdən, Türkiyə və Azərbaycan, işğal olunmuş DQ sərhədlərində hərbi mövqelərini möhkəmləndirən beşinci ordu korpusu komandanı, polkovnik Aykaz Bəhmənyana, birinci ordu korpusu komandanı, polkovnik Levon Eronosyana, ikinci ordu korpusu komandanı, polkovnik Seyran Saroyana təbii sərvətlərlə bağlı strateji informasiyaların toplanmasında və işlənməsində komandanlığın tərkibindəki elektron poçtlarının şəbəkəsinin genişləndirilməsi işi tapşırılır. Azərbaycan və Türkiyə istiqamətində qurulan elektron mərkəzlərinə də nəzarəti bilavasitə müdafiə naziri, general Serj Sarkisyan edir. Bu məqsədlə, yəni elektron kəşfiyyat məsələlərinə dərindən bələd olmaq üçün bu ilin aprel-may aylarında Yerevandan və Xankəndindən ayrılmış 56 nəfərlik zabit qrupu RF-ə, Çin Xalq Respublikasına, İrana, Livan və Suriyaya gedib (?). İyun ayının 19-da (2004-cü il) isə Amerika Erməni Demokratik Şurası (Armenian-American Democratic Leadersir Counsil) tərəfindən (cənab M. Axdesyanın qrupu) Dağlıq Qarabağın «özünümüdafiə dəstələrinə» (?) 30 adda müxtəlif kompüter və elektron avadanlığı «hədiyyə» edilib (?). Və səkkiz nəfər mühəndis qrupu da Ermənistanın Türkiyə və Azərbaycan sərhədləri istiqamətində həmin elektron avadanlıqlarının quraşdırılmasında, elektron poçtlarının qurulmasında iştirak ediblər.

*Maraqlı faktlardan biri də budur ki, hələ 2000-ci il sentyabr ayının 25-də Ermənistanda olan Roma papası II İohann qondarma DQ respublikasının başçısı Arkadiy Qukasyana ordunun İnternet şəbəkəsindən geniş istifadəsini, eləcə də dünyadakı erməni diasporları arasında qurulacaq elektron poçtlarının genişləndirilməsini tövsiyə edir. Bu barədə geniş şərh verən «Osservatore romano» («I Osservatore Romano») qəzeti 2001-ci il sentyabr ayının 28-də nəşr etdiyi nömrəsində yazır: «… Roma papası II İohann Ermənistanın Türkiyə ilə həmsərhəd rayonu ərazisindəki Xor-Viran monastırına getdi və çıxışında bildirdi: «Vatikan hökmən erməni Qriqoryan kilsəsi ilə bütün əlaqələri genişləndirməli və möhkəmləndirməlidir».*

*Roma Papası, həmçinin, Dağlıq Qarabağ ərazisində missionerlərin geniş fəaliyyəti üçün internet elektron şəbəkələrindən geniş istifadə edilməsini tövsiyə etdi. Sonra Vatikanda erməni səfiri olan Eduard Nalbandyan papaya Dağlıq Qarabağda – Şuşada və Xocalıda aparılan vuruşmalardan bəhs edən yeni kitabları hədiyyə verdi»… (?)*

Ermənistanın Azərbaycan istiqamətində planlaşdırdığı «elektron hücumu»nda «Qütblərdə strateji məntəqələrin müəyyənləşdirilməsi və həmin dairələrdə elektron poçtların – büroların yaradılması» məsələsi əsas

yerlərdən birini təşkil edir. Bu məqsədin planlı və ardıcıl surətdə həyata keçirilməsi üçün erməni kəşfiyyatı təkcə «daxili resurs»larla deyil, eləcə də xaricdəki erməni diaspor mərkəzləri ilə də əlaqələrini genişləndirirlər.

Məsələn, Fransa, Suriya, Yerevan və Xankəndində güclü əlaqələri olan, Tehranda (İran) kök salmış «Akopyan» erməni firmasının nəzdindəki internet şəbəkəsinin, elektron poçtu və rabitə-kommunikasiya mərkəzinin Təbrizdə, Ərdəbildə, Culfada, Biləsuvar və Parsabadda yaradılmış bürolarını araşdıraq. Bilavasitə İrandakı erməni diasporu ilə işbirliyi quran «Akopyan» firmasının geniş texniki imkanlara malik olması və bu imkanların Azərbaycan istiqamətində yönəlməsi araşdırılması vacib olan məsələ kimi diqqətdən yayınmamalıdır. Həmçinin, bu bürolarda qurulan və Azərbaycanın sərhədləri istiqamətində «start» götürən güclü «Armenia» ötürücüləri, elektron poçtları Astara-Lənkəran, Biləsuvar-İmişli bölgələrini asanlıqla əhatə edir, Dağıstan ərazisində fəaliyyət göstərən və eləcə də öz emissar-müxbirlərini «Araz» erməni cəmiyyətində (Mahaçqala, Şamil küçəsi – 14) təlimatlandırılıb şimal rayonlarına – Şəki, Zaqatala, Balakən, Qusar… ərazilərinə istiqamətləndirən ***ermənilər elektron poçtlarının bir qismini ayrı-ayrı şirkət və firmaların (neft şirkətləri həmçinin), insan hüquqlarının müdafiəsini «təmin edən» cəmiyyətlərin, beynəlxalq xeyriyyə təşkilatlarının, KİV-in nəzdində asanlıqla qura bilərlər.***

***Ermənilərin kəşfiyyat prinsipləri əsasında qurduqları «Azərbaycan ərazisindəki elektron poçtları»nın vəzifələrindən birini də, əsasən müxalifət mətbuatı vasitəsilə böhtan, tələb və təkid məzmunlu məktubların, xəbər və məlumatların göndərilməsi təşkil edir.***

Avqust ayının 9-da Xankəndində ermənilərin lideri Arkadiy Qukasyanın yanında keçirilən hərbi müşavirədə isə (2001-ci il, VII-9, saat 18:00-da) Kaliforniya ştatının (ABŞ) keçmiş qubernatoru Edvard Ceresyanın məktubu oxunur. Milyonçu erməni Edvard Ceresyanın dediyinə görə, Kaliforniyada erməni diasporunun müstəqil «Artsax» (Xankəndi) bölməsi yaradılıb və bu bölmənin də fəaliyyəti Xankəndinin ordu quruculuğuna yardımdan ibarət olacaq (?).

Ermənistan avqust ayının 2-də (2001-ci il) RF-nin FTX-nin nəzarətində olan «Qafqaz informasiya əməliyyatlarına qoşulmaq üçün müraciət edib. Avqust ayının 4-də isə (2001-ci il) Xankəndində də belə bir müraciət eyni ünvana daxil olub. Rusiya Federasiyasının Təhlükəsizlik Şurasında müzakirəyə çıxarılmış və qəbul olunmuş (2001.IV.19) «İnformasiya Təhlükəsizliyi Konsepsiyası»ndan sonra onun xüsusi xidmət orqanlarında

güclü texnoloji proqram təminatı sistemi yaradılıb. Hansı ki, bunun vasitəsilə ayrılmış kanalla «provayder»ə çıxış mümkündür.

Müstəqil Azərbaycana və onun ərazi bütövlüyünə qarşı erməni qadın terrorçuları da məsələdə aktiv fəaliyyət göstərirlər. 2012-ci ilin məlumatlarına görə, bu qadın terrorçuların sayı 135 nəfərə çatıb.

İnsanın psixoloji cəhətdən parçalanmasına, şikəst hala salınmasına xidmət edən və «mənəvi ekoloji proqram»ın kökü var. Bədnam yazıçı öz sələflərinə bunu da məsləhət bilir ki, imkan düşdükcə türkü, xüsusən, onun azərbaycanlı qanadını…» vurub sındırın. «… Onları ifşa edin. Onlara qarşı üsyan edin. Hər bir azərbaycanlıya qarşı vuruşmamız «Dövlət Proqramı çərçivəsində aparılmalıdır» (Bax: Eyni adlı kitab və çıxış: 1988. V-12, səh. 76).

Məlumata görə, bundan sonra yazıçının bu tezisləri üzərində işləmək üçün, professor S.A.Akopyanın səkkiz nəfərlik ekoloji kəşfiyyat qrupu yaradıldı. Qrupa respublikanın tanınmış simaları daxil oldu.

1994-cü il fevralın 16-da Yerevanda keçirilən Təhlükəsizlik Şurasında milli maraqlar naminə hazırlanmış bu sənədə yeni əlavələr edildi. Baş Qərargahın Yerevanda yerləşən «Milli Azadlıq Hərəkatı»nın liderlərindən olan O.Şahnazaryan və Q.Markarov (yan) həmin sənədi yeni bir adla çap etdirib yaydılar. 1500 nüsxə ilə çap olunmuş bu kitabça belə adlandırıldı: «Azərbaycan millətinə qarşı erməni millətinin «Ekoloji proqramı» (Bax: Yerevan: Q.Markarov: «Ekologiya», 1994).

Araşdırmalarımıza görə, 1994-cü il mayın 21-də Parisin məşhur «Kontinental» hotelində Akademik A.Aqanbekyanın başçılığı ilə «Azərbaycan millətinə qarşı erməni millətinin «Ekoloji proqramı» adlı (Bax: Yerevan: Q.Markarov: «Ekologiya» 1994) sənəd erməni icmasının üzvləri tərəfindən müzakirə edildi. Akademik-iqtisadçının əlavələrindən sonra sənəd çap olundu (Beləliklə, Azərbaycana qarşı ekoloji hücumun başlanğıcı qoyuldu).

**«Azərbaycana qarşı «ekoloji proqram»ın «A214-1» bölməsi.**

Mahiyyəti məxfi saxlanılan bu proqramda, əsasən, 3 məsələ formalaşmışdı:

1. Azərbaycan ərazisində kişilərin sinir sisteminə təsir edən, onu iflic vəziyyətinə qoyan preparatların yayılması;

2. Xüsusən Azərbaycanın orta və ali təhsil sistemində təhsil alan qızların və anaların arasında əməliyyatların keçirilməsi;

3. Azərbaycanda artımın kütləvi azalması yönümündə işlərin qurulması (Bax: Yenə həmin mənbə, səh. 76).

Əldə etdiyimiz məlumata görə, Azərbaycanın mənəvi saflığına, zəngin təbiətinə qarşı yönəlmiş bu proqram kortəbii proqram deyildi. Artıq bu proqramın reallaşması üçün Yerevan özünün «Vətən» cəmiyyəti xətti vasitəsilə dünyada məskunlaşan icmalarına da müraciətlər etmişdi və bu müraciətlərdə «Azərbaycan» sözü ilkin variantda çıxarıldı. Nəticədə Yerevan «Ermənistanın ekoloji fəlakəti»lə bağlı müraciətlərinə Fransada, Kaliforniyada, Londonda, Livan və Suriyada, İran və İraqda… yaşayan ermənilərdən ilkin yardımlar aldı. Məsələn, Marseldə yaşayan iş adamı, milliyyətcə erməni olan Qustav Bablumyan Robert Safaryanla birgə 102 min dolların yardım «Çeki»ni Yerevana göndərirlər. Məlumata görə, 1995-ci ilin son aylarında (oktyabr, noyabr) ilkin olaraq Dağlıq Qarabağ istiqamətində start götürən üç kiçik laboratoriya istifadəyə verildi. Araşdırmalarımıza görə, bu laboratoriyalardan biri (DK-3) bilavasitə «pestisid» kimyəvi məhsulunun araşdırılması, laboratoriya şəraitindəki ilkin nəticələri ilə maraqlanırdı. (Tehran 1992-ci ilin may ayında Pekindən 500 kiloqram «pestisid» məhsulu alıb. 1992-ci ilin may ayının 26-da isə Yerevan Tehrandan 150 kq təcrübə üçün «pestisid» alır. Müxtəlif zəhərli materialların və preparatların, qazların alınmasında bu materialdan geniş istifadə olunur). 1995-ci il iyunun 19-da hərbi həkim, Gorusdakı kiçik elmi-tədqiqat mərkəzinin direktoru, professor K.Fazilyan ölkə başçısının adına məktubla rəsmi müraciət edir. Məktuba görə, ərazidə artıq öyrənilməsi müşkül olan xəstəliklərin sindromları yaranıb. Məsələn, hamilə qadınlar arasında yayılmış vərəmin Azərbaycanda, onun işğal edilmiş ərazilərində yeni formaları, sindromları yarandı. Məlumata görə, təkcə Füzuli, Cəbrayıl rayonu ərazilərində vərəmin dörd növü aşkarlandı (Bax: «Pediani» qəzeti. 1997-ci il, № 19, səh. 4). İlk təcrübələr isə əsir alınmış azərbaycanlı qadınlar üzərində aparılırdı. Hər şey ölçülüb-biçildiyindən erməni alimləri ciddi nəticələr əldə edirdilər. Gorusdakı kimyəvi batalyonun bir qismi işğal olunmuş Cəbrayıl rayonu ərazisinə köçürüldü. Məqsəd bu zonadan Ağcabədi, Beyləqan istiqamətində «Ekoloji müharibə»nin ilkin planlarını reallaşdırmaq idi. Araşdırmalarımıza görə, 2004-cü il avqustun 9-da Ermənistan Səhiyyə Nazirliyi regiondakı sağalmaz xəstəliklərə tutulmuş şəxslərin taleyi ilə bağlı yeni layihə irəli sürür. Ərazidən vərəmə tutulmuş xəstələrin bir qisminin (təqribən 150 nəfər ağır vəziyyətdə) Dağlıq Qarabağ ərazisinin cənub-şərq hissəsinə köçürülməsi məsələsi irəli sürülür. Nəticədə «Şəfa» layihəsinə əsasən, sentyabrın 14-də (2004-cü il) işğal

olunmuş Güneyxırman yaşayış məntəqəsindəki ikimərtəbəli xəstəxanaya 115 nəfər vərəmə tutulmuş şəxs göndərilir. Yer çatışmadığından xəstələr əlavə yarımçıq tikililərdə yerləşdirilir. Əraziyə işləmək üçün İran İslam Respublikasından həkim mütəxəssis qrupu da göndərilir. Məlumata görə, Yerevanda işlənmiş bu layihəyə əsasən, regionda QİÇS xəstəliyinə tutulmuş şəxslərin də Ağdamın Əli Mədətli yaşayış ərazisinə göndərilməsi planlaşdırılır. Artıq bu bəlaya tutulmuş 25 erməni qadını əraziyə gətirilib. Digər bir məlumatda deyilir ki, ərazidə artıq vərəmdən ölənlər üçün qəbiristanlıq sahəsi də ayrılıb. Məlumata görə, 2005-ci il sentyabrın 30-da Yerevanda səhiyyənin problemlərilə əlaqədar keçirilən müşavirəyə dəvət edilən Xankəndindəki «səhiyyə problemlərilə bağlı layihələr hazırlayan» qeyri-dövlət qurumunun eksperti həkim-professor Ararat Yekunyan çıxışında xatırladır: «… Zonaya göndərilmiş xəstələrin taleyi qaranlıqdır. Xankəndinin elə bir maliyyə imkanı yoxdur. Ölüm halları artır. Xocavəndin cənubu ölüm zonası kimi diqqəti cəlb edir…» («Artsax» (Xankəndi) telekanalı. 2005. X S.).

Ermənistan hərbi-kəşfiyyat xidmətinin bölmə və şöbələrində regionun ekoloji durumu nəzarətə götürüldü. Təhlükəsizlik xidmətinin kapitanı Albert Baqdasaryanın səyilə «Dairə» adlı ekoloji kəşfiyyat layihəsi işlənildi. Əslində, Yerevanın Azərbaycanın ekoloji durumuna yönəlmiş «Dairə» planı kimyaçı-alim Karapet Kasaxyanın adı ilə bağlıdır. Təhlükəsizlik xidmətinin kapitanı, bir tərəfdən, yeni planlar cızır, digər tərəfdən də, ekoloji terrorçuların hazırlanması məsələsini irəli sürürdü.

Məlumata görə, kimyaçı-alim Karapet Kasaxyan 1981-ci ilədək ABŞ-da yaşayıb. 1976-cı ildən isə o, Yerevana Beyrutdan gəlib. Kimyaçı alim ilk illərdə Yerevandakı «Natri» kauçuk sənaye mərkəzində işləyib. AES-lə bağlı xüsusi tədqiqatlar aparıb. Lakin Dağlıq Qarabağın işğalından sonra K.Kasaxyan iş prinsiplərini dəyişdi. Tam başqa bir istiqamətdə işləməyi üstün tutdu. İlk dəfə Ermənistan ərazisindəki zəhər «seli»ni Azərbaycan istiqamətinə yönəldən proqram və rəsmi sənəd də onun adı ilə bağlıdır. Yəni «Dairə» layihəsinin müəllifi də o idi. İşğal olunmuş ərazilərdə erməni alimlərinin təcrübə-sınaq otaqları (Laçın, Qubadlı, Kəlbəcər ərazilərində) yaradıldı. Aparılan elmi tədqiqatların bir qolunu Azərbaycan ərazisində sərhəd kəndlərinin kütləvi zəhərlənməsi təşkil edirdi. Ermənistan hərbi kəşfiyyatında sirr kimi saxlanılan «ERRİ-BAL» adlı zəhərli maddənin bir qisminin kimyəvi silah kimi işlədilməsi qərara alındı. Bu kimyəvi silah toz halında olaraq, xüsusi elektron qurğuları vasitəsilə Dağlıq Qarabağ ərazisindən, eləcə də Naxçıvana yaxın olan yaşayış məntəqələrindən

Azərbaycan istiqamətinə ötürülür. İlkin araşdırmalara görə, təbiətə və insana güclü təsir edən, bir sıra xəstəliklərin yaranmasına səbəb olan bu kimyəvi silahın təsir dairəsi 5 km məsafədən 75 km məsafəyədək bir ərazini tutur. Ermənistanın bu istiqamətdə apardıqları elmi işlərin nəticəsi ciddi olaraq qalır. Yerevanda çap olunan «İderl» – səhiyyə bülletenində – 1999-cü ilin 6-cı sayında belə bir qeyd var: «… Ermənistan özünün hərbi-potensial gücünü qoruyub saxlamaq, onu artırmaq üçün xeyli iş görür. Məsələn, ilkin olaraq nəzərdə tutulan ərazi bölməsində – tutalım, Beyləqan-Ağcabədi ərazisində keçirilən sınaq təcrübəsindən sonra ciddi nəticələr əldə etdik…».

Kəşfiyyat kollektivi Sart Alekseyeviç Kasparyanın imzaladığı bu sənəddə nəticələr açıqlanmır. Amma 1999-cu ildə sənəddə adları qeyd olunan rayonlardakı ekoloji və mənəvi-psixoloji duruma nəzər saldıqca, mənzərələr aydınlaşır və məlum olur ki, erməni alimlərinin Beyləqan-Ağcabədi istiqamətində keçirdikləri sınaq təcrübələri nəticəsində Beyləqan rayonunun sərhədə yaxın kəndlərində (Qəhrəmanlı və Şahsevəndə) uşaq ölümü 2010-cu ildə 3,5 dəfə artıb. Hər beş hamilə qadından ikisi uşağı ilə vəfat edib. Eləcə də Ağcabədi rayonunun ərazisində (Arazbarı və Kürdlər kəndi) bu məsələnin nəticələri bizi düşündürməyə bilmir.

Bütün bu fakt və sənədləri göstərməkdə, xatırlamaqda məqsədimiz var – «Demokratik cəmiyyət» adlandırdığımız ölkələr Azərbaycanın ərazi bütövlüyünə hörmətlə yanaşmalı, Dağlıq Qarabağda törədilmiş genosid siyasətini, ekoloji fəlakətləri, dağıdılmış, hərrac edilmiş təbii sərvətləri, viranə qalmış meşə zolaqlarını, «Ölü zona»ya çevrilmiş torpaq və əkin sahələrini «Beynəlxalq genosid» siyasətinin bir hissəsi kimi qəbul etməlidirlər.

***Xocalı soyqırımı zamanı qətlə yetirilmiş azyaşlı və yetkinlik yaşına çatmayan azərbaycanlıların siyahısı***

| Sıra № | Adı, soyadı, atasının adı | Təvəllüdü | Ölümün səbəbi |
|---|---|---|---|
| 1 | Allahyarova Ayşən Rauf qızı | 1990 | Xocalı soyqırımı zamanı yolda donub ölmüşdür |
| 2 | Aslanova Elnarə Tofiq qızı | 1978 | Xocalı soyqırımı zamanı yolda donub ölmüşdür |
| 3 | Ağayev Allahverdi Səttar oğlu | 1982 | güllə yaralanması |
| 4 | Vəliyev Ağasif Zakir oğlu | 1985 | qarın boşluğuna daxil olan iki ədəd, sağ bazunu deşib keçən bir ədəd odlu silah – güllə yaraları |
| 5 | Qasımova Nərminə Nizam qızı | 1984 | güllə yaralanması |
| 6 | Quliyev Samir Taleh oğlu | 1989 | güllə yaralanması |
| 7 | Quliyev Vüqar Zahid oğlu | 1976 | güllə yaralanması |
| 8 | Quliyev Şükür Qaryağdı oğlu | 1985 | Xocalı soyqırımı zamanı yolda donub ölmüşdür |
| 9 | Quliyeva Nuranə Qaryağdı qızı | 1981 | Xocalı soyqırımı zamanı yolda donub ölmüşdür |
| 10 | Quliyeva Rəvanə Qaryağdı qızı | 1979 | Xocalı soyqırımı zamanı yolda donub ölmüşdür |
| 11 | Quliyeva Sevinc Əkbər qızı | 1984 | güllə yaralanması |
| 12 | Qəmbərov Emin Səfər oğlu | 1988 | güllə yaralanması |
| 13 | Qəmbərova Esmira Səfər qızı | 1987 | güllə yaralanması |

| | | | |
|---|---|---|---|
| 14 | Zeynalova Aynur Tofiq qızı | 1985 | döş qəfəsinin deşib keçən iki ədəd güllə yaraları |
| 15 | İmani Ağayar Salman oğlu | 1989 | güllə yaralanması |
| 16 | Yusifova Natəvan Pənah qızı | 1988 | güllə yaralanması |
| 17 | Kupriyev Səyid Roman oğlu | 1986 | güllə yaralanması |
| 18 | Mehdiyeva Aysel Murad qızı | 1987 | döş qəfəsini deşib keçən 2 ədəd güllə yaraları |
| 19 | Mehdiyeva Gülmirə Murad qızı | 1989 | döş qəfəsinin deşib keçən, ürəyin və sol ağ ciyərin yarası ilə müşayiət olunan bir ədəd, sol diz nahiyəsinin bir ədəd kor odlu silah – güllə yaraları |
| 20 | Muradova Ayşən Zöhrab qızı | 1991 | Xocalı soyqırımı zamanı yolda donub ölmüşdür |
| 21 | Məmmədov Zahir Ramiz oğlu | 1975 | işgəncə verilərək döyülüb öldürülmüşdür |
| 22 | Məmmədov Niyaməddin Vaqif oğlu | 1977 | güllə yaralanması |
| 23 | Məmmədov Ceyhun Vaqif oğlu | 1975 | güllə yaralanması |
| 24 | Məmmədov Əkbər Rəhman oğlu | 1991 | Xocalı soyqırımı zamanı yolda donub ölmüşdür |
| 25 | Nağıyev Asəf Füzuli oğlu | 1979 | güllə yaralanması |
| 26 | Orucova Məlahət Əli qızı | 1975 | güllə yaralanması |
| 27 | Orucova Natəvan Nəbi qızı | 1989 | güllə yaralanması |

| | | | |
|---|---|---|---|
| 28 | Orucova Xəyalə Telman qızı | 1986 | baş, döş və sol bud nahiyələrinin 3 ədəd deşib keçən güllə yaraları |
| 29 | Səfiyev Sərvan Elxan oğlu | 1991 | güllə yaralanması |
| 30 | Xəlilova Lalə Tahir qızı | 1988 | döş və qarın boşluqlarına keçən iki ədəd güllə yaraları |
| 31 | Çobanova Nəzakət Tapdıq qızı | 1984 | güllə yaralanması |
| 32 | Şirinov Elşən Eldar oğlu | 1990 | güllə yaralanması |
| 33 | Şükürova Əntiqə Vaqif qızı | 1991 | güllə yaralanması |
| 34 | Hümbətova Nahidə Eldar qızı | | döş boşluğuna keçən bir ədəd kor odlu silah – güllə yaralanması /hər iki göz alması kəsilib çıxarılmış, hər iki döş vəzisi kəsilmişdir |
| 35 | Hümbətova Simuzər Cəlil qızı | 1976 | güllə yaralanması |
| 36 | Hüseynova Maral Kamil qızı | 1985 | qarın boşluğundan deşib keçən bir ədəd güllə yarası |
| 37 | Hüseynova Səadət Qədim qızı | 1974 | güllə yaralanması |
| 38 | Əzimov Natiq Abbasqulu oğlu | 1986 | bütün bədənin 1- 2-ci dərəcəli yanığı, döş qəfəsinin deşib keçməyən bir ədəd odlu silah – güllə yaralanması, cinsiyyət üzvünün kəsilməsi ilə müşayiət olunan, həyatla bir araya sığmayan xəsarətlər |
| 39 | Əliyeva Yeganə Məhərrəm qızı | 1991 | Xocalı soyqırımı zamanı yolda donub ölmüşdür |
| 40 | Ələkbərov Səxavət Təvəkkül oğlu | 1981 | döş boşluğuna keçən 3 ədəd, sağ bud nahiyəsində iki ədəd, sol baldır nahiyəsində 2 ədəd odlu |

| | | | |
|---|---|---|---|
| | | | silah – güllə yaraları |
| 41 | Əsgərov Eldar Nizami oğlu | 1989 | güllə yaralanması |
| 42 | Şirinov Eldarın hələ adı qoyulmamış körpə qızı | 1991 | güllə yaralanması |
| 43 | naməlum azyaşlı qız | 4-6 yaş | güllə yaralanması |
| 44 | naməlum azyaşlı qız | 10-12 yaş | güllə yaralanması |
| 45 | naməlum azyaşlı / Tapdıq / | 9-10 yaş | güllə yaralanması |
| 46 | naməlum azyaşlı qız | | güllə yaralanması |
| 47 | naməlum azyaşlı /Zeynalova Aynurə Tapdıq qızı/ | | güllə yaralanması |
| 48 | naməlum azyaşlı /Nəbiyeva Maral/ | 8-9 yaş | güllə yaralanması |
| 49 | naməlum azyaşlı qız /Taleh/ | 5 yaş | güllə yaralanması |

## *Xocalı soyqırımı zamanı ermənilər tərəfindən işgəncə və amansızlıqla qətlə yetirilmiş şəxslərin siyahısı*

| Sıra № | Adı, soyadı, atasının adı | Təvəl. | Ölümün səbəbi |
|---|---|---|---|
| 1 | Abbasov Taleh Umudvar oğlu | 1961 | diri-diri yandırılaraq öldürülmüş, bütün bədəninin III- IV dərəcəli termiki yanığı |
| 2 | Abışov Mobil Mövsüm oğlu | 1968 | işgəncə verilərək döyülüb öldürülmüşdür |
| 3 | Aslanov İqbal Bahadur oğlu | 1970 | döş qəfəsinin çoxlu güllə yaraları, bədənin müxtəlif nahiyələrinin 2-ci dərəcəli termiki yanığı, hər iki gözün çıxarılması, cinsiyyət üzvlərinin kəsilməsi |
| 4 | Behbudova Sürəyya İbrahim qızı | 1932 | xarici cinsiyyət üzvləri nahiyəsinə yetirilmiş, boşluğa keçən iki ədəd güllə yaralanması |
| 5 | Butko Dmitri Nikolayeviç | 1927 | diri-diri yandırılaraq öldürülmüşdür |
| 6 | Bədəlov Tofiq | | bədəni üzərindən tırtıllı texnika keçməsindən döş qəfəsi və qarın boşluğunun, daxili üzvlərin əzilib dağılması, sümüklərin çoxsaylı sınıqları /hər iki göz almaları kəsilib çıxarılmış, hər iki qulaq seyvanı kəsilmişdir/ |
| 7 | Quliyev Natiq Vəliyəddin oğlu | 1972 | işgəncə verilərək döyülüb öldürülmüşdür |
| 8 | Quliyev Əkbər Zəkara oğlu | 1961 | daxili orqanların zədələnməsi ilə müşayiət olunan döş qəfəsinin çoxlu deşib keçən güllə yaralanmaları, bütün bədən səthinin 1-2-ci dərəcəli termiki yanığı |
| 9 | Eyvazov Hidayət Əli oğlu | 1964 | başın küt alətlə yetirilmiş, kəllə qapağı sümüklərinin qəlpəli sınıqları, üz skeleti sümüklərinin sınıqları, sol gözün çıxarılması, qarın nahiyəsindən və sağ bud nahiyəsindən deşib keçən iki ədəd güllə yaralanmaları |
| 10 | İlyasov Əhməd Məmməd oğlu | 1968 | başı kəsilmiş |
| 11 | Kərimov Samran Soltan oğlu | 1924 | döş qəfəsinin boşluğa keçən bir ədəd kor güllə yaralanması (onun meyitində həmçinin hər iki göz almalarının çıxarılması, arxa |

| | | | |
|---|---|---|---|
| | | | keçəcək nahiyəsinə butulka yeridilməsi müəyyən edilmişdir) |
| 12 | Kərimov Firuz Samran oğlu | 1960 | diri-diri yandırılaraq öldürülmüşdür, bütün bədənin kömürləşənə qədər termiki yanması |
| 13 | Mustafayev Vidadi Şəfa oğlu | 1963 | başı kəsilmiş |
| 14 | Məmmədov Eldar Əmirxan oğlu | 1957 | başın kəllə boşluğuna keçən 3 ədəd, baş nahiyəsində iki ədəd küt alətlə yetirilmiş, kəllə qapağı sümüklərinin sınıqları ilə müşayiət olunan yaralar, sol çiyin və döş qəfəsi nahiyələrində 4 ədəd kəsici-deşici alətlə yetirilmiş yaralar |
| 15 | Məmmədova Tamara Səlim qızı | | döş qəfəsinə keçən bir ədəd güllə yaralanması /hər iki gözü kəsilib çıxarılmış, hər iki döş vəzisi kəsilmişdir/ |
| 16 | Nağıyev Yusif Şirin oğlu | 1928 | işgəncə verilərək döyülüb öldürülmüşdür |
| 17 | Nuralıyeva Dilarə Oruc qızı | | kəskin qanitirmə ilə müşayiət olunan, döş qəfəsinin çoxsaylı deşib keçən güllə yaralanmaları /hər iki gözü və dişləri çıxarılmışdır/ |
| 18 | Nuriyev Hafis Yusif oğlunun | 1962 | başı kəsilmiş |
| 19 | Orucov Telman Ənvər oğlu | 1956 | döş boşluğuna keçən bir ədəd güllə yaralanması, döş qəfəsində küt alət təsirindən əmələ gəlmiş qançırlar və qabırğaların sınıqları /başının dərisi soyulmuşdur/ |
| 20 | Rəcəbov Cəbrayıl Mehdi oğlu | | diri-diri yandırılaraq öldürülmüşdür, başın və bütün bədənin 3-cü « a» və «b» dərəcəli termiki yanığı |
| 21 | Salahov Məhəmməd Əbdül oğlu | 1931 | işgəncə verilərək döyülüb öldürülmüşdür |
| 22 | Seyidov Hüseyn İsmayıl oğlu | | işgəncə verilərək döyülüb öldürülmüşdür |
| 23 | Səlimov Araz Bahadur oğlu | 1960 | yaralı vəziyyətdə körpə uşağının gözü qarşısında armaturla döyülüb öldürülmüşdür |

| | | | |
|---|---|---|---|
| 24 | Səlimov Bahadur Mikayıl oğlu | 1928 | küt alətlə yetirilmiş kəllə sümüklərinin sınıqları, döş qəfəsinin 3 ədəd deşib keçən güllə yaralanması, bütün bədənin III-IV dərəcəli termiki yanığı /cinsiyyət üzvləri kəsilmişdir |
| 25 | Səlimov Fəxrəddin Bahadur oğlu | 1958 | işgəncə verilərək döyülüb öldürülmüşdür |
| 26 | Səfiyev Elxan Nəsib oğlu | 1961 | işgəncə verilərək döyülüb öldürülmüşdür |
| 27 | Fərzəliyev Canan Binnət oğlu | 1962 | diri-diri yandırılaraq öldürülmüşdür |
| 28 | Şəliyev Elçin Vəkil oğlu | 1965 | işgəncə verilərək döyülüb öldürülmüşdür |
| 29 | Hüseynov Allahverdi Qulu oğlu | 1904 | diri-diri yandırılaraq öldürülmüşdür, bütün bədənin 3-cü «a» və «b» dərəcəli termiki yanığı |
| 30 | Həsənov Elgün | | bədəni üzərindən tırtıllı texnikanın keçməsindən bütün skelet sümüklərinin qəlpəli sınıqları, başın və bütün daxili orqanların əzilib dağılması nəticəsində həlak olmuşlar |
| 31 | Həşimova Şövkət Şükür qızı | 1947 | diri-diri yandırılaraq öldürülmüşdür |
| 32 | Əzizov Hüseyn Nəriman oğlu | 1965 | işgəncə verilərək döyülüb öldürülmüşdür |
| 33 | Əliməmmədov Faiq Şahmalı oğlu | 1973 | işgəncə verilərək döyülüb öldürülmüşdür |
| 34 | Ələkbərov Təvəkkül Ələkbər oğlu | 1956 | döş boşluğuna keçən iki ədəd kor güllə yaralanmaları, döş və qarın boşluqlarına keçən on ədəd kəsilmiş deşilmiş yaralar |
| 35 | Əmirov Təvəkkül Baxış oğlu | 1955 | döş qəfəsinin bir ədəd boşluğa keçən güllə yaralanması, sol təpə ənsə nahiyəsinin əzilmiş yarası, döş qəfəsinin və hər iki baldırın III- IV dərə-cəli termiki yanığı |
| 36 | Əmirova Mahı Bəbir qızı | | qarın boşluğuna keçən bir ədəd güllə yaralanması /hər iki gözü kəsilib çıxarılmış, hər iki döş vəzisi kəsilmişdir/ |
| 37 | Əsədov Yalçın Asif oğlu | 1963 | işgəncə verilərək döyülüb öldürülmüşdür |

| | | | |
|---|---|---|---|
| 38 | Əhmədova Sərfi-raz Müxət qızı | 1900 | diri-diri yandırılaraq öldürülmüşdür |
| 39 | naməlum kişi | | diri-diri yandırılaraq öldürülmüşdür |

## *Xocalı soyqırımı zamanı güllələnmiş şəxslərin siyahısı*

| Sıra № | Adı, soyadı, atasının adı | Təvəl. | Ölümün səbəbi |
|---|---|---|---|
| 1. | Bəhmənova Dilarə Məhərrəm qızı | 1942 | döş qəfəsinin iki ədəd deşib keçən, sağ bud və sağ baldır nahiyələrinin dörd ədəd güllə yaralanması |
| 2. | Abbasov Savalan İsmayıl oğlu | 1909 | güllə yaralanması |
| 3. | Abbasova Məryəm Məşədi qızı | 1933 | güllə yaralanması |
| 4. | Abbasova Əntiqə Heydər qızı | 1935 | döş və qarın boşluqlarına keçən iki ədəd güllə yaralanmaları |
| 5. | Abdullayev Yusif Qoca oğlu | 1924 | baş nahiyəsinin kəllə boşluğunu deşib keçən, beyin toxumasının dağılması ilə müşayiət olunan bir ədəd güllə yaralanması |
| 6. | Abdullayeva Maya Saleh qızı | 1910 | güllə yaralanması |
| 7. | Abdulov Elmar Baba oğlu | | döş qəfəsi və sol bazu nahiyələrindən 4 ədəd deşib keçən, 2 ədəd kor güllə yaralanmaları |
| 8. | Abışov Elşad Qiyas oğlu | 1968 | güllə yaralanması |
| 9. | Abışov Etibar Mövsüm oğlu | 1965 | güllə yaralanması |
| 10. | Abışov Habil Mövsüm oğlu | 1966 | güllə yaralanması |
| 11. | Abışov Əli Əbdül oğlu | 1918 | güllə yaralanması |
| 12. | Abışova Məruzə Məhəmməd qızı | 1932 | güllə yaralanması |
| 13. | Allahverdiyev Bəhram Hidayət oğlu | 1961 | güllə yaralanması |
| 14. | Allahverdiyev Maarif Yaqub oğlu | 1961 | başın kəllə boşluğuna keçən bir ədəd güllə yaralanması |
| 15. | Allahverdiyev | 1926 | güllə yaralanması |

| | | | |
|---|---|---|---|
| | Hidayət Bəhram oğlu | | |
| 16. | Allahverdiyeva Validə Astan qızı | 1963 | döş qəfəsinin deşib keçən bir ədəd güllə yaralanması |
| 17. | Allahverdiyeva İradə Astan qızı | 1965 | döş qəfəsinin deşib keçən bir ədəd, sağ bazunun deşib keçən bir ədəd güllə yaralanmaları |
| 18. | Allahverdiyeva Kifayət Hüseynalı qızı | 1932 | güllə yaralanması |
| 19. | Allahverdiyeva Teybə Nəbi qızı | 1933 | başın kəllə boşluğundan deşib keçən iki ədəd və döş qəfəsindən deşib keçən bir ədəd güllə yaralanmaları |
| 20. | Allahyarov Etibar Baloğlan oğlu | 1968 | Xocalı soyqırımı zamanı yolda donub ölmüşdür |
| 21. | Allahyarova /Zeynalova / Şəfiqə Zeynal qızı | 1969 | döş qəfəsinin 7 ədəd deşib keçən və kor güllə yaralanmaları |
| 22. | Allahyarova Qəmzə Qaraş qızı | 1940 | sol bel nahiyəsinin bir ədəd deşib keçən, sağ budun iki ədəd deşib keçən güllə yaralanmaları |
| 23. | Aslanov Qulu Bəhram oğlu | 1927 | güllə yaralanması |
| 24. | Aslanova Gülsabah Qəyyum qızı | 1971 | güllə yaralanması |
| 25. | Ağayarova Züleyxa Yunis qızı | 1965 | Xocalı soyqırımı zamanı yolda donub ölmüşdür |
| 26. | Ağayev Zahid Səttar oğlu | 1963 | güllə yaralanması |
| 27. | Babayeva Aqibə Xasay qızı | 1958 | başın kəllə boşluğundan deşib keçən bir ədəd, döş qəfəsinən deşib keçən bir ədəd güllə yaralanmaları |
| 28. | Bağırova Zəhra Sarı qızı | 1932 | Xocalı soyqırımı zamanı yolda donub ölmüşdür |
| 29. | Bağırova Nailə Həsən qızı | 1956 | qarın boşluğunun deşib keçən, qara ciyərin, mədəaltı vəzinin, yoğun bağırsağın yaralanmaları ilə müşayiət olunan bir ədəd güllə yaralanması |
| 30. | Bedzinov Zeynalı Məmməd oğlu | 1926 | güllə yaralanması |
| 31. | Behbudov Vaqif Yusif oğlu | 1963 | güllə yaralanması |

| | | | |
|---|---|---|---|
| 32. | Behbudova Gülbahar Yusif qızı | 1968 | güllə yaralanması |
| 33. | Behbuova Gülnaz Yusif qızı | 1962 | güllə yaralanması |
| 34. | Bilalov Namik Məmməd oğlu | 1961 | qarın boşluğuna keçən, mədənin yaralanması ilə müşayiət olunan bir ədəd güllə yaralanması |
| 35. | Bədirov Tofiq Nifti oğlu | 1957 | güllə yaralanması |
| 36. | Bəhmənov Müşviq Vaqif oğlu | 1971 | başın bir ədəd deşib keçən, beyin toxumasının dağılması ilə müşayiət olunan, döş qəfəsinin bir ədəd deşib keçən, sağ əlin, sağ qolun güllə yaralanmaları |
| 37. | Vəliyev Firdovsi Fazil oğlu | 1966 | güllə yaralanması |
| 38. | Vəliyeva Nazilə Kamil qızı | 1966 | güllə yaralanması |
| 39. | Qocayev Güman Əvəz oğlu | 1941 | güllə yaralanması |
| 40. | Quliyev Aqil Sahib oğlu | 1963 | güllə yaralanması |
| 41. | Quliyev Zakir Lətif oğlu | 1965 | güllə yaralanması |
| 42. | Quliyev Zəkara Qəmiş oğlu | 1927 | bel nahiyəsində bir ədəd deşib keçən, oma nahiyəsində iki ədəd, sağ said və bud nahiyələrində iki ədəd güllə yaralanmaları |
| 43. | Quliyev Taleh Zəkara oğlu | 1965 | güllə yaralanması |
| 44. | Quliyev Tahir Sultan oğlu | 1956 | Xocalı soyqırımı zamanı yolda donub ölmüşdür |
| 45. | Quliyeva Aleksandra Cəmil qızı | 1929 | sol çiyin qurşağında 3 ədəd kor, bel nahiyəsində bir ədəd deşib keçən, onurğa sütununun, sol körpücük sümüyünün sınıqları ilə müşayiət olunan odlu silah-güllə yaralanmaları |
| 46. | Quliyeva Zöhrə Lətif qızı | 1968 | döş qəfəsini deşib keçən iki ədəd güllə yaralanmaları |
| 47. | Quliyeva Sara Hüseyn qızı | 1955 | Xocalı soyqırımı zamanı yolda donub ölmüşdür |
| 48. | Qurbanov | | döş qəfəsinin daxilə keçən güllə yarası |

| | | | |
|---|---|---|---|
| | Əbdulhüseyn | | |
| 49. | Qəmbərov Qarsalan Gəray oğlu | 1939 | güllə yaralanması |
| 50. | Qəmbərov Nadir Qarsalan oğlu | 1972 | güllə yaralanması |
| 51. | Qəmbərov Səfər Qarsalan oğlu | 1962 | güllə yaralanması |
| 52. | Qəmbərova Validə Boran qızı | 1940 | güllə yaralanması |
| 53. | Qəmbərova Mətanət Hacı qızı | 1967 | güllə yaralanması |
| 54. | Zamanov Novruz Qulu oğlu | 1936 | güllə yaralanması |
| 55. | Zeynalov Məhəmməd Məsi oğlu | | sağ saidin, sağ budun deşib keçən güllə yaralanmaları |
| 56. | Zeynalov Nadir Aslan oğlu | 1968 | güllə yaralanması |
| 57. | İbrahimov Əlixan Xəlil oğlu | 1957 | başın bir ədəd kəllə boşluğuna keçən, kəllə qapağı sümüklərinin sınıqları, beyin toxumasının dağılması ilə müşayiət olunan, döş qəfəsinin 5 ədəd boşluğa keçən güllə yaralanmaları |
| 58. | İlyasov Məmməd İlyas oğlu | 1940 | güllə yaralanması |
| 59. | İmani Malik Ağayar oğlu | 1950 | güllə yaralanması |
| 60. | İsbəndiyarov Eldar Hümmət oğlu | 1972 | güllə yaralanması |
| 61. | İskəndərov Əliabbas Qara oğlu | 1955 | döş qəfəsinin ürək nahiyəsindən deşib keçən güllə yaralanması |
| 62. | İsmayılov Vidadi Lətif oğlu | 1966 | güllə yaralanması |
| 63. | İsmayılov İbiş Kərim oğlu | 1938 | güllə yaralanması |
| 64. | İsmayılov Hüseyn Bəhmən oğlu | 1931 | güllə yaralanması |
| 65. | İsmayılova Mənzər Mənsur qızı | 1908 | güllə yaralanması |
| 66. | İsmayılova Nərgiz | 1965 | güllə yaralanması |

| | | | |
|---|---|---|---|
| | Hüseyn qızı | | |
| 67. | Yusubov Həmid Məhəddin oğlu | 1962 | güllə yaralanması |
| 68. | Kərimov Mənaf Tanrıverdi oğlu | 1968 | başın kəllə boşluğundan deşib keçən bir ədəd, döş boşluğuna keçən bir ədəd qəlpə yaraları, sol baldırın sümüklərin açıq sınıqları ilə müşayiət olunan bir ədəd güllə yaralanması |
| 69. | Kərimova Firəngiz Mütəllim qızı | 1930 | döş qəfəsinin bir ədəd deşib keçən güllə yaralanması |
| 70. | Kərimova Firəngül Məhəmməd qızı | 1935 | güllə yaralanması |
| 71. | Mahmudova Roza Cəfər qızı | 1930 | qarın nahiyəsinin deşib keçən bir ədəd güllə yaralanması |
| 72. | Mehbalıyev Əli Fərəc oğlu | 1952 | güllə yaralanması |
| 73. | Mehdiyev Murad Şəfa oğlu | 1967 | başın kəllə boşluğuna keçən bir ədəd, döş qəfəsinin deşib keçən 4 ədəd, sol dirsək nahiyəsinin deşib keçən bir ədəd odlu silah – güllə yarlanmaları, döş qəfəsinin və sol əlin qəlpə yaralanmaları |
| 74. | Mehdiyev Şəfa Baba oğlu | 1941 | döş qəfəsi, sol ayaq nahiyəsinin iki ədəd güllə yaralanmaları |
| 75. | Mehralıyeva Gülzar Gülalı qızı | 1970 | güllə yaralanması |
| 76. | Mikayılov Adil Vəliş oğlu | 1965 | güllə yaralanması |
| 77. | Muradov Zahid Lətif oğlu | 1965 | güllə yaralanması |
| 78. | Musayev İlqar Vaqif oğlu | 1970 | güllə yaralanması |
| 79. | Mustafayev Rza Bəşir oğlu | 1948 | başın bir ədəd kəllə boşluğuna keçən, kəllə sümüklərinin sınıqları, beyin toxumasının dağılması ilə müşayiət olunan odlu silah – güllə yaralanması |
| 80. | Mustafayeva Yaxşı Mehdiqulu qızı | 1900 | güllə yaralanması |
| 81. | Məmişov Talış Hüseyn oğlu | 1921 | güllə yaralanması |
| 82. | Məmmədov Yaşar Yusif oğlu | 1956 | güllə yaralanması |

| | | | |
|---|---|---|---|
| 83. | Məmmədov Azər Vaqif oğlu | 1973 | güllə yaralanması |
| 84. | Məmmədov Allahverdi | | Xocalı soyqırımı zamanı yolda donub ölmüşdür |
| 85. | Məmmədov Arif Eybat oğlu | 1956 | güllə yaralanması |
| 86. | Məmmədov Bəylər Xanlar oğlu | 1935 | güllə yaralanması |
| 87. | Məmmədov Vaqif Şamil oğlu | 1951 | boyun nahiyəsinin bir ədəd kəsilmiş-deşilmiş yarası, döş qəfəsinin iki ədəd deşib keçən, bir ədəd boşluğa keçən güllə yaralanmaları |
| 88. | Məmmədov Vaqif Şükür oğlu | 1940 | güllə yaralanması |
| 89. | Məmmədov Vasif Salman oğlu | 1965 | başın sol gicgah nahiyəsinin deşib keçən, kəllə sümüklərinin sınıqları, baş beyinin dağılması ilə müşayiət olunan güllə yaralanması |
| 90. | Məmmədov Oktay Şükür oğlu | 1957 | güllə yaralanması |
| 91. | Məmmədov Ramil Calal oğlu | 1948 | Xocalı soyqırımı zamanı yolda donub ölmüşdür |
| 92. | Məmmədov Rasif Salman oğlu | 1968 | güllə yaralanması |
| 93. | Məmmədov Saday Süleyman oğlu | 1936 | güllə yaralanması |
| 94. | Məmmədov Sadiq Allahverdi oğlu | | güllə yaralanması |
| 95. | Məmmədov Səfəralı Mehdi oğlu | 1920 | Xocalı soyqırımı zamanı yolda donub ölmüşdür |
| 96. | Məmmədov Xosrov Bilal oğlu | 1949 | güllə yaralanması |
| 97. | Məmmədov Şöhrət İbiş oğlu | 1960 | döş qəfəsinin iki ədəd, sağ budun bir ədəd deşib keçən güllə yaralanmaları |
| 98. | Məmmədova Afilə İbrahim qızı | 1958 | güllə yaralanması |
| 99. | Məmmədova Sevil Hüseyn qızı | 1954 | güllə yaralanması |
| 100. | Məmmədova Güllü Abdal qızı | 1925 | boyun nahiyəsinin deşib keçən güllə yaralanmaları |
| 101. | Məhərrəmov | 1957 | güllə yaralanması |

| | | | |
|---|---|---|---|
| | Maqsud Heydər oğlu | | |
| 102. | Məhərrəmov Tahir Ağarza oğlu | 1956 | güllə yaralanması |
| 103. | Nağıyeva Sara Ramiz qızı | 1965 | güllə yaralanması |
| 104. | Novruzov Ələsgər Xanlar oğlu | 1949 | güllə yaralanması |
| 105. | Nəbiyev Məhəddin Həsən oğlu | 1952 | güllə yaralanması |
| 106. | Nəbiyev Həsən Qaraş oğlu | 1919 | güllə yaralanması |
| 107. | Nəbiyeva Sara Əkbər qızı | | sağ əlin və sağ budun sümüklərinin sınıqları və arteriyaların zədələnməsi ilə müşayiət olunan qəlpə yaraları |
| 108. | Nəbiyeva Səkinə Nabatalı qızı | 1920 | döş qəfəsinin iki ədəd deşib keçən qəlpə yaraları |
| 109. | Nəsibov Ramiz Sarı oğlu | 1965 | güllə yaralanması |
| 110. | Nəsibov Şiraslan Qaçay oğlu | 28 yaş | kəllə qapağı sümüklərinin sınıqları, baş beyinin dağılması ilə müşayiət olunan, başın, bazu və said nahiyələrinin qəlpə yaraları |
| 111. | Orucov Elman Ənvər oğlu | 1961 | güllə yaralanması |
| 112. | Orucov Fazil Ənvər oğlu | 1961 | döş və hər iki bazu nahiyələrinin cəmi üç ədəd deşib keçən güllə yaralanmaları |
| 113. | Orucova İzafə Əli qızı | 1969 | başın kəllə boşluğundan deşib keçən bir ədəd, döş qəfəsindən deşib keçən bir ədəd güllə yarası |
| 114. | Orucova Tamara Yunis qızı | 1942 | güllə yaralanması |
| 115. | Orucova Gözəl Heydər qızı | 1930 | güllə yaralanması |
| 116. | Paşayev Aleksandr Tapdıq oğlu | 1932 | döş boşluğuna keçən iki ədəd, sağ baldırı deşib keçən bir ədəd güllə yaralanmaları |
| 117. | Paşayev Elşad Aleksandr oğlu | 1961 | döş qəfəsi nahiyəsinin beş ədəd boşluğa keçən, oma və sağrı nahiyələrinin dörd ədəd kor güllə yaralanmaları |
| 118. | Rzayev Canpolad Yaqub oğlu | 1965 | döş qəfəsindən deşib keçən bir ədəd güllə yaralanması |

| | | | |
|---|---|---|---|
| 119. | Rüstəmov Füzuli Salah oğlu | 1966 | baş nahiyəsinin iki ədəd kəllə boşluğuna keçən, döş qəfəsi boşluğa keçən üç ədəd kor güllə yaralanması |
| 120. | Rüstəmov Həsən İsbəndiyar oğlu | | güllə yaralanması |
| 121. | Rəhimova İradə Əli qızı | 1963 | güllə yaralanması |
| 122. | Sadıxova Çiçək Cəlil qızı | 1928 | güllə yaralanması |
| 123. | Salahova Zəhra Əliabbas qızı | 1938 | döş və qarın boşluqlarına keçən 5 ədəd odlu silah – güllə yaralanmaları |
| 124. | Süleymanova Nübar Lələkişi qızı | 1953 | güllə yaralanması |
| 125. | Səlimov Mikayıl Bahadur oğlu | 1970 | kəllə sümüklərinin sınıqları, beyin toxu-masının dağılması ilə müşayiət olunan qəlpə yaralanması, sağ bazu və sağ said nahiyələrinin dörd ədəd,sağ və sol bud nahiyələrinin iki ədəd deşib keçən, sağ qılça nahiyəsinin bir ədəd boşluğa keçən kor güllə yaralanmaları |
| 126. | Səlimov Tofiq Seyid oğlu | 1968 | sol bazu nahiyəsinin bazu arteriyasının zədələnməsi, kəskin qanitirmə ilə müşayiət olunan bir ədəd güllə yaralanması |
| 127. | Səmədov Tarıyel Bəylər oğlu | 1966 | güllə yaralanması |
| 128. | Səmədov Həmid Bəylər oğlu | 1957 | qarın boşluğunun bir ədəd deşib keçən güllə yaralanması |
| 129. | Səfiyeva Gözəl Vəli qızı | 1924 | başın kəllə boşluğundan deşib keçən, qarının və döş qəfəsinin boşluğa keçən kor güllə yarası |
| 130. | Səfiyeva Gözəl Heydər qızı | 1920 | güllə yaralanması |
| 131. | Səfərova Pəri Muxtar qızı | 1930 | döş qəfəsi, sol bud və sol baldırın deşib keçən üç ədəd güllə yaralanmaları |
| 132. | Talıbov Rəhim Xudaverdi oğlu | 1910 | güllə yaralanması |
| 133. | Usubova Şərqiyə Usub qızı | 1948 | güllə yaralanması |
| 134. | Xanməmmədov Barat Kamil oğlu | 1922 | döş qəfəsinə keçən 6 ədəd güllə yaralanmaları |
| 135. | Xəlilov Qaçay Rəhim oğlu | 1943 | döş qəfəsinin çoxsaylı deşib keçən güllə yaralanmaları |

| | | | |
|---|---|---|---|
| 136. | Xəlilov Tahir Qaçay oğlu | 1963 | sağ qılça nahiyəsinin deşib keçən güllə yaralanması |
| 137. | Xəlilova Zərifə Zəkara qızı | 1964 | döş qəfəsinin bir ədəd, qarın boşluğunun bir ədəd boşluğa keçən, sol budun bir ədəd deşib keçən güllə yaralanmaları |
| 138. | Çobanov Tapdıq Xədicə oğlu | 1950 | güllə yaralanması |
| 139. | Şadmanova Nazilə Şamil qızı | | doş və qarın boşluqlarına keçən, skelet sümüklərinin sınıqları, daxili üzvlərin zədələnmələri ilə müşayiət olunan 8 ədəd güllə yaralanmaları |
| 140. | Şükürov Vaqif Rəsul oğlu | 1968 | boyunun kor, döş qəfəsinin deşib keçən güllə yaralanmaları, döş qəfəsinin daxilə keçən qəlpə yarası |
| 141. | Haqverdiyev Davud Məşdi oğlu | 1951 | güllə yaralanması |
| 142. | Haqverdiyeva Həvva Zeynal-abdin qızı | 1924 | Xocalı soyqırımı zamanı yolda donub ölmüşdür |
| 143. | Hacıyev Əlif Lətif oğlu | 1953 | qarın boşluğuna keçən iki ədəd kor güllə yaralanmaları |
| 144. | Hümbətov Muğan Cəlil oğlu | 1973 | güllə yaralanması |
| 145. | Hümbətova Südabə Rəşid qızı | 1969 | güllə yaralanması |
| 146. | Hümbətova Firuzə Musa qızı | 1934 | güllə yaralanması |
| 147. | Hüseynov Mürşüd Səməd oğlu | 1934 | döş qəfəsinin bir ədəd deşib keçən güllə yaralanması |
| 148. | Hüseynov Rəşid Hüseyn oğlu | 1962 | başın kəllə boşluğuna keçən bir ədəd kor güllə yarası |
| 149. | Hüseynov Tofiq Mirsiyab oğlu | 1954 | güllə yaralanması |
| 150. | Hüseynov Hüseyn Fərəc oğlu | 1946 | döş qəfəsinin deşib keçən bir ədəd güllə yaralanması |
| 151. | Hüseynov Həbib Həmzə oğlu | 1937 | sol diz oynağının və sol baldırın 2 ədəd deşib keçən, sümüklərin açıq qəlpəli sınıqları ilə müşayiət olunan güllə yaralanmaları |
| 152. | Hüseynova Zinyət Yunis qızı | 1948 | döş qəfəsinin deşib keçən 4 ədəd güllə yaralanmaları |
| 153. | Hüseynova Sara | 1964 | güllə yaralanması |

| | | | |
|---|---|---|---|
| | Səfər qızı | | |
| 154. | Həmzəyev Abdulla Göşəli oğlu | 1965 | güllə yaralanması |
| 155. | Hənifəyev Bəhmən Salman oğlu | 1957 | döş qəfəsini deşib keçən bir ədəd odlu silah–güllə yaralanması, döş qəfəsinə keçən doqquz ədəd kəsilmiş-deşilmiş yaralar |
| 156. | Həsənov İmran Ələkbər oğlu | 1947 | kəllə və boyun nahiyələrinin iki ədəd kor güllə yaralanması |
| 157. | Həsənov Mehdi Ramil oğlu | 1973 | güllə yaralanması |
| 158. | Həsənov Məzahir Yaqub oğlu | 1968 | başın kəllə boşluğuna keçən 2 ədəd, sol bud nahiyəsində bir ədəd, sağ budun orta 1/3-dən amputasiyası ilə müşayiət olunan bir ədəd deşib keçən güllə yaralanmaları |
| 159. | Həsənov Ramil İbrahim oğlu | 1947 | güllə yaralanması |
| 160. | Həsənov Şöhlət Usub oğlu | 1944 | döş qəfəsinin boşluğa keçən, daxili üzvlərin zədələnməsi, daxili qanitirmə ilə müşayiət olunan bir ədəd güllə yaralanması |
| 161. | Həsənov Hümbət İsmayıl oğlu | | döş boşluğuna keçən bir ədəd güllə yaralanması |
| 162. | Həsənov Həsən İbrahim oğlu | 1934 | güllə yaralanması |
| 163. | Həsənov Əli Mürsəl oğlu | 1936 | başın kəllə boşluğuna keçən bir ədəd güllə yaralanması |
| 164. | Həsənova Aygün Nazim qızı | | güllə yaralanması |
| 165. | Həsənova Lətafət Həsən qızı | 1976 | Xocalı soyqırımı zamanı yolda donub ölmüşdür |
| 166. | Həsənova Tofiqə Həsən qızı | 1955 | güllə yaralanması |
| 167. | Həsənova Fitat Əhəd qızı | 1940 | güllə yaralanması |
| 168. | Həsənova Gülçöhrə Yaqub qızı | 1968 | güllə yaralanması |
| 169. | Həsənova Göycək Heydər qızı | 1933 | güllə yaralanması |
| 170. | Həşimov Səlim Kərim oğlu | 1963 | daxili üzvlərin zədələnməsi və qanaxma ilə müşayiət olunan, döş qəfəsinin iki ədəd dəlib keçən güllə yaralanması |

| | | | |
|---|---|---|---|
| 171. | Cəbrayılova Səmayə Sarı qızı | 1950 | güllə yaralanması |
| 172. | Cəfərov Müseyib Səfiyar oğlu | 1892 | güllə yaralanması |
| 173. | Cəfərova Rəfiqə İman qızı | 1946 | güllə yaralanması |
| 174. | Cəfərova Xəzəngül Əli qızı | 1952 | Xocalı soyqırımı zamanı yolda donub ölmüşdür |
| 175. | Əbdülov Yelmar İsgəndər oğlu | 1949 | başın bir ədəd kəllə boşluğuna keçən, sağ körpücük nahiyəsinin bir ədəd doş boşlucuna keçən, sağ qılça nahiyəsinin bir ədəd boşluğa keçən, sol sağrı nahiyəsinin üç ədəd kor güllə yarası |
| 176. | Ədilov Savalan Qaraş oğlu | 1937 | döş boşluğuna keçən 5 ədəd güllə yaralanmaları |
| 177. | Əzizov Əzim Məşədi oğlu | 1911 | güllə yaralanması |
| 178. | Əzizova Zərifə Ələkbər qızı | 1953 | başın kəllə boşluğuna keçən 2 ədəd, döş boşluğuna keçən 4 ədəd, sağ bazu nahiyəsinin iki ədəd, sol bazu və said nahiyələrinin 3 ədəd güllə yaralanmaları |
| 179. | Əzimov Səxavət İbrahim oğlu | | döş qəfəsi və bel nahiyələrində boşluğa keçən iki ədəd güllə yaralanmaları |
| 180. | Əzimov Həsənbala Şahmar oğlu | 1930 | başın bir ədəd kəllə boşluğuna keçən, ağızın bir ədəd deşib keçən, döş qəfəsinin bir ədəd deşib keçən, sağ budun bir ədəd deşib keçən güllə yaralanmaları |
| 181. | Əzimova Dilarə Seyidulla qızı | 1956 | daxili orqanların zədələnməsi və kəskin qanitirmə ilə müşayiət olunan, döş boşluğundan deşib keçən dörd ədəd odlu silah – güllə yaralanmaları, bir ədəd döş boşluğuna keçən kəsilmiş deşilmiş yara |
| 182. | Əzimova Pərvanə Hüseyn qızı | 1940 | sifətinin bir ədəd kəllə boşluğuna keçən, döş qəfəsinin bir ədəd deşib keçən, sağ bud, sağ bazu və said nahiyələrinin 4 ədəd gullə yaralanmaları |
| 183. | Əyyubova Mələk Əli qızı | 1966 | güllə yaralanması |
| 184. | Əliyev Arif Xanlar oğlu | 1970 | döş qəfəsinin bir ədəd, sağ qılça nahiyəsinin iki ədəd kor, sağ bazunun bir ədəd, sol saidin iki ədəd güllə yaralanmaları |

| | | | |
|---|---|---|---|
| 185. | Əliyev Eldar Kərim oğlu | 1963 | qarın boşluğuna keçən iki ədəd, hər iki bud nahiyələrindən deşib keçən iki ədəd güllə yaralanmaları |
| 186. | Əliyev İslam Əbdüləli oğlu | 1933 | döş qəfəsinin iki ədəd dəlib keçən, daxili üzvlərin zədələnməsi, kəskin qanitirmə ilə müşayiət olunan güllə yaralanmaları |
| 187. | Əliyev Əbülfət Əli oğlu | 1963 | döş qəfəsindən və sağ bud nahiyəsindən deşib keçən iki ədəd güllə yaralanmaları |
| 188. | Əliyev Əyyub Sarı oğlu | 1934 | güllə yaralanması |
| 189. | Əliyev Ələkbər Əli oğlu | 1927 | güllə yaralanması |
| 190. | Əliyev Ənvər Zeynal oğlu | 1952 | güllə yaralanması |
| 191. | Əliyev Əsgər Məhəmməd oğlu | 1931 | Xocalı soyqırımı zamanı yolda donub ölmüşdür |
| 192. | Əliyeva Dilarə Oruc qızı | 1939 | güllə yaralanması |
| 193. | Əliyeva Sürəyya Bayram qızı | 1934 | başın kəllə boşluğuna keçən, kəllə sümüklərinin sınıqları, beyin toxumasının dağılması ilə müşayiət olunan iki ədəd kor güllə yaralanmaları |
| 194. | Əliyeva Səhər Çərkəz qızı | | döş qəfəsinin deşib keçən bir ədəd güllə yaralanması |
| 195. | Əliməmmədov Alik Nəriman oğlu | | döş qəfəsindən deşib keçən bir ədəd, döş boşluğuna keçən bir ədəd güllə yaralanmaları |
| 196. | Ələkbərov Əsgər Qurban oğlu | 1926 | güllə yaralanması |
| 197. | Ələkbərova Zeynəb Cümşüd qızı | 1932 | başın deşib keçən, kəllə sümüklərinin sınıqları, beyin toxumasının dağılması ilə müşayiət olunan bir ədəd güllə yaralanması |
| 198. | Ələsgərov Vahid Rəşid oğlu | 1965 | güllə yaralanması |
| 199. | Əmirova Yeganə Təvəkkül qızı | 1986 | güllə yaralanması |
| 200. | Əmirova Raya Qabil qızı | 1959 | güllə yaralanması |
| 201. | Əhmədov Yelmar Nayıb oğlu | 1962 | güllə yaralanması |
| 202. | Əhmədov Rəcəb Allahverdi oğlu | 1956 | başın kəllə boşluğuna keçən bir ədəd, döş qəfəsinin deşib keçən üç ədəd güllə yaralanmaları |

## *Xocalı soyqırımı zamanı ermənilər tərəfindən qətlə yetirilmiş naməlum şəxslərin siyahısı*

| Sıra № | Adı, soyadı, atasının adı | Təvəl. | Ölümün səbəbi |
|---|---|---|---|
| 1. | Ağayev Vidadi | | qarının ön divarının daxilə keçən qəlpə yarası |
| 2. | Behbuova S.U | | cinsiyyət üzvləri nahiyəsində iki ədəd daxilə keçən güllə yaraları |
| 3. | Quliyeva Zərifə | | boyun və bel nahiyələrinin güllə yaraları |
| 4. | Dadaşova Ə.B. | | qarın boşluğuna keçən bir ədəd güllə yaralanması /gözləri çıxarılmış, döş vəzləri kəsilmişdir/ |
| 5. | Mikayılov Araz | | döş qəfəsində və sol bud nahiyəsində dəlib keçən güllə yaraları |
| 6. | Museyib | | başın ənsə nahiyəsinin daxilə keçən güllə yarası |
| 7. | Məmmədov A.İ. | 27 yaş | doş qəfəsində iki ədəd daxilə keçən kor güllə yaraları |
| 8. | Məmmədov Talış | 40 yaş | döş və qarının daxilə keçən güllə yaraları |
| 9. | Sahib adlı şəxs | | küt alətlə yetirilmiş, başın və bütün bədənin kəllə sümüklərinin, qabırğaların, yuxarı və aşağı ətrafların sümüklərinin çoxsaylı sınıqları, baş beyinin əzilib dağılması ilə müşayiət olunan çoxsaylı yaralar |
| 10. | Səlimova Sona | 1940 | güllə yaralanması |
| 11. | Tahir adlı şəxs | 25-30 yaş | döş qəfəsinin ön səthində daxilə keçən odlu silah – güllə yaraları |
| 12. | Hüseynov Ş.M. | | bütün bədənin 3-cü-4-cü dərəcəli termiki yanığı |
| 13. | Həbibə adlı qadın | | başın qəlpə yarası,sol çiyin sümüklərinin sınıqları, aşağı ətrafın donması |
| 14. | Gözəlov S. | | döş boşluğuna keçən bir ədəd güllə yarası |
| 15. | Əsgərov Nizami | 1961 | güllə yaralanması |
| 16. | naməlum qadın /Nazilə/ | 35-40 yaş | kəllə qapağı sümüklərinin açıq qəlpəli sınığı |
| 17. | naməlum kişi | 26-30 yaş | döş qəfəsinin dəlib keçən odlu silah – güllə yarası, sol yanaqda kəsilmiş-deşilmiş yara, 9 ədəd dişlərin travmatik düşməsi |
| 18. | naməlum kişi | 30-35 yaş | gicgah-təpə nahiyəsində kəllə sümüklərinin sınması, baş beyinin əzilməsi, sifətin və döş |

| | | | |
|---|---|---|---|
| | | | qəfəsinin kəsilmiş-deşilmiş yaraları |
| 19. | naməlum kişi | 22-27 yaş | döş qəfəsinin dəlib keçən odlu silah yarası, baş beyinin əzilməsi və odlu silah – qəlpə yarası, hər iki yanaqda kəsilmiş-deşilmiş yaralar |
| 20. | naməlum kişi | 21-26 yaş | qarının ön divarında,solda bir ədəd dəlib keçən qəlpə yarası |
| 21. | naməlum kişi | 25-30 yaş | başın ənsə-təpə nahiyəsində kəllə sümüklərinin sınığı və baş beyinin əzilməsi ilə müşayiət olunan qəlpə yarası |
| 22. | naməlum kişi | | döş qəfəsinin ön səthində giriş yarası və arxa səthində çıxış yarası olan dəlib keçən güllə yarası |
| 23. | naməlum kişi | 20-25 yaş | qarının ön divarında, solda bir ədəd dəlib keçən qəlpə yarası |
| 24. | naməlum kişi | 20-25 yaş | döş qəfəsinin ön səthində üç ədəd dəlib keçən odlu silah yaraları |
| 25. | naməlum kişi | 25-30 yaş | giriş dəliyi ənsədə, döş qəfəsinin ön səthində, çıxış dəlikləri alının ön səthində və döş qəfəsinin arxa səthində yerləşən iki ədəd dəlib keçən odlu silah yaraları |
| 26. | naməlum kişi | 22-28 yaş | alın təpə nahiyəsində kəllə sümüklərinin sınıqları ilə müşayiət olunan qəlpə yaraları, boyunda və döş qəfəsində qəlpə yaraları |
| 27. | naməlum kişi | 22-24 | yaş- sağ gözün kəsilmiş-deşilmiş yarası, qarının daxilə keçən odlu silah-qəlpə yarası |
| 28. | naməlum kişi | 25-30 yaş | döş qəfəsinin arxa səthində iki ədəd kor güllə yaraları |
| 29. | naməlum kişi | 22-27 yaş | başın deşib keçən odlu silah-güllə yarası |
| 30. | naməlum kişi | 25-30 yaş | başın sol gicgah təpə nahiyəsində bir ədəd geniş odlu silah – qəlpə yarası, kəllə sümüklərinin qəlpəli sınıqları, baş beyinin əzilib dağılması |
| 31. | naməlum kişi | 23-28 yaş | başın, qarının və aşağı ətrafların bud nahiyələrində, öndə dörd ədəd odlu silah-qəlpə yaraları, üz skeleti və sol bud sümüklərinin sınıqları, mədəni dəlib keçən yaralar |
| 32. | naməlum kişi | 22-26 yaş | başın alın nahiyəsində bir ədəd kəllə boşluğuna keçən, kəllə sümüklərinin və baş beyinin zədələnməsi ilə müşayiət olunan odlu |

| | | | |
|---|---|---|---|
| | | | silah – güllə yarası |
| 33. | naməlum kişi | 25-30 yaş | boyunun sınığı ilə müşayiət olunan odlu silah yarası, başın alın nahiyəsinin və üst dodağın kəsilmiş yaraları |
| 34. | naməlum kişi | 24-28 yaş | döş qəfəsinin sol yarısında, öndə üç ədəd,4-5-ci qabırğaların sınıqları ilə müşayiət olunan, daxilə keçən kor odlu silah – güllə yaraları |
| 35. | naməlum kişi | 20-25 yaş | döş qəfəsinin arxa səthində qabırğanın sınığı və ağciyərin dağılması ilə müşayiət olunan odlu silah yarası |
| 36. | naməlum kişi | 22-28 yaş | döş qəfəsinin arxa səthində, sağda döş boşluğuna keçən, ağ ciyərin dağılması ilə müşayiət olunan odlu silah- qəlpə yarası, sağ budun arxa səthində bir ədəd kor odlu silah yarası |
| 37. | naməlum kişi | 25-30 yaş | qarın divarının boşluğa keçən 4 ədəd odlu silah – güllə yaraları, yuxarı ətrafların və döş qəfəsinin önündə beş ədəd odlu silah- qəlpə yaraları |
| 38. | naməlum kişi | 30-35 yaş | başın alın nahiyəsində iki ədəd kəllə boşluğuna keçən kor odlu silah yarası, üz skeleti sümüklərinin qəlpəli sınığı, sağ gözün odlu silah qəlpələri ilə dağılması |
| 39. | naməlum kişi | 20-25 yaş | döş qəfəsinin arxa səthində beş ədəd daxilə keçən odlu silah yaraları, kürək və qabırğa sümüklərinin sınıqları |
| 40. | naməlum kişi | 27-32 yaş | döş qəfəsinin üç ədəd daxilə keçən güllə yaraları |
| 41. | naməlum kişi | 22-25 yaş | qarının daxilə keçən odlu silah- qəlpə yaraları, sifətin qəlpə yaraları |
| 42. | naməlum kişi | 25-30 yaş | kəllə qapağı sümüklərinin sınıqları,sağ çiyin nahiyəsində boşluğa keçən odlu silah - güllə yarası |
| 43. | naməlum kişi | 30-35 yaş | başın travmatik amputasiyası |
| 44. | naməlum kişi | 25-35 yaş | döş qəfəsində 4 ədəd dəlib keçən odlu silah-güllə yaraları, qulaq seyvanlarının və xarici cinsiyyət üzvünün kəsilməsi |
| 45. | naməlum kişi | 20-30 yaş | boyunun kəsilmiş yarası, budun güllə yarası |
| 46. | naməlum kişi | 25-35 | döş qəfəsinin ön səthində daxilə keçən güllə |

| | | | |
|---|---|---|---|
| | | yaş | yarası, qulaq seyvanının və xarici cinsiyyət üzvünün kəsilməsi, döş qəfəsi nahiyəsində kəsilmiş yaralar |
| 47. | naməlum kişi | 20-25 yaş | başın boşluğa keçən güllə yarası, göz almalarının çıxarılması, başın kəsilmiş yaraları |
| 48. | naməlum kişi | 20-30 yaş | başın, boyunun və sol çiyinin güllə yaraları, gözlərin çıxarılması, qulaq seyvanının kəsilməsi |
| 49. | Naməlum kişi /Haqverdiyev Maarif Göygöz oğlu/ | | döş qəfəsinin dəlib keçən çoxlu qəlpə yaraları |
| 50. | naməlum kişi | 24-28 yaş | qarının ön divarında daxilə keçən qəlpə yarası, burunun ucunun kəsilməsi və üst dodağın kəsilmiş-deşilmiş yaraları |

## *Xocalı rayonu Kərkicahan qəsəbəsi üzrə ermənilər tərəfindən qətlə yetirilmiş şəxslərin siyahısı*

| **Sıra №** | ***Soyadı, adı, atasının adı*** | **Təvəll.** | **Ölümün səbəbi** |
|---|---|---|---|
| 1. | Abbasov Eyvaz Kamran oğlu | 1983 | güllə yarası |
| 2. | Abbasov Elxan Kamran oğlu | 1970 | güllə yarası |
| 3. | Atakişiyev Fərhad Rəhman oğlu | 1970 | güllə yarası |
| 4. | Babayev Bakir Bəbir oğlu | 1965 | güllə yarası |
| 5. | Babayev Bəbir Əsgər oğlu | 1942 | güllə yarası |
| 6. | Babayev Qədir Əsgər oğlu | 1935 | güllə yarası |
| 7. | Babayeva Qəribə Muxtar qızı | 1938 | güllə yarası |
| 8. | Hüseynov Hüseyn Şükür oğlu | 1956 | güllə yarası |
| 9. | Həsənov Telman Yelmar oğlu | 1939 | güllə yarası |
| 10. | Həsənov Tofiq Bəylər oğlu | 1970 | güllə yarası |
| 11. | Həsənov Vahid Möhsüm oğlu | 1958 | güllə yarası |
| 12. | Mirzəyev Kamal Abbas oğlu | 1962 | güllə yarası |
| 13. | Nəcəfov Alov Nəsib oğlu | 1966 | güllə yarası |
| 14. | Qarayev Asif Qarakişi oğlu | 1953 | güllə yarası |
| 15. | Qarayev Saleh Asif oğlu | 1982 | güllə yarası |
| 16. | Quliyev İslam İdris oğlu | 1957 | güllə yarası |
| 17. | Rzayev Tapdıq Köçəri oğlu | 1964 | güllə yarası |
| 18. | Salahova Şəkər Saday qızı | 1963 | güllə yarası |

| | | | |
|---|---|---|---|
| 19. | Səfərov Orduxan Aydın oğlu | 1961 | güllə yarası |
| 20. | Səfərov Osman Aydın oğlu | 1964 | güllə yarası |
| 21. | Səfərov Şahverdi Bəhlul oğlu | 1956 | güllə yarası |
| 22. | Səlimov Rəfayıl Elyas oğlu | 1970 | güllə yarası |
| 23. | Səmədov Gündüz Hidayət oğlu | 1957 | güllə yarası |
| 24. | Zeynalov Osman Bahadur oğlu | 1959 | güllə yarası |
| 25. | Zeynalov Tahir Bahadur oğlu | 1963 | güllə yarası |
| 26. | İsmayılov Elyas Bayram oğlu | 1938 | güllə yarası |
| 27. | İsmayılova Şövkət Oruc qızı | 1940 | güllə yarası |
| 28. | Ş ahmuradov Natiq Əmirxan oğlu | 1965 | güllə yarası |
| 29. | Şahmuradov Namiq Əmirxan oğlu | 1965 | güllə yarası |
| 30. | Şükürov Tofıq Zakir oğlu | 1964 | güllə yarası |
| 31. | Şükürov Vəkil İspəndiyar oğlu | 1947 | güllə yarası |
| 32. | Əhmədov Vaqif İslam oğlu | 1957 | güllə yarası |
| 33. | Əliyev Ayaz Elman oğlu | 1970 | güllə yarası |
| 34. | Əliyev İlham Bahadur oğlu | 1966 | güllə yarası |
| 35. | Ələsgərov Məzahir Məhərrəm oğlu | 1969 | güllə yarası |

## *Xocalı rayonu Kosalar kəndi üzrə ermənilər tərəfindən qətlə yetirilmiş şəxslərin siyahısı*

| **Sıra №** | ***Soyadı, adı, atasının adı*** | **Təvəl.** | **Ölümün səbəbi** |
|---|---|---|---|
| 1. | **Abdullayeva Maya Saleh qızı** | 1908 | güllə yarası |
| 2. | Abdullayev Mahir Tanrıverdi oğlu | 1971 | güllə yarası |
| *3.* | *Abdullayeva Maya Sərhad qızı* | 1986 | güllə yarası |
| 4. | Ağayev Rasim Mirsalah oğlu | 1967 | güllə yarası |
| 5. | Bayramov Cəllad Səməd oğlu | 1948 | güllə yarası |
| 6. | Cəbrayılov Mikayıl Ə. | | güllə yarası |
| 7. | Fərmanov Mübariz İsrəfıl oğlu | | güllə yarası |
| 8. | Hacıyev Alim Əjdər oğlu | | güllə yarası |
| 9. | Hüseynov Yaşar | | güllə yarası |
| 10. | Həsənov Elşad Qaçay oğlu | 1949 | güllə yarası |
| 11. | Həsənov Ramiz Allahverdi oğlu | 1971 | güllə yarası |
| 12. | Həsənov Tabil Qasım oğlu | 1960 | güllə yarası |
| 13. | Məmmədov Sərvər Yelmar oğlu | 1970 | güllə yarası |
| 14. | Məmmədov Zakir Qasım oğlu | 1966 | güllə yarası |
| 15. | Pənahov Mübariz Sabir oğlu | | güllə yarası |
| 16. | Quliyev Fərhad Səfər oğlu | 1970 | güllə yarası |

| | | | |
|---|---|---|---|
| 17. | Quliyev Şahbaz Mürsəl oğlu | 1924 | güllə yarası |
| 18. | Qəhrəmanov Polad | | güllə yarası |
| 19. | Rüstəmov Eldar Əmir oğlu | 1988 | güllə yarası |
| 20. | İbrahimli Xəqani | | güllə yarası |
| 21. | Səfərov Mübariz Əsəd | | güllə yarası |
| 22. | Əliyev Arzu | | güllə yarası |
| 23. | Əlıyev Nadir Qaçay oğlu | 1967 | güllə yarası |
| 24. | Əsgərov Xəzani Kərəm oğlu | 1962 | güllə yarası |

## *Xocalı rayonu Cəmilli kəndi üzrə ermənilər tərəfindən qətlə yetirilmiş şəxslərin siyahısı*

| Sıra № | Soyadı, adı, atasının adı | **Təvəl.** | Ölümün səbəbi |
|---|---|---|---|
| 1. | Cabbarov Xıdır Sədrəddin oğlu | 1969 | **güllə yarası** |
| 2. | **Cavadov Vaqif Əliş oğlu** | 1966 | **güllə yarası** |
| *3.* | Cavadov Əhməd Əmir oğlu | 1973 | **güllə yarası** |
| 4. | Mehdiyev Fikrət Burzu oğlu | 1968 | **güllə yarası** |
| 5. | Sadıqov Vaqif İmamverdi oğlu | 1952 | **güllə yarası** |
| 6. | Salahov Natiq Faydalı oğlu | 1961 | **güllə yarası** |
| 7. | Salahov Şakir Şəmil oğlu | 1966 | **güllə yarası** |
| 8. | Zeynalov Məmməd Mikayıl oğlu | 1948 | **güllə yarası** |
| 9. | İsmayılov Bəhram Mətləb oğlu | 1967 | **güllə yarası** |

## *Erməni hərbçiləri tərəfindən əsir götürülmüş və aqibətləri barədə heç bir məlumat olmayan şəxslərin siyahısı*

| Sıra № | *Soyadı, adı, atasının adı* | Doğulduğu il |
|---|---|---|
| 1. | Bağırov Elşən Həsən oğlu | 1965 |
| 2. | Binəliyev Cabbar Gülələ oğlu | 1969 |
| 3. | Binəliyev Əlişir Gülələ oğlu | 1967 |
| 4. | Qarayev Yusifəli Süleyman oğlu | 1972 |
| 5. | Zeynalov Tofiq Aslan oğlu | 1959 |
| 6. | Məmişov Şahin Talış oğlu | 1959 |
| 7. | Məmmədov Möhlət Məmməd oğlu | 1975 |
| 8. | Məmmədov Məmməd Rəhim oğlu | 1946 |
| 9. | Məmmədov Söhbət Məmməd oğlu | 1974 |
| 10. | Orucov Famil Əli oğlu | 1971 |
| 11. | Səlimov Xəzər Səyavuş oğlu | 1974 |
| 12. | Səlimova Tamilə Ağamirzə qızı | 1935 |
| 13. | Usubov Elşad Kamran oğlu | 1974 |
| 14. | Usubov Zakir Kamran oğlu | 1964 |
| 15. | Usubov Səyavuş Ramiz oğlu | 1971 |
| 16. | Usubov Əliyar Kamran oğlu | 1967 |
| 17. | Şahverdiyev Vüqar Məmməd oğlu | 1973 |
| 18. | Şahmuradov Nemət Musa oğlu | 1957 |
| 19. | Hüseynov Vüqar Hilal oğlu | 1971 |
| 20. | Hüseynov Məsər Elxan oğlu | 1991 |
| 21. | Hüseynov Rəcəb Elxan oğlu | 1985 |
| 22. | Hüseynova Mehriban Allahverdi qızı | 1965 |
| 23. | Hüseynova Şəbnəm Elxan qızı | 1987 |
| 24. | Həsənov Rövşən Qaçay oğlu | 1958 |
| 25. | Cabbarov Azad Pirqulu oğlu | 1967 |
| 26. | Əbdülov Zahid Yelmar oğlu | 1973 |
| 27. | Əliyev Ülfət İman oğlu | 1970 |
| 28. | Əliyeva Svetlana Cavanşir qızı | 1958 |
| 29. | Əliyeva Xavət Yusif qızı | 1930 |
| 30. | Əliməmmədov Namiq Şahmalı oğlu | 1962 |

## *Xocalı soyqırımı zamanı diri-diri yandırılmış şəxslərin siyahısı*

| Sıra № | Soyadı, adı, atasının adı | Təvəllüdü |
|---|---|---|
| 1. | Abbasov Vəliyəddin Umudvar oğlu | 1963 |
| 2. | Abbasova Suğra Əliş qızı | 1917 |
| 3. | Abbasova Həmayə Canış qızı | 1941 |
| 4. | Abışov Çingiz Nazim oğlu | 1981 |
| 5. | Abışova Minarə Rəhim qızı | 1922 |
| 6. | Abışova Mədinə Bədirxan qızı | 1908 |
| 7. | Abışova Məhbubə Qurban qızı | 1963 |
| 8. | Abışova Çinarə Nazim qızı | 1982 |
| 9. | Allahverdiyev Ziyadxan Saleh oğlu | 1957 |
| 10. | Allahverdiyev Mahir Novruz oğlu | 1975 |
| 11. | Allahverdiyev Novruz Saleh oğlu | 1947 |
| 12. | Allahverdiyev Saleh İmamqulu oğlu | 1920 |
| 13. | Alıyev Alı Mehrəli oğlu | 1931 |
| 14. | Alıyeva İntizar Alı qızı | 14 yaş |
| 15. | Alıyeva Firuzə Alı qızı | 15 yaş |
| 16. | Ağayarov Nəbi İsaq oğlu | 1981 |
| 17. | Ağayarov Roman İsaq oğlu | 1985 |
| 18. | Ağayarova Sevinc İsaq qızı | 1984 |
| 19. | Ağalarov Sadıq Şirxan oğlu | 1920 |
| 20. | Ağalarova Güllü Surxay qızı | 1928 |
| 21. | Bədişov Alı Rəis oğlu | 1968 |
| 22. | Vəliyeva Güldanə Zakir qızı | 1989 |
| 23. | Qasımov Ağa Bayram oğlu | 1962 |
| 24. | Qasımova Nərminə Nizami qızı | 1960 |
| 25. | Qasımova Rəsmiyyə Ağa qızı | 1981 |
| 26. | Quliyev Elçin Balağa oğlu | 1965 |
| 27. | Alıyev Elçin Alı oğlu | 13 yaş |
| 28. | Zamanov Məcnun Zaman oğlu | 1969 |
| 29. | Zeynalov Eldar Aslan oğlu | 1964 |
| 30. | İbrahimova Fatma Mədət qızı | 1958 |
| 31. | İsmayılov İsmayıl Bəhman oğlu | 1955 |
| 32. | Kazımov Asif Kazım oğlu | 1962 |
| 33. | Kərimov İntiqam Şahmalı oğlu | 1960 |

| | | |
|---|---|---|
| 34. | Kərimov Rəşid Rəhim oğlu | 1925 |
| 35. | Kərimov Soltan Səmran oğlu | 1959 |
| 36. | Mahmudov Əhliman Behbud oğlu | 1941 |
| 37. | Mehdiyev İlham İmdad oğlu | 1967 |
| 38. | Mehdiyeva Gülzar Əsəd qızı | 45 yaş |
| 39. | Mehrəliyev Orxan Əli oğlu | 1980 |
| 40. | Muradov Paşa Əsgər oğlu | 1939 |
| 41. | Məmişov (40 günlük uşaq) | 1992 |
| 42. | Məmmədov Aydın Qurban oğlu | 1967 |
| 43. | Məmmədov Kamil Əmir oğlu | 1958 |
| 44. | Məmmədov Məhəmməd Qədir oğlu | 1935 |
| 45. | Məmmədov Razmik Suren oğlu | 1965 |
| 46. | Məmmədov Talış İmran oğlu | 1934 |
| 47. | Məmmədova (Cəfərova) Şövkət İbad qızı | 1963 |
| 48. | Məmmədova Lətifə İbad qızı (2 uşağı ilə) | 1958 |
| 49. | Məmmədova Məleykə Ataş qızı | 1933 |
| 50. | Məmmədova Səltənət Zülal qızı (ailəsi ilə) | 1931 |
| 51. | Məhərrəmov Vaqif Cəmil oğlu | 1951 |
| 52. | Məhərrəmova Nazlı Vəli qızı | 1953 |
| 53. | Nişanə Xocalının anası | - |
| 54. | Nişanə Xocalının atası | - |
| 55. | Novruzov Əkbər Cənnət oğlu | 1966 |
| 56. | Nuriyev Aydın Nəriman oğlu | 1966 |
| 57. | Nəzərli Hikmət Baba oğlu | 1966 |
| 58. | Nəsirova Tatyana Dmitriyevna | 1952 |
| 59. | Nəcəfov Şiraslan Məmiş oğlu | 1952 |
| 60. | Orucov Cavan Canan oğlu | 1976 |
| 61. | Rəşidov Adil Məmməd oğlu | 1941 |
| 62. | Rəşidov Nazim Adil oğlu | 1972 |
| 63. | Səlimov Seydi Mikayıl oğlu | 1930 |
| 64. | Səlimova Adilə Allahverdi qızı | 1930 |
| 65. | Usmanov İslam Murat oğlu | 1967 |
| 66. | Fəzliyev Qədim Fəzli oğlu | 1954 |
| 67. | Şahveranov Məhərrəm Çodar oğlu | 1930 |
| 68. | Şahmurov Mübariz Ağahüseyn oğlu | 1963 |
| 69. | Şükürov Akif Rəsul oğlu | 1965 |
| 70. | Şükürova Əntiqə Əli qızı | 1934 |
| 71. | Haqverdiyev Şahin Məşdi oğlu | 1958 |

| | | |
|---|---|---|
| 72. | Hacıyev Süleyman Lətif oğlu | 1949 |
| 73. | Hacıyev Tahir Hacı oğlu | 1957 |
| 74. | Hümbətov Talış İsgəndər oğlu | 1926 |
| 75. | Hümbətov Hətəm Qurban oğlu | 1961 |
| 76. | Hüseynov Bakir Mirsiyab oğlu | 1956 |
| 77. | Hüseynov Emin Aleksandr oğlu | 1965 |
| 78. | Hüseynov Zöhrab Hüseyn oğlu | 1974 |
| 79. | Hüseynov Mirsiyab Həsrətqulu oğlu | 1930 |
| 80. | Hüseynov Çingiz Yusif oğlu | 1955 |
| 81. | Hüseynov Şakir Mustafa oğlu | 1960 |
| 82. | Hüseynov Hüseyn İsmayıl oğlu | 1930 |
| 83. | Hüseynova (Ələsgərova) Məxmər Qurban qızı | 1949 |
| 84. | Hüseynova Mina Cümşüd qızı | 1934 |
| 85. | Hüseynova Növrəstə Fərmail qızı | 1922 |
| 86. | Hüseynova Nəsibə (Emma) Hüseyn qızı | 1982 |
| 87. | Hüseynova Rəsmiyyə Aleksandr qızı | 1967 |
| 88. | Hüseynova Süsən Hüseyn qızı | 1971 |
| 89. | Hüseynova Xoşbəxt Hüseyn qızı | 1963 |
| 90. | Hüseynova Əzizə | 1956 |
| 91. | Hüseynova Ətrabə Cəbrayıl qızı | 1973 |
| 92. | Həmdiyev Usman Həmdi oğlu | 1954 |
| 93. | Həmidova Kifayət Çıraq qızı | 1957 |
| 94. | Həsənova Qətibə Mirsiyab qızı | 1951 |
| 95. | Həsənova Məxmər Ələkbər qızı | 1942 |
| 96. | Həsənova Günəş Əli (Əbdül) qızı | 1910 |
| 97. | Cavadov Əli Müsül oğlu | 1954 |
| 98. | Cəfərov Anar (Nüsrət) Fazil oğlu | 1962 |
| 99. | Cəfərov Məhəmməd Vəlikişi oğlu | 1915 |
| 100. | Cəfərov Samir Tacir oğlu | 1988 |
| 101. | Cəfərova Bağdad Həsən qızı | 1925 |
| 102. | Əbilov Məzahir Yaqub oğlu | 1969 |
| 103. | Əzizov Mehman Qüdrət oğlu | 1959 |
| 104. | Əzizov Fikrət Abbas oğlu | 1961 |
| 105. | Əzimov Akif Seydulla oğlu | 1962 |
| 106. | Əliyev Ağali Nayib oğlu | 1933 |
| 107. | Əliyev Elçin Firdovsi oğlu | 1982 |
| 108. | Əliyev Elgiz Firdovsi oğlu | 1984 |
| 109. | Əliyev Mikayıl Atababa oğlu | 1968 |

| | | |
|---|---|---|
| 110. | Əliyev Səbuhi Cahangir oğlu | 1981 |
| 111. | Əliyev Səlim Cahangir oğlu | 1987 |
| 112. | Əliyev Firdovsi İsa oğlu | 1956 |
| 113. | Əliyeva Sürəyya Behbud qızı | 1933 |
| 114. | Əliyeva (Hüseynova) Heyran Mürşüd qızı | 1962 |
| 115. | Əliyeva Çiçək Ələsgər qızı | 1931 |
| 116. | Əhmədov Eldar Nayib oğlu | 1945 |
| 117. | Əhmədov Rəfil Nayib oğlu | 1948 |
| 118. | Əhmədova Durna Salman qızı | 1922 |
| 119. | Əhmədova Zibeydə Bədəl qızı | 1937 |

## *Xocalı soyqırımı zamanı ermənilər tərəfindən əsir götürülmüş və bu gün də itkin olan şəxslərin siyahısı*

| **Sıra №** | ***Soyadı, adı, atasının adı*** | **Təvəl.** | **Əsir düşmə tarixi** | **Azad olunma tarixi** |
|---|---|---|---|---|
| 1. | Abbasov Ələmdar Məmmədvəli oğlu | 1946 | 27.02.1992 | 28.03.1992 |
| 2. | Abbasov Elbrus Ələmdar oğlu | 1970 | 26.02.1992 | 25.05.1992 |
| 3. | Abbasov Salman (Samson) Məşədi oğlu | 1940 | 02.03.1992 | 07.03.1992 |
| 4. | Abbasov Umudvar Məşədi oğlu | 1916 | 27.02.1992 | 19.03.1992 |
| 5. | Abbasova Bəsti Əsgər qızı | 1946 | 28.02.1992 | 09.03.1992 |
| 6. | Abbasova Mələk Allahverdi qızı | 1952 | 27.02.1992 | 28.02.1992 |
| 7. | Abbasova Mənsurə Salman (Samson) qızı | 1976 | 28.02.1992 | 03.03.1992 |
| 8. | Abbasova Məruzə Salman (Samson) qızı | 1971 | 26.02.1992 | 03.03.1992 |
| 9. | Abbasova Nərgiz (Ləfxanım) Salman (Samson) qızı | 1982 | 26.02.1992 | 02.03.1992 |
| 10. | Abbasova Humay Müseyib qızı | 1930 | 26.02.1992 | 02.03.1992 |
| 11. | Abbasova Göyçək Qabil qızı | 1966 | 26.02.1992 | 26.02.1992 |
| 12. | Abdullayeva Vüsalə İlham qızı | 1987 | 26.02.1992 | 02.03.1992 |
| 13. | Abdullayeva Sənəm Həsən qızı | 1962 | 26.02.1992 | 05.03.1992 |
| 14. | Abdullayeva Xəyalə İlham qızı | 1992 | 26.02.1992 | 02.03.1992 |
| 15. | Abdulov Ceyhun Kamil oğlu | 1981 | 26.02.1992 | 02.04.1992 |
| 16. | Abdulova Sevil Mürsəl qızı | 1954 | 26.02.1992 | 28.02.1992 |

| | | | | |
|---|---|---|---|---|
| 17. | Abışov İlqar Niyaz oğlu | 1964 | 26.02.1992 | 14.03.1992 |
| 18. | Abışov İlham Niyaz oğlu | 1962 | 26.02.1992 | 14.03.1992 |
| 19. | Abışov İntizam Niyaz oğlu | 1970 | 26.02.1992 | 12.03.1992 |
| 20. | Abışov Kamal Məmməd oğlu | 1934 | 28.02.1992 | 14.04.1992 |
| 21. | Abışov Məhəmməd Kamal oğlu | 1986 | 26.02.1992 | 02.03.1992 |
| 22. | Abışov Səadət (Səxavət) Niyaz oğlu | 1967 | 26.02.1992 | 14.03.1992 |
| 23. | Abışova (Cəfərova) Xəzənqül Əli qızı | 1952 | 26.02.1992 | 02.03.1992 |
| 24. | Abışova Mətanət Kamal qızı | 1989 | 26.02.1992 | 02.03.1992 |
| 25. | Abışova Məhluqə Əmrah qızı | 1943 | 27.02.1992 | 28.02.1992 |
| 26. | Abışova Tərlan Məmməd qızı | 1933 | 26.02.1992 | 28.02.1992 |
| 27. | Allahverdiyev Elşən Saleh oğlu | 1969 | 26.02.1992 | 28.02.1992 |
| 28. | Allahverdiyev Mirzə Saleh oğlu | 1952 | 27.02.1992 | 12.03.1992 |
| 29. | Allahverdiyeva (Talıbova) Mehriban Səməd qızı | 1972 | 04.03.1992 | 14.03.1992 |
| 30. | Allahverdiyeva Məleykə Möhsüm qızı | 1919 | 26.02.1992 | 28.02.1992 |
| 31. | Allahyarov Məzahir Teymur oğlu | 1971 | 27.02.1992 | 28.02.1992 |
| 32. | Allahyarova Nazənin Teymur qızı | 1969 | 25.02.1992 | 27.02.1992 |
| 33. | Allahyarova Nəzakət Teymur qızı | 1965 | 25.02.1992 | 27.02.1992 |
| 34. | Aslanov Qəyum Bəhram oğlu | 1939 | 26.02.1992 | 12.04.1992 |
| 35. | Aslanova Sevinc Tofiq qızı | 1974 | 26.02.1992 | 24.04.1992 |
| 36. | Ağayarov Yunus Behbud oğlu | 1930 | 26.02.1992 | 30.03.1992 |
| 37. | Ağayev Elşad Allahverdi oğlu | 1976 | 25.02.1992 | 28.02.1992 |
| 38. | Ağayev Sərvər Səttar oğlu | 1979 | 28.02.1992 | 05.03.1992 |
| 39. | Ağayev Sərdar Səttar oğlu | 1976 | 28.02.1992 | 29.02.1992 |
| 40. | Ağayev Səttar Muxtar oğlu | 1937 | 25.02.1992 | 05.04.1992 |
| 41. | Ağayeva Dürdanə Allahverdi qızı | 1972 | 25.02.1992 | 04.03.1992 |
| 42. | Ağayeva Zabilə Allahverdi qızı | 1940 | 28.02.1992 | 05.03.1992 |
| 43. | Badışova Tuntul Məmmədəli oğlu | 1950 | 26.02.1992 | 28.02.1992 |
| 44. | Bayramov Tapdıq Allahverdi oğlu | 1928 | 27.02.1992 | 28.02.1992 |

| | | | | |
|---|---|---|---|---|
| 45. | Bayramova Sürəyya Qəmbər q. | 1930 | 27.02.1992 | 28.02.1992 |
| 46. | Bağırov (Həsənov) Elməddin Mirzə oğlu | 1981 | 27.02.1992 | 28.02.1992 |
| 47. | Bağırov (Həsənov) Ramin Mirzə oğlu | 1986 | 27.02.1992 | 28.02.1992 |
| 48. | Bağırov Həsən Hüseyn oğlu | 1922 | 26.02.1992 | 28.02.1992 |
| 49. | Behbudova Şahnaz Yusif qızı | 1959 | 26.02.1992 | 03.03.1992 |
| 50. | Bidzinova (Vəlibəyova) Qumru Musa qızı | 1965 | 26.02.1992 | 29.02.1992 |
| 51. | Bidzinova Asya Muşur qızı | 1926 | 26.02.1992 | 02.03.1992 |
| 52. | Binəliev Bəxtiyar Gülənli oğlu | 1965 | 26.02.1992 | 28.02.1992 |
| 53. | Binəliyev Sabir Əlişir oğlu | 1990 | 26.02.1992 | 29.02.1992 |
| 54. | Binəliyev Gülənli Binəli oğlu | 1941 | 26.02.1992 | 29.02.1992 |
| 55. | Binəliyeva (Badışova) Rəna Rəis qızı | 1971 | 26.02.1992 | 29.02.1992 |
| 56. | Binəliyeva Aişə Bayram qızı | 1943 | 26.02.1992 | 29.02.1992 |
| 57. | Binəliyeva Sevda Cabbar qızı | 1991 | 26.02.1992 | 29.02.1992 |
| 58. | Binəliyeva Firuzə Fərdi qızı | 1970 | 26.02.1992 | 29.02.1992 |
| 59. | Binəliyeva Həlimə Mərdəli qızı | 1971 | 26.02.1992 | 29.02.1992 |
| 60. | Bəxtiyarov İldırım Hüseyn oğlu | 1959 | 30.01.1991 | 30.01.1991 |
| 61. | Vəliyev Avaz Əliabbas oğlu | 1932 | 27.02.1992 | 28.02.1992 |
| 62. | Vəliyev Zakir Yusif oğlu | 1962 | 26.02.1992 | 13.03.1992 |
| 63. | Vəliyev Kamal Şahmar oğlu | 1958 | 28.02.1992 | 03.03.1992 |
| 64. | Vəliyev Fikrət Cavad oğlu | 1965 | 26.02.1992 | 01.03.1992 |
| 65. | Vəliyev Şahmar Əliabbas oğlu | 1934 | 28.02.1992 | 03.03.1992 |
| 66. | Vəliyev Əşrəf Məhəmməd oğlu | 1931 | 26.02.1992 | 12.04.1992 |
| 67. | Vəliyeva Afət Kamal qızı | 1988 | 28.02.1992 | 03.03.1992 |
| 68. | Vəliyeva Elmira İsgəndər qızı | 1957 | 26.02.1992 | 28.02.1992 |
| 69. | Vəliyeva Zəminə Əşrəf qızı | 1970 | 27.02.1992 | 28.02.1992 |
| 70. | Vəliyeva İradə Həsənqulu qızı | 1970 | 27.02.1992 | 28.03.1992 |
| 71. | Vəliyeva Sehranə Əşrəf qızı | 1964 | 27.02.1992 | 28.02.1992 |
| 72. | Vəliyeva Urzə Xanlar qızı | 1970 | 26.02.1992 | 28.02.1992 |
| 73. | Vəliyeva Gümüş Usub qızı | 1933 | 27.02.1992 | 28.02.1992 |
| 74. | Vəliyeva Əminə Əşrəf qızı | 1962 | 27.02.1992 | 28.02.1992 |
| 75. | Qarayev Ramil Yusifəli oğlu | 1988 | 27.02.1992 | 28.03.1992 |
| 76. | Qarayeva Lamiyə (Ramilə) Yusifəli qızı | 1988 | 27.02.1992 | 28.03.1992 |
| 77. | Qarayeva Narxanım Süleyman qızı | 1939 | 26.02.1992 | 02.03.1992 |

| | | | | |
|---|---|---|---|---|
| 78. | Qasımov Məhəmməd Salman oğlu | 1932 | 28.02.1992 | 12.04.1992 |
| 79. | Qasımova Qaratel Bəhmən qızı | 1938 | 26.02.1992 | 29.02.1992 |
| 80. | Quliyev (Hüseynov) Valeh Sahib oğlu | 1968 | 27.02.1992 | 22.03.1992 |
| 81. | Quliyev Azad Zahid oğlu | 1974 | 26.02.1992 | 14.03.1992 |
| 82. | Quliyev Fuad Hüseynağa oğlu | 1989 | 26.02.1992 | 25.03.1992 |
| 83. | Quliyev Hüseynağa Aydın oğlu | 1966 | 26.02.1992 | 29.02.1992 |
| 84. | Quliyev Əliş Mürsəl oğlu | 1935 | 27.02.1992 | 12.04.1992 |
| 85. | Quliyeva Dilşad Saday qızı | 1967 | 01.03.1992 | 03.03.1992 |
| 86. | Quliyeva Südabə Allahverdi qızı | 1938 | 26.02.1992 | 00.03.1992 |
| 87. | Qəhrəmanov (Rəcəbov) Elxan Hidayət oğlu | 1966 | 26.02.1992 | 05.03.1992 |
| 88. | Qəhrəmanova Əntiqə Baxşəlı qızı | 1930 | 26.02.1992 | 28.02.1992 |
| 89. | İbrahimova Zərifşan Hilal qızı | 1956 | 28.02.1992 | 02.03.1992 |
| 90. | İlyasov Veysəl Kamran oğlu | - | 26.02.1992 | 29.02.1992 |
| 91. | İlyasov Kamran Əhməd oğlu | 1990 | 26.02.1992 | 29.02.1992 |
| 92. | İlyasov Mürsəl Məhəmməd oğlu | 1976 | 25.02.1992 | 29.02.1992 |
| 93. | İlyasova Leyla Əhməd qızı | 1991 | 26.02.1992 | 29.02.1992 |
| 94. | İlyasova Səkinə Paşaəli qızı | 1972 | 00.02.1992 | 29.02.1992 |
| 95. | İlyasova Şuşa Qəmbər (Kamran) qızı | 1943 | 25.02.1992 | 29.02.1992 |
| 96. | İsbəndiyarov Hümbət Əsgər oğlu | 1932 | 27.02.1992 | 28.02.1992 |
| 97. | İsbəndiyarova Bəsti Şahməmməd qızı | 1932 | 27.02.1992 | 28.02.1992 |
| 98. | İsbəndiyarova Rahilə Hümbət qızı | 1960 | 27.02.1992 | 28.02.1992 |
| 99. | İsmayılov Nurməhəmməd Sədrəddin oğlu | 1955 | 26.02.1992 | 03.03.1992 |
| 100. | İsmayılov Səməndər İsmayıl oğlu | 1937 | 27.02.1992 | 12.04.1992 |
| 101. | İsgəndərov İlham Əfrail oğlu | 1977 | 26.02.1992 | 03.03.1992 |
| 102. | İsgəndərov Nəriman Əfrail oğlu | 1991 | 26.02.1992 | 01.03.1992 |
| 103. | İsgəndərov Telman Əfrail oğlu | 1987 | 26.02.1992 | 01.03.1992 |

| | | | | |
|---|---|---|---|---|
| 104. | İsgəndərova Kəmalə Əfrail qızı | 1984 | 26.02.1992 | 01.03.1992 |
| 105. | İsgəndərova Şahsənəm Əfrail qızı | 1980 | 26.02.1992 | 01.03.1992 |
| 106. | Kərimov Əbülfət Rəşid oğlu | 1960 | 28.02.1992 | 25.04.1992 |
| 107. | Kərimov Əlqait Yusif oğlu | 1989 | 27.02.1992 | - |
| 108. | Kərimova Aynurə Yusif qızı | 1986 | 27.02.1992 | - |
| 109. | Kərimova Aygün Yusif qızı | 1987 | 27.02.1992 | - |
| 110. | Kərimova Almara İfrat (Fitat) qızı | 1937 | 26.02.1992 | 01.03.1992 |
| 111. | Kərimova Elmira Şahmalı qızı | 1957 | 26.02.1992 | 03.03.1992 |
| 112. | Kərimova İltimas Möhtərəm qızı | 1957 | 27.02.1992 | - |
| 113. | Kərimova Yeganə Yusif qızı | 1991 | 27.02.1992 | - |
| 114. | Kərimova Sərinqül Yusif qızı | 1981 | 27.02.1992 | - |
| 115. | Kərimova Firəngül Furnuz qızı | 1984 | 26.02.1992 | 28.02.1992 |
| 116. | Mehrəliyev Cümşüd Hüsü oğlu | 1974 | 26.02.1992 | 27.03.1992 |
| 117. | Mehrəliyeva Zabilə Fərman qızı | 1942 | 26.02.1992 | 04.03.1992 |
| 118. | Mehdiyev Arzu Murad oğlu | 1991 | 26.02.1992 | 27.02.1992 |
| 119. | Mehdiyeva Sürayə Səftar qızı | 1930 | 27.02.1992 | 29.02.1992 |
| 120. | Mirzəyeva Səkinə | - | 26.02.1992 | 29.02.1992 |
| 121. | Muradov Alim Mərdəli oğlu | 1987 | 26.02.1992 | 29.02.1992 |
| 122. | Muradov Bayram Mərdəli oğlu | 1978 | 26.02.1992 | 01.03.1992 |
| 123. | Muradov Müşfiq Paşa oğlu | 1980 | 26.02.1992 | 04.03.1992 |
| 124. | Muradov Mərdəli Murad oğlu | 1946 | 26.02.1992 | 01.03.1992 |
| 125. | Muradova Rəfiqə Paşa qızı | 1976 | 26.02.1992 | 04.03.1992 |
| 126. | Muradova (Ümmətova) Zamirə Mərdəli qızı | 1978 | 26.02.1992 | 29.02.1992 |
| 127. | Muradova Qəndab Rəhim qızı | 1937 | 26.02.1992 | 04.03.1992 |
| 128. | Muradova Mehriban Müfti qızı | 1951 | 26.02.1992 | 01.03.1992 |
| 129. | Muradova Raim Mərdəlı qızı | 1980 | 26.02.1992 | 01.03.1992 |
| 130. | Muradova Səyarə Mərdəli qızı | 1974 | 26.02.1992 | 01.03.1992 |
| 131. | Muradova Səlimə Mərdəli qızı | 1973 | 26.02.1992 | 01.03.1992 |
| 132. | Musayev Elçin Rafail oğlu | 1981 | 26.02.1992 | 28.02.1992 |
| 133. | Musayev İntiqam Rafail oğlu | 1977 | 26.02.1992 | 28.02.1992 |
| 134. | Musayev Ramin Səlim oğlu | 1977 | 26.02.1992 | 28.03.1992 |
| 135. | Musayev Rafail Musa oğlu | 1956 | 26.02.1992 | 28.02.1992 |
| 136. | Musayev Səlim Musa oğlu | 1955 | 26.02.1992 | 28.03.1992 |
| 137. | Musayev Teymur Səlim oğlu | 1981 | 26.02.1992 | 28.03.1992 |
| 138. | Musayeva Məhluqə Cavad qızı | 1924 | 26.02.1992 | 28.02.1992 |

| | | | | |
|---|---|---|---|---|
| 139. | Mustafayev İsrafil Bəşir oğlu | 1940 | 26.02.1992 | 15.04.1992 |
| 140. | Mustafayev Taleh Vidadi oğlu | 1986 | 26.02.1992 | 28.02.1992 |
| 141. | Mustafayeva Ayşən Vidadi qızı | 1990 | 26.02.1992 | 28.02.1992 |
| 142. | Mustafayeva Kübra Əliş qızı | 1919 | 27.02.1992 | 29.02.1992 |
| 143. | Mustafayeva Səfaət Vidadi qızı | 1981 | 26.02.1992 | 28.02.1992 |
| 144. | Məmişova Xırda Məmmədəli qızı | 1930 | 26.02.1992 | 27.02.1992 |
| 145. | Məmmədov Aydın Cəlal oğlu | 1938 | 26.02.1992 | 28.02.1992 |
| 146. | Məmmədov Ziya Zülfi oğlu | 1991 | 26.02.1992 | 27.02.1992 |
| 147. | Məmmədov Zülfi İbrahim oğlu | 1974 | 27.02.1992 | 05.03.1992 |
| 148. | Məmmədov İbrahim Adil oğlu | 1927 | 27.02.1992 | 17.03.1992 |
| 149. | Məmmədov Yaqub Qadir oğlu | 1940 | 27.02.1992 | 23.03.1992 |
| 150. | Məmmədov Kamil Cəmil oğlu | 1960 | 27.02.1992 | 28.02.1992 |
| 151. | Məmmədov Lətif Süleyman oğlu | 1922 | 26.02.1992 | 28.02.1992 |
| 152. | Məmmədov Mürvət Məmməd oğlu | 1978 | 26.02.1992 | 28.02.1992 |
| 153. | Məmmədov Məmməd Cümşüd oğlu | 1932 | 27.02.1992 | 08.03.1992 |
| 154. | Məmmədov Namiq Nuriyət oğlu | 1987 | 26.02.1992 | 28.02.1992 |
| 155. | Məmmədov Nuriyət (Domboy) Namaz oğlu | 1962 | 26.02.1992 | 28.02.1992 |
| 156. | Məmmədov Real Füzuli oğlu | 1984 | 27.02.1992 | 28.02.1992 |
| 157. | Məmmədov Suren Heydər oğlu | 1942 | 27.02.1992 | 14.03.1992 |
| 158. | Məmmədov Səlim Fərəməz oğlu | 1965 | 26.02.1992 | 03.03.1992 |
| 159. | Məmmədov Fərman Qəzənfər oğlu | 1982 | 26.02.1992 | 28.12.1992 |
| 160. | Məmmədov Cəmil Cümşüd oğlu | 1934 | 26.02.1992 | 28.02.1992 |
| 161. | Məmmədova (Mehdiyeva) Nanə İbrahim qızı | 1964 | 26.02.1992 | 27.02.1992 |
| 162. | Məmmədova (Əliyeva) Yeganə Hüseyn qızı | 1963 | 26.02.1992 | 02.03.1992 |
| 163. | Məmmədova Aybəniz Rəşid qızı | - | 26.02.1992 | 27.02.1992 |
| 164. | Məmmədova Aygün Zülfi qızı | 1988 | 26.02.1992 | 27.02.1992 |
| 165. | Məmmədova Atlas Məmməd qızı | 1960 | 27.02.1992 | 28.02.1992 |

| | | | | |
|---|---|---|---|---|
| 166. | Məmmədova Züleyxa Şahverdi qızı | 1924 | 26.02.1992 | 03.03.1992 |
| 167. | Məmmədova Könül Füzuli qızı | 1968 | 27.02.1992 | 28.02.1992 |
| 168. | Məmmədova Lalə Məhəmməd qızı | 1936 | 28.02.1992 | 28.02.1992 |
| 169. | Məmmədova Məhbulə Həmdi qızı | 1955 | 25.02.1992 | 01.03.1992 |
| 170. | Məmmədova Narxanım Heydərəli qızı | 1953 | 26.02.1992 | 28.02.1992 |
| 171. | Məmmədova Səidə Cəmil qızı | 1962 | 27.02.1992 | 28.02.1992 |
| 172. | Məmmədova Tamaşa Qaytaran qızı | 1930 | 27.02.1992 | 28.02.1992 |
| 173. | Məmmədova Şeyda Məmməd qızı | 1973 | 27.02.1992 | 28.02.1992 |
| 174. | Məmmədova Şəndə Fərhad qızı | 1937 | 27.02.1992 | 28.02.1992 |
| 175. | Məmmədova Hafizə İbrahim qızı | - | 26.02.1992 | 27.02.1992 |
| 176. | Məmmədova Gülayə Səttar qızı | 1925 | 26.02.1992 | 27.02.1992 |
| 177. | Məmmədova Gülxar Şəfa qızı | 1965 | 27.02.1992 | 28.02.1992 |
| 178. | Məmmədova Gülövşə Bəxtiyar qızı | 1956 | 26.02.1992 | 28.02.1992 |
| 179. | Mərdəliyev İbrahim Mərdəli oğlu | 1955 | 26.02.1992 | 28.02.1992 |
| 180. | Mərdəliyeva Gülüstan Fəxrəddin qızı | 1959 | 27.02.1992 | 28.02.1992 |
| 181. | Namazov Vaqif Göyüş oğlu | 1955 | 26.02.1992 | 05.03.1992 |
| 182. | Nağıyev Məmməd Ağalar oğlu | 1953 | 27.02.1992 | 28.02.1992 |
| 183. | Nağıyev Hüseyn Behbud oğlu | 1926 | 27.02.1992 | 30.03.1992 |
| 184. | Nağıyeva Sahilə Yusif qızı | 1958 | 27.02.1992 | 28.02.1992 |
| 185. | Nağıyeva Şamama Yusif qızı | 1957 | 27.02.1992 | 28.02.1992 |
| 186. | Nağıyeva Əntiqə Dadaş qızı | 1930 | 26.02.1992 | 29.02.1992 |
| 187. | Nəbiyev Zaur Əli oğlu | 1976 | 27.02.1992 | 28.03.1992 |
| 188. | Nəbiyev Niftalı İbad oğlu | 1948 | 25.02.1992 | 12.04.1992 |
| 189. | Nəbiyev Əli İbad oğlu | 1940 | 29.02.1992 | 12.04.1992 |
| 190. | Nəsirova (Ələkbərova) Nərminə Kazım qızı | 1961 | 26.02.1992 | 28.02.1992 |
| 191. | Nəcəfov Vüqar Əli oğlu | 1960 | 26.02.1992 | 03.04.1992 |
| 192. | Nəcəfov Etibar Əli oğlu | 1964 | 26.02.1992 | 08.04.1992 |
| 193. | Nəcəfov Məhərrəm Əli oğlu | 1962 | 26.02.1992 | 29.04.1992 |

| | | | | |
|---|---|---|---|---|
| 194. | Nəcəfov Fazil Şiraslan oğlu | 1976 | 26.02.1992 | |
| 195. | Nəcəfov Gəray Əli oğlu | 1919 | 26.02.1992 | 28.02.1992 |
| 196. | Nəcəfov Əli Ağəli oğlu | 1928 | 26.02.1992 | 08.04.1992 |
| 197. | Nəcəfova Adilə Əli qızı | 1968 | 26.02.1992 | 05.03.1992 |
| 198. | Nəcəfova Ziba Məmməd qızı | 1932 | 26.02.1992 | 05.03.1992 |
| 199. | Orucov Mübariz Rəşid oğlu | 1979 | 26.02.1992 | 01.03.1992 |
| 200. | Orucov Nəbi Əli oğlu | 1964 | 25.02.1992 | 28.02.1992 |
| 201. | Orucov Ruslan Şakir oğlu | 1984 | 27.02.1992 | 01.03.1992 |
| 202. | Orucov Taleh Əli oğlu | 1971 | 25.02.1992 | 28.02.1992 |
| 203. | Orucov Canan Allahverdi oğlu | 1935 | 28.02.1992 | 03.03.1992 |
| 204. | Orucov Əli Dadaş oğlu | 1928 | 26.02.1992 | 28.04.1992 |
| 205. | Orucova (Quliyeva) Aybəniz Canan qızı | 1969 | 26.02.1992 | 25.03.1992 |
| 206. | Orucova Adilə Əli qızı | 1967 | 26.02.1992 | - |
| 207. | Orucova Qənirə Əli qızı | 1980 | 26.02.1992 | - |
| 208. | Orucova Rabiyə Əli qızı | 1968 | 26.02.1992 | - |
| 209. | Orucova Xanım Rəhim qızı | 1945 | 26.02.1992 | 28.04.1992 |
| 210. | Orucova Xədicə Həsən qızı | 1968 | 26.02.1992 | 02.03.1992 |
| 211. | Orucova Gülayə Abuzər qızı | 1939 | 26.02.1992 | - |
| 212. | Osmanov Ansar Cüməli oğlu | 1991 | 26.02.1992 | 28.02.1992 |
| 213. | Osmanov Bahadır Cüməli oğlu | 1988 | 26.02.1992 | 28.02.1992 |
| 214. | Osmanov Bəxtiyar Murad oğlu | 1968 | 26.02.1992 | 28.02.1992 |
| 215. | Osmanov İslam Murad oğlu | 1967 | 26.02.1992 | 28.02.1992 |
| 216. | Osmanov İsmayıl Murad oğlu | 1960 | 26.02.1992 | 28.02.1992 |
| 217. | Osmanov Murad Afət oğlu | 1922 | 26.02.1992 | 01.03.1992 |
| 218. | Osmanov Xanməmməd Murad oğlu | 1958 | 26.02.1992 | 28.02.1992 |
| 219. | Osmanov Həsən Xanməmməd oğlu | 1986 | 26.02.1992 | 28.02.1992 |
| 220. | Osmanov Cüməli Murad oğlu | 1963 | 26.02.1992 | 28.02.1992 |
| 221. | Osmanov Ənvər Cüməli oğlu | 1990 | 26.02.1992 | 28.02.1992 |
| 222. | Osmanova Yusən Xanməmməd qızı | 1986 | 26.02.1992 | 28.02.1992 |
| 223. | Osmanova Möhtəbər Muqum (Muqaddin) qızı | 1971 | 26.02.1992 | 28.02.1992 |
| 224. | Osmanova Möhtəbər Xanməmməd qızı | 1983 | 26.02.1992 | 28.02.1992 |
| 225. | Osmanova Məhəbbət Güləli qızı | 1963 | 26.02.1992 | 28.02.1992 |

| | | | | |
|---|---|---|---|---|
| 226. | Osmanova Nazəngül Murad qızı | 1956 | 25.02.1992 | 29.02.1992 |
| 227. | Osmanova Nəzakət Qoşəli qızı | 1972 | 26.02.1992 | 28.02.1992 |
| 228. | Osmanova Sabilə Xanməmməd qızı | 1985 | 26.02.1992 | 28.02.1992 |
| 229. | Osmanova Hənifə Şamrad qızı | 1971 | 26.02.1992 | 28.02.1992 |
| 230. | Paşayev Elşad Sevindik oğlu | 1972 | 27.02.1992 | 28.02.1992 |
| 231. | Paşayev Sevindik Bəhlul oğlu | 1947 | 27.02.1992 | 12.04.1992 |
| 232. | Paşayeva (İsmayılova) Kübra Adil qızı | 1938 | 25.02.1992 | 04.03.1992 |
| 233. | Paşayeva İlahə Elşad qızı | 1991 | 26.02.1992 | 03.03.1992 |
| 234. | Paşayeva Yeganə Sevindik qızı | 1980 | 27.02.1992 | 28.02.1992 |
| 235. | Paşayeva Kamilə Bəhlul qızı | 1958 | 27.02.1992 | 28.02.1992 |
| 236. | Paşayeva Reyhan Bəylər qızı | 1952 | 27.02.1992 | 28.02.1992 |
| 237. | Paşayeva Tünzalə Sevindik qızı | 1975 | 27.02.1992 | 28.02.1992 |
| 238. | Paşayeva Təranə Sevindik qızı | 1978 | 27.02.1992 | 28.02.1992 |
| 239. | Paşayeva Gülanə Elşad qızı | 1989 | 26.02.1992 | 03.03.1992 |
| 240. | Rəcəbov Məmməd | - | 26.02.1992 | 29.03.1992 |
| 241. | Sadıqov Ramil Ramiz oğlu | 1981 | 25.12.1991 | 20.01.1992 |
| 242. | Sadıqova (Kərimova) Züleyxa Şahmalı qızı | 1947 | 26.02.1992 | 01.03.1992 |
| 243. | Sadıqova Yeganə Tahir qızı | 1973 | 26.02.1992 | 01.03.1992 |
| 244. | Salahov Məmməd Abduləli oğlu | - | 27.02.1992 | 28.02.1992 |
| 245. | Salmanov Məhəmməd Adışirin oğlu | 1952 | 27.02.1992 | 28.02.1992 |
| 246. | Sevdimalıyev Abbasəli Məhəmmədəli oğlu | 1960 | 26.02.1992 | 00.08.1992 |
| 247. | Süleymanov Zülfi Hətəm oğlu | 1964 | 27.02.1992 | 28.02.1992 |
| 248. | Səlimova Aygün Araz qızı | 1987 | 26.02.1992 | 01.03.1992 |
| 249. | Səlimova Nəzakət Səyavuş qızı | 1971 | 26.02.1992 | 03.03.1992 |
| 250. | Səlimova Nənəş Səməd qızı | 1930 | 26.02.1992 | 28.02.1992 |
| 251. | Səlimova Sara Səyavuş qızı | 1977 | 26.02.1992 | 03.03.1992 |
| 252. | Səfiyeva Nəsimə Mansur qızı | 1963 | 26.02.1992 | 27.02.1992 |
| 253. | Səfərov Elçin Kamal oğlu | 1987 | 26.02.1992 | 20.03.1992 |
| 254. | Səfərov Elşən Kamal oğlu | 1988 | 26.02.1992 | 20.03.1992 |
| 255. | Səfərov Kamal Cəlal oğlu | 1958 | 27.02.1992 | 14.03.1992 |
| 256. | Səfərova (Səlimova) Şəhla Bahadur qızı | 1956 | 26.02.1992 | 20.03.1992 |

| | | | | |
|---|---|---|---|---|
| 257. | Səfərova Lalə Kamal qızı | 1984 | 26.02.1992 | 20.03.1992 |
| 258. | Səfərova Leyla Kamal qızı | 1983 | 26.02.1992 | 20.03.1992 |
| 259. | Səfərova Mətanət Kamal qızı | 1991 | 26.02.1992 | 20.03.1992 |
| 260. | Taibov İsrail Müfti oğlu | 1969 | 29.12.1990 | 29.12.1990 |
| 261. | Taibov Xalid Müfti oğlu | 1959 | 29.12.1990 | 29.12.1990 |
| 262. | Talıbov Yavər Ənvər oğlu | 1983 | 26.02.1992 | - |
| 263. | Talıbov Səməd Rəhim oğlu | 1932 | 04.03.1992 | 14.03.1992 |
| 264. | Talıbov Xaliq Ənvər oğlu | 1984 | 26.02.1992 | 28.02.1992 |
| 265. | Talıbova Afət Səməd qızı | 1972 | 04.03.1992 | 14.03.1992 |
| 266. | Talıbova Ağca Alxan qızı | 1915 | 26.02.1992 | 04.03.1992 |
| 267. | Talıbova Nəsibə Rəhim qızı | 1954 | 26.02.1992 | 28.02.1992 |
| 268. | Talıbova Səbinə Firuddin qızı | 1972 | 04.03.1992 | 14.03.1992 |
| 269. | Talıbova Səriyə Ağa qızı | 1935 | 30.02.1992 | 06.03.1992 |
| 270. | Talıbova Şəhla Fəxrəddin qızı | 1966 | 04.03.1992 | 14.03.1992 |
| 271. | Usubov Kamran Hüseyn oğlu | 1926 | 27.02.1992 | 28.02.1992 |
| 272. | Usubov Ramiz Hüseyn oğlu | 1943 | 27.02.1992 | 01.04.1992 |
| 273. | Usubova (Nağıyeva) Anaxanım Usub qızı | 1930 | 27.02.1992 | 28.02.1992 |
| 274. | Usubova Rəfiqə İsi qızı | 1923 | 26.02.1992 | - |
| 275. | Fərəməzov İsrafil Fərəməz oğlu | 1955 | 26.02.1992 | 03.03.1992 |
| 276. | Fərəməzov Səfər İsrafil oğlu | 1983 | 26.02.1992 | 03.03.1992 |
| 277. | Xudayarov Abil Adil oğlu | 1950 | 26.02.1992 | 27.02.1992 |
| 278. | Xudayarov Adil Abil oğlu | 1986 | 26.02.1992 | 27.02.1992 |
| 279. | Xudayarov Vəfadar Səlim oğlu | 1973 | 27.02.1992 | 28.02.1992 |
| 280. | Xudayarov Kamal Səfyar oğlu | 1931 | 27.02.1992 | 12.04.1992 |
| 281. | Xudayarov Məzahir Adil oğlu | 1962 | 27.02.1992 | 28.02.1992 |
| 282. | Xudayarov Rövşən Adil oğlu | 1973 | 27.02.1992 | 28.02.1992 |
| 283. | Xudayarov Sabir Adil oğlu | 1958 | 26.02.1992 | 28.02.1992 |
| 284. | Xudayarov Sadiq Sabir oğlu | 1986 | 26.02.1992 | 28.02.1992 |
| 285. | Xudayarov Tarzan Abil oğlu | 1973 | 26.02.1992 | 29.02.1992 |
| 286. | Xudayarov Tariel Abil oğlu | 1976 | 26.02.1992 | 27.02.1992 |
| 287. | Xudayarova (Əliməmmədova) Zemfira Şahmalı qızı | 1961 | 26.02.1992 | 28.02.1992 |
| 288. | Xudayarova Reyhan Həsən qızı | 1951 | 27.02.1992 | 28.02.1992 |
| 289. | Xudayarova Şura İxtiyar qızı | 1925 | 28.02.1992 | 29.02.1992 |
| 290. | Xəlilov Bəhruz Xəlil oğlu | 1982 | 26.02.1992 | 28.02.1992 |
| 291. | Xəlilov Mahir İmran oğlu | 1968 | 26.02.1992 | 28.02.1992 |
| 292. | Xəlilova Könül Xəlil qızı | 1975 | 26.02.1992 | 28.02.1992 |
| 293. | Xəlilova Kəmalə Aydın qızı | - | 26.02.1992 | 28.03.1992 |

| | | | | |
|---|---|---|---|---|
| 294. | Xəlilova Nərminə Mahir qızı | 1991 | 26.02.1992 | 28.02.1992 |
| 295. | Xəlilova Səkinə Xəlil qızı | 1946 | 26.02.1992 | 28.02.1992 |
| 296. | Şamşadov Əli Məhəddin oğlu | - | 26.02.1992 | - |
| 297. | Şahmuradova Könul Neymət qızı | 1990 | 26.02.1992 | 28.03.1992 |
| 298. | Hacıyeva (Mustafayeva) Rahilə Rəşid qızı | 1961 | 26.02.1992 | 28.02.1992 |
| 299. | Hacıyev Qənaət Məmmədəli oğlu | 1937 | 28.02.1992 | 13.04.1992 |
| 300. | Hacıyeva (Xudayarova) Briliant (Gülşən) Adil qızı | 1956 | 27.02.1992 | 28.02.1992 |
| 301. | Hümbətov Məhəbbət Elxan oğlu | 1990 | 26.02.1992 | 27.02.1992 |
| 302. | Hümbətov Nadir Teymur oğlu | 1971 | 26.02.1992 | 27.02.1992 |
| 303. | Hümbətov Cəlil Hümbətəli oğlu | 1934 | 26.02.1992 | 12.04.1992 |
| 304. | Hümbətov Əmir Səlim oğlu | 1923 | 26.02.1992 | 05.03.1992 |
| 305. | Hüseynov Anar Əlövsət oğlu | 1985 | 27.02.1992 | 28.03.1992 |
| 306. | Hüseynov Elgiz Çingiz oğlu | 1978 | 26.02.1992 | 29.02.1992 |
| 307. | Hüseynov Kamil Dadaş oğlu | 1953 | 25.02.1992 | 24.08.1992 |
| 308. | Hüseynov Nəcəf Çingiz oğlu | 1984 | 26.02.1992 | 02.03.1992 |
| 309. | Hüseynov Rizvan Ramiz oğlu | 1968 | 27.02.1992 | 28.03.1992 |
| 310. | Hüseynova Rəvanə Əlövsət qızı | 1989 | 27.02.1992 | 28.02.1992 |
| 311. | Hüseynov Gündüz Çingiz oğlu | 1980 | 26.02.1992 | 29.02.1992 |
| 312. | Hüseynov Əlövsət Qurban oğlu | 1957 | 27.02.1992 | 28.03.1992 |
| 313. | Hüseynova Aytac Çingiz qızı | 1990 | 26.02.1992 | 29.02.1992 |
| 314. | Hüseynova Naidə Nəriman qızı | 1961 | 27.02.1992 | 28.03.1992 |
| 315. | Hüseynova Həlimə Rəşid qızı | 1955 | 26.02.1992 | 29.02.1992 |
| 316. | Həmidova (Səfiyeva) Elza Nəsib qızı | 1958 | 26.02.1992 | 28.02.1992 |
| 317. | Həsənov Şahlar Adil oğlu | 1936 | 26.02.1992 | - |
| 318. | Həsənov Həsən Seyidağa oğlu | 1933 | 26.02.1992 | 12.04.1992 |
| 319. | Həsənova Tərəqül (Təzəqül) Həsən qızı | 1972 | 26.02.1992 | 28.02.1992 |
| 320. | Həsənova Xuraman Qaçay qızı | 1957 | 27.02.1992 | 28.02.1992 |
| 321. | Həsənova Güleyşə Ələkbər qızı | 1936 | 26.02.1992 | 28.02.1992 |
| 322. | Cabbarov Nadir Cabbar oğlu | 1930 | 26.02.1992 | 28.02.1992 |
| 323. | Cavadov Nazim Əli oğlu | 1976 | 26.02.1992 | 26.02.1992 |

| | | | | |
|---|---|---|---|---|
| 324. | Cəfərov Cəfər Məmməd oğlu | 1939 | 26.02.1992 | 14.03.1992 |
| 325. | Cəfərova İradə Aydın qızı | 1965 | 27.02.1992 | 28.03.1992 |
| 326. | Əzizov Arif Qüdrət oğlu | 1956 | 27.02.1992 | 28.02.1992 |
| 327. | Əzizov Qüdrət Cümşüd oğlu | 1929 | 26.02.1992 | 15.04.1992 |
| 328. | Əzizov Ramin İbrahim oğlu | 1978 | 26.02.1992 | 01.03.1992 |
| 329. | Əzimov Aydın Abbasqulu oğlu | 1985 | 25.02.1992 | 27.02.1992 |
| 330. | Əzimov Elzamin Əli oğlu | 1980 | - | - |
| 331. | Əzimov Nəsib Sədulla oğlu | 1972 | 26.02.1992 | 15.03.1992 |
| 332. | Əliquliyev Təvəkkül Çıraq oğlu | 1951 | 21.01.1990 | 27.01.1990 |
| 333. | Əliyev Aydın Bəhlul oğlu | 1938 | 27.02.1992 | 28.03.1992 |
| 334. | Əliyev Arif Adil oğlu | 1942 | 03.09.1990 | 27.09.1990 |
| 335. | Əliyev İsa Əbdüləli oğlu | 1932 | 26.02.1992 | 05.03.1992 |
| 336. | Əliyev Mehman Aydın oğlu | 1966 | 27.02.1992 | 28.03.1992 |
| 337. | Əliyev Mehdi Firdovsi oğlu | 1988 | 26.02.1992 | 05.03.1992 |
| 338. | Əliyev Muradxan İsmayıl oğlu | 1960 | 27.02.1992 | 13.03.1992 |
| 339. | Əliyev Hüseyn Sarı oğlu | 1930 | 27.02.1992 | 12.04.1992 |
| 340. | Əliyeva Zoya Əli (Məmməd) qızı | 1956 | 28.02.1992 | 28.02.1992 |
| 341. | Əliyeva Yaqut Cavanşir qızı | 1955 | 29.02.1992 | 28.02.1992 |
| 342. | Əliyeva Mahirə Museyib qızı | 1942 | 27.02.1992 | 28.03.1992 |
| 343. | Əliyeva Minarə Üzeyir qızı | 1926 | 27.02.1992 | 29.03.1992 |
| 344. | Əliyeva Solmaz Bəhlul qızı | 1963 | 27.02.1992 | 28.02.1992 |
| 345. | Əliyeva Tərəqül (Təzəqül) Ələkbər qızı | 1951 | 26.02.1992 | 27.02.1992 |
| 346. | Əliyeva Filər Əmrah qızı | 1930 | 26.02.1992 | 01.03.1992 |
| 347. | Əliməmmədov Yaşar Şahmalı oğlu | 1956 | 27.02.1992 | 05.03.1992 |
| 348. | Əliməmmədov Sirac Yaşar oğlu | 1986 | 27.02.1992 | 05.03.1992 |
| 349. | Ələkbərov Bilman Əskər oğlu | 1955 | 26.02.1992 | 28.12.1992 |
| 350. | Ələkbərov Ramin Bilman oğlu | 1980 | 26.02.1992 | 28.02.1992 |
| 351. | Ələkbərova (Kərimova) Səidə Qurban qızı | 1964 | 26.02.1992 | 28.02.1992 |
| 352. | Ələkbərova (Rüstəmova) Asya Həsən qızı | 1958 | 26.02.1992 | 05.03.1992 |
| 353. | Ələsgərov Araz Zülfüqar oğlu | 1982 | 27.02.1992 | 01.04.1992 |
| 354. | Ələsgərova Qərənfil Misir qızı | 1952 | 27.02.1992 | 01.04.1992 |
| 355. | Ələsgərova Dünya Şəfa qızı | 1959 | 26.02.1992 | 28.02.1992 |
| 356. | Ələsgərova İradə Rəşid qızı | 1964 | 27.02.1992 | 01.03.1992 |
| 357. | Ələsgərova Nəzakət Zülfüqar qızı | 1977 | 26.02.1992 | - |

| | | | | |
|---|---|---|---|---|
| 358. | Ələsgərova Şərqiyə Hüseyn qızı | 1934 | 26.02.1992 | 29.02.1992 |
| 359. | Əmirov Vüsal Təvəkkül oğlu | 1991 | 26.02.1992 | 28.02.1992 |
| 360. | Əmirova Nigar Təvəkkül qızı | 1988 | 26.02.1992 | 28.02.1992 |
| 361. | Əmirova Xəzənqül Təvəkkül qızı | 1983 | 26.02.1992 | 28.02.1992 |
| 362. | Əsədov Anar Yalçın oğlu | 1981 | 26.02.1992 | 03.03.1992 |
| 363. | Əsədova Nərgiz Yalçın qızı | 1989 | 26.02.1992 | 03.03.1992 |
| 364. | Əhmədov Arif Naib oğlu | 1952 | 27.02.1992 | 28.02.1992 |
| 365. | Əhmədov Tural Arif oğlu | 1982 | 27.02.1992 | 28.02.1992 |
| 366. | Əhmədov Xəyal Arif oğlu | 1985 | 27.02.1992 | 28.02.1992 |
| 367. | Əhmədova Arifə Arif qızı | 1987 | 27.02.1992 | 28.02.1992 |
| 368. | Əhmədova Müşkünaz İsa qızı | 1960 | 26.02.1992 | 28.02.1992 |
| 369. | Əhmədova Nadya Əli qızı | 1960 | 26.02.1992 | 12.03.1992 |
| 370. | Əhmədova Salatın Elmar qızı | 1991 | 26.02.1992 | 28.02.1992 |

### *Erməni əsirliyində olduğu müddətdə erməni quldurları tərəfindən mütəmadi olaraq verilmiş işgəncə və əzablar nəticəsində aldıqları xəsarətlərin təsirindən vəfat etmiş azərbaycanlıların siyahısı*

| Sıra № | *Soyadı, adı, atasının adı* | Təv əl. | Əsir düşmə tarixi | Azad olunma tarixi |
|---|---|---|---|---|
| 1. | Abışov İlham Niyaz oğlu | 1962 | 26.02.1992 | 14.03.1992 |
| 2. | Abışov Kamal Məmməd oğlu | 1934 | 28.02.1992 | 14.04.1992 |
| 3. | Abışov Səadət (Səxavət) Niyaz oğlu | 1967 | 26.02.1992 | 14.03.1992 |
| 4. | Abışova (Cəfərova) Xəzənqül Əli qızı | 1952 | 26.02.1992 | 02.03.1992 |
| 5. | Abışova Tərlan Məmməd qızı | 1933 | 26.02.1992 | 28.02.1992 |
| 6. | Əzizov Qüdrət Cümşüd oğlu | 1929 | 26.02.1992 | 15.04.1992 |
| 7. | Əliyev Hüseyn Sarı oğlu | 1930 | 27.02.1992 | 12.04.1992 |
| 8. | Əliyev İsa Əbdüləli oğlu | 1932 | 26.02.1992 | 05.03.1992 |
| 9. | Allahyarova Nəzakət Teymur qızı | 1965 | 25.02.1992 | 27.02.1992 |
| 10. | Bağırov Həsən Hüseyn oğlu | 1922 | 26.02.1992 | 28.02.1992 |
| 11. | Vəliyev Kamal Şahmar oğlu | 1958 | 28.02.1992 | 03.03.1992 |
| 12. | Həsənov Həsən Seyidağa oğlu | 1933 | 26.02.1992 | 12.04.1992 |
| 13. | Hüseynov Rizvan Ramiz oğlu | 1968 | 27.02.1992 | 28.03.1992 |

| | | | | |
|---|---|---|---|---|
| 14. | Qasımov Məhəmməd Salman oğlu | 1932 | 28.02.1992 | 12.04.1992 |
| 15. | Məmmədov Aydın Cəlal oğlu | 1938 | 26.02.1992 | 28.02.1992 |
| 16. | Məmmədov İbrahim Adil oğlu | 1927 | 27.02.1992 | 17.03.1992 |
| 17. | Məmmədov Kamil Cəmil oğlu | 1960 | 27.02.1992 | 28.02.1992 |
| 18. | Məmmədova Züleyxa Şahverdi qızı | 1924 | 26.02.1992 | 03.03.1992 |
| 19. | Mustafayev İsrafil Bəşir oğlu | 1940 | 26.02.1992 | 15.04.1992 |
| 20. | Nəcəfov Əli Ağəli oğlu | 1928 | 26.02.1992 | 08.04.1992 |
| 21. | Nəcəfov Gəray Əli oğlu | 1919 | 26.02.1992 | 28.02.1992 |
| 22. | Nəcəfova Ziba Məmməd qızı | 1932 | 26.02.1992 | 05.03.1992 |
| 23. | Orucov Canan Allahverdi oğlu | 1935 | 28.02.1992 | 03.03.1992 |
| 24. | Salahov Məmməd Abduləli oğlu | - | 27.02.1992 | 28.02.1992 |
| 25. | Sevdimalıyev Abbasəli Məhəmmədəli oğlu | 1960 | 26.02.1992 | 00.08.1992 |
| 26. | Talıbova Ağca Alxan qızı | 1915 | 26.02.1992 | 04.03.1992 |
| 27. | Talıbova Nəsibə Rəhim qızı | 1954 | 26.02.1992 | 28.02.1992 |
| 28. | Usubova (Nağıyeva) Anaxanım Usub qızı | 1930 | 27.02.1992 | 28.02.1992 |
| 29. | Usubova Rəfiqə İsi qızı | 1923 | 26.02.1992 | - |
| 30. | Xudayarov Kamal Səfyar oğlu | 1931 | 27.02.1992 | 12.04.1992 |

### *Erməni quldurları tərəfindən 15-17 fevral 1992-ci il tarixdə qətlə yetirilmiş Qaradağlı kənd sakinlərinin siyahısı*

| Sıra № | Adı, soyadı, atasının adı | Qətlə yetirildiyi yer |
|---|---|---|
| 1. | Rüstəmova Zibər Alıhüseyn qızı | öz evinin həyətində qətlə yetirilmiş və cənazəsi də orada qalmışdır |
| 2. | Zeynalov Nobil Əliş oğlu | kənd qəbiristanlığının yanında qətlə yetirilmiş və Ağdam şəhəri «Uzun dərə» şəhidlər xiyabanında dəfn edilmiş |
| 3. | Həsənov Altay Məhəmməd oğlu | qəbiristanlığın yanında qətlə yetirilmiş, «Uzun dərə» şəhidlər xiyabanında dəfn edilmiş |
| 4. | Hüseynov Xanalı Həbib oğlu | qəbiristanlığın yanında qətlə yetirilmiş, «Uzun dərə» şəhidlər xiyabanında dəfn edilmiş |
| 5. | Bayramov Rəşid Həşim oğlu | çayın qırağında qətlə yetirilmiş və cənazəsi də orada qalmışdır |

| | | |
|---|---|---|
| 6. | Hüseynov Əsgər Səməd oğlu | həyatində qətlə yetirilmiş, «Uzun dərə» şəhidlər xiyabanında dəfn edilmiş |
| 7. | Bayramov Arif İbrahim oğlu | idarənin yanında qətlə yetirilmiş, «Uzun dərə» şəhidlər xiyabanında dəfn edilmiş |
| 8. | Dadaşov Manaf İslam oğlu | idarənin yanında qətlə yetirilmiş, «Uzun dərə» şəhidlər xiyabanında dəfn edilmiş |
| 9. | Kərimov Əliqismət Qara oğlu | idarənin yanında qətlə yetirilmiş, «Uzun dərə» şəhidlər xiyabanında dəfn edilmiş |
| 10. | Hüseynov Şahmurad Alıhüseyn oğlu | kənddə pirin yanında qətlə yetirilmiş, «Uzun dərə» şəhidlər xiyabanında dəfn edilmiş |
| 11. | Dadaşov Eldar İsa oğlu | kənddə pirin yanında qətlə yetirilmiş, «Uzun dərə» şəhidlər xiyabanında dəfn edilmiş |
| 12. | Hüseynov İbiş Həbib oğlu | kəndin 2 km-liyindəki «Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cənazəsi oradakı «Silos» quyusunda qalmışdır |
| 13. | Hüseynov Niftalı Bakir oğlu | «Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cənazəsi oradakı «Silos» quyusunda qalmışdır |
| 14. | Quliyev Nəbi Mütalif oğlu | «Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cənazəsi oradakı «Silos» quyusunda qalmışdır |
| 15. | Əliyev Xaliq Məhərrəm oğlu | «Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cənazəsi oradakı «Silos» quyusunda qalmışdır |
| 16. | Dadaşov Uğur Eldar oğlu | «Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cənazəsi oradakı «Silos» quyusunda qalmışdır |
| 17. | Abbasov Sərvər İldırım oğlu | «Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cənazəsi oradakı «Silos» quyusunda qalmışdır |
| 18. | Mustafayev Qərib Həsrət oğlu | «Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cənazəsi oradakı «Silos» quyusunda qalmışdır |
| 19. | Əzizov Alov Əfqar oğlu | «Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cənazəsi oradakı «Silos» quyusunda qalmışdır |
| 20. | Nağıyev Aftandil Xanlar oğlu | «Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cənazəsi oradakı «Silos» quyusunda qalmışdır |
| 21. | Əliyev Zahid Zeynal oğlu | «Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cənazəsi oradakı «Silos» quyusunda qalmışdır |
| 22. | Məmmədov Ədalət Şahmar oğlu | «Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cənazəsi oradakı «Silos» quyusunda qalmışdır |
| 23. | Məmmədov Məmməd Əmirxan oğlu | «Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cənazəsi oradakı «Silos» quyusunda qalmışdır |
| 24. | Rəhimov Məhi Surxay oğlu | «Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cənazəsi oradakı «Silos» quyusunda qalmışdır |
| 25. | Kazımov Nəsimi | «Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, |

| | | |
|---|---|---|
| | Kazım oğlu | cənazəsi oradakı «Silos» quyusunda qalmışdır |
| 26. | Məmmədov Ərastan Ağalar oğlu | «Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cənazəsi oradakı «Silos» quyusunda qalmışdır |
| 27. | Tağıyev Zakir Gülüm oğlu | «Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cənazəsi oradakı «Silos» quyusunda qalmışdır |
| 28. | Tağıyev Telman Tevon oğlu | «Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cənazəsi oradakı «Silos» quyusunda qalmışdır |
| 29. | Dolxanov Rəhim Möhkəmə oğlu | «Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cənazəsi oradakı «Silos» quyusunda qalmışdır |
| 30. | Tağıyev Fayaq Həsrət oğlu | «Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cənazəsi oradakı «Silos» quyusunda qalmışdır |
| 31. | Hüseynov Nahid Adil oğlu | «Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, cənazəsi oradakı «Silos» quyusunda qalmışdır |
| 32. | Əzizov Atəş Əfqar oğlu | «Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, «Uzun dərə» şəhidlər xiyabanında dəfn edilmişdir |
| 33. | Hüseynov Fehruz Mahmud oğlu | «Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, «Uzun dərə» şəhidlər xiyabanında dəfn edilmişdir |
| 34. | Vəliyev Mobil Mürsəl oğlu | «Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, «Uzun dərə» şəhidlər xiyabanında dəfn edilmişdir |
| 35. | Mustafayev Talıb Yaqub oğlu | «Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, Dünyamalılarda dəfn edilmişdir |
| 36. | Quliyev Mirzəli Müslət oğlu | «Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, «Uzun dərə» şəhidlər xiyabanında dəfn edilmişdir |
| 37. | Hüseynov Fədail Zülfüqar oğlu | «Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, «Uzun dərə» şəhidlər xiyabanında dəfn edilmişdir |
| 38. | Hüseynov Dəmir Musa oğlu | «Bəylik bağı» adlanan ərazidə qətlə yetirilmiş, «Uzun dərə» şəhidlər xiyabanında dəfn edilmişdir |
| 39. | Dadaşov Mikayıl İslam oğlu | Xankəndində qətlə yetirilmiş və cənazəsi də orada qalmışdır |
| 40. | Axundov Hafiz Elmaz oğlu | Xankəndində qətlə yetirilmiş və cənazəsi də orada qalmışdır |
| 41. | Əliyev Vətən Əmirxan oğlu | Xankəndində qətlə yetirilmiş və cənazəsi də orada qalmışdır |
| 42. | Vəliyev Füzuli Cavad oğlu | Xankəndində qətlə yetirilmiş və cənazəsi də orada qalmışdır |
| 43. | Hüseynov Əbülfət Mehman oğlu | Xankəndində qətlə yetirilmiş və cənazəsi də orada qalmışdır |
| 44. | Xəlilov Zahid Əyyub oğlu | Ningi erməni kəndində qətlə yetirilmiş, «Uzun dərə» şəhidlər xiyabanında dəfn olunmuş |

| | | |
|---|---|---|
| 45. | Hüseynov Həbib Həmzə oğlu | Ningi erməni kəndində qətlə yetirilmiş, Ağdam şəhidlər xiyabanında dəfn edilmiş |
| 46. | Bayramov Elmidar Rəşid oğlu | Ningi erməni kəndində qətlə yetirilmiş və cənazəsi orada qalmışdır |
| 47. | Quliyev Kamal Bəylər oğlu | Xankəndi türməsində qətlə yetirilmiş, Ağcəbədi qəbiristanlığında dəfn edilmiş |
| 48. | Quliyev Əlaslan Nəriman oğlu | Xankəndi türməsində qətlə yetirilmiş, «Uzun dərə» ş.x-nında dəfn edilmiş |
| 49. | Vəliyev Fazil Cavad oğlu | Xankəndi türməsində qətlə yetirilmiş, «Uzun dərə» ş.x-nında dəfn edilmiş |
| 50. | Hüseynov İmran Əhməd oğlu | Xankəndi türməsində qətlə yetirilmiş, Beyləqan r-n Peyğəmbər ziyarətgahında dəfn edilmiş |
| 51. | Nazarov Şura İbad oğlu | Xankəndi türməsində qətlə yetirilmiş, «Uzun dərə» ş.x-nında dəfn edilmiş |
| 52. | Hüseynov Şura Hüseynalı oğlu | Xankəndi türməsində qətlə yetirilmiş, «Uzun dərə» ş.x-nında dəfn edilmiş |
| 53. | Şirinov Böyükkişi Lələ oğlu | Xankəndi türməsində qətlə yetirilmiş, Beyləqan Peyğəmbər z-da dəfn edilmiş |
| 54. | Tağıyev Kamil Sərdar oğlu | Xankəndi türməsində qətlə yetirilmiş, Beyləqan Peyğəmbər z-da dəfn edilmiş |
| 55. | Quliyev Heydər Qurban oğlu | «Bəylik bağı»nda qətlə yetirilmiş, cənazəsi orada qalmışdır |
| 56. | Həsənov Xəyal Zeynal oğlu | «Bəylik bağı»nda qətlə yetirilmiş, cənazəsi orada qalıb |
| 57. | Rüstəmov Azad Həsənqulu oğlu | «Bəylik bağı»nda qətlə yetirilmiş, cənazəsi orada qalıb |
| 58. | Arazov Eldar Kamal oğlu | kolxozun inzibati binasında qətlə yetirilmiş, Bakı şəhəri Şəhidlər Xiyabanında dəfn edilmiş |
| 59. | Əlişov Həsən Sədaqət oğlu | «Bəylik bağı»nda qətlə yetirilmiş, cənazəsi orada qalmışdır |
| 60. | Abdullayev Abdulla Habil oğlu | «Bəylik bağı»nda qətlə yetirilmiş, cənazəsi orada qalmışdır |
| 61. | Mahmudov Akif Məhəmməd oğlu | «Bəylik bağı»nda qətlə yetirilmiş, cənazəsi orada qalmışdır |
| 62. | Mirzəyev Məhəmməd Hüseyn oğlu | «Bəylik bağı»nda qətlə yetirilmiş, cənazəsi orada qalmışdır |
| 63. | Hacıyev İbrahim Çərkəz oğlu | Xankəndi həbsxanasında qətlə yetirilmiş, cənazəsi orada qalmışdır |
| 64. | Mustafayev Malik İslam oğlu | «Bəylik bağı»nda qətlə yetirilmiş, cənazəsi orada qalmışdır |

| | | |
|---|---|---|
| 65. | Əmrahov Nasir Nurəddin oğlu | Xankəndi həbsxanasında qətlə yetirilmiş, cənazəsi orada qalmışdır |
| 66. | Abbasov Ayaz Əkbər oğlu | Xankəndi həbsxanasında qətlə yetirilmiş, cənazəsi orada qalmışdır |
| 67. | Kərimov Firdovsi Azay oğlu | «Bəylik bağı»nda qətlə yetirilmiş, cənazəsi orada qalmışdır |

***Qeyd:*** *Bütün bunlar tarixin bir parçası olaraq qalır. Bu tarixi unutmağa isə heç kəsin haqqı yoxdur.*

# «XOCALIYA ƏDALƏT!» ÇAĞIRIŞINDA BÜTOV QARABAĞ İSTƏYİ

General Murad Abakumoviç Samvelyanın ermənilərin işğal etdikləri Azərbaycanın sərhəd ərazisi ilə bağlı öz strateji planı var idi. Bu, İranın İqtisadi Kəşfiyyat İdarəsi ilə erməni korpus başçılarının birgə hazırladıqları «Böyük ərazi» adlı strateji planın tərkib hissəsi idi. «Böyük ərazi» planı 1990-cı il iyulun 12-də İran parlamentindəki erməni icmasından olan üzvlərin ortaya atdıqları məsələ idi. Artıq, düyün açılırdı. «Böyük ərazi»dəki imzalar bir-bir görünürdü. Orada imzası olan «Erməni korpusu»nun zabiti Rafiq İsxaqoviç Siracyan isə etiraf edirdi: «Dağlıq Qarabağ ərazisinin mülki adamları və əsgərləri arasında psixoloji durum pozulub...». Ermənilərin Qarabağda törətdikləri cinayətlərdən, terror aktlarından sonra bu, təbii idi...

İşğal olunmuş Zəngilan-Füzuli sərhəd zolaqları haq-qında isə general Abakumoviçin özünün ayrıca iqtisadi tezisləri var idi. Bu tezislər ermənilər arasında «Abakumoviçin proqramı» kimi hallanırdı.

2011-ci il aprelin 24-də Yerevanda eks-prezident Ter-Petrosyanın iştirakı ilə keçirilən Təhlükəsizlik Şurasının iclasında general Murad Şahnazaryanın Zəngilan-Füzuli sərhəd zolaqları ilə bağlı «İqtisadi proram»ından bəhs edən məktubu müzakirəyə çıxarıldı.

Məlumata görə, 2011-ci il aprelin 13-dən 21-dək «Karatyan» deyilən dörd nəfərlik iqtisadçılar qrupu Zəngilana gəlir. Ermənistan Kəşfiyyat İdarəsinin iqtisadiyyat şöbəsinin tezisləri əsasında proqramlaşdırılan bu qrup bilavasitə işğal olunmuş ərazinin strateji nöqtələrini araşdırmalı, ərazidə bölgülər aparmalı, torpaq sahələri haqqında ayrıca təkliflər hazırlamalı idi. Nəticədə, Zəngilanın Bəsitçay qoruğu haqqında iqtisad elmləri namizədləri A.Rəsulbekyanın, H.Acayanın, M.Atomun, U.Saakyanın və O.Markaryanın imzaları ılə «Zəngilan rayonunun geoiqtisadi durumu haqqında» arayış hazırlanır. Arayış, Ermənistan MN-in kəşfiyyat şöbəsinə təhvil verilir. İqtisadi elmlər doktoru (1995-ci ilin fevral ayında o, elmi araşdırmalarına yekun vuraraq, doktorluq dissertasiyasını müdafiə edir və işləmək üçün Moskvaya gəlir) Oranel Markaryan «İqtisadi düşüncələr» adlı oçerklər kitabında qeyd edir ki, Zəngilan, Qubadlı istiqamətində mövcud torpaqların bir hissəsi, artıq, yararsız olduğundan əkin-biçin üçün kara gəlmirdi. O torpaqlar təmizlənməli idi: «Apardığımız tədqiqata görə, təkcə İsgəndərbəyli

kəndi ərazisində (şimal hissə) torpaq qatı şabalıdı rəngini itirib...göyümtül, boz-bulanıq rəngə düşmüşdü...» (səh.19). O, kitabdakı «Faunanın rəngi» adlı oçerkində yazır: ***«...Zəngilanın Razdərə ilə Bartaz deyilən əraziləri arasında rayonun cənub hissəsindəki torpaq sahələri hələlik münbitliyini saxlayır... Mən Ermənistan MN-də çalışan, əsasən bu zonalarda strateji nöqtələr haqqında məlumat toplayan polkovnik Boris Kapilyana başa salanda ki, bu torpaqlar gərəkli ola bilər, o, soruşdu: «Orada nə etmək olar?» «Hər şey – gül, meyvə-tərəvəz... dənli və paxlalı bitkilər». Polkovnik əlini çiynimə qoyub, «Biz o torpaqları iranlı qardaşlarımıza icarəyə verəcəyik. Bizim elə bir imkanımız yoxdur ki, orada əkin-biçin işləri aparaq...»,dedi.*** (Moskva, «Erməni xəbərləri», səh. 3, 2011, №24).

Daha sonra erməni iqtisadçısı Markaryan kəşfiyyat polkovniki Kapilyanla kiçik müsahibəsinin üstündə dayanır.

«...O məndən soruşdu (yəni Kapilyan):

– Torpaqların korlanmasını nədən müşahidə edirsiniz?

– O yerdə ki, bioloji cəhətdən zərərli elementlər toplanır, o yer sıradan çıxmış hesabındadır. Torpaq qaysaq bağlayır, eroziyaya uğrayır. Torpağa lazım olan iqlim itir... Mən bunları Zəngilan ərazisində gördüm.

– Yəni, orada heç nə əmələ gəlməz?

– Siz orada nə əkmək istəyirsiniz?

Sualım cavabsız qaldı...» (səh. 19).

1988-ci ildə Tehran valisinə 70 çinar satıldı. Biri 100 dollara. 110 çinar torpaqdan çıxarılaraq Sevan gölünün ətəklərinə, eləcə də Yerevana daşındı. (Yəhya Haşimi. «Sərhədlərimizin ab-havası» kitabı. «Səhənd» nəşriyyatı. 1999-cu il, səh. 66). Həmin il 46 bulaq və kəhriz qurudu, çinarların çıxarıldığı torpağın «ölüb» sıradan çıxması müşahidə olundu. Ermənilər tərəfdən terrora məruz qalmış Qubadlı rayonunun 20 min hektarlıq qoruq sahəsi də korroziyaya uğradı, yararsız vəziyyətə düşdü...

2005-ci il 26 avqust. Tehran şəhər məhkəməsi. Vəkil Yusif Mahmudinin narkotik maddələrin daşınması, satılması... üstündə həbs olunmuş Ağayi Lətifiyə verdiyi suallardan biri belə idi:

**– Narkotik maddələrin ərazidə qadağan olunmasını bilirdinizmi?**

**– Bəli.**

**– Bəs bu maddələri haradan, kimdən alırdınız?**

**– Mən onu Vəjnəli dərəsindən alırdım.**

**– O hansı istiqamətdə olan ərazidir?**

**– Kəleybər yaxınlığındadır.**

**– Kimdən alırdın?**

**– Pirim ağadan.**

**– O kimdir, nəmənə adamdır?**

**– Ağa, o, bir ermənidir... (**«İran» qəzeti. Aprel 2005-ci il, səh. 4**)**.

Erməni Pirim haqqında heç bir məlumat yoxdur. Miqran Pirinyan isə Tehran erməni yeparxiyasının Artsaxla (Xankəndi ilə) əlaqələr komissiyasının sədridir. Həm iqtisadçıdır, həm də Qarabağ ərazisində 1800 kv. metrlik mülk sahibidir. Kərkicahanda və Mincivanda təbii otlardan dərman hazırlayan fabrikləri var. Çox da böyük olmayan fabriklərdə həm ermənilər, həm də farslar işlə təmin olunublar. Müttəhim Lətifinin vurğuladığı Vejnəli və Kəleybər yaşayış məntəqələrinə gəlincə, bunu da aydınlaşdırdıq. Nə qədər qəribə da olsa, vəkil Yusif Mahmudinin istintaq materiallarında və qeydlərində Vejnəli İranın şimal ərazisi kimi qeyd olunur. 2008-ci il iyulun 2-də İran dövlətinin rəsmiləri MBT-yə ünvanladıqları «Narkotik maddələrin alınması, daşınması və satılmasına qarşı mübarizə tədbirləri haqqında» hesabatlarında da, Vejnəli narkotik maddələrin əkin mərkəzi kimi göstərilir. Əhər şəhər «Sepah-e Pas-ta-ran»çıların (İslam inqilabının keşikçi dəstələri) əldə etdiyi kəşfiyyat materiallarının hesabatında isə (hesabatdan çıxa-rış İranın BMT-yə ünvanladığı rəsmi sənəddə qeyd olunub) gəstərilir ki, Vejnəli Araz çayının sahillərində yaşayış ərazisidir. «Ora nəzarətsiz və tənha yerdir...». Hesabatda oxuyuruq: «...Vejnəli, Bartaz...ərazilərində narkotik maddələrin yerləşdirilməsi üçün böyük imkanlar var. Çünki o yerlər nəzarətsiz və kimsəsiz yerlərdir...» («Xəzər» qəzeti. Sentyabr, 2009-cu il, səh. 31).

Adı rəsmi sənədlərdə çəkilən Vejnəli, Bartaz... Azərbaycan əraziləridir, erməni işğalına və terroruna məruz qalmış Zəngilan rayonunun bir parçasıdır. Kəleybər isə İrana məxsus bir ərazidir. O, Təbrizin qərb hissəsində salınmış qədim yaşayış mərkəzidir. 2001-ci il martın 26-da yayılmış məlumatda belə bir iddia var: ***«...İranın Kəleybər kəndində üç erməni, iki fars və bir Azərbaycan vətəndaşı tutuldu. Bu adamlar narkotik maddələrin alınması və daşınması ilə maşğul idilər»*** (Eyni mənbə, № 42, səh.1).

21 aprel 2010-cu il. Jurnalist E.Ohanyanın qeydlərindən: «...Erməni əsgərləri rus sərhədçiləri ilə birgə 22 hektar sahədə (erməni Baqareten

Devidyanın və fars iş adamı Əbdül Əli Səfəvinin sahəsi) yetişmiş yabanı xaşxaş kollarına od vurub, yandırıblar...» («Xəzər» qəzeti. № 50. səh. 23).

Biz bu faktları sadaladıqca bir daha şahid oluruq ki, işğal olunmuş ərazilərimizdə narkotik maddələr yetişdirilir. Bir qisim yaşayış ərazisi də var ki, İran hökumətinin nəzarətindədir. Məsələn, Kəleybər və Germi istiqamətlərində Azərbaycanın Cəlilabad, Masallı rayonlarına hər ay təqribən 12 kq heroin, 14 kq kokain, 25 kiloqram sintetik narkotik maddələrin qaçaq yolu ilə keçirilməsi təmin olunur. Biz orta hədd götürdük. Faktları bir az da dəqiqləşdirək: «...Qubadlı və Zəngilandan İranın içərilərinə nüfuz edən narkotik maddələrin aylıq həcmi 20,5 kq-dır...» (Tehran. «Sapah-e Pastaran» bülleteni, 12, № 4).

Əldə etdiyimiz məlumata görə (əsasən, BMT-nin strateji məlumatlar toplusu), hazırda dünyada 8,5 milyon nəfər heroin azarına tutulub. 13,3 milyon kokain, 141,2 milyon marixuana, 280 milyon nəfər isə sintetik narkotikin əsiridir. Federal Təhqiqat Bürosunun sənədlərinə görə, təkcə ABŞ-da hər 100 min nəfərin 430-u narkomandır. Narkobiznesə 1 dollar «investisiya» qoyan şəxs ildə 12 min dollar əldə edir. Daha sonra bu da göstərilir ki, narkoticarətdən gələn illik gəlir 400 milyard ABŞ dollarıdır. Bu da dünya ticarətinin 8 faizini təşkil edir.

İşğal olunmuş torpaqlar, nəzarətsiz zonalar və ərazilər narkobiznesin inkişafında və artırılmasında misilsiz strateji rol oynayır. Məsələn, təkcə Əfqanıstan ərazisindən 2010-cu ildə 4600 ton narkotik maddə çıxarılıb.

**Azərbaycan ərazisinə yol alan narkotik bitkilərin çoxalması müşahidə olunmaqdadır. Apardığımız araşdırmalara görə, işğal olunmuş ərazilərimizin – Dağlıq Qarabağın narkobaronları respublikanın cənub bölgəsində «narkobiznes üçbucağı» deyilən bir üçbucaq qurublar. Burada Cəlilabad narkotik maddələrin çoxluğuna görə «Kolumbiya», Lənkəran satışına görə «Malayziya», Masallı isə daşınmasına görə «Portuqaliya» adlanır(?).**

Araşdırmalarımızın nəticələrindən biri də budur ki, İranın Kəleybər və Germi yaşayış məntəqələrində Cəlilabad üçün üç, Razi və Nəmin yaşayış məntəqələrində Masallı üçün dörd, Təzə Kənd Anqut zonasında Lənkəran üçün dörd narkolaboratoriya fəaliyyət göstərir.

Hər ayın 9-dan 16-dək Təbriz vaxtı ilə 21.00-dan 23.00-dək Ermənistanın işğal etdiyi Zəngilan, Qubadlı, Cəbrayıl rayon ərazilərindən Razi və Nəmin yaşayış məntəqələrinə narkobiznesdə «Abilər dərəsi» adlanan

yerə «Klars+Karen» qrupunun nümayəndələri gəlir. 2010 və 2011-ci illərdə İranın xüsusi xidmət orqanları bu qrupa qarşı səmərəsiz hücum edib, sonra hücum səngiyib. Çünki işğal olunmuş ərazilərdən daşınan narkotik maddələr «laboratoriya iqlimi»ndən sonra cənub bölgələrinə ötürülür. İran, bilavasitə bu ərəfədə narkotik maddələrin keçid zonası rolunu oynayır. Qeyd edək ki, İran SQ-nin Əfqanıstan istiqamətində narkotik maddələrə qarşı mübarizəsi əvəzedilməzdir. Bu mübarizədə yüzlərlə polis əməkdaşı həlak olub. Azərbaycanın cənub bölgəsində isə qəribə bir mənzərə var. Faktiki olaraq, Ermənistan-İran cütlüyü Azərbaycanın cənub bölgələrində gözəgörünməz müharibənin, işğalçılığın təməlini qoyub. Bu işğalçılıqda İranın və Ermənistanın niyyətləri bir-birini tamamlayır. Araşdırmalarımıza görə, erməni terroruna məruz qalmış Zəngilanın nəzarətsiz qalan 707 kv. km ərazisinin 141 hektar, Qubadlının 210, Füzuli rayonu-nun176 hektar sahəsində narkotik maddə əkilir (İlami Həsən. «Tədqiqat və arayış» kitabı. Tehran, səh. 36).

Digər bir məlumata görə, bu sahələrdə bölgülər də var. Məsələn, «Marqus» erməni qardaşları Cəlilabad, Masallı, Lənkəran, Biləsuvar, İmişli istiqamətlərində sintetik narkotik ötürməklə məşğuldurlar. Qardaşların bu zonalardan götürdükləri illik gəlir 450 min ABŞ dollarına bərabərdir (İlami Həsən. «Tədqiqat və axtarış», səh.76).

Araşdırmalarımızdan bu da aydın oldu ki, İrandakı keçid məntəqələrinin özlərinə məxsus strateji planları var.

İşğal olunmuş torpaqlarımızda sərhəd zolaqları boyunca narkotik maddələrin daşınması planlı şəkildə qurulub: ***Mehri (Ermənistan) – Mincivan (işğal olunmuş Azərbaycan ərazisi) – Soltanlı (Cəbrayıl ərazisi) – Horadiz (Füzuli rayonu) – Şahsevən (Beyləqan rayonu) – Soltanlı (Cəbrayıl rayonu) – Horadiz (Füzuli rayonu)... Yəni, narkobiznesin sərhəd boyunca hərəkət cədvəli sabit deyil. O tez-tez dəyişir.***

Biləsuvar, Germi, Əhəd, Astara... (İran) ərazilərində fəaliyyət göstərən islam məhkəmə orqanlarında 2011-ci ilin altı ayı ərzində narkotik maddələrin alış-verişi, daşınması və xəlvəti yolla ötürülməsi ilə bağlı 146 nəfər həbs olunub. Ölkə prezidentinə ünvanlanmış hərbi kəşfiyyatın və polis orqanlarının narkobiznesə qarşı birgə mübarizələri haqqında 2001-ci il hesabatında («Narkotik maddələrin sərhədlərdən alınması və daşınmasına qarşı mübarizə yollarının nəticələri», 21 oktyabr, 2011-ci il) yazılır:

«...Ümumi hesablamalarda son üç ay ərzində Dəşt-e Muğan ərazisində 96 nəfər cəzalandırılıb. Bunun da 27 nəfəri Ermənistan vətəndaşları olub».

*2001-ci ildə Təbrizdə universitet tələbələri üçün çap olunan «Ağa İbrahiminin istintaq materialları» adlı kitabçada müttəhimlərə verilən suallara cavab olaraq, narkotik maddələrin bilavasitə daşınmasında Masallı, Cəlilabad ərazisi ilə torpaq keçidləri olan Abilər dərəsinə çatdırılmasında fəallıq göstərdikləri etiraf edilib. Bunu da deyib ki, narkotik maddələri işğal altında qalan Cəbrayıl rayonunun Sarıcalı kəndindən gətirib. Ərazinin su səthini yüngül balıqçı qayıqları ilə maneəsiz keçib...*

Araşdırmalarımıza görə, Ermənistandan Aşağı Qarabağ ərazilərinə (işğal olunmuş torpaqlarımıza) oradan İran (Dəşt-e Muğan) ərazisinə, sonra da cənub regionlarına çıxarılan narkotik maddələrin bir qismi Bakı-Sumqayıt istiqamətindən şimal bölgələrinə, oradan Dağıstan ərazisinə və nəhayət, beynəlxalq narkobiznes yoluna çıxaraq, Rusiyanın mərkəzi şəhərlərinə yol açır. Beləliklə, Abilər dərəsindən Cəlilabad-Masallı-Lənkəran istiqamətinə yol açan narkotik maddələr Moskvada qeyri-rəsmi fəaliyyət göstərən «Kobi-LTD» bazarında qərar tutur. Bu beynəlxalq missiyanı Dağıstandakı «Camaati islami Dağıstan» dini təşkilat icra edir.

2011-ci il iyunun 17-də Ömər Dağıstani Rustavidə (Gürcüstan) narkotik maddələrin daşınmasında ittiham olundu (Tbilisi, «Rezonans» qəzeti, 26 iyun 2001-ci il, səh. 2).

İran məhkəmələrində baxılmış sənədlərlə rastlaşdıq (Bax: İş №3934.Tehran Şəhər Məhkəməsi). Ölkədə narkotiklərə qarşı ciddi mübarizə aparılmasına baxmayaraq, İran erməniləri nəzarətsiz zonaya çevrilmiş Dağlıq Qarabağ ərazisində erməni silahlı qruplaşmaları ilə qeyri-qanuni narkoplantasiyalar əkib-becərirlər.

## XOCALIDA ERMƏNİ İŞĞALÇILARI TƏRƏFİNDƏN GÜLLƏLƏNMİŞ UŞAQLAR

1. Səfiyev Sarvan Elxan oğlu 1991-ci ildə Xocalıda anadan olub. 1992-ci il fevralın 26-da 1 yaşında donub, ölmüşdü.
2. Quliyev Samir Taleh oğlu 1990-cı ildə Xocalıda anadan olub. 1992-ci il fevralın 26-da 2 yaşında güllələnmişdir.
3. Xəlilova Lalə Tahir qızı 1988-ci ildə Xocalıda anadan olub. 1992 –ci il fevralın 26-da 4 yaşında qətlə yetirilib.
4. Yusifova Natavan Pənah qızı 1988-ci ildə Şuşada anadan olmuşdur. 1992-ci il fevralın 26-da 4 yaşında itkin düşüb. İndiyədək taleyi məlum deyil.
5. Vəliyev Ağasif Zakir oğlu 1988-ci ildə Xankəndində anadan olub. 1992-ci il fevralın 26-da 4 yaşında qətlə yetirilib
6. Əzimov natiq Abbasqulu oğlu 1986-cı ildə Xocalı rayonunun Həsənabad kəndində anadan olmuşdur. 1992-ci il fevralın 26-da 6 yaşında qətlə yetirilib.
7. Abışova Çinarə Nazim qızı 1982-ci ildə Xocalıda anadan olmuşdur. Çingiz Nazim oğlu Abışov 1986-cı ildə Xocalıda anadan olub. 1992-ci il fevralın 26-dan sonra onların nə dirisini, nə də ölüsünü görən olub.
8. Orucova Xəyalə Telman qızı 1986-cı ildə Əsgəran rayonunun Şuşukənd kəndində anadan olub. 1992-ci il fevralın 26-da 6 yaşında donub ölüb.
9. Hüseynova Maral Kamil qızı 1986-cı ildə Xocalıda anadan olub. 1992-ci il fevralın 26-da 6 yaşında qətlə yetirilib.
10. Zeynalova Aynurə Tofiq qızı 1986-cı ildə Xocalıda anadan olub. 1992-ci il fevralın 26-da 6 yaşında qətlə yetirilib.
11. Çobanova Nazakət Tapdıq qızı 1986-cı ildə Xankəndində anadan olub. 1992-ci il fevralın 26-da öldürülüb.
12. Quliyeva Sevinc Əkbər qızı 1985-ci ildə Xocalıda anadan olub. 1992-ci ilin fevralın 27-də 7 yaşında qətlə yetirilib.
13. Məmmədov Zahir Ramiz oğlu 1975-ci ildə Xocalıda anadan olub. 1992-ci il fevralın 27-də 7 yaşında güllələnib.
14. Əmirova Yeganə Təvəkkül qızı 1985-ci ildə Xocalıda anadan olub. 1992-ci il fevralın 26-da 7 yaşında qətlə yetirilib.

15. Ağayev Allahverdi Səttar oğlu 1982-ci ildə Xocalıda anadan olub. 1992-ci il fevralın 26-da 10 yaşında qətlə yetirilib. Məzarı bəlli deyil.
16. Ələkbərov Səxavət Təvəkkül oğlu 1980-ci ildə Xocalıda anadan olub. 1992-ci il fevralın 26-da 12 yaşında qətlə yetirilib.
17. Aslanova Elnarə Tofiq qızı 1978-ci ildə Xocalıda anadan olub. 1992-ci il fevralın 26-da 14 yaşında itkin düşüb. İndiyədək taleyi məlum deyil.
18. Allahverdiyev Bəhram Hidayət oğlu 1976-cı ildə Ermənistanın Basarkeçər rayonunun Qaraqoyunlu kəndində anadan olub. 1992-ci il fevralın 26-da 16 yaşında qətlə yetirilib.
19. Hümbətova Simuzər Cəlil qızı 1976-cı ildə Əsgəran rayonunun Kosalar kəndində anadan olub. 1992-ci il fevralın 26-da 16 yaşında qətlə yetirilib.
20. Həsənova Lətafət Həsən qızı 1976-cı ildə Xocalıda anadan olub. 1992-ci il fevralın 27-də 16 yaşında donaraq ölüb.
21. Orucov Cavan Canan oğlu 1976-cı ildə Xocalıda anadan olub. 1992-ci il fevralın 26-da 16 yaşında əsir götürülüb. İndiyədək taleyi məlum deyil.
22. Orucova Məlahət Əli qızı 1976-cı ildə Ermənistanın Əzizbəyov rayonunda anadan olub. 1992-ci il fevralın 26-da 16 yaşında Xocalıda qətlə yetirilib.
23. Cəfərov Nüsrət Fazil oğlu 1975-ci ildə Xocalıda anadan olub. 1992-ci il fevralın 26-da 17 yaşında itkin düşüb. İndiyədək taleyi məlum deyil.
24. Quliyev Mikayıl Zahid oğlu 1975-ci ildə Laçın rayonunun Piçənis sovetliyinin Xaçınyalı kəndində anadan olub. 1992-ci il fevralın 26-da 17 yaşında əsir götürülən zaman özünü öldürüb.
25. Səlimov Xəzər Səyavuş oğlu 1985-ci ildə Xocalıda anadan olub. 1992-ci il fevralın 26-da 17 yaşında əsir götürülüb. İndiyədək taleyi məlum deyil.
26. Allahverdiyev Mahir Novruz oğlu 1974-cü ildə Xocalıda anadan olub. 1992-ci il fevralın 26-da 18 yaşında itkin düşüb. İndiyədək onun taleyindən xəbər yoxdur.
27. Usubov Elşad Kamran oğlu 1974-cü ildə Xocalıda anadan olub. 1992-ci ilin fevralın 26-da 18 yaşında qardaşları Zakir və Əliyarla birlikdə əsir götürülüb. İndiyədək taleləri məlum deyil.
28. Aslanova Gülsabah Qəyyum qızı 1973-cü ildə Xocalıda doğulub. 1992-

ci il fevralın 26-da 18 yaşında itkin düşüb. İndiyədək taleyi məlum deyil.

29. Həsənov Mehdi Ramil oğlu 1974-cü ildə Xocalıda anadan olub. 1992-ci il fevralın 26-da 18 yaşında qətlə yetirilib.
30. Hüseynov Vüqar Hilal oğlu 1974-cü ildə Xocalıda anadan olub. 1992-ci il fevralın 26-da 18 yaşında itkin düşüb. Taleyi indiyədək məlum deyil.
31. İsmayılov Vidadi Lətif oğlu 1973-cü ildə Xocalı rayonunun Həsənabad kəndində anadan olub. 1992-ci il fevralın 26-da 18 yaşında əsir götürülüb. İndiyədək taleyi məlum deyil.
32. Əbdülov Zahid Yelmar oğlu 1974-cü ildə Xocalıda anadan olub. 1992-ci il fevralın 26-da 18 yaşında itkin düşüb. Taleyi indiyədək məlum deyil.
33. Abbasova Səadət Qədim qızı 1974-cü ildə Xocalıda anadan olub. 1992-ci il fevralın 26-da 18 yaşında qətlə yetirilib.

***Qeyd***: Biz (müəlliflər) erməni terrorçuları tərəfindən güllələnmiş azərbaycanlı uşaqlarla bağlı məktubları AŞ-nın DQ üzrə ayrılmış həmsədrlərin hər birinə ayrı-ayrılıqda təqdim etdik. Bu azmış kimi, onların vicdanlarını oyatmaq üçün şəxsi ev ünvanlarına da göndərdik. Yandırılmış övladlarının, ailəsinin külünü məktuba büküb BMT-yə göndərən ananı da gördük. Dünya oyanmadı ki, oyanmadı. Bu gün Azərbaycan ərazisində yetişən gənc nəsillərin bu haqsızlığa və ədalətsizliyə göz yuman beynəlxalq təşkilatlara, BMT və AŞ-na, Aİ-na… kimi nüfuz sahiblərinə olan inamı heçə enməkdədir... Məhz bu görüşlərdən sonra başda Azərbaycan olmaqla, dünyanın sülh və ədalət axtarışında olan insanları üzlərini "Xocalıya Ədalət!"ə tərəf tutublar. Çünki Leyla xanım Əliyevanın "Xocalıya Ədalət!" çağırışı yeni yüzillikdə beynəlxalq terrora qarşı strateji model olaraq qalacaq.

## ERMƏNİ SEPARATÇISININ ACI ETİRAFI

### İşğal olunmuş ərazilərimizdə fəaliyyət göstərən «Azat Artsax» qəzetinin redaktoru *A.Ayrumyanın* nəzarətsiz zonadakı qeyri-qanuni xarici şirkətlər haqqında məlumatı

Beləliklə, 1999-cu il ildən Dağlıq Qarabağda aşağıdakı iqtisadi şərait yaranmışdı. Kəndlər və kəndli təsərrüfatlarının çoxu müharibə nəticəsində dağılmışdı (xeyli kənd deportasiyaya məruz qalmış və güclü artilleriya atəşinə tutulmuşdu), – ya bilərəkdən, ya da bacarıqsızlıqdan desentralizasiya olunmuşdu. Xarici təminat hesabına orduda və paytaxtda obyektlərin sürətli tikintisi gedir, rayonlarda evlər bərpa olunurdu. Erməni disaporunun vəsaitilə ən müasir səviyyədə olan Artsaxı (Qarabağı) xarici aləmlə bağlayan yeganə Gorus – Stepanakert (Xankəndi) avtomagistralı təmir edilmişdi. Bundan başqa, beynəlxalq və erməni təşkilatları tərəfindən bütöv bir humanitar (səhiyyə və xeyriyyə) proqramı həyata keçirilir. Ancaq sənaye müəssisələri fəaliyyətsiz qalır, yaxud öz imkanlarının yalnız 10%-nə qədərindən istifadə edir, faydalı qazıntıların məşhur yataqları işlənilmir. Doğrudur, alıb-satmaqla məşğul olan şaxələnmiş ticarət şəbəkələri meydana gəlmişdir. Bütün bunlar Ermənistandan alınan dövlətlərarası kreditin çox böyük bir hissəsini təşkil etdiyi dövlət büdcəsinin sosial ödəmələrə zorla çatdığı vaxt baş verir. Bu arada varlı hərbi elita artıq öz şəxsi istifadəsi üçün aviasiya almağa qulaylanır, elit şəhər məhəllələrində təmtəraqlı mülklər yaranır, yerli kapitalistlər Qarabağa vəsait qoymaq istəmirlər, obyektiv olan qeyri-sabitliklə bir sırada administrasiyanın yaratdığı maneələr xarici investisiyaları, əksər hallarda ziyanlı olsa da respublikada öz istehsalını açmaq istəyən erməniləri rədd edir.

Yeni, hazırda fəaliyyət göstərən hökumətin ilk addımları ayrı-ayrı rayonların və prioritet sahələrin inkişaf proqramıdır. Regionun spesifikliyindən və DQR-in mövcudluğunun anklav şəraitindən çıxış edərək yerli xammal hesabına inkişafı onlar üçün satış bazarı tapmaq mümkün olan iqtisadiyyatın istiqamətləri müəyyənləşdirilmişdir. Mütəxəssislər respublikanın dağ çaylarını tədqiq etmiş və bu nəticəyə gəlmişlər ki, energetika sahəsinin inkişafı üçün Qarabatın çox böyük potensialı var. Təkcə Qarabağın (bu gün elektrik enerjisinin böyük hissəsini o, Ermənistandan alır) enerji təchizatı problemini həll etməyə yox, eləcə də onu qonşu ölkələrə, xüsusilə İrana eksport etməyə imkan verən üç çay üzərində mini-elektrik stansiyası bəndinin – enerji mənbəyi tikintisinin kifayət qədər baha

başa gələn layihəsi işlənmişdir. İndi bu işə özləri üçün sərfəli şərtlərlə kapital qoya biləcək investorlar axtarırlar. Elektrik stansiyalarından birinin tikintisi artıq başlanmışdır.

Dağ-mədən sənayesi də prioritet adlandırılmışdır. Sovetlərin zamanında yenə də diskriminasiya mülahizələrindən Qarabağda bu sahə sadəcə olaraq inkişaf etməmişdi, xüsusilə keçən əsrin əvvəllərindən Mardakert rayonunun Drombon kəndindəki qızılçıxarma mədəni konservləşdirilmişdi. Hadrut və Əsgəran rayonlarındakı mərmər və qranit mədənlərindən çox az həcmdə istifadə edilir. Digər faydalı qazıntılar haqqında ümumiyyətlə, məlumat yox dərəcəsindədir. Bir neçə ay əvvəl Armaniah kar proqram erməni kompaniyası Drombon altındakı qızıl və mis mədənlərinin hazırlanmasında başladı. Artıq dağ-mədən kombinatının tikintisinə başlanmışdır, onlarca insan bu işlə məşğuldur. Təklif olunan layihəyə uyğun olaraq bu işə 20 milyon dollardan çox vəsait qoyulacaq. Qeyri-rəsmi məlumata görə Alverdidəki (Ermənistan) zavoda yarımfabrikat xammalın böyük həcmdə çatdırılmasının vacibliyi ya Qarabağdan Ermənistana Karvaçerdən keçən yolun təmirini ya da daşınma xərclərini dəfələrlə aşağı salan dəmir yolu salınmasını şərtləndirə bilər.

Daha bir prioritet sahə – ağac emalıdır. Qarabağın xeyli hissəsi qiymətli oduncaqlarla (palıd, fıstıq, qoz, zəngin olan meşələrlə örtüldüyündən əvvəlcədən bu sahənin investisiya qoyuluşu üçün ən gərəkli olacağı güman edilirdi. Presedentləri çox gözləmək lazım gəlmədi. Belə ki, Mardakert rayonunun Vank kəndində Qarabağ mənşəli amerikalı biznesmen ağac emalı kombinatı açmış və buna 2 milyon dollara yaxın vəsait qoymuşdur. «ATA-Vank-les» müəssisəsi ən yeni alman avadanlıqları ilə təchiz olunmuş, məhsulun keyfiyyəti isə ən yaxşı dünya nümunələrindən geri qalmır. Bundan başqa Vankda əyləncə təyinatlı məqsədli obyektlərin bütöv bir kompleksi yaradılmışdır. Ancaq sahibkar nəqliyyat problemi ilə qarşılaşmışdır. Qarabağa hər şey öz relyefinə görə kifayət qədər mürəkkəb olan yeganə avtomagistral Yerevan-Gorus-Stepanakert yolu ilə gətirilir (və oradan aparılır). İri və ağır yüklərin bu magistralla daşınması risk və böyük xərclərlə bağlıdır ki, bu da məhsulun maya dəyərini artırır və onun rəqabət qabiliyyətini aşağı salır. Vanklı sahibkar digər problemlərlə də qarşılaşmışdır, bunun nəticəsində müəssisə indiyə kimi rentabellilik səviyyəsinə çıxmamışdır. Xüsusən ona görə ki, sərhədin hər iki tərəfində «yaşıllar» həyəcan təbili çalmağa və ekoloji təhlükə haqqında xəbərdarlıq etməyə başladılar. Bu günə respublikada investisiya qoyuluşuna hələ də sona kimi yiyələnməmiş daha iki ağac emalı müəssisəsi fəaliyyət göstərir.

Kardinal islahatlar yolu ilə, xüsusən vergi sahəsində, yeni hökumət investisiya cəlb edə və iqtisadiyyatı canlandıra bildi. 1999-cu ildən respublikada əsas vergilər mütəmadi olaraq endirilir. 2000-2002-ci illərdə mənfəətdən vergi 15%-dən 5%-ə, gəlir vergisi 30%-dən 5%-ə qədər azalmışdır. Hazırda bu rəqəm 2 %-ə çatıb. 2001-ci ildən aksiz vergisindən tam sənaye dövriyyəsində yerli xammalla işləyən şərabçılıq sənayesi tamamilə azad olunmuşdur. Torpaq vergisi 15%-dən 6%-ə endirilmişdir. 2013-cü ilin yanvarından isə 3%-ə çatıb. 2002-ci ildən kommersiya müəssisələri üçün vahid vergi (ticarət vergisi) norması mal dövriyyəsinin 2,4%-ni təşkil edir.

Götürülmüş ölçülərə görə, büdcəyə faktiki daxilolma artmışdır. Mütəxəssislər bunu, hər şeydən əvvəl, qabaqlar «kölgədə» olan kapitalın qismən aşkarlanması, eləcə də sahibkarlıqla məşğul olan subyektlərin sayının artması ilə izah edirlər. Həqiqətən də qanunvericilik səviyyəsində liberallaşdırılmış iqtisadi məkan investorlar üçün daha cəlbedici olmuşdur. Ancaq, görünür, vergi normalarının enməsini müşayiət edən vergi inzibatçılığının sərtləşməsi və bürokratiyanın davam edən pressinqi kiçik, hətta orta müəssisələrin bütöv bir sırası üçün qapıları bağlamışdır. Tədricən daha zəif və xırda müəssisələri mənimsəyən nisbətən iri birliklər meydana gəlirlər. Monopoliyaların yaranması haqqında danışmaq hələ tezdir, ancaq görünür indiki mərhələdə iqtisadiyyatın təşəkkülündə güclü monopoliyaların mənfidən daha çox müsbət rol oynaya biləcəklərini güman edərək antimonopol siyasət işləyib hazırlamağı heç kim fikirləşmir.

«Qloballaşma» prosesi şərabçılıq məmulatlarında daha aşkar şəkildə özünü göstərir. Qarabağ həmişə tünd şərabı və tut arağı ilə məşhur olmuşdur. Onların hazırlanması ənənələri tədricən bərpa olunur. Xüsusilə əsas etibarı ilə eksporta işləyən CVS firmasının gücü artır. Ucuz xammal almaq üçün o, torpaq sahələrini icarəyə götürür ya orada taxıl əkir, ya üzüm plantasiyası salır. Beləliklə, bir firmanın damı altında bütün kompleks cəmləşir: yetişdirmə, emal və hazır məhsulun buraxılması. Bu, bir tərəfdən, monopoliyanın yaranmasına aparır, digər tərəfdən istehsal bərpa olunur, yeni iş yerləri açılır, çoxlu torpaq becərilir (bu, zəif sahibkarların qüvvəsi xaricindədir).

Bununla əlaqədar torpağa tələbatın xeyli dərəcədə, xüsusilə çox hissəsi Ermənistandan olan iri təsərrüfatçılıq və biznesmenlər hesabına artmasını qeyd etmək lazımdır. 2002-2005-ci illərdə dövlətin ehtiyat fondundan əvvəlki illərə nisbətən xeyli çox hektar icarəyə verilmişdir. Ekspertlərin qiymətinə görə, regionda sabitliyin saxlanıldığı halda torpağın qiymətinin

artması gözlənilir. Bununla belə onun hazırki kadastr dəyəri o qədər kiçikdir ki, hətta qiymətlərin xeyli dərəcədə artması belə onların qalxmasına gətirib çıxarmayacaq.

Bu zaman ideyaca Qarabağda ən rentabelli olmalı sayılan aqrosənaye sahəsi hələ çox da dinamik inkişaf etmir. Bu, yəqin ki, son 10 ildə kəndlilərin başına gələn çoxsaylı təbii, hərbi və idarəedici bəlalarla izah olunur. Texnikasız və ilkin kapitalsız qalmış kəndlilər bazar iqtisadiyyatının yeni qanunlarını psixoloji cəhətdən heç cür qəbul edə bilmirlər. Çoxları, ümumiyyətlə, başa düşmürlər ki, intuitiv olaraq mərkəzləşməyə cəhd etməli olan döyüşən ölkədə iqtisadiyyatı bu qədər amansızlıqla və «peşəkar»casına liberallaşdırmaqla kəndli təsərrüfatlarını dağıtmaq, əlinə keçən hər şeyi qamarlamaq kimin ağlına gəlmişdir. Təsadüfi deyildir ki, sonuncu sorğuya uyğun olaraq Qarabağ respondentlərinin 80%-ə qədəri kolxozların bərpa olunmasına tərəfdar olmuşlar.

Ancaq denasionalizasiyanın uğurla nümunələri də var. Belə ki, DQR Milli Bankı Artsax bankın qismən özəlləşdirilməsi nəticəsində onun aksiyalarının 70%-i, İsveçrəli və amerikalı maliyyəçilər almışlar. Qoyulmuş investisiyalar hesabına bankın ümumi aktivləri 2,8 dəfə çoxalmış, nizamnamə kapitalı 3,2 dəfə artmış və bank etibarlılıq reytinqinə görə Ermənistanın analoji strukturları sırasında ilk yerlərdən birini tutmuşdur.

Artıq üçüncü ildir Sberbank (“ARTSAXBANK”ın filialı) 1993-cü ildə qiymətsizləşdirilmiş əmanətlərə görə kompensasiya verir. Yaşlı adamlar (1934-cü ilə qədər doğulanlar) 1 min sovet rublu müqabilində 50 dollara qədər vəsait alırlar. Həmin Artsaxbankda ailədə hər üçüncü uşaq üçün (və belə də davam edir) hesab açılır. 18 yaşına çatandan sonra onlar 1 min dollar məbləğinə qədər əmanət alırlar, buna qədər isə onların valideynləri hər ay hesabdan yığılıb toplanan faizləri çıxara bilirlər. Bu, böyük ailə qurmaq istəyənlər, eləcə də bank üçün əlavə dövriyyə kapitalına çəkisi olan – ağır stimuldur. Çoxuşaqlılığın stimullaşdırılması layihəsi çərvəsində hər il onun xəzinəsinə 300-350 milyon dram (1 dollar = 558 dram) daxil olur.

Turist sənayesi üçün də şərait yaranır. Qarabağın 10 mindən artıq etiraf olunmuş tarixi – memarlıq abidəsi, onun gözəl təbiəti və ekoloji təmizliyi dünyanın hər yerindən gələn turistləri, xüsusilə erməniləri cəlb etməyə bilməz. Bu sahənin inkişafının qarşısını mehmanxanaların, xidmət obyektlərinin və şübhəsiz, rahat yolların olmaması alır. 2002-ci ildən mehmanxana tikintisi geniş vüsət aldı. Artıq sahibkarları erməni mənşəli avstraliyalar olan «Nairi» oteli açılmışdır, İveçrə firmasının özəlləşdirdiyi «Qarabağ» mehmanxanası yenidən qurulur, xırda mehmanxanalar da tikilir. Yolların

vəziyyəti daha çətindir. Qarabağın bütün rayonlarını birləşdirən «Şimal-Cənub» avtomagistralı tikintisinin layihəsi hazırlanmışdır. Layihədə daha iri tarixi abidələri və istirahət yerlərinə gedən yollar da nəzərdə tutulmuşdur. Tikinti üçün pulu bütün dünya erməniləri ayırırlar – onlar talamerafon keçirir, ianə toplantıları təşkil edirlər. Artıq yolun iki sahəsi istismara verilib. Yaxın iki-üç il ərzində bu işlərin qurtarması nəzərdə tutulur və onda respublika hökumətinin inandırdığı kimi, Qarabağın gəzməli yerlərini seyr etmək və DQR-ın hələ ki yoxsul xəzinəsini doldurmaq istəyənlərin əlindən tərpənmək olmayacaq.

Respublika siyasi cəhətdən de-fakto mövcud olan, ancaq «beynəlxalq mənada tanınmayan» kimi müəyyənləşir ki, bu da onun iqtisadiyyatında öz izlərini qoyur. Cənubi Qafqazda hakimiyyət uğrunda qüdrətli dövlətlər arasında açıq-aşkar mübarizə qloballaşma tərəfdarlarını Qafqazı – Avropadan Şərqi Asiyaya və geri məlumat yollarının keçdiyi kommunikasiya regionuna çevirmək istəyinə işıq salmışdır. Aşkardır ki, ölkənin belə layihələrində maraqlı olanlar Qarabağda hərbi əməliyyatların yenidən başlamasını bəyənməyəcəklər. Bu meyl yeni bazar və yeni fəaliyyət sahələri axtaran sahibkarların xeyrinə deyil. Buna görə də son illərdə xarici kompaniyaların Dağlıq Qarabağın praktiki olaraq istifadəsiz ehtiyatlarına marağı müşahidə olunur. Xüsusilə 2002-ci ilin əvvəlində Zivan firması faktiki olaraq telekommunikasiyanı monopolizə edərək yeganə Qarabağ müəssisəsini uzunmüddətli icarəyə götürdü. Qarabağ dərhal mobil rabitə şəbəkəsinə daxil edilmiş, hələ kabel telefon şəbəkəsi yararsız olsa da, Hiterket və peyk-rabitə gücləndirilmişdir. Adı çəkilən kompaniya («Qarabağ Telekom») DQR-in rabitə sisteminə təklif olunan 15 milyon dollara yaxın investisiya qoymuşdur. Bununla əlaqədar kompaniya artıq kifayət qədər ağırlığı olan gəlir alır.

Bundan başqa Qarabağda yüksək ixtisaslı, ancaq müqayisəyəgəlməz dərəcədə daha ucuz Qarabağ mütəxəssislərinin istifadə etdiyi məşhur «Frank Müller» İsveçrə saat firmasının filialı işləyir. Həm də İsveçrədə hazırlıq keçmişlər. Yerli əməkdaşlara aşağı (qərb ölçülərinə görə) əmək haqqı verirlər, ancaq bu, respublikadakı indiki həyat səviyyəsində dözülməz təminata tamamilə çatır.

Ənənəvi Qarabağ peşələrindən ən çox tələb olunan xalçaçılıqdır. Yerli xalçalar həmişə öz keyfiyyəti, sərt rəsmləri və solmayan rəngləri ilə şöhrət qazanmışdır. Stepanakertdə artıq ABŞ-a göndərilən məhsulun böyük hissəsini həyata keçirən iki Amerika xalçatoxuma firması işləyir. Onların

ümumi investisiyası 150 min dollar təşkil edir və onlar təbii boyaqlar almağa qədər istehsalın bütün həlqəsini yaratmaq əzmindədirlər.

Rusiya Erməni İttifaqının prezidenti Ara Abramyanın təmsil etdiyi iri Soyuducu təsərrufat qurulması layihəsi də perspektivlidir. Yəni gəlmişkən, Rusiya biznesindəki erməni sektorunun miqyasını göstərən rəqəmlərdən çıxış edərək, güman etdiyimiz kimi, Qarabağdakı Rusiya sahibkarlıq potensialı çox da fəal deyil. Halbuki indi orda deportasiya olunmuş rayonlardan xeyli qarabağlı, həm də iş axtarışı ilə respublikanın hüdudlarını tərk etmiş adamlar yaşayırlar (son bir-iki il onların vəziyyəti xeyli dərəcədə aşağı olmuşdur, ancaq DQR-də çox ailələr güzəranlarını Rusiyadan gələn dollar hesabına qurmaqda davam edirlər).

Dövlət adamlarının etirafına görə, vergi və qanunvericilik islahatları tempi zəruri struktur və kadr dəyişikliklərini qabaqlayır. İqtisadiyyat sahəsində işləyən mütəxəssislər menecment, marketinq sahəsində yüksək hazırlığa malik deyil, idarəetmə məktəbi keçməmişlər və psixoloji cəhətdən zamanın tələblərinə uyğun deyillər. Qarabağda «Göyün Çin həddi» adlandırılan orta məmurlar bu «xəstəlik»dən xüsusilə əziyyət çəkirlər; idarə sistemi ayrı-ayrı vətəndaşların problemlərinin operativ həll olunmasına maneçilik törədir. Onlardan çoxu bu sistemin toruna düşmək qorxusu qarşısında biznes yoluna düşməyə risk etmir. DQR-də Struktur və kadr dəyişikliyi problemləri 2002-ci il 11 avqustda keçən prezident seçkilərindən sonra daha da aktuallaşmışdır. Onun nə qədər tezliklə və effektli həll ediləcəyi məlum deyil, ancaq aydındır ki, yuxarı hakimiyyət kadr kataklizmləri və hay-küyləri olmadan keçirməyə üstünlük verir.

Deyilənləri yekunlaşdıraraq bir daha qeyd etmək lazımdır ki, Qarabağ iqtisadiyyatının inkişaf tempi beynəlxalq birliklərin adi Artsax vətəndaşlarının problemlərinə münasibətləri ilə birbaşa əlaqədardır. Qarabağlıların həyat səviyyəsinin bərpasına kömək üçün heç də onların dövlətçiliyini siyasi cəhətdən tanımaq vacib deyil. Sosial sahədə və ictimai sektorda vəziyyəti yaxşılaşdırmaqdan ötrü iqtisadiyyatın müəyyən sahələrinə investisiya qoymaq olar! Burada artıq neçənci ildir ki, DQR-ə təxminən bizim respublikanın dövlət büdcəsinə bərabər olan həcmdə birbaşa kömək edən Birləşmiş Ştatlar örnək rolunu oynayı bilər. Bu vəsaitlər əsas etibarı ilə sosial məqsədlər üçün – müharibənin dağıtdığı evlərin bərpa olunmasına, yaşayış və sosial obyektlərin tikintisinə, səhiyyənin və digər sahələrdə proqramların maliyyələşməsinə istifadə olunur.

Respublika büdcəsi nə qədər artırılsa da, müharibə və təsərrüfatsızlıq o qədər dağıntıya səbəb olmuşdur ki, kənardan kömək olmadan keçinmək mümkün deyil.

ABŞ və Ermənistandan daxil olan dövlətlərarası kreditin köməkliyini biz artıq xatırlatmışıq. Bundan başqa beynəlxalq və erməni təşkilatları, ayrı-ayrı xeyriyyəçilər humanitar yardım göstərirlər. Bu gündəlik sosial vəzifələrin bütöv kompleksini həll edir, ancaq daha böyük problemlərdən çıxış yolunu aça bilmir». Deyək ki, irriqasiya şəbəkəsi yaratmaq üzrə layihənin realizə edilməsi üçün böyük (Qarabağ büdcəsinin gücü xaricində olan), çox iri məbləğ lazımdır. Ancaq bəzi təşkilatlar və xeyriyyəçilər öz proqramlarına, bununla problemi qismən həll edərək, ayrı-ayrı kəndləri içməli və suvarma suları ilə təmin etməyi də daxil edirlər (Bax: İsveçdə nəşr olunan «Sentralnaya Aziya i Kavkaz» jurnalı, 2004-cü il).

*P.S. Bu etirafdır. Erməni separatçısı Dağlıq Qarabağın talan olunmuş təbii sərvətləri haqqında etiraf edir.*

*Əlavə olaraq işğal altındakı ərazilərimizdə qeyri-qanuni iş görən xarici şirkətlərin qısa siyahısını (onların sayı 55-ə çatıb) dərc edirik:*

## DAĞLIQ QARABAĞIN İQTİSADİYYATINDA YENİ ƏSAS İNVESTİSİYALAR

*(Xarici ölkələrdən)*

| Adı | İnvestisiyalar | Təsir dairəsi | Ölkə |
|---|---|---|---|
| Karabaklı Telecom Ş. | $ 15,000,000 | Telekommunikasiya | Livan |
| ATA-Vank-Les Ş. | $ 1,500,000 | Plitələrin istehsalı parket | ABŞ |
| Sirkap Armenia Ş. | $ 1,500,000 | Hotel biznesi | İsveçrə |
| Haik Watch and Jewelry Ş. | $ 1,200,000 | Ziynət əşyaların istehsalı | İsveçrə |
| Artsakh Bank Ş. | $ 1,000,000 | Bank işi | İsveçrə |
| Sirkap Armenia Ş. | $ 650,000 | Tikint imaterialların istehsalı | İsveçrə |
| İceberg-A | $ 500,000 | Soyutma | Rusiya |
| Arvard Ş. | $ 380,000 | Süd məhsullarının istehsalı | ABŞ |
| Shismanian Ltd. | $ 350,000 | Ərzaqların və pastanın istehsalı | Monako |
| Andranik Shpon Ş. | $ 340,000 | Ağac emalı sənayesi | İsveçrə |
| Mika Ltd. | $ 287,000 | Şərab istehsalı | U.K. |
| Australia Nairi Ltd. | $ 200,000 | Hotel biznesi | Avstraliya |
| Yerkir Tour Ş. | $ 200,000 | Hotel biznesi | ABŞ |
| Sasun Ş. | $ 123,000 | Trubaların istehsalı Polietilen | İran |
| Minasian Ş. | $ 100,000 | Xalçaların istehsalı | ABŞ |
| Oil Cracking Ş. | $ 100,000 | Neft məhsullarından təmizləyən zavod | Rusiya |
| Artsakh Gorg Ltd. | $ 50,000 | Xalçaların istehsalı | ABŞ |
| Stepanakert Bread Factory Ş. | $ 26,000 | Çörək pişirilən sex və pastaların istehsalı | ABŞ |
| «Sterlite Gold LTD» | $ 63,300 | Qızıl yatağının istismarı | Kanada |
| Cəmi | $ 86,806,000 | – | – |

*(Ermənistandan)*

| Adı | İnvestisiyalar | Əhatə etdiyi sahə | Ölkə |
|---|---|---|---|
| Base Metals Ltd. | $ 10,000,000 | Metal-dağ sənayesi | Ermənistan |
| Artsak Cable Ş. | $ 500,000 | Kabel istehsalı | Ermənistan |
| Nairi Ltd. | $ 442,600 | Şərab istehsalı | Ermənistan |
| Lusakert Ltd. | $ 300,000 | Ev quşlarının yetiş-dirilməsi | Ermənistan |
| Arm TechnoMash Export Ş. | $ 203,600 | Çayın dərman təsirli istehsalı | Ermənistan |
| Max Wood Ltd. | $ 144,300 | Ağac emalı istehsalı | Ermənistan |
| C ə m i : | $ 11,590,500 | – | – |

*(Yerli investisiyalar)*

| **Adı** | **İnvestisiyalar** | **Təsir dairəsi** | **Ölkə** |
|---|---|---|---|
| Artsak Alco Ş. | $ 1,500,000 | Araq, şərab istehsalı | DQR |
| Shoe Factoy Ş. | $ 494,300 | Geyim əşyalarının istehsalı | DQR |
| Varanda Ş. | $ 260,000 | Barel istehsalı | DQR |
| Urartu | $ 160,000 | Almazın cilalanması | DQR |
| GF Ltd. | $ 130,000 | Mebel istehsalı | DQR |
| Arj Ş. | $ 85,000 | Konserv istehsalı | DQR |
| Dvin Ltd. | $ 70,000 | Ev quşlarının yetişdirilməsi | DQR |
| Narek Ş. | $ 46,000 | Konserv istehsalı | DQR |
| Cəmi: | $ 2,745,300 | – | – |

# TƏCAVÜZKAR, İŞĞALÇI ERMƏNİSTANIN AZƏRBAYCANDA SOYQIRIM PLANLARI

Kitabın ikinci cildini tamamlayarkən belə bir qənaətə gəldik: Ermənistan işğalçı dövlətdir. Terrorçuluq və işğalçılıq onun dövlət siyasəti olaraq qalır. Fikrimizdə belə bir sual da yarandı: Azərbaycanda milli qarşıdurma, ixtişaşların təşkili və terror aktlarının törədilməsi, ərazilərimizin bir hissəsinin işğalı, kütləvi qırğınlar, dinc əhalinin doğma torpaqlarından deportasiyası, günahsız insanlara verilən işgəncələri, onlardan bir qisminin xüsusi amansızlıqla öldürülməsi, yandırılması, meyitlər üzərində zorakılıq və s. insanlığa qarşı bu kimi qəddar cinayət faktlarının, Ermənistan hökumətinin başqa bir dövlətə təcavüzünü, işğalçılıq siyasətini görə-görə, bilə-bilə dəstəkləyən pərdəarxası əsas hansı qüvvələr idi? Və nəhayət, nə vaxt, harada, kimlərin iştirakı ilə Azərbaycanda bu cinayətlərin həyata keçirilməsi planları cızılmışdı? XX əsrin ən dəhşətli faciələrindən biri olan Xocalı soyqırımı hardan qaynaqlanmışdır?

İlk öncə birmənalı şəkildə deyə bilərik ki, 20 yanvar 1990-cı ildə dinc əhaliyə heç bir xəbərdarlıq edilmədən, Kremldən - şəxsən Mixail Qorbaçov tərəfindən verilən göstəriş əsasında Sovet İmperiyası qoşunlarını, zirehli texnikasını Bakıya yeridib, kütləvi qırğınlar törətdi. Həmin hərbi birləşmələrin tərkibindəki erməni millətindən olan əlavə qüvvə kimi Rusiya hərbi komissarlıqları tərəfindən çağırılmış ehtiyatda olan xüsusi hazırlıqlı zabit və əsgərlər xalqa divan tutdular. Qanlı yanvar faciəsi zamanı Bakıda və respublikanın müxtəlif rayonlarında 131 nəfər mülki şəxsi küçələrdə, evlərində, avtomobillərində, iş yerlərində qətlə yetirdi, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs olundular. Sonradan hadisələrin gedişi göstərdi ki, qoşun Bakıya ermənilərin "Böyük Ermənistan" yaratmaq arzusunun maraqlarını təmin etmək və dağılmaqda olan Sovet imperiyasını qorumaq idi. Qanlı yanvar gecəsi Sovet imperiyasının Azərbaycanda törətdiyi cinayətlər öz miqyasına və amansızlığına görə ayrıca bir kitab mövzusudur.

Respublikanın o vaxtkı rəhbərlərinin səriştəsizliyi, hadisələrə düzgün qiymət verə bilməmələri, Sovet rəhbərliyinə olan inamları, bəlkə də onlara yararlı olmaq istəyi, laqeydlik, məsuliyyətsizlik və əsasən də, Azərbaycanın mənafeyinin qorunmasında prinsipial mövqe tuta bilməmələrini də qeyd

etməliyik. Eyni zamanda, daxildəki müxalifət düşərgəsində hakimiyyət uğrunda gedən çəkişmələr düşmən qüvvələrin respublikamızda əvvəlcədən hazırlanmış planlarının həyata keçirilməsi üçün daha münbit şərait yaratmışdı. Dövlətlə xalq arasında yaranmış gərginlik ölkəni vətəndaş müharibəsi qarşısında qoymuşdu. Xalq çaşqınlıq içində idi. Respublikanı xaos bürümüşdü. Kreml isə Azərbaycanda öz planlarını həyata keçirmək üçün Vəzirov və ona bənzər kartları məharətlə işə salır və onların vasitəsi ilə xalqlar dostluğundan dəm vururdu. Moskvanın Ermənistanla birgə Azərbaycanda həyata keçirdikləri məkrli düşmən siyasəti Kremlin istəyi ilə respublika rəhbərliyinə təyinat almış fiqurlar tərəfindən onların istəyinə uyğun olaraq həkk olunurdu. Azərbaycan xalqının, Azərbaycan dövlətinin taleyi kritik bir həddə çatmışdı. Xalq inandığı, etibar etdiyi liderinin axtarışına çıxdı. Qorbaçov rejimi isə həmin vaxt Qarabağın işğalı ilə bağlı ermənilərə verdiyi vədləri həyata keçirmək üzərində düşünürdü. Qorbaçov xanımı ilə, sonralar Amerikada qəbul etdiyi qiymətli hədiyyə hesabına ermənilərin də xanımına çevrilmiş Raisa Maksimovnayla, erməni istəklərinin reallaşmasında bütöv bir Sovet imperiyası maşınını işə saldılar...

**Bu məkrli planın həyata keçirilməsində onlara mane olacaq yeganə bir qüvvə var idisə, o real qüvvə də Heydər Əliyev şəxsiyyəti, zəkası, cəsarəti və nüfuzu idi.** Məhz elə buna görə də, Mixail Qorbaçov ermənilərə verdiyi vədi yerinə yetirmək üçün ilk növbədə Heydər Əliyevi müxtəlif bəhanələrlə Kremldən uzaqlaşdırmalı, onu zərərləşdirməli idi. Nəhayət Heydər Əliyev 1987-ci il oktyabr Plenumunda Sov. İKP-nin Siyasi Bürosunun üzvlüyündən və eyni zamanda SSRİ Nazirlər Sovetinin sədrinin birinci müavini vəzifəsindən azad edilib hakimiyyətdən uzaqlaşdırılır. Azərbaycana qarşı Qorbaçovun ən böyük xəyanətlərindən biri də elə o gündən başlandı. Sovet İmperiyasının dəstəyi ilə erməni şovinistlərinin Azərbaycana qarşı işğalçılıq və soyqırım planlarının həyata keçirilməsinə start verildi. Yerevan Azərbaycana təcavüz etmək üçün Moskvanın siyasi və güc qüvvələrini birləşdirib hərəkətə keçdilər.

Azərbaycanın bütün bölgələrində, o cümlədən Qarabağda ixtişaşlar, milli qarşıdurmalar, talanlar, qətllər, terror aktları, cinayətlər birbaşa Mixail Qorbaçovun rəhbərliyi ilə Kremldən idarə olunurdu. Apardığımız araşdırmalar, tədqiqatlar, tanış olduğumuz rəsmi dövlət sənədləri, istintaq materialları, oxuduğumuz sənədli əsərlər bunu bir daha sübut etdi. Misal

üçün, elə götürək "Sumqayıt hadisəsi" kimi tanınmış Sovet imperiyasının təşkil etdiyi cinayət şousunu. Bununla bağlı apardığımız araşdırmalar zamanı nəzərdən keçirdiyimiz bir neçə sənədli əsərlər içərisində "Sumqayıt – SSRİ-nin süqutunun başlanğıcı" adlı 2010-cu ildə Bakıda nəşr olunmuş kitab diqqətimizi cəlb etdi. Həmin kitabın müəllifi bir müddət Rusiyada prokurorluq və məhkəmə orqanlarında işləmiş, Sumqayıt hadisələri üzrə bir cinayət işində Dövlət ittihamçısı qismində çıxış etmiş Aslan İsmayılovdur. Əlbəttə, bu kitabla tanış olana qədər də biz təxmin edirdik ki, Xocalı soyqırımında Moskvanın, şəxsən Mixail Qorbaçovun və onun Kremldəki komandasının cinayət xarakterli izləri var. Lakin hüquqi baxımdan yüksək peşəkarlıqla yazılmış bu kitabda təsfir olunan təkzibedilməz epizodlar, sənədlər, şahid ifadələri, imperiyanın rəhbərliyi altında xüsusi sifarişlə "ağalarının" tapşırıqlarını canla-başla yerinə yetirən xüsusi xidmət orqanlarının cinayətkar axtarışına çıxmış nümayəndələrinin özlərinin əməliyyat və istintaq prosesində yol verdikləri cinayət əməllərinə Sovet imperiyasının biganəliyi faktları Xocalı soyqırımının bünövrəsinin əvvəlcədən düşünülmüş şəkildə bilavasitə Kremlin ssenariyası əsasında məhz Sumqayıtdan qoyulması fikri bir daha öz təsdiqini tapdı. Nə qədər acınacaqlı olsa da, təəssüflə qeyd etmək lazımdır ki, Sovet imperiyasının o vaxtkı siyasi və hərbi rəhbərliyi tərəfindən özünün tərkib hissəsi olan respublikaya və onun vətəndaşlarına qarşı xüsusi amansızlıqla törətdikləri cinayət əməllərinə görə hələ də günahkarlar məsuliyyətə cəlb edilib mühakimə edilməmişlər. Sumqayıt hadislərinə aydınlıq qətirmək məqsədi ilə müəllifin də bu məsələdə israrlı olduğunu nəzərə alaraq onun razılıgı ilə həmin kitabdan müəyyən məqamlara diqqətinizi cəlb etmək istəyirik.

Müəllif yazır:

«– Bu gün ermənilər Qarabağın əzəli və əbədi erməni torpaqları olmasını, ermənilərə qarşı türklərin etnik təmizləmə siyasəti apardıqlarını bütün dünyaya sübut etməyə çalışırlar və bu işdə heç bir saxtakarlıqdan çəkinmirlər. Baxmayaraq ki, 2005-ci ildə Türkiyə Prezidenti A.Gülün keçmiş Ermənistan Prezidenti R.Köçəryana əldə olan bütün arxivləri açmaq və dünya tarixçilərinin sərəncamına vermək təklifi indiyədək cavabsız qalıb. Onların sübut kimi təqdim etdikləri sənədlərin mənbəyi, mənşəyi bəlli deyil, tarixçi olmadığımdan hansısa tarixi araşdırmalar aparmaq fikrində deyiləm, ancaq bu gün əlimdə olan və 1823-cü ildə rus məmurları tərəfindən tərtib

edilmiş "Qarabağ əyalətinin təsviri" adlı sənəddəki məlumatları diqqətinizə çatdırmaq istəyirəm: "...Qarabağ xanlığında 90 min sakin, bir şəhər və 600-dən çox kənd, o cümlədən 150 erməni kəndi vardı. Şuşa şəhərində Zaqafqaziya türklərindən (azərbaycanlılardan) ibarət 1948 ailə və ermənilərdən ibarət 474 ailə yaşayırdı. Kəndlərdə müvafiq rəqəmlər 12.902 və 4.331 olmuşdur ".

XX əsrdə Qarabağı bir neçə dəfə Ermənistana birləşdirmək cəhdləri olub. Onların qarşısı alınıb. Buna görə də ermənilər Qarabağı dinc yolla, rəhbərliyin basqısı ilə almağın mümkünsüzlüyünü görərək, başqa taktikaya əl atmalı oldular. Üçüncü dəfə elə bir plan hazırladılar ki, millətlərarası çaxnaşma salıb, ondan istifadə etməklə Qarabağı Azərbaycanın tərkibindən ayırmağa müvəffəq olsunlar. DQMV-nin Azərbaycandan ayrılacağı planının ilk qaranquşu Z. Balayanın "Ocaq" kitabı oldu. Kitab ilk dəfə 1983-cü ildə çapdan çıxanda, "EÜH" (Erməni Ümummilli Hərəkatı) və "KRUNK" təşkilatlarının ideoloji bazası rolunu oynamağa başladı və bu təşkilatların ideya-siyasi planlarının müj|dəçisinə çevrildi.

Bundan sonra - 10 sentyabr 1985-ci ildə erməni yazıçısı Xanzadyan məktubla M. Qorbaçova müraciət edərək, DQMV-nin Ermənistan SSR-in tərkibinə verilməsini tələb edir. Xanzadyan məktubunda deyir: **"Qarabağ olmasa, bizə heç bir yenidənqurma lazım deyil!"** Qorbaçov bu ultimativ xarakterli məktubun ağırlığını və onun təsir gücünü dərk edir və özünün də sona qədər anlamadığı "yenidənqurma"sının taleyindən narahat olur. Çünki ona özünün "dahiliyini", sərsəm ideyalarını, boşboğazlığını dünyaya sırımaq üçün erməni diasporunun təbliğat maşını hava, su kimi lazımıydı və o, bunu itirmək istəmirdi.

1987-ci ilin axırlarından başlayaraq, Moskvadan və Yerevandan yüksək vəzifəli və tanınmış qonaqlar tez-tez Stepanakertə gəlirlər. Moskva və Yerevan Universitetlərində A.İ.Mikoyanın oğlu və Z.Balayan çıxış edir. Kremlin siyasi mətbəxinə yaxın olan akademik A.Aqanbeqyan da bu təbliğata qoşulur...

Bundan əvvəl isə Baş katibin xanımı R.M.Qorbaçova ABŞ-a ilk səfəri zamanı gözlənilmədən Erməni Mədəniyyət Mərkəzinə səfər etmiş, orada hamını təəccübləndirən və yaddaşlara həkk olunan belə bir cümlə işlətmişdi: "Biz erməni xalqı ilə Sovet xalqları arasında dostluğun möhkəmlənməsinə tərəfdarıq..." Baş katibin xanımı bununla nə demək istəyirdi?! Erməni xalqı

"Sovet xalqı" deyildimi?! Əgər R.Qorbaçova "rus xalqı ilə erməni xalqı arasında dostluğun möhkəmlənməsinə tərəfdarıq" desəydi, bu, anlaşılan olardı. Ancaq onun fikrini məhz bu cür ifadə etməsi Qorbaçov cütlüyünün erməni xalqına olan tam fərqli isti münasibətindən xəbər verirdi. Bu cütlükdə kimin daha çox söz sahibi olması isə mübahisə mövzusuna çevriləcək məsələdir. Bu gün erməni xalqı iddia edir ki, Azərbaycanla münasibətlər məhz 1988-ci ildən Sumqayıt hadisələrindən sonra korlandı. O zaman, Baş katibin xanımının vaxtından əvvəl edilmiş bəyanatı nəyə dəlalət edirdi?!

Bundan əlavə, həmin Mərkəzin səfər obyekti kimi seçilməsi də, yəqin ki, təsadüfi deyildi. Deyilənə görə, bu obyekt səfər proqramına lap son dəqiqədə daxil edilmişdi. R.M.Qorbaçovanın Erməni Mədəniyyət Mərkəzində hədiyyə kimi qəbul etdiyi qiymətli əşyalar əhvalatı da bu epizodla bağlıdır. Bu faktın özü isə DQMV-nin beynəlxalq orbitə çıxarılması tarixinə ciddi "kriminal çalarlar" qatır. Belə ki, ABŞ-ın erməni diasporundan bahalı zinət əşyaları qəbul edərkən, R. Qorbaçovanın dediklərinə diqqət yetirin: "Bu, sovet və erməni xalqları arasında (!?) dostluğun möhkəmlənməsinə xidmət edəcəkdir". Görünür, bu parça təsadüfən (və ya qəsdən) Mərkəzi televiziyada verilmişdi, axşamkı proqramda isə o, artıq kəsilmişdi. Sovet rəhbərinin və onun xanımının bahalı və adi pul şəklində bəxşişlərə meylli olması bəzilərində şübhə doğura bilər, mən isə Stavropol diyarında məhkəmə sədri işlədiyimdən, onların bu sahədəki "bacarıq və aludəçiliklərinə" qəti şübhə etmirəm, çünki Qorbaçov fəaliyyətinə Stavropoldan başlamışdır. Orada isə o, "Mişa konvertik" adı qazanmışdır. Ona görə də Qarabağ məsələsində "kriminal çalarlar"ın mühüm rol oynaması fikri mənim üçün təəccüblü, gözlənilməz deyildi.

Əvvəldə qeyd etdiyim kimi, təbliğata akademik Abel Aqanbekyan da çox fəal şəkildə qoşulmuşdu. Elm dəllalı kimi tanınan Aqanbekyanın barəsində Rusiya prokurorluğu tərəfindən "yaşadığı Vətənin sirrini satdığına görə", qaldırılmış cinayət işi də onun şəxsiyyətini xarakterizə edən haldır.

Ancaq Aqanbekyan Sovet vaxtı ölkənin partiya və dövlət başçıları ilə sıx əlaqəsinə görə tanınmışdı. Siyasi Büronun heç bir mühüm qərarı onun iştirakı olmadan müzakirə olunmurdu. Akademik Abel Aqanbekyan 1987-ci il noyabrın ortalarında Fransanın Erməni İnstitutu və Erməni Veteranları Assosiasiyasının onun şərəfinə təşkil etdiyi qəbul zamanı bildirmişdi ki, o,

Qarabağın ermənilərə verilməsi barədə rəyləri öyrənmək arzusundadır. O, demişdi: "Mən bir iqtisadçı kimi, hesab edirəm ki, o Azərbaycandan çox, Ermənistanla böyük əlaqədədir". Dağlıq Qarabağ hadisələrinin müqəddiməsi də elə A.G.Aqanbekyanın Parisdəki bu çıxışı olmuşdur.

Heç kim üçün sirr deyildi ki, Aqanbekyan rəhbərliyin xoşuna gəlməyəcək, daha dəqiq desək, rəhbərliklə öncədən razılaşdırmadan heç bir ifadə işlətməz və heç bir şaiyə buraxmazdı. Qorbaçovun da gəzən şaiyələrə etiraz etməməsi məhz bunun bilavasitə sübutudur.

1987-ci ildən etibarən, Ermənistanın azərbaycanlılar yaşayan hər yerində - hətta dayanacaqlarda, evlərin darvazalarında belə, azərbaycanlıların həmin torpaqlardan qovulacağına dair çağırışlar səslənirdi. Ölkədə və xaricdə isə belə bir versiya yayılmışdı ki, guya, azərbaycanlıların Ermənistandan qovulması yalnız Sumqayıt hadisələrindən 8 ay keçəndən sonra başlanıb. Həqiqət isə tamam başqa cür idi.

Hələ 1985-ci ildə Qazax rayonu ərazisində 3 respublikanın dostluğunu tərənnüm edən böyük abidə partladılır. Partlayışı törədən hadisə yerində yaralandığından, onun şəxsiyyəti müəyyən edilir. Bu, Eçmiədzinin (erməni katolik kilsəsi) keşişi Stepan ata olur. 1986-cı ildə "Qarabağ məsələsi" qeyri-rəsmi şəkildə qaldırılandan dərhal sonra və növbəti ildə, əsasən Ermənistanın Qafan və Mehri rayonlarından olan qaçqınlar Azərbaycana gəlir. Azərbaycan hökuməti Sumqayıtda və onun ətrafında məskunlaşmış həmin qaçqınlar haqqında 1986–1987-ci illərdə xüsusi qərarlar qəbul edir, lakin "xalqlar dostluğu" ideyası naminə, bu məsələni o qədər də nəzərə çarpdırmır. Qeyd edim ki, bu, Azərbaycan rəhbərliyinin ən böyük xətası olur. Qarabağın Azərbaycandan ayrılması prosesinə çoxdan start verilməsinə baxmayaraq, ölkə rəhbərliyi hələ də "xalqlar dostluğu"na xələl yetirmək istəmir, problemin "güclü Mərkəz" tərəfindən həll ediləcəyinə böyük ümid bəsləyir.

Lakin heç də hər şey Azərbaycan rəhbərliyinin ümid etdiyi kimi olmur. 1988-ci il yanvarın 25-də, fevralın 18 və 23-də azərbaycanlı qaçqınlarının növbəti dəstəsi Ermənistandan Azərbaycana köç edir. Onların sayı 4 minə çatır. Politoloq, Qafan rayon partiya komitəsinin ikinci katibi Armais Babayan 1987-1990-cı illərdə azərbaycanlıların Ermənistan SSR-dən qovulması faktını Britaniyalı jurnalist Tomas de Vaala verdiyi müsahibəsində inkar edərək, bildirir ki, guya köçüb gedən azərbaycanlılara qarşı hər hansı zorakılıq halları olmayıb, onlar nədən isə qorxduqları uçün

köçüb gediblər.

Hər halda normal düşüncəyə malik insan iddia edə bilməz ki, minlərlə insan heç bir ciddi səbəb olmadan eyni vaxtda böyüyüb boya-başa çatdığı dədə-baba yurdundan bir çöp götürmədən, çıxıb gedə bilər. Bu, qeyri-mümkündür.

Ə. F. Daşdəmirov (1988 - 1991-ci illərdə Azərbaycan KP MK-nın katibi) göstərir: “Ermənistanda vahimə şəraitinin qızışdırılması və zorakılıq hərəkətləri nəticəsində oranı tərk etməyə məcbur olmuş azərbaycanlıların sayı 1988-ci il fevralın 18-nə qədər dörd min nəfəri keçmişdi” (“Vestnik Analitiki”, №3, 2005).

Ermənistandan olan azərbaycanlı qaçqınların söylədiklərindən bakılı jurnalistlərin qeydə aldıqları bir neçə nümunələrini də nəzərinizə çatdırıram: Masis rayonunun “Ararat” sovxozundan olan Hüseyn Qəmbərov: “1988-ci il fevralın 19-dan sonra biz bir gecə də yatmamışıq. Qonşu kəndlərdən olan azərbaycanlılar bizim qəsəbəyə - Masis rayonunun Kalinin adına qəsəbəsinə toplaşmışdılar. Qəsəbəni sərhəd hissələri qoruyur. Oradakı Azərbaycan məktəbini bağlayıblar. Sakinlər öz təhlükəsizliyini təmin etmək üçün gecələr kəndin və ya qəsəbənin mərkəzində tonqal ətrafında toplaşır, 10-20 nəfər kişi evləri qoruyurdu. Buna baxmayaraq, elə gecə olmur ki, bizim evlərdən biri yandırılmasın. Qocalar, qadınlar, uşaqlar paltarlı, hətta ayaqqabılı yatırlar ki, lazım gəlsə, durub qaça bilsinlər”.

Ararat rayonunun Kiçik Vedi kəndindən olan Qəmbərovun bacısı Püstə əlavə edir: “Bizim kənddə azərbaycanlı evlərinin hamısının bütün pəncərələrini sındırdılar, meyvə ağaclarını kəsdilər, istixanaları dağıtdılar. Azərbaycan məktəbi fevralda bağlanmışdı..” (“Vestnik Analitiki”, N3, 2005).

Kolxozçu Hümbət Abbasov: “Biz Masis rayonunun Artaşat kəndindənik. Bizim kənddə 3 evi yandırdılar - U.Abdullayevin, A.Sadıqovun və Nizaminin evini. 1988-ci il fevralın 19-dan bizi bazarlara buraxmırlar, zəhmətlə yetişdirdiyimiz məhsul zay olur. Fevralın 19-dan sonra Ermənistanın xəstəxanalarında, poliklinikalarında, tibb məntəqələrində aparılan qeydiyyatlarda bir azərbaycanlı soyadı tapa bilməzsiniz. Hərçənd, orada 200 min azərbaycanlı yaşayır. Bizə çörək və ərzaq satmırlar. Bizi şəhər nəqliyyatına buraxmırlar. Fevralın 19-dan bəri azərbaycanlıları heç bir səbəb olmadan kütləvi şəkildə işdən qovmağa başlayıblar. Onlar sözün əsl

mənasında bizim üzümüzə tüpürürdülər və qışqıraraq - "Türklər, erməni torpağından rədd olun!"- deyirdilər". ("Vestnik Analitiki", N°3, 2005).

Həmin dövrdə Ermənistanın hər yerində, avtobus dayanacaqlarında, azərbaycanlılar yaşayan evlərin darvazalarında və qapılarında vərəqələr, plakatlar asılmışdı. İnsanları cinayətlər törətməyə təhrik edən "Müraciətnamə"lərdən birində bu sözlər yazılmışdı:

*Ermənistan xalqı!*

*1915-ci ilin qanlı günlərini heç vaxt unutma, Tələt paşa, Ənvər paşa, Camal paşa tərəfindən sənin başına gətirilmiş dəhşətli müsibətləri unutma! Yaşa və unutma!*

Erməni adını daşıyan hər kəs!

Türkü öz torpağından qov!

Onu erməni bulaqlarından su içməyə qoyma!

Onu erməni qadınının bişirdiyi çörəyi yeməyə qoyma!

Türklər, bizim şəhərdən rədd olun!" (?)

Oxuduqlarınızdan görürsünüz ki, azərbaycanlıların Ermənistan SSR-dən qovulması prosesinə Qarabağ münaqişəsindən və Sumqayıt hadisələrindən xeyli əvvəl start verilmiş, Sumqayıt hadisələrinə bir neçə gün qalmış isə bu proses xüsusi vüsət almışdır.

Artıq Qarabağın işğalı planının kulminasiya nöqtəsi olan 1988-ci ilə gəlib çatmışıq. Son nöqtəni qoymaq üçün azərbaycanlıları dünyaya "vəhşi millət" kimi tanıtmaq lazım idi. Bunun üçünsə tam münbit şərait yaradılmışdı. Ermənistan üçün bu ildən sonra artıq Qarabağı hissə-hissə işğal etmək mərhələsi başlayacaqdı. Dünyanın etirazına səbəb olmadan, Qarabağın işğalına əsaslı zəmin hazırlanmışdı.

1982-ci ilə qədər Heydər Əliyev Azərbaycana rəhbərlik edir. Erməni xalqının heç bir nümayəndəsi tərəfindən separatçı ruhlu addımlar atılmır. Heydər Əliyev Bakını tərk edib Moskvaya getdikdən bir il sonra Zori Balayanın "Ocaq" kitabı dərc olunur və təbliğat başlayır. Lakin yenə də bütün bunlar qeyri-rəsmi şəkildə, belə demək mümkünsə, əlaltından görülür. Heydər Əliyevi 1987-ci ilin oktyabrında hakimiyyətdən uzaqlaşdırdıqdan dərhal sonra, 1987-ci ilin noyabrında təbliğat maşını tam gücü ilə işə düşür, Aqanbekyan ilk dəfə Fransada ermənilərə rəsmi şəkildə müraciət edir.

Beləliklə, 1988-ci ilin fevral ayı hadisələrin ən kəskin nöqtəsi olur. 1988-ci il fevralın 20-də Dağlıq Qarabağ Muxtar Vilayəti İcraiyyə Komitəsinin

iclas salonunda DQMV Xalq Deputatları Sovetinin növbədənkənar sessiyası çağırılır.

Həmin sessiya barədə ilk məlumat isə 21.02.1988-ci ildə "Sovetskiy Karabax", eləcə də bu qəzetin erməni dilində variantı olan "Sovetakan Karabax" qəzetlərində "XX çağırış DQMV Xalq Deputatları Sovetinin növbədənkənar qurultayı" başlığı ilə dərc edilib. Məlumat üçün qeyd edirəm ki, Azərbaycan ictimaiyyəti bu barədə hələ də xəbərsiz idi, DQMV-də baş verənlərə dair heç bir məlumatları yox idi. Beləliklə, "Sovetskiy Karabax" qəzetində verilən məlumatda deyilir:

***"Dünən, fevralın 20-də Vilayət sovetinin icraiyyə komitəsinin iclas salonunda DQMV xalq deputatlarının növbədənkənar sessiyası olmuşdur. Sessiyanı 109 №-li seçki dairəsindən olan deputat S.A.Danielyan açmışdır. O bildirmişdir ki, Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında Azərbaycan SSR Qanununun 39-cu maddəsinə müvafiq olaraq Vilayət sovetinin 87 deputatı DQMV Xalq Deputatları Sovetinə müraciətlə növbədənkənar sessiya çağırılmasını xahiş etmişdir. Vilayət sovetinin mandat komissiyası göstərilən sayda deputatların səlahiyyətlərini yoxlamış və onları etibarlı hesab etmişdir.***

***Sessiya "DQMV-nin Azərbaycan SSR tərkibindən Ermənistan SSR tərkibinə verilməsi haqqında Azərbaycan SSR və Ermənistan SSR Ali Sovetləri qarşısında vəsatət qardırılması haqqında'' məsələ müzakirə etmişdir".***

Qəzetlər yuxarıda göstərilən məlumatdan sonra "DQMV-nin Azərbaycan SSR tərkibindən Ermənistan SSR tərkibinə verilməsi haqqında Azərbaycan SSR və Ermənistan SSR Ali Sovetləri qarşısında vəsatət qaldırılması haqqında" qərar qəbul edildiyi bildirilir. Göründüyü kimi, ilk rəsmi addım atılır. Azərbaycan SSR rəhbərliyi isə hələ də bundan "xəbərsizdir".

Növbədənkənar sessiya keçirilməsi tələbi ilə, özü də həmin dövrdə deyildiyi kimi, "antipartiya ruhlu gündəliyi olan" bir yığıncaq üçün 87 nəfərin imzasını bir gün, bir həftə, bir ay müddətində toplamaq mümkün deyil. Bunun üçün uzun müddət təbliğat və təşkilati iş aparılmalı, məsələyə dair həmfikirlər qrupu yaradılmalı, həmin həmfikirlər qrupu belə bir aksiyanın işlənib hazırlanması və həyata keçirilməsi taktikasını öz üzərilərinə götürməli idilər və s. Həmçinin, belə bir aksiya o qədər mükəmməl hazırlanmalı idi ki, imzaları toplayacaq, tədbiri təşkil edəcək, bir

sözlə, bu aksiyaya cəlb olunacaq şəxslər hazırladıqları tədbirin nəticələrinə tamamilə inanmış olsunlar və aksiyaya qoşulmaqdan çəkinməsinlər.

Bu həmfikirlərin hazırladığı aksiyanın, yəni, sessiya iştirakçılarının hərəkətlərinin uzlaşdırılması, onların həmrəyliyi və nəhayət, sessiyanın qəbul etdiyi sənədlərin hərtərəfli düşünülmüş olması aşkarca nəzərə çarpır. Sessiya erməni əhalisinin, demək olar ki, bütün sosial qruplarını təmsil edən, lazımi sayda natiqlərlə təmin olunub. Hadisələr o qədər dərindən və planlı şəkildə hazırlanıb ki, hətta rus familiyalı bir deputatın -T.V.Sobolyovun çıxışı da nəzərdə tutulub. Axı müzakirələrə obyektivlik, ümumxalq-beynəlmiləl xarakter verən birisi də lazım idi. Bir sözlə, bu aksiya protokol qaydalarına qədər düşünülmüşdü (həmin sessiyada azərbaycanlı deputatlar iştirak etməmişlər).

O zaman, necə olur ki, mətbəxdə belə kimin nəyi müzakirə etməsindən xəbər tutan SSR DTK-sı separatçı təbliğatın aparılmasından, 87 imzanın toplanmasından, sessiyanın yığıncağının çağırılmasından, onun keçirilməsindən yalnız mətbuatda rəsmi məlumat getdikdən sonra xəbər tutur? İnandırıcı səslənmir, deyilmi ?!

Məhz həmin vaxtlarda - 1988-ci il fevralın 22-də azərbaycanlı və erməni əhalisi arasında yaranmış münaqişə kütləvi iğtişaşlar formasına keçir **və** ilk qurbanlar verilir. Erməni-azərbaycanlı münaqişəsində ilk qurbanlar da məhz Azərbaycan tərəfindən olur - iki nəfər öldürülür; onlardan biri tarlada işləyən kəndli - 33 yaşlı Əli Hacıyev, digəri isə 16 yaşlı Bəxtiyar Quliyev olur. Baş vermiş iğtişaşda 19 nəfər yaralanır. Həmin vaxt Stepanakertə getməsinin və həqiqi mənada faciənin baş verməsinin qarşısı alınır. Milli münaqişələr zəmnində vəziyyət daha da gərginləşirdi. O vaxtın Respublika rəhbərliyi Moskvanın təzyiqlərinə məhəl qoymayıb vaxtında sərt mövqe nümayiş etdirə bilsəydi bəlkə də bu gün Qarabağ problemi yox idi.

Qırğın törətməkdə israrlı olan Qorbaçov, guya, erməniləri xilas etmək adı ilə Sovet ordusunun bütün qoşun növlərini Bakıya yeridərək, Azərbaycanı qan içində boğdu. (Bu tamamilə ayrı bir mövzudur).

O günlərdə verilən qurbanlara baxmayaraq, Ermənistan tərəfi münasibətləri daha da gərginləşdirməyə çalışırdı. Belə ki, həmin vaxt Yerevanda keçirilən mitinqlərdə Ermənistan EA müxbir üzvü R.Kazaryan bütün dünyaya car çəkərək deyirdi: "Onilliklər boyu ilk dəfə bizə Ermənistanı təmizləmək imkanı verilib". Ermənistan EA akademiki

Ambartsumyan da onun sözünə qüvvət verərək - “Ermənistanda türklər, yəni azərbaycanlılar qalmamalıdır”- deyə, hayqırırdı.

O dövrlər Sov.İKP MK Siyasi Bürosunun üzvü Aleksandr Yakovlevin köməkçisi, Mikoyanın ailəsində tərbiyə almış Kuznetsov idi. 1988-ci ildə o, erməni yazıçısı Zori Balayan və erməni şairəsi Silva Kaputikyanın Yakovlev tərəfindən qəbul olunmasını təşkil edir. Bu cütlük Yakovlevə bəyan edir ki, Dağlıq Qarabağda erməniləri hər vasitə ilə alçaldırlar, buna görə də həmin regionu Azərbaycandan ayırıb Ermənistana vermək lazımdır. Yakovlev isə fevralın 24-də onları Qorbaçovun yanına aparır...

“Antiazərbaycan kampaniyasına startı M.Qorbaçov vermişdi. Öz memuarlarında görün, o, nə yazır: “Həmin günlər mənim şaira Silva Kaputikyan və jurnalist Zori Balayanla görüşüm baş verdi. Söhbətdə Q. Şahnazarov da iştirak edirdi. Söhbət uzun çəkdi. Mən məsələnin başlanmasını müfəssəl şərh etmələri üçün həmsöhbətlərimə imkan verdim... Hə, bundan sonra söz aldım və mən də müfəssəl surətdə rəhbərliyin mövqeyini şərh etdim. Onun məğzi bundan ibarat idi ki, DQMV ermənilərinin qanuni və ədalətli arzuları təmin olunmalıdır, lakin bu, ölkədə zəncirvari reaksiya yaranmasına, qan tökülməsinin başlanğıcına səbəb ola bilərək milli-ərazi bölgüsünün yenidən biçilməsi olmadan edilməlidir...”

Bu görüşlə bağlı Sov.İKP MK-nın şöbə müdiri işləmiş Brutens isə öz xatirələrində yazır: “24 fevralda A.N.Yakovlevin yanına getmişdim. O danışdı ki, Qorbaçov bir neçə saat bundan qabaq şairə S.Kaputikyanı və yazıçı Z.Balayanı qəbul etdi (mən belə başa düşdüm ki, onun proteksiyası ilə). Onun sözlərinə görə, söhbət Mixail Sergeyeviçdə teəssürat yaratmışdı,

o,ilk dəfə olaraq Artsax (Dağlıq Qarabağın qədim adı) problemini dərk etmiş və ona acımışdır. Zənnimcə, Yakovlevin özü də belə münasibəti bölüşürdü. Sonra mənimlə sağollaşdı...”

Bundan daha aydın demək olmazdı! Qorbaçov və Yakovlev hakimiyyətdə olduqları bütün müddətdə məhz bu mövqeni saxlamışdılar. Bu gün həmin görüş barədə yazılan memuarları oxuduqda, aydın görünür ki, həmin görüş sonrakı hadisələri qabaqcadan təyin edir. Güclü erməni təbliğatı praktik olaraq dünyanın hər yerinə çatırdı. Qorbaçovla bu görüşlərdən sonra yubanmadan Stepanakertdəki mitinqlərdə “Lenin-partiya- Qorbaçov, Hitler-Stalin-Liqaçov” şüarı səsləndi, Yerevanda isə çoxminli mitinqdə Sov.İKP MK katibi Yakovlev Stepanakertin separatizmini “xalq azadlıq hərəkatı”

adlandırdı.

SSRİ hökuməti hamılıqla, Qarabağ separatçılarını "dilə gətirməyə" başladı: Nazirlər Sovetinin xüsusi məsələlər üzrə bürosunun sədr müavini, Dövlət plan komitəsi sədrinin birinci müavini V.M.Serov, nazirlər A.Q.Anfimov, A.A.Yejovski, S.F.Voyenuşkin, V.A.Durasov, V.M.Lukyanenko, N.A.Puqin, M.S.Şkabardiya, müavinlər A.F.Kazakov, E.İ.Razumovski... Dağlıq Qarabağa gələn hər kəs nümayişkaranə şəkildə Yerevandan keçir və eyni sözləri deyirdilər: "Ah, burada vəziyyət necə də pisdir!" Və hər biri də, bir növ, kömək edəcəklərinə söz verirdi. Proses artıq başladığından bütün məsələlər, əlbəttə ki, Bakıdan yan ötərək həll olunurdu. Əslində, Qarabağda yaşayış Azərbaycanın başqa regionlarındakından xeyli dərəcədə yaxşı idi. Lakin erməni əhalisinin narazılığını üzdə göstərmək lazım idi. Narazılığın geniş vüsət alması və qar topası kimi arta-arta getməsi üçün isə bir bəhanə gərəkdi. Bəhanə olaraq da, ermənilərin sosial vəziyyəti göstərilirdi. Əslində, bunun bəhanə olduğunu hamı bilirdi.

Həqiqətdə erməni millətçilərinin, SSRİ-nin rəhbər vəzifəli şəxslərinin dediyinin tam əksinə olaraq, DQMV-də bütün iqtisadi göstəricilər ümümrespublika üzrə göstəricilərdən qat-qat yaxşı idi.

Erməni millətçiləri var qüvvələri ilə hamıya necə məzlum, əzabkeş, əzilən millət olduqlarını göstərməyə çalışırlar və bununla da qızışdırıcı mövqelərindən əl çəkmirlər. Lakin diqqətinizə bir daha çatdırıram: hələ ki, döyülən, söyülən, təhqir olunan, şərlənən, teklənən, öldürülən və qovulan yalnız azərbaycanlılardır! Erməni əhaliyə hələ heç kim, heç bir etiraz bildirməyib! Ancaq bu, daha çox davam edə bilməzdi. Bakıya və ölkənin digər regionlarına kütləvi şəkildə Ermənistandan gələn qaçqınların axını başlayır. Evsiz-eşiksiz qalmış insanlar küçələrə tökülüb haqlarını tələb etməyə başlayırdı. Ehtiraslar artıq pik həddə çatmışdı. Kremlin və erməni separatçılarının istədiyi şərait yetişmişdi. Məhz bu günlərdə kütlə arasındakı mənbəyi bəlli olmayan qızışdırıcılar peyda olmağa başlayır. Ermənistanın azərbaycanlılar yaşayan ərazilərdən gəlmiş insanların başlarına gətirilənləri, baş vermiş talanları danışmaları isə hadisələri kulminasiyaya yaxınlaşdırırdı. Məhz bu məqamda Qorbaçovla görüşündən sonra dərhal Ermənistana qayıdıb televiziya ilə çıxış edən Silva Kaputikyan kütlənin idarəolunmaz hala gəlməsinə səbəb oldu. Həmin çıxışında Silva Kaputikyan Qorbaçovla görüş haqqında təəssüratlarını bölüşərək, deyir: **"Söhbət dörd saata yaxın**

**davam etdi. Yoldaş Qorbaçov bizim "Dağlıq Qarabağ" sözlərini tez-tez təkrarladığımızı hiss edərək dedi: "Məncə bu, "Artsax" deməkdir..."**

Mərkəzə və erməni millətçilərinə erməni əhalisinin qırğını ilə müşaiyət olunacaq qarşıdurma lazım idi. Bu qarşıdurma Azərbaycanın istənilən regionunda baş verə bilərdi. Bu qarşıdurmanın məhz Sumqayıtda baş verməsinin səbəbi isə bu şəhərin statusu ilə bağlı idi. Belə ki, Sumqayıtda çoxlu sayda peşə məktəbləri vardı və respublikanın müxtəlif regionlarından gəlmiş on min gənc həmin texniki peşə məktəblərində təhsil alırdı. Təbii olaraq, onlar valideyn nəzarətindən də kənarda qalmışdılar. Bundan əlavə, Sumqayıt həm də sənaye şəhəri idi, ora hamı iş tapmaq üçün gəlirdi. Lakin şəhərin ora iş üçün gəlib yerləşmiş insanlarını yaşayış sahəsi ilə təmin etmək problemi vardı. Belə ki, on yeddi min ailə mənzil növbəsi gözləyirdi. İyirmi min adam isə, sözün həqiqi mənasında, gecəqondu statusunda olan evlərdə yaşayırdılar. Şəhərin kriminogen durumu da ürəkaçan deyildi. Sumqayıt əhalisinin bir hissəsi "xüsusi kontingent", yəni, cəzasını çəkib qurtarmış insanlar idi. Bundan əlavə, Sumqayıt mühitində şərti olaraq cəzadan vaxtından əvvəl azad edilmiş və kimya sənayesi müəssisələrində işləməyə göndərilmiş şəxslər də nisbətdə daha çox idi, çünki Sumqayıtda əsas sənaye potensialını məhz kimya zavodları təşkil edirdi. Daha da artıq, on minə yaxın islah işlərinə məkum edilmiş şəxs də həmin şəhərdə yaşayırdı. Bir sözlə, Sumqayıtın demoqrafik tərkibi bu təxribatlara dərhal reaksiya verəcəkdi.

Bu gün tam məsuliyyətlə demək olar ki, Sumqayıtda kütlənin özünü necə aparacağı riyazi dəqiqliklə hesablanıb proqnozlaşdırılmışdı. Çünki SSRİ DTK-sı bu problemlə həmişə xüsusi maraqlanırdı.

Bu hadisələrin modelləşdirilməsində isə başqa spesifik hallar da nəzərə alınmışdı. Belə ki, " Kütlənin psixologiyası" kitabında psixoloq-alim Tard yazır: "Kütlə bir-biri ilə tanış olmayan müxtəlif elementlərin toplusudur. Ehtirasları coşdurmaq üçün bircə qığılcım kifayətdir: həmin qığılcım bu yöndəmsiz kütlənin bir elementindən digərinə keçərək, onu elektrikləşdirir və sonuncu qəflətən, öz-özünə teşkilatlanır. Pərakəndəlik rabitəyə, hay-küylü kütlə isə öz məqsədinə nail olmaq üçün qarşısıalınmaz israrla irəliyə can atan yırtıcıya çevrilir. Adamların çoxu buraya sadəcə maraq xatirinə gəlmişdir, lakin bir neçə nəfəri əhatə edən həyəcanlı ehtiras qəflətən hamının qəlbinə hakim kəsilir və hamı qarçısına nə çıxsa, vurub dağıtmağa çalışır. Günahsız bir insanın ölümünə mane olmaq niyyəti ilə qaçıb özünü çatdırmış

insan az sonra birincilər sırasında adamları öldürmək istəyinə yoluxur və ən təəccüblüsü odur ki, bu hərəkətlər həmin insanı əsla təəccübləndirmir". Buraya onu da əlavə edək ki, həmin kütlə arasında Ermənistanda cəhənnəm əzabından keçmiş insanlar da vardır! Və bu kütlə üçün qığılcım rolunu həm də Silva Kaputikyanın Ermənistan televiziyası ilə məlum çıxışı oynadı.

Bəli, deyə bilərsiniz ki, bəlkə S.Kaputikyan blef edirdi? O zaman elədirsə, M.Qorbaçovun 1988-ci il fevralın 29-da Sov.İKP MK Siyasi Bürosunun iclasında dediyi bu sözləri necə başa düşək: "Qarabağda ermənilərlə azərbaycanlılar arasında münaqişə baş vermiş, iki nəfər azərbaycanlı həlak olmuşdur. Yerevanda bu məzmunda vərəqələr yayılmışdır: "Ermənilər, mitinqlərə son qoyun, əlinizə silah götürüb, türkləri qırın". Sovet ordusunun qərargahına uzaq məsafədən atəş açılmışdır. Lakin deməliyəm ki, hətta Yerevan küçələrində yarım milyon insan olduğu vaxtda da ermənilərin intizamı yüksək səviyyədə olmuşdur. Sən demə, Stepanakert şəhər partiya komitəsinin katibi 14 ildə bir dəfə də Ermənistanda olmamışdır, hərçənd, axı Dağlıq Qarabağ erməni muxtariyyətidir. Hətta Ermənistana gedən yollar da baxımsız qalmışdır. Bu, bilərəkdən belə edilmişdir. Dağlıq Qarabağda Türkiyə televiziyasının verilişləri qəbul edilir, amma Ermənistan televiziyasının verilişləri qəbul edilmir. Axı bunlar insanların heysiyyatına toxunur. Dünən Vazgenlə söhbət etmişəm (söhbət bütün ermənilərə müraciəti ilə "məşhurlaşmış" katolikosdan gedir -Aİ.). O dedi ki, real problemlər var, hadisələr boş yerdə yaranmamışdır. Bu zaman o, öz təcrübəsindən bir nümunəyə istinad etdi. Deyir, mən Bakıda H.Əliyevin qəbulunda olmuşam. Bakıda erməni kilsəsi var. Bu şəhərdə 200 minə yaxın erməni yaşayır. Vazgen həmin kilsədə ibadət etmək istəmişdir, artıq 12 ildir ki, dəvət gözləyir, lakin hələ də dəvət almamışdır. Görünür, o, arzuedilməz şəxsdir, onun orada görünməsini istəmirlər. Bütün bunlar isə insanın hissiyyatına təsir edir, onu qızışdırır. Vilayətdə onilliklər boyu xeyli çətinliklər və problemlər yığılıb qalmışdır. Azərbaycan rəhbərliyinin Qarabağ əhalisinə münasibəti Leninizmdən, bəzən isə ümumiyyətlə insaniyyətdən uzaq ruhda yanaşma olmuşdur".

Göründüyü kimi, Lenin babasından sonralar imtina etmiş Baş katib Qorbaçov bütün erməniləri, azərbaycanlıları qırmaq üçün silahlanmağa çağıranları, ordu qərargahına atəş açanları cəzalandırmaq, sərt tədbirlər görmək əvəzinə, üstüörtülü şəkildə erməniləri təbliğ etməklə məşğul olur.

Onların necə də intizamlı olduğunu utanmadan dilə gətirir, H. Əliyevin Vazgeni Bakıya dəvət etməməsini qınayır.

Qorbaçovun bu çıxışını təhlil etdikdə H.Əliyevin baş keşişi Bakıya niyə dəvət etməməsinin səbəbi aydın olur: H. Əliyev Vazgenin araqızışdıran olduğunu dəqiq bilirdi. Və əgər Baş Katib ermənilərin necə də məzlum xalq olduğunu bu cür canıyananlıqla ifadə edirdisə, həmin araqızışdıran Vazgenin Bakıya gələcəyi təqdirdə, "erməni etnosunun müstəsnalığı haqqında fəlsəfəsi"ni Azərbaycan erməniləri arasında təbliğ edərək, onları millətlərarası ayrıseçkiliyə necə tehrik edəcəyini də gözəl anlayırdı.

Bəs yaxşı, əgər Qorbaçov taleyin erməniləri bu qədər incitdiyini ürək yanğısı ilə danışırsa, o zaman niyə Sumqayıt qırğınının qarşısını almırdı?! Təkzibolunmaz faktdır ki, fevralın 28-i və 29-u Sumqayıtda baş veranlərə nə ordu, nə milis (o dövrdə polis "milis" adlanırdı) tərəfindən heç bir müdaxilə olunmayıb. İctimai asayişi qorumaqla mükəlləfiyyətli strukturlar kənarda tamaşaçı kimi baş verənləri seyr ediblər. Axı həmin 32 nəfər yarım saatın içində öldürülmədi. Bu, hardasa 2 gün davam etdi. Qanunla danışsaq, biz bu hərəkətsizlikdə yerli güc strukturlarını günahlandıra bilmərik. Çünki xatırladıram ki, bu hadisələr 1988-ci ilin fevral ayında baş verirdi və onda hələ müstəqil Azərbaycan dövləti yox idi, Kreml isə hələ çox güclüydü. Sovet Azərbaycanının hakim dairələrinin sərəncamında ordu yox idi, Azərbaycan milisi isə bütünlüklə Moskvaya tabe idi.

Bu məsələylə əlaqədar ABŞ-dakı Con Hopkins Universitetinin Mərkəzi Asiya və Qafqaz Tədqiqatları İnstitutunun baş direktoru Svante Kornell yazır: "Sumqayıtda Sovet ordusu hissələrinin və Daxili qoşunların olması heç nəyi dəyişmirdi; adama elə gəlirdi ki, ordu kənarda dayanıb talanları sakitcə müşahidə edirmiş, Sovet hakim dairələri nəinki qan tökülməsinin qarşısını almaq niyyətində deyildi, hətta iki etnik icma arasında münaqişə yaratmağa çalışırdı".

Sonralar güc strukturlarının rəhbərləri hərəkətsizliklərinin səbəbi kimi Ali rəislər tərəfindən əmrin verilməməsini göstərirdilər. Qorbaçovun isə bir neçə ay sonra gətirdiyi "...əgər qoşunlar üç saat gecikməsəydi, faciənin qarçısını almaq olardı" bəhanəsinin ikiüzlülüyün son həddi olmasını nəzərinizə çatdırmaq üçün Sov.İKP MK Siyasi Bürosunun 29 fevral 1988-ci il tarixli iclasının stenoqramına diqqət yetirməyinizi xahiş edirəm:

SSRİ Müdafiə naziri Dmitriy Yazov: "Sumqayıtda istəsəniz, bəlkə də

adını düz demirəm, hərbi vəziyyət tətbiq etmək lazımdır... Mixail Sergeyeviç, vəziyyətin daha da mürəkkəbləşməməsi üçün bu xətti qətiyyətlə həyata keçirmək lazımdır. Oraya qoşun yeritmək və qayda yaratmaq lazımdır"...

M.Qorbaçov: "Əsas məsələ budur ki, indi dərhal fəhlə sinfini, adi insanları, drujinaçıları ictimai asayişi pozanlara qarşı mübarizəyə cəlb etmək lazımdır. Deyə bilərəm ki, bu yolla hər cür xuliqanların və ekstremistlərin qarşısını almaq olar... Hərbçilər insanları qəzəbləndirir".

Beləliklə, Müdafiə naziri dövlət başçısını "qayda yaratmağa" çağırır. İnsan haqlarından bolluca boşboğazlıq edən,"yeni təfəkkür" təşəbbüsünün müəllifi isə Sumqayıtın ikinci gün ixtişaşlara bürünməsinə baxmayaraq, "xuliqanların və ekstremistlərin qarşısını ala biləcək drujinaçılar"dan danışır. Bu, bir daha Qorbaçovun ikiüzlülüyünü və özünü axmaq yerinə qoymasını sübut edir. Yalnız fevralın 29-da, günün sonunda qoşunlara əmr verilir ki, ixtişaşlara son qoyulsun. Bir neçə saat ərzində ixtişaşlara son qoyulur.

Sumqayıt hadisələrindən sonra SSRİ Ali Sovetində keçirilən məlum müşavirədə azərbaycanlı deputatın "Sumqayıt hadisələri məlum qüvvələr tərəfindən təşkil edilməmişdimi?" - sualına isə Qorbaçov əsəbi tərzdə belə cavab vermişdi: "Heç kəs, heç nə təşkil etməmişdi, sadəcə olaraq, qoşunlar bir neçə saat gecikmişdir, vəssalam!". Bu da özünü axmaq yerinə qoymağın bariz nümunəsiydi. Qorbaçova heç kəs xatırlatmadı ki, axı xeyli miqdarda rusiyalı hərbi qulluqçuların yerləşdirilmiş olduğu Bakıdan Sumqayıta maşınla iyirmi dəqiqəlik, Nasosnı məntəqəsindəki ən yaxın hərbi bazadan Sumqayıta isə 5-7 dəqiqəlik yoldur. Buna görə də, "bir neçə saat gecikmək" barədə bəhanə gətirməyin mənası aydın deyil və yaxud, həddindən artıq aydındır, çünki qoşunun dərhal müdaxiləsi qan tökülməsinin qarşısını alardı. Qorbaçov başda olmaqla Moskvaya, Kremldəki komandasına isə Qarabağ problemini yaratmaq üçün məhz qan tökmək lazım idi.

Qorbaçov, erməni millətçiləri və onların tərəfdarları bu qanlı siyasi kombinasiyanı əvvəlcədən işləyib hazırlamış və bütün rolları qabaqcadan bölüşdürmüşdülər. Artıq qeyd etdiyim kimi, ilk qaçqınlar Qafandan olan azərbaycanlılar idi. Ermənistanda törədilən qanunsuzluqlar barədə informasiyanın yayılmasına imkan verilmirdi, Moskva bunu qadağan etdiyinə görə isə, qaçqınları DQMV-də və Bakıda yerləşdirməyə cürət etmirdilər və onlar əsasən, Sumqayıt və başqa rayonlarda yerləşdirilmişdilər.

Evsiz-eşiksiz, işsiz qalmış bu insanlar hakim dairələrin məsuliyyətsiz hərəkətləri nəticəsində, sözün həqiqi mənasında, dəhşətli vəziyyətə düşmüşdülər. Beləliklə, Ermənistandan olan qaçqınlar Sumqayıtda çətinliklə idarə edilə bilən, partlayış təhlükəli kütləyə çevrilmişdi. Üstəlik, Sumqayıtın özünün o qədər də ürakaçan olmayan demoqrafik vəziyyəti, həqiqətən, şəhərdə bomba effekti yaratmışdı. M.Qorbaçov və erməni millətçiləri məhz buna ümid bəsləyirdilər.

Nəzərinizə başqa bir maraqlı faktı da çatdırım ki, bu hadisələr baş verən ərəfədə Sumqayıt, demək olar ki, başsız qalmışdı. Belə ki, fevralın sonuna yaxın şəhərin milis rəisi tutduğu vəzifədən azad edilir, şəhər DTK-sının sədri başqa yerə köçürülür. Bundan əlavə, fevralın sonunda şəhər rəhbərliyi Moskvaya ezamiyyətə göndərilir. O cümlədən, Sumqayıt şəhər KP-nin Birinci katibi Cahangir Müslümzadə də Moskvaya çağırılır. Nəzərinizə çatdırım ki, bu mövzunun ətrafında irəlidəki bölümlərdə təfərrüatı ilə bəhs edəcəyəm. Lakin qısaca olaraq bildirmək istəyirəm ki, Cahangir Müslümzadəyə Moskvada Azərbaycanın Mərkəzi Komitəsinin Birinci katibi postu vəd edilir və "İzvestiya" qəzetinin baş redaktoru Laptevin otağından gələcək Birinci katib imici və etibarı qazanmaq üçün Cahangir Müslümzadə tərəfindən elə həmin qəzetə müsahibə verilir. Onu da qeyd edim ki, həmin dövr Moskvadakı rəhbər dairələri tərəfindən Azərbaycan rəhbərliyində təmsil olunan, ən azı, dörd nəfərə Birinci katib postu vəd edilmişdi. Və bu vədə inanan hər bir vəzifəli şəxs həmin post uğrunda ciddi "mübarizəyə" qoşulmuşdu. Bunun özü də bütövlükdə Azərbaycanı başsız qoymaq məqsədilə düşünülərək atılmış addım idi. Sumqayıt hadisələri azərbaycanlıları "vandalizmdə" günahlandırmaq və haradan ələ keçirilməsi məlum olmayan silahların köməyi ilə azərbaycanlıları Ermənistandan və Qarabağdan misli görünməmiş miqyasda qovmaq əməliyyatını daha da tezləşdirməli idi.

Hadisələrin hansı peşəkarlıqla təşkil edildiyini və təyinatının da nə olduğunu bildiyim üçün kütləvi informasiya vasitələrinin bu fakta bu dərəcədə operativ münasibət bildirməsi məndə o qədər də təəccüb hissi doğurmur. Belə ki, Sovet hakimiyyəti dövründə SSRİ-də akkreditə edilmiş xarici jurnalistlərin hamısı Moskvada olurdu, Sumqayıt hadisələri zamanı isə onlar, sanki, sehirli çubuğun işarəsi ilə Sumqayıtda toplaşmışdı və artıq ertəsi gün bütün xarici televiziya şirkətləri qondarma "vəhşiliklər" haqqında

verilişlər yaymağa başlamışdılar.

Daha bir maraqlı faktı qeyd etmək istəyirəm. Bütün bu dəhşətli hadisələr zamanı Artaşes Qabrielyan adlı bir erməni öz videokamerası ilə bərabər, Sumqayıtda sərbəst gəzişir, şəhərdə baş verənləri sakitcə kameraya çəkirdi. Çəkdiyi filmə isə "Bizi xilas edin" adını verir. Bu film xarici ölkələrdə fəaliyyət göstərən ermənilər üçün nəzərdə tutulmuşdu. Həmin filmə baxan hər kəs görür ki, erməni xalqının "vəhşi" azərbaycanlılarla yaşaması qeyri-mümkündür və bu bəladan qurtulmağın yeganə yolu Dağlıq Qarabağın Azərbaycandan ayrılıb Ermənistana verilməsidir. Bundan sonra qısa müddət ərzində Stepanakertdə Sumqayıt hadisələrinin qurbanlarına abidə ucaldıldı, Yerevanda isə təcili şəkildə "Sumqayıt - soyqırım - aşkarlıq " adlı kitab dərc olundu və bütün Rusiyada yayıldı. Bununla da genişmiqyaslı təbliğat kampaniyası başlandı.

Sumqayıt hadisələrinin provokasiya xarakteri daşımasına şübhə edənlərə SSRİ Baş Prokurorluğunun bu hadisələri araşdırmış istintaq qrupunun müstəntiqi Q.Kotenkonun aşağıdakı sözlərini xatırlatmaq yerinə düşərdi:

"Sumqayıt hadisələrindən əvvəl idarə və təşkilatlarda yerli əhalinin Qarabağ probleminə münasibəti barədə məlumatlar günaşırı Qarabağa, oradan isə Yerevana daxil olurdu. Bu informasiyanı kim çatdırırdı? Əlbəttə, ermənilər, daha dəqiq desək, erməni qızları. Onlara Stella adlı bir qadın başçılıq edirdi. Bütün informasiya ona çatdırılır, o, da öz növbəsində rabitə şöbələrində işləyən ermənilər vasitəsilə bu informasiyanı Stepanakertə və Yerevana ötürürdü".

Erməni millətçiləri ilk növbədə diasporun informasiya imkanları hesabına, Sumqayıt provokasiyasını əməlli-başlı işləyib hazırlamışdılar. Yerevanda nəşr edilən "Kommunist" qəzetində dərhal "Suayırıcı" sərlövhəli məqalə dərc olunmuşdu. Burada göstərilirdi ki, qonşu "türklər" zərrə qədər də dəyişməmişlər, Sumqayıt hadisələri "1915-ci il soyqırımı"nın davamıdır və indi ermnilərin azərbaycanlıların hakimiyyəti altında yaşaya biləcəyini fikirləşən hər kəs satqındır." Azərbaycanlıların Ermənistandan qovulması yeni qüvvə ilə başlanmışdı. İndi onlardan, yetmiş il əvvəl törədilmiş "soyqırıma" görə deyil, lap təzə hadisələrə - Sumqayıtda törədilənlərə görə qisas alırdılar, bu talanları əslində kimin təşkil etmiş olması barədə isə danışmamağı üstün tuturdular. Qəzetlər xüsusi cidd-cəhdlə "icad edilmiş" dəhşətli xəbərlər yayırdı. Hadisələrin qurbanlarının sayı həndəsi silsilə üzrə

artmaqda idi və heç kəs bircə kəlmə də demirdi ki, Sumqayıt ermənilərinin əksəriyyəti öz azərbaycanlı dostlarının və qonşularının mənzillərində sığınacaq tapmışdı və əgər bu cür kollektiv, həmrəylik olmasaydı, qurbanların sayı qat-qat çox ola bilərdi. Bunu izah etmək, sadəcə olaraq, qadağan idi. Çünki tələb belə idi ki, azərbaycanlılar "ikiayaqlı vəhşilər", "barbarlar" kimi təqdim olunmalıdırlar, onları məhv etməkdən başqa çarə yoxdur.

Dünya kütləvi informasiya vasitələrində bir söz səslənirdi: Sumqayıt, Sumqayıt, Sumqayıt! Dahi fizik Albert Eynşteynin vaxtilə söylədiyi məşhur fikirdə deyilir: "Atomu parçalamaq qərarlaşmış stereotipi dəyişməkdən asandır". Bəli, Bakı artıq neçə illərdir ki, Sumqayıt hadisələri barədə qərarlaşmış bu stereotipi dəyişə bilmir. Hərçənd, etiraf etmək lazımdır ki, Bakı bu istiqamətdə xüsusi səy də göstərmir. Lakin ən acınacaqlısı odur ki, bu faktlar hələ o vaxt məlum idi və o vaxt informasiya blokadasını aradan qaldırmağa imkan da vardı: xarici kütləvi informasiya vasitələrinin Moskvadakı müxbirləri Bakıda çıxan qəzetlərin (əsasən rusdilli qəzetlərin) redaksiyalarına fasiləsiz zəng vururdular. Bakıda bəziləri bu müxbirləri "başdan etməyə" çalışır, digərləri isə Moskvanın icazəsi olmadan danışmağa cəsarət etmirdi. Materiallarla tanış olduqca, o vaxt Azərbaycana rəhbərlik edənlərin hərəkətləri, laqeydlikləri adamda ikrah hissi doğurur. Erməni diasporu isə kütləvi informasiya vasitələrinin bütün növlərindən və imkanlarından məharətlə istifadə edirdilər.

Bütün bunların ardınca, sonradan əks-kəşfiyyat generalı olmuş Vladimir Semyonoviç Qalkinin SSRİ Prokurorluğunun Sumqayıt hadisələri üzrə istintaq qrupuna başçılıq etməsi də insanda təəccüb hissi doğurmur. Bəli, bu, həmin Qalkindir ki, Moskvada "idarə edilə bilməyən" Qdlyanın əvəzinə, Orta Asiyada pambıqla bağlı korrupsiya fırıldaqlarında "Kreml izi" barədə istintaqa rəhbər təyin edilmişdi. Çünki Özbəkistanda, kənd təsərrüfatında baş vermiş məşhur oğurluqlar zamanı Qorbaçov SSRİ KP MK-nın kənd təsərrüfatı üzrə katibi və məhz o sahəyə rəhbərlik edən şəxs idi. Baş vermiş oğurluqların obyektiv istintaqı birbaşa Qorbaçovun həbsinə aparan yol idi. Moskva Sumqayıt hadisələri üzrə istintaq qrupuna rəhbərliyi heç də təsadüfən V.Qalkinə tapşırmamışdı. Çünki Qalkin nəyi axtarmaq və xüsusən tapmaq lazım olmadığını lap yaxşı bilirdi.

İstintaq yalnız azərbaycanlıları axtarırdı.

Əslində isə nələrin baş verdiyi hamıya bəllidir. İstintaqa rəhbər təyin olunmuş şəxsin Prokurorluq adı altında kimin maraqlarını güdməsi də artıq aydındır. Burada istintaq materiallarının saxtalaşdırılacağına, təmizlənəcəyinə və azərbaycanlıların "vəhşi" kimi təqdim olunacağına heç kimin şübhəsi olmasın. Digər tərəfdən, Azərbaycana müdhiş informasiya zərbəsi vurulmuşdu. Sumqayıt hadisələri haqqında dəhşətli film ermənilərin bu barədə təbliğatının özəyi kimi, Avropa və Amerikanın bütün ölkələrində göstərilmişdi. Bakıya vurulan bu informasiya zərbəsinin gücünü təsəvvür etmək çətin deyil. Həmin filmdə insan təxəyyülünü vahiməyə salan təsvirlər tamaşaçını dəhşətə gətirən səslərlə tamamlanır. Məsələn, filmin qəhrəmanlarından biri - hadisələrin şahidi Qabrielyan öz dostu Mişanın və onun arvadının qətlə yetirilməsi səhnəsini İsveç televiziyasının ekranından isveçlilərə bu hadisənin şahidi kimi təqdim edərək, demişdir: "30 nəfər azərbaycanlı Mişanın və arvadının başını kəsəndən sonra onların gənc qızının üstünə atılmışlar. Onlar qızı növbə ilə zorladıqdan sonra tikə-tikə doğramış, sonra manqalda od qalamış, insan ətindən kabab bişirmiş və onu ləzzətlə yemişlər. Orada bizim bu vəhşilərin əlindən necə zülm çəkdiyimizi təsəvvür edə bilməzsiniz!"

Çox dəhşətli səslənir, deyilmi?! Ancaq bu dəhşət həqiqətimi əks etdirir?!...

28 yanvar 2005-ci il tarixli "Vışka" qəzetində "Exo Sumqayıta" sənədli filmin müəlliflərindən biri olan Eyruz Məmmədovun müsahibəsi dərc edilmişdi. O müsahibə mənim fikirlərimin aydınlaşmağına bir daha yardımçı oldu. Belə ki, jurnalistə həmin filmin çəkilişindən, onları bu filmi çəkməyə vadar edən səbəblərdən danışarkən E.Məmmədov qeyd edir: "...Sumqayıt hadisələrindən dərhal sonra azərbaycanlıların "vəhşilikləri" haqqında film Fransada nümayiş etdirildi. Sonralar Fransa televiziyasının arxivlərində saxlanılan lenti bizə verməkdən imtina etdilər və bunun səbəbini açıq dedilər: istənilən mütəxəssis həmin filmin montaj olmasını asanlıqla müəyyən edə bilər. Demək olar ki, eyni vaxtda Yerevanda "Sumqayıt, soyqırım, aşkarlıq" adlı kitab çapdan çıxmış və şanlı SSRİ komsomolunun növbəti qurultayında rəhbərliyin, Qorbaçov uşaqlarının xeyir-duası ilə minlərlə gəncə təqdim edilmişdilər. 1989-cu ildə isə Latviyada çıxan "Yurmala" qəzetinin on altı səhifəlik xüsusi nömrəsi bütünlüklə Ermənistana və Sumqayıt hadisələrinə həsr olunmusdu. Tarixçi Xanzadyan və şairə Silva

Kaputikyan həmin xüsusi nömrənin başdan-ayağa qədər yalan və Azərbaycan xalqına nifrət zəhəri ilə dolu səhifələrində çıxış etmişdi. Həmin xüsusi nömrədə şərh edilən faktların həqiqətə uyğun olub-olmaması barədə mühakimə yürütmək üçün Sumqayıt hadisələrinin qurbanlarının sayı barədə rəqəmlərə diqqət yetirmək kifayətdir. Bu qurbanların sayı məqalə müəllifinin istəyindən asılı olaraq, 300 nəfərdən 1000 nəfərə qədər dəyişir... Bir qədər irəli gedərək deyim ki, İngiltərədə çıxan "Sandi tayms" qəzeti hətta 2001-ci ildə Qarabağ probleminə toxunaraq yazmışdır ki, azərbaycanlılar ermənilərdən heç də zəif deyil, lakin informasiya müharibəsində onlar ermənilərdən zəif və köməksizdir..."

Daha sonra Eyruz Məmmədov "Exo Sumqayıta - 2" filmindən danışır: "...1994-cü ilin iyulunda həmin film AzTV-1 kanalında nümayiş etdirildi. Bu lentə Sov.İKP MK Siyasi Bürosunun üzvləri, SSRİ Müdafiə naziri D.Yazov, SSRİ Ali Sovetinin sədri A.Lukyanov, Sov.İKP MK katibləri A.Yakovlev və Y.Liqaçov, SSRİ DTK-nın sədri V.Kryuçkov, RLDP-nin lideri V.Jirinovskiy və başqaları ilə müsahibələr daxil edilmişdir. Təəccüblü deyil ki, DTK-nın kəşfiyyat orqanları həmin filmlə maraqlanmış, çəkilmiş materialı müsadirə etməyə cəhd göstərmişdilər.." Həmin filmin çəkilişləri zamanı indi dünyasını dəyişmiş Davud İmanov, operator Elçin Quliyev və Eyruz Məmmədov həqiqətən çox böyük çətinliklərlə əldə etdikləri materialları Moskvadan Bakıya gətirə bilirlər. Qarabağ müharibəsinin 1983-cü ildən bu günümüzə qədər necə dəqiqliyi ilə planlaşdırıldığını həmin film bir daha dönə-dönə sübut edir. Filmin materiallarına əsaslanan və müsahibədə yer alan bu hissəni diqqətlə oxumağınızı xahiş edirəm:

"V.Kryuçkov hələ 1993-cü ilin əvvəlində Dağlıq Qarabağ vilayəti haqqında belə bir fikir söyləmişdi: "Sizin Qarabağ faciəniz hələ qabaqdadır. Azərbaycan torpaqlarının müəyyən faizi işğal ediləcək, sonra isə siyasi spekulyasiya başlanacaqdır".

Boris Yeltsinin komandasının üzvü, Rusiyanın keçmiş Dövlət katibi Q.Burbulis də 1993-cü ilin aprelində bizə verdiyi müsahibədən sonra qeyri-rəsmi söhbət zamanı birmənalı olaraq eyni fikri söyləmişdi. O, həmin vaxt ermənilər tərəfindən işğal edilmiş Kəlbəcərin ümumiyyətlə Qarabağa aid olmaması barədə suala belə cavab vermişdi: "Siz həddən artıq sadəlövhsünüz. Tezliklə bütün Qarabağ və Ağdam rayonu işğal ediləcəkdir. İri dövlətlər arasında Qafqazda nüfuz dairəsi bölgüsü gedir və mənbəyi neft

olan münaqişəyə yalnız həmin dövlətlər razılığa gəldikdən sonra son qoyulacaqdır. O vaxta qədər isə müharibə davam edəcəkdir".

Bizim söhbət etdiyimiz adamların bu və digər fikirlərinə əsasən, Qarabağ münaqişəsindən əvvəlki hadisələr zəncirini izləmək çətin deyil. 1987-ci ilin oktyabr ayında SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevi tutduğu vəzifədən azad edərək, Siyasi Büronun tərkibindən çıxarırlar. Bir ay sonra akademik A.Aqanbekyan Parisdə erməni diasporu qarşısında çıxışında Qarabağı Ermənistanla birləşdirməyin zəruri olmasını bəyan edir. A.Yakovlev bizə müsahibə verərkən bu barədə demişdi: "Aqanbekyan Parisdə öz təşəbbüsü ilə çıxış etməmişdir, o, M.Qorbaçovun dəstəyinə əmin idi".

Fevralın əvvəlində Bakıda ixtişaşlar başlandı. Sov.İKP MK-nın katibləri P.Demiçev, N.Dolqix və Y.Razumovski ictimai rəyi öyrənmək məqsədilə Stepanakertə, Yerevana və Bakıya gedirlər. Məlum olur ki, Azərbaycan xalqı Qarabağın Ermənistana birləşdirilməsinin qəti əleyhinədir. Onda Sumqayıtı bu iyrənc işğalçılıq oyununda qumar kartına çevirirlər. 1988-ci il fevralın 28-29-da burada dünya ictimaiyyətinin nəzərində azərbaycanlıların "vəhşi barbarlar" obrazını yaratmaq məqsədi güdən hadisələr təşkil edilir. Belə çıxır ki, azərbaycanlılarla dinc, yanaşı yaşamaq mümkün deyil. O vaxtdan etibarən, erməni təbliğat maşını tam gücü ilə işləməyə başlayır."

Hadisələr məhz müsahibədə verilən tendensiya ilə inkişaf edirdi. Sumqayıt hadisələrindən sonra və növbəti 2-3 ildə Moskvadakı Vaqankovo qəbiristanlığının yanındakı erməni kilsəsinin qarşısında fasiləsiz mitinqlər gedirdi. Moskvanın hakim dairələri bu mitinqlərin keçirilməsi üçün hər cür şərait yaratmışdı. Bunun üçün təşkilatçılara müddətsiz sanksiya verilmişdi - buna oxşar hal SSRİ praktikasında heç vaxt olmamışdı. Moskva milisi mitinqlərin iştirakçılarını "azərbaycanlıların provokasiyalarından" qoruyurdu. O vaxt Moskva milisinin rəhbəri olan general-mayor Pyotr Boqdanov da meriyanın tapşırığı ilə tez-tez oraya gəlir, mitinq keçirənlərin bir problemi olub-olmadığını yoxlayırdı. Moskva ziyalıları və xarici səfirliklərin nümayəndələri mitinqlərə dəvət edilirdi. Fransa səfirliyinin nümayəndələri vaxtlarının çoxunu bu mitinqlərdə keçirirdi. Odlu-alovlu nitqlər səslənir, Azərbaycan xalqını "faşist" adlandırırdılar. Mitinqdə çıxış edən Nuykin demişdi: "Bu cəllad xalqın nümayəndələri Rusiyadan sürgün edilməlidir". Starovoytova Azərbaycan dəmir yollarının idarə edilməsi üçün xüsusi forma tətbiq olunmasını, Çerniçenko isə DQMV-də birbaşa prezident üsul-idarəsi

tətbiq olunmasını təklif etmişdi və s. Mitinqlərin birində çıxış edən MDU-nun fəlsəfə professoru, əslən DQMV-dən olan Qrant Yepiskoposov Sumqayıt hadisələrini kəskin pisləyərək sözünə belə davam etmişdir: “Azərbaycanlılar Sumqayıt hadisələrinə görə üzr istəməlidirlər, bu halda biz qan tökülməsinə son qoymaq üçün onlarla dialoqa gedə bilərik”. Professoru fitə basmışlar, yekəpər cavanlardan biri isə professoru tribunadan zorla sürüyüb yerə salmış, bundan sonra professor bayılmışdır. Mitinq iştirakçılarının bir tələbi vardı: “Qana qan!”. Həmin mitinqdə siyasi və ictimai xadimlər, alimlər, yazıçılar, məşhur artistlər - Voznesenski, Yevtuşenko, Bıkov, Okucava, Fazil İskəndər, Əsədov, Çilinqarov, Kvaşa və bir çox başqaları iştirak və çıxış etmişdir. Dünyanın aparıcı telekanalları həmin mitinqdən geniş fraqmentlər göstərirdi. Bir neçə il davam etmiş bu piar-mitinqlər Bakıya güclü informasiya zərbəsi vurmuşdur.

SSRİ-nin rəsmi orqanları da kənarda qalmamışdır. SSRİ Prokurorluğunun işçiləri Karakozov, Qdlyan və İvanov Leninqrad televiziyasında bir saatdan çox davam edən veriliş təşkil etmiş, həmin verilişdə Sumqayıt hadisələrindən bəhs edən dəhşətli səhnələr təqdim olunmuşdur. Azərbaycan xalqı haqqında təhqiramiz ifadələr işlətməkdən də çəkinməmişdilər. Hələ məhkəmə olmamışdı, onlar isə bir səslə “güllələmə” maddəsindən danışırdılar. V.Qalkinlə eyni vaxtda SSRİ prokurorluğunda eyni idarədə (onlar hamısı SSRİ prokurorluğunun Ağır Cinayətlərə dair Baş idarənin işçiləri idi) çalışanlar E.Qriqoryandan xəbərsiz olmazdılar, lakin bu barədə heç vaxt bir kəlmə belə dillərinə gətirməmişdilər. Ə.Əhmədov güllələnəndə “ura” deyənlər E.Qriqoryan layiqli cəzasından kənarda qalanda “cınqırlarını” belə çıxartmadılar. Bundan əlavə, həmin hadisələrə dair istintaqın gedişi zamanı birinci ay minə yaxın insan şübhəli şəxs qismində saxlanılmış, beş yüz adam həbs olunmuş, doxsana yaxın adam isə məhkum olunmuşdur ki, onların arasında, bayaq da qeyd etdiyim kimi, ən ağır cəza alanları da olmuşdur. **Lakin 216 azərbaycanlının xüsusi amansızlıqla öldürülməsi, minlərlə insanın müxtəlif dərəcəli bədən xəsarətləri alması, talan edilməsi və onların Ermənistandan və Dağlıq Qarabağdan deportasiyası faktına dair heç bir araşdırma aparılmamış və heç bir erməni cinayət məsuliyyətinə cəlb olunmamışdır.**

Bu gün tam əminliklə deyə bilərik ki, Sumqayıt Qarabağın işğalı üçün Moskvadan Qorbaçovun rəhbərliyi altında Kremlin bilavasitə göstərişi ilə

SSRİ DTK-sının hazırladığı bir əməliyyat idi. Bu əməliyyatın təyinatı azərbaycanlıları bütün dünyanın gözündə bir daha heç vaxt üzərlərindən yuya bilməyəcəkləri çirkabla ləkələmək idi. Nəticələrə nəzər yetirsək, görərik ki, buna oxşar hadisə Sumqayıtda olmasa da, Azərbaycanın başqa bir yerində törədilməliydi, çünki hədəf bəlli idi. Bütün dünya bilməli idi ki, guya, ermənilərə münasibətdə törədilmiş vəhşiliklərin təşkilatçıları da, icraçıları da azərbaycanlılar olmuşdular. Sivil dünya isə erməniləri dəstəkləməyə başlamalıydı. Bu gün artıq heç kəs üçün sirr deyil ki, həmin hadisələr müharibəni qaçılmaz etdi. Ona görə də, Sumqayıt bu hadisələri təşkil edənlərin maraqlarına tamamilə cavab verirdi. Çünki Ermənistan bu müharibəyə intensiv hazırlaşırdı.

İndi isə mən bəzi suallara dəqiq cavab vermək istəyirəm: Sumqayıt hadisələrində tərəflər kim oldu?! Bu hadisələrdə təşkilatçı və zərərçəkənlər kimlər idi?!

Tam məsuliyyətlə deyirəm ki, bu hadisələrdə zərərçəkən tərəf azərbaycanlılar oldu. Niyə?! Çünki istənilən müstəntiq cinayət işini araşdırmağa başlayarkən, ilk olaraq bu sualın cavabını axtarmağa çalışır: "Bu cinayət kimə sərf edir?" Çünki bu sualın cavabı müstəntiqi bilavasitə cinayətkarın kimliyini tapmağa doğru aparır.

Bəs, Sumqayıt hadisələri kimə sərf edirdi?! Erməni millətçilərinə və özünü dahi hesab edən, indi səksəndən artıq yaşı olmasına baxmayaraq, az qala qadın alt paltarlarının reklamı ilə də məşğul olan Qorbaçova! Erməni millətçiləri bütün erməni xalqının beyninə yeritdikləri "Böyük Ermənistan" ideyasının bir hissəsinin həyata keçirilməsində növbəti addımlarını atdılar. Ermənistan ərazisini qeyri-millətlərdən tamamilə təmizlədi və monoetnik Ermənistan dövləti qurdu, Dağlıq Qarabağı və 6 rayonu da işğal edərək "Böyük Ermənistan"ın qələbəsi hesab etdilər.

Bu hadisələr Qarabağda baş verənlərə milli azadlıq donu geyindirməyə çalışan mafioz, oğru qruplara sərf etdi. Onlardan bir qismi - Aqanbekyan, Poqosyan kimiləri bu hadisələrdən bolluca yararlanıb, sonra da gözdən itdilər. Bu gün Qarabağla bağlı onların heç birinin "çınqırı" belə eşidilmir. Digərləri - Köçəryan, Sarkisyan və başqaları bu dalğada əvvəl DQMV-də, sonra isə Ermənistanda hakimiyyəti zəbt etdilər və bu yolda parlamenti güllələbaran etməkdən belə çəkinmədilər. Köçəryan Azərbaycanın Ağdam və digər bölgələrində quldurluq yolu ilə əldə etdiklərini leqallaşdırdıqdan sonra hakimiyyəti sələfi Sarkisyana dədə malı kimi təhvil verib, böyük biznesə girişdi. Köçəryanın quldurluğu barədə bir çox mənbələr xəbər verir.

Vaşinqtonun Con Hopkins universitetinin professoru Svante Kornellanın “Dağlıq Qarabağda konflikt: dinamikası və gələcəkdə həlli” araşdırmasında yazır: “Ağdamın mülki vətəndaşları öz evlərini tərk etməyə məcbur olub, şəhər isə yandırılıb və talan olunub”. Bu fikri parlamentdə öldürülmüş Ermənistanın Baş naziri Vazgen Sarkisyanın qardaşı, “Respublika” partiyasının lideri Aram Sarkisyan da təsdiqləyir. O, Köçəryanı Ağdamı talan etməkdə günahlandıraraq, deyir: “Ona elə gəlir ki, Ağdamı taladığı kimi, bizim vətəni də talamaq olar”. Hal-hazırda Ermənistanın prezidenti kürsüsünə Qarabağda axıdılmış günahsız insan qanları bahasına gətirilmiş Ser Sarkisyan isə hakimiyyəti itirəcəkləri təqdirdə, törətdikləri cinayətlərə görə dünya qarşısında cavab verəcəklərini bildiyindən, “Böyük Ermənistan” xəstəliyinə düçar olmuş xalqını uçuruma doğru aparmaqda davam edir.”

Qarbaçov keçmiş Sovet İttifaqında olan əksər xalqlara zərər vurdu, ancaq ən çox əziyyət çəkən azərbaycanlılar oldu: erməni terrorçularının, ekstrimislərinin havadarları ilə birgə törətdikləri Xocalı soyqırımı; 20 yanvar 1990-cı ildə Sovet ordusunun dinc əhalini tanklar altında qoyub əzməsi və güllələməsi faciəsi; azərbaycanlıların Ermənistandan departasiası; işğalçı, təcavüzkar Ermənistanın Azərbaycan torpaqlarının 20 %-ni işğal etməsi və bir milyondan çox insanın öz ölkəsində qaçqına çevrilməsi – bütövlükdə Qarbaçov yenidənqurmasının nəticəsi idi! Çox güman ki, Sovet respublikaları arasında ən çox əziyyət çəkən ona görə məhz Azərbaycan oldu ki, o SSRİ məkanında təbii, mənəvi, elmi və mədəni sərvətlərinə görə ən zəngin respublikalarından idi.

Bütün bu proseslər boyu dünyanın bir neçə böyük dövlətlərindəki, o cümlədən Moskvadakı nüfuzlu erməni və ermənipərəst lobbi qurumları, istər Yeravandakı və Dağlıq Qarabağdakı gizli və leqal erməni siyasi və ictimai təşkilatları heç vaxt bir-birindən təcrid olunmuş, müstəqil şəkildə fəaliyyət göstərməmişlər. Onlar fəaliyyət göstərdikləri ölkələrin hamısında, ilk növbədə də mərkəz ABŞ olmaqla, bütün dövlətlərdə əlaqəli, rabiəli və sistemli şəkildə işləyiblər, həmişə də arxalarında güclü dövlətlərin himayə və dəstəyi olub. Bu proses bu gün də davam edir.» (Bax: A.İsmayılov. "Sumqayıt–SSRİ-nin süqutunun başlanğıcı", Bakı, 2011, səh. 127-158. İxtisarla)

Beləliklə, hadisələrin bu cür cərəyan etməsi göstərir ki, ermənilər arxalandıqları qüvvələr hesabına cəzasız qaldıqları üçün növbəti cinayəti – Xocalı Soyqırımını törətdilər. Lakin zaman gələcək bütün bu ədalətsizliklərə son qoyulacaq, haqq, ədalət bərpa olunacaq. Müdriklər demişkən: Haqq incələr, lakin üzülməz.

***Tarixi vərəqləyərkən...***

## SÖZ ARDI

XX əsrdə tarix son dərəcə siyasiləşdirilmiş elmə çevrilmişdir. Bir sıra dövlətlərin hakimiyyət, dini, partiya, elmi və bədii elitalarının nümayəndələri yaşadığımız indiki dövrdə dünyada mövcud vəziyyətdən asılı olaraq tarixin yenidən qiymətləndirilməsi ilə maraqlanırlar.

«Bir qayda olaraq, akademik reqaliyalara malik olan muzdlu "tarixçilər", real tarixi təhrif etməklə, onu "milliləşdirilməklə", keçmiş mifləri, gümanları, şayiələri və əfsanələri reanimasiya etməklə məşğul olurlar. İndi İnternet şəbəkəsində baş alıb gedən bu cür - sənədlərə əsaslanmayan informasiya, çox vaxt bədii uydurmaların məhsulu olan pisniyyətli yalanlar axını neqativ ictimai rəy formalaşmasına təsir edir. Belə "tarixçilər"in fəaliyyətinin son məqsədləri bəllidir. Onlar real tarixi həqiqətləri mümkün qədər güclü təhrif etməli və ya cəmiyyətin yaddaşından tərtəmiz silib atmalıdırlar. (Erməni yazarları Zori Balayanın, "şairəsi" Silva Kaputikyanın yazdıqlarına baxmaq kifayət edər.).

Müasir informasiya məkanında istorioqrafik biliklərin bütün spektrində təəssüf doğuran bir vəziyyət yaranmışdır: burada sənədlərlə tam əsaslandırılmış tarixlə yanaşı, tamamilə saxtalaşdırılmış "tarix" də yer almışdır. Belə vəziyyət gənc nəslə neqativ təsirini göstərir və çox vaxt onları arxivlərdə və tədqiqat mərkəzlərində sənədli bazanın müstəqil öyrənməklə məşğul olmaq imkanından məhrum edir. Hətta yetkin insanlar da belə şəraitin qurbanlarına çevrilə bilərlər. Məsələn, erməni "mütəxəssislərinin" Azərbaycanın tarixi ərazilərini və bu ərazilərin adlarının özününküləşdirilməsi yolu ilə tərtib etdikləri və yaydıqları xəritələr kimi. Məlumdur ki, ermənilərin beyinlərə bu cür həyasızcasına təcavüzlərinə məruz qalmış insanların "beyinlərinin yuyulması" sonralar getdikcə çətinləşir, dünya elmi üçün anlaşılmamazlıqlar, xalqlar üçünsə faciələr, əlavə problemlər yaradır və nəticədə dövlətlərarası münaqişələrə, milli zəmndə müharibələrə gətirib çıxarır. Bu təkcə Azərbaycan üçün deyil, eyni zamanda "Böyük Ermənistan" xəritəsində ermənilərin göstərdiyi ərazilərdəki bütün dövlətlər və xalqlar üçün təhlükəlidir.

V.O. Klyuçevskinin çox gözəl bir aforizmi var. O deyir: **"Tarix – müəllim deyil, nəzarətçidir, o heç vaxt heç nə öyrətmir, amma dərsləri bilməməyə görə həmişə cəzalandırır".** Bunu daim yadda saxlamaq lazımdır, xüsusən ona görə ki, indi vəziyyət get-gedə gərginləşir. Bu

onunla izah olunur ki, hətta dünyada mövcud faydalı qazıntıların məhdud ehtiyatları uğrunda mübarizədə də tarixi presedentlərdən istifadə olunmağa başlanılıb. Və bu artıq çox təhlükəli vəziyyətdir.

Beləliklə, tamamilə aydındır ki, **bu gün tarix – həm elm, həm ictimai rəyin formalaşması üçün təbliğat aləti, həm də dövlətlərarası münasibətlərdə müəyyən üstünlüklərə nail olmaq vasitəsi və bir sıra başqa funksiyaları yerinə yetirir.** Məhz bu səbəbdən tarixi araşdırmalarla yalnız peşəkar tarixçilər yox, fikrimizcə həm də elmin və mədəniyyətin başqa sahələrinin nümayəndələri də məşğul olmalıdırlar.

Maraqlıdır, əsrlər boyu ruslara və digər millətlərə onların dövlətlərində nökərlik etmiş ermənilər necə oldu ki, özgələrin torpaqları hesabına "Böyük Ermənistan" yaratmaq arzusuna düşdülər? Səhv etmiriksə, onlara bu gün də havadarlıq edənlər ermənilərin həmin xəritəsindən və gələcək planlarından ya xəbərsizdirlər, ya da ki... Hesab edirik tarixi həqiqətləri təsdiq edən arxiv sənədlərini götür-qoy etmək və ciddi şəkildə düşünməyə dəyər.

"XVIII əsrin lap əvvəlində, Baltik dənizinə çıxış uğrunda başlanmış Şimal müharibəsində rus qoşunları Narva yaxınlığında isveçlilərlə döyüşdə ağır məğlubiyyətə uğradığı vaxtda paytaxtın Dövlət Səfir Prikazına (Prikaz - XVI-XVII əsrlərdə Moskva dövlətində idarə adı idi – **tərcüməçinin qeydi**) gəlib çıxmış bir beynəlxalq fırıldaqçı I Pyotra Zaqafqaziyanı fəth etmək üçün cəlbedici bir layihə təklif etdi. O, faktiki olaraq iki cəbhədə müharibə aparmağı təklif edirdi. Bunun nəyə gətirib çıxara biləcəyini anlamaq üçün münəccim olmaq lazım deyildi. Buna görə Pyotr Cənuba yürüş etməkdə tələsməməyi qərara aldı, amma bununla belə, özünü o dövrün nəhəng fövqəldövlətləri sayılan İranın və Osmanlı İmperiyasının çərçivələri ilə məhdudlaşdırmayan müsahibinin sirdaşlarının xidmətlərindən imtina etmədi. Silah və informasiya alveri ilə məşğul olan hər bir böyük tacir kimi, Pyotrun da Avropada kifayət qədər inkişaf etmiş iqtisadi casusluq şəbəkəsi vardı. **Həm də bu şəbəkə başqa millətlərdən olan insanlar üçün qapalı, etnik baxımdan müstəsna dərəcədə yekcins idi.**

Yadelli özünü İranın Qarabağ əyalətinin **erməni icmasının** nüfuzlu xadimlərinin elçisi adlandırırdı.

Rusiyada bu ərazinin adının ilk dəfə səslənməsinin tarixçəsi belədir. Bu halda həmin ərazinin hər hansı başqa adı deyil, məhz türkdilli adı deyilmişdi. Bu məqam bir qədər düşünməyə vadar edir: görəsən bu tacir o yerin adını **nə üçün öz ana dilində - "Artsax" deyil, məhz "Qarabağ" sözü ilə demişdi?** Axı, Moskvada bu iki adın heç birini bilmirdilər….

Üstəlik, onu Pyotrun yanına göndərmiş insanların nüfuzunu qaldırmaq üçün həmin yerin onların ana dilində olan adından istifadə etmək daha məntiqli olardı. Amma, keçənə güzəşt deyərlər, olacağa çarə yoxdu. **Həm də bu "olacaq" təsadüf deyildi....**

I Pyotr cənub istiqamətində işğalçı yürüşlərin perspektivini ölçüb-biçməyə başladı. Onun planlarına Avropada İran ipəyi, neft, pambıq, ədviyyatlar və başqa mallar, həmçinin Hindistandan gətirilən qiymətli daşlar alveri üzərində inhisarçılıq kimi çox çətin məsələlər daxil idi.

Bu layihədə Zaqafqaziyada Qarabağ adlanan ərazi Şimal-Cənub və Şərq-Qərb beynəlxalq ticarət yollarının kəsişdiyi məkanda yerləşən geostrateji mərkəz idi. Qarabağ regionu haqqında bu sabit fikir ən qədim vaxtlardan məlum idi. Əbəs deyil ki, keçmişin bütün böyük istilaçıları bu məkan üzərində nəzarəti ələ keçirməyə çalışırdılar. Bir qədər sonra, II Yekaterinanın dövründə Şuşa və Qarabağ Xanı İbrahimxəlil qraf V.A. Zubova yazdığı məktubda, özünün Rusiya İmperiyasının tabeliyinə daxil olmasını təklif edərək bildirirdi ki, **"…əgər ruslar Şuşanı öz əllərində saxlasalar, bütün Kainata sahib ola bilərlər...". Belə ha! Nə çox, nə də az!**

Beləliklə, I Pyotr dövründən başlayaraq, Qarabağ Rusiyanın çox ciddi maraq obyektinə çevrilmişdi. Bu vəziyyət indiyə qədər dəyişməmişdir. Uzun illər ərzində Zaqafqaziyada Rusiya qoşunlarının fəal iştirakı ilə baş vermiş bir  çox hadisələr yerli arxivlərdə öz əksini tapmışdır. Bundan əlavə, həmin arxivlərdə başqa tarixi proseslərlə bağlı sənədlər də qalmışdır. Məkrli diplomatik oyunlar, amansız müharibələr, böyük imperiyaların süqutu və dağılması, sülalə savaşları, siyasi qətllər, dövlət terrorizmi, soyqırım – bütün bunlar real həyatda baş vermiş hadisələrdir. **Qarabağı ələ keçirmək uğrunda mübarizənin tarixi o qədər mürəkkəb və çoxrakurslu hekayətdir ki, onu yalnız ciddi xronologiya çərçivəsində ifadə etmək çox çətindir**.

Bu prosesin müəyyən zaman intervallarında daha tam əks etdirən etüdlər formasında şərhi daha üstündür. **Qarabağ uğrunda mübarizə artıq 300 ildən çoxdur ki, davam edir.**

Avropa sivilizasiyası güman edir ki, qədim yunanlar dünyaya incəsənət, romalılar – hüquq, yəhudilər isə Musanın 10 vəsiyyəti şəklində əxlaq (mənəviyyat) bəxş etmişlər.

Bu halda Kiyev Rus dövlətinin, Çinin, Hindistanın, Yaponiyanın, Koreyanın, Böyük Çölün və ucsuz-bucaqsız Müsəlman Dünyasının qədim mədəniyyəti bir növ "kadr arxasında" qalır, hərçənd onların qədim incəsənətinin, hüququnun və əxlaqının orijinallığı əsla şübhə doğurmur.

Tamamilə aşkardır ki, müxtəlif sivilizasiyalar arasında hörmətli münasibət və onların bir-birini qarşılıqlı zənginləşdirməsi — bəşəriyyətin magistral inkişaf yoludur. Afrika xalqlarında çox gözəl bir atalar sözü var: **"Tez getmək istəyirsənsə, tək get. Uzağa getmək istəyirsənsə, qonşularla get".** Çox dəqiq deyilmişdir. Qarşılıqlı zənginləşdirmə ümumbəşər sivilizasiyasının inkişafını stimullaşdırır. Buna xeyli dərəcədə tarix imkan yaradır.

Müasir istorioqrafiyada milli məktəblər yaranmışdır. Bu məktəblərin çoxunda, bəlkə də əksəriyyətində son dərəcə dəqiq dokumentalizmdən istifadə edilir. **Bununla birlikdə, çox təəssüf ki, total saxtalaşdırmaya əsaslanan "məktəblər" də var. Belə "məktəblər"in istifadə etdiyi metod son dərəcə sadədir. Əvvəlcə müəyyən fundamental mifologiyanın təməli qoyulur, uzun illərdən sonra həmin mifologiyadan artıq sənəd kimi istifadə olunur. Beləliklə böyük saxtakarlıq leqallaşdırılır. Jan Kokto bu barədə yazmışdır: "Tarix - mifə çevrilən həqiqətdir. Mif - "tarixə" çevrilən yalandır".**

Məlum olduğu kimi, bütün gizlinlər zaman keçdikcə aşkar olur. Bu sözlər Rusiya istorioqrafiyasına daha çox aiddir. Bəlkə də məhz bu səbəbdən Yuriy Barxin yazır: **"Saat mexanizminin vaxta nə qədər aidiyyəti varsa, tarix elminin də tarixə bir o qədər aidiyyəti var", yəni heç bir aidiyyəti yoxdur. Doğrudan da belədir. Müasir tədqiqatçıların vəzifəsi danılmaz, mübahisəsiz həqiqəti, necə deyərlər tarixi həqiqəti müəyyən etməkdir. Xüsusən ona görə ki, "Rusiyada hər şey məxfidir, amma heç nə sirr deyil"**.

Zaqafqaziya ta qədim vaxtlardan beynəlxalq ticarət baxımından ən əhəmiyyətli geostrateji region olmuşdur. Bütün böyük istilaçılar bu regiona sahib olmaq uğrunda mübarizə aparırdılar. XV-XVII əsrlərdə iki müsəlman fövqəldövləti – Osmanlı İmperiyası və İran bu region üzərində nəzarət uğrunda bitib-tükənməyən müharibələr aparır, həmin müharibələrdə tərəflərdən gah biri, gah digəri üstün gəlirdi. İslamın sünni və şiə məzhəbləri arasında dini barışmazlıq üzündən, bu müharibələr daha da kəskinləşirdi.

XVIII əsrin əvvəlində Zaqafqaziya I Pyotrun diqqət obyektinə çevrilir, o anlayır ki, İranda daxili qarışıqlıqlar ucbatından onların bu regiondakı mülkləri ən "zəif bənd"dir və asanlıqla əldən çıxa bilər. Ona görə də, Xəzər dənizinin qərb sahilləri boyunca cənub istiqamətində İran körfəzinə doğru hərbi yürüşə başlamaq lazımdır.

Rusiya hakimiyyətinin nüfuzunu yayan agentlərin bu regiona soxulmaq üçün ilk cəhdləri də elə həmin vaxt başlandı. Bu qisimdə cəlb edilmiş

erməni icmaları icraçıların geniş spektrini təqdim etmişdilər: tacirlər, kəşfiyyatçılar, rahiblər, silahlı quldurlar və s. Bu "hörümçək toru"nun fəaliyyətinə Alban (Aqvan) Kilsəsinin Qandzasar Katolikosluğunun başçıları rəhbərlik edirdi. Onlar Pyotrla "xüsusi" münasibətlər qurmuşdu və bu münasibətlərdən Rusiyanın hakim strukturlarına soxulmaq üçün istifadə edirdi.

Tezliklə bəzi hərbi ekspedisiyalarda, o cümlədən I Pyotrun İrana yürüşü başlandı, Rəşt, Salyan və Bakı işğal edildi. Rusiyanın bu istiqamətdə ekspansiyasının "qanuni" olmasını əsaslandırmaq üçün rossların hələ X əsrdə bu regiona keçməsi, daha doğrusu, onların qədim Azərbaycan şəhəri Bərdəyə quldur basqını haqqında qədim əfsanələrə və salnamələrə istinad edirdilər. Rusiya "tarixçiləri"nin "kəramətindən" varyaq-rossların adı onunla həmqafiyə səslənən "russlar" kimi təqdim edilirdi. Bu fenomen hətta varyaqların (vikinqlərin) bu basqınını poetik formada təsvir etmiş böyük Azərbaycan şairi Şeyx Nizami Gəncəvinin ("Gəncəvi" təxəllüsü Nizaminin əslən Gəncədən olduğunu göstərir), əsərinin "elmi" şərhlərində də öz əksini tapmışdır. Qeyd etmək lazımdır ki, şimallı quldurlar bu çiçəklənən diyara tez-tez basqın edirdilər, amma soyğunçu yürüş xarakteri daşıyan bu basqınların məqsədi regionun ərazisini yenidən bölüşdürmək deyildi.

Beləliklə, XVIII əsrdə Rusiya hakimiyyətinin Zaqafqaziyaya nüfuz etmək məqsədi güdən ciddi və uzunmüddətli cəhdləri I Pyotrun dövründə başlandı və onun nəticəsi I Pavelin dövrünə qədər davam etdi. Onların səma himayəçiləri, müvafiq surətdə, Apostol Pyotr və Apostol Pavel idi. Amma Pyotr bu ərazinin hər hansı bir bəhanə ilə silah gücünə tutulmasını zəruri hesab edirdisə, Pavel vassallığa üstünlük verirdi. Bu halda Pyotr özünü xaçpərəstlərin "azad olması" uğrunda savaşan bir əsgər kimi qələmə verir, Pavel isə Zaqafqaziyanın, o cümlədən müsəlman diyarlarının qanuni hökmdarlarına sədaqət bəyan edirdi. Lakin bu şərtlə ki, onlar Paveli özlərinin süzereni hesab etsinlər. Başqa sözlə desək, Pavel belə güman edirdi ki, gürcü çarları və knyazları, həmçinin Şimali Azərbaycan xanları onun dəstəyi ilə regionun üç fövqəldövləti - İran, Osmanlı və Rusiya İmperiyaları arasında bufer dövlətlərinin Sahibi ola biləcəklər.

Onu da əlavə etmək lazımdır ki, Rusiyanın bu regionda bərqərar olmaq cəhdləri ilə əlaqədar tətbiq edilmiş yanaşmaların fərqlərinə baxmayaraq, XVIII əsrdə bu cəhdlər radikal nəticəyə müvəffəq olmadı. 1783-cü ildə II İrakli ilə Georgiyevsk traktatı bağlanmasını bu istiqamətdə yeganə əhəmiyyətli irəliləyiş hesab etmək lazımdır. Həmin traktat,

məcazi mənada desək, Rusiya üçün Zaqafqaziyada qanuni “cığır açdı”.

I Pyotrun dövründə erməni icmasından olan İzrael Ori kimi ayrı-ayrı fırıldaqçılarla əməkdaşlıq başlanmışdısa, I Yekaterinanın, II Pyotrun, Anna İohannovnanın, VI İohann Antonoviçin, Yelizaveta Petrovnanın və III Pyotrun dövründə Qandzasar katolikosunun yaxın ətrafındakı rusiyapərəst sirdaşların əhatə dairəsi əhəmiyyətli dərəcədə genişlənmişdi. Onlar tədricən Zaqafqaziya “tarixi”nin bütün məsələləri üzrə Rusiya hakimiyyətinin elitasının əsas məsləhətçilərinə çevrilmişdilər. Məhz həmin məsləhətçilər Rusiyada ictimai rəyi və nəticə etibarilə Rusiya hakimiyyətinin gürcülərə, yunanlara, yəhudilərə, osetinlərə, abxazlara və Zaqafqaziyanın çoxsaylı müsəlman xalqlarına real münasibətini formalaşdırmağa başladılar. **Xüsusən yəhudilərə və müsəlmanlara münasibət həmişə neqativ idi.** Eyni zamanda, onlar nəinki həmhüdud dövlətlərin ərazisində, həm də bütün Avropada lazımlı informasiya toplamaqla məşğul olan erməni icmalarının nümayəndələri ilə sıx qarşılıqlı fəaliyyəti təmin edirdilər.

**II Yekaterinanın dövründə erməni Qriqorian Kilsəsinin Eçmiədzin katolikosunun nümayəndələri ilə rəsmi əlaqələr yaradıldı. Bununla da Rusiya hakimiyyətində spesifik “məsləhətçilərin” sayı kəskin şəkildə artdı. Onların fəal köməyi ilə tezliklə II İrakli Georgiyevski traktatını bağlayır və əgər bu münasibətlə Tiflisdə təşkil edilən təntənəli şənliklərin təsvirlərini diqqətlə təkrar oxusaq, belə bir qəti fikir yarana bilər ki, bu hadisəni bayram edənlər əsasən şəhərin erməni icmasının və Eçmiədzin katolikosunun nümayəndələri idi.**

**Bütün XVIII əsrdə İranın və Osmanlı İmperiyasının erməni icmalarının Rusiya ilə qarşılıqlı münasibətlərini qiymətləndirərək aşağıdakı fikri söyləmək olar.**

**Erməni icmaları Rusiyanın Ali hakimiyyətini daim cənub qonşularının böyük ərazilərini ələ keçirməyə sövq edirdi. Ümumrusiya İmperatorları bu torpaqların Sahibi, ermənilər isə İmperatorlara xüsusi “sədaqətləri ” ilə seçilən xidmətçilər olmalı idi.** Erməni icmalarının nümayəndələri bu ünsiyyət prosesində Rusiyada qərarlar qəbul edilməsinin əsas mexanizmlərini öyrənmiş və onların idarə edilməsi üsullarını axtarmağa başlamışdılar. Nəticə etibarilə, **Rusiya Elitasına təsir göstərən erməni strukturu yaranmışdı**. Onu da əlavə etmək lazımdır ki, **İranın və Osmanlı İmperiyasının Hakim Elitalarında da müvafiq** təsir dairələrinə malik olan və daha çox inkişaf etmiş **analoji erməni strukturları mövcud idi. Asanlıqla güman etmək olar ki, bu strukturlar qarşılıqlı uzlaşdırılmış şəkildə fəaliyyət göstərirdi.**

Belə bir sual yaranır — uzlaşdırmanın xarakteri və dərəcəsi haqqında qərarları kim qəbul edirdi? Cavab aşkardır! Hər halda, bu qərarlar İranın, Osmanlı və Rusiya İmperiyalarının Hakim Elitalarında qəbul edilmirdi. Bu halda uyğunlaşdırma proseduru o qədər ətraflı düşünülmüşdü ki, həmin üç fövqəldövlətin heç birində özlərinin "ən sədaqətli" vətəndaşları barədə heç vaxt zərrə qədər də şübhə yaranmırdı. Yalnız dövlət səviyyəsində fəlakətdən sonra duman dağıldı, amma artıq çox gec idi. Xüsusən ona görə ki, kampaniyanı uduzmuş dövlətin erməni icmalarının ifşa olunmuş üzvləri dərhal qalib gəlmiş ölkənin "ən sədaqətli" vətəndaşlarına çevrilirdilər. Bu texnologiya iki Rusiya-İran və bir neçə Rusiya-Türkiyə müharibəsinin baş verdiyi növbəti, XIX əsrdə, xüsusilə əyani şəkildə göründü. **Amma bu artıq başqa əhvalat idi...**

**XVIII əsrdə Rusiyanın milli və dini siyasətini bütövlükdə qiymətləndirərək demək olar ki, Zaqafqaziyada müəyyən imtiyazlara malik olan "rusiyapərəst" erməni strukturu yaranmışdı. Bu struktur de – yure Pravoslav fövqəldövlətin xeyrinə, amma de-fakto – hər şeydən əvvəl öz xeyrinə fəaliyyət göstərirdi. Həmin struktur bu müddətdə yaltaqlığın və bahalı hədiyyələrin köməyi ilə Rusiya Siyasi Elitasında "yüksək nüfuz" qazanmağı bacarmış, Elita da öz növbəsində, onu hətta pravoslav gürcülərdən və yunanlardan də üstün tutmağa başlamışdı.**

**Rusiya Ali Hakimiyyətinin ayrı-ayrı nümayəndələri regionu fəth etməyin "lazımlı metodlarına" bu "məsləhətçilərin" gözləri ilə baxmağa başladılar. "Məsləhətçilər" isə Rusiya Elitası üzərində spesifik "beyinlərin yuyulması" əməliyyatından sonra ona yəhudiləri və müsəlmanları regiondan sıxışdırıb çıxarmağın "tamamilə zəruri" olmasını təlqin etməyə başladılar.** Yəhudiləri və müsəlmanları öz doğma yerlərini tərk etməyə və həmhüdud ölkələrə köçməyə məcbur etmək üçün mümkün olan hər bir tədbir görülürdü. Eyni zamanda, regionun "düzgün" tarixini formalaşdırmaq üçün fəal iş aparılırdı, həmin tarix gələcəkdə hamını Rusiya Ali Hakimiyyətinin "müdrikliyinə" inandırmalı və Rusiya təfəkkürünün stereotipi kimi, İslamın təhrif edilmiş obrazını formalaşdırmalı idi.

Beləliklə, konkret dövrdəki konyunkturdan asılı olaraq, Zaqafqaziyanın tarixinin "lazımlı" versiyalarının təməli qoyulurdu. Bircə bunu əlavə etmək qalır ki, bütün bunlar müsəlmanlara qarşı yönəlmiş həmin versiyalar bir-birindən yalnız bunun müxtəlif dərəcəsi ilə fərqlənirdi.» (bax: E.Məmmədli "Karabaxskaya saqa", Moskva, 2010)

"Tarixi vərəqləyərkən...". Bu fəsli belə adlandırmağımız heç də

təsadüfi deyil. Məqsədimiz keçmişin tarixi xronologiyasına ötəri nəzər salmaq, yaddaşlarımızı təzələmək, tarixə yanaşma tərzini saf-çürük etməyi tövsiyə etmək idi. Azərbaycan, onun torpaqları, təbii sərvətləri, maddi və mənəvi dəyərləri bütün əsrlər boyu yadellilərin maraq dairəsində olub və bu gün də belədir. Yaşadığımız dövrün tarixini yazmalı, gələcək nəsillər üçün arxivlərimizi zənginləşdirməliyik. Bu gün həyat bunu tələb edir.

İndi isə qayıdaq yaxın keçmişimizə. Ötən əsrdə Azərbaycanda xalqımıza qarşı erməni millətçilərinin törətdikləri terrorlar, cinayətlər, zaman-zaman işğal etdikləri torpaqlarımızda maddi, mənəvi, mədəni sərvətlərimizi məhv etmələri, mənimsəmələri faktlarını araşdırıb qiymət verərkən, diqqətimizi Leyla xanım Əliyevanın şəxsində "Xocalıya Ədalət!" Beynəlxalq təbliğat və məlumatlandırma kampaniyası çərçivəsində həyata keçirilən humanist, nəcib fəaliyyətləri cəlb etdi. Bu istiqamətdə də araşdırmalarımızı davam etdirdik. "Xocalıya Ədalət!" kampaniyası, artıq, beynəlxalq aləmdə erməni separatizminə, beynəlxalq terrorun bir qolu olan erməni terroruna qarşı ən ciddi, inandırıcı, təsirli bir mübarizə forması kimi nüfuz qazanmaqda idi. Araşdırmalarımızın nəticələri ümidverici və sevindirici oldu. Nəhayət, qərara gəldik ki, erməni vandalizmini, terror aktlarını, Ermənistanın işğalçı, təcavüzkar dövlət olduğunu sübut və ifşa edən materialları bir yerə toplayıb, ermənilərin bəd əməllərini cəsarətlə dünya ictimaiyyətinə yayan, haqsızlıqlara qarşı mübarizə kampaniyasını aparan Leyla Əliyevanın "Xocalıya Ədalət!" çağırışının uğurlu nəticələrini ümumiləşdirib kitab yazaq və bu kitabı kampaniyanın yaradılmasının beş illiyinə həsr edək. Elə də etdik. Qarşınızdakı kitabı Xocalı soyqırımının 22-ci ildönümü ərəfəsində bitirib, Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Hüquqları İnstitutu Elmi Şurasının qərarı və "Xocalıya Ədalət!" Beynəlxalq təbliğat və maarifləndirmə kampaniyasının razılığı ilə nəşr etdirdik.

Kitabda, artıq qeyd etdiyimiz kimi, Leyla Əliyevanın "Xocalıya Ədalət!" Beynəlxalq təbliğat və məlumatlandırma kampaniyası terrora məruz qalmış insanların haqlarının müdafiəsində dünya xalqlarını, dünya birliyini humanizmə, ləyaqətə, nəcibliyə, vicdana, haqqa, ədalətə, yüksək mənəvi dəyərlərə səsləyən strateji bir model kimi bütün dünya xalqları üçün, o cümlədən bütöv Azərbaycan üçün bəşər tarixində rolu əvəzolunmaz olacaqdır. Yaşadığımız yüzillikdə dünyamızın belə bir xeyirxah çağırışa ehtiyacı olduğunu, bu gün nə dərəcədə böyük əhəmiyyət kəsb etdiyini gələcəkdə tarix özü təsdiqləyəcəkdir. Fakt, sənəd və sübutlar toplusu olan bu kitabda erməni terrorçularının müxtəlif dövrlərdə, xüsusilə ötən əsrin son illərində, Ermənistan və onların

havadarlarının köməyi ilə Azərbaycan torpaqlarında - Bakıda, Sumqayıtda və işğal olunmuş Dağlıq Qarabağ ərazisində, o cümlədən, Xocalı yaşayış məntəqəsində törətdikləri kütləvi qırğınlardan, vəhşiliklərdən, soyqırımdan bəhs edilir. "Xocalıya Ədalət!" əslində "Azərbaycana Ədalət!" deməkdir və bütün bəşər xalqları üçün ədalət istəyidir. Bu istək qandan, ürəyin diktəsindən görülən şərəfli iş, müqəddəs amaldır.

Kitabın üçüncü cildi bütövlükdə "Xocalıya Ədalət!" Beynəlxalq təbliğat və məlumatlandırma kampaniyasının beş illik fəaliyyətinə həsr edilmişdir. Bu kitab Vətənə, torpağa, millətə, dövlətə sülh, əmin-amanlıq, haqq-ədalət istəyi kimi çətin, lakin şərəfli bir missiyanın öz çiyinlərinə götürüb, layiqincə həyata keçirən "Xocalıya Ədalət!" kampaniyasının təşəbbüskar və fəallarına fəaliyyətlərinin beş illiyi münasibəti ilə müəlliflərinin hədiyyəsidir. Güman edirik ki, dünyada terrora və zülmə, işgəncələrə və amansız qətliamlara qarşı mübarizədə etiraz səsini ucaldanlara zəngin fakt və sənədlərlə, sübutlarla əhatələnmiş bu kitab tarixi həqiqətlər toplusu kimi önəmli töhfədir.

Kitabın nəşri, eləcə də peşəkar tarixçi olmayan şəxslərin elmi dövriyyəyə təzə ideyalar və baxışlar daxil etməyə çalışacaqları maarifçilik layihəsi kimi düşünülmüşdür. **Vətən tarixinin təəssübkeşləri olan insanlar üçün bizim keçmişimizi qorumaq həyat prinsipidir.**

## İSTIFADƏ OLUNMUŞ ƏLAVƏ ƏDƏBİYYATIN SİYAHISI


1. Azərbaycan Respubliksının Konstitusiyası. Bakı.2009.
2. Brussel. Nitsa Müqaviləsi. 2001-ci il, 26 fevral.
3. Mehdiyev R.Ə. "Demokratiya yolunda: irs haqqında düşünərkən". Bakı, 2006.
4. Suleymanova E.T. "Azərbaycanda insan hüquqlarının və azadlıqlarının təmin edilməsi və müdafiəsinin vəziyyəti". Bakı.2004.
5. Г.Чалхуширян. Тифлис, 1920г. «Красная книга» стр.20-65.
6. «Обращение» (Обращение Л.Гюльбекяна к «Национальному Армянскому Бюро». 1912г. Москва. «Бюллетень»№6 (на русском языке)
7. Э.Завриев. «Генерал Андроник: письма о встречах» 1920г. М.., стр.43-49.
8. Католикос Геворг V: «Письма Царю Николаю» 1915г. М.., газета «Звезда» № 9.
9. «Внешнеполитические документы СССР»: 1-й том, 1957г. М. стр.459-470
10. Г.Абов. «Дашнакцутюн: до и после». Госиздат Армении, 1965г. Стр.72. (на русском языке)
11. ARDA, F.106, siy.1,iş 108, v.7
12. «Новый Восток», 1922г. №3, стр.184
13. ARDA, F.894, s.10, iş 103, v. 10-19.
14. «Наш Голос», 24 марта 1918г.
15. «Борьба», 3 марта 1918г.
16. «Азербайджан», 28 мая, 1918г.
17. С.Голиков, «Бюро». М…, 1968г. Стр.93-97.
18. Г.Демченко. «Канцелярии Бюро». Л…, 1971г. Стр.19-61.
19. «Зеркало». 2012г. 10 марта.
20. Л.М.Петровский: «Войны» М…, 1976г. стр.26-31.
21. «История Азербайджана по документам и публикациям» Баку, «Элм», 1990г.стр.85-97
22. «Дашнаки (из материалов департамента полиции)». Баку, 1990г.стр.19-26.
23. «Колониальная политика Российского царизма в Азербайджане» М…, 1937 г. Стр. 276.

24. Bax: 1918-ci il Şamaxı qırğınlarına dair Tehran, Dəməşq, Bağdad, Beyrut milli kitabxana-arxivlərindəki 206, 476, 382 saylı qovluqlar. Əlavə: «Zerkalo» qəzeti №43, 10 mart 2012.
25. Fövqəladə təhqiqat komissiyasının sədri Ə.Xasməmmədovun ədliyyə nazirinə məruzəsi:(22 noyabr 1918-ci il. Bakı ş. Əlavə: «Xalq» qəzeti 16.03.2001.)
26. «История Азербайджана по документам и публикациям» Bakı, «Elm» nəş. 1990.
27. «Agence Economique et financiere» («İqtisadiyyat və maliyyə agentliyi qəzeti») 1914-cü il Paris.
28. Денстервиль М. «Британский империализм в Баку и Персии. 1917-1918» (Воспоминания) Перев. С анг. Б.Руденис. Тифлис. 1925. ст.105-193.
29. «Связь Бакинского Совета с армянскими дашнаками в период мартовских событий 1918г.» Баку, Азернешр. 1995. с. 235.
30. MDTA, f 894, siy.2, iş 102.
31. Геюшов З.Б. Доклады АН Азерб.ССР. 1963,№10
32. «Каспий», 1июля 1906г.
33. «Каспий», Госдума (Стенографические отчеты. Сессия первая. 1906, СПБ, т.2, стб. 1228-1231.
34. «Azərbaycan tarixi» VII-cild, Bakı, «Elm» nəşr. 2001.
35. «İşgəncələrə dair Beynəlxalq Pakt»ın sənədlər toplusu. (BMT Baş Məclisinin 2200A. nömrəli qətnaməsi. AR-sı 1992-ci il, 21 iyulda bu pakta qoşulub.)
36. «İşgəncələrə dair BMT Konvensiyası. (1987-ci il 26 iyunda qüvvəyə minib. AR-sı 1996-cı il mayın 31-də bu Konvensiyaya qoşulub.)
37. AMDA, f. 276, s.2, ş.155.
38. Yenə orada, iş 155, v.8.
39. Yenə orada, f. 1061, siyahı 1 s, iş 45, v. 1.
40. Yenə orada, f. 277, s. 2, iş 16. v. 6.
41. Yenə orada, f. 970, s. 1, iş 161, v. 8.
42. Tehran Milli Kitabxanası, «Ənzəli qovluğu». 1950-ci ildə qoyulub. R.49, 632 saylı qovluq, s.63-76.
43. RF-nin MN. «Qırmızı Arxiv» – «Xüsusi Qovluq» QN. SŞ.-201, №209.
44. Yenə orada, OSD – 609, №303. (Polkovnik İ.D.Dunayevskinin, A.A.Belovun tərtib etdiyi arayışlar).

45. S.Paray «Acı səyahətim». Bağdad kitabxanasının «Salam və Sultan» qardaşları mətbəəsində 1919-cu ildə çap edilib. Əlavə bax, Təbriz kitabxanası.
46. AR-nın Konstitusiyası. Bakı, 1996.
47. «Mərkəzi Asiya və Qafqaz» jurnalı, İsveç, 1998. № 1,4.
48. «Büro» . «Dr.Zarviqarovun sənədləri» Tiflis, 1936.
49. «Şamaxı. 1918-ci il, Poçt-teleqraf sənədləri» (Qovluq RF-nin MN-nin arxivində saxlanılır. UD. US. – «Qafqaz» – 420, № 708.)
50. A.İsmayılov. «Сумгаит начала распада СССР». Bakı 2010.
51. E.Məmmədli. «Карабахская сага», Moskva, 2010.
52. İ.Məmmədov. "Sumqayıt". Bakı, 2013.
53. A.V.Səmədov, «Механизмы влияния Российской Федерации на разрешение конфликтов на Кавказе", Bakı, 2007.

# MÜNDƏRİCAT

Heydər Əliyev: Siz xalqımın səsini eşidəcəksiniz, xalqımın səsi ürəklərinizə yol tapacaqdır ... 6
Xocalı soyqırımının iyirminci ildönümü haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ... 17
Xocalı qırğınlarında dinc əhaliyə verilən işgəncələr ... 19
Xocalılara verilən işgəncə növləri ... 28
«Xocalıya Ədalət!» tarixi zərurətdən yarandı ... 40
Yeni yüzilliyin ədalət çağırışı ... 45
«Xocalıya Ədalət!» çağırşının siyasi coğrafiyası ... 51
«Xocalıya Ədalət!» çağırışında mədəni irsin qorunması ... 53
Azərbaycan diplomatiyasında yeni siyasi başlanğıc ... 57
Xocalı: İnsanliğa qarşı cinayət... ... 62
«Xocalıya Ədalət!» çağırışı: beynəlxalq terrora və müharibəyə qarşı qəhrəmanlıq abidəsi ... 65
Qırğın həmin qırğın idi. Xocalıya qədər yaşananlar ... 71
Xocalıdan əvvəlki cinayətlər: Eyni ssenarilər. Şamaxı: «kəsilən nəsillər, yandırılan meyitlər». ... 85
Şamaxi: 100 il «məxfi qrif» altında ... 98
1918-ci il mart qırğınlarında Şamaxıda yerli əhaliyə verilən erməni işgəncələri ... 104
Rus İmperiyasının Birinci Dövlət Dumasındakı Şamaxı izi ... 119
Ermənilərin ədalətsiz yürüşü ... 128
«Xocalı»dan əvvəl «bəylik bağı»nda qətliam ... 137
«Çöl quşları» – muzdlu snayperçilərinin Xocalıda törətdikləri faciə ... 144
"Haydad"ın Azərbaycana qarşı təxribat proqramı ... 149
"Haydad" separatçi təşkilati və beynəlxalq terror qruplaşmaları Xocalıda ... 150
"Erməniləşdirilən və Bəşəriyyət üçün təhlükəyə çevrilən Qarabağ ... 159
İşğal olunmuş ərazilərimizə gələn Erməni köçü ... 170
Xocalı Soyqırımında "Əl-Qaida"nın izləri ... 172
"Vadi əl-Kaid" Yerevanda və Kəlbəcərdə ... 174

Nəzarətsiz zonanın – işğal olunmuş Dağlıq Qarabağın erməni terrorçuları...175
Əsir uşaqların satılması...178
Metronun partladılması plani Livan görüşlərində...179
Terrorçu erməni qadınları...185
Vertolyot faciəsi...190
Heç vaxt sönməyən Xocalı...195
Xüsusi separatçı qruplar...204
Xocalı terroru üçün maliyyə...208
Etnik təmizləmədə və Xocalı Soyqırımında "Astarcanyan layihəsi"...221
"ASALA" Terror təşkilatının Azərbaycana qarşı fəaliyyət proqramı...226
«Xocalıya Ədalət!» «ASALA» Erməni terror təşkilatına qarşı...228
Terrorçuların əməkdaşlığı...233
Terror düşərgələri...245
Torpaqlarımız hərraca qoyulur...250
Erməni separatçılarının yeni iddiaları...256
«Dairə» – ekoloji fəlakətin erməni planı...262
*Xocalı soyqırımı zamanı qətlə yetirilmiş azyaşlı və yetkinlik yaşına çatmayan azərbaycanlıların siyahısı...269*
*Xocalı soyqırımı zamanı ermənilər tərəfindən işgəncə və amansızlıqla qətlə yetirilmiş şəxslərin siyahısı...273*
*Xocalı soyqırımı zamanı güllələnmiş şəxslərin siyahısı...276*
*Xocalı soyqırımı zamanı ermənilər tərəfindən qətlə yetirilmiş naməlum şəxslərin siyahısı...288*
*Xocalı rayonu Kərkicahan qəsəbəsi üzrə ermənilər tərəfindən qətlə yetirilmiş şəxslərin siyahısı...291*
*Xocalı rayonu Kosalar kəndi üzrə ermənilər tərəfindən qətlə yetirilmiş şəxslərin siyahısı...292*
*Xocalı rayonu Cəmilli kəndi üzrə ermənilər tərəfindən qətlə yetirilmiş şəxslərin siyahısı...293*
*Erməni hərbçiləri tərəfindən əsir götürülmüş və aqibətləri barədə heç bir məlumat olmayan şəxslərin siyahısı...294*
*Xocalı soyqırımı zamanı diri-diri yandırılmış şəxslərin siyahısı...295*
*Xocalı soyqırımı zamanı ermənilər tərəfindən əsir götürülmüş və bu gün də itkin olan şəxslərin siyahısı...298*

*Erməni əsirliyində olduğu müddətdə erməni quldurları tərəfindən mütəmadi olaraq verilmiş işgəncə və əzablar nəticəsində aldıqları xəsarətlərin təsirindən vəfat etmiş azərbaycanlıların siyahısı ............................................................... 310*
*Erməni quldurları tərəfindən 15-17 fevral 1992-ci il tarixdə qətlə yetirilmiş Qaradağlı kənd sakinlərinin siyahısı .................................................. 311*
«Xocalıya Ədalət!» çağırışında bütov Qarabağ istəyi ...................................... 316
Xocalıda erməni işğalçıları tərəfindən güllələnmiş uşaqlar ............................. 322
Erməni separatçısının acı etirafı ...................................................................... 325
Dağlıq Qarabağın iqtisadiyyatında yeni əsas investisiyalar .............................. 332
Təcavüzkar, işğalçı Ermənistanın Azərbaycanda soyqırım planı ...................... 334
Söz ardı ............................................................................................................. 359
İstifadə olunmuş əlavə ədəbiyyatın siyahısı ...................................................... 368

**VASİF SƏMƏDOV, RÖVŞƏN VƏLİZADƏ**

**LEYLA ƏLİYEVA: "XOCALIYA ƏDALƏT!"**
**(BEYNƏLXALQ ERMƏNİ TERRORUNA**
**QARŞI YENİ STRATEJİ MODEL)**

Yığılmağa verilib: 09.12.2013.
Çapa imzalanıb: 10.02.2014.
Formatı 70x100 $^{1}/_{16}$. Həcmi 23.5 ç. v. Sayı 1000.
Qiyməti müqavilə ilə.

*Kitablar hazırlanarkən, Respublika Baş Prokurorluğunun, MTN-nin, DİN-nin birgə yaratdıqları "İstintaq qrupu"nun materiallarından və "AzərTAc"-ın foto-arxivindəki şəkillərdən istifadə edilmişdir. Müəlliflər kitabların hazırlanmasında əməyi olan, qayğısını əsirgəməyən şəxslərə və təşkilatlara, o cümlədən Azərbaycan MEA-nın İnsan Hüquqları İnstitutunun əməkdaşlarından F.Kərimova, N.Fərəcovaya, E.Orucovaya, A.Mustafayevə, Bakı Slavyan Universitetinin doktorantı S.Hüseynovaya təşəkkür edib, minnətdarlıqlarını bildirirlər.*

Texniki redakor: Cəsarət Qasımov
Korrektor: İradə Səmədova

CBS POLYGRAPHIC PRODUCTION
Tel:447-75-05, Faks: 447-75-04

**mətbəəsində çap olunmuşdur**